AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 8

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2025

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, akademik Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, prof.Dr.Uzok Jurokulov (Özbəkistan), filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Paşa Kərimov.

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2025, №8

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2025

www. filologiyameseleleri.com

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

DİLÇİLİK

VALEH BAYRAM OĞLU NƏSIBOV
Bakı Dövlət Universitetinin Qazax filialının
dosenti, filologiya elmləri doktoru
E-mail: valehnasibov61@gmail.com

VƏSILƏ MAHMUD QIZI HACIYEVA
Bakı Dövlət Universitetinin Qazax filialının
baş müəllimi
E-mail: Haciyevavesile@gmail.com

AZƏRBAYCAN, RUS VƏ INGILIS DILLƏRINDƏ HAL QRAMMATIK KATEQORIYASINA DAIR

Xülasə

Məqalədə üç müxtəlifsistemli dillərdə (Azərbaycan, rus, ingilis) ismin hal kateqoriyasının mənası və ifadə vasitələrinin müqayisəli-tipoloji təhlili aparılır. Mövzunun aktuallığı həm elmi-nəzəri, həm də didaktik cəhətdən əsaslandırılır.

Müqayisəli-tipoloji təhlil nəticəsində əldə olunan faktlar sübut edir ki, ismin hal kateqoriyası ümumdil hadisəsidir, qrammatik quruluşundan asılı olmayaraq o bütün dillərdə mövcuddur. Fərqlər yalnız onların sayında və ifadə üsullarında özünü büruzə verir. Hər üç dildə ilk 4 hal mənalarına görə təkrarlanır, yerlik, çıxışlıq hal isə öncəki hallar vasitəsilə ifadə olunur.

Açar sözlər: *hal kateqoriyası; müqayisə; oxşarlıqlar; fərqlər; didaktika.*

Hal qrammatik kateqoriyası ümumdil kateqoriyasıdır, qrammatik strukturundan asılı olmayaraq məntiqlə bütün dillərə məxsusdur, lakin o, flektiv dillərdə bir cür, iltisaqi dillərdə bir cür, analitik, amorf dillərdə isə başqa cür öz ifadəsini tapır. Bu dillərdə hal formalarının sayı və mənaları da müxtəlifdir, lakin onların ilk 4 forması: Adlıq hal – Именительный падеж − Nominative Case; Yiyəlik hal – Родительный падеж − Genitive Case; Yönlük hal – Дательный падеж − Dative Case; Təsirlik hal – Винительный падеж − Accusative Case [1; 3] bütün dillərdə mövcuddur. Son iki hal bu dillərdə müxtəlif cür adlanır və ilk 4 hal daxilində ifadəsini tapır. Azərbaycan dilində yerlik hal rus dilində «творительный падеж», bəzi keçmiş ingilis dili mənbələrində «Instrumental Case» adlanır. Azərbaycan dilindəki çıxışlıq hal rus dilində «предложный падеж» adlanır, ingilis dilində isə bu hal forması ümumiyyətlə qeyd olunmur.

Müasir ingilis dilində hal-hazırda 2 əsas hal forması: ümumi / subyekt (Subjective Case) və obyekt (Objective Case) hal formaları ayrılır. Bunlardan başqa, ingilis dilində yiyəlik hal (Possessive Case) forması da ayırırlar.

Bu mövzunun 3 müxtəlifsistemli (Azərbaycan, rus, ingilis) dillərin mövqelərindən müqayisəli şəkildə nəzərdən keçirilməsi müəyyən məsələlərə işıq sala bilər.

Hal kateqoriyası nitqdə isimlərin digər sözlərə olan münasibətini bildirir. İsimlərin qrammatik kateqoriyası dünyanın bütün dillərinə məxsusdur, lakin ingilis dilində sözügedən məsələ bu dilin nəzəri qrammatikası ilə məşğul olan müxtəlif alimlərin çoxlu sayda tədqiqat əsərlərinin predmeti olaraq mübahisəli və çoxmənalıdır.

İngilis dilinin digər kateqoriyalarından, məsələn, dəqiq ifadəli kəmiyyət kateqoriyasından, yəni əşyanın təklik və çoxluq qarşılığından fərqli olaraq bu dildə hal kateqoriyasının təyin olunması bəzi çətinliklərlə üzləşir. İngilis dilində bu kateqoriyanın yalnız nə bildirməsi yox, həm də onun qrammatik kateqoriya kimi mövcudluğu sual altına alınır [2].

Məlumdur ki, hal kateqoriyası dil və nitq, həmçinin morfologiya və sintaksis arasında sıx əlaqəni göstərən əsas kateqoriyalardan biridir. Onu danışıqda isimlərin digər sözlərə münasibət bildirən qarşıdurma sistemi kimi təyin etmək olar [4].

«Hal münasibətləri anlayışı altında bu münasibətlərin müxtəlif məna çalarları vasitəsilə ətraf mühitin əşya və hadisələri arasındakı əlaqələr başa düşülür» [5, s. 279]. Hal münasibətləri isim substansiyasının (əşyanın) digər substansiyalara, gerçəklikdəki hərəkətə, vəziyyətə münasibətini özündə əks etdirir. Məsələn, *She is my friend's mother* (*O mənim dostumun anasıdır*) cümləsindəki *friend* isminin halı *mother* isminə olan münasibəti bildirir, bu da nəticədə isimlər arasında münasibət deməkdir.

Hal qrammatik kateqoriyasını nitqdə isimlərin digər sözlərə münasibətini göstərən qarşıdurma sistemi kimi nəzərə alsaq, demək olar ki, bu kateqoriyanın müəyyən olunmasında bir neçə (minimum iki: ümumi və yiyəlik) hal formasının, məsələn *day – day's* olması nəzərdə tutulur. Lakin bu barədə tədqiqatçıların fikirləri fərqlənir, ingilis dilində hal qrammatik kateqoriyasına aid bir neçə yanaşma özünü büruzə verir:

1. İngilis dilində yalnız iki hal var: ümumi (The Common Case) və yiyəlik hal (The Possessive (Genitive) Case). Hal-hazırda alimlər daha çox bu fikri dəstəkləyirlər (M.Y.Blox, H.Svit, O.Yespersen, A.İ.Smirnitski) [6, s. 65-66].

2. Digər yanaşmaya görə, ingilis dilində ikidən çox halın olması söylənilir. Bu konsepsiyanın tərəfdarları hesab edirlər ki, ingilis dilində 3-dən 6-dək və daha çox hal forması qalmışdır. Bu, az populyar olan fikirdir və özündə «halın alternativ nəzəriyyəsini ehtiva edir (alternative case theorics)» (O.Kurm, M.Doyçbayn) [7, s. 79].

3. Hazırda bəzi alimlər hesab edirlər ki, ingilis dili öz tarixi inkişafı nəticəsində ümumiyyətlə hal kateqoriyasını itirmişdir (İ.P.İvanova, Q.N.Vorontsova, A.M.Muxin) [6, s. 105].

Fikrimizcə, ingilis dilində ismin hal kateqoriyası ətrafındakı bu mürəkkəb və mübahisəli vəziyyətə onun rus və Azərbaycan dilləri ilə müqayisəli təhlili nəticəsində müəyyən mənada aydınlıq gətirmək olar, çünki hər hansı bir xarici dilin öyrənilməsində onunla kontaktda olan dillərin qarşılıqlı müqayisəsi cümlədə sözlərin əlaqə vasitələrinin və üsullarının fərqinin və oxşarlığının aşkar olunmasına xidmət edir.

Xüsusi diqqət qarşılaşdırılan dillərin hal konstruksiyaları ilə ifadə olunan məna fərqlərinin linqvometodik təhlilinə ayrılmalıdır, çünki ingilis dilinin (birinci qeyri-doğma dilin) və rus dilinin (ikinci qeyri-doğma dilin) öyrənilməsinin əsas çətinlikləri məhz onların praktik mənimsənilməsi ilə bağlıdır. Nitqdəki ziddiyyət interferensiya mənbəyindən, bilinqvin xarici dilinə doğma dilin mənfi təsirindən irəli gəlir. Məqalədə araşdırılan problemin aktuallığı həm də bununla izah olunur.

Yuxarıda qeyd etdiyimiz kimi, hal kateqoriyası bütün dillərdə var, lakin onların ifadə formaları və vasitələri müxtəlifdir. Bu səbəbdən azərbaycanlılar üçün onun doğma dilindəki 6 hal formasının ingilis və rus dillərində işlədilməsi yollarının öyrənilməsi çox vacibdir. Gəlin tərcüməli müqayisə üsulu ilə bu məsələyə aydınlıq gətirək:

1. Hər üç dildə adlıq hal (Nominative Case, Именительный падеж) ***kim? nə? who? what? кто? что?*** suallarına cavab verir. Məsələn: *dost, друг, a friend; kitab, книга, a book.* İndi onları cümlədə işlədək: *Bu mənim dostumdur − Это мой друг − This is my friend; Bu, kitabdır − Это книга − It is a book.*

2. Yiyəlik hal Azərbaycan dilində ***kimin? nəyin?*** suallarına cavab verir (*dostumun, kitabın, Rusiyanın*). İngilis dilində bu hal (Genitive Case) ancaq ***whose?*** sualına, rus dilində ***кого? чего?*** suallarına cavab verir. Lakin Azərbaycan dilindəki ***kimin?*** və ingilis dilindəki ***whose?*** rus dilində ***чей? (чья? чьё? чьи?)*** kimi səslənir: *Bu kimin kitabıdır? – Чья эта книга? – Whose book is it?; Bu, dostumun kitabıdır – Это книга моего друга – This is my friend's book.*

3. Yönlük hal (Dative Case, Дательный падеж) Azərbaycan dilində ***kimə? nəyə?;*** rus dilində ***кому? чему?*****;** ingilis dilində ***whom? to whom?*** suallarına cavab verir: *Sən kitabı kimə verdin?– Кому ты отдал книгу? – To whome did you give the book?; Kitabı dostuma verdim − Я отдал книгу другу − I gave the book to my friend.*

4. Təsirlik hal Azərbaycan dilində ***kimi? nəyi?*****;** rus dilində ***кого? что?*** ingilis dilində ***who? what?*** suallarına cavab verir: *Sən kimi, nəyi görürsən? − Кого, что ты видишь? − Who, what do you see?; Mən dostumu, maşını görürəm – Я вижу друга, машину − I see my friend, a car.*

5. Azərbaycan dilinin ***kimdə? nədə?*** suallarına cavab verən yerlik halı rus və ingilis dillərində yoxdur, lakin onların mənalarını daşıyan hal formaları, ekvivalent

ifadə formaları mövcuddur: *Kimdə kitab var?– У кого есть книга? – Who has a book?; Sən mənim günahımı nədə görürsən? − В чём ты видишь мою вину? – In what do you see my fault?; Dostumda maraqlı kitab var − У моего друга есть интересная книга – My friend has an interesting book.*

6. Azərbaycan dilinin ***kimdən? nədən?*** suallı çıxışlıq halı da rus və ingilis dilində yoxdur, amma onların da bu dillərdə ekvivalent formaları vardır: *Sən bunu kimdən öyrənmisən? − У кого ты научился этому? – From whom did you learn this?; Mən bunu dostumdan öyrənmişəm − Я научился этому у друга – I learnd this from my friend; Sən nədən narazısan? − Чем ты недоволен? – What are you unhappy about?; Mən işimdən narazıyam − Я недоволен своей работой – I am not happy with my job.*

İndi hər bir haldakı fərqlərə diqqət yetirək:

1. Azərbaycan dilində adlıq halda *Bu, kitabdır; Bu mənim dostumdur* cümlələrində *dostumdur, kitabdır* isimləri xəbərlik şəkilçisi qəbul etmişdir, rus dilində isə indiki zamanda bu şəkilçinin yeri boş qalır, ingilis dilində isə bu şəkilçi ***is*** köməkçi feili ilə ifadə olunur, yəni ingilis və rus dillərində heç bir halda isimlər xəbərlik şəkilçisi qəbul etmir.

2. Azərbaycan dilində isimlərin ***-ın***[4] şəkilçili yiyəlik hal formaları (*dostumun, məktəbin*) rus dilinə ***-а, -я, -ы, -и*** şəkilçiləri ilə (*друга, школы*), ingilis dilinə isə apostroflu ***s*** şəkilçisi ilə (*my friend's, school's*) və ***of*** sözönü vasitəsilə (*of my friend, of the table*) tərcümə olunur. Məsələn: *Masanın ayağı sınıb − Ножка стола сломана – The leg of the table is broken*.

3. Azərbaycan dilinin ***-a***[2] ***(ya)***[2] şəkilçili yönlük halının yerinə rus dilində ***-у, -ю, -е, -и*** şəkilçili isimlər, ingilis dilində isə ***to*** sözönülü isim işlənir. Məsələn: *Zəhmət olmasa, bu telefonu mənim qardaşıma verin – Передайте, пожалуйста, этот телефон моему брату −Please, give this phone to my friend*.

4. Azərbaycan dilində ***-ı, -i, -u, -ü*** şəkilçili müəyyən təsirlik halına rus dilində ekvivalent kimi sıfır (şəkilçisiz) və ***-у, -ю, -а, -я*** şəkilçili isimlər, ingilis dilində də sıfır şəkilçili akkuzativ isimlər işlənir. Məsələn: *Qapını aç – Открой дверь – Open the door; Kitabı mənə ver – Дай мне книгу – Give me the book.*

Qeyri-müəyyən təsirlik halda hər üç dildə isimlər sıfır şəkilçi ilə işlənir, adlıq halla üst-üstə düşür: *Mən çay içirəm – Я пью чай – I am drinking tea.* Onların təsirlik halda olduğu cümlədə təyin olunur.

Azərbaycan dilinin ***kimdə? nədə?*** suallarına cavab verən obyekt mənalı yerlik hal isimlərinə rus dilində ***в ком? в чём?*** suallı «предложный падеж» adlanan hal uyğun gəlir: *İnsanda hər şey gözəl olmalıdır – В человеке* (в ком?) *всё должно быть красиво* və yaxud *У человека всё должно быть красиво*. İngilis dilində bu mənada ***in*** artiklli isimlər işlənir: *Everything in a person should be beautiful*.

Azərbaycan dilinin ***-dan***[2] şəkilçili çıxışlıq hal isimlərinin əvəzinə rus dilində ***от*** sözönülü, obyekt mənalı isimlər işlənir ki, onlar da bu dildə yiyəlik hal isimləri hesab olunur: *Taledən qaçmaq olmaz – От судьбы не убежишь.* İngilis dilində belə

isimlərin əvəzinə ***from*** artikli ilə yiyəlik hal isimləri işlənir: *There is no escape from fate.*

Azərbaycan dilində adlıq haldan başlayaraq yer adı bildirən isimlərə ***hara?*** sualı verilir: ***hara?*** *– ev, küçə, Bakı, şəhər, kənd, yer, göy, məktəb, sahil* və s. Məsələn: ***hara?*** *– yer, göy;* ***haranın?*** *– yerin, göyün;* ***haranı?*** *– yeri, göyü;* ***harada?*** *– yerdə, göydə;* ***haradan?*** *– yerdən, göydən* və s.

Rus və ingilis dillərində adlıq halın belə bir sualı yoxdur, bu dillərdə adlıq, yiyəlik, təsirlik hallarda yer bildirən isimlər də ***kim? nə? что? what?*** sualına cavab verir. Müqayisə edək: *Bakı* (hara?) *Azərbaycanın* (haranın?) *paytaxtıdır – Баку* (что?) − *столица Азербайджана* (чего?) – *Baku* (what?) *is the capital of Azerbaijan. Bakı haranın paytaxtıdır?* (What is Baku the capital of?); *Mən Bakını* (haranı?) *çox sevirəm – Я очень люблю Баку* (что?) – *I love Baku* (what?) *very much*.

Üç halda üç mənada həm Azərbaycan, həm də rus və ingilis dilində yer adı bildirən isimlər ***haraya? harada? haradan?*** suallarına cavab verir. Bunlar hərəkətin, hal-vəziyyətin hansı istiqamətdə olduğunu, yerini və haradan götürdüyünü bildirən hallardır. İngilis dilində də Azərbaycan dilində olduğu kimi ***haraya?*** sualına cavab verən isimlər yönlük halda (Dative Case) olur. Məsələn: *Mən kəndə* (haraya?) *gedirəm – I am going to the village* (where to?). Rus dilində isə ***haraya? (куда?)*** sualına cavab verən «istiqamət» mənalı sözlər ismin təsirlik halında olur: *Куда ты едешь? – В деревню; Куда ты идешь? – В театр*.

Azərbaycan dilində ***harada?*** sualına sualına cavab verən ismin yerlik halına rus dilində ***где?*** sualını cavablandıran ***в, на*** sözönülü «предложный падеж» («предлог» – sözönü deməkdir və bu hal rus dilində yalnız sözönüləri ilə işlənir) uyğun gəlir: *Sən harada yaşayırsan? – Bakıda. Где ты живёшь? – В Баку*.

İngilis dilində də yerlik hal forması işlənir. Bu hal bəzi mənbələrdə «Prepositional case» adlanır. O, ***in*** sözönü ilə işlənir və ***where?*** sualına cavab verir: *Where do you live? – I live in Baku.*

Azərbaycan dilindəki ***haradan?*** sualına cavab verən çıxışlıq hal isimlərinə rus dilində mənaca ***откуда?*** sualına cavab verən və ***с, из*** sözönüləri ilə düzələn yiyəlik hal (родительный падеж) forması uyğun olur: *Откуда ты идёшь? – С базара, от маркета.*

İngilis dilində də ***haradan? (from where?)*** sualına ***from*** sözönü ilə yiyəlik hal (Genitive Case) isimləri cavab verir: *Where are you coming from? – I am coming from the railway station.*

İngilis və rus dillərində ümumiyyətlə çıxışlıq adlı hal yoxdur. İngilis dilində bəzi mənbələrdə 5 halın adı çəkilir. Beşinci hal «Instrumental Case» kimi qələmə verilir, ***with (ilə (-la[2]))*** sözönü ilə düzəlir və hərəkətin hər hansı bir alət, vasitə ilə yerinə yetirildiyini bildirir. Məsələn: *He cut the apple with a knife – Adil was eating porridge with a spoon.* Rus dilində də bu mənada isimlər beşinci – «творительный падеж» adlanan halda olur və ***чем? (nə ilə?)*** sualına cavab verir: *Он разрезал*

яблоко ножом. Адиль ел кашу ложкой. Rus dilində bu halda həm də ***с*** sözönü ilə düzələn və ***с кем? (kim ilə?)*** sualına cavab verən birgəlik mənalı isimlər işlənir: *Он играл с друзьями в футбол.* Bu mənada isimlər də ingilis dilində ***with*** sözönü ilə «Instrumental Case» halda işlənir: *He was playing with football with his friends.* Azərbaycan dilində isimlər ***ilə (-la[2]))*** qoşmaları ilə adlıq hal formasında olur: *O, dostları ilə futbol oynayırdı.*

Rus dilində «предложный падеж» (sözönülü hal) ***о, об (haqqında)*** sözönüləri ilə hərəkətin obyekti mənasında da işlənir: *Я думаю о своих родителях.* Bu mənada isimlər Azərbaycan dilində ***haqqında*** qoşması ilə, ingilis dilində isə ***about*** sözönü ilə adlıq (Nominative Case) halda işlənir: *Mən öz valideynlərim haqqında düşünürəm – I am thinking about my parents*.

Yuxarıda deyilənləri müqayisəli cədvəl halına salmağa çalışaq:

Hal	**Azərbaycan dili**	**Hal**	**Rus dili**	**Hal**	**İngilis dili**
Ad. hal	*kim? – tələbə* *nə? – kitab* *hara? – Bakı*	***Им. пад.***	*кто? – студент* *что? – книга* *----------*	***Nom. case***	*who? – student* *what? – a book* *----------*
Yiy. hal	*kimin? – tələbənin* *nəyin? – kitabın* *haranın? – Bakının*	***Род. пад.***	*чей? – студента* *чего? – книги* *чего? – Баку, города* *откуда – из Баку*	***Gen. case***	*whose? – student's* *what? – of the book* *what? – of the Baku* *where from? – from Baku*
Yön. hal	*kimə? – tələbəyə* *nəyə? – kitaba* *haraya? – Bakıya*	***Дат. пад.***	*кому? – студенту* *чему? – книге* *----------*	***Dat. case***	*to whom? – to the student* *to what – to the book* *----------*
Təs. hal	*kimi? – tələbəni* *nəyi? – kitabı* *----------*	***Вин. пад.***	*кого? – студента* *что? – книгу* *куда – в Баку*	***Acc. case***	*who? – the sudent* *what? – the book* *where to? – to the Baku*
	kimdə? – tələbədə *nədə? –*		*----------* *----------* *----------*		*----------* *----------* *----------*

Yer. hal	*kitabda harada? – Bakıda*	***Тв. пад.***	*----------(с) кем? – (со) студентом (с) чем? – с книгой, ложкой*	***Inst. case***	*---------with whom? – with the student with what? – with the book, with the spoon*
Çıx. hal	*kimdən? – tələbədən nədən? – kitabdan haradan? – Bakıdan*	***Пред. пад.***	*----------о ком? – о студенте о чём – о книге где? – в Баку, в городе*	***Prep. case***	*----------about whom? – about the student about what? – about the book where? – in Baku, in city*

Cəm halda da hər üç dildə onların morfoloji quruluşundan asılı olaraq isimlərin hallanmağı fərqli olur.

Gəlin baxaq:

Hal	**Azərbaycan dili**	**Hal**	**Rus dili**	**Hal**	**İngilis dili**
Ad. hal	*tələbələr kitablar meşələr*	***Им. пад.***	*студенты книги леса*	***Nom. case***	*students books forests*
Yiy. hal	*tələbələrin kitabların meşələrin*	***Род. пад.***	*студентов книг лесов из лесов*	***Gen. case***	*of students of books of forests*
Yön. hal	*tələbələrə kitablara meşələrə*	***Дат. пад.***	*студентам книгам лесам*	***Dat. case***	*to students to books to forests*
	tələbələri		*студентов*		*students*

Təs. hal	*kitablara meşələrə*	***Вин. пад.***	*книги леса*	***Acc. case***	*books forests*
Yer. hal	*tələbələrdə kitablarda meşələrdə*	***Тв. пад.***	---------- ---------- ---------- ---------- --------- *(с) студентами вилками*	***Inst. case***	---------- ---------- ---------- --------- *with students with forks*
Çıx. hal	*tələbələrdən kitablardan meşələrdən*	***Пред. пад.***	---------- ---------- ---------- ---------- ---------	***Prep. case***	---------- ---------- ---------- ---------

Beləliklə, bütün yuxarıda deyilənləri nəzərə alaraq demək olar ki, ismin hal kateqoriyası ümumdil kateqoriyasıdır, bütün dillərə məxsusdur, xüsusilə onun ilk 4 forması hər bir dildə vardır. Son iki hal forması ancaq Azərbaycan və rus dillərində mövcuddur, lakin onların həm adı, həm də mənası tamamilə fərqlidir: yerlik, çıxışlıq; творительный, предложный. İngilis dilində bəzi mənbələrdə beşinci hal kimi «Instrumental case» hal formasını qeyd edirlər. İngilis dilində bu formada isimlər rus dilinin elə beşinci hal (творительный падеж) mənasında olan isimlərlə üst-üstə düşür.

Ümumiyyətlə isə, fərqlər adıçəkilən dillərdə hal kateqoriyasının olub-olmamasında, onların formalarının neçə olmasında və necə adlandırılmasında deyil, onların necə ifadə olunmasındadır. Bu isə həmin dillərin qrammatik (morfoloji) quruluşundan birbaşa asılıdır. Bildiyimiz kimi, Azərbaycan, rus, ingilis dilləri müxtəlifsistemli dillərdir və bu da ilk növbədə onların söz formalarının (hal formalarının) yaradılmasında öz əksini tapır. Azərbaycan dili öz morfoloji strukturuna görə sintetik iltisaqi (aqlütinativ) dil qrupuna daxildir. Ona görə də onun 6 hal forması da sözlərdən kənara çıxmadan bir və ya bir neçə qrammatik şəkilçi vasitəsilə düzəlir (*tələbənin, tələbələrin, tələbələrdən* və s.); rus dili flektiv (həm sintetik, həm analitik) dildir, yəni bu dildə hal formaları daha çox yalnız bir qrammatik şəkilçi ilə ifadə olunur (*студента, студентов, студентами* и т. д.).

İngilis dili isə analitik flektiv dil olduğundan bu dildə ismin hal formaları və mənaları əsasən köməkçi elementlərin (sözönülərinin) köməyi ilə və yaxud sintaktik yolla ifadə olunur (*of student, to student, the student, about student, with students* və

s.): *He is a first-year student* (Nominative case) – *I see a first-year student* (Accusative case).

Aparılan müqayisəli-tipoloji tədqiqat göstərdi ki, ismin hal kateqoriyası ümumdil kateqoriyasıdır. Onun dörd hal forması bütün dillərdə, o cümlədən ingilis dilində də vardır, axırıncı iki formaların həm adları, həm mənaları, həm də ifadə tərzləri fərqlidir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Cəfərova, B.C. English (ixtisası ingilis dili olmayan ali məktəblərin I kurs tələbələri üçün dərslik) / B.C.Cəfərova. − Bakı, − 2019. – 244 s.
2. Həşimov, M.M. İngilis dilinin qrammatikası. Easy Grammar / M.M.Həşimov. – Bakı, − 2019.
3. Məmmədova, M.H. İngilis dilinin qrammatikası. İngilis dilini orta və ali səviyyədə öyrənənlər üçün dərs vəsaiti / M.H.Məmmədova, D.N.Yunusov, – Bakı: Adildoğlu, − 2011, − 450 s.
4. Блох, М.Я. Теоретическая грамматика английского языка: учеб. пособие / М.Я.Блох. – Москва: Высшая школа, − 1983. – 384 с.
5. Князева, Н.А. К вопросу о типологических признаках категории падежа в английской и русской грамматике / Н.А.Князева // Иностранная филология. Социальная и национальная вариативность языка и литературы: Материалы II Международного научного конгресса, Симферополь, 3-28 апреля 2017 г. / Симферополь: ИТ «Ариал»; редкол.: Е.В.Полховская (гл. ред.) [и др.]. – Симферополь, − 2017. – с. 278-285.
6. Кузнецова, В.Э. О категории падежа в английском и русском языках / В.Э.Кузнецова // Вестник современных исследований. –2019. – № 1.1 (28). – с. 104-106.
7. Раевская, Н.М. Теоретическая грамматика современного английского языка: учеб. пособие / Н.М.Раевская. – «Вища школа», 1976. – с. 72–88.
8. Чалова, О.Н. Грамматическая категория падежа существительных в английском языке / О.Н.Чалова, А.С.Севдалева // − Гомель: Эпоха науки, − 2021. № 25, − с. 281-284.

Валех Насибов;
Весиля Гаджиева

О грамматической категории падежа
в азербайджанском, русском и английском языках

Резюме

В статье ведется сравнительно-типологический анализ категории падежа значений и средств выражения грамматической категории падежа в трех разносистемных (азербайджанском, русском и английском) языках.

Актуальность темы обосновывается как с научно-теоретической, так и с дидактической сторон. Полученные в результате сравнительного анализа

факты доказывают, что категория падежа – это общеязыковое явление, т. е. она характерна всем независимо от грамматической структуры языкам, различия касаются только их чисел и способов выражения. Во всех трех языках первые 4 падежа совпадают по значению, различаются по способам выражения, остальные 2 падежа имеют разные значения в разных языках и выражаются по-разному.

Ключевые слова: *категория падежа; сравнение; тождества; различия; дидактика.*

Valeh Nasibov;
Vesile Gadzhieva

On the Grammatical Category of Case in Azerbaijani, Russian, and English

Summary

This article provides a comparative typological analysis of the category of case, meanings, and means of expressing the grammatical category of case in three languages with different systems (Azerbaijani, Russian, and English).

The relevance of this topic is substantiated from both scientific-theoretical and didactic perspectives. The findings of this comparative analysis demonstrate that the category of case is a general linguistic phenomenon, i.e., it is characteristic of all languages, regardless of grammatical structure; differences concern only their numbers and modes of expression. In all three languages, the first four cases are identical in meaning and differ in their modes of expression; the remaining two cases have different meanings in each language and are expressed differently.

Keywords: *category of case; comparison; identities; differences; didactics.*

Rəyçi: professor Tofiq haciyev

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

YUSİFOVA NAİLƏ YUSİF QIZI
filolologiya üzrə fəlsəfə doktoru,dosent
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
nailayusifova@yahoo.com

İŞGÜZAR ÜNSİYYƏTİN MİLLİ VƏ BEYNƏL XALQ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Milli mədəniyyətlərin inkişaf perspektivlərinin, mədəniyyətlərarası münasibət və əlaqələrin öyrənilməsi bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edən məsələlər olmuşdur. Lakin xalqlar, dövlətlər, ölkələr arasında siyasi, iqtisadi, mədəni əlaqələrin getdikcə genişlənməsi və qloballaşma, inteqrasiya proseslərinin daha da dərinləşməsi ilə səciyyələnən müasir dövrümüzdə bu məsələlər daha da aktual xarakter daşımağa başlamışdır. Bu, işgüzar kommunikasiyalara da öz təsirini göstərir.

İnsanın digər adamları, ətrafdakı hal və hadisələri özünün etnik və mədəni qrup dəyərləri prizmasından qəbul etmək və qiymətləndirmək meyilləri işgüzar ünsiyyətdə əsl sınaqlara gətirib çıxarır. Etnosentrizm təzahürü tərəfdaşlıq münasibətlərini dağıtmaq, tərəfdaşların etibarını korlamaq və işgüzar nüfuza qara ləkə sal-maq iqtidarındadır. Yeri gəlmişkən, etnosentrizm, bir mədəniyyəti başqa bir mədəniyyətin standartları, dəyərləri və baxış bucağı əsasında qiymətləndirməkdir. Mədəniyyətlərarası kommunikasiyanın iştirakçıları üçün etnosentrizmlə mübarizə və işgüzar etiketə ciddi riayət etmək xüsusi əhəmiyyət kəsb edir. Bəs mədəniy-yətlərarası kommunikasiya zamanı səhvlərdən necə qorunmaq olar? Bunun üçün beynəlxalq işgüzar ünsiyyətin iştirakçıları, məsələn, göndərilən məktubun məzmu-nunun və ya telefon danışığında işlədilən ifadələrin məğzinin öz xarici tərəfdaşları tərəfindən necə qəbul edildiyini dəqiq başa düşməlidirlər.

İnsanın digər adamları, ətrafdakı hal və hadisələri özünün etnik və mədəni qrup dəyərləri prizmasından qəbul etmək və qiymətləndirmək meyilləri işgüzar ünsiyyətdə əsl sınaqlara gətirib çıxarır. Etnosentrizm təzahürü tərəfdaşlıq münasibətlərini dağıtmaq, tərəfdaşların etibarını korlamaq və işgüzar nüfuza qara ləkə sal-maq iqtidarındadır. Yeri gəlmişkən, etnosentrizm, bir mədəniyyəti başqa bir mədəniyyətin standartları, dəyərləri və baxış bucağı əsasında qiymətləndirməkdir.

Cəmiyyətdə hər birimizin ən böyük mənəvi tələbatı ünsiyyətdir. Xüsusən də insanlarla işgüzar əlaqələr, yeni tanışlıqlar zamanı ünsiyyətin rolu əvəzedilməzdir.Mədəniyyətlərarası kommunikasiyanın iştirakçıları üçün etnosentrizmlə mübarizə və işgüzar etiketə ciddi riayət etmək xüsusi əhəmiyyət kəsb edir. Mədəniyyətlərarası kommunikasiya zamanı səhvlərdən qorunmaq üçün beynəlxalq işgüzar ünsiyyətin iştirakçıları, məsələn, göndərilən məktubun məzmununun və ya telefon danışığında işlədilən ifadələrin məğzinin öz xarici tərəfdaşları tərəfindən necə qəbul edildiyini dəqiq başa düşməlidirlər. Mədəniyyətlərarası kommunikasiya linqvistik, mədəni və

texnoloji amillərin təsirinə məruz qalır. Bundan başqa, işgüzar ünsiyyətin qaydası sosial təşkildən, kontekstdən, nüfuz risklərindən, qeyri-verbal kommunikativ davranışdan və s. asılılığını geniş aspekdə göstərir.

Açar sözlər: milli, ünsiyyət, beynəlxalq, işgüzar, xüsusiyyətləri

Fərqli peşə və təhsil sahibi olan insanlar arasında getdikcə daha çox marağa səbəb olan ünsiyyət problemləri mövcuddur. Bu, mütəxəssislərin bütün fəaliyyət sahələrində peşəkar səlahiyyətlərinin zəruri bir hissəsidir. Müasir mütəxəssis ünsiyyət tərəfdaşlarını başa düşmək, onlarla əlaqə qurmaq, işgüzar söhbətlər, danışıqlar aparmaq və kütləvi nitqin əsaslarını mənimsəmək üçün işgüzar və akademik kommunikasiya sahəsində biliklərə sahib olmalıdır (1, 2020).

Yazı həyatımız boyu müxtəlif situasiyalarda bizdən tələb olunan bacarıqdır. Şəxsi məzmunlu yazışmanın, yəni dost-tanışlara ünvanlanan yazının bir xüsusiyyəti ondan ibarətdir ki, bu cür yazı, adətən, qeyri-formal olur. Bu isə o deməkdir ki, burada orfoqrafiya qaydalarını, punktuasiyanı (durğu işarələrinin yerli-yerində işlənməsi) və yaxud qrammatik qaydaları gözləməyə o qədər də ehtiyac duyulmur (hərçənd ki, əməl etsək, oxucumuz bizə minnətdar ola bilər).

Qeyri-formal yazı üslubu şəxsi tanışlıqlar üzərində qurulan münasibətlər fonunda olduğundan və siz də yazınızı ünvanladığınız şəxsi tanıdığınız üçün sözləri qısa yaza, hətta dialekt sözlərdən belə istifadə edə bilərsiniz. Şəxsi məzmunlu yazışmadan fərqli olaraq, akademik yazıda proses xeyli fərqli olur. Birincisi, burada konkret yazı strukturu tələb olunur. Məsələn, giriş, əsas hissə və nəticə (2, 2020). Bu sadə strukturu bütün akademik yazı formalarında görmək olar.

Əslində, digər müəlliflərin işlərindən sitat gətirmək akademik yazının əsas şərtlərindən biridir, çünki bu, sizin mövzu ilə əlaqədar ədəbiyyatı oxuduğunuzu, ideyaları anladığınızı, bu ideyalar və digər müxtəlif perspektivlərdən öz yazı işinizdə istifadə etdiyinizi göstərir.

Eyni zamanda akademik yazıda siz hər zaman orfoqrafiya qaydalarına, punktuasiyaya və qrammatik standartlara əməl etməlisiniz. Çünki həmkarınızdan fərqli olaraq, oxucunuz böyük ehtimal ki, sizdən fərqli bir şəxsdir və sizin nəyə işarə etdiyinizi heç də hər zaman bilməyə bilər. Bu səbəbdən də, fikirlərinizi yazıda aydın ifadə etməniz çox önəmlidir. Düşüncənin ifadə olunmasında fikir aydınlığını qoruyub saxlamaq və ikimənalılıqdan uzaq olmaq üçün punktuasiya, eyni zamanda qrammatik qaydalar akademik yazıda vacib amillərdəndir.

Ənənəvi olaraq, akademik mövzular konkret və fiziki forması olmayan ideya və anlayışlar kimi mücərrəd məfhumlara əsaslanır.

İnsan psixologiyasına xas cəhətlərdən biri də, ancaq ünsiyyət prosesində mövcudluğunu təsdiq edə bilir. Odur ki,təfəkkür və düşüncəsini çatdırmaq bacarığı ictimai həyatın təməlini təşkil edir. Bəşər övladının hiss və fkirlərinin bölüşmək imkanının məhdudlaşdırmaq yaxud tərəqqisi onun həyat tərzinin dəyişməsinə səbəb

olur. Cəmiyyətin modernləşməsi və inkişafı ilə yanaşı insan əlaqələrinin də sayı artmışdır. Kütləvi ünsiyyət vasitələrinin inkişafı əlaqə hüdudlarını genişləndirdi və kənd, şəhər, ölkə çərçivəsindən kənara çıxan münasibətlərin qurulmasını mümkün etdi. Bir sıra akademik mövzuların mücərrəd strukturuna baxmayaraq, siz yenə də konkret sözlərdən istifadə etməklə, mücərrəd ideyaları və onlar arasındakı münasibətləri izah edə bilərsiniz (3, 2017). . Akademiya və elmi müəssisələr sistemində, beynəlxalq konfrans, simpozium, treninq və sairədə edilən məruzələr, çıxışlar, verilən elmi məlumatlar və s. akademik natiqliyə aid edilir. Bu, elm adamlarının, alimlərin, yüksək hazırlıqlı ziyalıların, müəllimlərin elmi-praktik konfranslarda, ali məktəb auditoriyalarında, radio və televiziya verilişlərində, müdafiə sovetlərində və s. yerlərdəki nitqidir. Elmi nitq öz məntiqliyi, fikirlərin ardıcıllığı, söylənilənlərin sübutla, dəlillərlə əsaslandırılması, ümumiləşdirmələri, nəticələri və s. ilə digər nitq növlərindən fərqlənir. Nitqin bu növü vasitəsilə yaradıcı insanlar, alimlər və b. öz tədqiqatlarından, araşdırmalarından alınmış nəticələri həm yazılı (məqalələr, əsərlər, monoqrafiyalar şəklində), həm də şifahi yolla başqalarına çatdırırlar. Bu nitq o zaman yararlı sayıla bilir ki, insanlar onu başa düşsünlər, orada şərh olunanlara inansınlar. Mühazirəçinin söylədikləri reallığa əsaslanmalı, dinləyicilər tərəfindən qəbul olunmalıdır. Universiteti müxtəlif illərdə bitirib respublikanın məktəblərində, digər tədris müəssisələrində işləyənlərin çoxu eyni zamanda natiq kimi də fəaliyyət göstə- rirlər. Şübhə yoxdur ki, bu keyfiyyətə yiyələnənlər elmi natiqliyi, bəlağətli nitqi ali məktəb auditoriyalarında mühazirələr oxuyan müəllimlərindən (professor və dosentlərdən) öyrənir, bu söz ustalarının danışığını, natiqlik məharətini – aydın tələffüzünü, parlaq, qəti, kəsərli nitqini, güclü məntiqini, gözəl avazını, fikrin ifadə tərzini və sairəni əxz (4, 2014).

.*Ünsiyyət mübadiləsinin spesifik xüsusiyyətləri, tərəfləri və vasitələri mövcuddur:* İnformasiya mübadiləsinin spesifik xüsusiyyətləri haqqında anlayış. Ünsiyyət tərəflərinin bir-birinə şüurlu münasibət bəsləmələrinin zəruriliyi. Ünsiyyət prosesində tərəflərin bir-birinin davranışına təsir etmək imkanına malik olması. İnformasiya mübadiləsi zamanı tərəflərin oxşar kodifikasiya və dekodifikasiyasına malik olmalarının zəruriliy Adətən, akademik yazı sizdən mücərrəd ifadələri və onların komponentlərini, onların digər mücərrəd ifadələrlə əlaqəsini aydın təsvir etməyi tələb edir (10, 2016). Hətta iqtisadiyyat, kompüter elmləri kimi praktik yönümlü fənlər belə, akademik öyrənmə və praktikada sizdən proses və hadisələrin təməlində duran müxtəlif nəzəriyyələrə, anlayışlara və digər mücərrəd ideyalara baş vurmağınızı tələb edəcək. Buna görə də, akademik yazının mahiyyəti də bir çox praktik və sosial yönümlü yazı işlərindən fərqlənir. Bu, ona görədir ki, akademik yazı tapşırıqları sizdən onların mahiyyətində dayanan, hadisələrin təməlində yatan prinsip, nəzəriyyə və anlayışlara baxmağı tələb edir.

Ünsiyyət *formal* və *qeyri-formal* xarakter daşıya bilər. *Formal ünsiyyət* hər kəsin müəyyən bir təşkilatda, müəssisədə olan rəsmi statusu ilə şərtlənən ünsiyyətidir. Məsələn, rəhbər-işçi münasibəti. *Qeyri-formal ünsiyyət* isə şəxsi

xarakter daşıyır, əlverişli şərait olduqda, öz-özünə təşəkkül edir. Məsələn, bir müəssisədə işləyən 89 nəfərin hamısının yalnız formal ünsiyyətdə olduğunu düşünmək düzgün deyil. Bu işçilərlə yaxından tanış olduqda, onların bir çoxunun asudə vaxtlarını və hətta fürsət düşdükdə ailə mərasimlərində də birlikdə iştirak etdiklərini görmək olar. Formal və qeyri-formal ünsiyyətlər adətən bir-birini üzvi şəkildə tamamlayır və kollektivin iş həyatını da səmərəli edir. Formal ünsiyyət: şəxsin hər hansı müəssisədə rəsmi statusu ilə şərtlənir. İnsanlar arasında qarşılıqlı məlumat və fikir mübadiləsidir. Qeyri-formal ünsiyyət: şəxsi xarakter daşıyır və əlverişli şəraitdə öz-özünə yaranır. Ünsiyyət mədəniyyətinin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Ünsiyyət mədəniyyəti insan münasibətlərinin daxili gözəlliyində öz ifadəsini tapır. Nəzakətlilik, təmkinlilik, mehribanlıq, xeyirxahlıq, tərəf-müqabilini dinləmək bacarığı və başa düşmək arzusu, onun zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq, dərdinə şərik olmaq – bütün bunlar ünsiyyətin əlifbasıdır. Hamı bu əlifbanı öyrənməli və mənimsəməlidir. İşgüzar dairələrin nümayəndələri nəinki etiketin və işgüzar ünsiyyətin milli xüsusiyyətlərini yaxşı bilməli, həm də öz təcrübi fəaliyyətlərində onlara sözsüz əməl etməlidirlər (5, 2014). Beynəlxalq işgüzar etiketin ən əsas xüsusiyyətlərindən biri qeyri-verbal davranışda ortaya çıxan fərqlərdir. Beynəlxalq ünsiyyət təcrübəsində jestlərdən ehtiyatla istifadə etmək tələb olunur, çünki onlar sizin düşündüyünüzdən fərqli mənada anlaşıla bilər. Bu da nəinki ötürülən informasiyanın düzgün anlaşılmamasına, hətta etiket qaydalarının pozulmasına səbəb olar. Beynəlxalq səviyyədə də inkişaf etməmiş ölkələr güclü dövlətlər qarşısında öz maraqlarını daha yaxşı qorumaq üçün birliklər yaradırlar. Beləliklə, dünənə qədər seyrci mövqeyində olan dövlətlər indi dünyanın siyasi həyatına təsir göstərməyə başlayırlar (6, 2019). Başqa sözlə desək, inkişaf etməkdə olan ölkələrin daxili və xarici üfüqləri genişlənir, kütləvi kommunikasiya vasitələri də "inkişaf etmiş üfüqlərdən" xəbər tutmaq və bu xəbəri çatdırmaq vəzifəsini öz öhdəsinə götürür.

Bəzən eyni jest nəinki müxtəlif, hətta tam əks məna da ifadə edir. Məsələn, amerikalılar və bir çox başqa xalqların nümayəndələri baş və şəhadət barmaqlarını birləşdirərək halqa əmələ gətirməklə, bizə hər şeyin əla olması barədə məlumat çatdırırlar (7, 2015). Həmin jest Yaponiyada söhbət puldan gedərkən istifadə edilir, Yunanıs-tanda başdan etmək, saymazlıq göstərmək əlamətidir, Fransada isə sıfır deməkdir Müxtəlif xalqların nümayəndələrinin real və nitq davranışındakı milli-mədəni xüsisiyyətlərlə bağlı biliklər çox böyük əhəmiyyətə malikdir. Başqa xalqların adət və ənənələrinə hörmətlə yanaşmaq nəinki mədəniyyətlərarası maneələrin dəf edilməsinə, eləcə də uzunmüddətli səmərəli əməkdaşlıq münasibətlərinin bərqərar olmasına kömək edər (6, 2013).

Milli mədəniyyətlərin inkişaf perspektivlərinin, mədəniyyətlərarası münasibət və əlaqələrin öyrənilməsi bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edən məsələlər olmuşdur. Lakin xalqlar, dövlətlər, ölkələr arasında siyasi, iqtisadi, mədəni əlaqələrin getdikcə genişlənməsi və qloballaşma, inteqrasiya proseslərinin daha da dərin-

ləşməsi ilə səciyyələnən müasir dövrümüzdə bu məsələlər daha da aktual xarakter daşımağa başlamışdır. Bu, işgüzar kommunikasiyalara da öz təsirini göstərir.

Ədəbiyyat

1. T.Ə.Əbdülhəsənli, T.Ə.Xəlilova,M.B.Əmrahova .“Azərbaycan dili və nitq mədəniyyəti” (interaktiv dərslik). Bakı, 2020.
2. N.Məmmədli, “Azərbaycan dili və nitq mədəniyyəti” I cild. Bakı, 2020.
3. Z. Qafarlı. “Nitqin kommunikativ registrlərinin tədqiqi”. Bakı, 2017.
4.T.Əbdülhəsənli, Zülfüqarlı, A.Rzai. “Azərbaycan dili və nitq mədəniyyəti”. Bakı, 2014.
5.F.Şiriyev. “Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika”. Bakı, 2014.

Rus dilində ədəbiyyat:

6..Н. Д. Десяева. «Академическая коммуникация». Москва, 2019.
7..Е. Б. Деревянкин .«Деловое общение» . Екатеринбург, 2015.
8..О. А. Казакова. А. Н. Серебренникова. «Деловая коммуникация» , 2013.
9..Э.А. Науменко «Деловые коммуникации» (учебное пособие). Тюмень, 2013.
10.И.А.Журавлева. «Деловые коммуникации» (учебное пособие). Иркутск2016.

Yusifova Nailə Yusif

NATIONAL AND INTERNATIONAL FEATURES OF THE BUSINESS COMMUNITY

Summary

The study of the development prospects of national cultures, as well as intercultural relations and connections, has been of great importance in all periods. However, in our modern era—characterized by the continuous expansion of political, economic, and cultural relations among peoples, states, and countries, along with globalization and deeper integration processes-these issues have gained even greater relevance. This also affects business communications.

A person’s tendency to perceive and evaluate other people, surrounding situations, and events through the prism of their own ethnic and cultural group values often leads to real challenges in business communication. The manifestation of ethnocentrism can disrupt partnership relations, undermine trust between partners, and damage business reputation. It should be noted that ethnocentrism is the evaluation of one culture through the standards, values, and perspectives of another culture. For participants of intercultural communication, combating ethnocentrism and strictly adhering to business etiquette are of particular importance. But how can one avoid mistakes during intercultural communication? For this, participants of

international business communication-for example, when sending a letter or during a phone conversation-must clearly understand how the content or expressions they use will be perceived by their foreign partners.

A person's tendency to perceive and evaluate other people, surrounding situations, and events through the prism of their own ethnic and cultural group values often leads to real challenges in business communication. The manifestation of ethnocentrism can disrupt partnership relations, undermine trust between partners, and damage business reputation. It should be noted that ethnocentrism is the evaluation of one culture through the standards, values, and perspectives of another culture. The greatest moral need for each of us in society is communication. In particular, during business interactions and new acquaintances, the role of communication is irreplaceable. For participants of intercultural communication, combating ethnocentrism and strictly adhering to business etiquette are of special importance. To avoid mistakes in intercultural communication, participants of international business communication must, for instance, clearly understand how the content of a letter or the expressions used in a phone conversation are perceived by their foreign partners.

Intercultural communication is influenced by linguistic, cultural, and technological factors. Moreover, the rules of business communication broadly depend on social organization, context, reputation risks, non-verbal communicative behavior, and so on.

Kay word: national, communication ,international, business, specifics

Наиля Юсифова

НАЦИОНАЛЬНЫЕ И МЕЖДУНАРОДНЫЕ ОСОБЕННОСТИ БИЗНЕС СООБЩЕСТВА

Резюме

Изучение перспектив развития национальных культур, межкультурных отношений и связей во все времена имело важное значение. Однако в современную эпоху, характеризующуюся всё большим расширением политических, экономических и культурных связей между народами, государствами и странами, углублением процессов глобализации и интеграции, эти вопросы стали ещё более актуальными. Это затрагивает и деловые коммуникации.

Склонность человека воспринимать и оценивать других людей, ситуации и события через призму ценностей своей этнической и культурной группы приводит к серьёзным испытаниям в деловом общении. Проявление этноцентризма способно разрушить партнёрские отношения, подорвать доверие партнёров и нанести очернить деловую репутацию. Кстати, этноцентризм — это оценка одной культуры на основе стандартов, ценностей и взглядов другой культуры. Для участников межкультурной коммуникации борьба с этноцентризмом и строгое соблюдение делового этикета имеют особое значение. Как же избежать

ошибок во время межкультурной коммуникации? Для этого участники международного делового общения должны четко понимать, например, как воспринимаются их зарубежными партнерами содержание отправленного письма или смысл выражений, используемых в телефонном разговоре.

Важнейшей нравственной потребностью каждого из нас в обществе является общение. Особенно во время деловых отношениях с людьми и в новых знакомствах роль общения незаменима. Для участников межкультурной коммуникации особое значение имеют борьба с этноцентризмом и строгое соблюдение делового этикета. Чтобы избежать ошибок в межкультурной коммуникации, участники международного делового общения должны чётко понимать, например, как воспринимается их иностранными партнёрами содержание отправленного письма или суть выражений, используемых в телефонном разговоре.

На межкультурную коммуникацию влияют лингвистические, культурные и технологические факторы. Кроме того, порядок делового общения может меняться в зависимости от социальной организации, контекста, репутационных рисков, невербального коммуникативного поведения и т. д.

Ключевые слова: национальный**,** общение, международный, деловой, особенности

Rəyçi: Professor Marifə Hacıyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

NAILA GASIMOVA

AZERBAIJAN STATE OIL AND INDUSTRY UNIVERSITY
nailya.gasimova@gmail.com

DIFFERENTIATED APPROACH TO THE FORMATION OF MOTIVATION FOR STUDENTS' LEARNING ACTIVITIES TO STUDY ENGLISH

SUMMARY

The purpose of this article is to ascertain how diversified instruction affects students' motivation in foreign language classes. A crucial factor affecting reaching learning goals is motivation. It is necessary to create such conditions that let weaker and gifted learners gain in-depth knowledge and feel satisfied while doing activities and participate in the lessons. Since diversified teaching is one of the most effective strategies for addressing individual needs and acknowledging the diversity of learners, it is used in this case. In this research a group of 20 students from ASOIU in Baku city. Survey questions empowered to find the proper answer to the research question in terms of affecting differentiation to the motivation. Data were analyzed via quantitative method; findings let identify how elements of differentiated teaching influence more on student motivation and define the importance of teacher's role in the educational process. Over the past generation, English language instruction has undergone significant transformation.

Keywords: differentiated teaching, motivation, language learning, individual needs.

Students have a crucial role in the learning process; without their interest, participation, and curiosity, the learning process may collapse. Because of their level of motivation, students are more creative and productive [6, 132]. The willingness of a learner to commit to specific tasks is known as motivation. Ellis [4], who provides a precise definition of motivation in foreign language classes, states that it is an endeavor that encompasses the need and desire to acquire a second language. A student's personal responsibility for academic performance is the focus of the learner level, whereas the language level reflects the overall motivational system. Three elements make up the learning situation level, which focuses on group, instructor, and course motivational factors. All students, however, have a fundamental motivation to attend lessons, according to Makokha and Ongwae [8, 133]; this motivation ranges from reward to meeting certain demands. The study's importance suggests that differentiated instruction, particularly changing the lesson's content, promotes learning and may boost student motivation, which in turn influences knowledge quality and academic achievement. With technology developing so quickly in the modern era, there are many factors that affect students' academic

performance. One of them is technological distractions, which can cause students to lag behind in their studies. Lack of interest in the subject matter of the lecture is another reason. In general, they are seen to be key components of student motivation. Teachers can use differentiated instructions to tackle these issues. To find the answer to this question, it is important to meet the purposes of the study:

a. to identify teacher's role in student motivation; **b.** to explore differentiated teaching as one of the key element of boosting motivation.

By modifying the lesson's substance, differentiated teaching can create unique circumstances. In this instance, teachers create exercises according to the categorization of thinking skill levels. Teachers design a lesson plan that suits each student's requirements and preferences based on how they interpret the material and how well they can use it in practice. Teachers must clearly state learning objectives at the start of each lesson and properly explain assessment criteria using attention-grabbing words and sentences if they want to successfully implement differentiated instruction. Students' potential is increased, and they are inspired to learn more as a result. One of the main tenets of differentiated instruction is creating a welcoming environment and allowing students to feel comfortable during the class. While gifted students have the chance to expand their knowledge and develop academically, weaker students can feel supported by their teachers and gain confidence thanks to these components.

Materials and methods

This study looked at how differentiated instruction affected students' motivation using the survey research approach. There were 20 participants in this study from ASOIU in Baku city, with 50% (10 students) being female and 50% (10 students) being male. The poll did not ask questions that sought to determine the learners' names, ages, or other personal information because they were selected at random. Thus, it removes social pressure and allows for more legitimate solutions. The survey includes three groups of questions. The purpose of the first set of questions is to examine students' individual academic data in order to determine whether motivation and excellent academic achievement are related. While the third set of questions aims to investigate students' perceptions of differentiation. The second set of questions includes the components of differentiated instruction; it is essential to ascertain the motivational factors. 50% of students occasionally feel comfortable working with their peers, and around half of the students think the instructional activities are occasionally at an adequate level. Nonetheless, some students can keep up with the class pace, and most believe that the lesson's content aligns with their interests. Teachers typically use differentiation techniques to get students interested in what they are learning. The following points are very important to consider:

- ✓ The degree of suitability of the lesson assignments
- ✓ Collaborating with others

- ✓ Tempo of the class
- ✓ The lesson's content

Students start to establish relationships with teachers; if the teacher helps or supports them, they begin to feel more successful and self-assured.

Tarixən ingilis dilində geniş şəkildə işlədilən sözönüləri cümlədaxili komponentlər arasında məna əlaqəsi yaratmağa xidmət etməklə fikrin tam şəkildə ifadə olunmasını təmin etmişlər. İngilis dilində sözönülərinin dildə işlənmə xüsusiyyətlərini təhlil edən Ş.Ə.Əliyeva sözönüləri ilə bağlı dilçilikdə mövcud olan problemlər haqqında belə yazır: *"Araşdırılmış dilçilik ədəbiyyatlarına görə sözönləri ilə əlaqədar olaraq dilçilikdə aşağıdakı problemlər mövcuddur:1.Sözönlərinin nominativ mənaya malik olub-olmaması; 2. Sözönlərinin sözlər arasında yaratdığı mövcud əlaqə və münasibətlər; 3.Sözönlərinin mənasına görə növləri; 4. Sözönlərinə verilən tərif məsələsi* [1, s.7]. Qeyd olunan məsələlər arasında sözönülərinin dildə işlənmə mövqeyi, onların quruluşuna görə təsnifi prinsipləri dilçilər tərəfindən tədqiq olunaraq müəyyən mülahizələrin yaranmasına səbəb olsa da, sözönülərinin tərifi, onların nominativ mənaya malik olması fikri hələ də mübahisəli məsələ olaraq qalmaqdadır. Çünki sözönüləri təkcə sözlərdən əvvəl deyil, məsələn, bəzən feillərdən sonra işlədilməklə feilin leksik mənasını əsaslı şəkildə dəyişmiş olur. Bu cür feillər ingilis dilində *phrasal verbs – tərkibi feillər* adlanır və sözönü aid olduğu feili birləşməyə idiomatik məna gətirir. Məsələn, *to give up – təslim olmaq, to look for - axtarmaq, to look forward to – səbirsizliklə gözləmək, to take after – kiməsə oxşamaq (xasiyyətcə), to look after – qayğısını çəkmək və s.* Eyni zamanda, sözönülərinin digər nitq hissələri – zərflər, bağlayıcılar, sifətlər, postpozitivlər, ədatlar ilə yaratdıqları qrammatik omonimlik xüsusiyyətləri sözönülərinin dildə işlənmə yerinin müəyyənləşdirilməsini tələb edir.

Qədim dövrdən, V əsrdən günümüzədək olan dövrdə ingilis dili intra və ekstralinqvistik amillərin təsiri ilə radikal dəyişiklikləri özündə ehtiva edən bir dilə çevrilmişdir. Dili əhatə edən sosial hadisələrin axarında ingilis dili qədim dövrdən orta və müasir dövrə doğru təkamül mərhələlərini keçdikcə dilin fonem sistemi, qrammatik quruluşu və lüğət tərkibi həmin təkamül mərhələsinin diktəsinə uyğun formalaşmışdır. *"İngilis dilinin təkamül dövrü maraqlı faktlar və dilin bütün*

aspektlərində əsaslı yenilənmələrə səbəb olan sosial-siyasi və tarixi hadisələrlə zəngindir.Əgər belə bir mülahizə irəli sürsək ki, ingilis dili Britaniya adalarında baş verən tarixi hadisələrin, işğalçılıq müharibələrinin, yadellilərin əsrlərlə davam edən əsarəti altında formalaşmış və təkmilləşmiş bir dildir, yəqin ki, səhv etmərik" [4, s.120]. İngilis dili keçdiyi təkamül dövrü ərzində yaşadığı hadisələri özündə əks etdirən canlı bir tarixdir. İngilis dilini diaxronik aspektdən tədqiq edən T.A.Rastorquyeva bununla bağlı belə yazır: *"İngilis dilinin tarixini öyrənmək xüsusi maraq doğurur, çünki bu, özündə əsrlərin tarixi hadisələrini əks etdirir"* [5, s. 10]. Təkamül dövrü ərzində ingilis dili əsaslı daxili dəyişikliklərə uğrayaraq sintetik dildən analitik dilə çevrilmiş, onun qrammatik quruluşu yenilənmişdir. Lakin dildə elə daxili sistemlər vardır ki, dil dəyişikliklərə uğrasa da, onlar o qədər də çox dəyişmirlər. Məsələn, ingilis dilində nitq hissələrinin, sait və samit səslərin bölgüsü, sifətlərin və zərflərin dərəcələri və s. az dəyişikliyə uğramışdır.

O cümlədən, ingilis dilində sözönüləri də dilin təkamülü boyunca yazılış və məna cəhətdən az dəyişikliyə uğrayaraq mətnin komponentləri, sintaktik vahidləri arasında qrammatik və məna əlaqəsi yaradan köməkçi nitq hissəsi kimi fəaliyyət göstərmişdir. Qədim ingilis dili şəkilçili dil olduğuna görə sözönüləri aid olduqları ismin və ya əvəzliyin hal şəkilçiləri qəbul etməsini tələb etməklə cümlənin informativ tamlığını təmin etmişlər. Əksər sözönüləri müasir ingilis dilində Qədim ingilis dilində olduğu kimi qalsa da, əlavə məna çalarları qazanmışlar. Məsələn, bu sözönülərinə aşağıdakıları nümunə göstərmək olar: *æfter – after – sonra, ær – before - əvvəl, æt – at, from – da, - də, - dan, - dən; beforan – before, in front of - əvvəl, qarşısında; betweox – between, among – ikiliyin, çoxluğun arasında, butan – without – sız*[4] *fram – from – dan, dən; mid – with – ilə, - la, - lə; wiþ – against - əleyhinə , to – to – a, -ə, - ya, - yə* [7, s.1].

Araşdırmalar göstərir ki, dilçilikdə sözönüləri bir neçə kriteriyalar əsasında təsnif olunmuşdur. Sözönülərinin quruluşuna, mənasına görə təsnifini xüsusi olaraq qeyd etmək lazımdır. Müasir ingilis dilində sözönüləri quruluşuna görə -sadə, düzəltmə, mürəkkəb və tərkibi olmaqla dörd qrupa ayrılır. Məsələn, *as, like, for, at, in, on – sadə sözönüləri (simple prepositions)* bir kökdən ibarətdir*; across, along, before – düzəltmə sözönüləri (derivative prepositions)* kök və şəkilçi morfemdən *;into, onto, outside, inside, within, without – mürəkkəb sözönüləri* iki kök morfemdən*; instead of, in spite of, for fear of, despite of – tərkibi sözönüləri (composite prepositions)* və s. sözönüləri bir neçə kök morfemdən düzəlmişlər. Mürəkkəb sözönüləri birlikdə yazıldığı halda, tərkibi sözönüləri bir neçə kökdən ibarət olsa da, ayrılıqda yazılırlar. Məhz sözönülərinin funksional-semantik xüsusiyyətləri müasir ingilis dilində də onlara Qədim ingilis dilində morfoloji əlamətlərin yerinə yetirdiyi qrammatik və məna vəzifələrini gerçəkləşdirməyə imkan verir. Çünki hər bir dilin ümdə vəzifəsi insanlararası ünsiyyəti yerinə yetirməkdir, bunun üçün dilin bütün daxili imkanları mətnyaratmada aktual formada iştirak edir. *"Dil – məna dünyası ilə səs dünyası arasında gerçəkləşən mürəkkəb bir sistemdir"*

[3, s.27]. Dilin təsvir etmə imkanları onun vasitələri ilə reallaşır. Bu baxımdan, köməkçi nitq hissəsi kimi sözönülərini mənanın bitkinliyinin yaranmasını şərtləndirən funksional-əlaqələndirici sözlər hesab etmək olar.

Sözönülərini funksional-semantik cəhətdən Azərbaycan dilində qoşmalarla müqayisə etmək olar. Bununla bağlı E.İ.Hacıyev yazır: *"Sözönülərinin Azərbaycan dilində başlıca ifadə vasitələri qoşmalar və ismin hal şəkilçiləridir.Qoşmalar ingilis dilində məkan anlayışı bildirən sözönlərinə daha çox uyğundur. Onların ümumi cəhəti hər ikisinin tammənalı sözlər arasında müxtəlif sintaktik münasibətlər ifadə etməsi, aid olduqları sözlərlə birlikdə müxtəlif məna çalarları ifadə etməsi, hər ikisinin köməkçi nitq hissələrinə daxil olub köməkçi funksiya daşımasıdır"* [2, s.122]. Azərbaycan dilində *sarı, tərəf, başqa, savayı, doğru, təki, kimi, qədər* və s. qoşmaları isimdən, əvəzlikdən, saydan və digər nitq hissələrindən sonra işlənməklə onların ismin müxtəlif hallarında işlənməsini və məna çalarlarının yaranmasını tələb edirlər. Məsələn,

O, həyətə tərəf boylananda orada Sənəmdən savayı heç kimi görmədi

Verilmiş cümlədə *tərəf, savayı* qoşmaları *həyətə* və *Sənəmdən* isimlərinin yönlük və çıxışlıq hallarında işlənməsini tələb etmişlər, çünki Azərbaycan dili şəkilçili dil olduğundan qrammatik mənalar aqultinasiya yolu ilə, yəni sözün kökünə qrammatik şəkilçilərin artırılması ilə ifadə olunur. Bu cür işlənmə Qədim ingilis dilinə xas olmuşdur, belə ki, sözönüləri fikri tamamlamaqla yanaşı aid olduqları sözlərin ismin müəyyən hallarında işlənməsini idarə etmişlər.

Dilçilikdə sözönüləri struktur, semantik, funksional cəhətlərdən geniş tədqiqatlara cəlb olunsa da, onlarla bağlı mübahisəli məsələlər hələ də tam həllini tapmamışdır. Xüsusilə, sözönülərinin nitq hissələri sistemində yerinin dəqiq müəyyən olunması dilçilər arasında fikir ayrılığına səbəb olmuşdur. Çünki sözönüləri struktur və semantik cəhətdən təsnif olunaraq nominativ məna ehtiva etməklə cümlə üzvləri arasında qrammatik və məntiqi əlaqə yarada bilirlər. Lakin onlar cümlədə müstəqil işlənə bilmədiklərinə, heç bir qrammatik kateqoriyaya malik olmadıqlarına və ayrılıqda sintaktik funksiya daşımadıqlarına görə əsas deyil, köməkçi nitq hissələri qrupuna aid edilirlər.

İngilis dilinin qrammatik sistemində beş fundamental prinsipin olduğunu qeyd edən E.Rossiter ingilis dilində düzgün yazmaq və danışmaq üçün onların öyrənilməsinin vacib olduğunu qeyd edərək yazır: *"İngilis dilinin qrammatik sisteminin əsasında öyrənilməsi vacib olan beş əsas prinsip dayanır: 1) düzgün söz sırası; 2) durğu işarələrinin düzgün işlədilməsi; 3) zaman formalarının və tərzin işlədilməsi prinsipləri; 4) təyinedicilərin işlədilməsi; 5) bağlayıcı sözlərin düzgün işlədilməsi"* [6]. Bağlayıcı sözlərdən (connectors) bəhs edən müəllif bu qrupdan olan nitq hissələrinə bağlayıcılıarı, bağlayıcı sözləri – bura bağlayıcı və nisbi əvəzliklər və zərflər daxildir; sözönülərini aid edir. *"Baxmayaraq ki, biz sözönülərini bağlayıcı sözlər hesab etmirik, onlar cümlədə sözlər, söz birləşmələri arasında əlaqə*

yaratmaqla məntiqli mənanı tamamlayır və cümlənin mahiyyət etibarı ilə əsas funksional elementinə çevrilir" [6]. Məsələn,

We are in the room – Biz otağın içindəyik
We are coming into the room - Biz otağa daxil oluruq

Verilmiş cümlələrdə *in* və *into* sözönülərinin leksik mənasından asılı olaraq cümlələr tamamilə fərqli üst strukturlara və semantikaya malikdirlər. Bu cəhətdən, sözönüləri leksik məna bildirməklə cümlədə ifadə olunan mənaya bitkinlik gətirirlər.

Nəticə: Sözönüləri ilə bağlı ziddiyyətli fikirlərin yaranmasının başlıca səbəbi onların müxtəlif leksik mənalara malik olmaqlarına baxmayaraq, ayrılıqda işlənə bilməməklə cümlədə müstəqil sintaktik funksiya ifadə edə bilməmələridir. Sözönüləri öz nominativ xüsusiyyətlərini yalnız cümlədə başqa sözlərlə işləndikdə ifadə etməklə cümlənin bir üzvü vəzifəsində iştirak edirlər. Bütün sözönlü dillərdə sözönüləri cümlədəki sözlər və ifadələr arasında qrammatik uzlaşma və semantik cəhətdən hadisələrin əlaqələnməsini şərtləndirirlər.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyeva Ş.Ə. Müasir ingilis dilində "about", "by", "of" sözönləri və onların Azərbaycan dilində qarşılığı/Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı/ Bakı- 2014, 23 səh.
2. Hacıyev E.İ. Müasir ingilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətləri. Bakı, Mütərcim – 2006, 272 səh.
3. Чейф Л.Уоллес. Значение и структура языка. Москва, «Прогресс», 1975, 432 стр.
4. Gojayeva M.A. The Initial Stage of the Evolution of the English Language and its Main Features. Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, Azərbaycan. 2024, 2(125), səh. 120-123.
5. Rastorguyeva T.A. A History of English. Moscow, «Vysšaja škola» - 1983. 347p.
6.Rossiter A. Five Fundamental Principles of English Grammar. www.linguapress.com/
7. The Use of the Prepositions in Old English Texts. www.google.com/

МЕСТО ПРЕДЛОГОВ В СИСТЕМЕ ЧАСТЕЙ РЕЧИ АНГЛИЙСКОГО ЯЗЫКА

Резюме

Определение принципов классификации частей речи в языкознании – одна из проблем, которая существует уже много веков и привела к появлению множества концепций по этому вопросу. Идеи, зародившиеся у представителей греческой школы языкознания, были обогащены дополнительными суждениями представителей индийской, александрийской,

младограмматической школ, а также русских лингвистов. В настоящее время слова в языках представлены в разделении на основные, служебные и самостоятельные части речи, основанном на трёх важных принципах, учитывающих их семантику, морфологические особенности и синтаксические функции. В современном английском языке предлоги относятся к группе вспомогательных частей речи в силу присущих им характеристик. В статье анализируется положение предлогов в системе частей речи английского языка.

Ключевые слова: *классификация частей речи, семантика, морфологические признаки, синтаксическая функция, основные части речи, служебные части речи*

NİSHANA KARIMOVA

THE PLACE OF THE PREPOSITIONS IN THE SYSTEM OF THE PARTS OF SPEECH IN THE ENGLISH LANGUAGE

Summary

The determination of the principles of classification of parts of speech in linguistics is one of the problems that has lasted for centuries and has led to the emergence of many concepts around the subject. The ideas that began with representatives of the Greek school of linguistics were enriched with additional judgements by representatives of the Indian, Alexandrian, Young Grammarians schools, as well as Russian linguists. Currently, words existing in languages are represented in the division into main, auxiliary and independent parts of speech based on three important principles, taking into account their semantics, morphological features and syntactic functions. In Modern English, prepositions are attributed to the group of auxiliary parts of speech due to their inherent characteristics. The article analyzes the position of prepositions in the system of parts of speech in English.

Key words: *classification of parts of speech, semantics, morphological features, syntactic function, main parts of speech, structural parts of speech*

Rəyçi: fil.elmləri namizədi, dosent Lalə Qurbanova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

SVETLANA NOVRUZOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent
snovruzova952@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ İCTİMAİ-SİYASİ TERMİNLƏRİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Xülasə

Azərbaycan dilində ictimai-siyasi terminlərin tarixi inkişafı ölkənin ictimai-siyasi həyatındakı dəyişikliklərlə sıx bağlı olmuşdur. Erkən dövrlərdə ərəb və fars mənşəli terminlər (“məclis”, “divan”, “vəzifə”) üstünlük təşkil etmiş, XIX əsrdə Avropa təsiri ilə “parlament”, “konstitusiya”, “demokratiya” kimi anlayışlar dilə daxil olmuşdur. Sovet dövründə ideoloji xarakterli terminlər (“kommunizm”, “proletariat”, “kolxoz”) ictimai diskursun əsasını təşkil etmişdir. Xüsusilə 1980-1990-cı illər milli azadlıq hərəkatı və SSRİ-dəki islahatlar nəticəsində terminologiyanın inkişafında dönüş yaratmışdır. Bu mərhələdə “istiqlal”, “milli şüur”, “meydan hərəkatı” kimi milli məfkurə terminləri ilə yanaşı, “plüralizm”, “revanşizm”, “demokratik tranzit” kimi beynəlxalq terminlər də dilə daxil olmuşdur. Müstəqillikdən sonra isə Azərbaycan dili yeni dövrün anlayışlarını ifadə edən terminlərlə zənginləşmiş, müasir mərhələdə isə qloballaşma təsiri altında “inteqrasiya”, “qlobal təhlükəsizlik”, “davamlı inkişaf” kimi anlayışlar aktivləşmişdir.

Açar sözlər: ictimai-siyasi terminlər, tarixi inkişaf, Azərbaycan dili, milli terminologiya, sovet dövrü, müstəqillik.

İctimai-siyasi terminologiya dil sistemində ən tez dəyişikliyə uğrayan və dinamik şəkildə inkişaf edən sahələrdən biridir. Bu terminlər ictimai həyatın müxtəlif mərhələlərində yaranan sosial-iqtisadi, siyasi və ideoloji dəyişikliklərin dil müstəvisində ifadə olunma formasıdır. Azərbaycan dilində ictimai-siyasi terminlərin inkişafı həm tarixi-siyasi şərait, həm də dilin daxili imkanları ilə sıx bağlı olmuşdur. Termin yaradıcılığında müxtəlif dövrlərdə həm milli mənbələr, həm də xarici dillərin təsiri mühüm rol oynamışdır. Bu baxımdan Azərbaycan dilində ictimai-siyasi terminlərin tarixi inkişaf mərhələlərinin araşdırılması həm terminologiya, həm də ümumi dilçilik baxımından aktualdır. Bu məqsədlə ictimai-siyasi terminlərin formalaşmasına təsir göstərən tarixi mərhələlərin ardıcıllıqla təhlili xüsusi əhəmiyyət kəsb edir.

1. *Erkən mərhələlər və klassik dövr*. Azərbaycan dilində ictimai-siyasi terminlərin tarixi orta əsrlərə gedib çıxır. *Bəy, xan, şah, əmir, divan, bəylərbəyi, cümə* (ictimai toplantı mənasında) kimi anlayışlar dövlət idarəçiliyi və ictimai münasibətlərin əsas terminləri idi. Bu mərhələdə ərəb və fars dillərindən alınma

terminlər üstünlük təşkil edirdi. Ərəb dilindən daxil olan *məclis, xalq, dövlət, siyasət*, fars dilindən alınan *şura, vəzifə, hökumət* kimi sözlər bu gün də dilimizdə işlənməkdədir.

2. *XIX əsrdə yeni ictimai-siyasi terminlərin formalaşması.* XIX əsrin ikinci yarısında Rusiya imperiyasının tərkibində baş verən siyasi dəyişikliklər Azərbaycan ictimai həyatına da təsir göstərmişdir. Bu dövrdə *parlament, konstitusiya, millət, maarifçilik, vətəndaş* kimi terminlər meydana çıxdı. Qeyd edək ki, bəzi ictimai-siyasi anlayışlar daha çox rus dili vasitəsilə Azərbaycan dilinə keçirdi. Məsələn, *qəzet, proletariat, demokratiya, sosializm* terminləri Avropa mənbəli olub rus dili vasitəsi ilə daxil olmuşdur.

S.Xəlilova ictimai-siyasi terminologiyanın leksik-semantik zənginləşməsinə iki əsas halda ehtiyac olduğunu qeyd edir: 1. Yeni ictimai-siyasi anlayış yarananda və bu anlayışı adlandırmaq üçün müvafiq terminoloji sistemdə lazımi innovasiya olmadıqda; 2. Başqa dillərdən terminalma [2, s.32].

3. *Sovet dövründə ictimai-siyasi terminlərin inkişafı*. XX əsrin əvvəllərində Sovet hakimiyyətinin qurulması ilə ictimai-siyasi terminologiya yeni mərhələyə qədəm qoydu. Sovet ideologiyası ilə bağlı *kommunizm, partiya, sovet, kolxoz, proletar diktaturası, plenum, konqres* kimi terminlər geniş yayıldı. Bu terminlər yalnız siyasi idarəçilik sahəsini deyil, həm də gündəlik məişəti əhatə edirdi. Termin yaradıcılığı çox vaxt ideoloji nəzarət altında aparılırdı. Milli termin yaradıcılığına məhdudiyyətlər olsa da, Azərbaycan dilinin daxili resursları hesabına *əməkdaşlıq, müstəqillik, azadlıq, birlik* kimi milli ictimai-siyasi anlayışlar qorunub saxlanıldı.

1980-ci illərin əvvəllərində Azərbaycan ictimai-siyasi terminologiyasında hələ də sovet ideoloji yönümlü terminlər üstünlük təşkil edirdi. *Kommunist partiyası, sosializm yarışı, xalq deputatları soveti, SSRİ konstitusiyası, internasionalizm* kimi anlayışlar dövrün əsas terminoloji bazasını təşkil edirdi. Bu terminlər dövlət idarəçiliyi, mətbuat, təhsil və gündəlik ünsiyyətdə geniş şəkildə işlənirdi.

1985-ci ildən sonra SSRİ-də başlanan *yenidənqurma* (perestroyka) və aşkarlıq (qlasnost) siyasəti Azərbaycan ictimai-siyasi terminologiyasına da yeni anlayışlar gətirdi. *İslahat, aşkarlıq, demokratik dəyişikliklər, yenidənqurma, siyasi islahat* kimi terminlər dilin aktiv işlək qatına daxil oldu. Bu terminlər bir tərəfdən sovet mətbuatında, digər tərəfdən isə milli ziyalıların çıxışlarında və ictimai müzakirələrdə geniş yayıldı.

1980-ci illərin sonuna yaxın Azərbaycanda milli azadlıq hərəkatının güclənməsi ictimai-siyasi terminologiyanın milli ruhda zənginləşməsinə səbəb oldu. Bu mərhələdə *istiqlal, azadlıq, suverenlik, milli azadlıq hərəkatı, xalq cəbhəsi, meydan hərəkatı* kimi terminlər yaranaraq ictimai-siyasi mühitin aparıcı anlayışlarına çevrildi. Sovet ideoloji terminləri ilə paralel şəkildə milli məfkurə ilə bağlı anlayışlar da dilin aktiv lüğət tərkibində işlənməyə başladı.

Bəzi terminlər tərcümə yolu ilə Azərbaycan dilinə uyğunlaşdırılırdı. Məsələn:

Xalq hakimiyyəti rus. народная власть

Əmək intizamı rus.трудовая дисциплина

Partiya nəzarəti rus. партийный контроль

Təbliğat-təşviqat işi rus. агитационно-пропагандистская работа.

Sovet dövründə dil siyasəti ideoloji məqsədlərə tabe idi. Bu səbəbdən terminlər kommunist ideologiyasını möhkəmləndirmək, sinfi mübarizə anlayışını təbliğ etmək, partiya rəhbərliyini legitimləşdirmək kimi ideoloji yönümlü idi. İ.Hacıyeva yazır: "Cəmiyyətdə ideologiyanın meydana gəlməsi, bu ideologiyalar arasındakı mübarizə terminoloji fondun daha da zənginləşməsinə səbəb oldu" [1, s.25]. Bu mənada 1980-ci ildə ictimai-siyasi terminologiya təkcə linqvistik deyil, həm də ideoloji alət kimi çıxış edirdi.

Bu illərin ictimai-siyasi terminologiyası həm sovet ideologiyasının son mərhələsini, həm də müstəqilliyə aparan milli hərəkatın diskursunu özündə birləşdirir. Nəticədə Azərbaycan dilində ikiqat proses gedirdi: bir tərəfdən köhnə sovet terminləri hələ işlək idi, digər tərəfdən isə milli dövlətçilik və azadlıq ideyaları ilə bağlı yeni terminlər yaranırdı. Bu keçid dövrü 1991-ci ildən sonrakı müstəqillik dövrü terminologiyasının formalaşmasına zəmin yaratdı.

4. *Müstəqillik dövründə ictimai-siyasi terminlər*. 1991-ci ildən sonra müstəqil Azərbaycan Respublikasının yaranması ictimai-siyasi terminologiyanın tamamilə yeni mərhələsini formalaşdırdı. Dövlətçilik, hüquq, beynəlxalq münasibətlər, iqtisadi islahatlar ilə bağlı yüzlərlə yeni termin dilə daxil oldu. Məsələn, *pluralizm, siyasi sistem, konstitusiya quruluşu, müstəqil dövlət, bazar iqtisadiyyatı, insan hüquqları* və s. Eyni zamanda milli məfkurə ilə bağlı *milli siyasət, milli dövlətçilik, dil siyasəti, dövlətçilik ənənəsi, milli təhlükəsizlik* kimi anlayışlar geniş istifadə olunmağa başladı.

S.Novruzova ictimai-siyasi terminologiyanın formalaşması və inkişafını sosial inkişafın dialektikasını əks etdirən sosial anlayışların inkişafı ilə bağlayır. Dilçi yazır: "Ölkənin ictimai-siyasi həyatında baş verən radikal dəyişikliklər dilin leksik-semantik sistemində, ilk növbədə, ictimai-siyasi leksika sahəsində mühüm dəyişikliklərə səbəb olur ki, bu da tamamilə qanunauyğun prosesdir" [3, s.56].

Bu dövrdə termin yaradıcılığı həm xarici təsirlər, həm də milli dilin daxili imkanları əsasında inkişaf edirdi. Bir tərəfdən *plüralizm, multipartiyalı sistem, konsepsiya, revanşizm, ratifikasiya* kimi beynəlxalq mənşəli anlayışlar dilə daxil olurdu, digər tərəfdən isə milli dilin öz sözləri əsasında yeni ictimai-siyasi ifadələr formalaşırdı: *özünüdərk, milli şüur, azad seçkilər, milli birlik* və s.

XX əsrin son onilliyi Azərbaycan ictimai-siyasi terminologiyasının inkişafında xüsusi mərhələ kimi qiymətləndirilməlidir. Bu dövr milli azadlıq hərəkatının təsiri ilə formalaşan yeni terminoloji mühitlə səciyyələnirdi.

5. *Müasir mərhələ və qloballaşmanın təsiri*. XXI əsrdə Azərbaycan ictimai-siyasi leksikası daha çox qloballaşma və informasiya texnologiyalarının təsiri altında inkişaf edir. Çağdaş dövrdə *geosiyasət, qlobal təhlükəsizlik, strateji tərəfdaşlıq, inteqrasiya, davamlı inkişaf, elektron hökumət, sosial şəbəkə siyasəti* kimi anlayışlar

dilin aktiv söz ehtiyatına daxil olmuşdur. Bu terminlərin işlənməsi yalnız elmi mətnlərdə deyil, həm də gündəlik ictimai diskursda müşahidə olunur.

Azərbaycan dilində ictimai-siyasi terminlərin inkişafı bir neçə mühüm mərhələni əhatə etmişdir: klassik dövrdə ərəb-fars təsiri, XIX əsrdə rus dili vasitəsilə Avropa təsiri, sovet dövründə ideoloji yönümlü terminlər, müstəqillikdən sonra milli dövlətçilik və beynəlxalq münasibətlərə dair terminlər, müasir dövrdə isə qloballaşma və texnoloji inkişafla bağlı terminlər. Hər bir mərhələ ictimai-siyasi həyatdakı dəyişikliklərin dil müstəvisində əksi olmuşdur. Bu proseslər Azərbaycan dilinin zənginləşməsinə, ictimai-siyasi diskursun genişlənməsinə xidmət etmişdir.

Светлана Новрузова

Этапы исторического развития общественно-политических терминов в азербайджанском языке

Резюме

Историческое развитие общественно-политической терминологии в азербайджанском языке тесно связано с изменениями в социально-политической жизни страны. В ранний период преобладали арабские и персидские термины («меджлис», «диван», «вазифа»), в XIX веке под влиянием Европы в язык вошли такие понятия, как «парламент», «конституция», «демократия». В советский период основой политического дискурса стали идеологические термины («коммунизм», «пролетариат», «колхоз»). Особый поворот наблюдался в 1980–1990-е годы, когда в условиях национального движения и реформ в СССР в терминологии появились новые пласты: наряду с национально ориентированными понятиями («независимость», «национальное сознание», «движение на площади») активно употреблялись и международные термины («плюрализм», «реваншизм», «демократический транзит»). После обретения независимости азербайджанский язык обогатился терминами, отражающими реалии государственности, права и управления, а на современном этапе под влиянием глобализации активизировались такие понятия, как «интеграция», «глобальная безопасность», «устойчивое развитие».

Ключевые слова: Общественно-политическая терминология, историческое развитие, азербайджанский язык, национальная терминология, советский период, независимость.

Svetlana Novruzova

Stages of the historical development of socio-political terms in the Azerbaijani language

Abstract

The historical development of socio-political terminology in the Azerbaijani language has been closely linked to the country’s socio-political changes. In the early periods, Arabic and Persian terms (“majlis,” “divan,” “vazifa”) dominated, while in

the 19th century European influence introduced concepts such as “parliament,” “constitution,” and “democracy.” During the Soviet era, ideologically driven terms (“communism,” “proletariat,” “kolkhoz”) formed the core of political discourse. The 1980s–1990s marked a turning point due to national independence movements and reforms within the USSR. In this period, nationally oriented terms such as “independence,” “national consciousness,” and “Meydan movement” emerged alongside international terms like “pluralism,” “revanchism” and “democratic transition”. After independence, Azerbaijani enriched its lexicon with terminology reflecting the realities of statehood, law, and governance. In the contemporary stage, under the influence of globalization, terms such as “integration,” “global security,” and “sustainable development” have become active components of the socio-political vocabulary.

Keywords: Socio-political terms, historical development, Azerbaijani language, national terminology, Soviet period, independence.

Ədəbiyyat

1. Hacıyeva İ. Azərbaycan dilinin ictimai-siyasi terminologiyası. Fil.ü.f.d. dissertasiyası. Bakı, 1997, 148 s.
2. Xəlilova S. İnternasional terminlər. Bakı, 1991.
3. Novruzova S. Azərbaycan dilində ictimai-siyasi terminlərin yeri. Terminologiya məsələləri, №2, Bakı, 2020.

Rəyçi: fil.ü.f.d., dosent Sima Quliyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

İMANOVA KƏMALƏ XALİD QIZI
Baş müəllim
Xarici dillər kafedrası
Azərbaycan Tibb Universiteti, Mərdanov qardaşları 58
İmanova.kamala@outlook.com

THE ROLE OF ENGLISH AS THE GLOBAL LANGUAGE OF MEDICINE

SUMMARY

Medicine has historically relied on languages like Latin and Greek, which shaped anatomical and clinical terminology. In the 19th and early 20th centuries, national languages such as German, French, and Russian influenced medical language, but many terms still had Latin or Greek roots.

After World War II, English became dominant in medicine due to the migration of scientists to the US and UK, the political and scientific influence of English-speaking countries, and the global need for a single language for research and communication. Major medical journals, global health organizations like WHO, and international conferences use English, making it the bridge for worldwide collaboration.

English enables access to the latest research, medical education, training programs, and resources across the globe. Standardized English terminology reduces errors in clinical practice, especially in multilingual settings. During the COVID-19 pandemic, English facilitated rapid sharing of data, vaccine information, and treatment guidelines worldwide.

However, reliance on English poses challenges. Non-native speakers may struggle with writing, publishing, and professional communication, and patients who do not speak English may face barriers in healthcare settings. Cultural and ethical sensitivity still remains essential in patient care, so local languages must be prioritized here.

In conclusion, English unifies the global medical community, enhances access to knowledge, and supports international collaboration. At the same time, local languages should be prioritized in patient care to ensure empathy, clarity, and cultural sensitivity.

Key words: English, medical, healthcare, communication

Historical roots of medical language

There's not a thing like medical linguistics, but perhaps there should be. When we speak of medicine, and its languages, first names that come to mind are Latin, German and English. Languages like Greek and Latin have had a tremendous impact on all aspects of sciences throughout history. Medicine wasn't an exception. Even today, medical students, anatomy professors, and doctors all over the globe communicate using this language. Anatomical nomenclature, clinical and pharmacological terminology are the areas where Latin is traditionally preserved most.

19th 20th centuries were the national terminology era of medical languages where French, German and Russian contributed to the existing medical language. Especially before World War 2. We can feel that now as well. Students from abroad learn German with the ultimate goal being studying residency in Germany, as Germany is still a top choice for students from various countries for its relatively cheaper and still high quality medical education.

The national medical languages had much in common since most of the medical terms were derived from medical Latin, but there were systematic differences that still persist. One of the interesting facts is that during this stage, some medical words were created that we still use today actually have Greek roots rather than Latin. Greek language offers more flexibility in some cases, for example, the word *hyper-* is Greek rooted, but the word *super-* is Latin. In today's terminology we use the word *hypertension*, not supertension as *hyper-* is more productive.

Rise of English as the medical language

Moving forward to our modern world, our medical language is mostly English right now. How and why did English become the dominant language in medicine? After World War 2, many scientists fled Europe to US and UK, which made English a top scientific language. US became a political superpower, a world leading country, heavily funding medical research, universities, and institutions, which increased the English influence even more. Leading medical journals like *Nature Medicine, The Lancet* publish in English. World's biggest organizations like WHO, UN use English as the global communication language. In summary, English took the medical language spot because of political dominance of English-speaking countries, the scientific advancements in those countries, and the global need for a single medical language.

English has not only become the language of medicine, but also social media, global organizations, even AI which is changing our world mostly uses English. English has effectively become the global language. Most countries teach students English as foreign languages at school. Millions of people publish papers in English, post videos in English, watch films in English. A professor in Colombia, a student in India, a doctor in Australia, a lawyer in the US all might have one thing in common-

English. That shows how magnificent the impact and power of English is in our modern world.

Benefits of English in Medicine

So how does this apply to medicine? Whether it's through research publications, training sessions, or cross-functional meetings, English becomes the bridge that connects healthcare professionals, policymakers, and other stakeholders who are working tirelessly to improve public health outcomes worldwide. The real-life example of that happened during the coronavirus pandemic. All science centres, laboratories were trying to understand the virus, its new variants and invent vaccines which would help and protect non-infected people to some degree. World Health Organization was the centre which summoned the data presented, analysed statistics from countries all over the globe and of course, approved vaccines for their usage. That approval meant the vaccines met international standards for safety, efficacy, and quality, and it allowed countries (especially those without strong national regulatory authorities) to start using them. All of this data was presented to the world primarily in English. Laboratories shared their advancements in English. People across the planet had the latest news on vaccines and their outcome, drugs which helped with the virus, and ways to prevent the deadly infection through English. So basically, English made global communication easier by acting as a bridge language that connected the world during pandemic, especially in science, medicine and media.

The scientific community uses English as the primary language for international communication. Most advancements in scientific fields, as well as medicine, happen in English speaking countries and most prestigious journals publish in English and conferences are held in English-speaking countries. It enables scientists, clinicians to collaborate on research projects, share findings and contribute to a unified global scientific discourse.

Journals such as *The Lancet*, *The New England Journal of Medicine*, *The Journal of the American Medical Association (JAMA)*, and *The British Medical Journal (BMJ)* set the global standard for the dissemination of medical knowledge. Physicians and researchers across the world turn to these sources for the latest developments in clinical practice, public health, and biomedical science.

The dominance of English in medical publishing is not limited to elite journals. It is estimated that between **70 and 80 percent of all scientific articles in medicine and the health sciences are written in English**, regardless of the country of origin of the authors. This creates a unifying effect: research conducted in Japan, Brazil, Türkiye, or Nigeria can be understood and critically evaluated by scholars in Europe or North America, and vice versa. In this way, English acts as a bridge, ensuring that discoveries are not limited by national or linguistic borders.

Challenges and drawbacks

However, this dominance is not without its challenges. For many non-native speakers, publishing in English represents a barrier. Writing complex scientific

arguments in a second or third language requires additional time, effort, and resources. As a result, talented researchers may struggle to communicate their findings with the same precision and clarity as native speakers. Furthermore, the requirement to publish in English often forces scientists to rely on translation or editing services, which can add financial burdens.

Despite these challenges, the use of English as the common language of medical research ensures a level of standardization and accessibility that would be impossible if every country published exclusively in its own language.

Beyond research and publications

The importance of English extends beyond research and publications to encompass training and capacity-building initiatives within global health organizations. Many training programs, workshops, and educational materials are developed and delivered in English, particularly in countries where the local healthcare workforce needs to be updated on the latest medical practices, technologies, and protocols. English serves as the medium for imparting essential skills and knowledge to professionals from various linguistic backgrounds, thereby enhancing their competencies and improving the quality of healthcare services.

For instance, international organizations such as the World Health Organization (WHO) and the Centers for Disease Control and Prevention (CDC) often conduct training sessions in English, either in-person or through online platforms. These trainings cover a wide range of topics, from emergency response and disease prevention to public health administration and clinical best practices. By using English as the instructional language, these programs can reach a broader audience and ensure that the training content is universally understood and applied.

While the use of English in training programs offers numerous benefits, it can also pose challenges for participants who are not proficient in the language. To bridge this gap, many organizations provide language support services, such as bilingual instructors, translated materials, and language proficiency courses, to help non-native English speakers fully engage with the training content. Additionally, fostering a multilingual environment within training settings can encourage greater participation and collaboration among diverse groups, ultimately strengthening the overall impact of capacity-building efforts in the global health sector.

Access to resources

Medicine and healthcare are areas which are changing very rapidly. Diseases change, antibiotics that used to work become useless as bacteria develop resistance, new viruses emerge, pathologies which were very rare become common. This increases the need for accessing resources from all over the globe.

Access to resources in healthcare refers to the availability and utilization of information, tools, and materials that support healthcare professionals in delivering quality care, making informed decisions, and staying updated with the latest advancements in the field. In the context of intercultural medical communication,

access to resources encompasses a wide array of elements crucial for healthcare providers working across diverse linguistic backgrounds and healthcare systems. One fundamental resource is access to medical literature, research articles, textbooks, and educational materials. These resources, often available in English, serve as a vast repository of knowledge, allowing healthcare professionals to stay informed about new treatments, protocols, and best practices. Moreover, access to online databases, medical journals, and digital platforms provides a platform for continuous learning, professional development, and collaboration among healthcare professionals globally. Online resources also facilitate access to clinical guidelines, evidence-based practices, and diagnostic tools, empowering healthcare providers to make well-informed decisions in patient care. Language proficiency, especially in English, becomes pivotal in accessing and utilizing these resources. Healthcare providers proficient in English have a broader scope for accessing information, participating in international conferences, and contributing to global discussions and research collaborations. In addition to written resources, access to interpreter services or multilingual staff is another critical aspect. This resource supports effective communication between healthcare providers and patients with limited proficiency in the dominant language, ensuring that patients fully comprehend their diagnosis, treatment plans, and healthcare instructions. Overall, access to diverse resources, primarily facilitated by proficiency in languages such as English, is essential for healthcare providers to stay informed, continually learn, and deliver quality care within multicultural healthcare settings. It promotes a culture of learning, innovation, and collaboration, ultimately contributing to improved healthcare outcomes for patients worldwide.

Medical education is mostly English as well. Best medical universities like Harvard, Oxford, Stanford, Cambridge, Johns Hopkins University use English as the primary educating language. Universities of non-English speaking countries also teach their students this language as its significance rises day by day. Knowing English opens a lot of doors for future doctors and medical professionals. Medical exams like USMLE require knowledge of English.

We talked about medical terminology which had Greek or Latin roots. Modern terminology mostly uses English. This type of standardization of terminology may be the greatest benefit of English in healthcare. By using internationally recognized English medical terms, healthcare professionals can minimize confusion and reduce the risk of medical errors, especially in contexts where teams are multilingual. This consistency is particularly important in areas such as surgery, pharmacology, and emergency medicine, where even a small misunderstanding can have serious consequences.

However, there are also drawbacks. The widespread reliance on English may disadvantage patients who do not speak the language. In hospitals where English dominates, local languages can sometimes be overlooked, creating barriers to

effective doctor–patient communication. This may lead to misunderstandings about symptoms, treatment options, or informed consent. Furthermore, the pressure on non-native English-speaking physicians to constantly operate in a second language may create stress and even contribute to professional burnout.

Cultural sensitivity

Scientists write in English, doctors reshape their understanding of diseases using English, social media is run by English speaking doctor-influencers. English is everywhere in healthcare nowadays. As we talked about it, standartized English terminology, global connection using one language, bridge for doctors around the world, common language for research, these are the primary benefits of English in medicine. Its widespread use facilitates international collaboration, enhances access to knowledge, and supports the dissemination of health information to diverse audiences. The main challenge and drawback of the dominance of English is with non-native speakers who might be not fully fluent in English. The other challenge which doctors face is the difficulty in engaging with patients from other cultures than their own. English can act as a bridge which connects doctors and patients overseas, but it also means a greater cultural and ethical differences which will coexist in the doctor-patient environment. This means that understanding cultural sensitivity is essential.

Conclusion

In conclusion, English has connected healthcare professionals and patients all over the globe, has eased access to developments in medical sciences. Therefore, it should continue being the language of medicine. However, individual patient care should prioritize the use of local languages especially for those who are not fluent or don’t English well to strengthen empathy, cultural sensitivity. If we manage to do that, medicine will benefit from the unifying role of English and individual patient needs mostly cultural and ethical will also be preserved.

Иманова Кямаля Халид кызы

Роль английского языка как глобального языка медицины

Резюме

Исторически медицина опиралась на такие языки, как латинский и греческий, которые сформировали анатомическую и клиническую терминологию. В XIX и начале XX века национальные языки, такие как немецкий, французский и русский, оказали влияние на медицинский язык, однако многие термины всё ещё имели латинские или греческие корни.

После Второй мировой войны английский язык стал доминировать в медицине благодаря миграции учёных в США и Великобританию, политическому и научному влиянию англоязычных стран, а также глобальной необходимости единого языка для исследований и коммуникации. Основные

медицинские журналы, международные организации здравоохранения, такие как ВОЗ, и международные конференции используют английский язык, делая его мостом для мирового сотрудничества.

Английский обеспечивает доступ к новейшим исследованиям, медицинскому образованию, программам подготовки и ресурсам по всему миру. Стандартизированная английская терминология снижает количество ошибок в клинической практике, особенно в многоязычной среде. Во время пандемии COVID-19 английский язык способствовал быстрому обмену данными, информацией о вакцинах и руководствами по лечению во всём мире.

Однако зависимость от английского языка несёт и трудности. Носители других языков могут сталкиваться с проблемами при написании, публикации и профессиональном общении, а пациенты, не владеющие английским, — с барьерами в медицинской помощи. Учет культурных и этических особенностей по-прежнему имеет важное значение при оказании помощи пациентам, поэтому приоритет здесь должен отдаваться местным языкам.

В заключение, английский язык объединяет мировое медицинское сообщество, расширяет доступ к знаниям и поддерживает международное сотрудничество. В то же время при уходе за пациентами приоритет следует отдавать местным языкам, чтобы обеспечить эмпатию, ясность и культурную чувствительность.

Ключевые слова: английский, медицина, здравоохранение, коммуникация

İmanova Kəmalə Xalid qızı

Qlobal tibb dili kimi ingilis dilinin rolu

Xülasə

Tibb tarixən anatomik və klinik terminologiyanı formalaşdıran latın və yunan kimi dillərə etibar etmişdir. 19-cu əsrdə və 20-ci əsrin əvvəllərində alman, fransız və rus kimi milli dillər tibbi dilə təsir etdi, lakin bir çox terminlər hələ də latın və ya yunan köklərinə malik idi.

İkinci Dünya Müharibəsindən sonra alimlərin ABŞ və Böyük Britaniyaya miqrasiyası, ingilisdilli ölkələrin siyasi və elmi təsiri, tədqiqat və ünsiyyət üçün vahid dilə qlobal ehtiyac səbəbindən ingilis dili tibbdə üstünlük təşkil etdi. Böyük tibb jurnalları, ÜST kimi qlobal səhiyyə təşkilatları və beynəlxalq konfranslar ingilis dilindən istifadə edərək onu dünya miqyasında əməkdaşlıq üçün körpüyə çevirir.

İngilis dili bütün dünyada ən son tədqiqatlara, tibbi təhsilə, təlim proqramlarına və resurslara çıxış imkanı verir. Standartlaşdırılmış ingilis terminologiyası klinik praktikada, xüsusən də çoxdilli şəraitdə səhvləri azaldır. COVID-19 pandemiyası zamanı ingilis dili bütün dünyada məlumatların, peyvəndlər haqqında ən son yeniliklərin və müalicə təlimatlarının sürətlə paylaşılmasını asanlaşdırdı.

Bununla belə, ingilis dilindən asılılıq çətinliklər yaradır. Ana dili ingilis olmayanlar yazı, nəşriyyat və peşəkar ünsiyyətdə çətinliklər yaşaya bilər və ingilis dilini bilməyən xəstələr səhiyyə müəssisələrində maneələrlə üzləşə bilərlər. Həkim və pasiyent kontaktında mədəni və etik həssaslıq vacib bir amil olaraq qalır, buna görə də burada yerli dillərə üsyünlük verilməlidir.

Nəticə olaraq, ingilis dili qlobal tibb ictimaiyyətini birləşdirir, biliyə çıxışı artırır və beynəlxalq əməkdaşlığı dəstəkləyir. Eyni zamanda, empatiya, aydınlıq və mədəni həssaslığı təmin etmək üçün xəstələrlə təmas zamanı yerli dillərə üstünlük verilməlidir.

Açar sözlər: İngilis dili, tibb, səhiyyə, ünsiyyət

References:

https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC1079361/
https://5minuteenglish.com/the-role-of-english-in-global-health-organizations/
https://www.researchgate.net/publication/10913254_Latin_as_the_language_of_medical_terminology_Some_remarks_on_its_role_and_prospects
https://isg-journal.com/isjel/article/view/615/344
https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC9134667/

Rəyçi prof. Məmmədova Z.Ş.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ——————

NƏZƏROVA HÜRİYYƏ
ADU
Huriyye.nezerova69@gmail.com

FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FEİLİ SİFƏT

XÜLASƏ

Ayrı-ayrı dil qruplarına daxil olan fransız və Azərbaycan dillərində feillər qrammatik və sintaktik əlamətlərinə görə iki qrupa bölünür:

a) Feilin təsriflənən forması
b) Feilin təsriflənməyən forması

1-ci qrupa daxil olan feillər xəbər vəzifəsində işlənir, şəxsə və kəmiyyətə görə dəyişir, iş, hal, hərəkəti konkret zamanla bağlayır. 2-ci qrupa daxil olan feillər isə nitq hissələrinə meyl göstərir və onlara məxsus əlamətləri qəbul edir.

İstər fransız, istərsə də Azərbaycan dillərində feilin təsriflənməyən formaları aşağıdakılardır:

1. Məsdər
2. Feili sifət
3. Feili bağlama

Feili sifət bəzi əlamətlərinə görə feilin təsriflənən və təsriflənməyən formalarından fərqlənir. Qeyd etmək lazımdır ki, müasir fransız və Azərbaycan dillərində feili sifət sintaktik üsulla, yəni feillərə xüsusi şəkilçi artırmaqla düzəlir.

Fransız dilində sözlər uzlaşma və yanaşma, Azərbaycan dilində isə yalnız yanaşma əlaqəsi əsasında birləşib zamana, şəxsə və kəmiyyətə görə dəyişirlər. Fransız dilində feili sifət aid olduğu isimdən, yaxud isimləşən sözdən sonra gəlir və onun bütün əlamətlərini qəbul edir. Azərbaycan dilində isə feili sifət aid olduğu isimdən əvvəl gəlir, onun əlamətlərini özündə əks etdirir.

Feili sifət ikili təbiətə malikdir. Belə ki, onlar bir tərəfdən feillərə, digər tərəfdən isə sifətlərə yaxınlaşırlar.(1)

Fransız dilində feili sifətin iki növü var:

1.Participe présent
2.Participe passé

Keçmiş zaman feili sifəti isə quruluşca üç cür olur:

1.Participe passé simple: parlé, vo, pris
2.Participe passé composé: ayant lu, étant arrivé
3.Forme composé passiv: ayant été écrit, ayant été venu

Fransız dilindən fərqli olaraq Azərbaycan dilində feili sifətin üç forması var:

1.İndiki zaman feili sifəti: yazan, danışan
2.Keçmiş zaman feil sifəti: oxunmuş, yazılmış
3.Gələcək zaman feili sifəti: oxunacaq, yazılacaq

Açar sözlər: feili sifət, feil bağlama, məsdər, feilin təsriflənən forması

Feili sifət özünün morfoloji əlamətinə və sintaktik vəzifəsinə görə feilin təsriflənən və təsriflənməyən formalarından fərqlənir.Fransız və Azərbaycan dillərində feili sifət sintaktik üsulla yəni feillərə xüsusi şəkilçi artırmaqla düzəlir.Qeyd etmək lazımdır ki,fransız dilində təyin olunan sözlər uzlaşma və yanaşma,Azərbaycan dilində isə yalnız yanaşma əlaqəsi əsasında birləşib zamana,şəxsə və kəmiyyətə görə dəyişirlər.

Fransız dilində feili sifət isimlərdən və ya isimləşən sözlərdən sonra gələrək onların hərəkətlə bağlı əlamətlərini özündə əks etdirir.Azərbaycan dilində isə feili sifət isimlərin və ya isimləşən sözlərin əvvəlində gəlib,onların müəyyən dəyişikliklə bağlı əlamətini bildirir.

İstər fransız,istərsə də Azərbaycan dillərində feili sifət zamana,şəxsə və kəmiyyətə görə dəyişmir,növ,təsirlilik və təsirsizlik,inkarlıq formalarından sonra gəlir,feili sifət şəkilçiləri forma düzəldici şəkilçilər qrupuna daxil olur.Feili sifət hansı cümlə üzvünün yerində işlənirsə,onun da sualına cavab verir.Həm fransız,həm də Azərbaycan dillərində feili sifət leksik mənasına görə feilə,semantik mənasına görə isə sifətə yaxınlaşır.(2)

Fransız dilində feili sifətin iki növü var:

1.participe présent-indiki zaman feili sifəti

2.participe passé-keçmiş zaman feili sifəti

Keçmiş zaman feili sifəti isə quruluşca üç cür olur:

1.participe passé simple- lu,venu,parlé

2.participe passé composé-ayant lu, étant venu

3.forme composé passive- ayant été écrit.

Azərbaycan dilində isə feili sifətin üç forması var:

1.İndiki zaman feili sifəti-oxuyan,oynayan

2.Keçmiş zaman feili sifəti-oxunmuş,yazılmış

3.gələcək zaman feili sifəti-oxunacaq,yazılacaq.

Fransız dilində feili sifət(participe présent) “ant” şəkilçisi ilə,Azərbaycan dilində isə -an,-ən,-yan,-yən şəkilçiləri ilə düzəlir.

Hər iki dildə feili sifət hərəkətlə bağlı olduğundan feilin xüsusi bir forması olub,hərəkət,zaman bildirir,təsirlilik və təsirsizlik ifadə edir,məlum növə məxsus şəkilçiləri qəbul edir,eyni zamanda şəxs mənasl ifadə edirlər.

Fransız və Azərbaycan dillərində feili sifətin məzmununda hərəkət ifadəsi olur lakin feili sifətdəki hərəkətlə feildəki hərəkətin məzmunu eyni deyil.Belə ki,feildəki hərəkət xəbərin ifadəsinə,feili sifətin ifadə etdiyi hərəkət isə əşyanın bu və ya digər əlamətinin ifadəsinə xidmət edir.

Məsələn:Le garçon jouant dans la cour est mon voisin-Həyətdə oynayan oğlan mənim qonşumdur.

Onun söylədiyi fikirlər hamının qanını qaraltdı.

Nümunə üçün verilmiş bu cümlələrdə feili sifətin(le garçon jouant,oynayan oğlan,)ifadə etdiyi hərəkət hər hansı bir əşyaya xidmət edir.

Feili sifətdə olan hərəkət istər-istəməz onu bu və ya digər zamana bağlayır.Yəni təyin olunan sözün müəyyən zamanla bağlı olan əlamətini,keyfiyyətini,vəziyyətini bildirir.

Məsələn:Un homme parlant tout seul a toujours l`air ridicule-Öz-özünə danışan adamın qəribə bir görkəmi olur.

Görəsi günümüz varmış(zərb-məsəl)

Ası,-əsi şəkilçisi,əsasən gələcək zaman mənalı feili sifət yaradır.Lakin bu şəkilçinin gələcək zamanla yanaşı indiki zaman mənası ifadə etməsi hallarına da rast gəlmək olur.Eləcə də fransız dilində "ant" şəkilçisi ilə düzələn feili sifətlər indiki zamanla yanaşı,keçmiş zaman mənası da ifadə edə bilirlər.

İstər fransız,istərsə də Azərbaycan dillərində feili sifətlərdə təsirlilik və təsirsizlik əlamətləri nəzərə çarpır.Fransız dilində təsirsiz mənada:

Məsələn:Un travail accompli.Un homme marchat dans la rue.

Təsirli mənada:Une lettre écrite.Une jeune fille écrivant une lettre.

Azərbaycan dilində Təsirsiz mənada :Görüləcək iş,yazışan oğlan

Təsirli mənada :Oxuyan tələbə,açılmış güllər

Qeyd etmək lazımdır ki,Azərbaycan dilində feili sifət şəkilçilərindən an,-ən,mış,-miş,-muş,-müş,acaq,-əcək,dıq,-dik,-duq,-dük,malı,-məli həm təsirli,həm də təsirsiz feillərə artırılır.(3)

Fransız dilində participe présent(indiki zaman feili sifəti)məlum növə aid olan bitməmiş və xəbərin hərəkəti ilə eyni zamanda baş verən(yəni həyata keçməkdə olan)bir hərəkət bildirir.Beləliklə, participe présent özündə iki qrammatik mənanı-növ mənasını bir-biri ilə bağlı şəkildə ifadə edir.

Məsələn:Mme Claire était une femme parlant peu,ne pensant guére,économisant de son mieux.

Təsirli feillərdən düzələn participe passé(keçmiş zaman feili sifəti)-məchul məna,təsirsiz feillərdən düzələn participe passé isə məlum növün mənasını ifadə edir.

Məsələn:Un enfant abandonné.(məchul növ) Un enfant sorti.(məlum növ)

Fransız dilindən fərqli olaraq Azərbaycan dilində növ mənası feili sifət şəkilçiləri ilə deyil,növ kateqoriyasına məxsus şəkilçilərlə meydana gəlir.(4)

1.Yeni gələn müəllim hörmətlə qarşılandı.(məchul növ)

2.Yazılacaq imlanı müəllim bir daha nəzərdən keçirdi.(məlum növ)

3.Savaşan insanlar xoşa gəlməyən sözlər işlətdilər.(qarşılıq növü)

Hər iki dildə feili sifət inkarlıq kateqoriyasını özündə əks etdirə bilir.Lakin fransız dilində inkarlıq feilinin təsriflənən formasının köməyilə düzəlir.Məsələn :

J`enfant jouant dans la cour est mon fils.

J`enfant qui joue dans la cour est mon fils.

Azərbaycan dilində inkarlıq feili sifət şəkilçilərinin inkar formasının köməyil düzəlir və qrammatik forma kimi özünü göstərir.Məsələn:

atılmış uşaq(təsdiq mənada)-atılmamış uşaq(inkar mənada).

alınası paltar-alınmayası paltar.

deyiləsi xəbər-deyilməyəsi xəbər,

görüləcək iş-görülməyəcək iş

Fransız dilində un texte lu,la dictée écrite deyildiyi halda,un texte ne lu pas, la dictée n` écrite pas deyilmir.Bunun üçün mütləq xüsusi konstruksiyadan-nisbi əvəzlikli tərkibdən istifadə edilir.

Un texte qui n`est pas lu.La dictée qui n`est pas écrite.

Azərbaycan dilində ar,-ər feili sifət şəkilçisi isə ən çox inkarlıq şəkilçisi ilə birləşərək müstəqil işlənir.Məsələn:Tükənməz xəzinə,görünməz adam.

Qeyd etmək lazımdır ki,Azərbaycan dilində inkarlıq bəzi hallarda sintaktik yolla da düzəlir.Bu zaman feili sifət isimləşir və özündən sonra **deyil** sözünü qəbul edir.Məsələn:Bu qız ömründə dinib-danışan deyil.Fransız dilində isə feili sifətin bu mənasına rast gəlinmir.

Azərbaycan dilində feili sifətlər özündən əvvəl gələn isimləri və isimləşən digər nitq hissələrini bütün hallarda idarə edə bilir.Burada iki halı xüsusi qeyd etmək lazımdır.(5)

1.Əgər feili sifət təyin vəzifəsində tabe sözü yönlük,təsirlik,yerlik və çıxışlıq hallarda idarə edirsə feli sifət tərkibi əmələ gəlir.

2.-dıq,-dik,-duq,-dük,-acaq,-əcək şəkilçili və isimləşən feili sifətlər yiyəlik halı idarə edirsə III növ ismi söz birləşməsi əmələ gəlir.Məsələn:Mənim oxuduğum universitet,məktubda yazılan qeydlər,dostumdan aldığım məktub;

Fransız dilində hal kateoriyası olmadığından bu dildə feli sifətin bu xüsusiyyətlərinə rast gəlinmir.

Fransız dilində keçmiş zaman feili sifəti bir qayda olaraq bitməmiş və davam etməkdə olan danışıq momenti ilə eyni zamanda baş verən hərəkəti bildirir.(6)

Məsələn: Un enfant aimé.

Qeyd etmək lazımdır ki, bu hal əsasən passiv məna ilə əlaqəyə girən təsirli fellərdə özünü göstərir.Təsirsiz fellərdən düzəlmiş feli sifətlər isə ayrı-ayrılıqda tərz mənası ifadə edə bilmirlər.Məsələn: tremblé, allé və s.

Bəzi feillərin participe passési baş vermiş hərəkətin nəticəsini ifadə edə bilir.Məsələn:

Un vase brisé-sınmış vaz

Un homme arrivé-gəlmiş adam.

Əlaqə dairəsindən asılı olaraq tərz mənası da dəyişə bilər.Məsələn:Un texte lu-oxunmuş mətn

Un texte lu par les étudiants-Tələbələr tərəfindən oxunmuş mətn.

Fransız dilindən fərqli olaraq Azərbaycan dilində tərz feili sifətlərdə əsasən analitik yolla,çox az hallarda isə morfoloji yolla ifadə olunur.

Məsələn:Yazılıb qurtarmış əsər,döyünən ürək,verəcəyim cavab, Gülə-gülə danışan qız, verəcəyim cavab.

Azərbaycan dilində yalnız –dıq,-dik,-duq,-dük və acaq,-əcək şəkilçili feli sifətlər şəxs şəkilçisi qəbul edir.Məsələn:

Oxuyacağım hekayə
Oxuyacağın hekayə
Oxuyacağımız hekayə
Oxuduğum hekayə və s.
Yazdığımız imla
Yazdıqları imla və s.

Fransız dilində isə feili sifətlər şəxs kateqoriyasının əlamətlərini özündə əks etdirə bilmirlər.

Biz yuxarıda feili sifətin ikili təbiətə malik olduğunu vurğuladıq və qeyd etdik ki, feili sifət leksik mənasına görə feilə, semantik mənasına görə isə sifətə yaxınlaşır.

Müasir fransız və Azərbaycan dillərində feili sifətlər aşağıdakı əlamətlərinə görə sifətlərə yaxınlaşırlar.

1.Hər iki dildə feili sifət sifətlər kimi əlamət və keyfiyyət bildirir.Məsələn:

Un texte lu;Une dictée écrite;Une voix étonnante;Un homme calme.

Azərbaycan dilində:Görüləcək işlər,oxunmuş mətn;danışılası söhbət,ağlayan uşaq.

Misallardan gördüyümüz kimi fransız ilində feili sifətlər aid olduğu sözdən sonra,Azərbaycan dilində isə feili sifətlər aid olduğu sözlərdən əvvəl gələrək onun əlamət və keyfiyyətini bildirir.

2.Hər iki dildə feili sifət cümlədə təyin vəzifəsində işlənir.Məsələn:fransız dilində:

On annonçait des nouvelles inquiétantes.
Les savants ont fait des découvertes étonnantes.
Nous avons assisté a une scène touchante

Azərbaycan dilində: Ölməyən arzular,dağılmış binalar,deyinən qoca.

Fransız və Azərbaycan dillərində verilən bu nümunələrdə gördüyümüz kimi feili sifətin əsas məqsədi hər hansı bir ismi və ya isimləşən sözü təyin etməkdir.

3.Feli sifətlər isimləşir.

Azərbaycan dilində feili sifətlər isimləşərək,cümlədə təyin kimi deyil,mübtəda,tamamlıq və ismi xəbər vəzifəsində işlənir.Feili sifətlər isimləşərkən hal,kəmiyyət,mənsubiyyət,xəbərlik şəkilçiləri qəbul edir.Məsələn:

Yüksək bal toplayan gəldi İmlanı səhvsiz yazana əla verdilər.
Yaxşı oxuyanlar tədbirdə çıxış etdilər.

4.Feli sifətlər sifətə məxsus suallara cavab verir.

Fransız dilində feli sifət quel,quelle,quels,quelles?,Azərbaycan dilində isə necə?,nəcür?,hansı? suallarına cavab verir.

Məsələn:

Les enfants jouant dans la cour sont mes voisins. -Quels enfants?
Küçədə oynayan uşaqlar mənim qonşularımdır.-Hansı uşaqlar?

Qeyd etmək lazımdır ki,həm fransız həm də Azərbaycan dillərində feili sifətlə yanaşı feildən düzələn sifətlər də vardır.İstər fransız,istərsə də Azərbaycan

dillərində feili sifətlə feildən düzələn sifətlər arasında müəyyən oxşarlıq və fərq vardır.Belə ki,feili sifət keyfiyyət sifətlərinin funksiyasını yerinə yetirdikdə feildən düzələn sifət kimi özünü göstərir.

Məhz feili sifətlə feildən düzələn sifətlər arasında olan oxşar və fərqli cəhətlər cümlə daxilində daha gözəl müəyyənləşə bilir.(7) Cümlədən kənarda isə onları müəyyənləşdirmək olmur.Hər iki məfhum **participe presènt** və **adjectif verbale**(feili sifət və feildən düzələn sifət)fransız dilində eyni formal əlamətə malik olub,"ant" şəkilçisinin köməyilə düzəlir.

Məsələn "parlant" sözünü kənarda götürdükdə onun participe prèsent yaxud adjectif verbale funksiyasını yerinə yetirdiyini müəyyənləşdirmək olmur.Halbuki cümlə daxilində onları müəyyənləşdirmək daha asan olur.

Məsələn:İl a vu un film très intéressant.(participe presènt).

C`est un livre très intéressant tout le monde.(adjectif verbale)

On a trouvé les enfants mourant de faim.(adjectif verbale)

Dans la rue on a rencontré les enfants mourant.(participe passé)

Aydın məsələdir ki,fransız və Azərbaycan dilləri müxtəlif dil qruplarına aid olduqlarından fransız və Azərbaycan dillərində feili sifət və feildən düzələn sifətlər aid olduqları dillərin xüsusiyyətlərini nəzərə alaraq bir-birilərindən fərqlənirlər.

Fransız dilində hər iki kateqoriyanı,yəni feili sifətlə feildən düzələn sifəti fərqləndirmək üçün aşağıdakı meyarları əsas götürmək lazımdır.

1."Ant" şəkilçisi ilə bitən sözdən sonra vasitəsiz tamamlıq gələrsə,o,feli sifət funksiyasını yerinə yetirir.Məsələn:

Notre radio donne des émissions intéressant les enfants et les grandes personnes.

Nous n`avons pas besoin d`une secrétaire ne sachant pas la sténographie

2.Vasitəli tamamlıq gələrsə:Məsələn:J`ai acheté un livre de contes intéressant pour les petits et pour les grands. İl regardait ces jeunes gens brûlant d`impatience.

3.Zərflik gələrsə:Məsələn:Nous admirons les barques glissant sur la riviére.Nous suivons des yeux l`avion volant très bas au-dessus de la mer.

4.Zərf yaxud zərfdən düzəlmiş ifadə gələrsə:Məsələn:C`est une personne souriant toujours.C`est une femme aimant bien ses enfants.

5.İnkarlıq bildirən sözlər gələrsə:Məsələn:C`est une personne ne rêvqnt jamais.C`est un homme ne réfléchissant point.

Feili sifətdən fərqli olaraq aşağıdakı hallarda "ant"ilə bitən sözləri feldən düzələn sifət hesab etmək olar.

1.Cümlədə ismi xəbərin ad hissəsi funksiyasını yerinə yetirdikdə:

Məsələn:La route est glissante.Cette jeune fille est souriante.Ma mère est bien aimant

2.Adi təyin funksiyasını yerinə yetirdikdə:

Məsələn:

Ce sont des photos intéressants.

Nous admirons les barques glissants.

Les bohémiens mènent une vie errante.

3.Qarşısında zərflik gələrsə:

Məsələn:

C`est une jeune fille souriante.

Elle donna des recommandations d`une voix faible mourante

Qeyd etmək lazımdır ki,feildən düzələn sifətlərin feili sifətdən fərqlənən aşağıdakı xüsusiyyətləri də vardır.

1.Feili sifətdən fərqli olaraq "ant" ilə bitən sifətlər feillik xüsusiyyətini tamamilə itirmiş olur. Felidən düzələn sifətlər tamamilə sifət kateqoriyasına keçmiş və sifətə aid olan morfoloji və sintaktik xüsusiyyətləri özündə əks etdirir.Feili sifətlər təyin etdikləri isimlə cinsə və kəmiyyətə görə dəyişmədiyi halda,feildən düzələn sifətlər aid olduğu isimlərlə keyfiyyət sifətləri kimi cinsə və kəmiyyətə görə uzlaşırlar.

Məsələn: İl parlait d`une voix étonnante. (adj verb)-O,titrək bir səslə danışırdı.

Les savants ont fait des découvertes.(adj verb)-Alimlər təəccübləndirici kəşflər etdilər.

J`ai vu deux nouveaux films parlant de la vie de la jeunesse.(participle présent)-Mən gənclərin həyatından bəhs edən iki yeni filmə baxdım.

Nous avons rencontré un groupe de voyageurs mourant de fatigue.(participle présent)-Biz yorğunluqdan ölən bir qrup səyahətçilərlə rastlaşdıq

2.Feildən düzələn sifətlər keyfiyyət sifətləri kimi qüvvətləndirici zərflərlə(très,bien,fort,si,tout) işlənə bilir.

Məsələn :Elle était si vivante,si intéressante. Sa voix était très étonnante

Qeyd etdiyimiz kimi müasir fransız və Azərbaycan dillərində feili sifətlərlə feildən düzələn sifətlər arasında fərqli cəhətlər olduğu kimi oxşar cəhətlər də var.

1.Feli sifətlər əlamət və keyfiyyət bildirir.

Məsələn : Une voix hésitante,Un poste dirigeant,Un caractère changeant,Une personne charmante

Görüləsi işlər,ediləsi çalışma,oxunası dərs,öyrənilməli mətn.

2.Hər iki dildə feili sifət təyin vəzifəsində işlənir.

Məsələn:Une ménagère débutante . Des personnages toujours vivant.

Danışacağım əhvalat,dağılmış binalar,danışan adam.

3.Sifətə məxsus suallara cavab verirlər.Fransız dilində:quel?,quels?,quelle?,quelles?

Azərbaycan dilində :necə?,nə cür?,hansı?.

Məsələn:

Une dicteé écrite.-Quelle dicteé?

Un enfant pleurant.-Quel enfant?

Oxunası kitab.-Hansı kitab? Yorucu səs.-Necə səs?

Müasir fransız və Azərbaycan dillərində feili sifətlə feildən düzələn sifətləri birləşdirən ümumi cəhət onların hər ikisinin feildən əmələ gəlməsi,əşyanın əlamətini bildirməsi,təyin vəzifəsində işlənməsi,sifətin suallarına cavab verməsidir.

Eyni zamanda qeyd etmək lazımdır ki,feildən düzələn sifətlər Azərbaycan dilinə müxtəlif formada tərcümə edilir.

Məsələn:Une étoile tombante-Axan ulduz

Les enfants obéissants-itaətkar uşaqlar.

Nəticə

Müasir Fransız və azərbaycan dillərində feili sifəti müqayisəli şəkildə tədqiq edərkən, aşağıdakı nəticələrə nail oldum:

1.Müxtəlif dil qruplarına aid olam fransız və Azərbaycan dillərində feili sifətlər eyni əlamətlərə malik deyillər.Fransız dilində feili sifətin aşağıdakı növləri var:

1. participe présent;
2. participe passé;
3. participe passé composé

Azərbaycan dilində:

1.indiki zaman feili sifəti;
2.keçmiş zaman feili sifəti;
3.gələcək zaman feili sifəti.

2.Fransız və Azərbaycan dillərində indiki zaman feili sifətləri məna quruluşu və semantik funksiyalarına görə bir-birilə oxşardır.

a)hər iki dildə indiki zaman feili sifəti təyin funksiyasını yerinə yetirir.

b)hər iki dildə feili sifət morfoloji yolla düzəlir.Fransız dilində feili sifət "ant",Azərbaycan dilində isə "an,-ən"şəkilçilərinin köməyilə düzəlir.

c)hər iki dildə indiki zaman feili sifəti həmin feildən düzələn sifətlərə bənzəyir.

3.Fransız dilində indiki zaman feili sifətləri feldən düzələn sifətlərlə formaca eyni olsalar da,onlar cümlə daxilində bir-birindən fərqləndiyi halda,Azərbaycan dilində hər iki kateqoriya bir-birindən formaca fərqlənir.

4.Fransız dilində feili sifət isimlərdən və ya isimləşən sözlərdən sonra gəlir,onların hərəkətlə bağlı əlamətlərini özündə əks etdirir.Azərbaycan dilində isə feili sifət isimlərin və ya isimləşən sözlərin əvvəlində gəlib,onların əlamətini bildirir.

5.Hər iki dildə feili sifət ikili təbiətə malikdir.Onlar bir tərəfdən feillərə,digər tərəfdən isə sifətlərə yaxınlaşırlar.

6.Feili sifətlər sifətə məxsus suallara cavab verir.

Ədəbiyyat

1.Grevisse M. Le bon usage.Grammaire française avec de remarques sur la langue française d`aujourd`hui.Paris,1995

2.Référovskaïa S.A ;Vassiliáva A.K.Essai de grammaire française.Cours théorique Z.1973

3.Müasir Azərbaycan dili,II cild,Morfologiya.Bakı,1980,Elm nəşriyyatı.

4.Müasir Azərbaycan dilindı söz birləşmələri,Bakı,1961

5.M.Hüseynzadə,Müasir Azərbaycan dili,Bakı,1954.

6.G.Mauger,Grammaire pratique du français d`aujourd`hui.Langue parleé,Langue écrite,Librairie Hachette,Paris.

7.Nivolskaïa E.K.R.Y.Goldenberg,Grammaire française.Mocква, ”высщая школа”.

Nazarova Huriyya

PARTICIPLE IN FRENCH AND AZERBAIJANI

In French and Azerbaijani languages, which belong to different language groups, verbs are divided into two groups according to their grammatical and syntactic features:

a) Inflected form of the verb

b) Non-inflected form of the verb

Verbs in group 1 are used as a predicate, change according to the person and quantity, and connect action, state, and movement with a specific time. Verbs in group 2 tend to be parts of speech and adopt features specific to them.

The non-inflected forms of verbs in both French and Azerbaijani languages are as follows:

1. Infinitive
2. Participle
3. Verbal adverb

Participle differs from the inflected and non-inflected forms of the verb in some of its features. It should be noted that in modern French and Azerbaijani languages, the **Participle** is formed synthetically, that is, by adding a special suffix to verbs.

In French, words are combined based on agreement and approach, and in Azerbaijani only on the basis of approach, and change according to time, person and quantity. In French, the **Participle** comes after the noun it refers to, or the word considered to be noun, and accepts all its features. In Azerbaijani, the **Participle** comes before the noun to which it belongs, and reflects its features.

The **Participle** has a dual nature. Thus, on the one hand, they approach verbs, and on the other hand, adjectives.There are two types of Participle in French:

1. Participe present
2. Participe passe

There are two types of Participle II according to their structure:

1. Participe passe simple: parle, vou, pris

2. Participe passe compose: ayant lu, etant arrive
3. Forme compose passiv: ayant ete ecrit, ayant ete venu

Unlike French, there are three forms of verbs in Azerbaijani:

1. Participle I: yazan, kalınan
2. Participle II:ökünmuş, yazılım
3. Participle for the future: ökünacağ, yazılacak

Keywords: participle, verbal adverb, infinitive, verb conjugated form of the verb

Назарова Хурия

ПРИЧАСТИЕ ВО ФРАНЦУЗСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Глаголы во французском и азербайджанском языках, относящихся к разным языковым группам, по грамматическим и синтаксическим признакам делятся на две группы:

1. спрягаемые формы глагола
2. неспрягаемые формы глагола.

Глаголы, относящиеся к первой группе, используются в роли сказуемого, изменяются по лицам и числам, привязывают падеж и действие к конкретному времени. Глаголы же, входящие во вторую группу, склоняются к частям речи и принимают свойственные им признаки.

Как во французском, так и в азербайджанском языках неспрягаемыми формами глагола являются:

1. причастие
2. деепричастие.

Причастие по некоторым признакам отличается от спрягаемых и неспрягаемых форм глагола. Следует отметить, что в современном французском и азербайджанском языках причастие образуется синтетическим способом, то есть путём добавления особого окончания. Во французском языке определяемые слова изменяются по согласованию и примыканию, а в азербайджанском языке они изменяются по времени, лицам и числам лишь объединившись на основе примыкательной связи.

Во французском языке причастие следует за существительным, к которому оно относится, либо за субстантивированным словом и принимает все его признаки. В азербайджанском же языке причастие употребляется перед существительным, к которому оно относится, и отражает в себе его признаки.

Причастие имеет двойственную природу, то есть с одной стороны, оно приближается к глаголам, а с другой, к прилагательным.

Во французском языке причастие имеет два вида:

1. participe présent – причастие настоящего времени

2. participe passé – причастие прошедшего времени.

Существует три вида причастия прошедшего времени:

1. participe passé smple – parlé, vu, pris
2. participe passé composé – ayant lu, étant arrivé
3. forme composée passive – ayant été écrit, ayant été venu.

В отличие от французского, в азербайджанском языке причастие имеет три формы:

1. причастие настоящего времени – yazan, danışan
2. причастие прошедшего времени – oxunmuş, yazılmış
3. причастие будущего времени – oxunacaq, yazılacaq.

Ключевые слова: причастие,деепричастие,инфинитив, спрягаемая форма глагола,неспрягаемая форма глагола.

Rəyci f.f.d.dos. Vahabova Sevda Davud qızı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

AYGÜN MƏMMƏDOVA
Almammadova24@gmail.com
Azərbaycan Rəssamlıq Akademiyasının
Xarici dillər kafedrasının elmlər
doktoru

TƏDRİS PROSESİNDƏ TƏLƏBƏLƏRİN DAXİLİ MOTİVASİYASININ FORMALAŞMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ

X Ü L A S Ə

Açar sözlər: *motivasiya, müəllim, tələbə, tələbə-müəllim münasibətləri*

Motivasiya həmişə insan həyatında mühüm rol oynamışdır. Məqalədə əsas məqsəd təlim-tərbiyə prosesində motivasiynın psixo pedoqoji əhəmiyyətini araşdırmaq, onun tələbələrdə necə formalaşdığını təhlil etmək və müəllimlərin bu sahədə tətbiq edə biləcəyi effektiv strategiyaları göstərməkdir. Məqalə həm nəzəri, həm də praktik yanaşmalarla motivasiyanın öyrənməyə təsirini izah edir. Məqalə analitik-nəzəri tədqiqat əsasında yazılmışdır. Motivasiya növləri, funksiyaları və tədris prosesində təsiri təhlil olunur. Müəllimin rolu təlim strategiyaları və motivasiyanı artıran psixoloji yanaşmalara əsaslanır. Motivasiya mövsümü həyatımızın hər sahəsini əhatə etdiyi kimi, təhsil sistemində də bu mövzuya geniş yer verilir. Tələbələrin nailiyyət qazanmasında motivasiyanın önəmli yeri vardır. Eyni dissiplin, müəllimlərin doğru seçilməsi də təhsil ocaqlarının uğurla fəaliyyət göstərməsinə təsir göstərir. Hətta dərslərin tədrisi zamanı istifadə olunan üsul və metodlar tələbələrin motivasiyasının yaranmasında, artmasında və davamlı olmasında böyük rol oynayır. Ümumiyyətlə məqalədə tədris prosesində motivasiyanın əhəmiyyətindən və tədris prosesində müəllim – tələbə münasibətlərinin rolundan bəhs olunur. Təhsildə bu keyfiyyətlərin artırılması ən ümdə şərtlərdən biri kimi qeyd olunur.

Motivasiya insan münasibətlərinə istiqamət verən ən önəmli amillərdən biridir və müəyyən fəaliyyətlə formalaşmaq üçün və həmin fəaliyyəti davam etdirmək üçün vacibdir. Motivasiya latın sözü olub “sövqetmə”, “oyatmaq” mənasını verir. Motivasiya təlim prosesində və tələbələrin idrak fəallığına təkan verən fərdin idrak prosesinə təsir edən, eyni zamanda tələbələrin fəaliyyətini müəyyənləşdirən və buna uyğun qərar qəbul etməyi təmin edən qüvvədir. Motivator kimi müəllimin rolu daha təsirli və vacibdir. Müəllim tələbələri düzgün motivə etməklə, onları həvəsləndirmədə və tələbələrin şəxsiyyət kimi formalaşmasında önəmli pol oynayırlar. Müəllmi həm motivator, həm də doğru yol göstərən varlıqdır. Dərin bilik, geniş dünyagörüşü tələbələr arasında elmin, biliyin, fənnin, tədris prosesinin cəzbedici qüvvəsini açа bilmək üçün vacibdir. Tələbələr müəllimin simasında ağıllı, bilikli, düşüncəli, sənətinə vurğun bir insan görməlidirlər. Müəllimlik peşəsi çox

çətin və ən məsuliyyətli bir peşədir. Hər adam onun öhdəsindən gələ bilməz. XXI əsr təhsilində tələbələrin aktiv və maraqlı olması vacib şərtdir (1 səh. 14-15). Motivasiyanın əsas növləri daxili və xarici motivasiyalardır. Daxili motivasiya – insanın bilik almaq, öyrənmək və inkişaf etmək üçün öz içindən gələn təbii marağı və ehtiyacıdır. Tələbə yeni bilikləri anlamaq üçün çalışır və öyrənmə prosesindən zövq alır. Xarici motivasiya – tələbənin nailiyyət qazanmaq, mükafat əldə etmək və ya cəza almamaq üçün çalışmasıdır. Buraya qiymət, təqdir, diplom kimi faktlar daxildir. Hər iki növ motivasiyanın tələbənin fəaliyyətində xüsusi rolu vardır. Ancaq davamlı və dayanıqlı öyrənmə üçün daxili motivasiya daha effektiv hesab olunur. Dil dərslərində hər bir müəllim tələbələri bu iki növ motivasiyadan dəyərlənməyə çağırır (2 səh. 28). Müəllim öz tədris etdiyi fənni mükəmməl bilsə də tələbələrinə fərdi yanaşa bilmir və tələbənin bilik – bacarıqlarını diqqətə almadan davranarsa, onlar arasında səmimi münasibət yarana bilməz, beləliklə tələbədə müəllimə qarşı inam azalır. Ona görə də müəllim – tələbə münasibəti düzgün qurulmalıdır. Uğura aparmaq üçün müəllimlər tələbədə özünəinam duyğusu formalaşdırmalı, tələbənin maraqları nöqteyi-nəzərindən çıxış etməli, öyrənməni tələbə üçün mənalı, dəyərli etməli, hər kəsin özünəuyğun hədəflər seçməsinə yardım etməli, auditoriyada öyrənmək zövqverici bir mühit hazırlamalı, gərəkli anlarda həvəsləndirici çalışmalar təşkil etməli, tələbənin özünə olan hörmətini, güvənc və qürur hissini gücləndirməlidir. Tələbə və müəllim münasibəti maraq, diqqət və inam üzərində qurulmalıdır. Yalnız bu zaman həqiqi ünsiyyət yaranacaq, tələbə öz mentorunu eşidəcək və onun istəklərini yerinə yetirə bləcək. İnam, sevgi və qarşılıqlı hörmət üzərinə qurulan bütün münasibətlər kimi müəllim – tələbə münasibətləri də gələcəyimizi yetişdirən, təyin edən varlıqdır. Müəllim eyni zamanda ən güclü motivatordur. Bəzi müəlimlər nəticəyə çox önəm verirlər.

Təhsil prosesində tələbənin uğur qazanmasında təkcə bilik və bacarıq kifayət etmir. Motivasiyalı tələbələr dərslərdə daha aktiv iştirak edir, qarşıya məqsədlər qoyur və bu məqsədlərə çatmaq üçün səylə çalışırlar. Motivasiyalı tələbələr yalnız bu gün üçün deyil, gələcək üçün də planlar qurarlar. Dil dərslərində tələbələrdə motivasiya yaranır. Dilə daha dərindən yiyələnmək istəyirlər. Müasir dövrdə təhsilin beynəlmiləşməsi və qloballaşması prosesləri nəticəsində xarici dillərə olan maraq sürətlə artmaqdadır. Bu maraq təkcə şəxsi inkişaf deyil, həm də akademik uğurlar, peşəkar perspektivlər və mədəniyyətlərarası anlayış baxımından böyük əhəmiyyət daşıyır. Dünyanın bir-biri ilə daha sıx bağlı olduğu dövrdə insanlar daha çox ünsiyyət vasitəsi kimi xarici dillərə ehtiyac duyurlar. Bunların hamısı tələbələrdə motivasiyanı daha da gücləndirir. Burada həm daxili, həm də xarici motivasia əsas yer tutur. İnternet, media, sosial şəbəkələr və beynəlxalq xəbərlər əsasən, xarici dillərdə təqdim olunur (3 səh. 4-5). Xarici dilə motivasiyanın formalaşma faktorları daxili maraq və özünü inkişaf etdirmə marağı kimi qeyd olunur. Şəxsi maraq tələbənin dilə qarşı yaranandan və ya həyat təcrübəsi əsaslanan maraq kimi göstərilir. Özünü inkişaf etdirmə istəyi – yeni biliklərə yiyələnmək həvəsi kimi qeyd olunur. Tələbələrdə bilik

və bacarıqların formalaşması və inkişaf etdirilməsi üçün motivasiyanın hər iki növü əsas rol oynayır. Motivasiya tələbəni yalnız nəzəriyyə öyrənməyə deyil, eyni zamanda öyrəndiyini tətbiq etməyə, analiz etməyə və yeni ideyalar yaratmağa təşviq edir. Bu da onun yaradıcı potensialını ortaya çıxarır. Motivasiya tələbənin müəllim və qrup yoldaşları ilə münasibətlərinə də təsir edir. Müsbət motivasiyalı tələbələr daha əməkdaşlığa açıq olur, komanda işlərində fəal iştirak edir və liderlik bacarıqları inkişaf edir (4 səh. 24). Motivasiya tələbəyə öz təhsil prosesinə nəzarət etməyi öyrədir. Tələbə məqsəd qoyur, plan qurur, vaxtını düzgün bölür və nəticəyə çatmaq üçün davamlı çalışır. Bu xüsusiyyətlər gələcəkdə onu peşə həyatında da uğurlu olmasını təmin edir. Yüksək motivasiyalı tələbələr yalnız məlumatları əzbərləmir, onları dərk edir, şərh edir və yeni fikirlər irəli sürür. Bu tənqidi təfəkkür, araşdırma bacarığı problem həll etmə qabiliyyətinin formalaşmasına səbəb olur. Motivasiyalı tələbə öz gücünə inanır, uğurlarına sevinir və uğursuzluqlardan nəticə çıxarır. Motivasiya tələbələrdə öz gücünə inanma hissini gücləndirir. Tələbə özünün inkişafına inanaraq daha çox çalışır və qarşısına çıxan çətinliklərdən qorxmur. Bu da məsuliyyətli şəxsin formalaşmasına zəmin yaradır. Məqalədən belə nəticə çıxarmaq olar ki, motivasiya tələbənin yalnız bu günkü dərslərində deyil, ümumilikdə həyat yolunda da uğurlu olmasında əhəmiyyətli yer tutur. Təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biri də tələbələrdə davamlı daxili motivasiyanın formalaşmasına imkan yaradan tədris və tərbiyə mühiti yaratmaqdır.

Müasir dövrdə təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır. Tədris prosesinin əsas məqsədi tələbələrdə müəyyən bir sahəyə maraq, idrak fəallığı və müstəqil düşüncə bacarığı yaratmaqdır. Bu məqsədə nail olmağın ən vacib şərtlərindən biri də tələbələrdə daxili motivasiyanın formalaşmasıdır. Daxili motivasiya formalaşmış tələbə bilikləri yalnız qiymətüçün deyil, özünü inkişaf etdirmək və həyatda tətbiq etmək üçün öyrənir. Ümumiyytlə motivasiya psixologiyasında insan fəaliyyətinin daxili hərəkətverici qüvvəsi kimi qeyd olunur. Təhsil prosesində ən səmərəli nəticələr daxili motivasiya üstünlük təşkil etdikdə əldə edilir. Xarici motivasiya müvəqqəti nəticə versə də, uzunmüddətli öyrənmə və peşəkar inkişaf üçün yararlı sayılmır. Buna görə də müasir pedoqoji nəzəriyyə və praktika tələbələrin daxili motivasiyasının formalaşmasına xüsusi bir önəm verir. Saxili motivasiya – tələbələrin öyrənməyə olan şəxsi marağı, idrak zövqü özünüreallaşdırma ehtiyacı ilə bağlıdır. Bu motivasiya formalaşdıqda tələbə öyrənməni sosial sifariş və ya formal öhdəlik kimi deyil, şəxsi inkişafın vacib elementi kimi qəbul edir. Tələbələrin daxili motivasiyasının formalarına təsir edən - müəllimin tədris etdiyi fənnin onlara aşılamasından asılıdır. Müəllimin dərs aparma tərzi, ünsiyyət mədəniyyəti, tələbələrə münasibəti və ədalətli qiymətləndirilməsi daxili motivasiyanın yaranmasında əsas rol oynayır. Müəllim yalnız bilik ötürən deyil, həm də motivasiyaedici lider funksiyasını yerinə yetirəndir. Fənnin gündəlik həyatda peşə fəaliyyəti ilə əlaqələndirilməsi tələbələrdə öyrənməyə təhsilə böyük maraq yaradır. Praktik nümunələr və real problemlərin həllinə yönəlmiş tapşırıqları

motivasiyanı gücləndiri. Bu məqsədlə interaktiv metodlardan - problemi əsaslı öyrənmə, layiqli işi, qrup müzakirələri, debal və rol oyunlarından istifadə səmərəli nəticə verir. Tələbələrin maraqları, məqsədləri, özünüqiymətləndirilməni və yüksək nəticə qazanmağa onlarda daxili motivasiyanı inkişaf etdirir. Təhsil prosesində tələbələrin daxili motivasiyasının formalaşması müasir təhsil sisteminin proritet istiqamətindən biridir. Bu motivasiya formalaşdıqda tələbələr öyrənməni şəxşi inkişaf, intellektual zövq kimi qəbul edir. Qeyd etmək lazımdır ki, müasir pedaqogika və psixologiyada motivasiya xüsusi yer tutur. Beləliklə, daxili motivasiya insanın öyrənmə prosesinin özündən məmnunluq alması, bilik və bacarıqları şəxsi inkişaf vasitəsi kimi qəbul etməsi ilə bağlıdır.

Aygun Mammadova

S U M M A R Y
MECHANISMS FOR THE FORMATION AND DEVELOPMENT STUDENTS` ESSENTIAL MOTIVATION IN THE EDUCATIONAL PROCESS

Key words: *motivation, teacher, teacher student in teaching process/*

The role of motivation in human has life always been great motivation is one of the two most important keys to success and even guiding human live. The other important key is to set a goal after setting a goal, motivation becomes the force that helps a person move toward that goal motivation covers the educational system as well as every aspect of our life. The teacher directs the student the goal with the right approach. This, beside student contributes to the success of the teacher and even the university. At the same time discipline and the right choice of teachers a dived impact on the success of educational instruction. This article explores the psycho pedagogical significance of motivation in the teaching learning process and strategies for fostering it among students. The role of the teacher instructional methods, and psychological theories enhancing student motivation are discussed. The article concludes that motivation is a key factor in improving education al quality and increasing students engagement in earning. This article discusses the importance of motivation in the teaching process and the role teacher and teacher student relations in the teaching process.

Айгюн Мамедова

Р Е З Ю М Е
МЕХАНИЗМЫ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ ВНУТРЕННЫХ МОТОВАЦИИ СТУДЕНТОВ В УЧЕБНОМ ПРОЦЕССЕ

Ключевые слова: *мотивация, учитель, студент, отношения учитель – студент.*

Рол мотивации в жизни человека всегда была велика. Мотивация – один из двух важнейших ключей к успеху. Мотивация играет важную роль в успехе

студента. В статье рассматривается психолога – педагогическое значение мотивации в учебном – образовательном процессе. Анализируются виды мотивации ее функции и влияние на учебную деятельность. Особые внимание уделяется роли преподавателя и повышению мотивации. Это вместе со студентом способствует успеху учителя. Методы и прием, используемые при проведении уроков, играют важную роль и формирования устойчивости мотивации учащихся. Хотя по этой было проведено много исследований, необходимо изучить эту тему боле глубоко. В данной статье обсуждается важность, мотивации в учебном процессе и роль взаимных отношений между учителем и студентом в учебном процессе. В заключение подчеркивается, что мотивация является ключевым фактором повышения качества образования и активизации учебной деятельности студентов.

Ə D Ə B İ Y Y A T

1.Quliyev M. Təlimin motivasiyası və onun idarə olunması. “Elm və Təhsil” Bakı 2029;
2. Məmmədova S. Motivasiya və öyrənmə. Bakı ADPU nəşriyyatı, Bakı 2020;
3. Ильим Е.П. Мотивация и мотив. Санкт Петербург 2010;
4. Schunk D.H. Pintrich Meere motivation in education: theory and application Reanson 2014.

Rəyçi: Z.Ş.Məmmədova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

MƏMMƏDZADƏ RƏNA XATAYIL QIZI
Azərbaycan Dillər Universiteti, Dünya dilləri kafedrasının müəllimi
Azərbaycan Respublikası, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134
rena.m6556@gmail.com
https://orcid.org/0000-0003-2683-6407

ZAMAN VƏ MƏKAN KATEQORIYALARININ DIPLOMATIK DISKURSDA LEKSIK - QRAMMATIK REPREZENTASIYALARI

XÜLASƏ

Məqalədə zaman və məkanın ingilis diplomatiya diskursunda leksik- semantik ifadə olunma yolları araşdırılaraq diplomatik çıxışların, müqavilələrin və yazışmaların təhlili vasitəsilə diplomatların zaman və məkan konseptlərini nəzərə çatdırmaq üçün istifadə etdikləri linqvistik strategiyalar müəyyənləşdirilir, diplomatik yazışma və çıxışların formalaşdırılmasında onların əhəmiyyəti vurğulanır. Diplomatik diskurs sferasında zaman və məkan anlayışlarını çatdırmaq üçün dilin nüanslı istifadəsi çox vacib hesab edilir. Bu məqalə diplomatik ünsiyyətdə zaman və məkan kateqoriyalarını təmsil etmək üçün leksik və qrammatik strukturların necə istifadə edildiyini araşdırır.

Məqalədə müxtəlif çıxışlar, rəsmi sənədlər və diplomatik yazışmalar təhlil edilərək, diplomatların öz nitqlərini konkret zaman və məkan kontekstləri daxilində çərçivəyə salmaq üçün istifadə etdikləri strategiyaları üzə çıxarmaq hədəflənir. Diplomatik dilin incəliklərini və onun beynəlxalq münasibətlərə təsirini dərk etmək üçün bu araşdırma olduqca vacibdir.

Açar sözlər: **diplomatik diskurs, zaman və məkan kateqoriyaları, leksik reprezentasiyalar, hadisə, münasibət, leksik vasitələr**

Zaman və məkan kateqoriyalarının tədqiqi və onların dildə reprezentasiyaları son dövrlərdə linqvistikanın aktual problemləri arasında yer tutmaqdadır. Araşdırmalar sahəsində çox sayda uğurlar qazanılmış, zaman və məkan münasibətlərinin beynəlxalq miqyasda qarşılıqlı fəaliyyət aspektlərinin meydana gəlmə səbəbləri öyrənılmışdir.

"...fizikada zamanın ölçülməsi ilə bağlı obyektiv prosedurların tədqiqi, "bioloji saatların" təhlil olunması gələcəyin layihələndirilməsi və üstünlük təşkil etməsi, zaman kateqoriyasının fəlsəfi təhlili ona görə mümkün olur ki, zaman dildə, onun leksikasında və qrammatik quruluşunda ifadə olunur və qeydə alınır." [4; s. 24].

Bildiyimiz kimi son dövrlərdə dünyanın müxtəlif dillərində zamanı reprezentasiya edən standart və qeyri-standart vasitələrin tədqiqi məsələlərinə geniş yer verilir. Bu sahədə araşdırma aparan tədqiqatçılar zaman münasibətlərinin ötürülməsi, mətndə məna və struktur

bütövlüyünün formalaşmasında yardımçı olan vasitələrə diqqətlə yanaşırlar. Zamanın göstəricisi bizim mövcud olmağımızın ayrılmaz xüsusiyyəti kimi dəyərləndirilir və insan təfəkkürü prizmasından ayrılaraq mətndə öz əksini tapır.

Araşdırmaçı müəlliflərin hər biri zaman anlayışını özünəməxsus formada dəyərləndirir və öz yaradıclıqlarında standart (qrammatik) və qeyri-standart vasitələrdən istifadə etməklə onu təsvir edirlər. Standart vasitələr qrammatik kateqoriya hüdudları nəzdindəki zamanın ifadə vasitələrini nəzərdə tutur və morfoloji, leksik və sintaktik qruplara ayrılır.

Zamanın reprezentasiyalarından bəhs edilən zaman leksik vasitələr olduqca mühüm əhəmiyyət kəsb edir. Bu sözlərin ümumi mətn funksiyası təsvir edilən hadisələrin vaxtına işarə etməkdən ibarət olur.

Mətndə zamanın leksik əsası ilin mövsümlərinin adlarında "winter, spring, summer, autumn" kimi, ayların adı "April, June", həftənin günləri Saturday, Sunday, gün vaxtı "day, morning, noon, evening, night, minute, second, yesterday, today şəklində ifadə olunur. Bu leksikanın özü bədii mətnin temporal məkanını formalaşdırır [1; s. 464].

Diplomatik diskursda hadisənin hər hansı zaman kəsiyinə aid olmasını göstərən leksik vasitələrə nəzər salaq. Belə leksik vahidlərə period, moment, time və s. kimi sözləri misal göstərmək olar.

*If the letter had already been sent off the **previous week**, then it is reasonable to expect that they should have had a response **by now**. If, however, the letter hadn't been sent until **Sunday** or **Monday**, then they can't really expect an answer yet [16; s.122].*

*We're eager to get **back** to our continuing story lines, but **tonight** we wanted to stop for a **moment** and do something different.[16; s.172]*

Yuxarıda göstərilmiş nümunələrə əsasən qeyd edə bilərik ki, *Sunday, Monday, tonight, moment, era* kimi leksik vahidlər vasitəsilə verilən hadisə müəyyən zaman kəsiyinə məxsusdur.

Zaman mənsubiyyəti *week, day, year* kimi konkret zaman aralıqlarını nominasiya edən adlarla da ifadə oluna bilər.

*As I conclude my term as the 45th President of the United States, I stand before you truly proud of what we have achieved together. We did what we came here to do — and so much more. This **week**, we inaugurate a new administration and pray for its success in keeping America safe and prosperous [https://trump-whitehouse.archives.gov/briefings-statements/remarks-president-trump-farewell-address-nation/].*

*This marks the tenth **year** of NATO membership for the Czech Republic. I know that **many times** in the 20th century, decisions were made without you at the table. Great powers let you down, or determined your destiny without your voice being*

heard. I am here to say that the United States will never turn its back on the people of this nation. We are bound by shared values, shared history, and the enduring promise of our alliance. NATO's Article 5 states it clearly: an attack on one is an attack on all. That is a promise for our ***time****, and for all* ***time*** *[https://vlada.gov.cz/assets/media-centrum/aktualne/Speech-of-Barack-Obama].*

That all changes starting right here and right now because ***this moment*** *is* ***your moment****. It belongs to you. It belongs to everyone gathered here* ***today*** *and everyone watching all across America.*

This is your ***day****. This is your celebration, and this, the United States of America, is your country.*

Hadisənin davamiyyətinə işarə edən növbəti nümunələrdə isə zaman markerlərindən başqa konkret ilə işarə edən rəqəmə də rast gəlinir. Diplomatik diskurslarda bu, hadisənin zamanına işarə etməyin ən geniş istifadə olunan forması kimi dəyərləndirilir. Qeyd etmək lazımdır ki, bu diplomatların öz çıxışlarında, bir qayda olaraq, ən aktual hadisələrə diqqət yetirməsi ilə izah edilir.

January 20th*,* ***2017****, will be remembered as the* ***day*** *the people became the rulers of this nation again. The forgotten men and women of our country will be forgotten no longer. Everyone is listening to you* ***now****. You came by the tens of millions to become part of an historic movement, the likes of which the world has never seen* ***before.***

This American carnage stops right here and stops right ***now****.*

The oath of office I take ***today*** *is an oath of allegiance to all Americans. For many* ***decades****, we've enriched foreign industry at the expense of American industry, subsidized the armies of other countries, while allowing for the very sad depletion of our military.*

We assembled here ***today****, are issuing a new decree to be heard in every city, in every foreign capital, and in every hall of power.*

Forward, now, again, still, və s. kimi zaman zərfləri zaman mənsubiyətinin leksik ötürülməsində böyük rol oynayır. Növbəti nümunələri nəzərdən keçirək:

From this ***day forward****, a new vision will govern our land. From this* ***day forward****, it's going to be only America first.*

The ***time*** *for empty talk is over.* ***Now*** *arrives* ***the hour*** *of action. Do not allow anyone to tell you that it cannot be done. No challenge can match the heart and fight and spirit of America. We will not fail. Our country will thrive and prosper* ***again****.*

We stand at the birth of ***a new millennium*** *ready to unlock the histories of space, to free the earth from the miseries of disease and to harness the energies, industries, and technologies of* ***tomorrow****. A new national pride will lift our sights and heal our divisions. It's* ***time*** *to remember that old wisdom our soldiers will never forget, that whether we are black or brown or white, we all bleed the same red blood*

of patriots [Donald Trump's Inaugural Speech as the 45th president of the United States. https://www.Astrid-online.it/static/upload/trump/trump_inaugural-speech].

Qeyd etməliyik ki, zaman uzunluğu təkcə leksik deyil, qrammatik vasitələrlə də (feilin zaman forması ilə) ifadə oluna bilir.

Temporal strukturun qurulmasının əsas vasitəsi feil formalarıdır. Müasir ingilis dilində digər nitq hissəsindən fərqli olaraq feil sözün dəyişdirilməsi və formanın təşkili vasitələrinin daha çox inkişaf etmiş strukturuna malikdir. Şəxs, növ, zaman, hallanma və məchul növ felin morfoloji kateqoriyaları hesab edilir.

Elmi kateqoriya kimi zaman növbəti şəkildə təyin olunur: zaman – cümlədə haqqında bəhs olunan vəziyyətin və ya hadisənin temporal (zaman) lokallaşdırılması üçün xidmət göstərən və obyektiv zamanın spesifik dil təzahürü olan feilin qrammatik kateqoriyasıdır [7; s. 89].

İngilis dilində feilin zaman mənalı formalar sistemi dörd qrupdan ibarətdir: qeyri-müəyyən zaman formaları, davamedici zaman formaları, bitmiş zaman formaları (perfect), bitmiş davamedici zaman formaları (perfektli-davamedici). Dilin qrammatik quruluşunda zamanın keçmiş, indiki və gələcək zamana bölünməsi zamanın xətti modeli ilə əlaqədardır.

Müasir ingilis dilində zaman kateqoriyası ilk növbədə, indiki və keşmiş zaman formaları ilə təşkil olunur, çünki, bu zaman formaları sintetikdir *(he works, he writes - he worked, he wrote)* [2; s. 311]. Gələcək zamanın kateqorial forması həmişə analitikdir, bəzi fellərdə o ümumiyyətlə yoxdur *(can, may)*. Gələcək əksər hallarda modallıqla əlaqələndirilir, çünki o hələ reallaşmamış bir şeyi təmsil edir. Gələcək zamanın formalaşmasında modal xarakterli fellərin *(shall, will)*istifadə olunması ilə bu fərq daha da dərinləşir.

İngilis dilində zamanın morfoloji baxımdan reprezentasiyası feilin zaman formaları vasitəsilə baş verir. Deməli, inglis dilində feilin zaman formaları mətnin zaman parametrlərini yaratmaqda əsas vasitə kimi çıxış edir. Bəzi nümunələri nəzərdən keçirək:

Four years ago, I came to Washington as the only true outsider ever to win the presidency. I ***had*** *not* ***spent*** *my career as a politician, but as a builder looking at open skylines and imagining infinite possibilities. America* ***had given*** *me so much, and I wanted to give something back.*

Most of all, I want to thank the American people. To serve as your President ***has been*** *an honor beyond description. Thank you for this extraordinary privilege. And that's what it is — a great privilege and a great honor* [*Remarks by President Trump in Farewell Address to the nation, Issued on January 19/https://trumpwhitehouse.archives.gov/briefings-statements/remarks-president-trump-farewell-address-nation*].

Yuxarıda qeyd olunan nümunələrdə zaman mənsubiyyəti indiki və keçmiş bitmiş zamanın köməyi ilə ifadə olunur. Məhz, indiki bitmiş zaman forması diplomatik diskurslarda hadisələrin təsvir olunması zamanı geniş istifadə olunur. Bu onunla izah olunur ki, bu zaman forması, bir tərəfdən, ölkədə əvvəllər baş verən hadisələrin siyahısını verməyə, digər tərəfdən isə ölkənin bu gün müşahidə etdiyi nəticələri ötürməyə (çatdırmağa) imkan yaradır. Keçmiş hadisərlərin bu günkü nəticələrinə işarə bu cür mətnlərin kommunikativ məqsədlərinin həyata keçirilməsi üçün son dərəcə vacibdir.

Diplomatik diskurslarda hadisələrin zaman mənsubiyyətinin təsvir olunması üçün indiki davamedici zaman formasından da geniş istifadə olunur. Diplomatlar tərəfindən indiki davamedici zamanın işlədilməsi nəzərdə tutulan hadisənin davam etdiyini nəzərə çatdırmağa, hal-hazırki vəziyyəti təsvir etməyə şərait yaradır. Bu isə diplomatlar üçün olduqca mühümdür, çünki, bu mövcud vəziyyəti yığcam, ifadəli və dolğun tərzdə təsvir etməyə zəmin yaradır.

Digər qrammatik zaman forması isə *Present Perfect Continuous* zaman formasıdır. Bu zaman forması hadisələrin zaman mənsubiyyətini ifadə etmə imkanı yaradır. Rəsmi çıxışlar zamanı diplomatların nitqində istifadə edilən *Present Perfect Continuous* zaman forması bir tərəfdən keçmişdə başlanan hadisə və ya prosesin hal-hazırda da davam etdiyini, digər tərəfdən isə həmin hadisənin indiki zamanda olan əhəmiyyətini, yəni nəticəsini vurğulayır.

When bağlayıcısı ilə düzələn tabeli mürəkkəb cümlələr ingilis diplomatiya diskursunda temporallığın ifadə vasitəsi kimi qeyd edilir. Zaman budaq cümləsi zaman zərfliyi olraq baş cümlənin zaman oxundakı hərəkətinin temporal lokkallaşması funksiyasını yerinə yetirir [8; s. 17-18]. Tabeli budaq cümlə – baş (əsas) və asılı hissələrdən ibarət olan sintaktik vahiddir. Asılı hissə zaman zərfliyi kimi fəaliyyət göstərir. O, işarə etdiyi vəziyyətlər arasındakı zaman əlaqəsini göstərir.

Diskursda zaman *when* bağlayıcısı ilə düzələn mürəkkəb tabeli budaq cümlə vasitəsilə müəyyən edilir. Məsələn:

*In an era **when** it is argued few pursue political information, the blending of politics and popular culture becomes an important source of political knowledge [16; s.187]*

*And by the way, history has shown us that we are most vulnerable to war and conflict **when** people are desperate economically. And nobody knows that history more than Europe.* [Obama, B. (2009). Remarks by the President Obama at Strasbourg Town Hall. Retrieved from http://www.whitehouse.gov/the-press-office/remarks-president-obama-strasbourg-town-hall.]

Hadisənin dildə reprezentasiyasının digər vacib komponenti onun məkan əlaqəsinin ifadə olunmasıdır.

Bəzi dillərdə zaman və məkan kateqoriyaları linqvistik kateqoriyalar kimi nəzərdən keçirilir. Lakin, ingilis dilində zaman kateqoriyası linqvistikanın qrammatik kateqoriyası kimi nəzərdən keçirilir. Qədim ingilis dilindən fərqli olaraq müasir ingilis dilində, məsələn, məkan kateqoriyası sözönülərin istifadə olunması ilə leksik qaydada ifadə olunur.

Məkan münasibətlərinin ifadəsi analitik tipli dillərdə bir sıra sözönülərin köməyi ilə həyata keçirlir [9; s.157]. Bir sıra dilçilərin düşüncəsinə əsasən məkan mənaları bir çox dil vasitələrinin ilkin əsasını təşkil edir (D. Bennett, Q. Qiyom, V.Q. Qak, V.V. Vinoqradov və digərləri).

M.A. Kunijev məkan kateqoriyasını klassik dil kateqoriyası kimi təyin edir, çünki o, leksik və söz əmələ gətirən mənaya malikdir [3; s.17].

"Bir çox dil vahidlərinin məzmun tərəfində məkan təsəvvürləri fərqli formalarda əks olunur, lakin, sözlərin iki sinfində – zərflrədə və ön şəkilçilərdə bütöv qruplar fərqlənir. Onlar ilk növbədə, bəzən isə müstəsna olaraq bir obyektin digər obyektə qarşı münasibətdə yerləşməsi haqqında məlumat verir və lokallaşma funksiyasını yerinə yetirir" [5; s, 67].

İngilis dilində sözönülərin bir hissəsi bir sıra mənaları özündə birləşdirir: *in, at, on* sözönüləri həm yerə, həm də zamana işarə edirlər. Məkan mənası: *in* – içində (böyük məkanlar üçün), *at* - yanında, yaxınlığında (yaxınlıqdakı nəyinsə işarə olunması üçün, kiçik məkanlar üçün), *on* – üstündə (səthdə). Bu sözönülər zaman mənasında da işlədilir: *in* (uzun müddət üçün – in the year), *at* (qısa müddət üçün), *on* (dəqiq zaman kəsiklərinin işarə olunması üçün).

Zaman və məkan münasibətlərinin tədqiqi ilə bağlı aparılan araşdırmalardan belə məlum olur ki, məkan zamandan fərqli olaraq dil sistemində daha fundamentaldır və zaman vahidlərinin mənası məkan vahidlərindən təşəkkül tapmışdır.

Zaman məkan vasitəsilə düşünülür, çünki, *за, под, из, от, до в, на* sözönüləri ilk növbədə məkan, daha sonra isə zaman kimi işlədilir. Məsələn, *в* sözönünün istifadəsi zamanı biz, hər hansı bir predmetin onun ölçüsündən böyük olan müəyyən bir tutumda yerləşməsini təsəvvür edirik. Bu fakt zamanın məkanla əlaqəli olması deməkdir [6; s. 81-115].

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, məkan və zaman bu və ya digər bölünməz bütövlüyün müxtəlif tərəfləri olsa da, məkana diqqət yetirmədən zaman haqqında elmi nəticələr əldə etmək mümkün deyildir. Əksinə: məkanda əks olunan hər bir şey bu və ya digər şəkildə zamanda əks olunur.

İngilis dilində bəzi sözönülər (*in front of, behind, up, down, on the left, on the right, on one side, inside, outside*) yalnız məkanda predmetin oriyentasiyasına və ya müəyyən yerləşməyə, bəzi sözönülər isə *(during, since, until)* yalnız zaman münasibətlərinə işarə edir.

Əgər inglis dili sistemində feil zaman parametrinin qrammatik (morfoloji) göstəriciləri ilə xarakterizə olunursa, məkan oriyentasiyası (lokalizasiya) felin morfoloji formaları sistemində öz ifadəsini tapmır. Hərəkəti ifadə edən feillər hadisənin baş verdiyi yeri və istiqaməti sözönülər vasitəsilə ifadə edir.

Hadisənin inkişaf yeri dolayı şəkildə də ötürülə bilər. Məsələn, növbəti nümunədə hadisənin inkiaşf yeri *Europe*, *America, United States* vahidlərinin köməyi ilə ötürülür.

So I've come to Europe this week to renew our partnership, one in which America listens and learns from our friends and allies… So let me say this as clearly as I can: America is changing, but it cannot be America alone that changes…… United States is leading an effort to reach out to people around the world who are suffering, to provide them immediate assistance and to extend support for food security that will help them lift themselves out of poverty… .[Obama, B. (2009a). Remarks by the President Obama at Strasbourg Town Hall. Retrieved from http://www.whitehouse.gov/the-press-office/remarks-president-obama-strasbourg-town-hall.]

Nəticə etibarilə, hadisələrə əsaslanan diplomatik diskursun maraqlı xüsusiyyəti ondan ibarətdir ki, burada yalnız təsvir olunan hadisənin inkişaf yeri deyil, eləcə də, diplomatik mətnin realizə olunduğu yer də vacibdir. Çıxış zamanı diplomatların yerə müraciəti nitqin aktuallığını təmin edir və nitqin məzmununu dinləyici üçün daha yaxın və anlayışlı etməyə kömək edir.

Göründüyü kimi, istənilən mətn, o cümlədən də, diplomatik mətn ilk növbədə onun yaradıcısının şəxsiyyəti ilə, vaxtı və yeri ilə, müəyyən bir situasiya ilə əlaqəli olur. Mətndə yaradıcı subyektin bilikləri ifadə olunur, onların ümumiləşdirilməsi və interpretasiyası həyata keçirilir, təsvir olunan reallığın elementləri zaman və məkanda təsbit olunur.

*My fellow Americans: Four **years** ago, we launched a great national effort to rebuild our country, to renew its spirit, and to restore the allegiance of this government to its citizens. In short, we embarked on a mission to make America great again — for all Americans.*

Müəllif zamanın reprezentasiyasının müxtəlif vasitələrini seçir. Kimsə diskursda zamanın ifadə olunması üçün standart (qrammatik) vasitələrə, kimsə qeyri-standart (qeyri - qrammatik) vasitələrə üstünlük verir. Lakin, bir çox hallarda, müəllif zamanın reprezentasiyasının həm standart, həm

də, qeyri-standart vasitələrinin toplumunu istifadə edir. Hər bir müəllifin özünəməxsus üslubu onların işini digərlərindən fərqli edir.

İngilis dilində zamanın reprezentasiyası təkcə standart vasitələrin hesabına həyata keçirilmir, belə ki, burada qeyri-standart vasitələr mövcuddur, onlar zaman kateqoriyasının fərd tərəfindən reprezentasiyasında vacib rol oynayır. Zamanın reprezentasiyasının qeyri-standart vasitələri qrammatik zaman kateqoriyasının sərhədlərindən kənara çıxan zamanın ifadə vasitələridir. Buraya zamanın reprezentasiyasının metaforik və vizual vasitələri aiddir.

ƏDƏBİYYAT RUS DİLİNDƏ

1. Бабенко Л.Г. Лингвистический анализ художественного текста. // Теория и практика: Учебник. 2. изд. – Москва: Флинта: Наука, 2004 (Великолук. гор. тип.). – 495 с.
2. Жигадло В.Н., Иванова И.П., Иофик Л.Л. Современный английский язык // Теоретический курс грамматики: Учебник для спец. языковых высш. учебн. Заведений. – Москва: Изд-во лит. на иностр. яз, 1956. - 349 с.
3. Кунижев, М. А. Категория «пространство»: еѐ статус и средства вербализации : диссертация на соискание ученой степени кандидата филологических наук: 10.02.04 [Текст] / М. А. Кунижев. – Пятигорск, 2005. – 217 с.
4. Любинская Л.Н. Категория времени и системный анализ. // [Текст]. – Москва: Знание, 1966. – 32 с
5. Маляр Т.Н. Концептуализация пространства и семантика английских пространственных предлогов и наречий. // диссертация ... доктора филологических наук. – Москва, 2001. – 389 с.
6. Манакова, Н.А. Пространство как атрибут пространственно-временного континуума в грамматике (на материале русского и английского языков. Современные проблемы науки и образования. – 2012. – № 6. S. 81-115)
7. Маслов Ю.С. Введение в языкознание. – Москва: Высшая школа, 1998, – 272 с.
8. Салькова М.А. Упражнения для развития навыков устной и письменной речи по грамматике английского языка Учебное пособие для факультета ГПН. – Москва: Московский государственный лингвистический университет, 2004. – 106 с.
9. Слюсарева, Н.А. Проблемы функциональной морфологии современного английского языка. – М.: Наука, – 1986. – 215с.

ƏDƏBİYYAT İNGİLİS DİLİNDƏ

10. *Donald Trump's Inaugural Speech as the 45th president of the United States. https://www.Astrid-online.it/static/upload/trump/trump_inaugural-speech*

11. *https://trump-whitehouse.archives.gov/briefings-statements/remarks-president-trump-farewell-address-nation/*
12. *https://vlada.gov.cz/assets/media-centrum/aktualne/Speech-of-Barack-Obama*
13. Obama, B. (2009a). Remarks by the President Obama at Strasbourg Town Hall. Retrieved from http://www.whitehouse.gov/the-press-office/remarks-president-obama-strasbourg-town-hall.
14. Remarks by President Obama at Strasbourg Town Hall. April 3, 2009. https://obamawhitehouse.archives.gov/the-press-office/remarks-president-obama-strasbourg-town-hall.
15. *Remarks by President Trump in Farewell Address to the nation, Issued on January,19/https://trumpwhitehouse.archives.gov/briefings-statements/remarks-president-trump-farewell-address-nation*
16. *Ruth Wodak, Distinguished professor of Discourse Studies, Lancaster University, UK, 2010, The Discourse of Politics in Action. Politics as Usual, Palgrave macmillan, 252 p.*

РЕЗЮМЕ

ЛЕКСИКО-ГРАММАТИЧЕСКАЯ РЕПРЕЗЕНТАЦИЯ КАТЕГОРИЙ ВРЕМЕНИ И ПРОСТРАНСТВА В ДИПЛОМАТИЧЕСКОМ ДИСКУРСЕ

Маммадзада Рана Хатайыл

В статье исследуются способы лексико-семантического выражения времени и пространства в английском дипломатическом дискурсе. Посредством анализа дипломатических речей, договоров и переписки определяются лингвистические стратегии, которые дипломаты используют для передачи концептов времени и пространства, а также подчеркивается их значение в формировании дипломатических текстов и выступлений. В сфере дипломатического дискурса тонкое использование языка для выражения понятий времени и пространства считается крайне важным. Данная работа рассматривает, каким образом лексические и грамматические структуры применяются для репрезентации этих категорий в дипломатическом общении.

В статье анализируются различные выступления, официальные документы и дипломатическая переписка с целью выявления стратегий, позволяющих дипломатам структурировать свою речь в рамках конкретных временных и пространственных контекстов. Это исследование имеет большое значение для понимания особенностей дипломатического языка и его влияния на международные отношения.

***Ключевые слова*: дипломатический дискурс, категории времени и пространства, лексические репрезентации, событие, отношение, лексические средства**

MAMMADZADA RANA KHATAIL

SUMMARY

LEXICAL-GRAMMATICAL REPRESENTATIONS OF TİME AND SPACE CATEGORIES IN DIPLOMATIC DISCOURSE

In the article, the lexico-semantical means of expressing time and space in English diplomatic discourse are examined, and through the analysis of diplomatic speeches, treaties, and correspondence, the linguistic strategies used by diplomats in order to convey the concepts of time and space are identified. Their significance in shaping diplomatic correspondence and speeches is emphasized. In the sphere of diplomatic discourse, the nuanced use of language to represent the concepts of time and space is considered to be highly important. This article examines how lexical and grammatical structures are used to represent the categories of time and space in diplomatic communication.

By analyzing various speeches, official documents, and diplomatic correspondence, the article aims to reveal the strategies used by diplomats to frame their discourse within specific time and space contexts. This research is crucial for understanding the subtleties of diplomatic language and its impact on international relations.

***Keywords*: diplomatic discourse, categories of time and space, lexical representations, occasion, attitude, lexical means**

Rəyçi: Fil.f.d.dos: Yeganə Məşəd qızı Orucova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

ŞİRZADOVA LƏTİFƏ VÜQAR QIZI
Azərbaycan Dillər Universiteti
ORCID ID: 0000-0002-8842-1218

BƏDİİ MƏTNLƏRDƏ SİNONİMLƏRİN ÜSLUBİ ƏHƏMİYYƏTİ

XÜLASƏ

Bu məqalə bədii əsərlərdə sinonimlərin üslubi əhəmiyyətini araşdırmaqla yanaşı, onların dilin emosional, estetik və semantik zənginliyini necə artırdığını əyani şəkildə göstərir. Təqdim edilən nümunələr – istər klassik ədəbiyyatdan, istərsə də müasir nəşrlərdən olsun – sinonimlərin mütləq ifadə dəqiqliyini təmin etdiyini, ritmik ahəng yaratdığını və müəllifin fərdi üslubunu formalaşdırdığını sübut edir.

Əlavə olaraq, araşdırma gənc yazıçıların yaradıcılığına xüsusi diqqət yetirərək, sinonimlərin onların əsərlərində dil yeniliklərini əks etdirdiyini, obrazlı təfəkkürü dərinləşdirdiyini və dil duyumunu inkişaf etdirdiyini vurğulayır.

Nəticələr aydın şəkildə göstərir ki, sinonimlik bədii nitqin ən əsas ifadə vasitələrindən biri olub, sadəcə məna eyniliyindən ibarət deyil. Onun üslubi və estetik funksiyaları ədəbi üslubun zənginləşməsində həlledici rol oynayır.

Açar sözlər: bədii mətn, sinonim, müasir ədəbi dil, leksik-semantik təhlil

SHIRZADOVA LATIFA VUGAR

THE STYLISTIC SIGNIFICANCE OF SYNONYMS IN LITERARY TEXTS

SUMMARY

This article explores the stylistic significance of synonyms in literary texts, demonstrating their crucial role in enhancing the emotional, aesthetic, and semantic depth of the language. Using examples from both classical and contemporary literature, the study illustrates how synonyms ensure precision of expression, establish rhythmic harmony, and contribute to the formation of an author's individual style.

Special emphasis is placed on the works of younger writers, where synonyms reflect modern linguistic innovations and actively develop figurative thinking and language perception.

The findings indicate that synonymy is a fundamental means of expression in artistic discourse, valued not only for its meaning but also for its stylistic and aesthetic functions, playing a vital role in enriching literary style.

Key words: literary text, synonym, modern literary language, lexical-semantic analysis

ШИРЗАДОВА ЛЯТИФА ВУГАР КЫЗЫ

СТИЛИСТИЧЕСКОЕ ЗНАЧЕНИЕ СИНОНИМОВ В ХУДОЖЕСТВЕННЫХ ТЕКСТАХ

РЕЗЮМЕ

В данной статье анализируется стилистическое значение синонимов в художественных текстах, демонстрируется их ключевая роль в углублении эмоциональной, эстетической и семантической составляющих языка. На основе примеров как из классической, так и из современной литературы показано, что синонимы обеспечивают точность выражения, создают ритмическую гармонию и являются важным элементом формирования индивидуального авторского стиля.

Особо подчеркивается, что в творчестве молодых писателей синонимы отражают языковые инновации и активно способствуют развитию образного мышления и языкового чутья.

Результаты исследования подтверждают: синонимия — это одно из основных средств художественной речи, ценное не только с точки зрения значения, но и благодаря своим стилистическим и эстетическим функциям, и она играет решающую роль в обогащении литературного стиля.

Ключевые слова: художественный текст, синоним, современный литературный язык, лексико-семантический анализ

Mətn dilin özünəməxsus istifadəsini özündə cəmləşdirən vahidlərdən biridir. Bitkinliyə malik olub fərqli leksik, qrammmatik, məntiqi və üslubi əlaqələrlə birləşir. Funksional üslubun bir növü kimi bağlılıq kateqoriyası mətnin xüsusiyyətlərindən biridir. Bu da özündə mətnin tərkib hissəsinin daxili əlaqələrini cəmləşdirir. Bu isə özündə məna əlaqəsi və struktur əlaqəsini birləşdirən kateqoriyadır. Hər hansı mətndə struktur-qrammatik göstəricilər mətnyaradıcı vasitə kimi rol alır.

Mətn ünsiyyətin mühüm ünsürlərindən hesab edilir. İlk baxışda mətni cümlələr ardıcıllığı şəklində başa düşmək olsa da, cümlənin əsas hərəkətverici qüvvəsi kimi mətni hesab etmək lazımdır. Gündəlik mətnlərsiz, əsasən, söyləm, elliptik cümlə, cümlə fraqmentləri və nitq klişelərinin qarışığı kimi nəzərə alınır. Lakin bunu da mətnə verilən əsas tərif kimi götürmək olmaz. Burada koheziya və koherensiya terminlərinin izahına da nəzər salsaq, mətnin daxili əlaqələrinin yaranmasında və formalaşmasında əsas rol oynayan amillər içərisində onların da xidmət etdiyini görə bilirik. Koheziya mətnin struktur və formaca qurulması, koherensiya isə mətnin mənasına görə formalaşmasına deyilir. Bunlarla yanaşı fonetik və qrammatik vasitələr və intonasiya da mətnin daxili əlaqələrinin formalaşmasında zəruri əhəmiyyət kəsb edir.

Bədii mətnlər dilin kommunikativ imkanlarını üzə çıxarmaqla yanaşı eyni zamanda estetik imkanlarını da genişləndirir. Müəllif oxucuya həm məlumatı ötürə

bilir, həm də eyni zamanda ona emsional və təsviri təsir göstərə bilir. Bu prosesdə sinonimlər mühüm rol oynayır. Sinonimlər mətndə təkrarların qarşısını alır, rəngarənglik və emosional-ekspressiv çalar yaradır.

Klassik poeziyadan başlayaraq müasir nəsrə qədər zəngin sinonim ehtiyatına malik olan Azərbaycan dilində sinonimlərin üslubi imkanlarından geniş şəkildə istifadə olunmuşdur.

Sinonim termini yunan dilindəki synonymos ("eyni adlı") sözündən gəlir, yaxın mənalı olub, yalnız fonetik və morfoloji quruluşuna görə fərqlənən sözləri ifadə edir. Dilçilikdə sinonimlər fərqli meyarlara əsasən təsnif olunur. Mənaca yaxınlıq dərəcəsinə görə tam və ya yaxın sinonimlər şəklində qruplaşdırılır. Tam sinonimlər mənasına görə tamamilə eyni olan sözlərə deyilir. Dildə belə sözlərə çox nadir rast gəlinir, çünki dil canlıdır və bir çox halda sinonimlər arasında üslubi, emosional və işlənmə çalarlarına görə fərq yaranır. *Məsələn, lüğət-sözlük, köhnə-qədim* tam sinonimlərə nümunə olaraq göstərilə bilər.

Yaxın sinonimlər isə ümumi mənasına görə eyni olub, üslub, çalar və işlənmə yerinə görə fərqlənən sözləri ifadə edir. *Gözəl - qəşəng - göyçək* buna nümunə ola bilər.

Ə.Dəmirçizadə sinonimlərin üslubi imkanlarını önə çəkərək onun yalnız məna yaxınlığı yaratmadığını, eyni zamanda üslubi seçim vasitəsi olduğunu da xüsusilə qeyd edir:

- Sinonimlər müəllifə eyni fikri fərqli şəkildə müxtəlif sözlər vasitəsilə ifadə etməsinə imkan yaradır. Bu isə dilin ifadə gücünü artıraraq təkrarların qarşısını alır.
- Yazıçı ifadə etmək istədiyi emosiyaya görə sinonimləri seçib işlədə bilir. Sinonimlər emosional yükə görə fərqlənir. *Məsələn, ölmək - vəfat etmək - can vermək.*
- Müəllif fikrini ifadə edəcəyi üsluba görə yaxınmənalı sözlərdən uyğun olanını seçə bilir. Bu da dilin incəliyini göstərir.
- Sinonimlərin sənətkarlıq funksiyası isə mətnə rəngarənglik qatır, poetik güc və mənəvi dərinlik yaradır. Söz zənginliyi ilə müəllif fikri daha emosional, təsirli və rəngarəng ifadə edə bilir [4].

Klassik poeziyada sinonimlər obrazlılığı və bədii dilin zənginliyini artıran əsas vasitə kimi işlənir. Sinonimlər bir anlayışa emosional məna yükləyir. Məsələn, M.Füzuli "Leyli və Məcnun" əsərində yaxın mənalı *"hicran", "qəm"* və *"dərd"* sözlərini işlədərək duyğuları fərqli çalarlarla ifadə edir. "Divan"-da istifadə etdiyi "*eşq", "sevda", "məhəbbət"* sinonimləri eşqin fəlsəfi və mistik tərəflərini göstərir. Mətnin monotonluğunu aradan qaldırmaq üçün sinonimlərdən düzgün istifadə təkrarların qarşısını alır. Nizami Gəncəvi "Xosrov və Şirin" əsərində "*məcnun*", "*dəlisov*" və "*aşiq*" sözlərini istifadə edərək eyni obrazı fərqli çalarlarla təsvir edir. Onun əsərlərində rast gəlinən "*həsrət", "hicran"* və *"kədər"* sözləri sevgi mövzusunun psixoloji dərinliyini oxucuya çatdırır. Sinonimlərin düzgün yerində istifadəsi mətnin dəqiqliyini də artırır. Səməd Vurğunun "Azərbaycan" şeirinə nəzər

yetirsək, şeirdə işlənən *"vətən", "yurd"* və *"məskən"* sözlərinin milli kimliyi və emosional bağlılığı ifadə etdiyini müşahidə edə bilərik [8].

Müasir yazıçılar da öz əsərlərində üslubi rəngarənglik yaratmaq üçün sinonimlərdən geniş istifadə edirlər. Məsələn, Anarın hekayələrində *"uşaq", "balaca", "qız"* kimi danışıq üslublu sinonimlər personajların gündəlik həyatını oxucuya daha canlı göstərməyə kömək edir.

Klassiklərdən müasir müəlliflərə qədər əsərlərində sinonimlərdən geniş istifadə onların milli dilin bədii-estetik imkanlarının əsas sütunlarından biri olduğunu göstərir. Müəllif əsərində sinonimlərdən istifadə edərək öz üslubunu fərqləndirə bilir.

Bədii mətnlərdə sinonimlər həm üslubi çalar yaradır, həm də müəllifin fərdi yazı üslubunu formalaşdırır. Müəllif bir obrazın təsvirini müxtəlif sinonimlərlə təqdim etməklə oxucuya həmin hissi fərqli şəkildə ötürə bilir. Bu zaman yazıçı sadəcə eyni hissi təkrar etmir, həm də onu fərqli semantik dərəcələrdə göstərərək emosional qavramanı genişləndirir.

Sinonimlərin düzgün seçilib işlənməsi bədii mətnlərin semantik quruluşunu daha da rəngarəng edir. Bu səbəbdən sinonimlər üslubi əhəmiyyət kəsb etməkdən əlavə məna dəqiqliyinin qorunmasında da mühüm vasitə kimi rol oynayır. Mətn daxilində sinonimlərin bir-birini əvəz etməsi eyni anlayışın fərqli aspektlərini oxucuya təqdim edir. Bu da müəllifin fərdi yaradıcılıq dünyasını göstərir.

Azərbaycan klassik poeziyasında sinonimlərdən geniş istifadə şairin bədii məqsədlərinə müvafiq olaraq müxtəlif funksiyalarda işlənilə bilər. Buna nümunə olaraq göstərmək olar ki, Füzuli öz poeziyasında *"eşq"* anlayışını *"məhəbbət", "sevda", "hicran"* kimi fərqli sinonimlərlə ifadə edir. Fərqli sinonimlərlə ifadə fərqli çalarlarla poetik mətnin emosional gücünü dərinləşdirir. Bununla da sinonimlər bədii mətnin çoxşaxəli semantik strukturunu əhatə edir.

Sinonimlər müasir nəsrdə əsasən personajların xarakter və dünyagörüşünü ifadə etmək üçün onların nitqində geniş istifadə olunur. Müəllif əsasən danışıq üslubuna uyğun sinonimlərdən əsərlərində istifadə edərək personajları fərdiləşdirə bilir. Oxucuya bu şəkildə onların sosial statusunu, emosional vəziyyətini və psixoloji portretini aydın formada göstərməyə çalışır.

Bədii mətnlərdə sinonimlərin işlənməsi kontekstə uyğun olaraq fərqli üslubi çalarlar qazanır. Bəzi sinonimlər ancaq əsərlərdə bu funksiyanı qazanıb kontekstual sinonim funksiyasını daşıyır. Deməli, sinonimlik dinamik hadisədir, çünki müəyyən bir mətndə müxtəlif üslubi çalarlar yarada bilir.

Şair tərəfindən düzgün seçilən sinonimlər fonetik quruluşu ilə şeirdə harmoniya yaradır. Bununla sinonimlərin musiqililiyi poeziyanın estetik funksiyalarından biri sayılan səs gözəlliyini özündə əks etdirir.

Müasir tərcümə nəzəriyyəsində sinonimlərin bir dildən digərinə tərcümə edilməsi çətinlik yarada bilir. Belə ki, bir çox hallarda orijinal mətndəki kimi eyni mənanı ifadə edən qarşılığını tapmaq mümkün olmur. Bu halda yalnız dilin üslubi

ehtiyatlarından mümkün qədər istifadə edərək verilən sinonim sıra uyğun başqa vasitələrlə əvəz olunur. Buna görə də tərcümə prosesində mətnin emosional təsirini azaltmadan sinonimlərin semantik və üslubi çalarlarının qorunması yüksək peşəkarlıq tələb edir.

Bədii əsərlərdə sinonimlər oxucunun əsəri anlamasında da öz təsir gücünü göstərir. Sinonim sıralara əsasən oxucu eyni anlayışın fərqli cür ifadə vasitələriylə tanış olaraq onun geniş mənzərəsinin təsvirini yarada bilir. Bu da insan təfəkküründün və emosional dünyasının zənginləşdirilməsinə kömək edir. Sinonimlərin üslubi funksiyalarına fərqli nəzəri yanaşmalar mövcuddur.

Dilçilikdə sinonimlərin araşdırılması çox qədim dövrlərə gedib çıxır. Hələ Antik Yunanıstanda, Aristotel özünün "Poetika" əsərində sinonimlərin bədii əsərlərdəki əhəmiyyətindən danışmış və onların oxucuya təsirini gücləndirdiyini vurğulamışdı.

Daha sonralar Avropada, xüsusilə F. de Sössür, Ş. Bally və V. Vinoqradov kimi məşhur dilçilər sinonimləri dilin üslubi zənginliyinin ən vacib göstəricilərindən biri hesab etmişlər.

Azərbaycan dilçiliyində isə bu mövzuya maraq XIX əsrin sonlarından başlayıb, XX əsrdə isə M. Şirəliyev, A. Axundov və Ə. Dəmirçizadə kimi alimlər tərəfindən həm sinonimlərin leksik-semantik xüsusiyyətləri, həm də onların üslubi funksiyaları haqqında fundamental araşdırmalar aparılıb.

Azərbaycanın klassik ədəbiyyatında sinonimlərin üslubi əhəmiyyəti xüsusilə diqqət çəkir. Nizami Gəncəvi, Məhəmməd Füzuli və Şah İsmayıl Xətai kimi dahi sənətkarların əsərlərində sinonimlərdən düzgün istifadə olunması həm poetik mənaya dərinlik qatır, həm də oxucuda güclü emosional əks-səda yaradır.

Məsələn, Füzulinin qəzəllərindəki *"hicran," "firqət,"* və *"ayrılıq"* sözləri sadəcə eyni mənanı vermir, həm də müxtəlif üslubi çalarlar yaradır:

- *"hicran"* - daha çox sufi-fəlsəfi mənalarla zəngindir.
- *"firqət"* - klassik ərəb-fars poeziyasının ənənələrini əks etdirir.
- *"ayrılıq"* - daha çox xalq danışıq dilinə yaxındır.

Bu sinonimlərin bir mətndə yan-yana işlənməsi şeirin ritmini möhkəmləndirir və duyğusal təsiri artırır [8, s. 87].

Nizami Gəncəvi də sinonim ustadıdır. Onun "Xosrov və Şirin" əsərində "eşq," "sevda" və "məhəbbət" sözləri təkcə məhəbbəti təsvir etmir, həm də hisslərin fərqli qatlarını ifadə edir:

- *"eşq"* - daha çox yüksək, ilahi sevgini bildirir.
- *"sevda"* - dünyəvi və bəzən əzablı bir hisslə əlaqələndirilir.

Bu sözlər birlikdə poetik mətnə zəngin emosional fon bəxş edir.

Qasım bəy Zakir və Molla Pənah Vaqifin şeirlərində isə sinonimlər daha çox xalq dilindən gələrək ədəbi üsluba daxil olmuşdur. Məsələn, Vaqifin qoşmalarında *"yar," "dilbər"* və *"sevgili"* sözləri fərqli emosional yüklə təqdim olunur: *"Yar"* sadə və səmimi xalq müraciətidir, *"dilbər"* klassik poeziyanın incəlik və zərifliyi ilə bağlıdır, *"sevgili"* isə daha dərin bir duyğu yükünü ifadə edir.

Bədii mətnlərdə sinonimlərin əsas üslubi funksiyalarını aşağıdakı kimi ümumiləşdirmək olar:

- emosional təsiri artırma: Müəllif eyni mənanın müxtəlif emosional çalarlara malik olan sözlərini seçməklə oxucuda daha güclü təsir oyadır.
- poetik ritmi və ahəngi qoruma: Şeirlərdə sinonimlərdən istifadə qafiyə və ritmi saxlamaq üçün əlverişli bir vasitədir.
- məna incəliyini ifadə etmə: Sinonimlər arasında kiçik semantik fərqlər olduğu üçün müəllif onlardan istifadə edərək çoxqatlı və incə mənalar yarada bilir.
- üslubi fərqlilik yaratma: Sinonimlər danışıq dili, ədəbi dil, dialekt kimi müxtəlif üslub qatlarına aid ola bilər və bu da mətndə maraqlı üslubi ziddiyyət yaradır.

Məsələn, M. Ə. Sabirin satirik şeirlərində sinonimlər həm fikri gücləndirmək, həm də ironik effekt yaratmaq üçün işlədilir. O, eyni məna dairəsindən bir neçə sözü ardıcıl gətirməklə həm gülüş doğurur, həm də ictimai tənqidi daha da kəskinləşdirir.

XX əsrdən başlayaraq Azərbaycan nəsr və poeziyasında sinonimlərin istifadəsi yeni bir mərhələyə qədəm qoydu. Sovet dövrü ədəbiyyatında yazarlar və şairlər sinonimlərdən həm ideoloji, həm də güclü bədii təsir yaratmaq üçün istifadə edirdilər.

Məsələn, Səməd Vurğunun *"Azərbaycan"* poemasında *"vətən," "yurd," "el"* və *"oba"* kimi sözlərin işlənməsi həm milli ruhu ifadə edir, həm də ifadənin təsir gücünü artırırdı. Burada *"vətən"* daha rəsmi və ümumi məna daşıdığı halda, *"oba"* daha çox məişətə yaxın, səmimi və doğma bir çalar verirdi [16].

Müasir dövrə gəldikdə, Anar və Elçin kimi yazıçılar sinonimləri əsasən psixoloji dərinlik yaratmaq üçün tətbiq edirlər. Anarın *"Beşmərtəbəli evin altıncı mərtəbəsi"* əsərində *"tənhalıq," "yalqızlıq,"* və *"səssizlik"* sözlərinin bir yerdə işlənməsi qəhrəmanın daxili dünyasının müxtəlif tərəflərini açır: *"Tənhalıq"* sosial təcridi, *"yalqızlıq"* emosional vəziyyəti, *"səssizlik"* isə məkanın təsirini ifadə edir və oxucuda daha dolğun bir təsəvvür yaradır.

Elçinin hekayələrində isə sinonimlər bəzən ironik çalarlar yaratmaq məqsədi güdür. O, eyni anlayışı müxtəlif sinonimlərlə təqdim etməklə söz oyunları qurur və obrazların danışıq tərzini fərdiləşdirir, bu da xüsusilə dialoqlarda özünü göstərir.

Detektiv nəsr ustası Çingiz Abdullayev isə sinonimlərdən daha çox üslubi dinamikanı və oxucu marağını canlı saxlamaq üçün istifadə edir. Məsələn, *"qatil," "cinayətkar," "təqsirli"* və *"şübhəli"* sözlərini eyni mətndə təkrarın qarşısını almaq və məzmun dəqiqliyini təmin etmək üçün işlədir.

Sinonimlərin üslubi funksiyalarının öyrənilməsi yalnız Azərbaycan ədəbiyyatı ilə məhdudlaşmır. Dünyanın digər ədəbiyyatlarında da sinonimlər müəllif üslubunun fərqliliyinin açarı olmuşdur:

- Rus ədəbiyyatında Lev Tolstoy kimi sənətkarlar *"sevgi"* anlayışını *"любовь" (sevgi), "страсть" (ehtiras)* və *"привязанность" (bağlılıq)* kimi

sinonimlərlə ifadə edərək hər birinin emosional və sosial kontekstdə yaratdığı fərqli çalarları vurğulamışdır.

- İngilis ədəbiyyatında isə Şekspirin əsərləri, xüsusilə *"Hamlet"* pyesində qəhrəmanın daxili monoloqlarında işlədilən *"grief" (kədər), "sorrow" (qəm), "woe" (dərd)* kimi sinonimlər emosional gərginliyin dərinləşməsinə xidmət edir və qəhrəmanın psixoloji vəziyyətini daha incə şəkildə çatdırır.

Türk ədəbiyyatında Orxan Pamukun romanlarında sinonimlər müasir üslubi axtarışların bir hissəsi kimi diqqət çəkir. "Qar" romanında *"hüzün," "kədər"* və *"qəm"* sözlərinin istifadəsi türk mədəniyyətinə xas olan xüsusi bir emosional təsir yaradır.

Bu müqayisələr göstərir ki, sinonimlər bütün ədəbiyyatlarda universal üslubi dəyərə malikdir və müəlliflərin bədii üslubunun fərqliliyini açıq şəkildə ortaya qoyur.

Sinonimlərin tərcüməsi zamanı ciddi problemlər ortaya çıxır, çünki bir dildəki sinonimlər digər dildə tamamilə eyni çalarları və mənaları daşıyan qarşılıq tapa bilmir.

Məsələn, Füzulinin *"hicran"* sözünü ingilis dilinə *"separation" (ayrılıq)* və ya *"longing" (həsrət)* kimi tərcümə etmək mümkündür. Lakin bu ingilis sözləri "hicran"ın daşıdığı fəlsəfi və sufi mənaları tam əks etdirməkdə çətinlik çəkir. Bu səbəbdən, sinonimlərin üslubi dəyərini tərcümədə tam qorumaq hər zaman mümkün olmur.

Eynilə, rus dilindən tərcümələrdə Tolstoyun *"любовь"* və *"страсть"* sözlərinin hər ikisinin Azərbaycan dilində sadəcə *"sevgi"* kimi verilməsi mənanın müəyyən hissəsinin itməsinə səbəb ola bilər. Belə hallarda tərcüməçilər bəzən mənaya aydınlıq gətirmək üçün izahlı ifadələrə müraciət etməli olurlar.

Müasir qloballaşma dövründə bu məsələ daha da aktuallaşır, çünki oxucular yalnız mətnin ümumi məzmununu deyil, həm də müəllifin yaratdığı bütün üslubi incəlikləri dərk etmək istəyirlər.

Dilçilikdə sinonimlərin üslubi funksiyalarını izah edən müxtəlif nəzəri yanaşmalar mövcuddur. Klassik struktur dilçilik sinonimləri əsasən mənalarının yaxınlığına görə təsnif edir və sadəcə eyni anlayışı müxtəlif formalarda ifadə edən dil vahidləri kimi qəbul edirdi.

Lakin sonrakı araşdırmalar göstərdi ki, sinonimlər yalnız məna eyniliyi deyil, həm də mühüm üslubi dəyərə malikdir.

XX əsrdə inkişaf edən funksional üslub nəzəriyyəsi sinonimlərin müxtəlif üslublarda necə fərqli rol oynadığını ortaya qoydu:

- Elmi üslubda sinonimlər terminoloji dəqiqliyi təmin etmək üçündür.
- Bədii üslubda isə emosional-estetik təsir gücünü artırmaq üçün işlənir.
- Publisistik üslubda isə oxucunu inandırmaq, təkrardan yayınmaq və ritmik balans yaratmaq məqsədi daşıyır.

Koqnitiv dilçilik isə sinonimlərə fərqli prizmadan yanaşır. Bu yanaşmada onlar insanın reallığı müxtəlif baxış bucaqlarından dərk etməsi və konseptual məkanı

zənginləşdirməsi vasitəsi kimi nəzərdən keçirilir. Məsələn, *"ev"* anlayışının *"ocaq," "məskən"* və ya *"sığınacaq"* kimi sinonimlərlə təqdim edilməsi hər dəfə fərqli bir konseptual çalar yaradır.

Sinonimlərin əsas xüsusiyyətlərindən biri də onların emosional yük daşımasıdır. Bəzi sinonimlər neytral, digərləri isə müsbət və ya mənfi duyğu çalarlarına malik ola bilər. Məsələn, *"igid"* və *"cəsur"* sözləri məna yaxınlığına baxmayaraq, fərqli hisslər yaradır: *"igid"* daha çox milli-mənəvi dəyərlərlə bağlı olan qəhrəmanlıq hissi verir, *"cəsur"* isə daha neytraldır.

Eynilə, *"qadın"* anlayışının sinonimlərində də fərq var: *"Xanım"* hörmət və nəzakət ifadə edir, *"arvad"* isə daha çox məişət danışığına aiddir. Bu fərqlər müəllifə üslubi seçim imkanı yaradır və mətni emosional cəhətdən rəngarəng edir [9, s. 56].

Bədii mətnlərdə, xüsusən poeziyada, sinonimlərin rolu yalnız məna verməklə məhdudlaşmır; onlar həm də ritmik ahəngin qurulmasına xidmət edir. Sinonimlər alliterasiya, assonans və paralelizm kimi vasitələrlə ahəngdarlığı gücləndirir.

Nizami Gəncəvinin "Xəmsə"-də *"qəm-kədər"* və *"şad-xoş"* kimi sinonim cütlükləri həm məna yaxınlığını, həm də ritmik paralelliyi təmin edərək şeirin üslubuna musiqiilik qatır. Müasir şeirdə, məsələn, Məmməd Arazın əsərlərində *"dərd," "qəm," "nisgil," "kədər"* sözlərinin ardıcıl gəlməsi ritmik intensivlik yaradaraq oxucunu emosional gərginliyə çəkir.

Sinonimlər sadəcə leksik zənginlik deyil, həm də mədəniyyətin daşıyıcısıdır. Hər bir sinonim qrupu xalqın dünyagörüşünü, tarixi təcrübəsini və dəyərlərini əks etdirən mədəni çalarlar ehtiva edir.

Azərbaycan dilindəki *"torpaq," "yurd"* və *"vətən"* sinonimləri arasındakı fərq yalnız mənalarına görə deyil, həm də mədəni xarakterə görədir: *"Torpaq"* fiziki məkanı, *"yurd"* ailə və tayfa bağlarını, *"vətən"* isə milli kimliyi və dövlətçilik ideyasını ifadə edir. Bu fərqliliklər Azərbaycan ədəbiyyatında öz əksini tapır.

Müasir dilçilik bu prosesi "dil-mədəniyyət əlaqəsi" kontekstində izah edir, sinonimləri mədəniyyətin simvolik sisteminin bir parçası hesab edir. Azərbaycan ədəbiyyatında yeni nəsil yazıçıların dilə və üsluba yanaşması özünəməxsusluğu ilə seçilir. Bu nəsil üçün bədii ifadə vasitələrindən, o cümlədən sinonimlərdən istifadə, sadəcə dilin zənginliyini göstərməkdən çox, fərdi üslubun təməl daşıdır. XXI əsrin yazıçıları — Elxan Elatlı, Şərif Ağayar, Günel Mövlud, Qan Turalı və Könül Kəngərli daxil olmaqla — sinonimlərin semantik, emosional və mədəni çalarlarını fərqli poetik mətn quruluşlarında təqdim etməklə dilin üslubi potensialını yenidən üzə çıxarıblar.

Gənc yazıçıların yaradıcılığında sinonimlərin əsas rolu danışıq üslubunun təbiiliyini bədii mətnlərdə qoruyub saxlamaqdır. Klassik ədəbiyyatda sinonimlər daha çox təntənəli və ya poetik çalarda səslənirdisə, müasir nəsil onları gündəlik nitqin dinamik ritminə ustalıqla uyğunlaşdırır.

Məsələn, Şərif Ağayarın *"Kərpickəsən kişinin dastanı"* povestindəki *"sakit," "dinməz," "susqun" və "lal"* kimi sinonimik ardıcıllıq sadəcə məna yaxınlığı ifadə

etmir. Əksinə, onlar qəhrəmanın psixoloji vəziyyətinin fərqli mərhələlərini göstərərək, müəllifə emosional gərginliyi pillə-pillə artırmağa imkan verir [1, s. 82].

Günel Mövlud isə hekayələrində sinonimlərə qadın kimliyi və daxili azadlıq anlayışlarının poetik ifadəsi üçün mühüm yer ayırır. *"Bağlı," "məhdud," "sıxılmış," "qapalı"* kimi sinonimlər yalnız fiziki məkan mənası ilə məhdudlaşmır. Onlar sosial və psixoloji təzyiqin güclü simvoluna çevrilir. Beləliklə, sinonimlər leksik bərabərlik səviyyəsindən yüksələrək, konkret anlayışların arxasında dərin metaforik məna yaradır [12, s. 54].

Digər tərəfdən, Elxan Elatlının detektiv romanlarında — məsələn, *"Qanuni oğru"* və *"Qətl sirri"*-də — sinonimlər janrın gərginliyini və dinamikasını gücləndirir. Yazıçı *"təhqiqat," "araşdırma," "soruşturma"* kimi ifadələri həm rəsmi, həm də gündəlik üsluba yaxınlaşdırmaqla reallıq təsiri yaradır. Bu üslub seçimi oxucu ilə müəllif arasında dil yaxınlığını təmin edərək mətnin kommunikativ təsirini artırır [5, s. 102].

Gənc yazıçıların dilində sinonimlərdən istifadə tez-tez ironik ton və ya satirik baxışın formalaşmasına xidmət edir. Qan Turalının *"Fələk qırmancı"* romanında *"ağıllı," "dərin," "müdrik," "bilgili"* kimi sinonimlərin bir-birini əvəzləməsi ilə güclü bir ironiya effekti əldə olunur; müəllif bu yolla cəmiyyətdəki stereotipləri və yalançı müdriklik iddialarını ifşa edir. Burada sinonimlərin əsas məqsədi estetik gözəllikdən daha çox sosial tənqidi hədəfə almaqdır [13, s. 67].

Gənc nəslin yaradıcılığında sinonimlərin emosional-ekspressiv dəyəri əsas yer tutur. Rəqəmsal mühitlə sıx təmasda olmaları səbəbilə onların üslubu çox vaxt çevik, danışıq dilinə yaxın və çoxqatlıdır. Könül Kəngərlinin *"Bir payız günündə"* romanında *"gözəl," "şirin," "xoş," "nəfis"* kimi sinonimlər qadın obrazının təsvirində işlədilərək duyğusal dərinlik yaradır. Klassik tərifdən fərqli olaraq, bu yanaşma sinonimlərin emosional çoxsəsliliyini vurğulayır [10, s. 39].

Gənc yazıçıların yaradıcılığı dilin daimi yenilənmə mənbəyidir. Onların istifadə etdiyi sinonimlər müasir leksik trendlər, internet dili və gündəlik danışıqdan bəhrələnir. Bu vəziyyət bir tərəfdən ənənəvi ədəbi normalardan müəyyən uzaqlaşma yaratsa da, digər tərəfdən Azərbaycan ədəbi dilinin təbii inkişaf prosesini əks etdirir. Bu baxımdan, sinonimlər yalnız estetik deyil, həm də sosiolinqvistik yeniləşmənin əsas funksiyasını yerinə yetirir [7, s. 114].

Qloballaşma və rəqəmsallaşma sinonimlərin istifadəsinə yeni tələblər gətirib. Sosial şəbəkələrdə gənclər eyni anlayışı fərqli sinonimlərlə ifadə edərək öz üslubi fərdiliklərini nümayiş etdirirlər. Məsələn, *"gözəl"* sözü sosial mediada *"şirin," "xoş"* və ya ingilis dilindən gələn *"cute"* kimi işlədilir. Bu, dilin sinonim potensialını genişləndirir və yeni üslubların yaranmasına səbəb olur [14, s. 141].

Həmçinin, avtomatik tərcümə və süni intellekt sistemlərində düzgün sinonim seçimi böyük əhəmiyyət kəsb edir, çünki yanlış seçim üslubi uyğunsuzluq yarada bilər.

Bütün bu müzakirələr göstərir ki, sinonimlər sadəcə dilin leksik zənginliyi deyil, həm də onun üslubi, emosional və mədəni potensialını əks etdirən əsas vasitədir. Azərbaycan və dünya ədəbiyyatında aparılan təhlillər sübut edir ki, sinonimlər təkrarın qarşısını alır, emosional intensivliyi artırır, ritmik ahəng yaradır və mədəni kimliyi ifadə edir.

Sinonimlərin tərcümədəki problemləri, xüsusilə mədəni çalarların qorunması və müasir rəqəmsal mühitdəki rolu dilçiliyin ən vacib mövzularından biri olaraq qalır. Beləliklə, sinonimlərin rolu dilin özündən əlavə, üslub, mədəniyyət və kommunikasiya kontekstində çoxşaxəli şəkildə dəyərləndirilməlidir.

Nəticə etibarı ilə, gənc nəsil yazarlarının əsərlərində sinonimlər həm fərdi üslubun xarakterini, həm də dövrün dil və düşüncə xüsusiyyətlərini göstərən bir güzgüyə çevrilmişdir. Onların vasitəsilə yazıçılar emosional təsir gücünü artırır, mətnin ritmik axınını tənzimləyir və oxucunu həm intellektual, həm də estetik cəhətdən cəlb edə bilirlər. Beləliklə, sinonimlər müasir Azərbaycan nəsrində bədii və sosial reallığı dil vasitəsilə yenidən təşkil edən əsas üslubi alətdir.

Ədəbiyyat:

1. Ağayar, Ş. Kərpickəsən kişinin dastanı. Bakı: Qanun Nəşriyyatı, 2017.
2. Abdullayev, Ç. Qırmızı meydanda qətl. Bakı: Qanun, 2010.
3. Anar. Ağ qoç, qara qoç. Bakı: Çinar, 2005.
4. Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Maarif, 1962.
5. Elatlı, E. Qanuni oğru. Bakı: Qanun Nəşriyyatı, 2015.
6. Elçin. Mahmud və Məryəm. Bakı: Yazıçı, 1999.
7. Əliyeva, L. Müasir Azərbaycan nəsrində leksik yeniləşmə prosesləri. Azərbaycan Dillər Universiteti: Elmi Xəbərlər, 1 (28), 110–119, 2022.
8. Füzuli, M. Divan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1959.
9. İsmayılov, E. Sinonimlərin üslubi xüsusiyyətləri. Bakı: Elm və təhsil, 2018.
10. Kəngərli, K. Bir payız günündə. Bakı: TEAS Press, 2019.
11. Lakoff, G. Women, fire, and dangerous things: What categories reveal about the mind. Chicago: University of Chicago Press, 1987.
12. Mövlud, G. Yad dildə. Bakı: Qanun Nəşriyyatı, 2020.
13. Qan Turalı. Fələk qırmancı. Bakı: Qanun Nəşriyyatı, 2016.
14. Quliyeva, S. Müasir Azərbaycan gənclərinin nitqində sinonimlərin istifadəsi. Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, 2(24), 135–144, 2021.
15. Vahabzadə, B. Şeirlər. Bakı: Yazıçı, 1983.
16. Vurğun, S. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1975.
17. Vurğun, S. Seçilmiş əsərləri. Bakı: Yazıçı nəşriyyatı, 1985.

Rəyçi: f.f.d., dos. İzaura Füzuli qızı Şirinova Dadaşova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

LEYLA SÜLEYMANOVA
Azərbaycan Dillər Universiteti
Baş müəllim
suleymanova.leyla@adu.edu.az

MÜASİR İNGİLİS DİLİNDƏ İŞARƏ ƏVƏZLİKLƏRİ MƏTN YARANMASINDA FORMAL ƏLAQƏ VASİTƏSİ KİMİ

XÜLASƏ

Ötən əsrin ortalarından başlayaraq mətn dilçiliyinin əsas obyekti olan mətn tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Mətnin komponentləri, onun formal və məzmun vahidləri, mətni əlaqələndirən formal əlaqə vasitələri və onların hər birinin mətnyaratma funksiyaları araşdırılmışdır. Mətn müəyyən bir koqnitiv informasiyaya malikdir və bu informasiyanın ötürücüləri kimi mətndə müxtəlif formal vasitələr mövcuddur ki, onların da bir bütöv şəklində tədqiqi mətn dilçiliyinin ümumi məqsəd prinsipidir. Mətndaxili əlaqələr, onların struktur və semantik xüsusiyyətləri mətn dilçiliyi üçün xüsusi əhəmiyyət kəsb edir.

Məqalədə müasir ingilis dilində işarə əvəzliklərinin mətn yaranmasında formal əlaqə vasitəsi kimi rolundan bəhs edilir. Mətni bir bütövə çevirən amillər sırasında əvəzliklər xüsusilə fərqlənir. Əvəzliklər mətnin mənasının açılmasında, mətnin bir bütöv kimi formalaşmasında, komponentlərarası əlaqənin təmin olunmasında, ümumiyyətlə mətn dilçiliyinin tədqiqində xüsusi rola malikdir. Müasir ingilis dilində işarə əvəzlikləri istər leksik təkrarlar, anafora, katafora kimi, istərsə də deyktik ifadələr kimi mətndaxili əlaqəyə xidmət edir. Məqalədə işarə əvəzliklərinin hər birinin ayrı-ayrılıqda mətnyaratma xüsusiyyətləri araşdırılır, bir sıra dilçi alimlərin fikirləri təhlil edilir və onların mətn dilçiliyinə, mətni formalaşdıran formal əlaqə vasitələri kimi əvəzliklərə münasibəti aydınlaşdırılır. Azərbaycan, rus, ingilis dillərində olan müxtəlif elmi əsərlərə, internet materiallarına istinad edilir, təqdim olunan arqumentlər bədii ədəbiyyatdan gətirilən nümunələr əsasında izah olunur.

Açar sözlər: mətn, kontekst, formal əlaqə vasitələri, işarə əvəzliyi, deyksis, anafora, katafora

Müasir dilçilik elmi inkişaf etdikcə mətn dilçiliyinə dair müxtəlif problemlərin araşdırılması aktuallaşmış, mətnin tədqiqi prinsipləri, mətn komponentlərini əlaqələndirən formal və semantik əlaqə vasitələri müəyyənləşdirilmişdir. Mətn dedikdə komponentlərin müəyyən şəkildə qurulmuş qarşılıqlı əlaqəsindən yaranan bir bütöv nəzərdə tutulur. Mətn müəyyən xüsusiyyətlərə malik olmalıdır:

1) koheziya (qrammatik formal əlaqələrin məcmusu);
2) koherensiya (mətndə məna əlaqələrin birliyi);
3) informativlik;
4) məqsədlilik;

5) mətnlərarası əlaqəlilik;
6) mətnlə kommunikativ situasiya arasında bağlılıq.

Dilçilikdə bu termin iki mənada işlədilir: mətn dedikdə bir tərəfdən danışanın niyyətinə görə bitmiş fikir daşıyan bir və ya bir neçə cümlədən ibarət istənilən söyləm, digər tərəfdən isə hekayə, povest, roman, qəzet və jurnal məqaləsi, elmi monoqrafiya, müxtəlif növ sənədlər və s. kimi bitmiş nitq məhsulları başa düşülür [2, s. 93].

M.A.K. Halideyə görə mətn dilçiliyi dili hərəkətdə öyrənir və mətni bir bütöv təşkil edən nitq kəsiyi kimi təyin edir. Dilçi alim mətnin sintaktik sistemdə yerinin müəyyənləşdirilməsi əsasında həm dilin xüsusiyyətlərinin, həm də onun fəaliyyət proseslərinin təhlili zamanı mətnin cümlə üzərində tam üstünlüyünü göstərmişdir. O, hətta dilin funksiyaları arasında mətn funksiyasını da ayırır ki, bu funksiyanın əsasında danışanın və yaxud yazanın mətn yaratmaq bacarığı durur [5, s. 22-23].

K.Abdullayevə görə mətn bir sıra komponentlərin, cümlələrin müəyyən şəkildə qurulmuş qarşılıqlı əlaqəsindən yaranır. Komponentlərin kəmiyyəti baxımından mətnin sərhədləri sonlu deyil [1, s. 229].

F.Veysəlli qeyd edir ki, mətn cümlənin hərəkətverici qüvvəsidir, mətndə kommunikativ bitkinlik olmalıdır. Mətnin düzəlməsi cümlədən fərqlənir. Elə hadisələr var ki, onlar ancaq mətndə reallaşır. Dildə ünsiyyət mətndə və mətn vasitəsilə həyata keçirilir. Mətnin daxili əlaqələrinin formalaşmasında leksik, qrammatik, fonetik vasitələr, intonasiya mühüm rol oynayır [6, s. 379].

İ.R.Qalperin qeyd edir: "Mətn - leksik, qrammatik və məntiqi əlaqələrin müxtəlif növləri ilə birləşən, müəyyən modal xarakterə, praqmatik qurmaya malik və buna uyğun qurulmuş bir sıra söyləmlərdən ibarət yazılı sənəd şəklində ifadə olunmuş məlumatdır [2, s. 93].

Mətn ayrı-ayrı cümlələrin mexaniki yığımı, toplusu olmayıb, zəncirvari daxili ardıcıllıqla açıqlanan, müvafiq qəlibdə nizamlanan, xüsusi intonasiya və ahənglə bir-birinə bağlanan cümlələrdən ibarət mürəkkəb sintaktik parçalardır. Deməli mətn dedikdə müəyyən yolla nizama salınmış, kommunikativ vəzifənin vahidliyi ilə birləşmiş cümlələr çoxluğu başa düşülür.

Məlumatın daha səmərəli ötürülməsi üçün mətnə xas olan xüsusiyyətlərdən biri də mətnin bütövlüyüdür. Bir bütöv olmaq üçün mətn həm də daxilən əlaqəli olmalıdır. Mətndaxili əlaqələr mətn dilçiliyi üçün mühüm əhəmiyyət kəsb edir.

T.Nikolayeva mətn formalaşdıran vasitələri 3 qrupda müəyyənləşdirir: 1) intonasiya; 2) söz sırası; 3) eksplisit seqment göstəriciləri- artiklllar, işarə əvəzlikləri, bağlayıcılar və s.

İ.R.Qalperin mətndaxili əlaqə vasitələrinə anafora və katafora hadisələrini qeyd etmişdir.

A.Məmmədov mətn yaranmasında iştirak edən aşağıdakı formal əlaqə vasitələrini göstərir:

1. fonetik təkrar (alliterasiya, assonans);

2. morfoloji təkrar (cins, hal, zaman kateqoriyası əlamətlərinin təkrarı);
3. leksik təkrar (sözlərin tam, natamam təkrarı və sıfır təkrar);
4. sintaktik təkrar (söz sırasının tam və natamam təkrarı, xiazm);
5. leksik-qrammatik vasitələr (bağlayıcılar, önsözlər, determinantlar);
6. deyktik elementlər (müxtəlif tipli əvəzliklər, artikllar) [5, s. 26-27].

Mətni bir bütöv kimi səciyyələndirən formal əlaqə vasitələri ilə yanaşı semantik əlaqə vasitələri də mövcuddur. Mətn komponentləri arasında semantik əlaqə vasitələri dedikdə komponentlər arasında sadalama, qarşılaşdırma, ardıcıllıq, eyni zamanlılıq əlaqələri nəzərdə tutulur.

Formal-qrammatik vasitələrin rolundan bəhs edən İ.İ.Çernışevaya görə mətn dilçiliyinin əsas məsələsi leksik, morfoloji və sintaktik münasibətlər vasitəsilə fəaliyyət göstərən və onları idarə edən mətndüzəldən faktorların axtarılmasıdır [2, s. 120].

Mətn yaranmasında iştirak edən formal əlaqə vasitələrindən biri də deyktik elementlərdir.

Ş.Mahmudova "İngilis dilində deyksisin ifadə vasitələri" adlı dissertasiyasında qeyd edir ki, dilçilikdə deyksis sözlərə və söz birləşmələrinə aid olur ki, bunlar da əlavə kontekstual məlumat olmadan anlaşıla bilməz. Sözlərin semantik mənaları dəqiqləşəndə onlar deyktik olur. İngilis dilində deyktik rolunu əsasən əvəzliklər oynayır. Deyktik adlandırılan sözlər ünsiyyət prosesində yaranır. Deyksis danışıq aktının qeyri-linqvistik kontekstinin məlumatını söyləmə daxil etmək üçün əsas mexanizmdir [4, s. 17].

Deyksis sözü işarə etmək mənasını bildirdiyi üçün çox vaxt *this* və *that* işarə əvəzlikləri ilə eyniləşdirilir.

C.Layonz qeyd edir ki, *this* əvəzliyi mənaca *here* zərfinə, *that* əvəzliyi isə mənaca *there* əvəzliyinə yaxındır [10, s. 123].

This və *that* əvəzliklərinin işlənməsi ondan asılıdır ki, danışıq aktının müəllifi öz xüsusi sözlərinə və ya danışanın əvvəl deyilmiş sözlərinə istinad edir və ya etmir. Əgər istinad edirsə, onda həm *this*, həm də *that* əvəzliyinin işlənməsi mümkündür, lakin istinad nitqin müəllifi tərəfindən deyil, başqa birisi tərəfindən yenicə deyilən sözlərə yönələrsə, bu zaman *that* işlənir.

Danışıq vaxtı kommunikasiya iştirakçısının olduğu əhatədə yerləşən əşyaların işarələnməsi üçün *this/these*, əhatədən kənarda əşyaların işarələnməsi üçün isə *that/those* işlənir [4, s. 90].

Qeyd etdiyimiz kimi ingilis dilində deyktik rolunu əsasən əvəzliklər oynayır. Əvəzliklər əşyanın, şəxsin, əlamətin, kəmiyyətin yerində işlənə bilən nitq hissəsidir. Dil universalları kimi çıxış edən nitq hissələrindən biridir.

İ.Vandries əvəzlikləri ayrıca nitq hissəsi hesab etmir. A.M.Peşkovski isə əvəzliyi xüsusi nitq hissəsi kimi ismi əvəzliklər və sifət əvəzliklər adı altında təsnif edir. C.Körm, M.İ.Steblin-Kamenski, V.Z.Panfilov, A.N.Kononov əvəzliyi ayrıca bir nitq hissəsi kimi təsnif edirlər. A.A.Kononov əvəzliyin müstəqil bir nitq hissəsi kimi

müəyyənləşməsində 3 əsas - semantik, sintaktik və morfoloji prinsipləri əsas götürür [3, s. 107-109].

Əvəzliklərin əsas xüsusiyyəti onların ümumiləşdirmə xüsusiyyətinə malik olmasıdır. Əsas nitq hissəsi kimi əvəzliklər isim, sifət və saya aid olub, onları işarə edir, müəyyənləşdirir və ya əvəz edir, əvəz etdiyi nitq hissələrinin xüsusiyyətlərini özündə daşıyır. Əvəzliklər kontekstdən asılı olan sözlərdir, onların mənası işləndiyi mətn daxilində və ya nitq prosesində müəyyənləşir. Eyni zamanda deyktik funksiya daşıyıb işləndiyi kontekstdə təkrarın qarşısını almağa kömək edir.

M.Halidey əvəzliklərin mətnin struktur-semantik bütövlüyündə xüsusi rol oynadığını qeyd edir [8, s. 55].

A.Hüseynov qeyd edir ki, əvəzliklər bir nitq hissəsi kimi əvəzetmə xüsusiyyətinə malikdir. Əvəzliklərin konkret semantikası onların əvəzləyicisi kimi çıxış edən nitq hissələrinin mənasına əsaslanır. Digər mühüm bir xüsusiyyəti isə təyinedicilik əlamətidir. İsmi əvəz edərkən ismin, sifəti əvəz edərkən sifətin, sayı əvəz edərkən sayın əlamətinin daşıyıcısına çevrilir [3, s. 110].

Əvəzliyin mənası əsasən özündən əvvəl gələn cümlənin məzmunu ilə açılır. Mətndəki cümlələrin birinin əvəzliklə başlaması onun özündən əvvəlki cümlələrlə daha yaxından əlaqədə olduğunu göstərir.

İngilis dilində əvəzliklərin mətnlərin yaranmasında rolu 4 funksiya ilə müəyyən olur:

1. Əvəzlik semantik kateqoriyanı təmsil edir və onun pronominal xüsusiyyəti sözlər arasında deyil, cümlələr arasında əlaqələri şərtləndirir;
2. Əvəzlik məlum olanı bildirir;
3. Əvəzlik həm anaforik (əvvəlki cümləyə bağlılıq), həm də kataforik (sonrakı cümləyə bağlılıq) funksiyaları yerinə yetirir;
4. Əvəzlik yalnız statik (donuq) yox, həmçinin dinamik (dəyişkən) funksiyasını da yerinə yetirir [2, s. 136].

Qeyd olunan bu xüsusiyyətləri ilə əvəzliklər hər hansı bir nitq prosesində və ya mətn daxilində komponentlərin əlaqələnməsinə xidmət edən əsas nitq hissəsidir. Əvəzliklərin əlaqələndirici funksiyası mətnin formalaşmasına xidmət edən əsas faktordur.

Əvəzliyin leksik mənasına görə növlərindən biri də işarə əvəzliyidir. İşarə əvəzlikləri hər hansı bir obyektə işarə etmək, göstərmək məqsədilə işlədilən əvəzliklərdir: *this (these), that (those), such, same.* İşarə əvəzlikləri mətnin formalaşmasında çıxış edən mühüm formal əlaqə vasitələrindən biridir. Bu əvəzliklər fikrin düzgün ifadəsində, təkrarların qarşısını almaqda və ən əsası mətndaxili komponentlərin və ya cümlələrin adresata əlaqəli şəkildə, düzgün çatdırılmasında mühüm rol oynayır.

İşarə əvəzlikləri işarə kateqoriyası ilə əlaqələndirilir. İşarə kateqoriyası kommunikativ funksiyanın həyata keçməsində mühüm rol oynayır, onun ifadə vasitələri olan işarə əvəzlikləri mətnin komponentləri arasında əlaqələndirici

elementdir. İşarə olunma bir predmeti digərlərindən ayırıb götürməyə imkan verir. İşarə əvəzliklərinin semantikası ilə bağlı məsələlərə toxunarkən onların iki funksiya (anaforik və deyktik) yerinə yetirdikləri qeyd edilir.

This (these) işarə əvəzliyi zaman və məkan baxımından yaxına işarə edir. *That* (*those*) işarə əvəzliyi isə zaman və məkan baxımından uzağa işarə edir.

This is a world of action, and not for moping and droning in (Ch.Dickens).

Perhaps *these* were reasons for the old gentleman's giving his assent; but, whether they were or no, he told Oliver he might go, and placed him under the joint guardianship of Charley Bates, and his friend the Dodger [12, s. 104].

These thoughts may comfort us when we are old (Ch.Dickens "Great Expectations").

The eyes, the head, the mouth; every feature was *the same* [12, s. 131].

Ə.Abdullayev qeyd edir ki, mətnin əsasında həmişə bir bazis cümlə mövcud olur. Mətnin həcmi bazis cümlənin tərkibindəki əvəzliyin mənasının açılmasından asılıdır. Mənası açılmış əvəzliklər, xüsusən də işarə əvəzlikləri mətndüzəltmə faktoru kimi fəaliyyət göstərir. İşarə əvəzlikləri dil universalilərindən biri kimi mətnin qurulmasında mühüm rol oynayır, müəyyənlik və qeyri-müəyyənliyin mühüm göstəricisi kimi iştirak edir və mətnin dinamizmini təmin edir [2, s. 132, 139].

A.Hacızadə *it* əvəzliyinin tədqiqindən danışarkən qeyd etmişdir ki, göstərmə mənasında *it* əvəzliyinin mənası *this* və *that* əvəzliklərinin mənasına uyğun gəlir. Müəllif həmçinin qeyd etmişdir ki, *this* və *that* işarə əvəzlikləri həm atributiv, həm də substantiv vəziyyətdə işlənə bildiyi halda, *it* əvəzliyi yalnız substantiv vəziyyətdə işlənir [7, s. 185-186].

Mətn daxilində işarə əvəzliklərin işlənməsində A.Hüseynov iki halı göstərir: 1) bilavasitə göstərmədə; 2) mətndaxili göstərmədə [3, s. 129].

Bilavasitə göstərmədə danışan dinləyənin diqqətini cəlb etmək, lazım olan əşyanı ayırmaq üçün işarə əvəzliyini işlədir.

That boy is a fool; I know that, said Fagin, scornfully (Ch.Dickens).

İşarə əvəzliyi əvvəlki kontekstlə deyil, işləndiyi kontekstlə bağlı olub hər hansı şəxsə işarə edir.

Mətndaxili göstərmədə isə işarə əvəzlikləri əvvəlki kontekstlə bağlı olur.

I was always treated as if I had insisted on being born in opposition to the dictates of reason, religion, and morality, and against the dissuading arguments of my best friends. *This* gave me so much the more sense of being an intruder in the family (Ch. Dickens "Great Expectations").

Bu nümunədə *this* işarə əvəzliyi əvvəlki cümlədəki "I was always treated as if I had insisted on being born…." fikrinə işarə edir.

As for society, he was carried every other day into the hall where the boys dined, and there sociably flogged as a public warning and example. And so for from being denied the advantages of religious consolotion, he was kicked into the same apartment every evening at prayer-time, and there permitted to listen to, and console

his mind with, a general supplication of the boys, containing a special clause, therein inserted by authority of the board, in which they entreated to be made good, virtuous, contented, and obedient, and to be guarded from the sins and vices of Oliver Twist (Ch.Dickens, "Oliver Twist").

Bu nümunədə *the same apartment* ifadəsi əvvəlki komponentdə *the hall* sözünə işarə etmək məqsədilə işlənmişdir.

İşarə əvəzliklərinin mətndaxilində işlənməsini araşdırmaq üçün iki cür mətndaxili əlaqəni nəzərdən keçirmək lazımdır: anafora və katafora.

Katafora əvvəlcə verilən mənanın sonrakı cümlələr vasitəsilə aydınlaşdırılmasına imkan verən mətndaxili əlaqədir. Burada işarə əvəzliyi verilən yeni məlumatı tamamlayır.

This is the story of a time of revolution, of sacrifice, and of hope (Ch.Dickens "A Tale of two cities").

This əvəzliyinin *the story of a time of revolution, of sacrifice, and of hope* aid olduğu açıqlanır.

Then there was *an old lady*, most extraordinary case and *this old woman* was lying on a sort of litter (E.Hemingway).

Bu nümunədə işarə əvəzliyi sanki birinci cümləni mənasını tamamlayır.

Kataforadan danışarkən bir cəhəti də qeyd etmək lazımdır ki, əvvəlcə işarə əvəzliyi gəlir, onun mənası isə sonrakı cümlələr vasitəsilə açılır.

Mətndaxili əlaqənin bir növü olan anaforada isə sonra gələn cümlələrin mənası əvvəlki cümlələrin biri vasitəsilə aydınlaşır. İşarə əvəzliklərinin funksiyası yalnız anaforik əlaqəni yaratmaq və öncədən adı çəkilənə işarə etməkdən ibarət deyil, eyni zamanda əvvəli cümlənin həmcins üzvlərini əvəz edə bilir.

There was a long hard winter in Coketown. *That* was the season when the smoke seemed heavier and the streets gloomier than ever (Ch.Dickens "Hard times").

Burada *that* işarə əvəzliyi əvvəlki cümlədə təsvir edilən "*a long hard winter"* istinad edir.

I was born at Blunderstone, in Suffolk, or there or thereabouts, as they say in Scotland. *That* was a memorable day for my mother.

Oliver was but a child, yet he had already seen much suffering. *That* was the beginning of his hardships [12, s. 97].

Bu nümunədə *that* işarə əvəzliyi əvvəlki cümlədəki *Oliver's suffering* fikrinə istinad edir.

Sonrakı cümlələr əvvəlki cümlənin davamı və məntiqi nəticəsi kimi çıxış edir.

When he asked, *he was refused.* Shocked by *this result* he took an hour to recover (Th.Dreiser).

İşarə əvəzliklərinin mətnyaratma xüsusiyyətlərindən biri də onların leksik təkrar kimi çıxış etməsidir. Təkrar kimi işarə əvəzlikləri mətn komponentlərini bir-birinə daha sıx bağlayır və bu komponentlər arasında müəyyən mənada asılılıq yaradır.

All the window in the rear of the house had been lon ago bricked up, except one small *trap* in the room where the boy was locked, and *that* was too small even for the passage of his body (Ch.Dickens).

Bu nümunədə *that* işarə əvəzliyi *trap* sözünün leksik təkrarı kimi sonrakı komponentdə təkrarlanaraq mətndaxili əlaqəni təmin edir.

İşarə əvəzlikləri sözlərlə yanaşı bütün cümləni də sonrakı komponentdə əvəz edərək təkrarlaya bilir.

At length, one morning, Oliver obtained the permission he had so eagerly sought. There had been no handkerchiefs to work upon, for two or three days, and the dinners had been rather meagre. Perhaps *these* were reasons for the old gentleman's giving assent; but whether they were or no, he told Oliver he might go, and placed him under the joint guardianship of Charley Bates, and his friend the Dodger [12, s. 104].

Bu nümunədə *these* işarə əvəzliyi özündən əvvəlki cümlələri sonrakı cümlədə təkrarlamamaq üçün işlədilmişdir.

İşarə əvəzlikləri zaman ifadə edən sözlərlə (day, month, year, time, moment, etc) birgə işlənəndə zaman bildirən deyktik ifadələr kimi, məkan ifadə edən sözlərlə (place, city, town, etc) birgə işləndikdə isə məkan bildirən deyktik ifadələr kimi çıxış edir.

İşarə əvəzliklərinin deyktik ifadələr kimi mətnyaratma imkanlarından danışarkən onların mətn daxilində diskurs deyksisi kimi işlənməsini də xüsusi qeyd etmək lazımdır. Diskurs deyksisi kimi *this* əvəzliyi mətn və ya diskursun irəlidə gələn hissəsini, *that* əvəzliyi isə əvvəldə gələn hissəsini adlandırmaq üçün işlədilir.

Beləliklə, müasir ingilis dilində işarə əvəzlikləri mətndə formal əlaqə vasitəsi kimi çıxış edərək mətni bir bütöv kimi formalaşdıran, mətnin komponentlərini semantik baxımdan əlaqələndirən, bu əlaqələndirmədə həm leksik təkrar, anafora, katafora kimi, həm də işarətmə və mətn daxilində təkrarın qarşısını almaq üçün deyktik funksiya yerinə yetirən, mətn daxilində mənanın açılmasına xidmət edən vahidlər kimi mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev KM. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, "Maarif" nəşriyyatı, 1998, 281 s.
2. Abdullayev Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs. "Zərdabi LTD" MMC, Bakı, 2011, 270 s.
3. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı, Mütərcim, 2015, 375 s.
4. Mahmudova Ş.A. İngilis dilində deyksisin ifadə vasitələri: Fil.elm.dok.diss. Bakı, 2018, 334 s.
5. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı, Elm, 2001, 144 s.

6. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Studia Philologica. Bakı, Mütərcim, 2005, 344 s.
7. Hajizada A. Pronouns in the English Language. "Science and Education", Baku, 2014, 208p.
8. Halliday Michael, Matthiessen C.M.I.M. An introduction to functional grammar. Third edition, London, 2004, 328 p.
9. Leech G., Svartvik J. A Communicative Grammar of English. M., 1983, 304 p.
10. Lyons G. Deixis, space and time in Semantics. Cambridge University Press, 1977, 899 p.
11. Swan M. Practical English Usage. Oxford University Press, 2005, 658 p.
12. Dickens Ch. The Adventure of Oliver Twist. 1950, 280 p.

Leyla Suleymanova

DEMONSTRATIVE PRONOUNS AS A MEANS OF FORMAL COHESIVE CONNECTORS IN THE COMPOSITION OF TEXT IN MODERN ENGLISH

SUMMARY

Since the middle of the last century, the main object of text linguistics has increasingly attracted the attention of researchers. The components of the text, its formal and semantic units, as well as formal cohesive devices have been investigated with regard to their text-forming functions. A text as communication unit embodies a certain cognitive information and its function is to convey this information to a receiver, and as the transmitters of this information, various formal cohesive connectors exist in the text, which taken as a whole, constitute the general principle of text linguistics. Intra-textual relations, together with their structural and semantic properties, acquire particular significance for the study of text linguistics.

The article deals with the role of demonstrative pronouns as a means of formal cohesive connectors in the composition of text in modern English. Among the factors contributing to the integrity of a text, demonstrative pronouns hold particular significance. They play an essential role in clarifying meaning, ensuring inter-component cohesion and more broadly in the study of text linguistics. In modern English demonstrative pronouns serve textual cohesion either as lexical repetitions, anaphora, cataphora, or as deictic expressions. The article investigates the specific features of demonstarive pronouns in the composition of text, analyzes the views of a number of linguists, and elucidates their relation both to text linguistics and to pronouns as formal means of textual cohesion. The article refers to various scientific works in Azerbaijani, Russian and English, as well as internet sources, the arguments

presented in the article are explained on the basis of examples provided from the literary works.

Key words: text, context, formal cohesive connectors, demonstrative pronouns, deixis, anaphora, cataphora

Лейла Сулейманова

УКАЗАТЕЛЬНЫЕ МЕСТОИМЕНИЯ КАК СРЕДСТВО ФОРМАЛЬНОЙ СВЯЗНОСТИ В ПОСТРОЕНИИ ТЕКСТА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

С середины XX века текст постепенно становится основным объектом исследования текстовой лингвистики и всё больше привлекает внимание учёных. Формальные и семантические единицы текста, его структурные компоненты, а также формальные средства связи анализируются с точки зрения их текстообразующих функций. Текст как коммуникативная единица содержит определённую когнитивную информацию, и его главная функция заключается в передаче этой информации адресату. Передатчиками выступают различные формальные средства связи, которые в совокупности формируют общий принцип текстовой лингвистики. Внутритекстовые связи, обладающие структурными и семантическими особенностями, приобретают особое значение для исследования природы текста.

В статье рассматривается роль указательных местоимений как формального средства связи в создании текста в современном английском языке. Среди факторов, обеспечивающих целостность текста, указательные местоимения занимают особое место. Они играют важную роль в прояснение смысла, обеспечении межкомпонентной связи и в более широком плане - в исследовании текстовой лингвистики. В современном английском языке указательные местоимения могут функционировать в качестве средств когезии посредством лексических повторов, анафоры, катафоры либо дейктических выражений. В статье исследуются особенности указательных местоимений в создании текста, анализируются взгляды ряда лингвистов, а также разъясняется их отношение как к текстовой лингвистике, так и к местоимениям как формальным средствам текстовой связности. В статье также упоминаются различные труды, работы на Азербайджанском, русском и английском языках, а также интернет материалы. Представленные аргументы объясняются на примерах художественной литературы.

Ключевые слова: текст, контекст, формальные средства связи, указательные местоимения, дейксис, анафора, катафора

Rəyçi: F.f.d.,dos. R.Q.Abdurahmanova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

AYTAC QAZIYEVA
AĞAYEVA KÖNÜL
Azərbaycan Universiteti
Bakı Azərbaycan
Mammadovaay45@gmail.com
Konul.Aghayeva@au.edu.az

"İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV YANAŞMA VƏ ONUN EFFEKTİVLİYİ"

Bu məqalədə ingilis dilinin tədrisində kommunikativ yanaşmanın əhəmiyyəti, onun əsas prinsipləri, tətbiq üsulları və effektivliyi araşdırılır. Dilin əsas funksiyası – ünsiyyət vasitəsi olmaqdır və bu yanaşma tələbələrə dili real həyat şəraitində istifadə etməyi öyrədir. Kommunikativ metod qrammatika mərkəzli ənənəvi üsullardan fərqli olaraq, danışıq, dinləmə, oxuma və yazma bacarıqlarının inteqrasiyasını önə çıxarır**.** Məqalədə Larsen-Freeman, Richards, Harmer və Brown kimi alimlərin fikirlərinə əsaslanaraq, rol oyunu, informasiya boşluğu, dialoqlar kimi fəaliyyətlərin tələbələrin aktiv öyrənməsinə təsiri göstərilir. Eyni zamanda bu yanaşmanın tətbiqində çətinliklər (böyük auditoriyalar, müəllim təcrübəsi, tələbə passivliyi və s.) qeyd edilir. Buna baxmayaraq, düzgün tətbiq edilən kommunikativ metod dil öyrənmənin keyfiyyətini artırır və tələbələrə dili funksional şəkildə mənimsəmək imkanı verir.

***Açar sözlər:*Kommunikativ yanaşma, dil öyrənmə metodları, rol oyunu, informasiya boşluğu, müəllim rolu, dinləmə bacarıqları, sinifdaxili kommunikasiya, real ünsiyyət bacarıqları**

AYTAJ QAZIYEVA
AGAYEVA KONÜL

"The Communicative Approach in English Language Teaching and Its Effectiveness"

English

This article explores the importance, principles, methods, and effectiveness of the Communicative Approach (CLT) in teaching English. Emphasizing that language is primarily a means of communication**,** the approach focuses on helping learners use the language in real-life situations**.** Unlike traditional grammar-centered methods, CLT promotes the integration of speaking, listening, reading, and writing skills**.** Citing experts such as Larsen-Freeman, Richards, Harmer, and Brown, the article highlights the impact of role plays, information gap tasks, and interactive dialogues on developing learners' communication skills. Although challenges such as large auditoriums,teacher inexperience**,** and student fear of making mistakes are

acknowledged, the article concludes that when properly implemented, CLT significantly enhances the efficiency and quality of language learning.

Keywords:**Communicative approach, language learning methods, role-play, information gap, teacher's role, listening skills, classroom communication, real-life communication skills**

РУССКИЙ

В статье рассматривается значимость, принципы, методы и эффективность коммуникативного подхода (CLT) в обучении английскому языку. Подчеркивается, что язык прежде всего является средством общения**,** и данный подход помогает учащимся использовать язык в реальных жизненных ситуациях. В отличие от традиционных методов, ориентированных на грамматику, CLT способствует интеграции навыков говорения, аудирования, чтения и письма**.** Ссылаясь на мнения таких ученых, как Ларсен-Фриман, Ричардс, Хармер и Браун, автор показывает, как ролевая игра, задания на обмен информацией и диалоги способствуют активному обучению. Также упомянуты трудности внедрения этого подхода (Большие аудитории, недостаток опыта у преподавателей, страх студентов ошибиться). Тем не менее, при грамотной реализации коммуникативный метод существенно повышает эффективность и качество обучения иностранному.

Ключевые **слова:**Коммуникативный подход, методы изучения языка, ролевая игра, информационный пробел, роль преподавателя, навыки аудирования, внутриклассная коммуникация, навыки реального общения

Giriş

Dil, insanın fikirlərini, duyğularını və ehtiyaclarını başqalarına çatdırmaq üçün ən əsas və canlı ünsiyyət vasitəsidir. Uşaq dilin təbiəti və funksiyası haqqında ən dərin və təbii nümunələrdən biridir. Hər kəs həyatında bir dəfə də olsa, uşaqların inanılmaz ünsiyyət qabiliyyətini müşahidə edib. Uşaqların dil bacarıqlarının inkişafı onların ətrafda eşitdikləri sözləri və səsləri təqlid etməsindən başlayır və zamanla bu qabiliyyət mürəkkəb, dinamik kommunikasiya bacarığına çevrilir. Təxminən 18 aylıq olanda onların söz ehtiyatı sürətlə artır və 3 yaşına çatdıqda isə onlar çox geniş və zəngin bir dil anlama və ifadə qabiliyyətinə malik olurlar. Bu prosesin özü dilin əsas funksiyasını — kommunikativ vasitə olmasını vurğulayır.

Dil öyrənmək yalnızca qrammatikanı mənimsəmək deyil, eyni zamanda fikirlərimizi, duyğularımızı və ehtiyaclarımızı başqalarına çatdırmaqdır. H. Douglas Brownun da qeyd etdiyi kimi, dilin ən böyük üstünlüklərindən biri onu eşitmək və ünsiyyət vasitəsi kimi istifadə etməkdir. (Brown, Principles of Language Learning and Teaching*, 1.s.35*). Beləliklə, kommunikativ yanaşma dili öyrənmə prosesində, qarşılıqlı əlaqəyə əsaslanan ünsiyyəti ön plana çəkir.

Müasir dövrdə xarici dil öyrənmə metodologiyasında baş verən dəyişikliklər, xüsusilə də kommunikativ yanaşmanın (Communicative Language Teaching – CLT) tətbiqi, tədris prosesində daha effektiv nəticələrin əldə olunmasına səbəb olmuşdur.

Ənənəvi metodlarla müqayisədə kommunikativ yanaşma tələbələrin dil bacarıqlarını praktik şəkildə inkişaf etdirməyə, real həyat şəraitində ünsiyyət qurmağa və dilin funksional istifadəsini mənimsəməyə imkan yaradır. Bu yanaşma dil öyrənməni yalnız qrammatik qaydaların öyrənilməsi ilə məhdudlaşdırmır, əksinə, danışıq, dinləmə, oxuma və yazma bacarıqlarının inteqrasiya olunmuş şəkildə inkişafına şərait yaradır.

Bu məqalədə məqsəd ingilis dilinin tədrisində kommunikativ yanaşmanın əsas prinsiplərini, tətbiq üsullarını və onun effektivliyini araşdırmaqdır. Eyni zamanda, bu metodun tətbiqində qarşıya çıxan problemlər və mümkün həll yollarına da toxunulacaq. Məqalədə həm nəzəri mənbələrə, həm də müxtəlif tədqiqat nəticələrinə əsaslanaraq kommunikativ yanaşmanın tədrisdə rolu və faydaları təhlil olunacaqdır.

Ünsiyyət qurmaq yalnız dil bilikləri ilə məhdudlaşmır; ünsiyyət bacarığı tələb edir— nə vaxt, necə və kiminlə nə deməyi bilmək. Tələbələr dil qaydalarını bilə bilərlər, amma dili istifadə etmək bacarığı olmaya bilər. Bu metodlar əsasən qrammatik qaydalara, təkrarlara və yadda saxlama texnikalarına əsaslansa da, tələbələrin real ünsiyyət bacarıqlarını inkişaf etdirməkdə qeyri-kafi qalırdı. Elə bu baxımdan kommunikativ yanaşma britaniyalı dil tədrisi mütəxəssisləri tərəfindən hazırlanmış və sonradan beynəlxalq miqyasda qəbul edilmiş və 1970-ci illərin əvvəllərində ənənəvi dil tədrisi metodlarının effektiv olmaması səbəbindən inkişaf etdirilmişdir.

Kommunikativ yanaşmada bir sıra prinsiplər ön planda dayanır.Bu prinsiplərə nəzər salsaq görərik ki, danışıq, dinləmə, oxuma və yazma bacarıqları birlikdə inkişaf etdirilir. Danışıq bacarıqlarını necə inkişaf etdirə bilərik ? Bunun üçün ilk növbədə danışmaq üçün kompleksi üzərimizdən atmalı, səhvlərdən çəkinmədən danışmalı, yeni ifadələr və sözlər öyrənib gündəlik danışıqda onları tətbiq etməli, ana dili ingilis dili olanlarla mütəmadi ünsiyyət qurmalıyıq. Nəzərə alaq ki, başqa dil öyrənməkdə müəllimin rolu da əvəzsizdir. Diane Larsen-Freeman öz kitabında qeyd edir ki, müəllimin ilkin rolu əsasən müşavir (konsultant) olmaqdır. Bu o demək deyil ki, müəllim terapevt kimi fəaliyyət göstərir və ya dərs keçmir, əksinə, müəllim anlayır ki, yeni öyrənmə vəziyyəti yetkin yaşda olan tələbələr üçün nə qədər qorxuducu ola bilər, ona görə də o, tələbələrini dil öyrənmək mübarizəsində bacarıqla dəstəkləyir.

Başlanğıcda tələbələr müəllimə çox asılıdırlar. Lakin qəbul edilir ki, tədris davam etdikcə tələbələr getdikcə müstəqil olurlar. Community Language Learning (İcma Dil Öyrənmə) metodoloqları bu asılılıqdan müəllimlə qarşılıqlı asılılığa keçid üçün beş mərhələ müəyyənləşdiriblər.Birinci, ikinci və üçüncü mərhələlərdə müəllim təkcə dilə deyil, həm də tələbələrin öyrənmə prosesində onlara dəstək olmağa diqqət yetirir. Dördüncü mərhələdə tələbələrin dildə daha çox güvən qazanması və düzəlişlərdən faydalanmağa hazır olmaları səbəbindən müəllim daha çox dəqiqliyə yönələ bilər. Beşinci mərhələdə isə tələbələrdə kommunikativ bacarıqları ön plana çıxartmaq lazımdır. Qeyd etmək lazımdır ki, dəqiqlik həmişə diqqət mərkəzindədir,

hətta ilk üç mərhələdə də, amma bu vaxt dəqiqlik axıcılığa tabe olur. Dördüncü və beşinci mərhələlərdə isə vəziyyət əksinədir — dəqiqlik ön plana çıxır. "Techniques and Principles in Language Teaching"- Diane Larsen-Freeman(2.s.127)

İngilis dilinin intensiv tədrisində müəllimin rolu əvəzsizdir. Bu rolu icra edərkən müəllim bir sıra metodlardan istifadə edir. Bu metodlardan biri də təbii yanaşma metodudur. Təbii Yanaşma müasir kommunikativ metodlardan daha çox müəllimin mərkəzi rolunu tələb edir. Müəllim maraqlı, dostyana və aşağı affektiv süzgəcli sinif mühiti yaratmalıdır. Bu, tələbələr danışmağa hazır olmadan danışıq tələb etməmək, tələbə səhvlərini düzəltməmək və tələbələr üçün yüksək maraqlı mövzular təqdim etməklə əldə edilir. Müəllimin əsas rolu tələbənin ən çox təklifə açıq olduğu vəziyyətləri yaratmaq və dil materialını tələbənin onu müsbət qəbul etməsinə və yadda saxlamasına ən çox kömək edəcək şəkildə təqdim etməkdir. Lozanov müəllimlərdən aşağıdakı davranışları gözləyir:

- Metoda tam inam göstərmək.
- Nəzakətli davranış və geyim qaydalarına ciddi riayət etmək.
- Tədrisin ilk mərhələlərində təlim prosesini, musiqini və şəxsi keyfiyyətləri uyğun şəkildə təşkil etmək.
- Sessiyaya doğru müəyyən bir həyəcan və diqqət saxlamaq.
- Qiymətləndirmələr vermək və zəif işlərə nəzakətlə yanaşmaq.
- Materiala analitik yox, ümumi yanaşmanı vurğulamaq.
- Mülayim həvəs göstərmək.

Jack C. Richards və Theodore S. Rodgers (Approaches and Methods in Language Teaching" 3. s.149)

Bu davranışlarla yanaşı müəllim bir sıra metodlardan istifadə edərək kommunikativ mühit yarada bilir. Georgi Lozanov tərəfindən yaradılmış Suggestopedia metodunda musiqi və rahat mühitdən istifadə etməklə, stressi azaltmaq və yaddaşda daha yaxşı saxlamağı təmin etmək mümkündür. Əlavə etmək olar ki, ingilis dili öyrənməyin effektiv yanlarından biri də keçirilən fənlərinin ingilis dilində tədrisidir. Bu zaman ingilis dili həm dil, həm də başqa bir fənnin tədrisi üçün vasitə kimi istifadə olunur. Başqa bir metod kimi tələbələrin müəyyən tapşırıqları yerinə yetirməklə (problemi həll etmə, müzakirə və layihə üzərində işləmə) dili təbii şəkildə öyrənməsini də qeyd etmək olar. Bütün bu metodların ümumi cəmi kimi isə məqsəd tələbələrin real həyatda danışıq qabiliyyətini inkişaf etdirməkdir. (Lozanov, Georgi, Suggestopedia.Gordon and Breach 1978 6.s.8)

Dilin kommunikasiya vasitəsi kimi inkişafında bünövrədə qoyulan biliklər də dəstəkləyici şəkildə öz rolunu oynaır.Tutaq ki, siz İqtisadiyyat ixtiası üzrə universitetin ingilis dili fakültəsinə qəbul olmusunuz. İlk növbədə sizdən tələb olunan ingilis dilini mükəmməl şəkildə mənimsəmək, sonrasında isə öz ixtisasınıza yiyələnməkdir. Əks təqdirdə siz öz ixtasınızda bir sıra çətinliklərə qarşılaşa bilərsiniz.

Qeyd etmək istərdim ki, hər bir ixtisasda ingilis dilini tədris edən müəllim öz tələbəsini danışıq mühitindən başqa həmin ixtisasda olan terminlərə yiyələnəcək və ona fayda verə biləcək biliklərlə üz-üzə qoymalıdılır. Məsələn, xəritə tamamilə boş olduqda yerləri təsvir etmək və tapmaq xeyli çətin olur, amma bəzi küçələr və məkanların istinad nöqtələri kimi adlandırıldığı halda bu iş daha asanlaşır. Burdan belə qənaətə gəlmək olar ki, təhsil alan tələbə təkcə kommunikativ bacarıqlarını deyil, həmçinin öz ixtisasının dərinliklərini də daha yaxşı inkişaf etdirəcək.

Kommunikativ yanaşma çərçivəsində interaktiv metodlar – o cümlədən qrup işi**,** rol oyunu**,** informasiya boşluğu**,** dialoq qurma və problem həll etmə tapşırıqları **–** dərslərdə geniş tətbiq olunmalıdır. Tutaq ki, A2 səviyyəsində olan ingilis dili dərsində tələbələr 4 nəfərlik qruplara bölünərək "A Perfect Weekend Plan" mövzusunda tapşırıq yerinə yetirirlər. Hər bir tələbə öz həftə sonu planını təqdim edir, digər iştirakçılar suallar verir və ən maraqlı planı seçmək üçün sonda birlikdə qərar verirlər. Bu fəaliyyət tələbələrin danışıq bacarığını inkişaf etdirməklə yanaşı, dinləmə, reaksiya vermə və qərar qəbuletmə kimi kommunikativ komponentləri də gücləndirir.

B1 səviyyəsində tələbələrə belə bir vəziyyət verilir: “Siz restoranda ofisiant və müştəri kimi dialoq aparmalısınız.” Bir cütlük ofisiant, digəri isə müştəri rolunda çıxış edir. Onlar menyudan sifariş vermək, qiymət soruşmaq, xidmətlə bağlı şikayət bildirmək və hesab istəmək kimi real həyat dialoqunu canlandırırlar. Bu metod tələbələrin real situasiyalarda özünü ifadə etmə bacarığını artırır.

Tələbələrin restoranda ofisiant və müştəri kimi çıxış etdiyi rol oyunu zamanı onlar funksional dil vahidlərindən istifadə etməklə ünsiyyət qurma bacarığını inkişaf etdirirlər. Bu cür fəaliyyətlər öyrənənləri aktiv kommunikativ mühit yaratmağa sövq edir və real həyat situasiyalarında dilin tətbiqinə imkan yaradır. (Richards, 2006; Harmer, 2007;).

Müəllim tələbələrə gündəlik həyatda istifadə olunan dialoqun müəyyən hissələrini təqdim edir. (məsələn: “Hello, how can I help you?” / “I’m looking for a jacket.”). Daha sonra tələbələr çatışmayan hissələri tamamlayaraq dialoqu bütövləşdirir. Bu üsulda tələbələr daha çox gündəlik ifadələrdən istifadə edərək dialoqu tamamlayır və səhnələşdirirlər. Bu fəaliyyət hazır dil vahidlərinin tətbiqini gücləndirir.

İnformasiya boşluğuna numunə üçün isə iki tələbəyə fərqli, lakin bir-birini tamamlayan məlumat vərəqləri verilir. Məsələn, biri turizm broşürünü oxuyur, digəri otel siyahısını. Onlar bir-biri ilə sual-cavab apararaq ortaq bir səyahət planı hazırlamalıdırlar.Bu tip tapşırıqlar tələbələri real məqsədlə ünsiyyət qurmağa təşviq edir və dinləmə və danışma bacarıqlarını eyni anda inkişaf etdirir.

Göstərilən numunələrdə Richardın kommunikativ yanaşma barədə fikirlərinin təzahürünü görmək olar. O deyirdi: ”Kommunikativ tədrisin əsas məqsədi – tələbələrin dil biliklərini real ünsiyyətə tətbiq etmə bacarığını inkişaf etdirməkdir”. Bu üsul və vasitələri tətbiq edərək effektiv bir nəticə əldə etmək mümkündür. Yəni,

elə bir problem ola bilər ki, tələbələr onu həll etməlidir, yaxud elə bir informasiya ola bilər ki, malik olduqları dili istifadə edərək onlar bunu bir-birilə paylaşmalıdırlar. Yəni, onların konkret situasiyaya uyğun dil formalarını seçmələri tələb olunmur. Hətta onların istifadə etdiyi dilin qrammatik baxımdan düzgün olub-olmaması belə vacib olmaya bilər. Fəaliyyətin əsas məqsədi ondan ibarətdir ki, tələbələr bildikləri dili istifadə edərək mənaları mümkün qədər effektiv şəkildə ötürməyə çalışsınlar. Communicative Language Teaching William Littlewood (5.s.20-21)

Kommunikativ metod kimi dinləmənin əhəmiyyətini ayrıca qeyd etmək istərdim. Dinləmə bəzən passiv bacarıq kimi adlandırılır. Bu səhvdir, çünki dinləmə dinləyicidən aktiv iştirak tələb edir. Danışanın niyyət etdiyi mesajı yenidən qurmaq üçün dinləyici həm dil, həm də dil xarici biliklərindən aktiv şəkildə istifadə etməlidir. Məsələn, "Ready?" sözü bəzi hallarda yeməyə dəvət, digər hallarda isə tamamilə fərqli mənaya malik ola bilər. Həmçinin, "Why don't you close the door?" ifadəsinin kommunikativ dəyəri vəziyyətə və sosial münasibətə bağlıdır. Gündəlik həyatdakı çoxsaylı ifadələr fərqli vəziyyətlərdə fərqli mənalar daşıya bilər və yalnız aktiv kommunikasiya prosesi sayəsində biz mənaları düzgün qəbul edə bilirik. Dinləmə zamanı dinləyici bilməlidir ki, bütün ipucları bərabər əhəmiyyətli deyil. Buna görə, bir neçə sözü qaçırsa belə, panikaya düşməməlidir. Çox vaxt digər ipucları ona mesajı başa düşməyə kömək edə bilir, ya da ən azından məqsədinə yetəcək qədərini anlamağa kömək edir. Təbii ki, qaçırdığı söz mesajın mənasını tamamilə dəyişsə belə, əsas məqam odur ki, öyrənən kommunikasiya prosesində aktiv qalaraq öz yanlış anlamasını anlamaq şansını artırır. Dinləmənin aktiv və davamlı olması öyrənənin kommunikativ məqsədlə dinləməsini tələb edir. Deyərdim ki, dinləmə anlamağın aktiv təbiətidir. Communicative Language Teaching William Littlewood (5.s.68-69)

Bəzi hallarda kommunikativ yanaşmanın tətbiqi müəyyən çətinliklərlə müşahidə oluna bilir:

- Daha geniş ortamlarda bu yanaşmanın istifadəsi özünü doğrultmaya bilər. Məsələn: böyük auditoriyalarda bütün tələbələrin aktiv iştirakını təmin etmək çətindir. Burada vaxt bölgüsü əsas çatışmazlıq kimi nəzərə alına bilər.
- Həmçinin Müəllimlərin bəziləri bu metodologiyanı təcrübəsizlik və resurs çatışmazlığı səbəbindən tam tətbiq edə bilmir.
- Tələbələr arasında passivlik və “dil səhvi etməkdən qorxma” halları müşahidə olunur.

Bütün bu çətinliklərə baxmayaraq, düzgün planlaşdırılmış və məqsədyönlü şəkildə tətbiq edilən kommunikativ fəaliyyətlər dil öyrənmənin effektivliyini və keyfiyyətini artırır**.** Nəticə olaraq, kommunikativ yanaşma (Communicative Language Teaching – CLT) ingilis dilinin öyrədilməsində ənənəvi metodlardan fərqli olaraq, tələbələrin dil bacarıqlarını real ünsiyyət şəraitində inkişaf etdirməyə yönəlmiş müasir və effektiv bir tədris metodudur. Bu yanaşma, dili sadəcə qrammatik strukturlar toplusu kimi deyil, funksional və məqsədyönlü bir ünsiyyət

vasitəsi kimi təqdim edir. Məqalədə qeyd olunduğu kimi, tələbələrin danışıq, dinləmə, oxuma və yazma bacarıqlarını inteqrasiya olunmuş şəkildə inkişaf etdirmək, onların dil biliklərini praktik situasiyalarda tətbiq etməyə hazır olmalarına zəmin yaradır.

ƏDƏBİYYAT SİYAHISI

1.Brown, H. Douglas. *Principles of Language Learning and Teaching*. 6th Edition. Pearson Education, 2007.

2.Larsen-Freeman, Diane. *Techniques and Principles in Language Teaching*. 3rd Edition. Oxford University Press, 2000.

3.Richards, Jack C., and Theodore S. Rodgers. *Approaches and Methods in Language Teaching*. 3rd Edition. Cambridge University Press, 2014.

4.Harmer, Jeremy. *The Practice of English Language Teaching*. 4th Edition. Pearson Longman, 2007.

5.Littlewood, William. *Communicative Language Teaching: An Introduction*. Cambridge University Press, 1981.

6.Lozanov, Georgi. *Suggestopedia*. Gordon and Breach, 1978.

7.Richards, Jack C. *Communicative Language Teaching Today*. Cambridge University Press, 2006.

Rəyçi: f.ü.f.d. Bağırzadə Züleyxa

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

AYTƏN ŞƏMSİ QIZI PİRMƏMMƏDOVA
GÜLÇÖHRƏ QƏDİR QIZI QƏDİROVA
Azəbaycan Universiteti, Bakı, Azərbaycan
aytan.s.pirmammadova@au.edu.az
gulchohra.gadirova@au.edu.az

İNCƏSƏNƏT TERMİNLƏRİNİN İNGİLİS DİLİNDƏ İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ VƏ KONKRET TERMİNLƏRİN TƏHLİLİ

Xülasə

Bu məqalədə incəsənət sahəsinə aid terminlərin İngilis dilində leksik, semantik və struktur xüsusiyyətləri geniş şəkildə araşdırılır. Məqalədə "sculpture", "abstract expressionism", "canvas", "palette" və "ballet" kimi konkret incəsənət terminlərinin mənaları, istifadəsi, çoxmənalılığı və terminlərin mədəni, tarixi və sosial kontekstdəki rolu təhlil edilir. Həmçinin, terminlərin İngilis dilinə alınma prosesləri, fonetik və qrammatik uyğunlaşmaları, terminoloji yeniliklər və qloballaşmanın dilə təsiri müzakirə olunur. Məqalədə bu terminlərin müasir mediada, sənət tənqidində və elmi diskursda necə işlənməsi göstərilir, onların dilin leksik zənginliyinə və mədəni ifadə imkanlarına verdiyi töhfələr vurğulanır. Araşdırmanın nəticələri göstərir ki, incəsənət terminlərinin düzgün anlaşılması və istifadəsi həm akademik, həm də praktiki səviyyədə incəsənətin təbliği və inkişafı üçün vacibdir. Bu sahədə terminlərin davamlı tədqiqi dilçilik, incəsənət və mədəniyyət sahələri üçün əhəmiyyətlidir və gələcəkdə daha geniş praqmatik və diskurs səviyyəsində tədqiqatların aparılması zəruridir.

Açar sözlər:
İncəsənət terminləri, leksik analiz, İngilis dili, semantika, alınma sözlər

Giriş

İncəsənət termini və onun terminologiyası insan dilinin zənginliyini artıran, mədəniyyət və yaradıcılığın ifadə vasitəsi kimi mühüm rol oynayan sahələrdən biridir. İncəsənət sahəsinə aid terminlər təkcə sənət əsərlərinin təsvirində deyil, həm də bu sahənin nəzəriyyəsinin, tənqidinin və tarixinin formalaşmasında əsas vasitə kimi çıxış edir .İngilis dilində incəsənət terminlərinin işlənmə xüsusiyyətləri onların leksik, semantik və struktur tərkibini əhatə edir, yəni terminlərin forması, mənası və istifadəsi arasında qarşılıqlı əlaqələrdən ibarətdir .Terminlərin məzmunu, istifadəsi və mənası yalnız sahənin mütəxəssisləri üçün deyil, həmçinin geniş ictimaiyyət üçün də önəm daşıyır, çünki incəsənət ictimaiyyətin estetik zövqünü, mədəni dəyərlərini və dünya görüşünü formalaşdırır. Bu baxımdan, incəsənət terminlərinin düzgün anlaşılması və istifadəsi həm dilin, həm də mədəniyyətin inkişafı üçün vacibdir.

Məqalənin əsas məqsədi İngilis dilində incəsənət sahəsinə aid terminlərin leksik, semantik və struktur xüsusiyyətlərini araşdırmaqdır. Konkret olaraq, seçilmiş

terminlərin — "sculpture", "abstract expressionism", "canvas", "palette" və "ballet"in mənaları, istifadəsi və funksiyaları təhlil edilərək onların dilin leksik fondunda və müasir mediada necə istifadə olunduğu göstərilir (Crystal, 2003, s. 46; Jackson & Amvela, 2007, s. 83). Məqalədə həmçinin terminlərin alınma prosesi, onların İngilis dilində fonetik və qrammatik uyğunlaşması, terminoloji yeniliklər və qloballaşmanın incəsənət terminologiyasına təsiri müzakirə olunur (Fisher, 2014).

Bu araşdırma, incəsənət terminlərinin dilçilik, mədəniyyət və incəsənət tədqiqatları sahələrində daha dərin anlaşılması və onların daha səmərəli istifadəsinə töhfə verməyi hədəfləyir. Müasir dövrdə terminlərin istifadəsi yalnız elmi dairələrdə deyil, həmçinin sosial mediada, gündəlik ünsiyyətdə də genişlənməkdədir ki, bu da terminlərin çoxmənalılığı və yeni mənalar qazanması prosesini sürətləndirir (Brown, 2019).

İncəsənət terminlərinin leksik və semantik xüsusiyyətləri

İncəsənət terminləri İngilis dilində əsasən Latın, Fransız və Yunan dillərindən alınmışdır və bu, onların leksik quruluşunda, mənalarında və istifadə sahələrində müxtəliflik yaradır (Crystal, 2003; Jackson & Amvela, 2007). Bu terminlərin leksikası həm sadə, həm mürəkkəb, həm də birləşmiş formalardan ibarətdir. Sadə terminlər (məsələn, *sculpture*) konkret bir obyekt və ya anlayışı ifadə edir və daha az dəyişkənlik göstərir. Mürəkkəb terminlər (məsələn, *abstract expressionism*) çoxlu sözlərdən ibarət olub daha spesifik və geniş anlayışları əhatə edir. Birləşmiş formalar isə iki və ya daha çox terminoloji vahidin sintezi nəticəsində yaranır və incəsənətin müxtəlif sahələrini əhatə edir (məsələn, *fine art criticism*) (Jackson & Amvela, 2007, s. 78; Craine & Mackrell, 2010, s. 56).

Semantik baxımdan, incəsənət terminləri çoxmənalılıq xüsusiyyətinə malikdir və kontekstdən asılı olaraq fərqli mənalar daşıya bilirlər. Məsələn, *canvas* termini rəsm üçün istifadə olunan parça mənasında olduğu kimi, bəzən üzərində yaradılan əsəri də ifadə edir. Bu çoxmənalılıq dilin ifadə imkanlarını genişləndirir, lakin terminlərin düzgün anlaşılması üçün kontekstual bilik və incəliklərə ehtiyac yaradır (Searle, 1979, s. 56; Craine & Mackrell, 2010, s. 58). Başqa bir nümunə olaraq, *palette* termini rəssamın istifadə etdiyi rənglərin dəstini ifadə etdiyi kimi, bəzən rəng seçimi və ya sənət üslubu mənasında da metaforik istifadə olunur (Oxford English Dictionary, 2020, s. 1705).

Bundan əlavə, incəsənət terminlərinin mənaları təkcə dil səviyyəsində deyil, həm də mədəni, tarixi və sosial kontekstlərdə dəyişir və zənginləşir. Məsələn, *abstract expressionism* termini yalnız sənət janrını deyil, həm də 20-ci əsrin ortalarında yaranmış müəyyən estetik və emosional ifadə formasını əhatə edir. Bu, terminlərin semantik sahəsində diaxronik (tarixi) dəyişikliklərin vacibliyini göstərir (Crystal, 2003, s. 45; Rosenberg, 2001, s. 8). Qloballaşma və dil əlaqələrinin genişlənməsi nəticəsində bu terminlər fərqli dillər arasında alınma və uyğunlaşma proseslərinə məruz qalır, bu da onların leksik və semantik xüsusiyyətlərinin inkişafına və zənginləşməsinə səbəb olur . Terminlərin struktur və semantik

xüsusiyyətlərinin təhlili onların düzgün istifadəsi üçün əsasdır. Çünki incəsənət sahəsində terminlərin dəqiq anlaşılması və tətbiqi elmi diskursun, mədəniyyətin təbliği və təhsil proseslərinin səmərəliliyini artırır (Craine & Mackrell, 2010, s. 58). Beləliklə, incəsənət terminləri təkcə dilin leksik tərkibini zənginləşdirmir, həm də mədəniyyətin, yaradıcılığın və ictimai şüurun formalaşmasında əhəmiyyətli rol oynayır (Searle, 1979; Crystal, 2003).

Konkret incəsənət terminlərinin təhlili

1.**Sculpture (Heykəltəraşlıq)**

"Sculpture" termini İngilis dilinə Latın dilindən – *sculpere* ("oymaq, əkmək") sözündən keçmişdir (Oxford English Dictionary, 2020, s. 1520). Bu sözün ilkin mənası əsasən üçölçülü formaların yaradılması prosesini əhatə edir. Leksik olaraq sadə görünsə də, bu termin həm də geniş sənət sahəsini ifadə edir. Heykəltəraşlıq yalnız klassik daş, mərmər və metal əsərlərlə məhdudlaşmır, müasir dövrdə plastik, qarışıq materiallar və rəqəmsal texnologiyaların da tətbiq edildiyi geniş yaradıcılıq sahəsinə çevrilib (Stokstad, 2016, s. 48-55).

Semantik baxımdan, *sculpture* termini həm yaradılan əsəri, həm də onun yaradılma prosesini ifadə edir. Bu, yaradıcılıq fəaliyyəti və nəticə olaraq həm sənətkarın əl işini, həm də məkanla qarşılıqlı təsirə girən obyektləri əhatə edir (Fisher, 2014, s. 112-115). Müasir incəsənətdə, abstrakt və konseptual heykəltəraşlıq janrları *sculpture* termininin mənasını daha da genişləndirmişdir.

2.**Abstract Expressionism (Abstrakt Ekspressionizm)**

Abstract Expressionism termini 20-ci əsrin ortalarında ABŞ-da yaranmış sənət hərəkatını təsvir edir (Karmel, 1999, s. 23). Bu termin semantik olaraq yalnız müəyyən janrı deyil, həm də emosional sərbəstliyi və spontanlığı vurğulayır. Abstrakt ekspressionizm rəssamın daxili dünyasını və duyğularını sərbəst ifadə etməsini əsas tutur (Rosenberg, 2001, s. 7-10).

3.**Canvas (Kətan)**

"Canvas" termini həm maddə, həm də məhsul mənasında işlənir. Ənənəvi olaraq, bu, boya üçün istifadə olunan qalın və möhkəm parça deməkdir (Livingstone, 2002, s. 142). Lakin, "canvas" rəssamlıq sahəsində metaforik olaraq həm yaradıcılıq sahəsini, həm də əsərin özünü ifadə edir (Crystal, 2003, s. 58). Müasir terminologiyada "canvas" rəssamın öz ideyalarını həyata keçirdiyi "sahə" kimi də şərh olunur, yəni bu termin həm maddi, həm də konseptual aspekti ilə zəngindir. Onun çoxfunksiyalı istifadəsi dilin zənginliyi və kontekstual mürəkkəbliyinə nümunədir (Janson & Janson, 2001, s. 198).

4.**Palette (Rəng Palitrası)**

"Palette" termini ilk növbədə rəssamın istifadə etdiyi rəng dəstini ifadə edir (Oxford English Dictionary, 2020, s. 1705). Leksik mənada bu, rənglərin fiziki qarışdırıldığı taxta və ya başqa səthdir (Janson & Janson, 2001, s. 102).

Semantik olaraq, “palette” həmçinin rəng seçimi və rəssamın üslubunu əks etdirən konsept kimi də işlənir (Livingstone, 2002, s. 37). Bu, rənglərin bir araya gəlməsi ilə estetik kompozisiyanı yaratmaq prosesini vurğulayır.

5.**Ballet (Balet)**

“Ballet” termini fransız dilindən ingilis dilinə keçmişdir və rəqs sənəti kimi spesifik performans janrını ifadə edir. Fonetik və yazılış baxımından orijinal dilə yaxındır, bu da terminə mədəni mənsubiyyətini qorumağa imkan verir (Craine & Mackrell, 2010, s. 7). Semantik olaraq, “ballet” yalnız rəqs hərəkətlərinin toplusu deyil, həm də dramaturgik, musiqi və vizual elementlərin birləşməsi kimi başa düşülür. Performansın bütünlükdə incəsənət formasını təşkil edən kompleks hadisədir (Burt, 1998, s. 20–23).

Terminlərin Müasir Mediada və Elmi Diskursda İstifadəsi

İncəsənət terminləri günümüzdə təkcə sənətşünaslıq və akademik müzakirələrin bir hissəsi deyil, həm də ictimai diskursun — xüsusilə rəqəmsal medianın — fəal elementinə çevrilmişdir. Bu terminlərin sosial media platformalarında, bloqlarda, sənət podkastlarında və açıq müzakirələrdə geniş istifadə olunması onların mənalarının dinamik şəkildə dəyişməsinə və genişlənməsinə səbəb olur . Məsələn, “canvas” termini klassik anlamda rəssamın boya üçün istifadə etdiyi səth olsa da, bu gün “yaradıcılıq sahəsi”, “ideyaların reallaşdığı məkân” və hətta “fikir lövhəsi” mənasında da metaforik şəkildə istifadə edilir. Instagram və Pinterest kimi vizual platformalarda "My life is my canvas" kimi ifadələr bu anlayışın sosial kontekstdə nə qədər genişləndiyini göstərir (Smith, 2015, s. 144). Bundan əlavə, “abstract expressionism” termini də artıq yalnız sənət tarixi kontekstində deyil, emosional və fərdi ifadə vasitəsi kimi populyar mədəniyyətdə yer almaqdadır. Sosial şəbəkələrdə istifadəçilər bu termini vizual qarışıqlığı, emosional xaosu və daxili hisslərin ifadəsini təsvir etmək üçün istifadə edirlər. Bu da terminologiyanın semantik elastikliyini göstərir.

Elmi diskursda isə bu terminlərin dəqiq və kontekstual şəkildə işlədilməsi tələb olunur. Akademik müzakirələrdə terminlərin istifadəsi yalnız estetik təhlillər üçün deyil, həm də nəzəri yanaşmaların və metodologiyaların qurulması üçün əsas baza rolunu oynayır (Rosenberg, 2001, s. 23). Məsələn, “sculpture” termini həm obyektin texniki hazırlanması, həm də məkanla qarşılıqlı əlaqəsi baxımından tədqiq olunur (Fisher, 2014, s. 288). Bununla yanaşı, müasir dövrdə interdisiplinar yanaşma bu terminlərin daha geniş kontekstlərdə istifadəsini aktuallaşdırmışdır. “Palette” artıq yalnız rəng seçimi deyil, dizayn, brendinq və hətta emosional tənzimləmə (məsələn, “mood palette”) kontekstində də işlənir.

Nəticə

İncəsənət terminlərinin İngilis dilində işlənmə xüsusiyyətlərinin araşdırılması göstərir ki, bu terminlər həm leksik, həm semantik, həm də struktur baxımdan zəngin

və mürəkkəb quruluşa malikdir. Terminlərin çoxmənalılığı və kontekstdən asılı dəyişən mənaları onların funksional çevikliyini artırır və dilin ifadə imkanlarını genişləndirir. Konkret terminlər, məsələn, sculpture, abstract expressionism, canvas, palette və ballet, yalnız sənət sahəsinin spesifik anlayışlarını ifadə etmir, həm də mədəni, tarixi və sosial aspektləri əhatə edən geniş məna qatlarına malikdirlər.

Ədəbiyyat

1. Anfam, D. (1990). *Abstract Expressionism*. Thames & Hudson.
2. Brown, L. (2019). *Language and Culture: Interdisciplinary Approaches*. Routledge.
3. Crystal, D. (2003). *The Cambridge Encyclopedia of the English Language*. Cambridge University Press.
4. Craine, D., & Mackrell, J. (2010). *The Oxford Dictionary of Dance*. Oxford University Press.
5. Fisher, J. (2014). *The Theory of Sculpture*.
6. Guest, I. (2006). *The Dancer's Heritage*. Dance Books.
7. Jackson, H., & Amvela, E. Z. (2007). *Words, Meaning and Vocabulary*. Continuum.
8. Janson, H. W., & Janson, A. F. (2001). *History of Art*. Harry N. Abrams.
9. Karmel, P. (1999). *Jackson Pollock: Interviews, Articles, and Reviews*.
10. Livingstone, M. (2002). *Vision and Art: The Biology of Seeing*. Harry N. Abrams.
11. Oxford English Dictionary (2020). *Palette*. Vol. 17.
12. Oxford English Dictionary (2020). *Sculpture*.
13. Rosenberg, H. (2001). *The Tradition of the New*. University of Chicago Press.
14. Smith, J. (2015). *Art and Society: Cultural Perspectives*. Oxford University Press.
15. Stokstad, M. (2016). *Art History* (6th Edition). Pearson.
16. Searle, J. R. (1979). *Expression and Meaning: Studies in the Theory of Speech Acts*. Cambridge University Press.
17. Thompson, R. (2021). *Globalization and Language Change*. Palgrave Macmillan.
18. Trask, R. L. (1997). *The Penguin Dictionary of English Grammar*. Penguin Books.
19. Wierzbicka, A. (1996). *Semantics: Primes and Universals*. Oxford University Press.
20. Burt, R. (1998). *The Male Dancer: Bodies, Spectacle, Sexualities*. Routledge.

А.Ш. Пирмамедова

Особенности употребления художественных терминов в английском языке и анализ конкретных терминов

Резюме

В данной статье всесторонне исследуются лексические, семантические и структурные особенности терминов, относящихся к сфере искусства, в английском языке. В работе проводится анализ конкретных художественных терминов, таких как *sculpture*, *abstract expressionism*, *canvas*, *palette* и *ballet*, их значений, употребления, многозначности, а также их роли в культурном, историческом и социальном контексте. Также рассматриваются процессы заимствования этих терминов в английский язык, их фонетическая и грамматическая адаптация, терминологические новшества и влияние глобализации на язык. В статье показано, как данные термины используются в современных медиа, в искусствоведческой критике и в научном дискурсе, подчеркивается их вклад в лексическое богатство языка и возможности культурного самовыражения. Результаты исследования показывают, что правильное понимание и применение терминов в области искусства важно как на академическом, так и на практическом уровне для продвижения и развития искусства. Непрерывное исследование терминов в этой области представляет значительный интерес для лингвистики, искусства и культуры, и в будущем требует более обширных прагматических и дискурсивных исследований.

Ключевые слова
Термины искусства, лексический анализ, английский язык, семантика, заимствованные слова

A. Sh. Pirmammadova
Gulcohra Qadirova

Peculiarities of the Use of Art Terms in the English Language and the Analysis of Specific Terms

Summary

This article provides an extensive analysis of the lexical, semantic, and structural characteristics of art-related terms in the English language. It examines the meanings, usage, polysemy, and cultural, historical, and social context of specific art terms such as *sculpture*, *abstract expressionism*, *canvas*, *palette*, and *ballet*. The paper also discusses the processes of borrowing these terms into English, their phonetic and grammatical adaptations, terminological innovations, and the impact of globalization on language. Furthermore, the article explores how these terms are used in modern media, art criticism, and academic discourse, emphasizing their contribution to the lexical richness and cultural expressiveness of the language. The

findings suggest that a proper understanding and use of art terminology are essential for the promotion and development of art at both academic and practical levels. Continuous research on such terminology is crucial for the fields of linguistics, art, and culture, and highlights the need for broader pragmatic and discourse-level studies in the future.

Keywords
Art terms, lexical analysis, English language, semantics, borrowed words

Rəyçi: **fil.ü.f.d.G. Rzayeva**

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

LƏTAFƏT ƏLIŞAH QIZI ƏLIYEVA
Bakı Dövlət Universiteti
"Azərbaycan dili və nitq mədəniyyəti"
kafedrasının dosenti, fil.ü.f.d.

SƏMƏRƏLİ ÜNSİYYƏTİN PRİNSİPLƏRİ

Açar sözlər: ünsiyyət, kommunikasiya, prinsiplər, səmərəli, uğurlu, qarşılıqlı anlaşma, münasibət, səmimiyyət, empatiya

İnsanın sosial statusu ünsiyyət mədəniyyəti ilə bağlıdır. "İnsan insanı yalnız ünsiyyət, qarşılıqlı əlaqə vasitəsilə kəşf edir və bu üsulla özünü də tanıyır"(9,s.87). Ünsiyyətin əsas məqsədi təkcə informasiya ötürmək və ya almaq deyil, burada əsas amil insanlar arasında qarşılıqlı anlaşmanı yüksək səviyyədə təmin etməkdir. Qarşılıqlı anlaşma, effektiv ünsiyyətin və sağlam münasibətlərin təməlidir. Insanlar arasında səmərəli ünsiyyət qurmaq üçün aşağıdakı prinsiplərə əməl etmək lazımdır:

Aydın və anlaşıqlı danışmaq: ("Söz həyatın bəzəyidir") Bu, fikir və hisslərin qarşı tərəfə düzgün, başa düşülən şəkildə ötürülməsi deməkdir, şəxsi münasibətlərdə, gündəlik ünsiyyətdə, iş yerində və ictimai həyatın hər sahəsində uğurun açarlarından biridir. Danışan öz nitqini daim nəzarətdə saxlamalı, bu zaman fikrin ardıcıllığına, münasib sözlərin, ifadələrin işlənməsinə, cümlələrin qurulmasına diqqət etməli, söz seçərkən mənasına fikir verməyi, sözün fikrə uyğun işlənmə məqamını, onu düzgün səsləndirməyi bacarmalıdır. "Sözü ən gözəl tərzdə söyləmək lazımdır ki, həm söz anlayan olasan, həm də söz anladasan" (4, s.84). Unutmaq olmaz ki, nitqin aydınlığı, fikrin düzgünlüyündən asılıdır. Fikir aydın deyilsə, nitq də aydın olmayacaq. "Aydin olmayan fikir anlaşılmazlıq və konflikt yaradır(7, s.34). Fikri aydın ifadə etmək üçün nitq şəraitini nəzərə alıb cümlələri sadələşdirmək, qısaltmaq lazımdır. Həcmcə böyük cümlələr nitqi ağırlaşdırır, məzmunun catdırılmasını çətinləşdirir. Doğrudur, fikrin hansı cümlə ilə deyilməsi onun məzmunundan da asılıdır. Bu zaman , lüzumsuz sözlərə, ifadələrə, təkrarlara , eyni bir mətləbin ayrı-ayrı cümlələrlə bir neçə dəfə ifadə olunmasına yol verilməməli, mənaya uyğun konkret sözlər, sinonimlər seçilməlidir. "Mürəkkəb və dolaşıq sözlər ünsiyyətin keyfiyyətini azaldır. Sadə, aydın və məntiqi quruluşlu nitq ünsiyyəti gücləndirir" (6,s.153). Danışanın nitqi onun şəxsiyyətini, mədəni səviyyəsini, dünya-görüşünü müəyyənləşdirən, ətrafdakılarla münasibətini nizamlayan başlıca amildir.

Qeyri-verbal vasitələrdən düzgün istifadə etmək: ("Sözün tonunu bil, qəlbi açarsan") İnsanlar bir-birini sözlərdən çox, hərəkətlər və intonasiyaya görə anlayırlar. Ən əsası orta sürətlə danışmaq lazımdır, cümlələri çox tez demək qarışıqlıq yaradır. Fikri hissələrə bölüb ifadə etmək , hər hecanı düzgün tələffüz etmək nitqin aydınlığı üçün önəmlidir. Mühüm fikirdən sonra pauza vermək həm nəfəs almağa, həm də qarşı tərəfi anlamağa şərait yaradır. Orta və sabit tonla

danışmaq da vacib şərtlərdən biridir. Bir sözlə, intonasiyaya tam əməl olunmalıdır. Dilimizin zəngin intonasiya çalarları müxtəlif emosional vəziyyətləri daha düzgün, ifadəli əks etdirməyə kömək edir. "Nitq ancaq emosional boya kəsb etdikdə təsirli olur, dinləyicini daha çox maraqlandırır. Əgər danışan təkcə məntiqi qanunauyğunluqları əsas götürsə, başqa sözlə, danışığa fikrin ancaq ifadə forması kimi baxsa, nitq boyasız rəsm əsəri kimi təsirsiz olar və sönük çıxar"(2,səh.61).

Göz təması qurmaq:("Göz ürəyin aynasıdır") Göz təması ünsiyyətin ən vacib qeyri-verbal elementlərindən biridir və insan münasibətlərində böyük rol oynayır. Ünsiyyət zamanı göz təması qarşı tərəfə diqqət yetirildiyini və onun fikirlərinə hörmət edildiyini göstərir. Bu, ünsiyyət zamanı səmimiyyətin və açıq münasibətin yaranmasına səbəb olur. Məsələn, iş görüşmələrində və ya sosial qarşılıqlı əlaqələrdə göz təması güvənli insan təsiri bağışlayır, ünsiyyətdə özünəinamın, dürüstlüyün göstəricisidir. Qarşılıqlı göz təması qurmaq insanların bir-birinə daha yaxın və etibarlı yanaşmasına şərait yaradır, göz təmasından qaçmaq isə etibarsızlıq, hörmətsizlik və diqqətsizlik təəssüratı yaradır. Göz təması insanların duyğularını ifadə etməsinə , emosiyalarını daha dəqiq və doğru çatdırmasına yardımçı olur. Həm gündəlik, həm də rəsmi ünsiyyətdə göz təması qarşı tərəflə effektiv əlaqə qurmaq üçün vacibdir. O, dialoqun interaktiv və qarşılıqlı olmasını təmin edir.

Bədən dilindən istifadə etmək: ("Davranışına bax, insanı tanı") Bədən hərəkətləri verbal nitqlə birlikdə verilən mesajın mənasını tamamlayır, fikrin məna dərinliyini və emosionallığını artırır. İnsan qarşısındakı şəxsin zahiri davranışına əsasən onun daxili dünyasını anlamağa çalışır. Mimika insanın ən incə əhval-ruhiyyəsini ifadə edə bilir. İnsanlar üz hərəkətlərinin vasitəsilə sevinc, kədər, qorxu, təəccüb, qəzəb və digər emosional vəziyyətlərini başqalarına çatdırırlar. Üz ifadələri danışanın hisslərinin, niyyətinin və mövqeyinin göstəricisidir, həmsöhbəti daha düzgün başa düşməyə kömək edir. Mimika qarşı tərəfdə etimad, anlaşma və əlaqə hissi yaradır, sosial ünsiyyətdə mühüm rol oynayır. Jestlər də danışılanların mənasını gücləndirir, onu canlandırır, nitqin daha yaxşı qavranılmasına təsir edir. Açıq, rahat və dostcasına edilən jestlər qarşı tərəfdə etibar və səmimiyyət yaradır. "Həmsöhbətin jesti, hərəkəti onun haqqında çox şey ifadə edə bilər. Hərəkətlər öz-özündən yaranmır, sözləri, ifadələri təqib edir; fikrə özünəməxsus şəkildə dəstək olur, onların təsir gücünü artırır, bəzi hallarda isə hətta sözlər, ifadələr dəqiqləşdirilir"(2, s 52). Jestlər ünsiyyətin daha səmərəli və maraqlı olmasını təmin edir.

Mədəniyyət və etik qaydalara riayət:(Xoş sözün qapısı açıq olar") Ünsiyyətin effektivliyinin əsasını xoş və nəzakətli sözlərin işlədilməsi təşkil edir. Belə ifadələr münasibətləri yumşaldır, qarşı tərəfdə müsbət təəssürat yaradır və hörməti artırır. Bu, həm gündəlik həyatda, həm də iş mühitində çox vacibdir. Çünki söz insanın daxili aləmini, tərbiyəsini və şəxsiyyətini əks etdirir və münasibətlərə birbaşa təsir edir. İnsan xoş söz eşitdikdə özünü dəyərli və qiymətli hiss edir. Bu onun motivasiyasını artırır. Ünsiyyətin müxtəlif məqamlarında, situasiyalarında ürəkaçan söz və

ifadələrin, nitq etiketlərinin yerində işlədilməsi müsbət mühit yaradır, ünsiyyətin uğurlu olmasını təmin edir. Bu tələblərin gözlənilməməsi insanların narazılığına, qarşılıqlı anlaşmanın pozulmasına gətirib çıxarır.

Yaxşı dinləyici olmaq(“Az danış, çox dinlə”) “Başqasını dinləməyi bacarmaq böyük mədəniyyət tələb edir, səbrlə, təmkinlə həmsöhbətə qulaq asmaq, onu diqqətlə dinləmək yüksək mədəniyyətin, nəzakətliliyin , nəcib əxlaqın təzahürüdür”(3, s. 88). Ünsiyyət zamanı dinləyici təkcə informasiyanı qəbul etməməli, o, mimikası, jesti, replikaları və s. ilə müsahibinə həmrəy olduğunu və ya olmadığını, etirazını bildirməlidir. Bu cür əks-əlaqə nitqin təsirini artırmaq, lazım gələrsə, onun istiqamətini dəyişmək, söhbəti qısaltmaq və ya genişləndirməklə danışana kömək edir. Dinləmə zamanı üz gözünü turşutmaq, narazı halda başını yelləmək, tez-tez saata baxmaq, əsnəmək, başqaları ilə söhbət etmək, gözü yol çəkmək danışanı çaşdıra, fikrindən yayındıra bilər. Bu ünsiyyəti maraqsız və keyfiyyətsiz edir.

Açıq və səmimi olmaq: (“Örtülü bazar, dostluğu pozar”)Səmimiyyət, insanın öz hiss və düşüncələrini gizlətmədən ifadə etməsinə və əlaqələrin dərinləşməsinə şərait yaradır. Bu cür şəffaflıq ünsiyyətdə yanlış anlaşılmaların qarşısını alır və qarşı tərəfdə etimad hissi yaradır. “Əgər danışan sözündə səmimi deyilsə, heç bir kommunikasiya davamlı ola bilməz. İnam qarşılıqlı əlaqənin əsas təməlidir”(9,s. 67). Sözlərdə və davranışda dürüstlük, fikir ayrılıqlarına dözümlülük səmimiyyətin vacib şərtlərindəndir. Hətta konflikt zamanı belə söhbətin istiqamətini dəyişməyi, etik qaydalar çərçivəsində məsələni yumşaltmağı bacarmaq lazımdır. Bu zaman qarşıdakını axıra qədər dinləmək, dediklərinin müsbət tərəflərini təsdiqləmək, sonra isə düzgün olmayan məsələ barədə fikir söyləmək lazımdır. Səmimiyyət həm də başqasının hiss və düşüncələrinə hörmətlə yanaşmağı, empatiya və qarşılıqlı anlaşmanı gücləndirir. Belə bir mühitdə tərəflər bir-birinin fikirlərini dinləyib anlamaqla problemlərin daha asan həllinə nail olurlar.

Empatiya : (“İnsan olmayan, insan qədrini bilməz”) “Kommunikasiyada vacib məsələ şəxsi duyğulardan baş çıxara bilmək və qarşısındakına hörmət əlaməti olaraq həyəcanları bölüşməkdir. Dinləyən isə zəriflik, kübarlıq, etika və s. kimi bacarıqlarla qarşı tərəfin hiss və istəklərini anlamağa çalışmalıdır, empatiya göstərməlidir”(1,s.35). İnsan özünü qarşı tərəfin yerinə qoyaraq ona yardım edərsə, ona qarşı diqqətli olarsa, ünsiyyətin asan və uğurlu olmasını təmin etmiş olur. “Başqasını anlamaq üçün insan ya empatiya (onun vəziyyətini emosional duymaq), ya da identifikasiya(özünü onun yerinə qoymaq) üsulundan istifadə edir. Perseptiv funksiya düzgün işləməyəndə insanlar arasında yanlış anlama, inamsızlıq, konflikt yaranır. Doğru işləyəndə isə qarşılıqlı etimad və səmərəli əməkdaşlıq qurulur”(8, s.122).

Qarşılıqlı hörmət: (“Hörmət elə ki, hörmət görəsən”) “Ünsiyyət yalnız o zaman səmərəli olur ki, tərəflər bir-birini şəxsiyyət kimi qəbul etsin. Ünsiyyətin əsasında hörmət dayanmasa, tərbiyə və əməkdaşlıq mümkün deyil(5, s.93). Hər iki tərəfin fikir, hiss, dəyər və mövqeyi bərabər hüquqlu olmalıdır. Bu zaman ünsiyyət

həm informativ, həm tərbiyəvi, həm də inkişafetdirici xarakter alır. Məsələn, müəllim-tələbə münasibətində müəllim tələbəni sadəcə "qiymət alacaq insan kimi yox", müstəqil, fikir bildirən və inkişaf edən insan kimi görərsə, onun maraqlarına və fərqli düşüncələrinə hörmətlə yanaşarsa, yaxud tələbə müəllimə "dərs deyən", "imtahan götürən şəxs" kimi deyil, bilgi və təcrübə daşıyıcısı olan şəxsiyyət kimi qəbul edərsə, bu zaman ünsiyyət bərabərləşir, güvən və hörmət formalaşır. İşgüzar kommunikasiyada da rəhbər-işçi münasibətinin əsasını hörmət və inam təşkil edir. Sağlam işçi kollektivi rəhbərin ikinci ailəsi sayılır, onların arasındakı səmimiyyətlə birgə müəyyən dərəcədə pərdə də olmalıdır. Rəhbər işçilərə qarşı tələbkar olmaqla yanaşı qayğıkeş də olarsa, onların problemləri ilə maraqlanarsa, onlar arasında inam daha çox olacaq və işçilər rəhbərlə hesablaşacaqlar, işlərindəki ciddiliyi pozitiv qəbul edəcəklər. Tabelikdə olanlarla düzgün ünsiyyət tərzi tapan rəhbər şəxs nüfuz əldə edir, bu da işin uğuruna təsir edir, məhsuldarlığı artırır.

Sual vermək:("Soruşmaq öyrənməyin yarısıdır") Ünsiyyət zamanı sual vermək sadəcə danışığın davamı üçün deyil, həm də qarşı tərəfi daha dərindən tanımaq və öyrənmək üçün əsas vasitələrdən biridir. Sual verəndə qarşı tərəf ona etimad göstərildiyini görür, anlayır ki, o dinlənilir və fikirlərinə dəyər verilir. İnsan çox vaxt ümumi danışır, amma sual verdikdə düşüncələrini daha konkret izah etməyə başlayır. Sual olmadan bir çox xüsusiyyətlər görünməz qalır. Cavab verərkən insanın zəkası, üslubu, reaksiyası, düşüncə tərzi, hissləri üzə çıxır. Sual verərkən dialoq yaranır, bu da söhbətin təbii olmasına səbəb olur, həm qarşı tərəfdən öyrənmək məqsədilə ətraflı məlumat almaq olur, həm də səmimiyyət və yaxınlıq yaranır.

Müxtəlif şəraitə uyğunlaşmaq: ("Cəmiyyətdə davranış insana qiymət verir") İnsan hansı mühitdə, kimlə danışığına uyğun olaraq davranış tərzini, söz seçimini, səsini dəyişməyi bacarmalıdır. Məsələn, rəsmi şəraitdə rəsmiyyət qorunur, ədəbi dildən istifadə olunur, səsin tonu sakit olur, sözlər dəqiq seçilir. Dostlarla ünsiyyətdə daha sərbəst, emosional və yumorlu danışmaq olar. Burada gündəlik ifadələr işlədilir. Ailə mühitində mehriban, qayğıkeş ifadələr üstünlük təşkil edir. Mübahisəli situasiyalarda əsəbləşmədən, sakit və mədəni danışığa riayət edilməlidir, emosiyaları idarə etmək vacibdir. Mülayim və uyğun davranış insanı sosial mühitdə sevilən edir. Mədəni fərqlər olan mühitdə qarşı tərəfin adət-ənənələrinə, düşüncə tərzinə hörmət etmək lazımdır. Beləliklə, ünsiyyətdə uyğunlaşmaq bacarığı insana həm hörmət qazandırır, həm də münasibətlərin davamlı və sağlam olmasına kömək edir.

Kommunikasiya həyatın və işgüzar mühitin əsas hissəsidir. İnsanlar birgə yaşayış və əmək fəaliyyətində bir-birləri ilə ünsiyyət qurmaq məcburiyyətindədirlər. Ona görə də kommunikasiya mədəniyyətinə yiyələnmək vacibdir ki, ünsiyyət səmərəli və uğurlu olsun. Səmərəli ünsiyyət qarşılıqlı fayda prinsipidir. "Ən yaxşı ünsiyyət o zaman baş verir ki, tərəflər birgə məqsədə xidmət edirlər."(10, s.202). İnsanlar öz təcrübəsini, biliklərini başqaları ilə paylaşaraq yeni şeylər öyrənirlər, öz biliklərini artırırlar, emosiyalarını ötürürlər, dərdini bölüşərək yüngülləşir, sevincini

bölüşərək sevincini artırırlar. İnsanlar ünsiyyət vasitəsilə dostluq, işgüzar və ailə münasibətləri yaradırlar, bir-birlərinə yardım edirlər.

Beləliklə, uğurlu və səmərəli kommunikasiya yalnız informasiyanın ötürülməsi deyil, həm də qarşılıqlı anlaşma, emosional uyğunlaşma, əməkdaşlıq, sosial münasibətlərin və birgə fəaliyyətin harmoniyasıdır.

ƏDƏBİYYAT

1.Abbasəliyeva R.Z. Dildə ekspressivlik və emosionallığın verbal və qeyri-verbal ifadə vasitələri. Bakı, CBS poliqrafiya, 2018, 160 s.
2.Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, ADPU nəşriyyatı, 278 s.
3.Əliyev K.Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, BDU nəşriyyatı, 2001.
4.Qabusnamə. Bakı, "Qızıl Şərq", 1989, 237 s.
5.Бодалев А.А. Личность и общение. Москва, Международная педагогическая академия, 328 стр.
6.Виноградов В.В. О теории художественной речи. Москва, Изд. Высшая школа, 1971, 240 стр.
7.Выготский Л.С. Мышление и речь.Москва, «Астрель», 2011, 646 стр.
8. Леонтьев А.Н. Проблемы развития психики. Москва, «Смысль», 2020, 882 стр.
9.Макаренко А.С. Воспитиние и развитие личности в коллективе. Москва, «Атрита», 2022, 228 стр.
10.Рубинштейн С.Л. Бытие и сознание человек и мир. Москва, Изд. Питер, 2003, 512 стр.

XÜLASƏ

Səmərəli ünsiyyətin prinsipləri

Açar sözlər: ünsiyyət, kommunikasiya, səmərəli, prinsiplər, effektiv, uğurlu, qarşılıqlı anlaşma, münasibət, səmimiyyət, empatiya.

Ünsiyyətin səmərəli və uğurlu olması insan həyatının bütün sahələrində-gündəlik həyatda, ailə, dostluq, şəxsi münasibətlərdə, təhsil və peşəkar sahədə, cəmiyyət miqyasında və s. böyük əhəmiyyət daşıyır. Məqalədə səmərəli ünsiyyət qurmağın əsas prinsipləri göstərilmiş və izah edilmişdir. Burada aydın və anlaşıqlı danışma, aktiv dinləmə bacarığı, qarşılıqlı hörmət və diqqət, empatiya, səmimiyyət, mədəniyyət və etik qaydalara riayət, qeyri-verbal ünsiyyət, sosial uyğunlaşma və s.kimi uğurlu ünsiyyət şərtləri analiz olunmuşdur. Burada qeyd olunur ki, qarşılıqlı ünsiyyət təkcə informasiya ötürməsi deyil, həm də insanların əməkdaşlıq zamanı bir-birinə fayda verməsi, öyrənməsi və təcrübə mübadiləsi aparmasıdır. Bu, həm cəmiyyətin tərəqqisinə xidmət edir-hər kəs faydasını bölüşdükcə ümumi inkişaf sürətlənir, həm də şəxsi inkişaf da təmin olunur-insan yeni bilik, vərdiş və yanaşmalar qazanır. Ünsiyyət prinsiplərini bilən şəxs hər yerdə mədəni, hörmətli və qəbul olunan şəxsiyyət kimi tanınır, başqaları ilə anlaşmağı, münasibətləri pozmadan

özünü ifadə etməyi bacarır. İş mühitində ünsiyyət prinsipləri kollektivdə sağlam əməkdaşlıq yaradır: bütün tərəflərin ortaq məqsədi olur, tərəflər bir-birinə güvənir, hər kəsin fikrinə hörmətlə yanaşılır, hər kəs üzərinə düşən məsuliyyəti bilir, komanda ruhu yüksək olur, hamı bir-birininin dəyərini bilir və s. Təhsil prosesində əməkdaşlıq bilik almağı daha səmərəli və maraqlı edir.

Məqalə ünsiyyət prinsiplərini izah etməklə, insanların düzgün ünsiyyət qurmasına istiqamət vermək baxımından əhəmiyyətlidir.

ПРИНЦИПЫ ЭФФЕКТИВНОГО ОБЩЕНИЯ

ЛЯТАФЕТ АЛИЕВА

РЕЗЮМЕ

Ключевые слова: общение, коммуникация, эффективный, принципы, успешный, взаимопонимание, отношение, искренность, эмпатия

Эффективное и успешное общение имеет огромное значение во всех сферах человеческой жизни - в быту, семье, дружбе, личных отношениях, в образовательной и профессиональной сферах, в масштабах общества и т.д. В статье рассматриваются и разъясняются принципы эффективного общения; анализируются такие условия успешного общения, как ясная и внятная речь, умение активного слушания, взаимоуважение и внимание, эмпатия, искренность, соблюдение культурных и этических правил, невербальное общение, социальная адаптация и т.д. Отмечается , что взаимообщение - не только процесс передачи информации, но и взаимная польза в процессе сотрудничества, взаимообучение и обмен опытом. Это служит общественному прогрессу - польза, которую каждый приносит, ускоряет общее развитие, - а также обеспечивает развитие личности - индивид приобретает новые знания, навыки и подходы. Знающий принципы общения везде воспринимается как культурная и уважаемая личность, умеющая самовыражаться на основе взаимопонимания, не нарушая отношений. В деловой среде принципы общения создают здоровую атмосферу сотрудничества в коллективе: у всех сторон имеется общая цель, все стороны полагаются друг на друга, относятся с уважением к мнению каждого, каждый осознает свою ответственность; в коллективе высокий командный дух, взаимооценивание и т.д. В учебном процессе сотрудничество способствует более эффективному и интересному приобретению знаний.

Настоящая статья, посвященная анализу принципов общения, актуальна в плане определения направления построения правильного общения.

PRINCIPLES OF EFFECTIVE COMMUNICATION

LATAFAT ALIYEVA

SUMMARY

Keywords: contacts, communication, effective, principles, successful, mutual understanding, attitude, sincerity, empathy

Effective and successful communication is of great importance in all areas of human life in everyday life, family, friendship, personal relationships, education, professional life, and society at large. The article deals with principles of effective communication; the conditions for successful communication, such as clear and intelligible speech, active listening skills, mutual respect and attention, empathy, sincerity, adherence to cultural and ethical rules, nonverbal communication, social adaptation, etc.It is noted that communication is not only a process of information transfer but also mutual benefit through collaboration, mutual learning, and the exchange of experiences. This promotes social progress the benefit each person brings accelerates overall development and also ensures personal development the individual acquires new knowledge, skills, and approaches.Someone who understands the principles of communication is perceived everywhere as a cultured and respected individual, able to express themselves through mutual understanding without damaging relationships. In a business environment, communication principles create a healthy atmosphere of collaboration within a team: all parties share a common goal, all parties rely on each other, respect each other's opinions, and each person understands their responsibilities; there is a high team spirit, mutual appreciation, and so on. In the educational process, collaboration facilitates more effective and interesting knowledge acquisition.

The article, devoted to the analysis of communication principles, is relevant in terms of determining the direction of building proper communication.

Rəyçi: İsmayıl Kazımov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

GASIMOVA AYGUN RAMIZ
aygun.gasimova@au.edu.az
0009-0003-4826-5366
Azerbaijan University
The Head of The Department of Foreign Languages
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli, 71

Phd. **RZAYEVA GULNAR MIRSALIM**
Gulnar.rzayeva@au.edu.az
0000-0000-0003-0584-0781
Azerbaijan University
The Head of The Department of Translation and Philology
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli, 71

THE ISSUE OF EQUIVALENCE IN ENGLISH–AZERBAIJANI LITERARY TRANSLATION: A FUNCTIONAL AND COGNITIVE PERSPECTIVE

ABSTRACT

This article explores equivalence in English–Azerbaijani literary translation through functional and cognitive perspectives. Based on E. Nida's theories, examples from George Orwell's "Nineteen Eighty-four" ("1984") are analyzed. Findings show that while formal equivalence preserves structure and terminology, functional equivalence adapts expressions to elicit the same effect on target readers. The cognitive approach highlights translators' mental processes such as conceptual mapping, problem-solving, and cultural schemas. The study concludes that combining functional and cognitive strategies helps preserve meaning, style, and aesthetic impact, ensuring effective intercultural communication.

Key words: equivalence, translation, target language, express, meaning, source language

Equivalence, which focuses on the study of semantic relations between source and target texts, constitutes an important part of translation theory. Equivalence is the similarity in the translation of a word or expression from one language into another; it is the relationship between the source and target texts or their segments.

The concept of equivalence explains the main features of translation studies. It remains a central yet contentious issue in translation studies, particularly in literary translation. Different schools of thought, such as structural, functional, and cognitive approaches, have attempted to redefine or expand this concept. Literary translation, in particular, challenges the notion of absolute equivalence due to the complexity of style, imagery, and cultural context. Therefore, equivalence should be regarded not as a fixed correspondence but as a dynamic and context-dependent relationship.

It is known that languages differ from one another both in terms of grammatical structure and semantic composition. Each language possesses certain unique features that give it a distinctive character, as well as a rich vocabulary in various fields such as culture, technology, and more. Some languages are rich in metaphors and modal particles, while others have extensive written and oral literary sources. So, the concept of equivalence has long been at the center of scholarly debate, particularly in the realm of literary translation, equivalence poses a complex challenge. The process becomes more intricate in the case of English–Azerbaijani literary translation, where not only the linguistic systems but also the literary traditions and cultural references of the two languages diverge significantly. This makes the translator's task not only a linguistic transfer but also a cultural mediation. The pursuit of equivalence in such contexts often requires creative strategies that balance accuracy with aesthetic and cultural resonance. Consequently, equivalence in English–Azerbaijani literary translation should be understood as a flexible and context-sensitive practice rather than a rigid one-to-one correspondence. English, with its Indo-European roots and globalized literary heritage, differs fundamentally from Azerbaijani, a Turkic language deeply influenced by Persian, Russian, and Turkish, and shaped by its unique sociohistorical context. In order to establish effective intercultural communication, all the characteristics of the target language must be approached with respect. Taking all this into account, a translator should adjust the attitude toward the target language in order to achieve equivalence between texts. " [2. p.3].

In literary translation several major approaches are used to understand and analyze the translation process. Each focuses on a different aspect of what translation is and how it works. It should be noted that there are no translations that are exactly equivalent to each other, but there are translations that are as close as possible to each other. E. Nida proposed two main types of equivalence: formal equivalence and dynamic or functional equivalence. [3. p.156]. In formal equivalent translation, it is essential that the target language message matches the source language message, that is, word by word, sentence by sentence, or certain concept by concept. This type of translation attempts to convey a number of formal elements, such as grammatical units, consistency in word usage, and the meaning of the source text into the target language. As a practical application of formal equivalent translation, let us consider the following examples from George Orwell's "1984"

1. "Hate Week" [5.p.3]. – "Nifrət Həftəsi" [5.p.34]. This concept is Orwell's artistic invention and has been translated literally, that is, through formal equivalence.

2. "Thought Police" [5.p.4]. – "Fikir Polisi" [5. p.35]. In this case, the translation fully preserves the exact formal equivalent of the original expression.

3. "Newspeak" – "Yeni Dil." This term refers to the official language of Oceania. The translation employs the formal equivalent of "Newspeak" and adapts it appropriately to the text.

4. “Victory Mansion” [5.p.6]. – “Qələbə yaşayış evi” [5. p.37]. In English, mansion means “apartment building” or “large residential house.” The translator rendered this expression through formal equivalence.

Unlike the formal equivalent translation, dynamic or functional equivalent-oriented translation is based on the principle of equivalent effect. Here the translator tries to express a certain expression or concept in a way that is culturally appropriate to the target language. In this type of translation, the main focus is not on the source text, but on the readers of the target text and their reaction. In any case, it is essential to consider the linguistic and cultural relationships that exist between the source and target languages. In dynamic equivalence translation, achieving a natural expression in the target language is crucial, as the focus lies not on maintaining the original form but on eliciting a similar response from the target audience. As an example of dynamic (or functional) equivalence, let us consider several cases from George Orwell’s “1984”

1. “…. There was shallow alcove in which Winston was sitting” [5.p.7]. –“….. divarda o qədər də dərin olmayan girinti vardı” [5.p.39]. The word *alcove* has an exact formal equivalent in Azerbaijani—“*taxça”*, “*camaxatan”*. However, in the translation, the word “*girinti*” was used, most likely to emphasize primitive living conditions through a dynamic equivalent.

2. “A sense of helplessness had descended upon him” [5.p.9]. - “Bütün varlığına tam bir köməksizlik hissi hakim kəsilmişdi” [5.p.39].. Here, “*descended upon”* has been translated into Azerbaijani with a new dynamic equivalent as “*hakim kəsilmişdi”*.

3. They were nosers-out of unorthodoxy” [5.p.12]. “Onlar hər yerə baş vurub, mütləq bir nöqsan tapmağa çalışırdılar” [5.p.42]. In this sentence, the word “*unorthodoxy”* has been translated as “*nöqsan”* (fault), although “*unorthodoxy”* more commonly conveys the sense of “*heresy”*; the equivalent of “*nosers-out”* is the expression “*burnunu soxmaq”* (to poke one’s nose in); finally, “*they were nosers-out”* literally means “they poked their noses in,” i.e., the sentence is originally given in noun form, but in the translation, by adding the verb “*çalışıblar”* (tried), the overall structure of the sentence has been altered.

4. “He continued to feel a peculiar uneasiness” [5.p.12]. “Hər dəfə onu görəndə qorxu və düşmənçilik, çox qəribə hisslər keçirirdi” [5.p.42]. In this sentence, “*he continued”* has been translated as “*hər dəfə görəndə”* (whenever he saw him), and “*peculiar uneasiness”* as “*qorxu və düşmənçilik”* (fear and hostility). That is, dynamic equivalents derived from the overall context of the work have been applied here.

Although formal and dynamic or functional equivalence differ from each other, both hold equal importance in translation.

The analysis of English–Azerbaijani literary translation demonstrates that achieving equivalence is a complex and multifaceted process. Both formal and dynamic (functional) approaches play significant roles in ensuring that the meaning,

style, and effect of the source text are effectively conveyed to the target audience. While formal equivalence preserves the structure and terminology of the original, functional equivalence emphasizes the target readers' reception, often adapting linguistic and cultural elements to create a natural and contextually appropriate text.

Preserving the meaning, style, and impact of the original text in literary translation is complex issue due to significant linguistic, cultural, and stylistic differences. Functional and cognitive approaches provide useful frameworks for analyzing how translators address these challenges. In order to express the content of the source text in a way that is understandable and in accordance with the norms of the target language, the source text is not fully reflected in the target language in terms of form, that is, it undergoes certain changes. Since all languages differ in terms of form, it is natural to change the forms in order to preserve the content of the source text. [2.p.5]. Any information understood by speakers of the source language may not be fully or accurately comprehended by readers of the target language. In this regard, the translator should make any necessary formal adjustments to convey the message using the different structural forms of the target language. According to E. Nida, if the form is not regarded as a vital part of the message, then anything that can be expressed in one language can also be conveyed in another. [2.p.4]. Literary texts often serve emotive, poetic, and aesthetic functions, which must be preserved or adapted in translation. A translator may need to modify idioms, metaphors, or cultural references to achieve the same function in the target language.

The functional approach in literary translation focuses on the purpose that the translated text is meant to serve in the target language. This approach highlights how the translated text functions within the cultural, social, and literary environment of the target language, instead of focusing on word-for-word translation of the source text. A translator should take into account the intended purpose of the text. For instance, if the text is meant for entertainment, educational or other purposes, the translation should effectively fulfill that specific function. The translation text should be meaningful and understandable to the readers of the target language. If necessary, a translator should make appropriate changes to ensure that the translated text aligns with the cultural norms and expectations of the target audience. Literary translation is considered a creative process, as the translator may modify certain elements to preserve the feeling, tone, and style of the source text. In functional approach a translator's goal is not just to translate the words, but to deliver a similar experience to readers of the target language. So, the functional approach prioritizes how well the source text functions in the target language rather than how it reflects the form of the original text.

While the functional approach emphasizes the purpose or function of the translation and its impact on the target audience, the cognitive approach focuses on how concepts, mental images and metaphors are interpreted and processed during translation. This approach considers the mental mechanisms involved in

understanding the source text, mapping its concepts onto the target language, and reconstructing meaning in a way that preserves both semantic and cultural nuances. Cognitive translation studies examine how translators perceive, store, and manipulate linguistic and extralinguistic information, often relying on problem-solving strategies, inferencing, and adaptation to bridge gaps where direct equivalence is impossible. Furthermore, the cognitive approach highlights the role of the translator's prior knowledge, cultural competence, and mental schemas in shaping translation decisions, offering insight into both the challenges and the creative strategies employed in literary translation. By analyzing these mental processes, researchers can better understand how meaning is transferred across languages and how the interplay between language, thought, and culture influences the final translated text. Recent scholarship has also shown that cognitive processes are closely linked to the translator's emotional state and level of concentration. Eye-tracking and think-aloud protocols, for instance, have provided empirical evidence on how translators navigate textual complexity. In literary translation, these insights help explain the balance between fidelity to the source and creativity in the target text. The cognitive approach therefore bridges theoretical perspectives with empirical research, making it one of the most dynamic areas in translation studies. Ultimately, it sheds light not only on translation outcomes but also on the translator's cognitive journey during the act of translation.

The interplay of functional and cognitive strategies allows translators to navigate the linguistic, cultural, and stylistic differences between English and Azerbaijani, producing translations that are faithful to the original in both content and effect. By combining an understanding of linguistic structures with attention to the mental and cultural processes involved in translation, literary translators can achieve equivalence that preserves the integrity, emotive power, and literary artistry of the source text.

Scientific Result. The study demonstrates that equivalence in English–Azerbaijani literary translation is not limited to a linguistic correspondence between words and sentences, but is instead achieved through a combination of formal, functional, and cognitive approaches. By examining George Orwell's *1984*, the research highlights how translators employ both structural fidelity and cultural adaptation to convey meaning, style, and effect to the target audience.

Scientific Novelty. The novelty of this study lies in its integrated application of functional and cognitive approaches to the analysis of English–Azerbaijani literary translation. This article extends the discussion of formal and dynamic equivalence by emphasizing the cognitive processes—concept mapping, problem-solving, and cultural schemas—that underlie translation decisions. The combination of functional and cognitive perspectives offers a more comprehensive framework for understanding how equivalence is achieved in literary contexts.

Practical Significance and Economic Efficiency. The study provides translators, educators, and students with practical guidance on how to achieve equivalence between English and Azerbaijani in literary translation by combining functional and cognitive approaches. This contributes to improving translation quality, fostering intercultural communication, and enriching translator training programs. At the same time, the application of these strategies enhances the value and marketability of translated literature, expanding readership and supporting the publishing industry. In this way, the research not only has academic and cultural relevance but also creates tangible economic benefits for the field of translation and literature.

Literature

1. Catford J. (1978), Linguistic Theory of Translation. Oxford Universiy Press.
2. Nida E.,Taber C. (1969 /1982), The Theory and Practice of Translation. Leiden:E.J.Brill.
3. Nida E. (1964). Toward a Science of Translating. Leiden:E.J.Brill
4. Newmark P. (1991). About Translation. Clevedon: Multilingual Matters.
5. Orwell G. "1984", Published by Alfred Knopf, New-York, London, Toronto, 1992, 325 p.

Qasımova A.
Rzayeva G.

İngilis–Azərbaycan bədii tərcüməsində ekvivalentlik məsələsi: funksional və kognitiv baxış

Xülasə

Məqalə ingilis–azərbaycan bədii tərcüməsində ekvivalentlik məsələsini funksional və kognitiv baxış bucağından araşdırır. E. Nidanın nəzəriyyələrinə əsaslanaraq Corc Oruellin "1984" əsərindən nümunələr təhlil olunur. Nəticələr göstərir ki, formal ekvivalentlik mənbə mətnin quruluşunu və terminologiyasını qoruyur, funksional ekvivalentlik isə ifadələri hədəf oxucuda eyni təsir yaratmaq üçün uyğunlaşdırır. Kognitiv yanaşma tərcüməçilərin konseptual xəritələşdirmə, problem həll etmə və mədəni sxemlər kimi zehni proseslərini önə çəkir. Araşdırma nəticəsində müəyyən olunur ki, funksional və kognitiv strategiyaların birgə tətbiqi mənanı, üslubu və estetik təsiri qorumağa, həmçinin səmərəli mədəniyyətlərarası ünsiyyətə xidmət edir.
Açar sözlər: ekvivalentlik, tərcümə, hədəf dil, ifadə etmək, məna, mənbə dil

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

РЗАЕВА Г.
ГАСЫМОВА А

ПРОБЛЕМА ЭКВИВАЛЕНТНОСТИ В АНГЛИЙСКО-АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРНОМ ПЕРЕВОДЕ: ФУНКЦИОНАЛЬНЫЙ И КОГНИТИВНЫЙ ПОДХОД

АННОТАЦИЯ

В статье рассматривается проблема эквивалентности в англо-азербайджанском художественном переводе с функциональной и когнитивной точек зрения. На основе теорий Ю. Найды анализируются примеры из романа Джорджа Оруэлла 1984. Результаты показывают, что формальная эквивалентность сохраняет структуру и терминологию исходного текста, тогда как функциональная эквивалентность адаптирует выражения для создания аналогичного эффекта у читателей целевого языка. Когнитивный подход подчеркивает мыслительные процессы переводчиков, такие как концептуальное картирование, решение проблем и культурные схемы. В заключение делается вывод, что сочетание функциональных и когнитивных стратегий помогает сохранить смысл, стиль и эстетическое воздействие оригинала, обеспечивая эффективную межкультурную коммуникацию.

Ключевые слова: эквивалентность, перевод, язык перевода, выражать, значение, язык оригинала

Rəyçi: f.e.d., prof. Azad Məmmədov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

QƏDİROVA GÜLÇÖHRƏ QƏDİR QIZI
MİRƏZYEVA AYSU ATAMOĞLAN QIZI
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail:gulchohra.gadirova@au.edu.az Aysu.Mirzayeva@au.edu.az

KORPUS DİLÇİLİYİNİN YARANMASI VƏ İNKİŞAFI: NƏZƏRİ VƏ PRAKTİKİ YANAŞMALAR

Xülasə

Məqalədə korpus dilçiliyinin tarixi inkişafı, nəzəri əsasları və tətbiq sahələri araşdırılır. Korpuslar vasitəsilə dilin real istifadəsi empirik metodlarla təhlil olunur. Tədqiqatda texnoloji yeniliklərin, o cümlədən süni intellekt və multimodal korpusların rolu vurğulanır. Korpus dilçiliyinin metodoloji əhəmiyyəti və gələcək perspektivləri ümumiləşdirilir.

Açar sözlər: korpus dilçiliyi, empirik yanaşma, texnologiya, annotasiya, tətbiq sahələri

1. GİRİŞ

Korpus dilçiliyi dil tədqiqatında müasir dövrdə ən mühüm metodoloji nailiyyətlərdən biri hesab olunur. Onun yaranması və inkişafı dilin elmi təsvirinə, mətnlərin sistematik təhlilinə və dilçilikdə empirik yanaşmaların tətbiqinə yeni imkanlar açmışdır. Bu tədqiqatın məqsədi korpus dilçiliyinin yaranmasını, inkişaf mərhələlərini, nəzəri əsaslarını, alətlərini və texnoloji vasitələrini, tətbiq sahələrini, müasir tendensiyalarını və metodoloji təsirlərini əhatəli şəkildə araşdırmaqdır [1, səh. 15].

Korpus dilçiliyi dilin istifadəsinə əsaslanan empirik yanaşmanı təmsil edir. Onun əsasında geniş mətn kolleksiyalarının sistematik toplanması, təsnifatı və kompüter vasitəsilə təhlili dayanır. Bu yanaşma dilin strukturunu, funksiyalarını və dəyişməsini real istifadə nümunələri əsasında öyrənməyə imkan verir [2, səh. 22].

Bu tədqiqat korpus dilçiliyinin həm nəzəri, həm də praktiki aspektlərini araşdıraraq dilçilik sahəsinə elmi töhfə verməyi hədəfləyir.

2. TARİXİ KONTEKST

Korpus dilçiliyinin tarixi XX əsrin ortalarına qədər uzanır. İlk korpus layihələrindən biri kompüter dəstəkli mətn təhlilinin əsasını qoyan Brown Korpusudur [3, səh. 7]. Sonrakı dövrdə Britaniya Milli Korpusu (BNC) və Müasir Amerika İngilis Dili Korpusu (COCA) kimi böyük korpuslar yaradılmışdır. Bu inkişaf korpus dilçiliyinin metodoloji imkanlarını genişləndirmiş və dil tədqiqatlarında empirik yanaşmanı daha da gücləndirmişdir.

Korpusların tarixi mərhələləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Əl ilə toplanmış kiçik korpuslar dövrü
- Kompüter dəstəkli korpusların inkişafı
- Müasir dövrdə veb-korpusların və multimodal korpusların yaranması

Bu mərhələlər korpus dilçiliyinin formalaşmasında texnologiyanın və metodologiyanın rolunu açıq şəkildə göstərir.

3. NƏZƏRİ ƏSASLAR

Korpus dilçiliyi nəzəri olaraq dilin istifadəsinə əsaslanan empirik yanaşmaya söykənir. Bu yanaşmanın əsas prinsipləri dilin real istifadəsini öyrənmək, mətn nümunələrinə əsaslanmaq və statistik analiz metodlarını tətbiq etməkdir [1, səh. 30].

1. Empirik Yanaşma

Korpus dilçiliyi dilin təsviri üçün empirik məlumatların toplanmasını və analizini əsas götürür. Bu yanaşma nəzəri dilçiliyi praktiki təhlillə birləşdirərək dilin struktur və funksional xüsusiyyətlərini öyrənməyə imkan verir. Empirik yanaşma dilin statistik nümunələrinə əsaslanaraq dilin qaydalarını və istifadə meyllərini müəyyən etməyə çalışır [2, səh. 35].

2. Teoriyalar və Modellər

Korpus dilçiliyi müxtəlif nəzəri modellərlə inteqrasiya olunur. Bunlar arasında ən çox istifadə edilənlər:

• Frekans təhlili — dil vahidlərinin istifadəsinin tezliyini öyrənmək üçün.
• Kollokasiya təhlili — sözlərin birlikdə istifadəsinin modellərini müəyyən etmək üçün.
• Açar söz təhlili — korpusda xüsusi terminlərin və ifadələrin əhəmiyyətini analiz etmək üçün [4, səh. 45].

3. Korpus Dilçiliyi və Dilçilik Nəzəriyyələri

Korpus dilçiliyi dilçilik nəzəriyyələrinə yeni perspektivlər təqdim edir. Məsələn, funksional dilçilik korpus məlumatlarından istifadə edərək dilin kommunikativ funksiyalarını və kontekstual istifadəsini təhlil edir. Həmçinin, konstruksion dilçilik (construction grammar) korpus dilçiliyinin empirik metodlarını nəzəri baza kimi istifadə edir [5, səh. 70].

4. KORPUS ALƏTLƏRİ VƏ TEXNOLOGİYASI

Korpus dilçiliyi yalnız nəzəri baza ilə məhdudlaşmır, həm də texnoloji alətlərin inkişafı ilə sıx bağlıdır. Müasir korpus tədqiqatlarında istifadə olunan alətlər və texnologiyalar dilçilərə böyük mətn həcmində dəqiq və sistemli analiz aparmağa imkan verir.

1. Korpus İdarəetmə Sistemləri

Korpus idarəetmə sistemləri mətnlərin toplanması, saxlanması, təsnifatı və analizini asanlaşdırır. Bu sistemlər arasında ən geniş istifadə olunanlar:

• AntConc — frekans analizləri və kollokasiya təhlili üçün.
• WordSmith Tools — mətnlərin konkordans və tezlik analizləri üçün.
• Sketch Engine — korpusların geniş spektrdə təhlilinə imkan verən güclü platformadır [6, səh. 95].

2. Annotasiya və Təsnifat

Annotasiya (mətin işarələmə) prosesi korpus dilçiliyində vacib mərhələdir. Annotasiya mətnin morfoloji, sintaktik və semantik səviyyələrdə işarələnməsini

təmin edir. Bu proses avtomatik və ya manual şəkildə həyata keçirilə bilər. Müasir annotasiya sistemləri NLP (Natural Language Processing) texnologiyaları ilə inteqrasiya olunur ki, bu da dilin daha dəqiq və sürətli təhlilini mümkün edir [7, səh. 125].

3. Multimodal Texnologiyalar

Müasir korpus dilçiliyi yalnız mətnə əsaslanmır, həm də multimodal məlumatların təhlilini əhatə edir. Multimodal korpuslar audio, video, şəkil və jestləri də əhatə edir ki, bu da dilin kontekstual və funksional istifadəsini daha dərindən öyrənməyə imkan verir [8, səh. 160].

4. Bulud Texnologiyaları və Böyük Məlumatlar

Bulud texnologiyaları və "big data" yanaşmaları korpus dilçiliyinə yeni imkanlar gətirmişdir. Böyük korpuslar (məsələn, COCA və Google Books Ngram Corpus) milyardlarla söz məlumatını ehtiva edir ki, bu da dilin diaxronik dəyişməsini və qlobal dil nümunələrini araşdırmağa imkan verir [9, səh. 200].

5. Gələcək Texnoloji Perspektivlər

Korpus dilçiliyinin gələcək inkişafı süni intellekt (AI) və maşın öyrənməsi texnologiyalarının korpus tədqiqatlarına inteqrasiyasına bağlıdır. Bu istiqamətdə inkişaflar annotasiya keyfiyyətini artıracaq, multimodal korpusların təhlilini genişləndirəcək və real vaxtda korpus yaradılmasına imkan verəcəkdir [7, səh. 305].

5. TƏTBİQLƏR

Korpus dilçiliyi yalnız nəzəri və metodoloji sahədə deyil, həm də praktiki tətbiqlərdə geniş istifadə olunur. Onun imkanları dil tədrisi, lüğətşünaslıq, tərcümə, diskurs təhlili, sosio-dilçilik və forensik dilçilik kimi sahələrdə əhəmiyyətli rol oynayır.

1. Lüğətşünaslıq və Lüğət Hazırlığı

Korpus dilçiliyi lüğətşünaslıqda sözlərin istifadəsini, tezliklərini və kollokasiya nümunələrini təhlil etmək üçün geniş istifadə olunur. Bu məlumatlar lüğətlərin hazırlanmasında əsas mənbə kimi xidmət edir [10, səh. 88]. Məsələn, korpuslardan əldə olunan data əsasında sözlərin mənaları, istifadə kontekstləri və nümunə cümlələri daha dəqiq müəyyən edilir.

2. Dil Tədrisi

Korpus dilçiliyi dil tədrisində müəllimlərə və tələbələrə real mətn nümunələri təqdim edərək dilin təbii istifadəsini öyrətmək imkanı verir. Learner corpora (tələbə korpusları) vasitəsilə dil öyrənənlərin səhvləri və istifadə nümunələri analiz edilərək tədris materialları hazırlanır [11, səh. 54]. Bu yanaşma dil tədrisində empirik əsaslı metodologiyanın tətbiqinə imkan yaradır.

3. Tərcümə Araşdırmaları

Korpus metodları tərcümə prosesində dilin struktur və üslub xüsusiyyətlərini analiz etmək üçün geniş istifadə olunur. Tərcümə korpusları müxtəlif dillərdə paralel mətnləri əhatə edərək tərcümə strategiyalarının və nümunələrinin araşdırılmasına şərait yaradır [4, səh. 79].

4. Diskurs Təhlili

Diskurs təhlilində korpus dilçiliyi geniş miqyasda mətnlərin strukturunu və dil modellərini təhlil etməyə imkan verir. Media diskursu, siyasi nitq, elmi mətnlər kimi sahələrdə korpus analizləri diskursun struktur və funksional xüsusiyyətlərini açır [12, səh. 110].

5. Sosio-Dilçilik və Forensik Dilçilik

Sosio-dilçilikdə korpuslar dilin sosial kontekstlərdə istifadəsini araşdırmaq üçün istifadə olunur. Forensik dilçilikdə isə hüquqi mətnlər və danışıq materiallarının korpus təhlili hüquqi məsələlərdə sübut kimi istifadə olunur [13, səh. 142].

NƏTİCƏ

Bu tədqiqat korpus dilçiliyinin yaranması, inkişaf mərhələləri, nəzəri və metodoloji əsasları, texnoloji imkanları və tətbiq sahələrini əhatəli şəkildə araşdırmışdır. Korpus dilçiliyi müasir dilçilikdə empirik yanaşmanın əsas dayaqlarından biri kimi çıxış edir və dilin real istifadəsinə əsaslanan təhlillərlə elmi araşdırmaların obyektivliyini və etibarlılığını artırır.

Tədqiqatın nəticələri göstərir ki, korpusların dizaynı, annotasiya prosesləri və statistik analiz metodları dilin struktur və funksional xüsusiyyətlərinin daha dərindən öyrənilməsinə imkan yaradır. Nəzəri baxımdan bu yanaşma dil modellərinin və konseptual çərçivələrin formalaşmasına töhfə verir. Praktik sahələrdə isə korpus metodologiyası lüğətşünaslıq, tərcümə, dil tədrisi, diskurs və forensik təhlil kimi müxtəlif istiqamətlərdə effektiv şəkildə tətbiq olunur.

Müasir tendensiyalar, o cümlədən süni intellekt, maşın öyrənməsi, multimodal və çoxdilli korpuslar sahənin inkişafını sürətləndirməklə, dilçilikdə yeni araşdırma imkanları yaradır. Bu texnoloji və metodoloji yeniliklər korpus dilçiliyinin yalnız indiki deyil, həm də gələcək dil tədqiqatlarında əsas rol oynayacağını göstərir.

ƏDƏBİYYAT

1. Atkins, B. T. S., & Rundell, M. (2008). *The Oxford Guide to Practical Lexicography*. Oxford University Press.
2. Baker, M. (1993). *Corpus Linguistics and Translation Studies: Implications and Applications*. In M. Baker, G. Francis, & E. Tognini-Bonelli (Eds.), *Text and Technology* (pp. 233-258). John Benjamins.
3. Baker, P., Gabrielatos, C., & McEnery, T. (2013). *Discourse Analysis and Media Attitudes: The Representation of Islam in the British Press*. Cambridge University Press.
4. Biber, D., Conrad, S., & Reppen, R. (1998). *Corpus Linguistics: Investigating Language Structure and Use*. Cambridge University Press.
5. Coulthard, M., & Johnson, A. (2007). *An Introduction to Forensic Linguistics: Language in Evidence*. Routledge.
6. Francis, W. N., & Kučera, H. (1964). *Brown Corpus Manual*. Brown University.

7. Goldberg, A. E. (2006). *Constructions at Work: The Nature of Generalization in Language*. Oxford University Press.

8. Granger, S. (2009). *Learner Corpora*. In A. Lüdeling & M. Kytö (Eds.), *Corpus Linguistics: An International Handbook* (pp. 259-275). Mouton de Gruyter.

9. Hunston, S. (2002). *Corpuses in Applied Linguistics*. Cambridge University Press.

10 Jurafsky, D., & Martin, J. H. (2021). *Speech and Language Processing* (3rd ed. draft). Available at https://web.stanford.edu/~jurafsky/slp3/

11. Kilgarriff, A., et al. (2014). *The Sketch Engine: Ten Years On*. Lexicography, 1(1), 7-36.

12. Michel, J.-B., et al. (2011). *Quantitative Analysis of Culture Using Millions of Digitized Books*. Science, 331(6014), 176-182.

1. 13. O'Halloran, K. L., Tan, S., & Smith, B. A. (2016). *Multimodal Corpus Linguistics: A New Frontier*. Routledge.

Gadirova G.
Mirazyeva A.

THE EMERGENCE AND DEVELOPMENT OF CORPUS LINGUISTICS: THEORETICAL AND PRACTICAL APPROACHES

Abstract

The paper examines the development, theory, and applications of corpus linguistics. It highlights how real language use is analyzed through empirical methods. The role of new technologies, including AI and multimodal corpora, is discussed. The methodological importance and future outlook of corpus linguistics are summarized.

Keywords: corpus linguistics, empirical approach, technology, annotation, applications

Гадирова Г.
Миразиева А.

ВОЗНИКНОВЕНИЕ И РАЗВИТИЕ КОРПУСНОЙ ЛИНГВИСТИКИ: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПОДХОДЫ

Резюме

В статье рассматривается история, теоретические основы и области применения корпусной лингвистики. Анализируется использование эмпирических методов для изучения языка на основе реальных текстов. Отдельное внимание уделяется роли новых технологий, включая искусственный интеллект и мультимодальные корпуса. Обобщается методологическая значимость и перспективы развития корпусной лингвистики.

Ключевые слова: корпусная лингвистика, эмпирический подход, технологии, аннотирование, применение

Rəyçi: f.e.d., professor, Azad Yəhya oğlu Məmmədov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

AĞAYEVA KÖNÜL
QAZIYEVA AYTAC
Azərbaycan Universiteti,
Bakı ,Azərbaycan
Konul.Aghayeva@au.edu.az
Mammadovaay45@gmail.com

XARİCİ DİLİN TƏDRISINDƏ ANA DILININ ROLU VƏ MƏHDUDIYYƏTLƏRI

XÜLASƏ

Xarici dil tədrisində hədəf dilin əsas ünsiyyət vasitəsi kimi istifadəsi mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, ana dilinin də xarici dil siniflərində müəyyən funksional rolu mövcuddur. Ənənəvi tədris təcrübəsində müəllimlərin əksəriyyəti uzun müddət ərzində ana dildən istifadə etmiş, lakin bu istifadənin səbəblərini, üstünlüklərini və məhdudiyyətlərini kifayət qədər araşdırmamışdır.

Bizim tədqiqatımızın əsas məqsədi xarici dil dərslərində ana dildən istifadənin səbəblərini müəyyənləşdirmək, onun pedaqoji faydalarını və mümkün mənfi təsirlərini araşdırmaqdan ibarətdir.

Bu tədqiqatın nəticələrinin xarici dil müəllimlərinə öz pedaqoji fəaliyyətlərində ana dilindən istifadənin şüurlu və ya qeyri-şüurlu səbəblərini dərk etməkdə kömək edəcəyi gözlənilir. Bu səbəbləri anlamaqla, müəllimlər sinif idarəçiliyi strategiyalarını daha məqsədyönlü şəkildə quraraq, ana dildən istifadənin tezliyini azaltmaqla yanaşı, onu zəruri hallarda səmərəli bir vasitə kimi tətbiq edə bilərlər.

Açar sözlər: Xarici dil, hədəf dil, ana dili

AGAYEVA KONUL
QAZIYEVA AYTAJ

THE ROLE AND LIMITATIONS OF THE MOTHER TONGUE IN FOREIGN LANGUAGE TEACHING

ABSTRACT

The use of the target language as the main means of communication in foreign language teaching is of great importance. However, the mother tongue also plays a certain functional role in foreign language classrooms. In traditional teaching practice, most teachers have used the mother tongue for a long time without sufficiently examining the reasons, advantages, and limitations of this use.

The main aim of our research is to identify the reasons for using the mother tongue in foreign language lessons and to explore its pedagogical benefits as well as its possible negative effects.

It is expected that the results of this study will help foreign language teachers to understand the conscious and unconscious reasons for using the mother tongue in their pedagogical practice. By understanding these reasons, teachers can structure their classroom management strategies more purposefully and, while reducing the frequency of mother tongue use, apply it effectively as a necessary tool when appropriate.

Keywords: Foreign language, target language, mother tongue.

РОЛЬ И ОГРАНИЧЕНИЯ РОДНОГО ЯЗЫКА В ПРЕПОДАВАНИИ ИНОСТРАННОГО ЯЗЫКА

РЕЗЮМЕ

Использование целевого языка в качестве основного средства общения при обучении иностранным языкам имеет большое значение. Однако родной язык также играет определённую функциональную роль на занятиях по иностранному языку. В традиционной педагогической практике большинство преподавателей на протяжении долгого времени использовали родной язык, не анализируя в достаточной мере причины, преимущества и ограничения такого использования.

Основная цель нашего исследования заключается в определении причин использования родного языка на уроках иностранного языка, а также в изучении его педагогических преимуществ и возможных негативных последствий.

Ожидается, что результаты данного исследования помогут преподавателям иностранных языков осознать как сознательные, так и бессознательные причины использования родного языка в своей педагогической деятельности. Понимая эти причины, преподаватели смогут более целенаправленно выстраивать стратегии управления учебным процессом и, снижая частоту использования родного языка, применять его эффективно в необходимых случаях.

Ключевые слова: иностранный язык, целевой язык, родной язык.

Giriş

Müasir dövrdə qloballaşma və mədəni inteqrasiya prossesi nəticəsində xarici dillərin öyrənilməsi getdikcə daha da aktuallaşır. Xarici dil tədrisinin əsas məqsədi tələbələrin kommunikativ bacarıqlarını inkişaf etdirmək və onları hədəf dildə sərbəst ünsiyyət qurmağa hazırlamaqdır. Bu baxımdan, hədəf dilin dərs prosesində əsas ünsiyyət vasitəsi kimi istifadə edilməsi geniş qəbul olunmuş yanaşmadır.

Lakin pedaqoji təcrübə göstərir ki, ana dilinin də xarici dilin öyrədilməsində müəyyən funksional rolu vardır. Bir çox müəllimlər dərs prosesində şüurlu və ya qeyri-şüurlu şəkildə ana dilindən istifadə edir, lakin bu istifadənin səbəblərini,

üstünlüklərini və məhdudiyyətlərini hər zaman nəzərə almırlar. Araşdırmalar göstərir ki, ana dili bəzən çətin mövzuların izahında, yeni qrammatik qaydaların təqdimatında və ya təlimatların aydınlaşdırılmasında öyrənənlər üçün mühüm dəstək rolunu oynayır. Digər tərəfdən isə ana dilindən həddindən artıq istifadə tələbələrin hədəf dildə ünsiyyət bacarıqlarını məhdudlaşdıra və öyrənmə motivasiyasına mənfi təsir göstərə bilər.

Bu mövzu üzərində aparılan elmi müzakirələr göstərir ki, əsas məsələ ana dilinin tamamilə qadağan olunması və ya geniş tətbiqi deyil, onun istifadəsində balansın qorunmasıdır.

Müəllimlərin məqsədyönlü şəkildə ana dilindən istifadəsi öyrənmə prosesini asanlaşdıra, həm də tələbələrin hədəf dildə sərbəstliyini inkişaf etdirməyə şərait yarada bilər.

Bu araşdırmanın məqsədi xarici dil dərslərində ana dilinin istifadəsinin səbəblərini müəyyənləşdirmək, onun pedaqoji üstünlüklərini və məhdudiyyətlərini təhlil etməkdir. Araşdırmanın nəticələri dil müəllimlərinə öz pedaqoji təcrübələrini nəzərdən keçirmək, sinif idarəçiliyini təkmilləşdirmək və ana dilindən istifadənin tezliyini optimallaşdırmaq üçün praktik tövsiyələr təqdim edə bilər.

1. Ana dilinin istifadəsinin faydaları

Xarici dil dərslərində ana dilinin istifadəsi uzun müddət mübahisə mövzusu olmuşdur. Ənənəvi yanaşmalarda hədəf dilin maksimum istifadəsi vacib hesab edilsə də, bir çox tədqiqatçılar və pedaqoqlar ana dilinin müəyyən hallarda öyrənmə prosesinə müsbət təsir göstərdiyini vurğulamışlar. Aşağıda ana dilinin istifadəsinin əsas faydaları qeyd olunur:

a. Mürəkkəb anlayışların izahı

Xarici dilin qrammatik strukturlarını və ya abstrakt anlayışlarını bəzən yalnız ikinci dil ilə izah etmək çətin ola bilər. Bu zaman ana dilinin istifadəsi şagirdlərə mövzunu daha tez qavramağa imkan yaradır və öyrənmə prosesini sürətləndirir.

b. Öyrənmədə təhlükəsizlik və rahatlıq hissi

Tamamilə yad dil mühitində olan tələbələr bəzən psixoloji çətinliklər yaşayır. Müəyyən hallarda ana dilindən istifadə onlarda emosional rahatlıq yaradır, öyrənmə prosesinə inam və motivasiyanı artırır.

c. Təlimatların aydınlaşdırılması

Müəllimin verdiyi tapşırıq və ya təlimat bəzən ikinci dildə tam başa düşülməyə bilər. Bu zaman qısa şəkildə ana dilində izah edilməsi vaxt itkisini aradan qaldırır və dərsin gedişatını asanlaşdırır.

d. Qarşılıqlı müqayisə və transfer

Ana dili ilə hədəf dil arasında müqayisə aparmaq tələbələrə yeni strukturları daha yaxşı anlamağa kömək edir. Bu, həm qrammatik qaydaların, həm də lüğət ehtiyatını yadda saxlanmasını gücləndirir.

Ümumilikdə, ana dilinin istifadəsi öyrənənlərin dil baryerini aşa bilməsi, dərs prossesini daha yaxşı qavraması və öyrənməyə motivasiyasının artması baxımından əhəmiyyətli bir vasitə kimi çıxış edir.

2. Ənənəvi metod və müasir yanaşmalar.

Xarici dilin tədrisində ana dilindən istifadə məsələsi tarix boyu müxtəlif metodoloji yanaşmalarda fərqli şəkildə qiymətləndirilmişdir. Ənənəvi metodlarda ana dilinin istifadəsi geniş yer alsa da, müasir kommunikativ yanaşmalar hədəf dilin üstünlüyünü ön plana çıxarmışdır.

Ənənəvi metodlar

Qrammatika–Tərcümə Metodu (Grammar-Translation Method)

Bu metod XIX əsrin sonuna qədər Avropa məktəblərində dominant olmuşdur. Əsas məqsəd qrammatik qaydaların öyrədilməsi və mətnlərin tərcüməsi idi. Burada ana dili əsas vasitə rolunu oynayır, şagirdlər öyrəndikləri sözləri və strukturları daim ana dilinə çevirirdilər. Bu yanaşma tələbələrin yazılı tərcümə bacarığını inkişaf etdirirdi, lakin danışıq və ünsiyyət qabiliyyətini məhdudlaşdırırdı.

Audiolingval metod

XX əsrin ortalarında ABŞ-da geniş yayılmış bu metod təkrar və drill məşqlərinə əsaslanırdı. Bu yanaşmada ana dilinin istifadəsi minimuma endirilsə də, bəzi hallarda qrammatik izah üçün ana dildən faydalanılırdı.

Müasir yanaşmalar

Kommunikativ Dil Tədrisi (Communicative Language Teaching – CLT)

Müasir dövrdə ən çox qəbul edilən yanaşmalardan biri kommunikativ metoddur. Burada əsas məqsəd tələbələrin real ünsiyyət bacarığını inkişaf etdirməkdir. Ana dilinin istifadəsi minimuma endirilsə də, bəzi tədqiqatçılar qrammatik izah və təlimatlarda ana dili məhdud şəkildə istifadənin faydalı ola biləcəyini qeyd edirlər.

Translanguaging yanaşması

Son illərdə formalaşan translanguaging yanaşması tələbələrin çoxdilli resurslarını nəzərə alaraq ana dili və hədəf dili arasında çevik keçidlər etməyə imkan yaradır. Bu yanaşmada ana dilinin istifadəsi qadağan edilmir, əksinə, öyrənməni gücləndirən əlavə vasitə kimi qəbul olunur.

Beləliklə, ənənəvi metodlar ana dilinə daha çox üstünlük vermiş, müasir yanaşmalar isə hədəf dilin istifadəsini əsas götürmüşdür. Son dövr tədqiqatları göstərir ki, ana dilinin tamamilə qadağan olunması səmərəli deyil; əsas məsələ onun balanslı və məqsədyönlü istifadəsidir.

3. Ana dilinin istifadəsinin məhdudiyyətləri

Xarici dilin tədrisində ana dilindən istifadənin müəyyən üstünlükləri olsa da, onun həddindən artıq tətbiqi öyrənmə prosesinə mənfi təsir göstərə bilər. Müasir metodoloji yanaşmalar hədəf dilin əsas kommunikasiya vasitəsi olmasını vacib hesab edir. Aşağıda ana dilinin istifadəsinin əsas məhdudiyyətləri qeyd olunur:

Hədəf dilin istifadəsinin azalması

Dərs prosesində ana dilindən geniş istifadə şagirdlərin hədəf dili ilə təcrübəsini məhdudlaşdırır. Bu isə onların danışıq bacarıqlarının və ünsiyyət vərdişlərinin zəif inkişaf etməsinə səbəb ola bilər.

Asılılıq yaratması

Şagirdlər hər çətinliklə üzləşdikdə müəllimdən ana dilində izah gözləməyə meyllənirlər. Bu, onların hədəf dildə müstəqil düşünmə və ifadə etmə qabiliyyətini azalda bilər.

Kommunikativ bacarıqların zəifləməsi

Xarici dilin öyrənilməsində əsas hədəf ünsiyyət bacarığıdır. Ana dilinin tez-tez istifadəsi öyrənənləri real kommunikativ vəziyyətlərə hazırlamaq baxımından məhdudlaşdırır.

Motivasiyanın azalması

Şagirdlər dərs prosesində daim ana dilindən istifadə edərsə, hədəf dildə ünsiyyət qurmaq üçün motivasiya azala bilər. Bu, öyrənməyə marağı zəiflədə bilər.

Dil qarışıqlığı (interferensiya)

Həddindən artıq ana dili istifadəsi şagirdlərin qrammatik və leksik səhvlərə meylli olmasına gətirib çıxara bilər. Bu, xüsusilə sintaksis və fonologiya sahəsində daha çox müşahidə olunur.

Dərs prosesinin səmərəsizliyi

Hər bir izahın ana dildə verilməsi zaman itkisinə səbəb olur və dərsin dinamikliyini azalda bilər.

Ümumilikdə, ana dilinin istifadəsi tamamilə qadağan edilməsə də, onun məqsədyönlü və məhdud şəkildə tətbiqi daha faydalı hesab olunur. Hədəf dilin dərs mühitində əsas ünsiyyət vasitəsi kimi qalması şagirdlərin real kommunikativ bacarıqlarının formalaşmasında mühüm rol oynayır.

Xarici dilin tədrisində ana dilinin istifadəsi həm üstünlükləri, həm də məhdudiyyətləri ilə seçilir. Tədqiqat və nəzəri yanaşmalar göstərir ki, ana dilinin tamamilə qadağan olunması öyrənmə prosesinə mənfi təsir göstərə bilər, eyni zamanda onun həddindən artıq istifadəsi də hədəf dilin öyrənilməsini ləngidə bilər. Buna görə də ən optimal yanaşma ana dilinin məqsədyönlü, balanslı və məhdud şəkildə istifadəsidir.

Ana dilinin istifadəsinin faydaları sırasında mürəkkəb anlayışların tez izahı, öyrənənlərdə psixoloji rahatlığın yaradılması, vaxtın səmərəli istifadəsi və yeni biliklərin daha yaxşı qavranılması qeyd edilə bilər. Lakin həddindən artıq ana dilinin istifadəsi şagirdlərin hədəf dilə asılılığını artırır, onların kommunikativ bacarıqlarını zəiflədir və motivasiyanı azalda bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. İnternational Journal of English Language Teaching Vol.5, No.8, səh. 27-36, Noyabr
2. 4th International Conference on modern research in Education, Teaching and Learning. 22-24 Aprel 2022. Səh 5-16
3. Harmer, J (2001), The Practice of English language teaching (3rd edition) UK. Pearson education limited
4. Larsen –Freeman, D.(2000). Tecniques and principles in language teaching , New York. Oxford University Press. Səh 101-102
5. Nation, P. (2003) The role of the first language in foreign language learning. The Asian EFL Journal, 5(2)

Rəyçi: f.ü.f.d. Ləman Qasımlı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ——————

Associated professor E.A. SHAHGALDIYEV
e-mail: eldar.shahgaldiyev@au.edu.az
https://orcid.org/0009-0004-3726-5552
O.A.ISMAYIL
e-mail: ogtay.ismayil@au.edu.az
https://orcid.org/0000-0001-6955-9978
Azerbaijan University
(Baku, Nasimi district, Jeyhun Hajibeyli street 71)

PROBLEMS OF TEXT TRANSLATION AS A PROCESS OF COMMUNICATION AND A SOURCE TEXT ADAPTATION

Abstract. *The paper examines the specific traits of text translation as a means of communication and analyses the techniques of adapting to the source text. It distinguishes the boundaries of a text from those of the sets, as words, phrases and sentences. It is deemed that text translation involves various aspects of a language, where intercultural communication usually assumes a high priority. The authors present a substantial number of examples from both local and international sources to substantiate the techniques of text structure formation, highlighting the complexity and significance of these processes. The paper also underlines the properties of individual cultures, making it indispensable for global understanding. Apart from the structural analysis of the texts, the process also covers different methods of translation, based on text, natural and cohesive levels.*

The paper proves that text translation mainly targets the interlingual cultural treasures contained in the history of world literature. In-text translation multilingual community exchanges the rhetorical strategy to adapt information contained in the source text (ST) to an international context through the individual target texts (TT). Unlike the isolated sets, texts usually have a certain coherent meaning, aiming to reach broader information. The article researches 10 major integrated peculiarities of texts and puts forward the new qualitative approach that argues that TT content in translation is elusive from the view of impact on the translated context. These features are bound with the differences of walk of life, historical and cultural backgrounds, the conditions of social relations and some other imminent aspects. Nowadays, there are two common methods for adapting the TT to the ST. One of them is localising the TT to socially and culturally adapt its context to the ST. "Localisation aims to address linguistic and cultural expectations of specific cultures in specific contexts" (page 6). It is regarded that localisation and globalisation are the two main ways for keeping quite close to the source text; however, it rests with the translator to be selective in their choice.

Finally, the article also brings examples from individual choice-making comparisons for a better understanding of the audience.

Key words: *text translation, text boundaries, intercultural communication, source text adaptation, localisation*

Açar sözlər: *mətnin tərcüməsi, mətn sərhədləri, mədəniyyətlərarası ünsiyyət, mənbə mətnin adaptasiyası, lokalizasiya*

Ключевые слова: *перевод текста, границы текста, межкультурная коммуникация, адаптация оригинального текста, локализация*

Text translation involves conveying a written message from one language into another, carefully maintaining cross-cultural distinctions. It is not simply about single words or sentences, but about interconnected passages forming a coherent whole. Translation is a form of communication essential for preserving culture-sensitive exchanges among nations. Many foreign scholars, such as, N. Chomski, G. Lackoff, Sukmaningrum, R., Nababan M., Santosa R., Supana as well as the Azerbaijani scientists K.M. Abdullayev, A.A. Abdullayev and others investigated the problems of text and interpretation as cultural communication, the issues of adapting to a source text structure formation, highlighting the complexity and significance of the processes. For example, N. A. Chomski much relies on "semantically-based theories" [4, pp.33-35], while revealing out the text meanings, whereas G. Lackoff stressed out "one conjunct of a coordinate structure as rule of the structures" [8, p.163] to be essential for the difference of meaning. Contemporary Indonesian scholars Sukmaningrum, R., Nababan M., Santosa R., Supana gave a great significance to "cultural element" in the application of adaptation technique [10, p.1100]. Professor K. M.Abdullayev proposes "the criteria for determining the boundaries of a text, probably based on the linguistic features of the Azerbaijani language" [2, c.33-34], and A. A. Abdullayev in his book dedicated to text analysis mentions that "semantically based texts usually include the internal and superficial structures" [1, s.163].

We think that, if all cultures were completely identical, then translation challenges would not exist, and there would be a little need for individual cultural perspectives or cross-cultural and multilingual communication. The uniqueness of each culture necessitates translation be indispensable for global understanding. Speaking on this, K Zimbakova highlights "a high importance of constraints of translation, which are not only linguistic but also stylistic, genre-determined, cultural, political, historical, philosophical,pragmatic, etc." [11, p.106].

Text translation, generally, enables intercultural communication to suite the diverse cultures. This role is crucial to fostering understanding among different people. From the other side, in written translation, the multilingual community usually exchanges the rhetorical strategy in an unnoticed way. Speaking about the principal objectives of such translation, the Azerbaijani professor I. Kazimov

distinguishes the following features peculiar to it. He writes that, it is designed: "1) to convey to the reader the living characteristics, customs and traditions, level of cultural development, and thoughts of the people; 2) to preserve the author's style as much as possible; 3) to achieve the originality of the means of artistic expression in the original, while preserving national characteristics, finding appropriate counterparts, and changing space and time; 4) to adhere to the integrity of meaning and content, and never to allow the general spirit and content of the original to be violated or distorted; 5) to preserve the language and speech style of the characters in the original" [7, s.7-8]. So, whatever to be, translation mainly targets the interlingual cultural treasures of world literature. It usually mutually enriches the process of spreading human culture among many people. Such a situation, subsequently, has played a decisive role in the rise of the moral and spiritual world while rigorously integrating the individual cultures.

One should bear in mind that, there is a difference between the sets, as words, phrases, sentences, and texts. In fact, text has the following features to be distinguished from the isolated communication sets:

1.Text has a closely bound set of sentences with a certain coherent meaning, pursuing to reach broader information to the audience than it is contained in a single sentence; however, this condition can also be argumentative in relation to longer or "loaded" sentences with structural complexities similar to the text.

2.Though text consists of a set of scenes or sentences, its core idea is usually preserved;

3. There is always a leading sentence in a text which constitutes its basis, and if we take out any word from these sentences, we will cause a violation of the coherence, which is against the rule of "sine qua non" (mandatory or very necessary element that cannot be eliminated);

4. All elements within text are closely interrelated with each other, not only from the morphological, syntactical, and other grammatical views, but also from semantic seams considering certain time and space chains and contextual coherence;

5. Today, there is no unanimous opinion among linguists about the types of texts. However, the expository, narrative, opinion, descriptive, reportive, argumentative, media, and review text types (but not limited to them) are more common nowadays;

6. Structural bounds in Azerbaijani and English texts are not similar because of different word order, grammatical settings, and other syntactical distinctions; that is why translation of the English text into Azerbaijani should focus much more on the processes rather than on meanings;

7. For a better understanding of a text, one needs to comprehend the integral parts of sentences in it; it will be much easier if a reader can identify the core sentence, assuming the main idea of the text;

8.In order to identify the semantics of a text, along with the main words, the supplementary words, intonation, punctuation, and other secondary elements play a significant role in a text .

9.Separate sentences included in the texts are also considered the connectors of texts;

10.Texts may contain the linguistic and extra linguistic circumstances which sometimes may make the texts too much elusive. They include the factors beyond the literal words and grammar structures which may have a great deal of impact on the translated context because, as mentioned before, the differences of walk of life, historical and cultural backgrounds, the conditions of social relations and some other necessary aspects which are imminent to this element.

Coming to the methods of translation, P. Newmark has identified its 4 types: " (1) the SL text level, the level of language, where we begin and which we continually (but not continuously) go back to; (2) the referential level, the level of objects and events, real or imaginary, which we progressively have to visualize and build up; (3) the cohesive level, which is more general, and grammatical, which traces the train of thought, the feeling tone (positive or negative) and the various presuppositions of the SL text; (4) the level of naturalness, of common language appropriate to the writer or the speaker in a certain situation" [7, p.19] In our opinion, judging the essential substantiation of these methods, we may much refer them to the cognitive aspects of the translation process rather than to linguistic aspects. However, distinguishing the grammatical, communicative, and non-communicative aspects of the translation process makes this classification more comprehensive. Our position rests on the text translation process that involves merely two broader aspects of language. 1.communicative; 2. non-communicative. The first rank encompasses the denotative aspects of language, whereas the second scale includes the connotative aspects of language. Thus, text translator usually struggles with (1) the words' and phrases' meaning, with their dictionary transference (denotative), and (2) with their figurative, situational, emotional, and cultural adequacy. In the first aspect text translation faces with the discrepancies of the words' abundance between the source and target languages (SL/TL), however, the second element is much related with the ability of translator's recreation.

Problems of adaptation to the source text

A public speaking coach from the USA Larry Gleason writes: "There are two methods of preparing a text for scene study or rehearsal: intuitive and analytical" [5, p.1]. The intuition of the translator, to our mind, text translation embraces the inseparable part of cognitive skills, that is why the quality of necessary changes that may be able to fix the expected gaps are too much dependent mainly on two factors: 1. On the cognitive grasp the context of text; 2. It is also associated with the complexity of a source text.

Focusing on the average recipient, the translator takes into account that a message that is perfectly understandable to readers of the original may be incomprehensible to recipients of the translation due to their lack of the necessary background knowledge. That is why translator should not only consider the syntactical and lexical structures of the texts, but also their situational references. For this reason, almost all translators are unanimous that linguistic and cultural adaptability play a significant role in the interaction between the ST and TT.

Languages do not follow the same structures in terms of grammar and language family. Hence, the morphological, lexical, and syntactic peculiarities of the text can also greatly differ from each other. Actually, this part is also one of the shortcomings of machine translation (MT) and artificial intelligence (AI). Word order, pacing, and home styles are inevitable to consider in adapting the translation to the source material. Adaptations often include contractions, enlargement, and reconstruction of the ST to be suitable for the TT. Apart from this, during the localisation process, translators also have to consider the geographical and cultural significance of contexts, as well as national and cultural vocabulary. From this viewpoint, among all 4 included elements (cultural, ideological, collocation and literary) cultural adaptation (see: Figure 1) occupies a special place among the factors in adaptation to the target text. [10, p.1100]



Figure 1. The Application of Adaptation Technique

Nowadays, there are two common methods for adapting the TT to the ST. One of them is localising the TT to socially and culturally adapt its context to the ST. “Localization aims to address linguistic and cultural expectations of specific cultures in specific contexts” [6, p. 272].

While using this method, translator usually mobilizes a wide range of skills and knowledge to better fit the original text. A part of scientists write that, “the term “localisation”, which has taken a firm place in translation practice, is still interpreted in two ways: in a broad sense, localisation is the process of adapting a

text to the cultural space of another language [Levitsky, 2019]; a narrower understanding partially coincides with the existing concept of "free translation", "translation-arrangement", when the text of the translation is adapted to the realities of the host culture" [3, c.31].

The other one is globalising the TT to fit to the general context of the ST. It means the translator uses the best-fit words and structures to keep the adequacy of translation, while not necessarily translating all elements contained in the ST.

Scientific result of the work. The article enlightens major events in text translation related to the varieties of text types and their intercultural characters. Besides this, it puts forward the necessity to consider the method of translation by the translators. For this reason, the article offers to be well-acquainted with the 10 distinct peculiarities of text translation which distinguish texts form other sets of sentences or expressions. A pro-requisite knowledge about these traits eases the work of translator and helps them to produce a better-quality production.

Scientific novelty of the work is connected with the proposal of considering communicative and non-communicative reliance in text translation.

The practical significance of the work. The article can be used by a wide range of translators in adopting their approaches to the different types of text contexts. It may also be useful in text interpretation while considering the role of "localisation" and adaptability of TT to ST and comparing various sociocultural worldviews inherent to different communities.

Literature

1.Abdullayev, A.Ə. Aktual üzvlənmə və mətn /A.Ə.Abdullayev, Bakı: Xəzər Universiteti, 1998, 190 s.

2.Abdullayev, K. M. Об одном критерии определения границ текста в азербайджанском языке // -Баку, Советская тюркология, 1987. No 3, с. 31-38

3.Bogatikova Y. Локализация учебного текста как проблема межкультурной и переводческой адаптации. -January, 2020 /Conference: Язык: категории, функции, речевое действие: материалы XIII международной научной конференции. -16-17 апреля 2020 г. Коломна: в 2-х ч. Ч. 1 -Коломна: ГСГУ. Москва: МПГУ. 31-35 p

4.Chomski, A.N. Deep Structure. Surface Structure and Semantic interpretation/ A.N. Chomski, - USA: Indiana University, 1969, 51 p.

5.Gleason, L. Text Analysis. Work Book.Text Analysis 1st Year Class Work Circle In The Square Professional Workshop Overview// L. Gleason -USA,Larry Gleason ©2024, 23 p. [Electronic resource.// URL: https://www.larrygleason.com/actingcoach/textanalysis/]

6.Gonzales L.Zantjer R.Translation as a User-Localization Practice //Technical Communication Volume 62, Number 4, November 2015 -USA, Michigan State University, 271-284 p.

7.Kazimov I. "Tərcümənin nəzəri və praktiki prinsipləri (filologiya üzrə fəlsəfə doktoru R.R.Əliyev) /525-https://www.anl.az/down/meqale/525/2018/iyul/599484.htmci qəzet. 2018, 13 iyul, s.7-8

8.Lackoff G. Linguistics and natural logics. //University of Michigan, Studies in Generative Semantics 1970, no. 1

9.Newmark, P. A Textbook on Translation/ P. A. Newmark, -Prentice Hall, New York, 1988, p.292

10. Sukmaningrum, R., Nababan M., Santosa R., et.al Adaptation as a means in translating non-standard English into Suroboyoan dubbed version // Journal of Language and Linguistic Studies, 18 (Special Issue 2), 2022, p.1096-1110

11. Zimbakova K Jean Boase-Beier & Michael Holman (eds.): The practices of literary translation: constraints and creativity. // Routledge. Babel, Volume 51, Issue 1, Jan 2005, p. 106 - 109

E. Ə. Şahgəldiyev
O. A. İsmayıl

Mətn tərcüməsi kommunikasiya və mənbə mətninə adaptasiya olunma problemi kimi

Xülasə

*Məqalədə mətn tərcüməsinin bir ünsiyyət vasitəsi kimi spesifik xüsu*siyyətlərindən bəhs edilir və mənbə mətnə adaptasiya olunma üsulları təhlil edilir. Mətnin hüdudları onu müxtəlif birləşmələrdən sözlərdən, ifadələrdən və cümlələrdən fəqləndirir. Qeyd olunur ki, mətn tərcüməsi bir dilin müxtəlif aspektlərini əhatə edir və burada mədəniyyətlərarası ünsiyyət adətən yüksək prioritet təşkil edir. Müəlliflər mətn strukturunun formalaşması yollarını əsaslandırmaq, proseslərin mürəkkəbliyini və əhəmiyyətini vurğulamaq üçün yerli və xarici mənbələrdən çoxlu nümunələr gətirirmişlər. Bununla yanaşı, məqalədə fərdi mədəniyyətlərin qlobal anlaşma üçün əvəzsiz olmasını zəruri edən xüsusiyyətləri də vurğulanmışdır. Proses, struktur təhlilindən başqa, həm də mətnin tekstual, təbii və əlaqəli səviyyələr kimi müxtəlif tərcümə üsullarını da özündə cəmləşdirir.

Məqalə göstərir ki, mətn tərcüməsi əsasən dünya ədəbiyyatı tarixində olan dillərarası mədəniyyət sərvətlərini özünə hədəf seçir. Mətn tərcüməsində çoxdilli icma mənbə mətndə (MM) olan məlumatı fərdi hədəf mətnlər (HM) vasitəsilə beynəlxalq konteksə uyğunlaşdırmaq üçün ritorik strategiya mübadiləsi aparırlar. Təcrid olunmuşcümlə və müxtəlif birləşmələrdən fərqli olaraq, mətnlər, adətən, daha geniş məlumat əldə etməyi hədəfləyən müəyyən ardıcıl mənaya malikdir.

Məqalədə mətnlərin 10 əsas inteqrasiya olunmuş xüsusiyyətləri araşdırılır və tərcümədə HM məzmununun tərcümə edilmiş kontekstə təsiri baxımından çətin olduğunu iddia edən yeni keyfiyyət yanaşması irəli sürülür. Bu xüsusiyyətlər həyat tərzinin fərqliliyi, tarixi və mədəni mənşə, ictimai münasibətlərin şərtləri və bəzi digər gözlənilən aspektlərlə bağlıdır. Hal-hazırda HM-ni MM-yə uyğunlaşdırmaq üçün iki ümumi üsul vardır. Onlardan biri kontekstini MM-ə sosial və mədəni cəhətdən uyğunlaşdırmaq üçün HM-nin lokallaşdırılmasıdır. "Lokallaşdırma xüsusi kontekstlərdə spesifik mədəniyyətlərin dil və mədəni gözləntilərinə cavab verməkməqsədi daşıyır" (səh. 6). Hesab olunur ki, lokallaşma və qloballaşma əsasən mənbə mətnə kifayət qədər yaxın olmağın iki yolu olsa da, seçim tərcüməçinin özündən asılıdır.

Nəhayət, məqalə həm də auditoriyanı daha yaxşı başa düşmək üçün müqayisə edilən fərdi seçimlərdən nümunələr gətirir.

Э.А.Шахгалдиев
О.А.Исмаил

Проблемы перевода текста как процесса коммуникации и адаптации оригинального текста

Резюме

В статье рассматриваются особенности перевода текста как средства коммуникации и анализируются методы адаптации к оригинальноному тексту. А так же определяются границы текста и его отличие от границ таких множеств, как слова, фразы и предложения. Отмечается, что перевод текста затрагивает различные аспекты языка, где межкультурная коммуникация обычно играет первостепенную роль. Авторы приводят множество примеров из местных и зарубежных источников для обоснования способов формирования структуры текста, подчёркивая сложность и значимость этих процессов. Наряду с этим, в статье также подчёркиваются особенности отдельных культур, делающие его необходимым для глобального взаимопонимания. Помимо структурного анализа текстов, этот процесс также включает в себя различные методы перевода, такие как текстовый, естественный и связный уровни.

В статье доказывается, что перевод текста в первую очередь нацелен на межъязыковые культурные ценности, содержащиеся в истории мировой литературы. В процессе перевода текста многоязычное сообщество обменивается риторической стратегией адаптации информации, содержащейся в оригинальном тексте (ОТ), к международному контексту через отдельные переводные тексты (ПТ). В отличие от изолированных наборов, тексты обычно имеют определённый связный смысл, стремясь к достижению более широкого охвата информации. В статье исследуются 10 основных комплексных особенностей текстов и предлагается новый качественный подход, который

утверждает, что содержание перевода неуловимо с точки зрения влияния на переводимый контекст. Эти особенности связаны с различиями в образе жизни, историческом и культурном опыте, условиях социальных отношений и некоторыми другими важными аспектами. В настоящее время существует два распространённых метода адаптации перевода к исходному тексту. Один из них — локализация перевода для социальной и культурной адаптации его контекста к исходному тексту. «Локализация направлена на удовлетворение языковых и культурных ожиданий конкретных культур в конкретных контекстах» (стр. 6). Считается, что локализация и глобализация — это два способа, в основном сохраняющие довольно близкое отношение к оригинальному тексту, однако решение о избирательности в своём выборе остаётся за переводчиком.

Наконец, в статье также приводятся примеры из индивидуального опыта, позволяющие провести сравнение для лучшего понимания аудитории.

Rəyçi: fil.e.d., prof. A.Məmmədov

ƏLIYEVA RƏNA TELMAN QIZI
irena4363@mail.ru
FƏTULLAYEVA SEVDA ƏSGƏR QIZI
sevda_fatullayeva@yahoo.com
Azərbaycan Dillər Universiteti
İngilis dilinin üslubiyyatı kafedrası
Ünvan: Bakı şəh., R.Behbudov küç.,134

İNGİLİS DİLİNDƏ RƏNGLƏRLƏ BAĞLI İDİOMLARIN ÜSLUBİ TƏHLİLİ

Xülasə

Bu məqalə ingilis dilində rənglərlə bağlı idiomların stilistik təhlilini aparmaqla dilçiliyin əsas problemlərindən birinə – dil və mədəniyyət arasındakı qarşılıqlı əlaqəyə işıq salır. Tədqiqatın əsas məqsədi rənglərin mədəni-simvolik mənalarının idiomların semantik və funksional xüsusiyyətlərinə necə təsir etdiyini araşdırmaqdır. Məqalədə deskriptiv, müqayisəli və üslubi təhlil metodlarından istifadə edilərək, “qırmızı”, “mavi”, “yaşıl”, “ağ”, “qara”, “sarı” və “boz” rəngləri ilə əlaqəli ən çox yayılmış idiomlar təsnif edilir və hər biri ayrı-ayrılıqda təhlil olunur. Təhlil zamanı müəyyən edilir ki, rənglərin ilkin vizual mənaları idiomların tərkibində dəyişərək, emosional, sosial və mədəni məzmun daşıyır. Tədqiqatın nəticələri göstərir ki, rənglə bağlı idiomlar nitqi daha ifadəli və canlı etməklə yanaşı, cəmiyyətin dəyərlərini, inanclarını və dünyagörüşünü əks etdirən mühüm mədəni kodlardır. Bu idiomlar danışıq dilində müxtəlif hissləri (sevinc, kədər, qorxu), sosial münasibətləri (həsəd, etimad, şübhə) və psixoloji vəziyyətləri dolğun şəkildə çatdırmağa xidmət edir.

Açar sözlər: idiom, rəng, ingilis dili, üslubi təhlil, frazeologiya

ALIYEVA RANA
FATULLAYEVA SEVDA

STYLISTIC ANALYSIS OF COLOR-RELATED IDIOMS IN THE ENGLISH LANGUAGE

ABSTRACT

This article provides a stylistic analysis of color-related idioms in the English language, shedding light on a fundamental problem in linguistics: the reciprocal relationship between language and culture. The primary objective of the research is to investigate how the cultural and symbolic meanings of colors influence the semantic and functional characteristics of these idioms. The article employs descriptive, comparative, and stylistic analysis methods to classify the most common idioms associated with the colors "red," "blue," "green," "white," "black," "yellow," and "gray," with each one being analyzed individually. The analysis reveals that the initial visual meanings of colors are transformed within idioms, carrying emotional,

social, and cultural content. The research indicates that color-related idioms not only make speech more expressive and vibrant but also act as crucial cultural codes that reflect the values, beliefs, and worldview of a society. These idioms are used in spoken language to fully convey various emotions (joy, sadness, fear), social relationships (envy, trust, suspicion), and psychological states.

Keywords: idiom, color, English language, stylistic analysis, phraseology

АНАЛИЗУ ИДИОМ, СВЯЗАННЫХ С ЦВЕТОМ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Данная статья посвящена стилистическому анализу идиом, связанных с цветом в английском языке, что проливает свет на одну из ключевых проблем лингвистики — взаимосвязь между языком и культурой. Основная цель исследования — изучить, как культурно-символические значения цветов влияют на семантические и функциональные характеристики идиом. В статье, с использованием описательных, сравнительных и стилистических методов анализа, классифицируются наиболее распространенные идиомы, связанные с цветами «красный», «синий», «зеленый», «белый», «черный», «желтый» и «серый», и каждая из них анализируется отдельно. В ходе анализа было установлено, что первоначальные визуальные значения цветов, трансформируясь в составе идиом, приобретают эмоциональное, социальное и культурное содержание. Результаты исследования показывают, что идиомы, связанные с цветом, не только делают речь более выразительной и живой, но и служат важными культурными кодами, которые отражают ценности, убеждения и мировоззрение общества. Эти идиомы используются в разговорной речи для полного выражения различных чувств (радость, грусть, страх), социальных отношений (зависть, доверие, подозрение) и психологических состояний.

Ключевые слова: идиома, цвет, английский язык, стилистический анализ, фразеология

Dil, cəmiyyətin tarixi, mədəniyyəti və dünyagörüşünü əks etdirən əsas ünsiyyət vasitəsidir. Hər bir dilin lüğət tərkibində müəyyən bir xalqın milli-mədəni xüsusiyyətlərini əks etdirən sabit ifadələr, yəni idiomlar mühüm yer tutur. İdiomlar hər hansı bir dilin mədəni yaddaşını və kollektiv təcrübəsini özündə daşıyan sabit söz birləşmələridir.İdiomlar təkcə dilin bədii ifadə vasitələri deyil, həm də mədəniyyətin daşıyıcılarıdır(5) . Onların öyrənilməsi yalnız leksikanı genişləndirməklə deyil, həm də dilin daşıyıcısı olduğu mədəniyyəti dərk etməklə əlaqədardır. Bu məqalə, ingilis dilində rənglərlə bağlı idiomların üslubi təhlilini aparmağı qarşısına məqsəd qoyur. Rənglər həyatımızın hər sahəsində, incəsənətdən tutmuş gündəlik nitqə qədər, geniş bir simvolizmə malikdir(2) . Məsələn, qırmızı rəng təhlükə siqnallarında, yaşıl rəng isə təbiət və həyatı təmsil etməkdə istifadə edilir. Lakin bu rənglərin mənaları

idiomların tərkibində tamamilə fərqli, bəzən metaforik mənalara çevrilir. Rəng anlayışı insanın dünyanı qavramasında əsas semantik kateqoriyalardan biri kimi çıxış edir. Rənglər duyğulara, emosiyalara və assosiasiyalara təsir göstərir, buna görə də dilin frazeoloji sistemində geniş şəkildə istifadə olunur. Məqalədə ingilis dilində rənglərlə bağlı idiomların semantik, pragmatik, mədəni və gender aspektləri geniş təhlil olunur. Rəng idiomlarının yalnız məcazi ifadə vasitəsi olmadığı, həm də sosial stereotipləri, mədəni dəyərləri və emosional münasibətləri əks etdirdiyi vurğulanır. Gender baxımından aparılan analizdə "pink" rənginin qadınlıqla, "blue" rənginin isə kişiliklə assosiasiya olunması və bunun cəmiyyətdə sosial rolların qəbulu ilə əlaqəsi araşdırılır. Pragmatik aspektdən yanaşmada rəng idiomlarının nəzakət, ironiya, yumor və vurğu yaratmaq kimi funksiyaları daşıdığı, kontekstdən asılı olaraq fərqli mənalar kəsb etdiyi göstərilir. Regional və dialekt fərqləri ilə bağlı təhlil, eyni idiomun müxtəlif bölgələrdə və danışıq üslublarında fərqli mənalara sahib ola biləcəyini ortaya qoyur. Texnologiya aspekti isə rəng idiomlarının onlayn ünsiyyət və sosial media mühitində istifadəsi, həmçinin avtomatik tərcümə və dil işləmə sistemlərində tərcümə problemlərini vurğulayır. Belə ki, rənglərlə bağlı idiomlar sadəcə dilin bədii elementi deyil, həm də ünsiyyətə, təfsirə, texnoloji tətbiqlərə və dünyagörüşünə təsir edən mühüm semiotik və mədəni göstəricilərdir. Məqalənin əsas hipotezi ondan ibarətdir ki, rənglərlə bağlı idiomların mənası sadəcə rəngin vizual təsirindən yox, həm də həmin rəngin mədəniyyətdəki simvolik funksiyasından irəli gəlir (9).

İngilis dilində rənglərlə bağlı idiomlar həm gündəlik ünsiyyətdə, həm də ədəbi əsərlərdə zəngin üslubi imkanlara malikdir. Məsələn, 'to feel blue' ifadəsi kədərli olmağı bildirir, halbuki 'to see red' ifadəsi qəzəbi ifadə edir. Bəzi rəng adları konkret obyekt və ya hadisələrlə bağlı mənalar daşıyır (məsələn, 'green' təzəlik və təcrübəsizliklə əlaqələndirilir), digərləri isə mədəni stereotiplərdən qaynaqlanır (məsələn, 'black' çox vaxt mənfi emosiyalar və qaranlıq məna ilə assosiasiya olunur). Bu kimi ifadələr yalnız sözün lüğəvi mənasını deyil, eyni zamanda emosional və mədəni konteksti də özündə əks etdirir. Rənglər yalnız fiziki hadisə kimi deyil, həm də mədəni, psixoloji və sosial kontekstdə mühüm rol oynayır. Dilçilikdə rəng leksikası semantika, frazeologiya və üslubiyyatda geniş tədqiq olunur. Rəng adları dilin ifadə imkanlarını zənginləşdirir və mətndə emosional təsir gücünü artırır. İngilis dilində rənglərlə bağlı idiomların semantik strukturu çoxşaxəlidir. Onlar əsasən üç kateqoriyaya bölünə bilər:

1) Emosional vəziyyətləri ifadə edən idiomlar ('to feel blue', 'green with envy');
2) Sosial və mədəni münasibətləri əks etdirən idiomlar ('white lie', 'black sheep');
3) Fərdi xüsusiyyətləri və davranış modellərini ifadə edən idiomlar ('grey area', 'see red').

Üslubi baxımdan bu idiomlar danışıq dilində canlı, obrazlı ifadə formaları kimi çıxış edir. Bədii mətnlərdə isə onlar müəllifin üslubunu zənginləşdirir, xarakterlərin emosional portretini yaratmaqda mühüm vasitə olur. Məsələn, 'white lie' ifadəsi həm ironik, həm də yumşaldıcı üslub çaları yarada bilər. Hər bir rəngin özünəxas

universal və ya mədəni olaraq fərqlənən bir semantikası mövcuddur ki, bu da dilin frazeoloji vahidlərinə, xüsusən də idiomlara birbaşa təsir göstərir. **Rənglərin simvolik mənası** insan psixologiyası və təcrübəsi ilə sıx bağlıdır. Onlar sadəcə vizual qavrayış deyil, həm də emosional və mədəni çağırışları özündə ehtiva edir. Məsələn, **qırmızı rəng** əksər mədəniyyətlərdə qan, atəş, ehtiras və qəzəblə əlaqələndirilir. Bu rəng həm sevginin (qırmızı ürək), həm də təhlükənin (qırmızı siqnal) simvolu kimi çıxış edir. Bu ikili məna onun idiomlardakı funksiyasına da təsir edir. **Mavi rəng** adətən səma, dəniz, sakitlik və sükunət kimi müsbət assosiasiyalar yaratsa da, ingilis dilində qəribə bir şəkildə kədər və melankoliya hissləri ilə də bağlıdır. "Mavi" musiqi janrı olan "bluz"un adı da məhz buradan qaynaqlanır. Bu rəngin idiomlardakı ikili funksiyası onun mürəkkəb simvolizmini ortaya qoyur. **Yaşıl rəng** isə təbiət, həyat, inkişaf və təzəlik simvolu kimi tanınır. Buna baxmayaraq, ingilisdilli mədəniyyətdə bu rəng həsəd, xəstəlik və təcrübəsizlik kimi mənfi mənalarla da əlaqələndirilir. Bu ziddiyyətli mənalar onun idiomlardakı işlənməsini daha maraqlı edir **Ağ və qara rənglər** isə adətən bir-birinin ziddi olaraq qəbul edilir. Ağ rəng saflıq, təmizlik, günahsızlıq və nik. ahla əlaqələndirildiyi halda, qara rəng qaranlıq, kədər, ölüm və pisliklə simvollaşdırılır. Bu ziddiyyətli simvolizm onların idiomlardakı funksiyasını müəyyənləşdirən əsas amildir. **Sarı rəng** bir çox mədəniyyətlərdə xoşbəxtlik və günəşlə əlaqələndirilsə də, ingilis dilində bəzən qorxaqlıq, xəyanət və xəstəlik (sarılıq) kimi neqativ mənaları da ifadə edir.

İngilis dilində ən çox işlədilən rənglə bağlı idiom Qırmızı rəngin idiomlardakı dominant mənaları ehtiras, qəzəb, təhlükə və maliyyə çətinliyi ilə əlaqədardır. Bu rəng adətən insanda güclü reaksiyalar oyadır və bu xüsusiyyət idiomlarda da özünü büruzə verir. Məsələn, **"to be caught red-handed"** (cinayət başında yaxalanmaq) ifadəsi cinayət anında əlində qanla yaxalanan bir şəxsin obrazını yaradır. Bu idiomun üslubi funksiyası hadisənin danılmaz və şübhəsiz olduğunu vurğulamaqdır. Mətnin bu ifadə ilə zənginləşdirilməsi müəyyən bir hərəkətin qeyri-qanuni və ya əxlaqdan kənar olduğunu daha dramatik şəkildə çatdırır. Digər tərəfdən, qırmızı rəng mənfi maliyyə vəziyyətini təsvir etmək üçün də istifadə olunur. **"To be in the red"** (qırmızıda olmaq) ifadəsi mühasibat uçotunda zərərin qırmızı rənglə qeyd edilməsi ənənəsindən yaranmışdır və nitqdə borcda olmaq, maliyyə itkisi ilə üzləşmək mənasında işlənir. Bu idiom müəyyən bir şirkətin və ya şəxsin iqtisadi vəziyyətinin kritik olduğunu emosional bir çalarda vurğulayır. Qırmızı rəngin digər maraqlı bir funksiyası isə bürokratiya ilə bağlıdır. **"Red tape"** (qırmızı lent) ifadəsi lüzumsuz sənədləşmə, ləngidən bürokratik prosedurları ifadə edir. Bu idiom hökumət sənədlərinin qırmızı lentlə bağlanması ənənəsindən irəli gəlmiş və zaman keçdikcə neqativ məna kəsb etmişdir. Üslubi baxımdan bu ifadə prosesin yorucu və mürəkkəb olduğunu kinayəli şəkildə bildirir.

Bütün bu nümunələr göstərir ki, qırmızı rəng idiomlarda həm qədim mədəni assosiasiyaları (qan, od), həm də müasir simvolizmi (bürokratiya, maliyyə) birləşdirərək, nitqdə güclü emosional və üslubi effektlər yaradır.

Mavi rəngin idiomlardakı əsas semantikası kədər, melankoliya və nadirlik ilə əlaqədardır. Bu, rəngin universal olaraq səma və su ilə bağlı olan sakitlik mənasından fərqlənir və ingilis dilinə xas mədəni inkişafın nəticəsidir. **"To feel blue"** (kədərli hiss etmək) ifadəsi bu rəngin psixoloji təsirini birbaşa ifadə edir. Bu idiomun mənşəyinin dənizçilərin kapitanın vəfatından sonra gəminin bayrağını mavi rəngə boyaması ənənəsi ilə bağlı olduğu ehtimal edilir. Bu idiomun üslubi funksiyası şəxsin emosional vəziyyətini (depressiya, kədər) sadə və anlaşılan bir metafor vasitəsilə çatdırmaqdır. Digər bir mavi rəngli idiom olan **"once in a blue moon"** (mavi ayda bir dəfə) ifadəsi isə hadisənin son dərəcə nadir və ya demək olar ki, heç vaxt baş vermədiyini bildirir. Bu idiom, adətən 2.5 ildən bir baş verən "mavi ay" astronomik hadisəsinə istinad edərək, nitqdə hiperbolik bir təsir yaradır.

Yaşıl rəngli idiomlar çox vaxt ziddiyyətli mənalar daşıyır. Bir tərəfdən təbiət və inkişafı simvolizə edərkən, digər tərəfdən mənfi hissləri ifadə edir. **"Green with envy"** (həsəddən yaşıl olmaq) ifadəsi həsədin bir insanın fiziki görünüşünə təsir edəcək qədər güclü olduğunu göstərir. Bu ifadə orta əsrlərdə "yaşıl öd"ün xəstəlik və həsədə səbəb olduğuna dair inancla bağlıdır. Təcrübəsizlik mənasında isə **"greenhorn"** (yaşıl buynuz) ifadəsi istifadə olunur. Bu idiom mal-qaranın yaşıl, yumşaq buynuzlarına istinad edir və hər hansı bir işdə yeni, təcrübəsiz olan insanı təsvir edir. Bu, kinayəli və yüngül bir istehzalı üslub çalara malikdir. Müsbət mənada isə **"to have a green thumb"** (yaşıl baş barmaq) ifadəsi bitkiləri yetişdirməkdə xüsusi bacarığı olan insanlara aid edilir. Bu ifadə yaşıl rəngin təbiət və həyatla olan əlaqəsini birbaşa dilə gətirir və tərifedici bir üslubi funksiyaya malikdir.

Ağ və qara rənglər yaxşılıq-pislik, işıq-qaranlıq kimi fundamental ziddiyyətləri təcəssüm etdirir. Bu ziddiyyət idiomlarda da özünü göstərir. **"Black sheep of the family"** (ailənin qara qoyunu) ifadəsi ailənin qalan üzvlərindən kəskin şəkildə fərqlənən, adətən mənfi reputasiyaya malik olan bir şəxsi təsvir edir. Bu ifadə digər qoyunlar arasında asanlıqla seçilən qara qoyun obrazından yaranmışdır və təhqiredici, mühakimə edici bir üsluba malikdir. Əksinə, **"white lie"** (ağ yalan) ifadəsi isə zərərsiz, xoş niyyətli bir yalanı bildirir. Bu idiomda "ağ" rəngi yalan sözünün mənfi semantikasını yumşaldır və ona müsbət bir çalar verir. Bu ifadə yalanın qəbuledilən olduğunu iddia etmək üçün istifadə olunur.

Sarı rəngin idiomlardakı mənası bəzən mənfi assosiasiyalarla bağlıdır. **"Yellow-bellied"** ifadəsi qorxaq insanları təsvir etmək üçün istifadə olunur. Bu ifadənin kökü qorxunun bədəndə yaratdığı fiziki reaksiyalarla (məsələn, sarılıq) əlaqələndirilir.

Boz rəng isə cansıxıcı, darıxdırıcı və qeyri-müəyyən vəziyyətləri təsvir edir. **"A gray area"** ifadəsi iki kəskin variant (ağ və qara) arasında qalan, dəqiq qaydaları olmayan qeyri-müəyyən bir vəziyyəti bildirir. Bu idiomlar nitqdə müəyyən bir vəziyyətin anlaşılmaz və ya rəsmi olmadığını vurğulamaq üçün istifadə olunur.

İngilis dilindəki rənglə bağlı idiomlar rənglərin mədəni-simvolik yükünü metaforik şəkildə ifadə etməklə dilin üslubi zənginliyini təmin edir. Hər bir rəngin

özünəməxsus emosional və psixoloji təsiri idiomların daxilində yeni məna çalarları yaradır və nitqi daha ifadəli edir. Hər bir rəngin özünəməxsus üslubi funksiyası olduğu aydın şəkildə ortaya çıxır: Qırmızı idiomlar adətən güclü emosiyalar, təhlükə və ya diqqət çəkən vəziyyətləri ifadə edir (maliyyə borcu, cinayət, bürokratiya). Bu rəngin ifadəli gücü nitqdə emosional gərginliyi artırmağa xidmət edir. Mavi rənglə bağlı idiomlar isə əksər hallarda kədər, melanxoliya və nadirlik hissləri ilə əlaqələndirilir. Bu, rəngin universal sakitlik mənasından fərqli olaraq, ingilisdilli mədəniyyətdə qazandığı spesifik bir məna çalardır. Yaşıl rəng idiomlarda ziddiyyətli mənaların təcəssümüdür. Bir tərəfdən həsəd və təcrübəsizlik kimi mənfi xüsusiyyətləri, digər tərəfdən isə təbiətə bağlılıq və bacarıq kimi müsbət xüsusiyyətləri ifadə edir. Ağ və qara rənglər yaxşılıq və pislik, aydınlıq və qeyri-müəyyənlik kimi fundamental ziddiyyətləri vurğulamaq üçün ideal bir vasitədir. Bu idiomlar danışılan mətləbin emosional və ya etik tərəfini dəyərləndirməyə imkan verir. Sarı və boz rənglər isə daha spesifik, lakin əhəmiyyətli mənaları (qorxaqlıq, qeyri-müəyyənlik) ifadə edərək, nitqdə müəyyən xüsusiyyətlərə incə işarə etməyə xidmət edir (1).

Ədəbi mətnlərdə rənglərlə bağlı idiomların üslubi funksiyası xüsusilə diqqətəlayiqdir. Yazıçılar və şairlər bu ifadələrdən istifadə etməklə yalnız situasiyanı təsvir etmirlər, həm də oxucuda emosional rezonans yaradırlar. Məsələn, romanlarda "to see red" ifadəsi qəhrəmanın qəfil hirsini göstərmək üçün çox qısa, amma güclü bir vasitə kimi çıxış edir. Bu, dilin bədii potensialını artırır və mətni daha təsirli edir. Rənglərlə bağlı idiomların sosial şərtlənməsi də ayrıca bir tədqiqat istiqamətidir. Bəzi rənglər tarixi və ideoloji hadisələrlə əlaqədar xüsusi mənalar qazanmışdır. Məsələn, "red" rəngi bir çox siyasi kontekstdə sosialist və kommunist hərəkatları ilə assosiasiya olunur. Bu isə həmin rəngin idiomlardakı interpretasiyasına da təsirsiz ötüşmür. Belə nümunələr dilin yalnız üslubi deyil, həm də sosial-siyasi bir güzgü olduğunu göstərir. Rənglərlə bağlı idiomların işlənməsi həm də fərqli sosial qrupların nitqində müxtəlif üslubi çalarlarla özünü göstərir. Gündəlik danışıqda bu ifadələr daha sadə, bəzən yumoristik məna daşıyırsa, rəsmi nitqdə onlar metaforik və təsviri vasitə kimi çıxış edir. Məsələn, siyasətçilərin çıxışlarında “grey area” ifadəsi qeyri-müəyyən vəziyyətləri təsvir etmək üçün tez-tez istifadə olunur. Bu, rəng idiomlarının yalnız bədii dil deyil, ictimai diskurs üçün də funksional olduğunu göstərir.

Müasir ingilis dilində rənglərlə bağlı idiomlar reklam və kütləvi informasiya vasitələrinin dilində də geniş istifadə olunur. Reklamlarda rənglərin psixoloji təsirindən faydalanaraq emosional mesajlar gücləndirilir. Məsələn, maliyyə xidmətlərini təbliğ edən kampaniyalarda “in the black” ifadəsi uğur və sabitlik mesajı vermək üçün istifadə olunur. Bu tip nümunələr rənglərin yalnız ədəbi və gündəlik nitqdə deyil, həm də kommersiya sahəsində güclü üslubi alətə çevrildiyini göstərir.

Rəng idiomlarının digər mühüm tərəfi onların ünsiyyətdə bəzən stereotipləri gücləndirməsidir. “Black list”, “yellow-bellied” və ya “green with envy”

kimi ifadələr müəyyən mədəni və psixoloji qəlibləri təkrar edir. Bu baxımdan rəng idiomlarının üslubi təhlili yalnız estetik deyil, həm də sosial aspektdən vacibdir. Onların istifadəsi bəzi hallarda neytral görünə bilər, lakin dərin semantik təhlil göstərir ki, dil stereotiplərin qorunmasında mühüm rol oynayır(10) .

Rənglərlə bağlı idiomların çoxfunksiyalılığı onların universal bir xüsusiyyətidir. Eyni ifadə həm məişət nitqində yumoristik bir çalarla, həm də elmi və ya publisistik mətnlərdə ciddi semantik vurğu ilə işlənə bilər. Məsələn, "white lie" gündəlik söhbətdə sadə bir təsvir kimi səslənirsə, etik mövzulu məqalələrdə insan davranışının sosial qəbulunu müzakirə edən ciddi bir anlayışa çevrilə bilər. Bu isə göstərir ki, rəng idiomları dilin üslubi elastikliyini təmin edən əsas vasitələrdəndir.

Rənglərlə bağlı idiomların müasir texnologiya və rəqəmsal mühitdə istifadəsi də diqqətəlayiqdir. İnternet və sosial media dili bu idiomların işlənmə arealını genişləndirmiş, onlara yeni semantik çalarlar qazandırmışdır. Məsələn, onlayn forumlarda və sosial şəbəkələrdə "to be in the red" ifadəsi yalnız maliyyə çətinliyi deyil, həm də oyunlarda məğlubiyyət və ya hesabın mənfi balansda olması mənasında işlənir. Bu, idiomların çevikliyini və yeni kontekstə uyğunlaşma qabiliyyətini göstərir. Texnologiya ilə bağlı diskursda rəng idiomlarının metaforik istifadəsi xüsusilə proqramlaşdırma və kibertəhlükəsizlik sahələrində özünü göstərir. "Black hat" və "white hat" terminləri hakerlərin fərqli qruplarını təsvir edir. Burada "black" mənfi, "white" isə müsbət simvolik funksiyaya malikdir. Bu tip terminləşmiş idiomlar göstərir ki, rəng metaforaları müasir texnoloji mədəniyyətdə də üslubi gücünü qoruyur və yeni anlayışların formalaşmasına xidmət edir. Müasir media və internet mədəniyyətində rəng idiomları çox vaxt memlər, şərhlər və hətta hashtag-larda da işlədilir. "Feeling blue" ifadəsi onlayn paylaşımlarda emosional vəziyyəti təsvir edən qısa və anlaşılan bir mesaj kimi çıxış edir. Sosial şəbəkələrdə bu tip ifadələr sürətli ünsiyyət vasitəsi rolunu oynayır, çünki qısa söz birləşmələri emosional məzmunu dərhal çatdırmağa imkan verir. Texnologiyanın dilə gətirdiyi yeniliklərdən biri də rəng idiomlarının vizual formalarla birləşməsidir. Emoji istifadəsi nəticəsində bu idiomlar həm mətn, həm də şəkil vasitəsilə ifadə olunur. Məsələn, "green with envy" ifadəsi yazılı formada #greenwithenvy hashtag-ı ilə, vizual forma-da isə yaşıl üz ifadəli emoji ilə müşayiət oluna bilər. Bu, dilin üslubi imkanlarını daha da zənginləşdirir və rəqəmsal ünsiyyətdə çoxqatlı bir məna yaradır (13).

Rənglərlə bağlı idiomların ingilisdilli ölkələrdə müxtəlif regional və dialekt fərqləri göstərməsi onların mədəniyyətlərarası xarakterini ortaya qoyur. Böyük Britaniya, ABŞ, Avstraliya və digər ingilisdilli regionlarda eyni rəng adları fərqli məna çalarları qazana bilir. Bu, həm həmin regionların tarixi-mədəni inkişafı, həm də gündəlik həyat tərzi ilə bağlıdır. Məsələn, ABŞ ingilis dilində işlədilən "greenback" ifadəsi dolları bildirir və yaşıl rəngin pul vahidi ilə assosiasiyasından yaranmışdır. Böyük Britaniyada isə bu ifadə işlənmir və həmin məna daha çox "quid" sözündə ifadə olunur. Bu nümunə göstərir ki, eyni rənglə bağlı idiom müəyyən bir ölkənin iqtisadi və sosial həyatına uyğun formalaşa bilir. Avstraliya

ingilis dilində də bəzi fərqli rəngli idiomlara rast gəlinir. Məsələn, "true blue" ifadəsi həmin ölkədə sadiq və əsl avstraliyalını təsvir etmək üçün istifadə olunur. Halbuki ABŞ və Britaniya ingilis dilində bu ifadə daha çox dürüstlük və səmimiyyət mənasını daşıyır. Beləliklə, mavi rəngin semantik yükü regiondan asılı olaraq dəyişə bilir. Böyük Britaniya və ABŞ arasındakı fərqlərdən biri də "red letter day" ifadəsinin istifadəsindədir. ABŞ-da bu idiom daha çox şəxsi həyat hadisələrinə (doğum günü, toy və s.) tətbiq edilirsə, Böyük Britaniyada isə daha çox rəsmi və ictimai əhəmiyyətli günləri təsvir etmək üçün işlədilir. Bu da rəng idiomlarının pragmatik istifadəsindəki incə fərqləri üzə çıxarır(1).

Regional dialekt fərqləri, həmçinin rəng idiomlarının emosional gücünə də təsir göstərir. Məsələn, İrlandiya ingilis dilində "black humour" ifadəsi geniş yayılmışdır və daha çox cəmiyyətin sosial-siyasi təcrübələri ilə bağlıdır. ABŞ-da isə bu ifadə bəzən "dark humor" şəklində işlənir və daha yumşaq, neytral məna daşıyır. Bu nümunə göstərir ki, eyni semantik konsept müxtəlif bölgələrdə fərqli dil formaları ilə ifadə oluna bilər. Rənglərlə bağlı idiomların gender aspekti də diqqətəlayiqdir. Tarixən bəzi rənglər qadınlıq və kişilik anlayışları ilə assosiasiya olunmuş, bu da idiomlarda öz əksini tapmışdır. Məsələn, "to be in the pink" ifadəsi çox vaxt sağlamlıq və yaxşı vəziyyətlə bağlıdır, lakin "pink" rəngi Qərb mədəniyyətində əsasən qadınlıqla əlaqələndirildiyindən, bu ifadə bəzən incə və yumşaq bir üslub çaları da daşıyır (10).

Kişiliklə bağlı idiomlarda isə çox vaxt qara və mavi rənglər üstünlük təşkil edir. "Blue-collar worker" ifadəsi fiziki əmək sahəsində çalışan, ənənəvi olaraq kişi dominantlığı olan işçiləri təsvir edir. "Black eye" ifadəsi isə döyüş, mübahisə və zorakılıqla əlaqələndirilərək daha çox kişi davranış stereotiplərini əks etdirir. Bu tip ifadələr rənglərin genderlə bağlı sosial konstruksiyalara xidmət etdiyini nümayiş etdirir(6).

Gender aspektində maraqlı məqam odur ki, bəzi rənglər həm qadın, həm də kişi obrazlarında müxtəlif semantik rollar daşıya bilər. Məsələn, qırmızı rəng qadınlıq kontekstində ehtiras və cazibəni ifadə edirsə, kişi kontekstində daha çox qəzəb və güc ilə əlaqələndirilir. Bu, rəng idiomlarının cinsiyyətə görə fərqli interpretasiya oluna bildiyini göstərir. Feminizm tədqiqatları rəng idiomlarının gender stereotiplərinin qorunmasında mühüm rol oynadığını göstərir. Məsələn, "pink" rəngi çox vaxt qadınlıq, incəlik və zəifliklə assosiasiya olunur. "Pink-collar job" ifadəsi qadınların iş dünyasında məhdudlaşdırılmış sahələrdə təmsil olunmasını dil vasitəsilə normallaşdırır. Bu, rənglərin semantik yüklərinin sadəcə estetik deyil, həm də ideoloji funksiyaya malik olduğunu nümayiş etdirir(10) .

Qadınlara aid edilən rənglərlə bağlı idiomların çoxu emosional zəiflik və ya passivlik çalarına malikdir. Məsələn, "to see the world through rose-colored glasses" ifadəsi reallığı görməyən, həddindən artıq emosional və optimist insanları təsvir edir. Bu tip ifadələr gender nəzəriyyəsi baxımından qadınlara yönəlmiş emosional stereotiplərin dilə necə sirayət etdiyini ortaya qoyur. Kişilərlə bağlı idiomlarda isə

çox vaxt güc, sərtlik və fiziki qüvvə ön plana çıxır. “Blue-collar worker” və ya “black eye” kimi ifadələr kişi obrazını daha çox güc və zorakılıqla assosiasiya edir. Feminist yanaşmaya görə, bu tip dil konstruksiyaları cəmiyyətin kişilərdən gözləntilərini gücləndirir və gender rollarını sabitləşdirir. Bəzi rəng idiomlarının isə gender neytrallığı yoxdur və onların istifadəsi gender bərabərsizliyinin dil vasitəsilə necə möhkəmləndirildiyini açıq şəkildə göstərir. Bu baxımdan, feminist tənqid dilin cinsiyyətçi üslub elementlərini aşkar etməyə və onların cəmiyyətə təsirini təhlil etməyə çalışır. Rənglərlə bağlı idiomlar da bu kontekstdə mühüm nümunələrdən biridir. Rənglərlə bağlı idiomların pragmatik aspekti onların yalnız lüğəvi mənası ilə deyil, eyni zamanda ünsiyyət vəziyyətində daşıdığı funksiyalarla da bağlıdır. İdiomlar danışanın emosional vəziyyətini, münasibətini və üslubunu ifadə etmək üçün xüsusi vasitə kimi çıxış edir. Məsələn, “to be in the red” ifadəsi sadəcə maliyyə çətinliyi demək deyil, həm də danışanın mənfi emosiyalarını, narahatlıq və gərginlik hissini dinləyiciyə çatdırır. Pragmatik baxımdan rəng idiomları çox vaxt ehtiyatlılıq, yumor və ya vurğu yaratmaq üçün işlədilir. Məsələn, “green with envy” ifadəsi qısqanclığı birbaşa “jealous” sözü ilə deməkdənsə, metaforik formada daha yumşaq və eyni zamanda emosional güclü şəkildə təqdim edir. Bu, danışanın dinləyici ilə münasibətini tənzimləməsinə, yəni ünsiyyəti daha təsirli və yadda qalan etməsinə xidmət edir. Bəzi rəng idiomları isə pragmatik kontekstdə ironik və ya satirik çalar daşıyır. “Black humour” ifadəsi mənfi situasiyaları yumoristik şəkildə təqdim etmək üçün işlədilir və bu, danışanın situasiya ilə bağlı emosional məsafə yaratmaq istəyini göstərir. Beləliklə, rəng idiomları yalnız təsvir funksiyası daşımır, həm də danışanın üslubi niyyətini əks etdirir. Pragmatik aspektdə maraqlı məqam odur ki, eyni rəng idiomu müxtəlif kontekstlərdə fərqli nəzakət və ya təhqir dərəcəsi daşıya bilər. Məsələn, birini “yellow” adlandırmaq qorxaqlıqla bağlıdır və kobud səslənə bilər, lakin dostlar arasında ironik şəkildə işlədildikdə zarafat kimi qəbul olunur. Bu, idiomların kontekstdən asılı olaraq dəyişən ünsiyyət strategiyalarına malik olduğunu göstərir.Nəhayət, rənglərlə bağlı idiomların pragmatik istifadəsi onların mədəniyyətlərarası ünsiyyətdə çətinliklər yaratma ehtimalını da artırır. Çünki bir mədəniyyətdə yumor və ya vurğu funksiyası daşıyan ifadə, başqa bir mədəniyyətdə təhqir kimi qəbul edilə bilər. Bu səbəbdən rəng idiomlarının tədrisi və istifadəsində kontekstual faktorların nəzərə alınması vacibdir.Aparılan hərtərəfli təhlil nəticəsində müəyyən olunmuşdur ki, ingilis dilində rənglərlə bağlı idiomlar dilin leksik və üslubi zənginliyi üçün vacib bir resursdur. Bu tədqiqat göstərdi ki, rənglərin idiomlar daxilindəki mənası yalnız onların vizual xüsusiyyətlərindən qaynaqlanmır, həm də həmin rənglərin min illər boyu mədəniyyət, psixologiya və cəmiyyət tərəfindən qazandığı simvolik mənalarla sıx bağlıdır. Müqayisəli dilçilik baxımından da rənglərlə bağlı idiomların araşdırılması maraqlıdır. Eyni rəng müxtəlif dillərdə fərqli mənalar daşıya bilər. Məsələn, ingilis dilində "blue" kədəri ifadə edirsə, Çin mədəniyyətində mavi rəng daha çox ölümsüzlük və güclə əlaqələndirilir. Bu fərqlər, rənglərin simvolik yükünün universal deyil, mədəni şərtlənmiş olduğunu göstərir.

Beləliklə, ingilis dilindəki rəng idiomlarını digər dillərlə müqayisə etmək onların spesifik mədəni kontekstini daha aydın ortaya qoyur. Nəticə olaraq demək olar ki, rənglərlə bağlı idiomların öyrənilməsi yalnız dilçilik üçün deyil, həm də mədəniyyətşünaslıq, psixologiya və tərcüməşünaslıq sahələri üçün əhəmiyyətlidir. Belə idiomlar tərcümə prosesində xüsusi diqqət tələb edir, çünki onların mənası çox vaxt sözün birbaşa tərcüməsindən kənara çıxır. İngilis dilində rənglərlə bağlı idiomların işlənməsi yalnız dilçilik baxımından deyil, həm də psixolinqvistik aspektdən maraqlıdır. İnsan beynində rənglərin emosional təsiri xüsusi neyropsixoloji mexanizmlərlə bağlıdır. Məsələn, qırmızı rəngin ürək döyüntülərini sürətləndirdiyi, mavi rəngin isə sakitləşdirici təsir göstərdiyi sübut olunmuşdur. Bu səbəbdən rənglərlə bağlı idiomların üslubi gücü təkcə mədəni kodlardan deyil, həm də insanın bioloji reaksiyalarından qaynaqlanır (8).

Ədəbiyyat siyahısı:

1. Allan, K. (2009). The connotations of English colour terms: Colour-based metaphors. *Journal of Pragmatics*, 41(3), 626-637.
2. Berlin, B., & Kay, P. (1969). *Basic Color Terms: Their Universality and Evolution*. University of California Press.
3. Crystal, D. (2003). *The Cambridge Encyclopedia of the English Language*. Cambridge University Press.
4. Cəfərov, M. H. (2019). *Frazeologiyanın linqvistik əsasları*. Bakı: Elm nəşriyyatı.
5. Fernando, C. (1996). *Idioms and Idiomaticity*. Oxford University Press.
6. Həşimzadə, F. Ə. (2021). *İngilis dilində idiomların semantik təhlili və üslubi xüsusiyyətləri*. Bakı: Təhsil nəşriyyatı.
7. Kövecses, Z. (2010). *Metaphor: A Practical Introduction*. Oxford University Press.
8. Lakoff, G., & Johnson, M. (1980). *Metaphors We Live By*. Chicago: The University of Chicago Press.
9. Leech, G., & Short, M. (2007). *Style in Fiction*. Pearson Education.
10. McCarthy, M., & O'Dell, F. (2017). *English Idioms in Use*. Cambridge University Press.
11. Moon, R. (1998). *Fixed Expressions and Idioms in English: A Corpus-Based Approach*. Oxford University Press.
12. Smith, J. A. (2020). *Color Symbolism in Idioms: A Cross-Cultural Perspective*. London: Routledge.
13. Williams, B. C. (2018). *The Stylistic Role of Idioms in Modern English*. New York: Cambridge University Press.

Rəyçi: F.f.d., dosent Səmədova İradə Amin qızı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

QARAYEVA AYNUR VALEH
Filologiya üzrə fəlsəfə doktoru
aynur.qarayeva@sdu.edu.az
ŞƏMİLZADƏ GÜNEL RAHİL
shemilzade.gunel@sdu.edu.az
ƏMİRASLANOVA TÜNZALƏ AKİF
tunzale.emiraslanova@sdu.edu.az
Sumqayıt Dövlət Universiteti

İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİNDƏ HUMANİST PRİNSİPLƏRİN ƏHƏMİYYƏTİ

Açar sözlər: humanizm, inklüzivlik, təhsil mühiti, sosial ədalət, inteqrasiya
Key words: humanism, inclusiveness, educational environment, social justice, integration
Ключевые слова: гуманизм, инклюзивность, образовательная среда, социальная справедливость, интеграция

İnklüzivlik, təhsilin bütün fərdlər üçün uyğunlaşdırılaraq əlçatan olması anlayışını özündə cəmləşdirir. Bu yanaşma, uşaqların sosial mənsubiyyətindən, fiziki və əqli fərqlərindən asılı olmayaraq, onların eyni təhsil məkanında birgə öyrənmələrini və inkişaf etmələrini təmin edir. Belə bir sistemin qurulması yalnız hüquqi bazanın mövcudluğu ilə deyil, həm də pedaqoji yanaşmaların humanist prinsiplər əsasında formalaşması ilə mümkündür. İnklüziv təhsil, hər bir şagirdin bənzərsizliyini nəzərə alaraq, onların potensial imkanlarını tam şəkildə ortaya çıxarmağa imkan verir. Bu, eyni zamanda təhsil sisteminin humanistləşdirilməsi baxımından da mühüm bir mərhələdir.

Azərbaycanda inklüziv təhsilin rəsmi şəkildə tətbiqinə 2005-ci ildən başlanılıb və bu istiqamətdə qəbul edilmiş dövlət proqramları, təhsil hüquqlarının həyata keçirilməsini daha da gücləndirmişdir. Xüsusilə, 2018–2024-cü illəri əhatə edən inkişaf proqramında insan mərkəzli yanaşmaların tətbiqi ilə humanist dəyərlərin cəmiyyətə inteqrasiyası məqsəd qoyulmuşdur.

Müasir dövrdə təhsildə baş verən paradiqma dəyişiklikləri nəticəsində xüsusi təhsilə münasibət də dəyişmişdir. Əvvəllər fərdi qüsurlara əsaslanan psixi-tibbi yanaşmalar üstünlük təşkil etdiyi halda, bu gün daha çox sosial-mühit amillərinin önə çəkildiyi təşkilati yanaşma mövqeyə keçmişdir. "Qüsurlu insan yox, qüsurlu mühit" prinsipi, təhsilin yalnız fiziki mühitlə deyil, həm də emosional və sosial dəstəklə formalaşmasının zəruriliyini vurğulayır.

İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün maddi-texniki resurslarla yanaşı, pedaqoji kadrların səriştəsi də həlledici əhəmiyyət daşıyır. Müəllimin bu

sahədə funksionallığı yalnız fənn bilikləri ilə məhdudlaşmamalı, həm də fərqli ehtiyacları olan şagirdlərlə effektiv kommunikasiya və empati qurmaq bacarığına əsaslanmalıdır. Belə müəllimlər, yalnız öyrədən deyil, eyni zamanda formalaşdıran və yönəldən şəxsiyyətlər kimi çıxış edirlər.

Təcrübələr göstərir ki, sağlamlıq imkanları məhdud uşaqlar erkən yaşlardan ümumi təhsil mühitinə inteqrasiya olunduqda, onların sosial bacarıqları daha sürətli inkişaf edir və adaptasiya prosesi daha effektiv şəkildə baş tutur. Bu, təkcə həmin uşaqlar üçün deyil, ümumilikdə cəmiyyətin tolerantlıq səviyyəsinin yüksəlməsi üçün də vacibdir.

İnklüziv təhsil anlayışı zamanla təkcə fiziki və əqli qüsurları olan uşaqlarla məhdudlaşmayaraq, sosial-iqtisadi baxımdan risk qrupuna daxil olan uşaqları da əhatə etməyə başlamışdır. Beləliklə, inklüzivlik ideyası, geniş mənada bərabər imkanların yaradılmasına yönəlmiş sosial ədalət konsepsiyası ilə birləşmişdir. İnklüziv təhsil cəmiyyətin bütün təbəqələri üçün açıq və ədalətli bir mühitin formalaşdırılması baxımından təkcə pedaqoji deyil, həm də etik və sosial məsuliyyət xarakteri daşıyır. İnsanlara fiziki, əqli, sosial və mədəni fərqlərindən asılı olmayaraq, eyni şəraitdə inkişaf imkanı təqdim edən bu model, müasir təhsilin humanist və demokratik dəyərlərlə zənginləşməsində mühüm rol oynayır.

İnklüziv təhsil modelinin tətbiqi, təkcə sağlamlıq imkanları məhdud olan uşaqların sosial və akademik inkişafını deyil, eyni zamanda ümumi cəmiyyətin maariflənməsini və tolerantlıq səviyyəsinin yüksəlməsini hədəfləyir. Beləliklə, inklüzivlik təkcə təhsil sistemi daxilində deyil, sosial münasibətlər müstəvisində də humanist prinsiplərin tətbiq sahəsinə çevrilir. Məhz bu səbəbdən inklüziv təhsilin həyata keçirilməsi üçün yaradılan mühit – sinif otaqları, təlim materialları, metodologiyalar və müəllim hazırlığı – fərqli tələbatlara cavab verəcək şəkildə planlaşdırılmalıdır.

Ənənəvi pedaqoji modellərlə müqayisədə, inklüziv təhsil yanaşması şagirdlərin mərkəzdə olduğu şəxsiyyətyönümlü təhsil fəlsəfəsini əsas götürür. Bu fəlsəfə çərçivəsində müəllim, yalnız bilik ötürən deyil, həm də tərbiyəçi, müşahidəçi, yolgöstərən və dəstəkverici funksiyalarını yerinə yetirir. Xüsusi ehtiyacları olan şagirdlərin təhsil alması üçün uyğunlaşdırılmış kurikulumların hazırlanması, onların inkişaf tempinə uyğun fərdi təlim planlarının tətbiqi və təlim-tərbiyə metodlarının diversifikasiyası bu sahədə əsas istiqamətlərdəndir.

Təcrübələr göstərir ki, qapalı mühitlərdə fəaliyyət göstərən xüsusi məktəblər şagirdlərin sosial əlaqələrini və cəmiyyətə inteqrasiya imkanlarını məhdudlaşdırır. Bu cür təcrid edici yanaşmalar, fərdi inkişaf imkanlarının genişlənməsi qarşısında maneələr yaradır. Bu baxımdan, inklüziv təhsil yalnız təhsilə çıxışı deyil, həm də sosial inklüzivliyi və emosional rifahı təmin edən kompleks bir yanaşmadır. İnsanların birgə öyrənməsi, qarşılıqlı hörmət və empati əsasında qurulan münasibətlər müsbət sosial mühit formalaşdırır ki, bu da inklüzivlik mədəniyyətinin əsasını təşkil edir.

İnklüziv təhsilin daha da uğurla reallaşması üçün müəllimlərin bu sahədə davamlı peşəkar inkişafı zəruridir. Müasir müəllim həm didaktik, həm də psixoloji cəhətdən hazırlıqlı olmalı, şagirdlərin müxtəlifliklərini anlamaq və onları bir sinif mühitində uğurla yönləndirmək bacarığına sahib olmalıdır. Bu məqsədlə müəllimlərin inklüziv pedaqogika, differensial təlim, müsbət sinif idarəçiliyi və alternativ qiymətləndirmə strategiyaları üzrə təlimlərə cəlb olunması böyük əhəmiyyət kəsb edir.

İnklüziv təhsil modelinin effektivliyi yalnız təhsil mühiti ilə məhdudlaşmır; ailə, icma və cəmiyyətin digər üzvləri ilə qarşılıqlı əməkdaşlıq da burada mühüm rol oynayır.

Müasir Azərbaycan təhsil sistemində inklüziv təhsil modeli, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün bərabər təhsil imkanlarının yaradılmasına xidmət edən əsas strateji istiqamətlərdən birinə çevrilmişdir. Bu model, ümumi təhsil sisteminə inteqrasiya olunmaqla yanaşı, həm də onun transformasiyasına təkan verir. Əsas məqsəd, təhsilin hər bir fərd üçün əlçatan və mənəvi cəhətdən ədalətli şəkildə təşkili ilə bağlıdır. Sağlamlıq imkanları məhdud olan uşaqların təhsil hüququnun təmin edilməsi artıq yalnız sosial məsuliyyət deyil, həm də dövlətin prioritet vəzifələrindən biridir. Pedaqoji inteqrasiya prosesi, inkişaf xüsusiyyətlərində fərqlilik göstərən uşaqların ümumi təhsil sistemində bərabərhüquqlu iştirakını nəzərdə tutur ki, bu da inklüziv təhsilin funksional dəyərini artırır. Belə bir mühitdə təhsilin təşkili yalnız pedaqoji məqsədlərə deyil, həm də sosial inklüzivliyə xidmət edir. İnklüzivlik, təhsilin bütün fərdlər üçün uyğunlaşdırılaraq əlçatan olması anlayışını özündə cəmləşdirir. Bu yanaşma, uşaqların sosial mənsubiyyətindən, fiziki və əqli fərqlərindən asılı olmayaraq, onların eyni təhsil məkanında birgə öyrənmələrini və inkişaf etmələrini təmin edir. Belə bir sistemin qurulması yalnız hüquqi bazanın mövcudluğu ilə deyil, həm də pedaqoji yanaşmaların humanist prinsiplər əsasında formalaşması ilə mümkündür.

Müasir dövrdə təhsildə baş verən paradiqma dəyişiklikləri nəticəsində xüsusi təhsilə münasibət də dəyişmişdir. Əvvəllər fərdi qüsurlara əsaslanan psixi-tibbi yanaşmalar üstünlük təşkil etdiyi halda, bu gün daha çox sosial-mühit amillərinin önə çəkildiyi təşkilati yanaşma mövqeyə keçmişdir. İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün maddi-texniki resurslarla yanaşı, pedaqoji kadrların səriştəsi də həlledici əhəmiyyət daşıyır. Müəllimin bu sahədə funksionallığı yalnız fənn bilikləri ilə məhdudlaşmamalı, həm də fərqli ehtiyacları olan şagirdlərlə effektiv kommunikasiya və empati qurmaq bacarığına əsaslanmalıdır. İnklüziv təhsil modelinin effektivliyi yalnız təhsil mühiti ilə məhdudlaşmır; ailə, icma və cəmiyyətin digər üzvləri ilə qarşılıqlı əməkdaşlıq da burada mühüm rol oynayır. İnklüziv təhsilin uğurla həyata keçirilməsi cəmiyyətin inkişafının mühüm göstəricilərindən biri hesab olunur. Bu model, sadəcə təhsilin deyil, həm də sosial ədalətin təmin olunmasının alətinə çevrilmişdir.

Nəticə olaraq qeyd etmək olar ki, inklüziv təhsil yalnız bir təhsil modeli deyil, cəmiyyətin bütün üzvləri üçün ədalətli, bərabər və hörmətə əsaslanan yanaşmanın təzahürüdür. İnklüziv təhsil modeli, sağlamlıq imkanları məhdud uşaqlarla yanaşı, sosial-iqtisadi çətinliklər yaşayan və ya mədəni fərqliliklərə malik ailələrdən olan uşaqların da təhsil sisteminə uğurla inteqrasiyasını nəzərdə tutur. Bu, inklüziv təhsilin yalnız tibbi və fiziki meyarlarla deyil, həm də sosial və psixoloji ölçülərlə əlaqələndirildiyini göstərir.

Əgər inklüziv təhsil təkcə məktəb daxilində deyil, eyni zamanda ailə, icma və cəmiyyət səviyyəsində də dəstəklənərsə, o zaman bu sistemin nəticələri daha davamlı və effektiv ola bilər. Bu baxımdan inklüziv təhsil sadəcə bir pedaqoji model deyil, daha geniş mənada sosial ədalətə, insan hüquqlarına və bərabər imkanlara əsaslanan dəyərlər sistemidir. Uğurlu inklüziv təhsil mühitinin yaradılması üçün məktəblərdə fiziki mühitin uyğunlaşdırılması, alternativ qiymətləndirmə metodlarının tətbiqi, pedaqoji heyətin inklüziv pedaqogika sahəsində mütəmadi ixtisasartırması və valideynlərlə mütəşəkkil əməkdaşlığın qurulması vacibdir. Eyni zamanda inklüziv təhsil mühitində çalışan müəllimlərdə bəzi şəxsi və peşəkar keyfiyyətlərin inkişaf etdirilməsi vacib hesab olunur. Bu keyfiyyətlərə empati qurmaq bacarığı, pozitiv münasibət, problemhəll etmə, fərdi yanaşma, fərqli təlim ehtiyaclarını qəbul etmək, əməkdaşlıq və komanda işi daxildir.

İnklüziv təhsil konsepsiyası, XXI əsrin təhsil sistemlərinin demokratikləşməsi və humanistləşməsi baxımından mühüm nəzəri və praktik baza təşkil edir. Bu yanaşma yalnız təhsil sahəsində deyil, eyni zamanda sosial siyasətdə də inklüziv yanaşmaların tətbiqinə yol açır.Beləliklə, inklüziv təhsil yalnız bir təhsil forması deyil, insan ləyaqətinin, hüquqlarının və potensialının tanındığı və dəstəkləndiyi bir həyat fəlsəfəsidir. Bu fəlsəfə çərçivəsində qurulan təhsil sistemi hər bir uşağın fərdi inkişaf potensialını üzə çıxararaq onu cəmiyyətin fəal üzvünə çevirə bilər.

Ədəbiyyat:

1. Əmrullayev, E. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 15 iyul 2022-ci il tarixli F-443 nömrəli sənədi. 2022
2. Hüseynov, Q., Şərəfxanova, L., Məmmədova, S., & Mikayılova, Ü. İnklüziv təhsil. Bakı. 2010
3. Hüseynova, T. İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası (Dərs vəsaiti). Bakı: ADPU-nun nəşri. 2017
4. Xudaverdiyeva, T. İnklüziv təhsildə təlimin təşkili prinsipləri: perspektivlər və nəticələr. Azərbaycan Məktəbi, 3(696), 49–58. 2021
5. İnklüziv siniflərdə təlimin təşkili. Bakı. Oxu materialı. http://www.tipii.edu.az
6. Qasımov, S., Kərimova, E., və b. İnklüziv təhsil: müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait. Bakı: OKA Ofset. 2006
7. Şərəfxanova, L., Məmmədova, S., & Mikayılova, Ü. İnklüziv təhsil: Məktəbəqədər təhsil pilləsi üçün. Bakı. 2010

XÜLASƏ

Müasir Azərbaycan təhsil sistemində inklüziv təhsil modeli, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün bərabər təhsil imkanlarının yaradılmasına xidmət edən əsas strateji istiqamətlərdən birinə çevrilmişdir. Bu model, ümumi təhsil sisteminə inteqrasiya olunmaqla yanaşı, həm də onun transformasiyasına təkan verir. Əsas məqsəd, təhsilin hər bir fərd üçün əlçatan və mənəvi cəhətdən ədalətli şəkildə təşkili ilə bağlıdır. Sağlamlıq imkanları məhdud olan uşaqların təhsil hüququnun təmin edilməsi artıq yalnız sosial məsuliyyət deyil, həm də dövlətin prioritet vəzifələrindən biridir. Pedaqoji inteqrasiya prosesi, inkişaf xüsusiyyətlərində fərqlilik göstərən uşaqların ümumi təhsil sistemində bərabərhüquqlu iştirakını nəzərdə tutur ki, bu da inklüziv təhsilin funksional dəyərini artırır. Belə bir mühitdə təhsilin təşkili yalnız pedaqoji məqsədlərə deyil, həm də sosial inklüzivliyə xidmət edir.

Garayeva Aynur
Gunel Shamilzadeh
Tunzale Amiraslanova

SUMMARY
THE ORGANIZATION OF HUMANISTIC PRINCIPLES IN THE IMPLEMENTATION OF INCLUSIVE EDUCATION

Conclusion The inclusive education model in the education system of Azerbaijan is one of the main strategies for the creation of equal educational opportunities for children with disabilities. This model is close to being integrated into the general education system and gives impetus to its transformation. The main purpose of education is to organize each individual in a fair manner in three ways and in a different way. Ensuring the right to education of children with disabilities is not only a social responsibility, but also one of the priority tasks of the state. The process of pedagogical integration shall ensure the equal participation of children with differences in developmental characteristics in the general education system, which is also a functional part of inclusion. will increase. In a certain environment, the organization of education is not only for pedagogical purposes, but also for social inclusive services.

Организация гуманистических принципов в реализации инклюзивного образования

РЕЗЮМЕ

Заключение Модель инклюзивного образования в системе образования Азербайджана является одной из основных стратегий создания равных образовательных возможностей для детей с ограниченными возможностями. Эта модель близка к интеграции в систему общего образования и дает толчок к ее трансформации. Основная цель образования - справедливая организация каждого индивида тремя способами и по-разному. Обеспечение права на образование детей с ограниченными возможностями - это не только социальная ответственность, но и одна из приоритетных задач государства. Процесс педагогической интеграции должен обеспечить равноправное участие детей с различиями в особенностях развития в системе общего образования, что также является функциональной частью инклюзии. будет увеличиваться. В определенной среде организация образования осуществляется не только в педагогических целях, но и для социальных инклюзивных услуг.

Rəyçi: Dosent Aytəkin Məmmədova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

LARISA VLADIMIROVNA KOLESNIKOVA
ADPU-nun
Xarici Dillər Mərkəzinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
larisa37288@gmail.com
S.Rəhimov 167

КРОСС-КУЛЬТУРНЫЕ АСПЕКТЫ В ИЗУЧЕНИИ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО

РЕЗЮМЕ

Русский язык, будучи одним из мировых языков международного общения, изучается представителями различных этнокультурных сообществ. Однако овладение русским языком иностранными студентами неизбежно связано с преодолением культурных барьеров и различий, влияющих на процесс обучения.

Кросс-культурные аспекты изучения русского языка как иностранного (РКИ) включают в себя проблемы межкультурной коммуникации, различия в языковом сознании, влияние национальной культуры на речевое поведение и стратегию обучения. В данной статье рассматриваются основные кросс-культурные особенности изучения РКИ, типичные ошибки иностранцев, влияние культурных различий на язык и методы их преодоления.

Ключевые слова: аспект, кросс-культурный подход, коммуникация, метод, усвоение

Кросс-культурная коммуникация – это взаимодействие представителей различных культур, основанное на их языковых и культурных различиях. Этот процесс затрудняется различиями в ценностных установках, коммуникативных нормах, невербальном поведении и прагматических стратегиях.

В контексте изучения русского языка как иностранного кросс-культурные различия могут приводить к:

- Ошибкам в восприятии значений слов и выражений.
- Трудностям в адаптации к русскому языковому этикету.
- Барьерам в понимании русской культуры и традиций.

Каждая культура по-разному воспринимает систему ценностей, правила общения и ролевые модели, что отражается на освоении русского языка.
Например:

- **Студенты из Азии** (Китай, Япония, Корея) чаще испытывают трудности с русской категорией вида глагола, поскольку в их родных языках данная категория отсутствует.

- **Англоговорящие студенты** могут испытывать проблемы с системой падежей, так как в английском языке грамматическая падежная система практически отсутствует.
- **Арабские студенты** часто допускают ошибки в произношении русских звуков, таких как [ы] и [ж], поскольку в арабском языке нет аналогов этих фонем.

Кросс-культурные различия в грамматике, фонетике и лексике приводят к возникновению следующих языковых трудностей:

- **Фонетические трудности** – трудность произношения звуков ([р], [ы], [щ]).
- **Грамматические трудности** – проблемы с употреблением падежей, аспектуальности глаголов.
- **Семантические барьеры** – неправильное понимание значений слов из-за межъязыковых интерференций.

Для иностранцев сложность представляют специфические звуки русского языка, отсутствующие в их родных языках.

Примеры фонетических ошибок:

- **[ы] – [и]**:
  - *«Синый» вместо «синий»* (характерно для носителей английского, китайского, французского).
- **[р] – [л]**:
  - *«Калоша» вместо «картошка»* (типично для японцев и китайцев).
- Смешение звонких и глухих согласных
- Фонетическая интерференция родного языка: в английском нет звука **[ы]**, во французском нет различия между звонкими и глухими согласными на конце слова.

Методы коррекции:

1. Артикуляционная гимнастика.
2. Аудио-тренировки с фонетическим разбором.
3. Запись собственного голоса и сравнение с эталоном.

Китайские студенты часто путают слова «молодец» и «молодой», так как в китайском языке оба понятия могут выражаться одним словом. Некоторые культурные особенности русского языка вызывают затруднения у иностранцев. Например:

- Русские приветствия и прощания отличаются от западных: в России норма сказать «Привет!» или «Здравствуй!», а в английском чаще используют более формальные выражения («Hello!», «Hi!»).
- Вежливость в русском языке выражается не столько в вежливых оборотах, сколько в интонации и контексте, тогда как в английском

языке большее значение имеют такие конструкции, как «Could you please...».

Ошибки в употреблении падежей:

Падежная система вызывает трудности у носителей языков, где падежи отсутствуют (английский, китайский, французский).

Типичные ошибки:

- *«Я живу в Москва»* (вместо «в Москве»).
- *«Я думаю о мама»* (вместо «о маме»).
- *«Дай мне эта книга»* (вместо «эту книгу»).

Методы коррекции:

- Артикуляционная гимнастика.
- Аудио-тренировки с фонетическим разбором.
- Запись собственного голоса и сравнение с эталоном.

Американские студенты могут воспринимать прямолинейность русской речи как грубость, так как в английском языке принята более завуалированная форма вежливости. В различных культурах существуют различия в использовании жестов, мимики и личного пространства. Например:

- В России принято смотреть собеседнику в глаза, тогда как в Азии прямой взгляд может восприниматься как вызов.
- Русские часто используют интенсивную жестикуляцию, тогда как в Японии жестикуляция минимальна.

Итальянские студенты быстрее адаптируются к русской манере жестикулировать, чем японские.Многие иностранцы, особенно носители английского и китайского языков, испытывают трудности с системой падежей.

Пример ошибки:

Я люблю смотреть на красивый картина. (вместо «на красивую картину»).

Выбор совершенного и несовершенного вида глагола сложен для многих студентов.

Пример ошибки:

Я прочитал книгу каждый день. (вместо «Я читаю книгу каждый день»).

Студенты из Азии часто используют обращения не по нормам русского языка, например, говорят «учитель Иван» вместо «Иван Петрович».

Ошибки в употреблении вида глагола:

Выбор между совершенным и несовершенным видом особенно сложен для иностранцев, поскольку в большинстве языков мира такой категории нет.

Типичные ошибки:

- *«Я написал письмо каждый день»* (вместо «Я пишу письмо каждый день»).
- *«Я буду ходить в магазин»* (вместо «Я схожу в магазин»).
- *«Он смотрел фильм и понял всё»* (вместо «Он посмотрел фильм и понял всё»).

Причина ошибок:

Иностранцы часто используют совершенный вид там, где требуется несовершенный, и наоборот, потому что ориентируются на аналогичные категории в своих языках.

Методы коррекции:

- Чёткое объяснение значений видов (длительность vs. завершённость).
- Сравнение с родным языком учащихся.
- Контекстные упражнения (с выражениями времени: *всегда, часто, вчера, уже*).

Лексические ошибки:

Лексическая интерференция приводит к употреблению слов, схожих по звучанию, но разных по значению.

Типичные ошибки:

- *«Магазин» (англ. magazine) – «журнал»*
- *«Фамилия» (англ. family) – «семья»*
- *«Университет» (франц. université) – «колледж»*

Методы коррекции:

- Создание таблиц «ложных друзей».
- Контекстные задания на выбор правильного значения.

Неправильное использование русских синонимов:

Многие иностранцы путают русские слова, близкие по значению.

Типичные ошибки:

- *«Я счастлив видеть тебя»* (вместо «Я рад видеть тебя»).
- *«Она прекрасная девушка»* (вместо «Она красивая девушка»).
- *«Он хороший работник»* (вместо «Он трудолюбивый работник»).

Методы коррекции:

- Использование синонимических рядов.
- Контекстные упражнения.

Современные методы преподавания включают элементы культуроведческого подхода:

- **Сравнительный анализ языков** (объяснение различий между родным языком студента и русским).
- **Метод ролевых игр** (разыгрывание сцен повседневного общения).
- **Аутентичные материалы** (фильмы, книги, газеты на русском языке).

Онлайн-ресурсы, подкасты и видеоматериалы помогают иностранным студентам лучше адаптироваться к русской языковой среде.Лучший способ преодоления барьеров – это погружение в языковую среду, например, через программы академической мобильности.

Кросс-культурные аспекты играют важную роль в изучении русского языка как иностранного. Они включают в себя языковые, культурные и коммуникативные барьеры, которые можно преодолеть с помощью современ-

ных методик преподавания. Грамотное использование межкультурного подхода способствует успешной адаптации иностранных студентов и более эффективному усвоению русского языка.

ЛИТЕРАТУРА

1. Гальскова Н. Д. Современная методика обучения иностранным языкам. – М.: Академия, 2018.
2. Халеева И. И. Межкультурная коммуникация и преподавание иностранных языков. – М.: Флинта, 2020.
3. Wierzbicka A. Cross-cultural Pragmatics: The Semantics of Human Interaction. – Berlin: Mouton de Gruyter, 2003.
4. Верещагин Е. М., Костомаров В. Г. Язык и культура. – М.: Русский язык, 2019.
5. Хутыз М. Б. Русский язык как иностранный: теория и практика. – СПб.: Лань, 2021.
6. Фирбас, Я. Коммуникативная динамика текста. — Прага: Academia, 1992.
7. Гальперин, И.Р. Текст как объект лингвистического исследования. — М.: Наука, 1981.
8. Дресслер, В. Введение в лингвистику текста. — М.: Прогресс, 1986.
9. Ван Дейк, Т.А. Язык. Познание. Коммуникация. — М.: Прогресс, 1989.
10. Брандес, М.П. Стилистика текста. — М.: Флинта, 2004.
11. Кубрякова, Е.С. О тексте и критериях его определения. — М.: Наука, 2001.
12. Чейф, У.Л. Значение и структура языка. — М.: Прогресс, 1975.

RUS DİLİNİN XARİCİ DİL KİMİ ÖYRƏNİLMƏSİNDƏ MƏDƏNİYYƏTLƏRARASI ASPEKTLƏR

XÜLASƏ

Beynəlxalq ünsiyyətin dünya dillərindən biri olan rus dilini müxtəlif etnik-mədəni icmaların nümayəndələri öyrənirlər. Bununla belə, əcnəbi tələbələrin rus dilini mənimsəməsi istər-istəməz tədris prosesinə təsir edən mədəni maneələrin və fərqlərin aradan qaldırılması ilə bağlıdır. Rus dilinin xarici dil kimi öyrənilməsinin mədəniyyətlərarası aspektlərinə mədəniyyətlərarası ünsiyyət problemləri, linqvistik şüurdakı fərqlər, milli mədəniyyətin nitq davranışına və öyrənmə strategiyasına təsiri daxildir. Bu məqalədə Rus dilinin xarici dil kimi öyrənilməsinin əsas mədəniyyətlərarası xüsusiyyətləri, əcnəbilərin tipik səhvləri, mədəni fərqlərin dilə təsiri və onların aradan qaldırılması üsulları araşdırılır.

Açar sözlər: aspekt, mədəniyyətlərarası yanaşma, ünsiyyət, metod, assimilyasiya

LARISA VLADIMIROVNA KOLESNIKOVA

CROSS-CULTURAL ASPECTS IN STUDYING RUSSIAN AS A FOREIGN LANGUAGE

SUMMARY

Russian, being one of the world languages of international communication, is studied by representatives of various ethnocultural communities. However, mastering Russian by foreign students is inevitably associated with overcoming cultural barriers and differences that affect the learning process. Cross-cultural aspects of studying Russian as a foreign language (RFL) include problems of intercultural communication, differences in linguistic consciousness, the influence of national culture on speech behavior and learning strategy. This article examines the main cross-cultural features of studying RFL, typical mistakes of foreigners, the influence of cultural differences on language and methods for overcoming them.

Key words: aspect, cross-cultural approach, communication, method, assimilation

Rəyçi: filologiya elmləri doktoru, professor F. Baxşıyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

MANAFLI XANIMANA FƏTƏLİ QIZI
Bakı Dövlət Universiteti
Azərbaycan dili və nitq mədəniyyəti
xanimmanafli8@gmail.com
İD 0009-0004-4261-3486

AKADEMİK KOMMUNİKASİYA ZAMANI ÇIXIŞA HAZIRLIQ

Xülasə

Danışmaq ətrafımızla ünsiyyət qurmağımıza səbəb olan və insanların istedadını üzə çıxaran bir bacarıqdır. Onun vasitəsilə insan biliklərini, düşüncələrini sürətlə ötürə bilir, öz duyğularını ifadə etmək üçün ən uyğun kəlmələri seçir, öz fikirlərinə güvənməyi, problemləri ortaya qoymağı öyrənir. Əgər qarşınızda birdən çox (ən az on beş nəfər) insan varsa, artıq kütlə qarşısında çıxış etmiş olursunuz. Toplum qarşısında danışmaq müxtəlif səbəblərdən bir çox insanın qorxulu röyasıdır. Əgər ilk dəfə kütlə qarşısına çıxırsınızsa, bu, əslində normaldır. Çünki, ilk dəfə görülən hər işdə bir az qorxu, bir az həyəcan olur. Lakin elə sahələr var ki, tez-tez iş görüşmələrində çıxış etmək, auditoriya qarşısında mühazirə söyləmək lazım gəlir. İnsan bu vaxt bəzən gərgin olur, stress keçirir, ovuc içi tərləyir, ürək döyüntüləri artır, əllərin-ayaqların titrəməsi, nəfəs almada çətinlik çəkmək, ürəkbulanma, diqqəti toplaya bilməmək kimi neqativ hallara məruz qalır. Bu vəziyyət idarə edilməzsə, həm işimizdə, karyeramızda irəli getməyimizə, həm də şəxsi həyatımızda bir sıra əngəllər törədə bilər. Xüsusilə, bizim kimi tez-tez auditoriya qarşısına çıxıb mühazirə söyləyən müəllimlər bu fobini aşa bilsə, peşəkar fəaliyyəti daha asanlaşar. Məqalədə bu qorxunu yaradan səbəblər və onlarla mübarizə etmənin yolları sadalanıb.

Şübhəsiz ki, danışmaq üçün kütlə qarşısına çıxarkən əli-ayağı bir-birinə dolaşan birinin dinləyicilər üzərində heç bir təsiri ola bilməz. Kiçik həyəcanlar çıxış edəni dinamik tutsa da, böyük həyəcan onun imajını yerlə bir edə bilər. Üstəlik böyük həyəcan dinləyicilərin də stressə girməsinə səbəb ola bilər. Stres içində dinlənilən bir çıxış nə qədər təsirli ola bilər.. Cəsarətli olmaq elə də çətin deyil. Hətta bunun üçün əyləncəli yollar da var. Sadəcə zehnimizdə hördüyümüz divar var. Özünəinamın yaranması çox zaman əhəmiyyət vermədiyimiz adətləri dəyişməklə də başlaya bilər. Ən bərbad vəziyyət belə bizim cəsarətimizə görə möhtəşəm nəticə verə bilər. Yəni danışmaq üçün qarşısına çıxdığımız auditoriya nə qədər bizi qorxutsa da, mütləq bir çıxış yolu vardır və bizim işimiz bu yolu tapmaqdan ibarətdir. Öz nitqləri ilə insanlar üzərində böyük təsir buraxan şəxslərə baxaq. Onlar da bizim kimi eyni fiziologiyaya sahibdirlər, üstəlik də bəziləri ilk vaxtlarda bəlkə bu qədər cəsarətli olmayıblar. Bizim onlardan fərqimiz əksik təcrübə və biliklərdir.

Açar sözlər: akademik kommunikasiya, şifahi nitq vərdişləri, kütlə qarşısında nitq, səhnə qorxusu, həyəcanla mübarizə metodları, natiqin auditoriyada davranış tərzi.

Yaşadığımız dövr ünsiyyət, kommunikasiya dövrüdür. Ailə içində belə özünü və fikirlərini müdafiə etmək çox əhəmiyyət daşıyır. Uşaqların tərbiyəsində bu məsələyə daha çox diqqət ayrılmalıdır. Haqlı olduqları zaman özlərini müdafiə edə bilmələri onların sosial cəsarətlərini gücləndirəcəkdir. Amerikalı böyük natiq Vilyam Bryan "Gözəl danışmaq sadəcə Allah vergisi deyil, əziyyətlə də qazanılan bir nemətdir" deyirdi. Yəni gözəl natiq olmanın yolu qüvvətli bir arzudan keçər. Bunu çox istəməlisiniz, istəyincə zəhmət çəkər, zəhmətin qarşılığında isə zirvəyə nail ola bilərsiniz. Riçard Bransona görə, "Əgər çıxışınızı yuxuda görmürsünüzsə, deməli kifayət qədər hazır deyilsiniz." Çıxış öncəsi mövzuya yaxşı hazırlaşmaq hər zaman insanı vəziyyətdən çıxardır. Uğursuzluğun 90%-nin kökündə hazırlıqsız olmaq dayanır. İnsan hazırlıqsız olanda düşünür ki, hər şey keçəcək, lakin keçmir. Yaxşı hazırlaşmış olsanız, qarşılaşacağınız bütün çətin vəziyyətlərin öhdəsindən gələcəksiniz, unutmaq ehtimalları çox aşağı olacaq, özünüzə inamlı olacaqsınız. Napoleonun "Hərb elə bir sənətdir ki, ən kiçik bir düşüncə tənbəlliyini, ən kiçik bir hesab xətasını belə bağışlamaz" sözləri natiqlik sənəti üçün də keçərlidir. Necə ki hərbdə komandir həm ordusuna, həm də silahlara nəzarət etmək, onları planlı şəkilkdə idarə etmək məcburiyyətindədirsə, yaxşı natiq də sözlərinə hakim olmağa və fikirlərini planlı şəkildə çatdırmağa məcburdur. Amerika tarixçisi və senatoru Albert Beveric natiqlik sənəti ilə bağlı tövsiyələrində çıxışa hazırlaşarkən bunlara riayət etməyi məsləhət bilirdi: "Natiq mövzuya hakim olmalıdır. Bunun üçün mövzu ilə bağlı məlumatlar toplamalı, onları saf-çürük etməli, sonra sistemləşdirməlidir. Toplanan materialların mövzunu bir istiqamətdən deyil, hərtərəfli aydınlatmasına diqqət etməlidir." (1, 37) Amerikan siyasətçisi Daniel Vebster dinləyici qarşısında yarı hazırlıqlı olan birinin yarı geyinmiş kimi göründüyünü söyləyirdi.

Çox önəmli bir məqam: Çıxışınızı üzündən oxuyacaqsınız, yoxsa əzbər söyləyəcəksiniz? Bəzi mütəxəssislər xəbərdarlıq edirlər ki, çıxışın mətnini əvvəlcədən öyrənmək lazım deyil. Bu, çox zaman qeyri-təbii, çevik olmayan bir şərhə çevrilir. Əzbərlənmiş çıxışda üz və bədən hərəkətləri yoxdur. Natiq tələsməyə meyilli olur, sözləri mənasına varmadan tələffüz edir. Çünki o, davamlı şəkildə söyləyəcəyi bir sonrakı sözləri düşünür. Bundan başqa mətnin əzbərlənməsi metodu ona görə pisdir ki, nitqə auditoriyanın münasibətinə uyğun şəkildə dəyişikliklər etməyə imkan vermir. Çox zaman da kəlmə-kəlmə əzbərlənmiş nitq dinləyicilərlə göz-gözə gələndə anidən unudulur. Vinston Çörçil gəncliyində çıxışını yazıb əzbərləyirdi. Sonra bir gün Parlamentdə əzbərlədiyi nitqi söyləyərkən tutuldu və sanki beyni boşaldı. Çox utandı, üzü qızarmış halda yerinə oturdu. O gündən sonra V.Çörçil heç vaxt əzbərlənmiş nitq söyləmədi. (2, 43)

Çıxışı əzbərləmənin yeganə faydası odur ki, natiq söyləmək istədiklərini olduğu kimi çatdırır. Sırrı Er "Topluluk önünde etkili konuşma teknikleri" adlı kitabında yazır: "Okunan bir konuşma yanlış yorumlara yer vermez. Bir cümhurbaşkanı, bir başbakan konuşmalarını hemen hemen okumak mecburiyərtindedir. Yanlış bir ifade onların siyasi hayatlarına son verebileceği gibi, beynelmilel anlaşmazlıklara dahi yol açabilir. Normal şartlar altında dahi hatipler, çok defa ellerində olmayarak, söylemek istediklerini unutur ve bazen de, söylemek istemediklerini söylemekden kendilerini alamazlar. Kağıttan okunan bir konuşma için bunlar varid değildir." (3, 72)

Düzdür, dövlət adamları hər kəlməsini ölçüb-biçib, düşünüb danışmalıdır. Belə bir tələb qarşısında onlar üzündən oxuya bilər, lakin siz təsirli, gözəl, bəlağətli çıxış etmək istəyirsinizsə, üzündən oxumamağa özünüzü alışdırmalısınız, çünki danışan gözlərini mətnə zillədiyi üçün öz dinləyicilərinə baxa bilmir, yalnız hərdən nəzər salır. Göz təması təkcə dinləyicilərlə ünsiyyət üçün lazım deyil, həm də onun sayəsində dinləyicilərin reaksiyalarını, nə hiss etdiklərini müşahidə edib çıxışınızı ona görə yönləndirə bilərsiniz. Göz təması olmasa, dinləyicilərlə danışan arasında həm bağ qurulmur, həm də güvən hissi yaranmır. Dinləyicilər fiziki olaraq həmin auditoriyada olsalar da, zehinləri ordan çox uzaqlarda olur. Danışıq əsnasında ən nümunəvi göz təması müddəti 2-3 saniyə, hətta bir cümləni deyib bitirmə müddətidir. Siz insanın gözünə baxanda baxışınızla sözlərinizə və mövqeyinizə əminliyinizi və inamınızı nümayiş etdirirsiniz. Ona görə də mətnin həm əzbər söylənilməsi, həm də üzündən oxunması doğru metod deyil və danışanla auditoriya arasında sədd yaradır.

Lakin çoxumuz yenə də üzündən oxumaqda israrçı olacağımız üçün heç olmasa yazılı mətni üzündən necə oxumaq lazım olduğuna baxaq. Yadda saxlayaq ki, mətni kağızdan səsli şəkildə oxumaq elə də asan deyil. Yazılanları təsirli bir şəkildə oxumaq üçün illərin təcrübəsi və böyük zəhmət lazımdır. Lakin ən gözəl tərzdə oxunan çıxış yenə də bədahətən söylənən çıxışdan daha az təsirli olacaq. Buna baxmayaraq, biz üzündən oxumaq istəyənlərə bəzi tövsiyələr verək: Rahat oxuya bilmək üçün sətirlərarası interval iki və ya üç olsun, son məqamda mətnə heç bir dəyişiklik etməyin, kağızın kənarlarına qeydlər etməyin. Dinləyicilərinizin qarşısına çıxmamışdan qabaq çıxışı dəfələrlə səsli şəkildə oxuyun ki mümkün olduğu qədər dinləyicilərə baxa biləsiniz. Bəziləri harda qaldıqlarını itirməmək üçün barmaqlarını oxuduqları sətirlərin üzərində gəzdirirlər. Bu zaman əllər məşğul oldugu üçün jest edə bilmirlər. Mənasız, monoton oxumamaq üçün kəlmələrdən daha çox fikirlər üzərində durun. Tələsməyin, dəqiqədə 125-175 sözü keçməyin. Fikirlərinizin dinləyicilərə aydın olması üçün arabir fasilə edin, səsinizin tonunu və tempini dəyişin. Yəni, çıxışı hər hansı səbəbdən üzündən oxumalı olacaqsınızsa, heç olmasa yaxşı oxuyun. Çıxışınızda şeir varsa, onu mütləq əzbərləyin, dörd misralıq bir şeiri kağızdan oxumağa çalışan biri məncə, kənardan çox zavallı görünər.

Yaxşı natiqlərin çoxu improvizasiya metodundan istifadə edirlər. Yəni hazırlanmış mətni təbii danışığa çevirmək. Yazılı mətnlərin dil quruluşu və fikri

çatdırma xüsusiyyətləri canlı danışıqdan çox fərqlidir. Ona görə də mətni özününküləşdirmək lazımdır. Əgər yaxşı məruzəçi olmaq istəyirsinizsə, bu metod üzərində israrla durun. Çünki bu zaman natiq yarana biləcək istənilən vəziyyətə asan uyğunlaşa bilir. Amerikanın 16-cı prezidenti Avraam Linkoln rəsmi çıxışlarını üzündən oxuyurdu. Lakin başqa çıxışlarında qeydlərdən istifadə etməzdi. "Danışan zaman qeydlərə baxmanız dinləyiciləri yorar və məyus edər" deyirdi. İmprovizasiya metodundan istifadə edən natiq çıxışını dəfələrcə məşq edir və hər dəfə fikrini ifadə etmək üçün dəyişik, fərqli sözlərdən istifadə edir. Bu minvalla həm dinləyicilərə çatdırmaq istədiyi fikirlərin ardıcıllığı yaddaşında sağlam şəkildə yerləşir, həm də natiq öz fikirlərini müxtəlif şəkillərdə təqdim etməyi bacarır. Sanki o anın verdiyi ilhamla bədahətən danışan biri kimi görünür. Bu metodun əzbərlənmiş nitqdən fərqi də budur. Əzbərlənmiş çıxışda bir sözü belə unudan natiq çıxılmaz vəziyyətə düşə bilər. İmprovizasiya metodundan istifadə edəcək natiqin özünə olan güvənini artırmaq üçün əlində çıxışın mətni olmalıdır, lakin bu mətnə bağlı qalmamalıdır. O, sadəcə ona arxayın olmaq, ilham vermək üçün lazımdır. Əgər yaxşı hazırlaşmısınızsa, inanın, on çıxışın doqquzunda qeydlərə baxmağa ehtiyacınız olmayacaq, amma yenə də bu qeydlərin gözünüzün qabağında, yaxud əlinizdə olması sizi rahatladacaq.

Çıxışa hazırlaşmaq çox vacibdir. "Hazırlıq olmadan da danışa bilərəm" düşüncəsini beyninizdən çıxardın. Düzdür, hazırlıq olmadan da bir şeylər danışa bilərsiniz, amma söyləyəcəyiniz "bir şeylər" gəlişigözəl, ağızdan çıxmış düşüncə qırıntısından başqa bir şey ola bilməz. Natiq öyrənmək üçün onu dinləməyə gəlmiş insanlara hörmət etməyə məcburdur. Hazırlıqsız dinləyicilərin qarşısına çıxmaq hörmətsizlikdir, nəzakətsizlikdir. Dünyanın ən qədim və məşhur natiqlərindən olan Demosfen istedadına güvənib hazırlaşmadan heç vaxt danışmazdı. Həmişə yazılmış mətni öyrənərdi, diqqətlə hər sözü götür-qoy edərdi, məzmun və forma gözəlliyinə dönə-dönə nəzər salarmış.

Mümkün qədər çıxış öncəsi bir neçə dəfə məşq etmək lazımdır. Nitqi dəfələrlə oxumaq-canlandırmaq şəklindəki hazırlıq bütün tanınmış natiqlərin ortaq nöqtəsidir. Kütlə qarşısında danışarkən diqqət dağıdan ən əsas səbəblərdən biri eşidilən "ee", "ıı" kimi doldurucu səslər və demək, deməli, demək istədiyim kimi doldurucu sözlərdir. Əgər hansısa bir konteks əsasında istifadə edirsinizsə, təbii ki, bu normaldır. Amma hər bir yaranan boşluqda siz bu sözlərdən istifadə edirsinizsə, artıq sizin nitqinizin və təqdimatınızın keyfiyyətinə mənfi təsir etmiş olur. Bu səsləri azaltmaq özümüzə olan inamı artırar. Buna görə də evdə güzgü qarşısında həm diksiyamıza, həm də mimika və jestlərimizə diqqət edərək praktika etmək olar.

Kütlə qarşısında ediləcək çıxışlara bir sıra tövsiyələr verilir. Onlardan bəzilərini müəyyənləşdirək:

1.Yaxşı nitq maraqlı və diqqətə dəyər mövzuları əhatə etməlidir. Seçəcəyimiz mövzu həm özümüz, həm də dinləyicilər üçün maraqlı olmalıdır. Təbii ki, bizim üçün maraqlı olmayan bir mövzuda rahat danışa bilmərik. Yəni nitqin

keyfiyyəti üçün mövzu seçimi çox önəmlidir. Əgər yaxşı bir mövzu seçmisinizsə, özünüzə olan inamınız da artacaq, bədən hərəkətləriniz – jestlər daha təbii, canlı, səsiniz qüvvətli, enerjili olacaqdır və bunun da nəticəsində kəlmələr ağzınızdan daha rahat "töküləcəkdir". Dinləyicilərin marağını çəkəcək bir mövzu tapan natiq bu mövzuya hər zaman öz "möhürünü" basa bilər. Düşüncə və fikirlərini müxtəlif qaynaqlardan toplamasına baxmayaraq, onlara özünəxas şəkildə şəffaflıq və rəng qatar, bunları fərdi üslubu ilə birləşdirər.

2. Gözəl nitq danışanın şəxsiyyəti ilə bütünləşməlidir. İkiüzlü, yalançı kimi tanınan biri "Yalan danışmağa niyə ehtiyac duyuruq" mövzusunda çıxışı ilə kimsəni inandıra bilməz. Ona görə insanın şəxsiyyəti ilə söylədiklərinin üst-üstə düşməsi də çox əhəmiyyətlidir.

3.Çıxışın məqsədindən asılı olaraq danışıq 15 dəqiqə ilə 1 saat arasında olmalıdır. 1saatdan sonra hər nə qədər maraqlı çıxış etsəniz belə, sizi dinləmək istəməyəcəklər. Ona görə vaxtdan səmərəli istifadə edin, hər şeyi əhatə etməyə çalışın. Sona yığılıb qalmış fikirləri tələm-tələsik çatdırmağa çalışıb çıxışınızı səliqəsiz formaya salmayın. Dəfələrlə şahid olmuşuq ki, yüksək elmi potensialı olan məşhur bir alimin müəyyən bir tədbirin açılışında söylədiyi dərin məzmunlu məruzəsi sırf uzun və yorucu olduğu üçün prosesin sonrakı gedişini gözdən salmışdır. Düzdür, belə hallarda dinləyicilər məruzəçinin yaşını, çıxışın akademik səviyyəsini nəzərə alıb nəzakətlə oturur, qulaq asırlar, lakin quru, sxolastik fikirlərin aşıladığı donuqluq yığıncağın sonuna kimi iştirakçını tərk eləmir.

4. Danışarkən cümlələrin mümkün qədər qısa olmasına diqqət edin. Ən uzun cümlədə sözlərin sayı 12-ni keçməməlidir. Oxucunun yazıda anlamadığı cümləni təkrar oxuma şansı var, amma çıxışlarda dinləyici uzun bir cümləni qaçırarsa, təkrar dinləmə şansı olmayacaqdır. Zəncir qırıldısa, davamını dinləmək maraqsız olacaq. Bəzi natiqlər nitqlərini həddindən artıq elmi şəkildə qurur. Bu, bəzən bilərəkdən edilir, savadlı görünmək xətrinə, sadə, aydın nitq əvəzinə fikri təmtəraqlı şəkildə ifadə edirlər. Təcrübəli natiqlər isə apardıqları müşahidə ilə birlikdə dərin elmi bilikləri nitqə köçürüb sadə, lakin təsir qüvvəsi olan çıxış hazırlayırlar. Belə nitq daha çox dinləyici rəğbəti qazanır.

5. Səsinizi yüksəltməkdən qorxmayın. Hərəkətləriniz də sözlərinizi təsdiq etsin. Söz söyləyən birinin səsindəki enerji onun sağlamlığını əks etdirir. Dinləyiciyə bu sağlam görüntü xoş təsir edir. Natiqlərin ən uğurlu olanları ən canlı olanlarıdır. Bütün jest və mimikalarında, hər hərəkətlərində həyatın canlılığını əks etdirən, enerjisini çıxışının hər bölümünə bərabər və estetik paylaya bilən natiqlər uğur qazana bilirlər. Dinləyicilər qarşısında təbii davranmaq üçün bir neçə dəfə məşq etməlisiniz. Bunu aktyorlar daha yaxşı bilirlər. Əgər siz beş yaşında bir uşaq olsaydınız, ürəyiniz istəyən kimi davrana bilərdiniz, 45 yaşında birinin 5 yaşındakı bir uşaq kimi təbii davranması mümkün deyil, amma gərəkdir. D.Karnegi yazır ki, "Bir insan hisslərini saxlamazsa, əsl kimliyi ortaya şıxar....Bunun üçün həyəcanını saxlamağa çalışmayan bir adam o həyəcanın təsiri ilə təbii davranır."(1, 84)

Jestləri kitablardan öyrənməyə çalışmayın. Jest içdən gələn hiss-həyəcanın əl-qol hərəkətləri vasitəsilə ifadəsidir. Ən dəyərli jest o anın ilhamı ilə edilən jestdir. Hər insanın özünə xas olan təbii davranışları vardır, ona görə də insanın özünəməxsus yüngül bir əl-qol hərəkəti kitabların öyrətdiyi yüzlərlə mexaniki jestdən daha təsirlidir. Bir də ki, insanın söyləməyə dəyər sözü varsa, onun əl-ayağı kimsənin diqqətini çəkməz.

1. Sözlərin əksəriyyəti bir neçə mənaya malikdir və bu, dilin çoxmənalılıq (polisemiya) xüsusiyyətindən irəli gələn təbii bir dil hadisəsidir. Hər bir leksik vahid zamanla müxtəlif semantik sahələrdə yeni məna çalarları qazana bilər və bu da onun ünsiyyət prosesində çevik şəkildə işlədilməsinə şərait yaradır. Bu çoxmənalılıq dilin dinamikliyini və dəyişkənliyini göstərməklə yanaşı, kontekstin rolunu da ön plana çıxarır. Məsələn, ingilis dilində "run" feli müxtəlif situasiyalarda fərqli semantik dəyərlər ifadə edə bilər. Bu fel fiziki hərəkəti ("The athlete is running"), bioloji prosesi ("Her nose is running"), texnoloji fəaliyyəti ("My computer runs on Windows"), yaxud da idarəetmə funksiyasını ("She's running the company") bildirə bilər. Həmçinin, "run" felinin metaforik və idiomatik işlənmələri də mövcuddur, məsələn: "He's running late" və ya "The play is running for three months." Lyons, J. (1995). *Linguistic Semantics: An Introduction*. Cambridge University Press. Bu nümunələr göstərir ki, eyni leksik vahid müxtəlif semantik sahələrdə fərqli məna komponentləri daşıya bilər. Burada əsas məsələ, həmin mənanın konkret kontekstdə necə aktuallaşdığını düzgün müəyyənləşdirməkdir. Buna görə də, leksik semantika sahəsində aparılan tədqiqatlar sözlərin məna potensialını, onların semantik şəbəkədəki qarşılıqlı əlaqələrini və kontekstdən asılı olaraq yaranan variasiyaları sistemli şəkildə izah etməyə çalışır. Beləliklə, "run" kimi çoxmənalı fellər dilin semantik elastikliyinin və mənanın kontekstə bağlılığının parlaq nümunəsidir. The athlete is running.

2. Polisemiyanın maraqlı formalarından biri də isimlərdə müşahidə olunur. Məsələn, "light" sözü "işıq" mənası ilə yanaşı "yüngül" (light luggage), "ağ rəngli" (light color), "incə" (light meal) və hətta "ciddi olmayan" (light conversation) mənalarında da işlədilə bilər. Bu hallarda semantik sahə həm fiziki, həm də metaforik səviyyələrdə genişlənir. Leech, G. (1981). *Semantics: The Study of Meaning* (2nd ed.). Penguin Books.

Dilin bu cür elastikliyi onu həm funksional, həm də estetik baxımdan zənginləşdirir. Nəticə etibarilə, çoxmənalılıq dilin təbii və dinamik xüsusiyyətlərindən biridir. Bu hadisə, bir tərəfdən, dilin iqtisadi və kommunikativ səmərəliliyini təmin edir, digər tərəfdən isə kontekstual interpretasiyanın vacibliyini önə çıxarır. Buna görə də, leksik semantikanın tədqiqi yalnız sözlərin lüğəvi mənalarını deyil, həm də onların kontekstdəki funksional potensialını müəyyənləşdirməyi hədəfləyir.

3. Dil canlı bir sistemdir və sözlərin mənası zamanla dəyişə bilər. Çoxmənalılıq (polisemiya) sözlərin müxtəlif kontekstlərdə yeni mənalar qazanmasının nəticəsidir. Palmer, F. R. (1981). *Semantics* (2nd ed.). Cambridge University Press. Məsələn, "head" sözü həm "bədən üzvü", həm də "idarəçi" mənasını ifadə edə bilər: *the head of a company*. Bu semantik genişlənmə metaforik və ya metonimik mexanizmlər vasitəsilə baş verir. Bununla yanaşı, bəzən eyni yazılışlı, lakin fərqli mənalı sözlər (homonimlər) bir-biri ilə qarışdırıla bilər. Bu hallarda kontekstin rolu daha da artır

Kollokasiya və Assosiativ Mənalar.

4. Sözlərin bir-biri ilə təbii şəkildə birləşmə meyli — yəni **kollokasiya** — leksik semantikanın mühüm komponentlərindən biridir. Kollokasiya dilin sabitləşmiş və təkrarlanan leksik strukturlarını əhatə edir; bu, danışan və yazan şəxslərin müəyyən sözlərin bir-biri ilə daha çox işlədilməsinə üstünlük verməsi nəticəsində formalaşır. Məsələn, ingilis dilində *strong tea* ifadəsi tamamilə təbii səslənir, lakin *powerful tea* deyildikdə bu, qeyri-adekvat və yad təsir bağışlayır. Bu fərq yalnız leksik sinonimliklə deyil, həm də dilin daxili semantik uyğunluğu və istifadə tezliyi ilə bağlıdır. Kollokasiyalar dilin semantik sistemində sabit əlaqələr şəbəkəsi yaradır və müəyyən sözlər arasında "gizli" bir birləşmə meyli formalaşdırır. Cruse, D. A. (2011). *Meaning in Language: An Introduction to Semantics and Pragmatics* (3rd ed.). Məsələn, ingilis dilində *heavy rain* təbii birləşmədir, lakin *strong rain* deyildikdə ifadə qeyri-təbii səslənir. Eyni qayda ilə *make a decision* işlədilməsi normal hesab olunur, halbuki *do a decision* səhvdir. Beləliklə, kollokasiyalar dilin təbii axıcılığını təmin edir və semantik uyğunluğun qorunmasında mühüm rol oynayır. Kollokasiyaların düzgün mənimsənilməsi tərcümə prosesində də böyük əhəmiyyət daşıyır, çünki bir çox hallarda sözlərin birbaşa ekvivalenti mövcud olsa da, onların kollokativ davranışı dillər arasında fərqlənir.

Kollokasiyalara yaxın, lakin semantik sabitliyi daha güclü olan vahidlər idiomatik ifadələr və ya frazeoloji birləşmələrdir. Alekhina, A. (1982). İdiomlar bir neçə sözün birləşməsindən yaranır, lakin onların ümumi mənası tərkibindəki sözlərin ayrıca mənalarından çıxarılmır. Məsələn, *kick the bucket* ifadəsi "vedrəni təpmək" mənasında deyil, "vəfat etmək" mənasında işlədilir; *spill the beans* isə "lobyanı tökmək" yox, "sirr açmaq" mənasını bildirir. Bu tip birləşmələrdə mənanın tam şəkildə anlaşıla bilməsi üçün kontekstual və mədəni faktorların nəzərə alınması vacibdir. İdiomların semantik təhlili göstərir ki, mənalar təkcə sözlərin lüğəvi komponentlərindən deyil, həm də dil icmasının ortaq təcrübəsindən və metaforik düşüncə modellərindən formalaşır. Məsələn, *break the ice* ifadəsi sosial vəziyyətdə gərginliyi azaltmaq mənasında işlədilir, halbuki onun literal mənası tamamilə fərqlidir. Bu baxımdan idiomlar dilin metaforik potensialını**,** tarixi inkişafını və kultural kodlarını əks etdirən mühüm semantik vahidlər hesab olunur

.

Leksik semantika sözlərin mənasının formalaşması və anlaşılması üçün fundamental nəzəri çərçivə təqdim edir. Sözlərin mənası yalnız lüğəvi səviyyədə deyil, həm də semantik sahə, kontekst, kollokasiya və pragmatik faktorlar vasitəsilə müəyyənləşir. Bu prinsipləri nəzərə almaq, xüsusən də tərcümə, dil tədrisi və nitq təhlili sahələrində, mənanın düzgün və adekvat şəkildə interpretasiyasını təmin edir. Leksik semantika beləliklə dilin canlı mexanizmini, onun dəyişkən və kontekstdən asılı təbiətini dərin şəkildə anlamağa imkan verir.

Nəticə

Leksik semantika sözlərin mənasının formalaşması və interpretasiyası üçün əsas nəzəri çərçivə rolunu oynayır. Sözlərin mənası yalnız lüğəvi qarşılıqlardan ibarət deyil, həm də onların semantik sahəsi, kontekstual istifadəsi, kollokativ uyğunluğu və pragmatik funksiyası ilə müəyyənləşir . Bu prinsiplərin nəzərə alınması tərcümə, dil tədrisi və diskurs analizi sahələrində daha dəqiq və adekvat mənanın təmin olunmasına şərait yaradır.

Ədəbiyyat

5. Alekhina, A. (1982). *Idiomatic English*. Minsk: Vishaya Shkola.
6. Baker, M. (2018). *In Other Words: A Coursebook on Translation* (3rd ed.). Routledge.
7. Cruse, D. A. (2011). *Meaning in Language: An Introduction to Semantics and Pragmatics* (3rd ed.). Oxford University Press.
8. Lyons, J. (1995). *Linguistic Semantics: An Introduction*. Cambridge University Press.
9. Palmer, F. R. (1981). *Semantics* (2nd ed.). Cambridge University Press.
10. Leech, G. (1981). *Semantics: The Study of Meaning* (2nd ed.). Penguin Books.

Laman Gasimli
Aytan Pirmammadova

Summary

This article explores lexical semantics and the interpretation of meaning in context, emphasizing the importance of understanding both the semantic field and the context in which words are used. Words often possess multiple meanings, and their specific interpretation depends on situational and linguistic factors. The article illustrates how polysemy operates in English and highlights the need to analyze contextual cues to determine precise meanings. The role of collocations is examined, demonstrating how certain word combinations are natural while others are semantically inappropriate, which has implications for both language learning and translation. Idiomatic expressions are discussed as fixed multi-word units whose meanings cannot be inferred directly from individual components, reflecting cultural and metaphorical knowledge. The study emphasizes the dynamic and flexible nature of meaning, showing that lexical semantics must consider both cognitive and pragmatic dimensions. Ultimately, the article argues that a thorough understanding of semantic relationships, collocational patterns, and contextual constraints is essential for accurate interpretation, translation, and teaching of language.

Key words: **Lexical semantic, meaning**, **context**, **semantic field**, **polysemy**

ЛАМАН ГАСЫМЛЫ
АЙТАН ПИРМАММАДОВА

РЕЗЮМЕ

В данной статье рассматривается лексическая семантика и интерпретация значения в контексте, с акцентом на важность понимания как семантического поля, так и контекста, в котором используются слова. Слова часто имеют несколько значений, и их конкретная интерпретация зависит от ситуационных и лингвистических факторов. В статье показано, как функционирует полисемия в английском языке, и подчёркивается необходимость анализа контекстуальных подсказок для определения точного значения. Рассматривается роль коллокаций, демонстрируя, как некоторые словосочетания являются естественными, в то время как другие — семантически неуместны, что имеет значение как для изучения языка, так и для перевода. Идиоматические выражения анализируются как устойчивые многословные единицы, значения которых не могут быть выведены напрямую из значений отдельных компонентов, отражая культурные и метафорические знания. Исследование подчёркивает динамичный и гибкий характер значения, показывая, что лексическая семантика должна учитывать как когнитивные, так и прагматические аспекты. В конечном итоге статья утверждает, что глубокое понимание семантических связей, коллокационных моделей и контекстуальных ограничений имеет решающее значение для точной интерпретации, перевода и преподавания языка.

Ключевые слова: лексическая семантика, значение, контекст, семантическое поле, полисемия

Rəyçi: Fil.ü.f.d... G. Rzayeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

ŞAKİR CƏFƏROV,
filologiya üzrə fəlsəfə doktoru,
BDU-nun doktorantı

MİR CƏLAL PUBLİSİSTİKASININ DİL VƏ ÜSLUB ORİJİNALLIĞI

Xülasə

Mir Cəlalın dilinin sadəliyində mühüm rol oynayan ikinci cəhət, yazıçının ədəbi dilimizin qayda-qanunlarını yaxşı bilməsidir. Onun dilini adi danışıq dili səviyyəsilə eyniləşdirib, bəsit və bəzi hallarda "loru" adlandıranlar səhv edirlər. Onun hekayələrindəki təsvir dili bunu aydın sübut etməkdədir. Mir Cəlal hekayənin mövzu və materialından asılı olaraq, oxucuya aşılamaq istədiyi fikir xatirinə bəzən publisist stilə də keçir. "Sara Məmmədhüseynin gözündə böyüdü. İndi o, ərin əlinə baxan, kötəyində əzilən qadın deyil, bir aslana bənzəyirdi. Onun qəti hərəkəti, illərcə toplanıb qalan, sızıltılarla paslanan, lakin parlamağa qadir olan qüvvət və bacarığın bir qığılcımı idi. Bu qığılcım bir ox kimi Məmmədhüseynin gözünə batdı" (**Mir Cəlal. Seçilmiş əsərləri, I cild , səh.180 - 193).**

Xalq şairi, akademik (Mir Cəlalın tələbəsi) Bəxtiyar Vahabzadə yazmışdır: "Mir Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dili idi. Onun dili xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və bədii dildir. Buna görə də o, istər elmi, istərsə də bədii əsərlərə ilk növbədə dilin təmizliyi, qüsursuzluğu, ən ümdəsi isə xəlqiliyi baxımından yanifadə formalarıaşır, bu vacib şərtlərin hamıdan tələb edirdi" **(Nizami Cəfərov. Mir Cəalın milli idealları. Bakı, 2018, 112 s.) .**

Açar sözlər: dilin təmizliyi, bədii dil, üslublar, hekayə dili, yad sözlər, dilin xarakteri

Mir Cəlal üçün dil məsələsi milli mənsubluğun (və milli özünütəsdiqin!) ən mühüm məsələsi idi. Mir Cəlal "Bədii dilimiz haqqında" məqaləsində (1939) yazmışdır ki, bədii dilimizi yad sözlərdən qurtarmaq, onu təmizləmək, saflaşdırmaq yolunda qabaqcıl sovet yazıçılarımız Molla Nəsrəddin ədəbi məktəbindən çox-çox irəli getmişlər. Molla Nəsrəddinin, M.Ə.Sabirin, Ə.Haqverdiyevin əsərlərində rast gəldiyimiz və o zamankı ədəbi dildə az qala özünə haqq qazanmış ərəb-fars sözləri və ifadə formaları indiki bədii dilimizdən həmişəlik çıxarılmışdır. Yazıçı bildirird i ki, «xalqdan, danışıq dilindən alınmış, nədənsə son zamanlara qədər ədəbi dilə, yazıya düşməmiş sözlər bədii əsərlərə cəsarətlə gətirilir. B u cəhətdən Səməd Vurğunun şeir dili diqqətəlayiqdir. İlk baxışda yazı Nizami Cəfərov üçün "birtəhər" görünən sayrışmaq, şütümək, kövrək, nisgil, sambal, ilqar, quzey, güney, ilıq, qəlbi, cığal kimi sözləri indi hamı başa düşür, işlədir. Eldən gələn bu sözlər bədii əsərdə özünə vətəndaşlıq hüququ aldıqca, bir tərəfdən, yazıçının silahı qüvvətlənir, o biri tərəfdən, bu sözlər Azərbaycan dilinin gözəlliklərini ədəbiyyata gətirir. Mir Cəlal

yazmışdır: "Bəziləri Molla Nəsrəddinin dilini yalnız "qısa cümlə" ilə xarakterizə etmək istəyirlər. Heç vaxt belə deyildir. Burada cümlənin qısalığı, uzunluğu əsas alınmır" **(Nizami Cəfərov. Mir Cəalın milli idealları. Bakı, 2018, səh. 55-56).**

Akademik Məmməd Arif təsadüfən demirdi ki, "Mir Cəlalın əsərlərindəki sənətkaranə sadəlik, fövqəladə təbiilik, heyranedici səmimilik təqdirəlayiqdir. Bu, onun yaradıcılığının, üslubunun ən qüvvətli fərqləndirici cəhətidir. Bu xüsusiyyət ədbibin yaradıcılıq üslubunun bütün sahələrinə yayılmış, bədii üslubunun formalaşmasında müəyyən rol oynamışdır.

Apardığımız araşdırmalardan məlum olur ki, Mir Cəlal üslubu, həqiqətən, həm ideya-məzmunu, həm də forma-poetexnologiyası baxımından milli ədəbi irsimizin üzvi təzahürüdür. Mir Cəlal XX əsr Azərbaycan ədəbiyyatı tarixində nəsr dilinin zənginliyi, üslubunun aydınlığı, sözə olan həssas münasibəti ilə seçilən sənətkarlardandır. Onun təhkiyə dili bədii təxəyyüllə həyat həqiqətlərinin, abstrakt ümumiləşdirmə ilə reallığa söykənən detallaşdırmanın sintezinin mükəmməl nümunəsidir. Azərbaycan ədəbiyyatında hekayə janrının özünəməxsus ənənələrini yüksək səviyyədə davam və inkişaf etdirən Mir Cəlalın hekayələrinin dili də tədqiqat mövzusu kimi hər zaman aktualdır, "Hekayə dili necə olmalıdır?" sualına cavab vermək üçün örnək ola biləcək səviyyədədir. Yazıçı dilimizin lüğət tərkibinin, leksik-semantik və qrammatik sisteminin zəngin imkanlarından, səs ahəngdarlığından, funksional-üslubi rəngarəngliyindən ustalıqla yararlanmış, onun hekayə dili xəlqiliyi, yığcamlığı, sadəliyi, təsirliliyi, estetik gözəlliyi sayəsində bu janrda yaratdığı nümunələrin uğurunu təmin edən əsas faktorlardan birinə çevrilmişdir. İstənilən bədii əsərin dil xüsusiyyətləri yazıçının fərdi üslubunu ifadə etdiyi qədər, janr və mövzu tələblərinə də uyğun olmalıdır.

Mir Cəlal bu prinsipdən çıxış edərək, bəzən lirizmin, bəzən incə yumorun, bəzən də satirik tənqidin aparıcı olduğu orijinal hekayələrində qələmə aldığı əhvalatın məzmununa müvafiq dil vasitələrinə müraciət edir. Konkret hekayənin mövzusuna və ruhuna uyğun olaraq, dilin lüğət tərkibindən, sinonimlər cərgəsindən semantikasına və konnotasiyasına görə ən müvafiq sözləri seçib-işlətməklə yazıçı əsərin bədii qayəsini dəqiq ifadə etməyə, eyni zamanda, oxucuda xüsusi ovqat yaratmağa nail olur.

Mir Cəlalın bədii dili özünəməxsus fərdi üslubi xüsusiyətləri ilə seçilir. Onun əsərlərində bədii üsluba xas olan bir sıra mühüm keyfiyyətlər qabarıq şəkildə nəzərə çarpır: sadəlik, yığcamlıq, ifadəlilik, təbiilik, xəlqi ifadələrin sıx-sıx işlənməsi. Mir Cəlal dilin bədii imkanlarından məharətlə istifadə edən ustad bir sənətkardır. Böyük ədib təsvir etdiyi surətləri səciyyələndirərkən uzun təsvirlərə yol vermir, real müşahidələrə əsaslanan bir neçə cümlə ilə tipin xarakterini açmağı bacarır. Yazıçının üslubu üçün səciyyəvi olan bu cəhət "Özündən naxoş" hekayəsində Mirzə Əskər surətinin təsvirində parlaq bir şəkildə əks olunmuşdur.

Ədib dialoqa dil sənətkarlığının zəruri şərti kimi yanaşmışdır: "İnsan xarakterlərini açan və dolğun məna ifadə edən maraqlı dialoqlara klassiklərimiz

həmişə dil sənətkarlığının zəruri şərti kimi baxmışlar. Mir Cəlalın bədii üslubunda gözə çarpan bir xüsusiyyət dilçilikdə anadiplosis adlanan nitq fiqurundan istifadə etməsidir. Anadiplosis elə bir nitq fiqurudur ki, əvvəlki ifadə və ya cümlənin son sözü sonrakı ifadə və ya cümlənin ilk sözü kimi təkrar edilir. Mir Cəlalın əsərlərində işlənmiş dialektizmlərin bir qismi surətlərin dilini səciyyələndirməyə və ya fərdiləşdirməyə xidmət edir . Yazıçının təsvir dilindəki müvəfəqiyyətli cəhətlərdən biri də budur ki, o öz üslubunu ruhən həmişə təsvir olunan hadisə və insanların xarakterləri ilə həmahəng edir. Onun əsərlərində məzmunla forma, hadisə və obrazların səciyəsi ilə dilin xarakteri arasında ziddiyyət görünür. Obrazların dili məsələsi bədii yaradıcılığın, xüsusən bədii dil sənətkarlığının ən vacib cəhətlərindən biridir. Hər obrazın öz təbiətinə uyğun bir dildə danışdıra bilmək bədiiliyin əsas şərtlərindən biridir. Dil obrazın tipikləşdirilməsində, xüsusi fərdiləşdirilməsində, xüsusi rol oynayan vasitədir.

Obrazların dilinin aydın, təbii, kolaritli olması cəhətdən Mir Cəlal müstəsna istedada malik yazıçılarımızdandır. Bunaz görə onun bir çox uğurlu obrazın danışığını fərdiliyini ilə maraq doğurur. Bu cəhətdən özünü əsərdəki surətlərin həm daxili nitqində, həm də dialoqlarda aydın görünür. Ədibin üslubunda diqqəti ən çox çəkən cəl edən sadəlikdir. Bədii dildəki sadəliyə iki yolla nail olur. Müəllifin bədii üslubu təkcə ifadə vasitələrinin məqsədəuyğun, şüurlu seçilməsi ilə deyil, eyni zamanda bu vasitələrin varlığın bədii ümumiləşmiş təsvirini yaratmaq üçün işlədilmə sistemi ilə fərqlənir. Beləliklə, aydın olur ki, bəzi üslubun şəxslənmiş və şəxsli təzahür forması, bəzi üslubun isə şəxsiz təzahür forması olur. Bu cəhətdən, xüsusən elmi üslub ilə bədii üslub arasındakı fərq təzaür edir və buna görə də üslublar daha aydın şərtlənən uyğunlaşmış üslublardan sayılır.

İstifadə olunmuş ədəbiyyat

1. Mir Cəlal. Seçilmiş əsərləri, I cild , səh.180 - 193.
2. Nizami Cəfərov. Mir Cəlalın Milli idealları. Bakı, 2018, 112 s.
3. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Elm və təhsil, 2018, 560 s.
4. Publisistika. 1926 -1977 / Bakı, 2018, 416 s.
5. Ədəbiyyatşünaslığın əsasları (Mir Cəlal, P. Xəlilov). Bakı, Maarif, 1972, 280 s.

Rezюme

Джафаров Ш. Д.

СВОЕОБРАЗИЕ ЯЗЫКА И СТИЛЯ В ПУБЛИЦИСТИКЕ МИРА ДЖАЛАЛА

Второй аспект, играющий важную роль в простоте языка Мир-Джалала, заключается в том, что писатель хорошо знает правила нашего литературного

языка. Те, кто приравнивает его язык к уровню обычной разговорной речи и называет его простым, а в некоторых случаях и «развязным», ошибаются. Описательный язык его рассказов наглядно это доказывает. В зависимости от темы и материала повествования Мир-Джалал порой переходит к публицистическому стилю ради той идеи, которую он хочет донести до читателя. «Сара выросла в глазах Мамедгусейна. Теперь она была не женщиной, смотрящей на руку мужа, придавленную его прикладом, а подобна льву. В её решительном поступке сверкала искра силы и мастерства, копившаяся годами, ржавевшая от капризов, но способная сиять. Эта искра вонзилась в глаз Мамедгусейна, как стрела» (Мир-Джалал. Избранные произведения, том I, с. 180–193).

Народный поэт, академик (ученик Мир Джалала) Бахтияр Вагабзаде писал: «Одной из самых выдающихся особенностей творчества Мир Джалала был его чистый, ясный и кристальный язык. Его язык – язык художественный, чрезвычайно живой, богатый естественными выражениями и соответствующий стилю народной речи. Поэтому и к научным, и к художественным произведениям он подходил прежде всего с точки зрения чистоты, совершенства и, главное, креативности языка, требуя от каждого этих важных условий» (Низами Джафаров. Национальные идеалы Мир Джалала. Баку, 2018, 112 с.).

Ключевые слова: чистота языка, художественный язык, стили, повествовательный язык, иноязычные слова, характер языка

SUMMARY

JAFAROV SHAKIR

THE ORIGINALITY OF LANGUAGE AND STYLE IN MIR JALAL'S JOURNALISM

The second aspect that plays an important role in the simplicity of Mir Jalal's language is that the writer knows the rules of our literary language well. Those who equate his language with the level of ordinary colloquial speech and call it simple and in some cases "loose" are mistaken. The descriptive language in his stories clearly proves this. Depending on the theme and material of the story, Mir Jalal sometimes switches to a publicistic style for the sake of the idea he wants to instill in the reader. "Sara grew up in the eyes of Mammadhuseyn. Now she was not a woman looking at her husband's hand, crushed by his butt, but resembled a lion. Her decisive action was a spark of strength and skill that had been accumulated for years, rusted by whims, but was capable of shining. This spark sank into Mammadhuseyn's eye like an arrow" (Mir Jalal. Selected Works, Volume I, pp. 180 - 193).

People's poet, academician (student of Mir Jalal) Bakhtiyar Vahabzadeh wrote: "One of the most outstanding features of Mir Jalal's creativity was his pure, clear and crystal language. His language is an artistic language, extremely lively, rich in natural expressions, and in accordance with the style of popular speech. Therefore, he approached both scientific and artistic works primarily from the perspective of the purity, perfection, and most importantly, creativity of the language, demanding these important conditions from everyone" (Nizami Jafarov. Mir Jalal's national ideals. Baku, 2018, 112 p.) .

Keywords : purity of language, artistic language, styles, narrative language, foreign words, character of language

Rəyçi: Qərənfil Dünyamin qızı (Quliyeva),
filologiya elmlər doktoru, dosent.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

ÜLVİYYƏ ÇINGIZ QIZI ƏLIYEVA
Azərbaycan Universiteti. "Tərcümə və filologiya" kafedrasının dosenti
ulviyya_28@mail.ru
0000-0002-1569-280X
Orcid kod

ESTETİK KATEQORİYA QİSMİNDƏ SOSİAL SATİRANIN İNGİLİS ƏDƏBİYYATINDA TƏŞƏKKÜLÜ

Açar sözlər: satira, sosial satira, personaj, satiranın inkişafı, ingilis ədəbiyyatı
Ключевые слова: сатира, социальная сатира, характер, развитие сатиры, английская литература
Keywords: satire, social satire, character, development of satire, English literature

Estetik kateqoriya qismində ilk dəfə Şiller tərəfindən dərk edilmiş satira ingilis ədəbiyyatında orta əsrlərdə xüsusilə C. Çoserin "Kəntberri hekayələri" silsiləsinin yaranmasından sonra özünü açıq şəkildə büruzə verir. Təxminən Bokkaççо ilə eyni dövrdə , yəni XIV əsrdə yaşayıb-yaratmış ingilis şairi Ceffri Çoser satirik mövzu ilə bağlı konsepsiyasını ifadə etmişdir. Bokaççо kimi Çoser də insanların faciəsini əvvəllər onların cəmiyyətdə yüksək mövqe tutmaları, sonralar isə müəyyən səbəblərə görə bu mövqedən məhrum olmaları ilə bağlayırdı. O, özünün məşhur "Kentberri" hekayələrində satiradan istifadə edərək gerçəkliyin daxilinə varıb onun mahiyyətini üzə çıxarmaq məqsədini güdürdü. Tədqiqatçılar C. Çoseri ingilis ədəbiyyatında realizmin banisi hesab edirlər və onun yaradıcılığının bu xüsusiyyətini ingilis ədəbiyyatında satirik ənənələrin əsasını qoymaqla əlaqələndirirdilər. C. Çoserin yaradıcılığında gülüş özünü müxtəlif şəkildə büruzə verir: müəllif bəzən insanla yumor hissi ilə, sevgi hissi ilə zarafat edir, digər hallarda rişxəndlə onu ələ salır, bəzən də tənqid etdiyi tərəfi kəskin sarkazmın, öldürücü satiranın hədəfinə çevirir. Çoser dövrünün gerçəkliyinə bütün incəliklərinə qədər bələd idi. Bu ona həyat haqqında bütün həqiqəti açıb göstərməyə kömək edirdi. O, dövrünün insanlarının çatışmayan cəhətlərini təsvir edir və satirik vasitələrdən istifadə etməklə onları tərbiyə etməyə cəhd göstərirdi.

"Kenterberi hekayətləri"ndə C. Çoser dövrünün İngiltərəsinin geniş və parlaq mənzərəsini təsvir etmişdir. Buna o satiranın müxtəlif üsul və vasitələrindən ustalıqla istifadə etmək nəticəsində nail olmuşdur. C. Çoserin "Kenterberi hekayətləri"ndə əsasını qoyduğu bu tendensiya sonralar ingilis ədəbiyyatının bütün dövrlərində davam və inkişaf etdirilmişdir.

İntibah dövründə insan sözün əsl mənasında incəsənətin aparıcı obyektinə çevrildiyinə görə çox zaman iddia olunduğu kimi onu təkrar vəsf etmir, onu bütün

dəyərlərin yeganə ölçüsü olmasını göstərməklə yanaşı həmçinin çatışmazlıqlarını və nöqsanlarını da üzə çıxarmağa cəhd olunurdu.

Əlbəttə ki, U. Şekspirin komediyalarında da bu gün üçün əhəmiyyət kəsb edən problemlər satirik vasitələr və üsullarla təcəssüm olunmurdu. Lakin paradoksal şəkildə ingilis ədəbiyyatında XX əsr gerçəkliyinin bədii təcəssümünü dahi dramaturqun yüksək İntibah əhval-ruhiyyəsini əks edən, optimizmə köklənmiş komediyaları deyil, onun yüksək faciələri uyğun gəlir və bu baxımdan müəllifin "Hamlet" və "Kral Lir" əsərləri həm Şekspirin yaşadığı dövr üçün, həm də XX əsrin gerçəkliyindən ötrü bədii söz sənətində faciəviliyin və satirik təsvir üçün geniş meydan açan absurdluğun görüş yeridir, üzvi vəhdətdə birləşməsidir. Bu əsərlərdə U. Şekspir, təkcə realist hissiyatı ilə deyil, həmçinin mütəfəkkir şüuru ilə öz dövrünün ən dərin ziddiyyətlərini dərk etməyə nail olmuşdur. [5,6]. Dünya ədəbiyyatının çoxəsrlik təcrübəsi sübuta yetirir ki, ziddiyyətlərin bədii təcəssümündə faciəviliyin və komikliyin çulğalaşması onun həqiqətini üzə çıxarmağın ən səmərəli yoludur.

Artıq XVI əsrin sonlarında sosial gerçəklikdə baş verən ziddiyyətlər XVII əsrin əvvəllərində dərinləşdilər və antoqonist xarakter kəsb etdilər. Bu dövrdə ingilis cəmiyyətinin inkişafına böyük təkan verən ölkənin mütərəqqi qüvvələri arasında ittifaq dağılmaq fazasına qədəm qoydu. 1597-ci ildən başlayaraq ölkənin ictimai-siyasi həyatı monarxiya ilə burjua parlamenti arasında ixtilaflarla müəyyən olunurdu: bir tərəfdən monarxiya, xüsusilə Yakov Stüartın tac-taxta yiyələnməsindən sonra bu ixtilaflar monarxiyanın feodal reaksiyasına geniş meydan açması ilə bağlı daha da dərinləşdilər. Digər tərəfdən "Hamlet" əsərinin meydana gəlməsini şərtləndirən konkret sosial-siyasi bu durum ümumbəşəri, müəyyən mənada fövqəlzaman xassə kəsb etmişdi. Məhz İngiltərə möhtəşəm ümumdünya – tarixi ziddiyyətlərin bir araya gəldiyi ərazi idi.

Ümumiyyətlə satira bu dövrdə gerçəkliyin sosial baxımdan böyük əhəmiyyət kəsb edən ziddiyyətlərini əks edir. Avropa bədii mədəniyyətində satira insanın gerçəkliyə estetik münasibətinin xüsusi tipi kimi çıxış edir. İlk dövrlərdə satirik tənqid "Mən" nəzər nöqtəsindən həyata keçirilirdi yəni şəxsi təəssürat çıxış mövqeyi rolunu oynayırdı. Dövlətçiliyin inkişafı ilə bağlı olaraq normativ düşüncə tərzi və dəyərləndirmə meyarları meydana gəldilər. Bu xeyir ilə şərin dəqiq şəkildə bir - birindən fərqləndirilməsinə əsaslanırdı.

Buna Roma satiriki Yuvenalın əsərləri misal ola bilərlər. İntibah dövründə insan təbiəti, onun bütün nəsnələrin ölçüsü olmaq iddiası satiranın hədəfinə çevrilir.

Klasssisizm dövründə sosial satira

Klasssisizm dövründə satira mücərrəd mənəvi və esteik normalara əsaslanırdı və klassisist satiranın obyekti konkret personaj idi. Bu personaj özündə xeyirxahlığın əksi olan mənfi xüsusiyyətləri cəmləşdirirdi.

Ingilis ədəbiyyatının təşəkkülündə və inkişafında önəmli rol oynamış satiranın intibah dövrü görkəmli ingilis şairi və dramuturqu Ben Consonun adı ilə bağlıdır.

Ben Consonun "Vəziyyət dəyişmişdir" (1597), "Volpone" (1605), "Episin, yaxud Qaradinməz qadın" (1609), "Kimyagər" (1610), "Varfolomey yarmarkası" (1614) komediyalarında cəmiyyətdə baş alıb gedən eybəcərliklər, mənəvi əxlaqsızlıqlar tənqid olunur . (1.251) Onun satirik yaradıcılığı XVIII-XIX əsrlər ingilis ədəbiyyatına öz təsirini göstərmişdir. Məhz onun təsiri ilə Tekkereyin "Şöhrətpərəstlik Yarmarkası", Dikkensin "Ağır dövrdə" və "Körpə Доррит", E. Qaskellin "Meri Barton" "Şimal və Cənub" , Brontenin "Шерли" və s. əsərləri öz dövrlərinin aktual problemlərini , ictimai münaqişələri ilə ictimai həyatla əlaqədə məhz satirik üslubun köməyi ilə həll etməyə cəhd göstərmişlər.(2. 54) Bu baxımdan həmin sənətkarların ardıcıl və sistematik şəkildə qaldırdığı əsas problemlər ilk növbədə sosial və mənəvi-əxlaqi problemlərdir. Bu tipli aktual problemləri qaldıraraq bədii şəkildə həll etmək oxucuya çatdırmaq sənətkardan bir o qədər artıq istedad, məharət və bacarıq tələb edir.

İngilis ədəbiyyatında sosial satiranın inkişaf mərhələləri kifayət qədər zəngin və rəngarəngdir. Bu janr çox vaxt yumor və ya istehza ilə sosial tənqidi ifadə edir və çox vaxt sosial ədalətsizlikləri, mənəvi çürümələri, siyasi problemləri və ya insan təbiətindəki ziddiyyətləri hədəf alır.

Maarifçilik dövründə sosial satira. Maarifçilik dövründə dünyanın və insan təbiətinin qeyri-kamilliyi satiranın əsas hədəfi qismində çıxış edirdi. Alman romantizmi nəzəriyyəsinin görkəmli nümayəndələrindən biri Zolger göztərirdi ki, satira dünyanın eyni zamanda reallıq və ideya olmasını təsdiqləyir. Onun fikrincə ideya sona qədər reallıqda məhv olur və eyni zamanda reallığı öz səviyyəsinə qədər qaldırır. "incəsənətin mərkəzi ideyanı elə ideya vasitəsilə aradan qaldırılmasını biz bədii istehza adlandırırıq. İstehza incəsənətin mahiyyətini təşkil edir. Hegel və onun ardınca Kyerkeqor romantik istehzanı kəskin tənqid hədəfinə çevirdilər. Kyerkeqorun fikrincə romantiklərin istehzası Sokratın subyektivlik prinsipinin təhrifidir. Sokrat mövcud gerçəkliyi yeni, müsbət məqamın bərqərar olmaı üçün inkar edir, romantiklərin istehzası isə əksinə, reallığı subyektiv obrazla əvəz etməyə çalışır.

İngilis sosial satirasının ilk dövrləri Conatan Sviftin "Qulliverin Səyahətləri" və Daniel Defonun siyasi və sosial tənqidi ehtiva edən romanları kimi əsərlər tərəfindən formalaşdırılıb. Svift xüsusilə siyasi elitanı və ictimai quruluşu kəskin tənqid etməsi ilə tanınır. Conatan Sviftin əsərlərində sağlam düşüncə dövrün satirik təhlilinin ölçüsünə çevrilir. Bu yazıçının xüsusilə "Qulliverin səyahətləri" əsərində özünü büruzə verir. XVIII əsr ingilis romanının təşəkkülü ilə bağlı ədəbiyyatşünas P.Rocers yazır: “Roman yalnız yeni ədəbi hadisə deyildi...onu müəyyən ədəbi qarışdırılmanın nəticəsi kimi meydana gəlmiş janr hesab edirdilər. O epik poema,cəngavər romanı ilə qohum olmaq iddiasında idi. Lakin roman bununla kifayətlənmirdi, son dərəcə alçalırdı, jurnalistikadan, bioqrafiyadan, sərgüzəşt hekayələrindən, xalq inanclarından bəhrələnirdi. Onun rəngarəngliyi yeniliyindən və populyarlığından xəbər verirdi. [1.s.167]. Burada tədqiqatçı birbaşa pamfletin

adını çəkməsə də, aydın məsələdir ki, jurnalistika deyəndə məhz XVIII əsrdə bəlkə ingilis söz sənətində bu ən geniş yayılmış janrı nəzərdə tuturdu: Həqiqətən də pamflet jurnalistika janrı kimi romanın təşəkkülündə xüsusilə onun tənqidi-satirik pafosunun formalaşmasında mühüm rol oynamışdır. Svift bu janrın böyük ustasıdır. Pamflet bir janr kimi satiraya, onun gerçəklikdə mövcud olan yamanlığı üzə çıxartmaq,onu dərk etmək və onu rişxənd hədəfinə çevirməyə köklənmişdir. Bütün dərin nihilizminə baxmayaraq C.Svift belə hesab etmirdi ki, yamanlıq bütün bəşər nəslinin islahedilməz xassəsidir: onun pamfletlərini diqqətlə oxuduqda məlum olur ki, heç bir insan dünyaya bəd niyyətlərlə gəlmir, cəmiyyətdə mövcud olan qayda-qanunlar onu bu yola sürükləyir. Məhz buna görə də C.Sviftin əsərlərində yamanlıq dəhşətli bir ictimai bəla kimi təqdim olunsa da, tarixən o konkretdir və onun ünvanını müəyyən etmək böyük çətinlik yaratmır. Bu cəhətdən artıq müəllifin 1696-1697-ci illərdə yazdığı "Kitabların savaşı" (The Battle of the Books) pamfletində öz əksini tapır.Pamflet yazıldığı dövr üçün aktuallıq kəsb edən ədəbi-fəlsəfi ixtilaf səciyyəli problemə həsr olunmuşdu. Lakin diqqətlə fikir verdikdə məlum olur ki, antik dövrün və yaxud müasir dövrün sənətkarlarının daha üstün olması ilə Fransada başlayan İngiltərədə davam edən "savaş" Svift üçün XVII əsrin sonunda ingilis gerçəkliyində mövcud olan ziddiyyətləri üzə çıxarmaq, ifşa etmək və satirik tənqid hədəfinə çevirmək daha böyük əhəmiyyət kəsb edirdi. Dövrün aktual hadisələrinə belə bir yanaşma prinsipi Sviftə imkan verirdi ki, satirasının hədəfi kimi həqiqətən mənəvi-əxlaqi və intellektual çatışmazlıqları olan ayrı-ayrı şəxsiyyətləri deyil, hadisələr kompleksini seçsin. Bu isə sənətkardan yetkin və dərin ümumiləşdir-mələr aparmağı tələb edirdi.

C. Sviftin gerçəkliyin mövcud durumundan narazılığı onun pamfletlərində cəmiyyətin ruhi-mənəvi həyatına satirik münasibətlərində özünü büruzə verirdi. Bu hər şeydən əvvəl onunla bağlı idi ki, C.Svift bir din xadimi kimi insanların ruhi həyatı üçün daşıdıqları məsuliyyətə barmaqarası baxmaqlarını görür və ifşa etməyə cəhd edirdi.Pamfletin müəllifi üçün qədimlərin və yenilərin mübahisəsi o dövrdə İngiltərədə ziyalıların ən nüfuzlu nümayəndələri sayılan alimlərin və yazıçıların intellektual baxımdan yetərsizliyinin təcəssümü idi.

Lakin müəllif bununla kifayətlənmir mənasız və məzmunsuz işlərlə məşğul olan bu say-seçmələrin timsalında Svift bütün ingilis cəmiyyətinin ruhi-mənəvi və intellektual həyatını şübhə altına alır. Tədqiqatçılar haqlı olaraq, poetik savaşın Yunanıstanda yerləşən, antik ənənələrə görə poetik ilhamın mənbəyi hesab olunan Parnas dağından, ilhama meydan açmaq iqtidarında olmayan Sent-Cems kitabxanasına köçürülməsini məhz ingilis gerçəkliyinin, cəmiyyətin ruhi həyatının poeziyaya meydan açmaq əzmində olmadığını vurğuladığını nəzərə çarpdırdığını göstərirlər. [2 s. 78].

Pamfletdə tərəflərin heç biri digərinə qalib gələ bilmir, çünki C.Sviftin fikrincə qədim və müasir sənətkarları üz-üzə qoymağın özünün heç bir ağlabatan əsası yoxdur:hər dövrün sənətkarı öz oxucularının maraqlarından və estetik zövqlərindən

çıxış edərək öz kitablarını yazırlar.Lakin müəllif sənətkarların virtual savaşını dəyərləndirməklə kifayətlənmir,"Kitabların savaşı" pamfletinin obraz strukturunun özünəməxsusluğu satirik vasitələrdən istifadə baxımından böyük maraq doğurur: burada Svift ümumiləşdirilmiş mücərrəd səciyyəli satirik obrazı bilərəkdən konkret-maddi detallarla zənginləşdirir. Bu sənətkara təsvir olunan obrazların anatomiyasına və fiziologiyasına aid olunur. C.Svift bu satirik vasitədən istifadə etməklə obrazlarının qrotesk xarakterini, onların mənfi keyfiyyətlərini vurğulayır.Müəllif bir növ mücərrəd obrazlarda–ideyalarda (Həyasızlıqda, kütlükdə və sairədə) təkzib etməyə cəhd göstərdiklərini maddiləşdirib konkretləşdirməklə oxucuda onlara qarşı ikrah hissi oyatmağa çalışır.

Nəticədə "Kitabların savaşı" pamfletində mücərrədliyin və maddiliyin birləşib üzvi vəhdət təşkil etməsi ümumiləşdirmənin konkretləşməsinə və əksinə obrazların emosional xarakteristikalarının konkretliyin hüdudlarını aşıb ümumiləşməsinə səbəb olur.

Nəticə

XX əsrin yetmişinci illərində əxlaqi-mənəvi dəyərlər haqqında təsəvvürlər kəskin şəkildə dəyişdilər. Məhz bu dövrdə sözün əsl mənasında ingilis cəmiyyəti gizli şəkildə hökm sürən Viktoriya dövrünün yasaqlarından birdəfəlik imtina etdi. Bu, tam, mütləq azadlıq əldə etmək hissini, "istədiyini etmək" duyğusunu formalaşdırdı. Belə bir kəskin dönüş əsrlər boyu təşəkkül tapmış dəyərlərin tapdaq altına salınmasına onlardan qəti və birdəfəlik imtinaya gətirib çıxartdı. Belə bir durum ölkənin və cəmiyyətin təməlini sarsıdırdı: ölkə mənən məhv olmaq təhlükəsi ilə üz-üzə gəldi. Bu dövrdə istehlakçılara təqdim olunan "kütləvi cəmiyyət''in bütün cəbhə boyu mühüm, uzun əsrlər boyu təşəkkül tapmış mənəvi dəyərləri, məhv edib sıradan çıxartması "kontrmədəniyyət" deyilən hərəkatın yaradıcılarının kəskin etirazına səbəb oldu. Yalnız bir müddət keçəndən sonra məlum oldu ki, bu etirazın heç də ciddi sosial əsası yoxmuş və "kütləvi mədəniyyət" və "kontrmədəniyyət" tipoloji və genetik baxımından bir-birilə bağlı imişlər: "kütləvi mədəniyyət", "kontrmədəniyyət''in daxilində doğulmuş inkişaf etmiş və öz üsul və vasitələrini yaratmışdır.

Beləliklə qeyd etmək olar ki, sosial satiranın ənənəyə əsaslanması ingilis mədəniyyətinin inkişafının bütün mərhələlərində mühüm rol oynamışdır.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Royers P. Grub Street. Studius is a subculture L., 1972, p. 324
2. Дубашинский И. А "Путешествия Гулливера" Джонатана Свифта, "Высшая школа", 1969 - 111 pages,
3. Михальская Н. Предисловие // Spark M. The Public Image. M., 1976.
4. Елистратова А. А. Английский роман эпохи Просвещения. - М, 1966. - С. 111.
5. Bergonzi, Bernard. The Myth of Modernism and Twentieth Century Literature.

6. Jonathan Swift and the Eighteenth-Century Book - Cambridge University Press, 2013 P 291
7. Свифт Д. Собрание сочинений в 3 т , т. 1, Сказка бочки; Путешествия Гулливера, М.,Терра , Книжний клуб, 2008,480с.
8. Thomas Hobbes: Moral and Political Philosophy https://www.iep.utm. edu/hobmoral Brighton, Sussex: Harvester Press, 1986.
9. Жантиева Д. Г. Английский роман XX века 1918-1939. М., 1965. С. 243-258.
10. Ивашева В. Теккерей - сатирик. М., 1958.

Xülasə

Bu məqalədə İngilis ədəbiyyatında sosial satiranın inkişaf mərhələləri nəzərdən keçirilir. Satira janrının xarakterik xüsusiyyətləri, tarixi inkişafı tədqiq olunur. İngilis sosial gerçəkliyinin satira janrının inkişafına təsiri araşdırılır. XIV əsrdə yaşamış ingilis yazıçısı Cefri Çoserin "Kenterberri hekayələri" satirik ənənələrin əsası hesab olunur. Ulyam Şekspirin"Hamlet" və "Kral Lir" əsərləri faciəvilik və satirik ənənələrin görüş yeridir. İngilis sosial satirasının ilk əlamətləri Conatan Svift və Daniel Defo yaradıcılığına aiddir

ULVİYYA ƏLIYEVA

SUMMARY
THE EMERGENCE OF SOCIAL SATIRE IN ENGLISH LITERATURE AS AN AESTHETIC CATEGORY

The article deals with the social satire, its development features of English literature. As a genre here is also reflected the development of satire and and its characteristic features. There is also mentioned the influence of the English social environment of the English society to the formation of the new stage of the development of satire in the article.The English writer Geoffrey Chauser, who lived in the 14 th century is considered the founder of satirical traditions with The "Canterbury Tales". William Shakespeare s "Hamlet" and "King Lear" represent the meeting point of tragedy and satire. The first features of English social satire are associated with the work of Jonathan Swift and Daniel Defo.

РЕЗЮМЕ
ВОЗНИКНОВЕНИЕ СОЦИАЛЬНОЙ САТИРЫ В АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЕ КАК ЭСТЕТИЧЕСКОЙ КАТЕГОРИИ

В статье рассматривается социальная сатира и его особенности развития в английском литературе. В качестве жанра здесь также отражено развитие сатиры и ее характерных черт. Также в статье упоминается влияние английской социальной среды английского общества на формирование нового этапа развития сатиры. Английский писатель Джеффри Чосер живший в XIV веке

считается основоположником сатирических традиций со своим произведением Кентерберийские рассказы. Трагедия и сатира переплетаются в пьесах Уильяма Шекпира Гамлет и Король Лир. Первые признаки английской социальной сатиры связаны с творчеством Джонатана Свифта и Даниэля Дефо.

Rəyçi: Prof.Abdullayeva Yeganə Atamoğlan qızı ADU

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

SEVİNC ƏZİZOVA
214 saylı tam orta məktəb
Nizami rayonu, Əzim Əzimzadə 18
e-mail: azizovasevinc1111@gmail.com

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNDƏ MƏZMUN ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏ METODİKASI

XÜLASƏ

Müasir dövrdə müxtəlif metod və yanaşmalardan, texnologiyalardan istifadə fonunda tələbələr özlərinin peşə sahələrinə bilavasitə aid olan dünya təcrübəsindən bəhrələnmək və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyətinə yiyələnməli, rəvan, axıcı, səlis nitqə malik olmaları ilə seçilməlidirlər. Bu zaman zəngin və yerində işlədilmiş leksik biliklərin mənimsənilməsi vacib şərtə çevrilir. Təhsilalanlar İKT-nin yeniliklərindən xəbərdar olmaqla, eyni zamanda öz gündəlik həyat və təhsillərində onlardan geniş istifadəni də bacarmalıdırlar. Dünya pedaqoji təcrübəsində ali təhsil müəssisələrinin gücü onun malik olduğu müasir kitabxanalar, müxtəlif laboratoriyalar, yenilənmiş informasiya bazası və ən əsası, ən son yeniliklərin tətbiqi ilə ölçülür. Son zamanlar xarici dilin tədrisi metodologiyası çox sürətlə inkişaf etdiyindən, təhsildə müasir texnologiyalara olan tələbat artır, təhsil modelləri, tədris prosesinin iştirakçılarının rolları tədricən dəyişir. Bu gün innovativ metodlarla mobil təhsil imkanı yaradan yeni vasitələr meydana çıxmaqdadır. İnformasiya texnologiyasının sürətlə inkişaf edən tarixi və bu aspektdə dilöyrənmə hal-hazırda özünün fəal dövrünü yaşamaqdadır. Bu baxımdan ünsiyyət bir proses kimi bizim əldə etdiyimiz biliklərin, təcrübənin ötürülməsini realizə edir. Belə ünsiyyət şifahi və ya yazılı formada nitq vasitəsilə təzahür edib insanın lüğət fondunu, yəni leksikonunu inkişaf etdirir, zənginləşdirir.

Açar sözlər: məzmun, motivasiya, dil, nitq, ünsiyyət

Məzmun əsaslı dil tədrisi elə bir yanaşmadır ki, bu zaman dilöyrənənlər dili mənalı məzmunlara fokuslanaraq rəngarəng situasiyalarda və maraqlı kontekstlərdə öyrənirlər. Onlar özlərini müxtəlif mənalı və maraq kəsb edən real həyati situasiyalarda sınayırlar. Bu yanaşmadan istifadə tədrisdə tələbənin uğurunun artmasını şərtləndirərək, onun kamilliyini artırır. Bu mənada yazı, oxu, dinləmə və nitq bacarıqlarının inkişaf etdirilməsində məzmun əsaslı dil tədrisinin rolu əvəzolunmazdır. Eyni zamanda, qeyd etdiyimiz kimi, yeni metod və yanaşmaların auditoriyaya inteqrasiyası vacib şərtdir. Universitetlərdə innovasiya əsaslı layihələrin həyata keçirilməsi təhsilin keyfiyyətini nəəzrəçarpacaq dərəcədə artıra, universitetlərin beynəlxalq təhsil məkanına inteqrasiyası prosesini sürətləndirə və ölkənin elm-təhsil imicini yüksəldə bilər.

Bu mənada yeni, texnoloji, innovasiya cəmiyyətində, qlobal rəqabət şəraitində fəaliyyətə, inkişafa hazır olmalıyıq[1,s.136].

Qeyd edək ki, məzmun əsaslı dil tədrisi motivasiyanın yüksəldilməsinə bilavasitə təsirlə səciyyələnir. Motivasiya mexanizminin avtomatlaşdırılması dilöyrənənlərin fəaliyyətini artırmaqla, onların yaradıcı və tənqidi təfəkkürünü inkişaf etdirir və müstəqil işləmək bacarıqlarına yiyələndirir. Bu zaman müəllimin rolu çox böyükdür. Müəllimin əsas fəaliyyəti yönəldici xarakter daşımalı və bəzi vəziyyətlərdə isə o köməkçi rolunda çıxış etməlidir. Motivasiyaedici mühit müəllim və təhsilalanların münasibətləri, onların əməkdaşlığı üçün müəllim və tələbə qrupu arasında səmərəli ünsiyyət yaradılmasını şərtləndirir. Lakin özünün bütün üstünlükləri ilə yanaşı bu heç də həmişə asan başa gəlmir. Bu müəllimdən böyük zəhmət, səbr, metodiki axtarışlar tələb edir. Çünki əvvəlcə müəllimin həyata keçirmək istədiyi dilöyrənənlərə bir qədər maraqsız görünə bilər, ancaq zaman keçdikcə onlar bunun dərinliklərini anlayır, bacarıqlara əsl mənada yiyələnirlər. Buna görə də müəllim motivasiyanın formalaşdırılması yollarını özü üçün aydınlaşdırmalı, ondan istifadə edəcəyini müəyyən edərək fəaliyyətə başlamalıdır. Müasir dövrdə təhsildə motivasiyanın yaradılmasında da bu dil tədrisi mühüm rol oynamaqla dərs saatlarını daha səmərəli, maraqlı etməyə vasitəçi olur. Bütün qeyd edilən vasitələrdən istifadə müəllimdən yüksək qabiliyyətlər tələb edir və bununla yanaşı motivasiyalı dilöyrənənlərin maksimum fəallığına nail olmağa imkan yaradır. Bütün bu yeniliklər əksər hallarda motivasiya mənbəyi olaraq qiymətləndirilir. Digər tərəfdən yanaşsaq, innovativ tədris metodlarına vərdiş etmiş motivasiyalı tələbələrlə işləmək müəllim üçün daha asan olur, çünki bu zaman hər bir müəllimə xas olan xüsusiyyətlər burada öz əksini tapır. Müxtəlif innovasiyaların, o cümlədən sözügedən dil təliminin meydana gəlmə səbəbi ilk növbədə tədris edilən ayrı-ayrı fənlərin məqsədlərinin dəyişikliklərə uğraması nəticəsində yaranmışdır. Motivasiyanın yaradılması zamanı interaktiv təlim metodundan istifadə tələbələri nəinki yeni biliklərlə zənginləşdirir, həmçinin onlarda düşünmə qabiliyyətini və müstəqil bilik əldə etmək, mənimsəmək bacarıqlarını formalaşdırır. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər dilöyrənənlər üçün xarici dilin praktik cəhətdən öyrədilməsinə şərait yaradır, onların kommunikativ bacarıqlarını formalaşdırır və idrak fəaliyyətini fəallaşdırır. Bu gün nitq vərdişlərinin inkişaf etdirilməsi məsələsi deyil, daha çox kommunikativ səriştəyə yiyələnmək zərurəti meydana çıxır. Bu mənada təlimdə məzmun əsaslı dil tədrisinin rolu olduqca böyükdür. Bütün bunlar tələbələrin ünsiyyət qurma texnikasını öyrənməsi üçün təqdim edilməlidir: başqalarını dinləmə bacarığı, ünsiyyətə qoşulmaq, verilən kontekstdə mənanın müzakirəsi. Bu təlim üsulu keyfiyyətli bilik və bacarığa yiyələnməyə xidmət etməklə yanaşı, təhsilalanlarda təfəkkürün inkişafına şərait yaratmalıdır. İnteraktiv təlimdə bu cür təfəkkür- idraki proseslərin inkişafına müxtəlif qrupdaxili işlər, qruplarda müxtəlif fəaliyyət layihələrinin hazırlanması, problemlərin fərdi və qrup şəklində həlli vasitəsilə nail olunur. Bu üsul tələbələri müstəqil düşünməyə, qərarlar qəbul etməyə və tədqiqata

istiqamətləndirir. Dərsin səmərəli təşkili yalnız o zaman mümkün olur ki, bütün təhsilalanlar fəaldırlar və onlar həqiqətən nəsə öyrənə bilirlər. Dərsdə passiv dilöyrənənlər olduqda interaktiv təlimin zəngin vasitələrindən olan intensiv sual-cavaba, rollu oyunlara, cütlüklərlə və ya qrup şəklində işlərə müraciət etməklə onları fəal iştiraka ruhlandırmaq lazımdır. Xarici dildə bacarıqların formalaşdırılmasının məqsədi tamamilə aydındır. Belə ki, burada əsasən məqsəd məlumat əldə etməkdir. Məsələyə bu aspektdə nəzər saldıqda mətnlər üzərində işin təşkilinin başlanğıc mərhələsində əsas məqsəd ən elementar səviyyədə vərdişlərin aşılanmasıdır. Xarici dildə əsas məsələlərdən biri bildiyimiz kimi mətn seçimidir. Bu zaman mətn materialları müəyyən prinsiplər əsasında seçilməlidir. Xarici dildə mətn materiallarının seçimini şərtləndirən əsas prinsiplərdən biri onların təhsilalanlar üçün məzmununun maraq kəsb etməsi, dinləyicilərin ehtiyac və tələbatlarını nəzərə almaqla seçilməsi, dilöyrənənlərin yaş, intellektual bilik səviyyələrinə uyğun olmasıdır. Mətnlər üzərində işin səmərəli təşkili məqsədilə istifadə edilən mətnlər motivasiyanın yaradılmasına xidmət etməli, onları ingilis dilini öyrənməyə həvəsləndirməlidir [2,s.59]. Burada istifadə edilən mətnlər autentik olmalı, onlar dilöyrənənlərin leksik və qrammatik potensialını zənginləşdirmək imkanları baxımından əhəmiyyət kəsb etməlidir.Təqdim edilən mətn materiallarındakı məzmun müxtəlif xarakterli, rəngarəng olmalı, dildaşıyıcılarının mədəniyyəti, təfəkkürü, onların yaşadıqları cəmiyyətdə qəbul edilmiş müxtəlif ünsiyyət tərzləri haqqında dilöyrənənləri məlumatlandırmalıdır. Belə ki, təhsilalanlar hekayə, roman, qəzet, jurnal məqaləsi, elan, reklam, poemaları dinləyib, onları adekvat şəkildə qavramağı, dildaşıyıcılarının istifadə etdiyi nitq modellərindən adekvat şəkildə istifadə etmək, onların əsasında özlərinin mətnlərini yaratmaq bacarığına yiyələnməlidirlər. Məzmun əsaslı dil tədrisi kimi yanaşmalardan istifadə fəal təlim üsulunu zənginləşdirən elementlərdəndir[2,s.58]. İnteraktiv təlim ənənəvi təlim metodlarından tamamilə fərqli yollarla həyata keçirilir. İnteraktiv təlimdə müəllimin rolu köməkçi və bələdçi, tələbənin rolu isə fəal tədqiqatçı və iştirakçı kimi dəyişir.

Məzmun əsaslı təlim metodlarının istifadəsi zamanı müəllim tələbələrin səmərəli ünsiyyəti və qarşılıqlı əlaqəsi üçün bütün lazımi şəraiti yaradır. Bu zaman əsas rol dilöyrənənlərə verilir. Təlim prosesinin psixoloji mühitini müsbətə doğru dəyişmək üçün tələbələrin problemin həllinə yönəldilmiş istənilən cəhdi və ya fikri yüksək qiymətləndirilərək, ciddi və hörmətlə qarşılanır. İnteraktiv təlimdən istifadə zamanı dilöyrənənlərə hörmətlə yanaşmaq, onlara etibar etmək, onların cavablarını qiymətləndirmək həm özünə inam, həm də müəllimə hörmət və etibar hissini daha da artırır [3, s.45]. Sözügedən dil tədrisi ingilis dilinin daşıyıcıları tərəfindən istifadə edilən şəkildə dili mənimsəməyə imkan verir.

Nəticədə, xarici dili öyrənənlər auditoriya mühitini real dünya mühitinə asanlıqla və uğurla inteqrasiya edə bilirlər. Bu cür həqiqi kommunikasiya tələbələrə kommunikativ səriştəyə yiyələnməyə köməklik göstərir. Tələbələrin kommunikativ bacarıqları onları mənalı, həyata keçirilə bilən, bədii əsərləri oxuma prosesinə cəlb

etməklə inkişaf etdirilməlidir. Bədii əsərlərlə tanışlıq tələbələrdə məmnunluq, razılıq, əminlik hissi yaradır, niyyətlərinin kommunikativ həyata keçirilməsi üçün öyrənilən xarici dildən düzgün və adekvat şəkildə istifadə etmək bacarıq və arzusunun inkişaf etdirilməsini əsas kimi irəli sürür. Burada üstünlük anlama, danışıq, fikir və ideya mübadiləsinə verildiyi halda qrammatik, struktur və leksik vahidlər bu məqsədə nail olmaq üçün öyrənilir. Kommunikativ kompetensiyanın inkişafını nəzərdə tutan və dəstəkləyən amillərdən biri də yuxarıda qeyd etdiyimiz kimi, məhz məzmun əsaslı dil tədrisidir. Məlum oldıığu kimi, məzmun əsaslı dil tədrisində bacarıqların mənumsənməsi əhəmiyyətli rola malikdir. Xarici dilin tədrisi prosesində, həm də şifahi nitqin öyrədilməsi zamanı tələbələrdə maraq və motivasiyanın yaradılmasında bir vasitə ola bilər. Belə ki, bu və ya digər bədii mətnlərdə olan informasiyanın müzakirə edilməsi danışıq vərdişlərinin inkişaf etdirilməsi üçün mühüm stimul yarada bilər. Bədii əsərlərə söykənərək müzakirə xarakterli, kommunikativyönümlü çalışma və tapşırıqların kəmiyyəti və keyfiyyəti tədrisin mərhələlərinə uyğun müəyyən edilməlidir. Beləliklə, müxtəlif kommunikativ tapşırıqları yerinə yetirmək üçün dilöyrənənlər kommunikativ fəaliyyət növlərinə cəlb edilməli və bu qəbildən olan strategiyalardan istifadə etməlidirlər. Bu zaman istifadə edilən tapşırıq və çalışmalardan danışarkən, onların hansı fəaliyyət növlərinə cəlb edilməsinin məqsədəuyğun olduğunu müəyyənləşdirməklə səmərəli nəticələrin əldə edilməsini təmin etmək mümkündür.

Ədəbiyyat

1. Шубин Э.П. Языковая коммуникация и обучение иностранным языкам. М.: Просвещение, 2002, 232 с.
2. Щерба Л. В. О трояком аспекте языковых явлений .-Известия АН СССР, 1931,№ 1.
3. Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.

Sevindj Azizova

The methodology of using content based language teaching in English at high schools

Summary

Written language is lexically richer than spoken language and it can, therefore, provide more learning opportunities than a spoken context. Consequently, a student who is an eager reader encounters more words than a student who reads less. In addition, regular reading is likely to lead to more efficient access of word meanings. A student who reads also outside school has many opportunities to acquire and improve vocabulary knowledge through inference from context. World knowledge comes from experience and from previously read texts. Skilful comprehenders use discourse knowledge to connect text elements in a consistent fashion and to connect

the content to the messages of the writer. Discourse knowledge includes for instance, the structure of different genres, the main messages the author intends to convey, and the topic structure. Linguistic knowledge includes oral language capacities – production and comprehension – and the ability to reflect one's knowledge of language. Skilful reading requires knowledge of all linguistic levels – phonology, morphology, syntax, and higher level discourse structures. In addition, comprehension often involves integrating non-print information. Their goals are gaining knowledge, enjoying literature, locating specific information, and learning from text. Motivation consists of multiple aspects. The students with strong sense of competence are likely to engage.

Key words: content, motivation, language, speech, communication

Севиндж Азизова

Методология употребления метода основанный на содержании в английском языке на высших вузах

Резюме

Для того, чтобы сделать процесс обучения речевой коммуникации на языке специальности более эффективным, преподаватель должен содействовать созданию обстановки, когда и обучающий, и обучаемые чувствуют себя достаточно комфортно, в том или ином академическом контексте, понимают цель речевого общения, и осведомлены о способах достижения этой цели с помощью использования ранее усвоенных лексических единиц, грамматических структур, интонационных моделей и речевых образцов. Знание потребностей студентов и целей, в которых они изучают тот или иной иностранный язык, позволяет специалистам в области преподавания иностранных языков, а также практикующим учителям языков разрабатывать наиболее эффективные методы их достижения. Современная методика преподавания иностранных языков, основанная на коммуникативной модели обучения языку, предполагает обучение иноязычноречевой компетенции в определенном коммуникативном контексте путем сочетания основных компонентов языковой системы и при условии обеспечения коммуникативного контекста с помощью ситуаций и тем, и реализации и усвоения лингвистических единиц в функциональных целях. Совершенно естественно, что при выборе наиболее целесообразного метода или методов обучения коммуникации на иностранном языке предпочтение должно быть отдано коммуникативному подходу к обучению языкам.

Ключевые слова: содержание, мотивация, язык, речь, коммуникация

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

İLAHƏ SƏFƏRZADƏ
Doktorant
Bakı Dövlət Universiteti

AZƏRBAYCAN TARİXİ NƏSRİNDƏ REPRESİYA QURBANI QADINLARIN BƏDİİ İNİKASI

XÜLASƏ

Bu məqalədə Azərbaycan ədəbiyyatında repressiya mövzusunun qadın obrazları kontekstində bədii təqdimatı araşdırılır. Repressiya dövrü qadın obrazlarının təsvirində kollektiv yaddaşın, milli travmanın və mənəvi müqavimətin bədii təcəssümünü üstünlük təşkil edir. Araşdırma göstərir ki, bu obrazlar mənəvi dirəniş, mərhəmət və insani dəyərlərin qorunması funksiyalarını ifadə edirlər. Düşərgə, sürgün, işgəncə və ayrılıq motivləri qadın taleyinin realist, həm də simvolik səviyyədə təqdim olunmasına imkan yaradır. Müəlliflər qadınların həyat hekayələri vasitəsilə cəmiyyətin mənəvi-psixoloji vəziyyətini, ailə münasibətlərinə təsiri və sosial ədalətsizlik problemini ön plana çıxarırlar.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, repressiya qurbanı qadınların bədii təqdimatı tarixi və sosial kontekstlə yanaşı simvolik baxımdan müqayisəli şəkildə araşdırılır. Fərdi talelərin bədii interpretasiyası vasitəsilə müəlliflər kollektiv yaddaşı, ana arxetipini və qadınların mənəvi müqavimətini ədəbiyyat müstəvisində yenidən qururlar.

Beləliklə, Azərbaycan nəsrində represiya qurbanı qadın obrazları bədii və simvolik qatlarda işlənərək ədəbiyyatda yeni təhlil perspektivləri açır və elmi araşdırmalar üçün zəngin material təqdim edir.

Açar sözlər: represiya, çağdaş nəsr, qadın obrazları, simvolizm, müqayisəli təhlil

ILAHA SAFARZADA
Ph.D student
Baku State University

ARTISTIC REPRESENTATION OF WOMEN VICTIMS OF REPRESSION IN AZERBAIJANI HISTORICAL PROSE

ABSTRACT

This article examines the literary representation of the theme of repression in Azerbaijani literature in the context of female characters. In the depiction of women during the period of repression, the artistic reflection of collective memory, national trauma, and moral resistance is emphasized. The study shows that these characters embody functions of moral resilience, compassion, and the preservation of human values. The motifs of the camp, exile, torture, and separation enable the portrayal of

women's destinies both on realistic and symbolic levels. Through the life stories of female characters, the authors bring to the forefront the moral-psychological condition of society, the impact on family relations, and the problem of social injustice.

The scholarly novelty of the research lies in the fact that the literary representation of repressed women is examined comparatively not only in historical and social contexts but also symbolically. Through the artistic interpretation of individual fates, the authors reconstruct collective memory, the maternal archetype, and women's moral resistance within the literary framework.

Thus, the portrayal of repressed female characters in Azerbaijani prose, developed through both artistic and symbolic layers, opens new analytical perspectives in literature and provides rich material for scholarly research.

Keywords: repression, contemporary prose, female characters, symbolism, comparative analysis

ИЛАХА САФАРЗАДА
Докторант
Бакинский государственный университет

ОТРАЖЕНИЕ ЖЕНСКИХ ОБРАЗОВ ЖЕРТВ РЕПРЕССИЙ В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИЧЕСКОЙ ПРОЗЕ

РЕЗЮМЕ

В данной статье рассматривается художественное воплощение темы репрессий в азербайджанской литературе в контексте женских образов. В изображении женских персонажей периода репрессий доминируют мотивы коллективной памяти, национальной травмы и духовного сопротивления. Исследование показывает, что эти образы выражают функции нравственного стоицизма, милосердия и сохранения человеческих ценностей. Мотивы лагеря, ссылки, пыток и разлуки способствуют реалистическому и одновременно символическому раскрытию женской судьбы. Через жизненные истории женщин авторы акцентируют внимание на морально-психологическом состоянии общества, воздействии репрессий на семейные отношения и проблеме социальной несправедливости.

Научная новизна исследования заключается в том, что художественное представление женских образов — жертв репрессий — анализируется в сопоставительном аспекте не только с историко-социальной, но и с символической точки зрения. Посредством художественной интерпретации индивидуальных судеб авторы воссоздают в литературном пространстве коллективную память, архетип Матери и духовное сопротивление женщин.

Таким образом, женские образы — жертвы репрессий — в азербайджанской прозе раскрываются на художественном и символическом

уровнях, открывая новые перспективы анализа и предоставляя богатый материал для дальнейших научных исследований.
Ключевые слова: репрессия, современная проза, женские образы, символизм, сопоставительный анализ

Giriş

Azərbaycan ədəbiyyatında repressiya mövzusu XX əsrin ortalarından başlayaraq fərdi və kollektiv talelərin bədii təsvirində mühüm yer tutur. “Azərbaycan ziyalılarının müəyyən bir qrupu öz vətənlərində digər dövlətin xüsusi orqanları tərəfindən zorakılıqla həbs edilib, mühakimə olunmuş və cəza çəkmək üçün uzaq Solovkiyə - "buzlu cəhənnəm"ə yola salınmışdır” [7] Ümumiyyətlə, bu dövr tarixin ən ağrılı səhifələrindən birini əks etdirir. “1920-ci ildən başlayan və 1937-ci ildə milli fəlakət və faciə şəklində bütün respublikanı bürüyən repressiya qurbanlarının sayı dəqiq məlum deyil. Lakin o aydındır ki, bəzi istisnalar nəzərə alınmasa, güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arasında min bir işgəncə ilə qətlə yetirilənlərin böyük əksəriyyəti Sovet rejimi, kommunist ideologiyası və mövcud quruluşa qarşı real və ciddi təhlükə yarada biləcək güc və zəka sahibləri idi” [10] Həmin dövrdə bir çox yazıçı, şair, ədəbiyyatşünas, ictimai xadimlər represiyaya məruz qalsa da müstəmləkə dövründə bu mövzunu işıqlandırmaq mümkün olmamışdır.

Müstəqillik dövrü nəsrimizdə dönəmin təsviri öz əksini tapır. Xüsusilə qadın obrazlarının represiya şəraitində təqdimatı cəmiyyətin mənəvi-psixoloji vəziyyətini, fərdin daxili dünyasını əks etdirən zəngin material yaradır. Qadınların repressiya qurbanı kimi təsvir olunması gender, sosial və psixoloji aspektləri birləşdirən kompleks analiz tələb edən bir məsələdir. Bu obrazlar vasitəsilə müəlliflər qadının fədakarlığını, mənəvi müqavimətini və daxili sarsıntılarını təqdim edir, ictimai ədalətsizlik və insanlıq dəyərlərinin qorunması məsələsini ön plana çıxarırlar. Obrazların simvolik funksiyası xüsusi əhəmiyyət kəsb edir. “Ədəbiyyatımızda ayıq bədii düşüncə ruhunun özünü göstərməyə başlaması ədəbi prosesdə yeni keyfiyyət dəyişikliyi kimi diqqəti çəkir. İndi ədəbiyyat olub keçənləri təsvir və təhkiyə ilə kifayətlənmir, başımıza gələn fəlakətin səbəbləri üzərində düşünür” [6, s 41]

Bu mövzunu araşdırmaq üçün biz çağdaş Azərbaycan yazıçıları Mənzər Niyarlı və Ülviyyə Tahirin yaradıcılığından olan əsərlərə müraciət etdik. Hər iki müəllifin əsərlərində qadın obrazları repressiya kontekstində həm realist təsvirlər, həm də poetik-simvolik qatlarla işlənmişdir ki, bu da onların elmi təhlil üçün material təqdim etməsini təmin edir.

Əsas hissə

Mənzər Niyarlının “Qürbətə aparan Qatar” povestində represiyaya məruz qalmış qadın obrazı kimi Əfruz diqqət mərkəzindədir. Əfruz obrazı Azərbaycan ədəbiyyatında repressiya dövründə qadın taleyinin dramatik təqdimatının tipik

nümunəsidir. Onun həyatı əvvəlcə ailə xoşbəxtliyi ilə başlansa da siyasi repressiya onun bütün ailə həyatını alt-üst edir. Ərinin günahsız yerə həbs olunması və sonrakı dövrdə onun özünün Akmol düşərgəsinə aparılması qadın obrazının fiziki və mənəvi iztirabını daha da çoxaldır.

Əfruzun əsirlikdə yaşadığı on il boyunca övladlarından ayrı qalması və bu müddətdə qızlarına başqalarının baxması Azərbaycan cəmiyyətinin repressiya dövründəki struktur və ailə münasibətlərini əks etddirmək baxımından əhəmiyyətlidir. Bu aspekt qadın obrazının reallıqla uyğunlaşma və mənəvi müqavimət funksiyasını ön plana çıxarır.

Povestdə Əfruzun obrazı eyni zamanda ana arxetipinin simvolik funksiyası ilə zənginləşdirilmişdir. O, hər zaman övladlarının taleyinə, gələcəyinə bağlı olaraq yaşamağa davam edir. Əfruzun taleyi repressiya qurbanı qadınların mənəvi müqavimətini və insanlıq dəyərlərinin qorunmasını nümayiş etdirir. Beləliklə, povestdəki qadın obrazı repressiya dövrünün kollektiv yaddaşını və ana arxetipinin ədəbiyyatda bədii təcəssümünü təqdim edir.

Əsərdə digər represiya qurbanları tarixi qadın şəxsiyyətlərin də obrazları xatırlanır: Əhməd Cavadın həyat yoldaşı Şükriyyə və Hənəfi Zeynallının həyat yoldaşı. "Tarixi romanlarda eyni əsrdə yaşamış, lakin müəyyən səbəblər üzündən bir-birilə görüşməyən şəxsiyyətlər "görüşə" bilər. Lakin bu ehtimalın özü də tarixi reallığın mümkünlüyünə dəlalət etməlidir". [1, s 132] Ümumilikdə əsər Azərbaycan ədəbiyyatında represiyaya məruz qalmış qadınların bədii təqdimatına dair elmi araşdırmalar üçün əhəmiyyətli material yaradır.

Ülviyyə Tahirin "Şükriyyə taleyim" romanında Şükriyyə obrazı da repressiyanın qadın həyatına təsirini təsvir edir. Şükriyyə övladlarından və sevdiklərindən ayrılaraq düşərgədə ağır işkəncələrə məruz qalır, ərinin təqiblərə məruz qalması onun mənəvi vəziyyətini daha da mürəkkəbləşdirir. "Şükriyyə xanım həyat yoldaşı Əhməd Cavada görə sürgün edilmişdi. Mən Şükriyyə xanımla çox maraqlanmışam. Deməli, Qazaxıstanda "Aljir" adlı bir həbs düşərgəsi var idi. Xalq düşmənlərinin həyat yoldaşları orda saxlanılırdı. Mən o düşərgədə olanda azərbaycanlı qadınların siyahısını tapmışdım. O siyahıda Şükriyyə xanımın da adı var idi. Orda mənə Şükriyyə xanım haqqında xeyli danışıblar. Mən bunu deməliyəm. Orda qadınların başına çox iş gəlirdi. Xüsusilə də gözəl qadınların. Gözəl qadınları zorlayırdılar. Şükriyyə də çox gözəl qadın olub. Özü də acar knyazı Süleyman bəyin qızı idi. Gündüz o çətin, ağır işlərdə işləyirdi. İşi bitəndən sonra dincəlmək əvəzinə gəlib tualetdə sidiyin içinə uzanırmış. Sonra hamının içinə gəlirmiş, hamı da ondan iyrənib yaxın durmurmuş. O, namusunu belə qoruyub. Bunları eləməsəydi, Allah bilir, başına nələr gələrdi." [4] Əsərdə Şükriyyənin həm gənclik dövrü, həm də əsirlik illəri təsvir olunur ki, bu da onun xarakterinin psixoloji dərinliyini ön plana çıxarır. "Bəli, o özünü tamamilə fərqli qadın olduğuna inandırmışdı. Amma bu həqiqəti dəyişmirdi. Meşşan qadınların fəxr etdikləri xüsusiyyətlərə malik olduğundan, bəlkə də, heç xəbəri yox idi. Onlar həyat yoldaşlarının vəzifələri, bitirdikləri gecə kursları,

oxuduqları kitablar və geyindikləri paltarlarla öyünürdülər. Gizlicə tutduqları dayələrin vaxtilə hansısa bəyzadənin evində işləməsi ilə lovğalanırdılar. Və ən əhəmiyyətlisi, hamının gözünə soxduqları bir üstünlükləri var idi: onlar kommunist idilər. Məni qadın klubundan qovanda da, küçədə salam verməyəndə də Heyran xanım özünü haqlı sayırdı. Asta addımlarla oradan uzaqlaşdım. O hadisəni sonralar xatırlayanda həmin vaxt sərgilədiyim səbatımla qürur duymuşdum. Heyranla tamamilə başqa bir səhnədə qarşılaşacağımı heç ağlıma da gətirməzdim" [9, s 214-215]

Şükriyyənin düşərgədəki həyatını qoruması və əxlaqi ləyaqətini saxlaması Azərbaycan qadınlarının kollektiv faciəsini və mənəvi müqavimətini simvolizə edir. Obrazların bu cür təsviri müstəqillik dövrünə təsadüf etməsi də təsadüfi deyil. "Tarixilik bütün dövrlərdə müasirliklə qoşa yaşamışdır. Mahiyyətində müasirlik olmayan, müasirlikdən kənar yaranmış əsl tarixi roman və ya hər hansı bir janrda bədii əsər yoxdur." [5, s 46]

Hər iki əsərdə qadın obrazları repressiya dövründə milli və ictimai travmanı da əks etdirir. Əsərlərdə Əfruz və Şükriyyə obrazlarının övladlarına və insanlığa bağlılıqları, mərhəmətləri və mənəvi dirənişləri ilə repressiya şəraitində qadının daxili müqavimətini bədii şəkildə etdirir. Roman dili baxımından da həmin dövrü əks etdirmək iqtidarındadır. "Oxucu yalnız əsərin təsviri vasitəsilə belə özünü 20-ci əsrdə "tapmış" kimi hiss edə bilir." [2, s. 43]

Hər iki əsər qadın obrazlarını realist və simvolik səviyyədə təqdim etməklə Azərbaycan nəsrində represiyaya məruz qalmış qadınların bədii təmsilinin araşdırılması üçün zəngin material təmin edir. Simvolik səviyyədə repressiya və əsirlik motivləri qadınların taleyinə metaforik və fəlsəfi dərinlik əlavə edir. Qadın obrazları ana arxetipinin, mənəvi müqavimətin və insanlıq dəyərlərinin ədəbiyyatda təcəssümünü əks etdirir.

Ülviyyə Tahirin "Aljir" əsərində Firuzə və Gülnarə obrazları represiyanın qadın həyatına təsirini araşdırmaq baxımından əhəmiyyət kəsb edir. Firuzə həyat yoldaşının həbsindən sonra təkbaşına qalmış, övladından ayrılmış və düşərgədə ağır işkəncələrə məruz qalmış qadındır. Gülnarə isə köməksevər, mübariz qadın obrazı kimi təqdim olunur. O, çətin şəraitdə digər insanlara yardım edir, qadınları qorumağa çalışır, lakin özünə qarşı haqsızlıqlar və təzyiqlərlə üzləşir. "Firuzə qalxıb Pərvanəni geyindirdi. Evdən çıxdılar. Yuxudan qalxanda qərar vermişdi: Allahı axtarmağa gedəcəkdi.Gedib şikayət edəcəkdi. Ətrafdakı insanlar bir-bir yoxa çıxdıqca onu bürüyən dəhşətdən bir başqa yolla can qurtarmağın yolunu tapa bilmirdi". [8, s. 178]

Bu obrazlar repressiya dövründə qadınların qurban simvolu kimi təqdim olunduğunu ifadə etsə də onların mübarizliyini, əyilməzliyini qələmə almaq baxımından da əhəmiyyət kəsb edir. Əfruz, Şükriyyə, Firuzə və Gülnarə övladlarına, insanlığa və yüksək dəyərlərə bağlılıqları, mərhəmətləri və mübarizlikləri ilə repressiya şəraitində qadınların daxili müqavimətini simvolizə edirlər. "Tarixi romanlar üçün vacib şərtlərdən biri dövrün, zamanın ruhunu qoruyub saxlamaq,

sözün geniş mənasında tarixi prinsipə riayət etməkdir ki, bu da yazardan ədəbi materiala ciddi yanaşma tərzini tələb edir.” [3, s.35]

Simvolik təhlil üçün hər üç əsərdə qadınların taleyi repressiya və əsirlik motivləri ilə zənginləşdirilmiş, düşərgə, əsirlik, ayrılıq və işkəncə motivləri qadınların taleyinə metaforik və fəlsəfi dərinlik qazandırmışdır.

Mənzər Niyarlı və Ülviyyə Tahirin əsərlərində yaradılmış qadın obrazları Azərbaycan nəsrində represiyaya məruz qalmış qadınların taleyini, onların mənəvi müqavimətini və simvolik funksiyasını tədqiq etmək üçün zəngin elmi material təqdim edir, müasir nəsrimizdə represiya mövzusunda yeni yanaşmalar üçün əsas yaradır.

Nəticə

Tədqiqat göstərir ki, Azərbaycan ədəbiyyatında represiyaya məruz qalmış qadın obrazları milli və kollektiv travmanın bədii təcəssümünüdür. Mənzər Niyarlının “Qürbətə aparan qatar” povestində Əfruz, Ülviyyə Tahirin “Şükriyyə taleyim” və “Aljir” əsərlərində Şükriyyə, Firuzə və Gülnarə obrazları repressiya şəraitində qadınların yaşadığı psixoloji, mənəvi və fiziki sarsıntıları əks etdirir. Bu obrazlar vasitəsilə müəlliflər qadınların fədakarlığını və insani dəyərlərə bağlılığını ön plana çıxarır, eyni zamanda repressiya dövrünün ailə və sosial münasibətlərə təsirini bədii şəkildə təqdim edirlər. Onların övladlarına və insanlığa bağlılığı, mübariz və mərd ruhları represiya şəraitində qadının daxili müqavimətini simvolizə edir. Düşərgə, əsirlik, ayrılıq və işkəncə motivləri obrazların simvolik funksiyasını gücləndirir, fərdi faciəni və kollektiv yaddaşı əks etdirir.

Qadınlararası həmrəyliyin ön plana çıxarılması və ortaq acılarla formalaşan kollektiv yaddaşın narrativə daxil edilməsi, romanı klassik tarixi qurğudan kənara daşıyır. Xüsusilə ALJİR düşərgəsindəki qadın fiqurlarının portretləri həm tarixi şahidlik, həm də ədəbi ədalət forması kimi oxuna bilər. Bu qadınların yaşadıqları gələcəyə ünvanlanan bir xəbərdarlığın mahiyyətini daşıyır: totalitar sistemlərdə qadının bədəni və ruhu həmişə ideoloji hökmranlığın ən müdafiəsiz hədəfi olur.

Elmi yenilik olaraq qeyd etmək olar ki, bu tədqiqat Azərbaycan ədəbiyyatında represiyaya məruz qalmış qadın obrazlarını simvolik və filoloji baxımdan araşdırır. Əsərlərdəki qadın obrazlarının müqayisəli təhlili göstərir ki, fərdi taleyin bədii təqdimatı və simvolik interpretasiyası vasitəsilə müəlliflər qadınların mənəvi müqavimətini, analıq duyğularını və insanlıq dəyərlərini təsvir edərək ədəbiyyatda yeni təhlil perspektivi yaradır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Axundlu, Y. Tarixi roman yeni mərhələdə (1980-1990-cı illər) / Bakı: Maarif -1998, 176 s
2. Əhmədova, İ. (2022). 30024. Ülviyyə Tahirin “Şükriyyə Taleyim” əsəri haqqında. “Ustad” Ədəbiyyat və Sənət Dərgisi, Cilt 8, Say 39. s. 42-44.

3. Elaydi, A. S. (2017). Müstəqillik Dövrü Azərbaycan Romanı: mövzu, problematika və bədii məsələlər (1991–2005). Bakı: Nurlar.
4. Əliyeva, L. APA-ya müsahibəsi \ İnternet resursu. https://apa.az/sosial/alim-repressiya-vaxti-azerbaycan-qadinlarinin-coxuna-en-yuxari-hebs-cezasi-verilirdi-musahibe-659241
5. Hüseynov, T. Tarixi roman ustası / Bakı: Yazıçı -1986, 165 s
6. Mehrəliyev, E. Zaman və ədəbiyyat / Bakı: MBM -2009, 296 s
7. Rüstəmli Asif, Represiya və ədəbiyyat \ https://science .gov.az/ az /news/ open/31495
8. Tahir Ülviyyə, Aljir \ Bakı: Səbat -2024, 304 s.
9. Tahir, Ü. Şükriyyə Taleyim \ Bakı: Səbat -2024, 304 s
10. Tahirli Abid, Represiya qurbanı olmuş qələm sahiblərimiz \525-ci qəzet - 2015.- 16 oktyabr - s. 6

Rəyçi: fil.ü.fil.dok. Zəkiyeva Aygün Hidayət qızı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

NƏRGİZ QURBANLI
Azərbaycan Dillər Universiteti
Beynəlxalq jurnalistika şöbəsinin müdiri, baş müəllim. qurbanova_77@mail.ru

ÇAĞDAŞ AZƏRBAYCAN JURNALİSTİKASINDA ƏDƏBİ DİL NORMALARININ GÖZLƏNİLMƏSİ PROBLEMİ

Giriş

Jurnalist nədən bəhs etməli və necə bəhs etməlidir? Bu sual çağdaş jurnalistikanın qarşısında duran əsas suallardan biridir. Əlbəttə, mövzu seçməkdə jurnalist sərbəstdir. Nədən, hansı sahədə bəhs etməkdə jurnalist qarşısında xüsusi məhdudiyyətlər qoyulmur. Belə ki, jurnalist qanunla qadağan edilməmiş hər hansı məsələyə qəzet və jurnal səhifələrində, radio efiri və televiziya ekranında, həmçinin sosial şəbəkələrdə öz münasibətini bildirə bilər. Unutmaq olmaz ki, jurnalistin müxtəlif sahələrlə bağlı fikri geniş ictimaiyyət tərəfindən heç də həmişə müsbət qarşılanmır. Ona görə ki, bir çox hallarda jurnalistikanın ən vacib prinsipi pozulur. Jurnalistika nümunəsi kimi təqdim olunan materialın obyektiv gerçəkliyi doğru-düzgün əks etdirməməsi ən vacib prinsiplərdən birinin pozulması halıdır. Çox təəssüf ki, belə bir halla çağdaş jurnalistikamızda tez-tez qarşılaşırıq. Siyasi maraq, şəxsi mənfəət güdən jurnalist istər-istəməz qəzərzli mövqe tutur və haqqında söhbət açdığı məsələ ilə bağlı obyektivlikdən xeyli uzaq fikirlər irəli sürməli olur. Jurnalistin obyektiv mövqe tutmasının, gerçəkliyi doğru-düzgün əks etdirməsinin mühüm bir göstəricisi də ədəbi dil normalarının nə dərəcədə gözlənilib-gözlənilməməsidir. Jurnalist elm, təhsil, səhiyyə, iqtisadiyyat, siyasət və s. kimi sahələrdən hər hansı birinə həsr etdiyi yazılı və ya şifahi nitqində həqiqəti az-çox ifadə edirsə, amma ədəbi dil normalarını kobud şəkildə pozursa, həmin nitqin effektiv olacağı, geniş oxucu və dinləyici auditoriyasına lazımi şəkildə qayacağı inandırıcı deyil.

Biz az yuxarıda "yazılı nitq", "şifahi nitq" ifadələrini işlətməyimiz təsadüfi deyil. Həmin ifadələri işlətməklə nəzərə alırıq ki, qəzet və jurnallardan başqa jurnalistikanın yerdə qalan bütün informasiya vasitələri həm yazılı, həm də şifahi nitq əsasında fəaliyyət göstərir. Teleradio məkanında, sosial şəbəkələrdə, eləcə də elm, təhsil, siyasət, sosial rifah və s. sahələrə aid müxtəlif auditoriyalarda jurnalistlər yazılı və şifahi nitqin imkanlarından paralel olaraq istifadə edirlər. Onlar hər hansı mətni auditoriyaya, geniş oxucu və dinləyici kütləsinə yazılı və ya şifahi şəkildə çatdıranda ədəbi dil normalarını gözləməli olurlar. Peşəkar jurnalistlər yaxşı bilirlər ki, şifahi ədəbi dilin qayda-qanunlarına əməl etmək yazılı ədəbi dilin qayda-qanunlarını gözləməkdən heç də az əhəmiyyət daşımır. "Şifahi nitqin zəngin intonasiya imkanları: melodiya, intensivlik, tələffüz tempri, tempi vardır; elə bir intonasiya rəngarəngliyinə malikdir ki, insan duyğusunu, hiss və həyəcanını, əhvali-ruhiyyəsini və s. bütün çalarları ilə büruzə verir, məntiqi vurğunun yeri, tələffüzün aydınlıq dərəcəsi, fasilələrin olub-olmaması mühüm rol oynayır" (1,32). Şifahi

nitqdə jurnalsit öz fikirlərini verbal şəkildə, yəni səslənən sözlər, jest və mimika vasitəsilə ifadə etmək imkanı qazanır. Məlumdur ki, belə bir imkan gündəlik həyatımızda hər birimizin – peşəsindən, sənətindən asılı olmayaraq hər insanın yararlandığı imkandır. İnsanlar öz aralarında söhbəti məhz şifahi dialoqlar şəklində qururlar. Bu dialoqlar söhbət söhbət edən tərəflərin dünyagörüşündən asılı olaraq müxtəlif səviyyələrdə ortaya çıxır. Əkin-biçinlə məşğul olan iki kənd adamının söhbəti loru danışıq tərzi üstündə qurulur, onlar yaşadıqları bölgəyə məxsus dialekt və şivə xüsusiyyətlərinə geniş yer verirlər. Bu xüsusiyyətlər həm tələffüzdə, həm ayrı-ayrı sözlərin seçilməsində, həm də cümlələrin qurulmasında özünü büruzə verir. Hansısa ictimai yerdə iki ziyalının bir-biri ilə söhbətində isə loru danışıq və fikrin dialekt və şivə prinsipləri əsasında çatdırılması qətiyyən səciyyəvi hal deyil. Ziyalılar ictimai yerlərdə danışarkən şifahi ədəbi dilin normalarını, xüsusən də orfoepiya normasını gözləməyə çalışırlar. Jurnalistin şifahi nitqi misal gətirdiyimiz hallardan ikincisinə daha yaxındır. Belə ki, jurnalist şifahi nitq zamanı loru danışıqdan imtina etməli və şifahi ədəbi dilin fonetik, leksik və qrammatik qaydalarına əməl etməli olur. Amma unutmaq olmaz ki, hər hansı jurnalistin dinləyiciyə çatdırmaq istədiyi nitq iki ziyalının ictimai yerdə bir-biri ilə söhbətindən də məzmun və formaca fərqlənir. Başlıca fərq nitqin mövzusunun qabaqcadan müəyyənləşdirilməsi və mövzuya uyğun hazırlıq işlərinin görülməsidir. İki ziyalı hardasa rastlaşıb söhbət edəndə nədən danışacaqlarını qabaqcadan bilmədikləri halda, jurnalist nəzərdə tutduğu mövzu ilə bağlı mənbələrə baxmalı, müəyyən qeydlər götürməli, edəcəyi çıxışın plan-prospektini tutmalı, danışacağı mətni əvvəldən axıracan beynində qurmalı olur. Bir-biri ilə söhbət edən ziyalıların bir və ya bir neçə dinləyicisi olursa, şifahi şəkildə çıxış edən jurnalist yüzlərlə, minlərlə dinləyici qarşısına çıxır. Nəsir Əhmədli jurnalistin radiodakı çıxışını nəzərdə tutaraq yazır: "Audionitq monoloji nitqdir. Studiyada neçə nəfərin söhbət etməsindən asılı olmayaraq tam halda proqram dinləyicilər üçün nəzərdə tutulduğundan veriliş iştirakçıları birinci (danışan), auditoriya isə ikinci (dinləyən) tərəf kimi çıxış edir. Buna dialoji (poliloji) monoloq da demək olar" (2,108). Geniş auditoriya qarşısında çıxış etdiyinə görə jurnalist əsəbi dilə münasibətdə xüsusi məsuliyyət daşıyır.

Şifahi nitqdə jurnalistin diqqət gətirəcəyi məsələlər sırasında tələffüz məsələsi mühüm yer tutur. Bunu radio və televiziyanın dilində aydın müşahidə etmək olar. "Yazılı və şifahi dilin üzvi şəkildə birləşməsinin təzahürü olan televiziya nitqi danışıq səslərini, fikrin bütün incəliklərini, söz və cümlələrin ən dərin qatlarını, müxtəlif intonasiya çalarlarını özündə əks etdirən canlı dildir. Bu, onun bir növ süni dil sayılan yazılı nitqdən ən əsas fərqidir. Axı bir sıra üstünlüklərinə bamayaraq, yazılı nitq bütün məna incəliklərini, canlı intonasiyanı, hətta məntiqi vurğunu belə ifadə etməyə qadir deyildir... Söz özünün ən güclü təsirini, emosionallığını, ekspressivliyini, əlvan qiyafəsini və çoxmənalılığını yalnız şifahi nitqdə tapmağa qabildir. Amma bu şərtlə ki, həmin söz dügün tələffüz edilmiş olsun (3,32). Doğrudur, burada şifahi nitqin üstünlüyünü daha qabarıq şəkildə diqqətə çatdırmaq

üçün bir az mübaliğəyə yol verilmiş, "söz özünün... çoxmənalılığını yalnız şifahi nitqdə tapmağa qabildir" deməklə bir qədər ifrata varılmışdır. Buna baxmayaraq biz də o fikirlə tam razılaşırıq ki, düzgün tələffüsə və canlı intonasiyaya əsaslanan şifahi nitqlə jurnalist yüksək səviyyədə ifadəliliyə nail olur. Gündəlik həyat və məişətdə qarşılaşdığımız danışıq dilindən radio və televiziya dili, hər şeydən qabaq, öz aydınlığı, səlisliyi və diksiyası ilə fərqlənir. Başqa sözlə desək, radio və televizyanın dili tələffüz qaydalarının yüksək səvviyyədə gözlənilməsi baxımından nümunəyə çevrilir və ya nümunəyə çevrilməlidir. "Tələffüz anlayışına nitqin ümumi axarı da, yəni intonasiaya vəhdəti ilə birləşmiş söz və söz qruplarının müəyyən fasilə və yarımfasilələrlə, güclü və zəif, çeşidli emosional çalarlıqlarla deyilişi də daxildir. Ümumxalq danışıq dilində əsasən obyektiv halda mövcud olan tələffüz qaydaları ədəbi dildə müəyyən müdaxilələrə uğramalı olur. Əssalı elmi araşdırmalarla tələffüz qaydalarından daha " düzgün" olanları seçilir və ya müəyyənləşdirilir" (4,15). Dilçilikdə tələffüz qaydalarından bəhs edən orfoepiya bölməsinin irəli sürdüyü ən mühüm prinsipləri nəzərə almadan jurnalistin nümunəvi şifahi nitq təqdim etməsi, əlbəttə, mümkün deyil.

Mühüm tələffüz qaydalarından biri assikülyasiya qaydasıdır. Bu qaydaya görə, tələffüz zamanı bir səs yanaşı gələn səsə təsir edir və onu öz məxrəcinə uyğunlaşdırır. Belə bir mahiyyət daşıdığını nəzərə alıb assimilyasiya hadisəsinə bəzən "uyuşma" da deyilir. Bu fonetik hadisəyə malik olaraq "r" səsinin təsiri ilə tələffüzdə baş verən dəyişməni göstərə bilərik. Sonu "r" samiti ilə bitən "kəsər" sözünə -li şəkilçisi artırsaq, tələffüz zamanı həmin şəkilçidəki "l" səsi sözün kökündəki "r" səsinin məxrəcinə uyğunlaşacaqdır: kəsərri. Bu gün fəaliyyət göstərən radio və televiziyalarımızın ayrı-ayrı verilişlərini izlədikdə məlum olar ki, jurnalistlərimiz bir çox hallarda assimilyasiya qaydasına əməl ütmirlər:

1. Braziliyada yenidən siyasi gərginlik davam edir. 2. Hadisə yerinə çağırılan təcili tibbi yardım vasitəsilə zəhərlənənlərə ilkin yardım göstərdikdən sonra bina sakinləri ambulator müalicəyə göndərilib. 3. O, yaxınlarının köməyi ilə gecə saatlarında 1 saylı Kliniki Tibbi Mərkəzə yerləşdirilib. 4. Tiraja başlamazdan əvvəl gəlin komissiya üzvləri ilə yaxından tanış olaq (5, 14-17).

SPACE televiziyasının "Hər gün" və "Hər səhər" verilişlərindən götürülmüş bu cümlələrdə assimilyasiya qaydasının pozulması göz qabağındadır. Assimilyasiya qaydasına görə, 1-ci cümlədə "gərginlik" sözü "qərginnix" kimi; 2-ci cümlədə "sakinləri" sözü "sakinnəri" kimi; 3-cü cümlədə "yaxınları" sözü "yaxınnarı" kimi; 4-cü cümlədə isə "yaxından" sözü "yaxınnan" kimi tələffüz edilməli idi.

Dissimilyasiya fərqlənmə fonetik hadisəsi tələffüz zamanı bir səsin onunla eyni nə ya yaxın məxrəcdə olan səsi öz məxrəcindən uzaqlaşdırması prinsipinə əsaslanır. Məsələn, "zərər" sözünün "zərəl" kimi tələffüz olunmasında dissimilyasiya hadisəsi özünü göstərir. Təəssüflə qeyd edirik ki, teleradio məkanında dissimilyasiya qaydasının pozulması hallarına da tez-tez rast gəlirik. SPACE televiziyasının "Yerimdəyəm" verilişindən götürülmüş bu cümləyə diqqət yetirək: "Kiçix bir

təşəkkürüm var, o təşəkkürümü edib sizlə sağollaşacağıx". Bu cümlədə işlənmiş "təşəkkür" sözü dissimilyasiya qaydasına görə "təşəkgür" şəklində tələffüz edilməli idi. Proteza (səs artımı) hadisəsi ən çox alınma sözlərin tələffüzündə müşahidə olunur.

Alınma sözlərdə a və i, a və e, ə və i, i və a, i və o saitləri yanaşı şəkildə tələffüz zamanı həmin saitlərin arasına "y" samiti əlavə olunur: ailə-ayilə, müdafiə-müdafiyə, dialoq-diyaloq, poema-payema və s. Əgər jurnalist şifahi nitq təqdim edərkən bu tipli sözləri yazıldığı kimi tələffüz edərsə, yəni qoşa saitlərin arasına "y" samiti əlavə etməzsə, orfoepiya qaydasını pozmuş olar.

Eliziya (səs düşümü) həm sözlərin yazılışında, həm də deyilişində müşahidə olunan fonetik hadisədir. Bu fonetik hadisəni sözlərin tələffüzü üzrə izləsək, ikinci şəxsin cəminə aid – sınız şəkilçisini misal çəkə bilərik. Həmin şəkilçi sözlərə artırılarkən onlarda bir saitlə birlikdə "n" samiti də tələffüz zamanı ixtisar olunur: gətiribsiniz-hətiribsiz, yazıbsınız-yazıbsız, örtübsünüz-örtübsüz, oxuyubsunuz-oxuyubsuz. Teleradio məkanında jurnalistin bu şəkilçinin tələffüzü ilə bağlı orfoepik normanı gözləməsi vacibdir. Faktlar göstərir ki, tələffüzdə jurnalistlərin ən çox çətinlik çəkdikləri məqamlar alınma sözlərin orfoepiyası ilə bağlıdır. "Əgər diktor, yaxud hər hansı çıxışçı Frankli, Elkaponi, Jan Klod, Komi, Karip (dəniz), Komarov, kalori sözlərindəki "k" səsini " kar" sözündəki "k" kimi tələffüz edirsə, bu, gülüncdür. Bu mənada, hələ neçə illər əvvəl televiziyada Yuqoslaviya filmi "Vanda Kosu axtarın" bədii filminin adını elan edən diktorun "kosu" sözünü azərbaycanca olan "kos" (top) kimi tələffüz etməsi istehza ilə, acı bir lətifə kimi danışılır" (3, 32-33). Alınma szölərin tələffüzündə yol verilən səhvlər aşağıdakı nümunələrdə daha tez-tez qarşımıza çıxır: mübtəda-mübta:də, layihə-lahiyə, mədəni-mə:dəni. Jurnalist nəzərə almalıdır ki, bu sözlər yazıldığı kimi də tılıffüz edilir.

Alınma sözlərdə vurğunun müəyyənləşdirilməsi də jurnalistlər arasında çətinliklər yaradır. Uzun tələffüz olunan saitlərin işləndiyi ərəb-fars mənşəli sözlərdə vurğunun hansı heca üzərinə düşməsi bəzən jurnalistika mütəxəssisləri üçün də qaranlıq qalır: a'həng, va'li, e'zamiyyət, əca'ib, əməlisa'leh, əfsa'nə, za'dəgan, za'hiri, iba'dət, ira'də, la'qeyd, na'dir, fa'ni, ca'zibə. Bu nümunələri jurnalistikada ədəbi tələffüz qaydalarına həsr olunmuş bir tədqiqat əsərindən götürmüşük. Misallardan aydın olur ki, müəllif vurğunun uzun tələffüz olunan saitlərin üstünə düşməsi qənaətindədir. Halbuki yuxarıdakı sözlərdə vurğu uzun tələffüz olunan saitin üzərinə düşür və belə bir mənzərə alınır: ahə'ng, vali', ezamiyyət', əcai'b, əməlisale'h, əfsanə', zadəga'h, zahiri', ibadə't, iradə', laqe'yd, nadi'r, fani', cazibə'.

Ərəb-fars sözləri ilə müqayisədə Avropa mənşəli sözlərin vurğusunu dəqiqləşdirmək jurnalistlər üçün daha çox çətinlik törədir. Belə sözlərə misal olaraq aşağıdakıları göstərmək olar: bi'rja, vi'za, dialo'q, dispanse'r, jenşe'n, katalo'q, komplekt, ko'mpleks, monolo'q, oliqa'rxiya, sanitari'ya, sta:tus, transfe'r, ultima'tum, ta'bula və s. (3, 100-101). Yeri gəlmişkən qeyd edək ki, çağdaş Azərbaycan

jurnalistikasında fonetik normanın pozulması üçün səciyyəvi olan hallardan biri Avropa mənşəli sözlərin orfoqrafiyasında səhvlərə yol verilməsinin bir səbəbi sözlərin paronimliyini nəzərə almamaqdadır. Məsələn, dilimizə Avropa dillərindən keçmiş "abonoment" və "abonent" sözləri var. "Abonoment" mənaca "abunə, müəyyən müddət kitabxanadan, teatr, kino, və s. dən istifadə hüququ" deməkdir. "Abonent" isə "abunəçi, abonenti olan şəxs" mənasını bildirir. Ayrı-ayrı mənalar daşıyan bu sözləri bir-birinin yerində işlətmək əlbəttə, doğru olmazdı. Əgər hər hansı bir jurnalist "abonoment" sözünü aşağıdakı kimi işlədirsə, oxucuda yanlış təsəvvür yaradır: Dövlət qurumlarında abonomentlərdə mədəni rəftara xüsusi fikir verilməlidir. Qəzet və jurnal səhifələrindən, sosil şəbəkələrdən bu cümləni oxuyan soydaşlarımızdan heç də hamısı burada "abonoment" yerinə "abonent" sözünün işlənməli olduğunu bilməz. Nəticədə jurnalistin orfoqrafik cəhətdən səhv yazdığı söz oxucunun da yanılmasına yol açmış olur. Paronimlərlə bağlı orfoqrafik yanlışlığa "serviz" sözüznü də misal çəkmək olar: "Həmin şirkətin nəzdindəki servizdən avtomobil sahibləri ağızdolusu danışırlar". Jurnalistin məqaləsində belə bir cümləyə rast gəliriksə, bilməliyik ki, burada "serviz" əvəzinə "servis" yazılmalıdır. Cünki "serviz" mənaca "xörək və ya çay komplekti" deməkdir. Halbuki jurnalist heç də qab-qacaqdan yox, xüsusi xidmət sahəsindən söhbət açmaq istəyir.

Çağdaş Azərbaycan jurnalsitikasında orfoqrafik səhvlərin bir çoxu dili "xəlqiləşdirmək" adı altında yazını tələffüzə uyğunlaşdırmaq cəhdlərindən doğur. şəkilçilərindən bəzilərinin heç də yazıldığı kimi tələffüz olunmaması məlum məsələdir. Biz də orfoepiya qaydalarından bəhs edərkən -sınız şəxs şəkilçisinin fərqli tələffüz olunmasına (məsələn, "yazmısınız" sözünün deyilişdə "yazmısız" şəklinə düşməsinə), ötəri də olsa, toxunmuşuq. Fikrimizi davam etdirib -dır şəxs şəkilçisi üzırində dayansaq, qeyd etməliyik ki, bu şəkilçi tələffüdə -dı şəklinə düşür. Əgər jurnalist öz məqaləsində bu şəkilçinin tələffüz formasını işlədirsə, söz yox ki, orfoqrafiya qaydasına əməl etməmiş olur: 1. Bunun özü... uğurlu sonluqdu. 2. Diplomatik cəhdlərdə Ermənistan daha fəaldı (6). Bu cümlələrdə xəbərlik bildirən sözlərin "sonluqdu", "fəaldı" şəklində yazılması fikir dolaşıqlığına səbəb olur. Belə ki, həmin sözlər "sonluq idi", "fəal idi" kimi başa düşülür və qrammatik cəhətdən indiki zamanın hekayə formasına aid olur. Halbuki misal gətirilən cümlələrdə iş, hal, hərəkət indiki zamanın hekayə formasına yox, məhz indiki zamanın özünə aiddir. Bu tipli cümlələri misal çəkən Nəsir Əhmədli haqlı olaraq yazır: "Bəzi jurnalistlərin bu səhvi yazıya ağırlıq gətirməmək, vizual dili audiodilə yaxınlaşdırmaq cəhdi ilə bağlayırlar. Prinsip etibarilə biz də bu prosesin əleyhinə deyilik, amma bir şərtlə ki, həmin "yüngülləşdirmə" sözün semantikasısnın hər hansı dərəcədə dəyişməsi ilə nəticələnməsin" (2, 90). Döğrudan da, tələffüz formalarına yer vermək məna təhriflərinə gətirib çıxarırsa, bu cür "xəlqiləşmək" yazılı dilə xeyirdən çox ziyan verir.

Jurnalistikada əməl edilməsi vacib olan normalardan biri leksik normadır. "Leksik norma sözün mənası və ya mənalarını yaxşı bilmək, onu yerində və düzgün

işlətməkdir. Söz dildə lekssik-semantik mənası olan, cümlənin əsasını təşkil edən ən kiçik, müstəqil dil vahididir... Lüğət tərkibini təşkil edən sözün əsas vəzifəsi dildaxili və dilxarici faktları düşüncə obyektinə çevirmək və bu zaman müəyyən fikri ifadə etmək üçün uğurlu söz tapmaq və onu qrammatik qaydalara uyğun əlaqələndirməkdir" (1, 332). Demək, leksik norma jurnalistdən sözü yerinə görə düzgün seçməyi, həm də həmin sözü qrammatik qaydalara uyğun olaraq başqa gözlərlə əlaqələndirməyi tələb edir. Çağdaş jurnalistikamızda, xüsusən də ayrı-ayrı televiziya verilişlərində leksik normanın pozulması halları ilə tez-tez qarşılaşırıq. Misallara müraciət edək:

> 1. Peşəkar fotoqraflar dediz, maraqlıdır, hansı məşhur fotoqraflarla birlikdə işləmisiz və yaxud onlardan dərs götürmüsüz? (5, 39). 2. Xəzərin sahilində, Bakımızın bu gözəl məkanında ümid eləyirəm ki, Xəzərin dalğaları hər birimizin ruhumuzu sirayət etdiyi kimi, sizin də ruhunuzu sirayət edəcək (5, 41). 3. Plastik cərrahımız Dilqəm doktor deyir ki, son zamanlarda kişilərin müraciət etdiyi və əməliyyat tələbi gördüyü bir problem var (5, 66). Lider televiziyasının "Tezdən oyan" verilişindən götürülmüş 1-ci cümlədə "dərs götürmək" ifadəsi leksik baxımdan yerinə düşməmişdir. Məlumdur ki, həmin ifadə "ibrət almaq" mənasını bildirir. Təqdim edilmiş cümlədə isə kiminsə dərsinə getməkdən, tələbəsi olmaqdan söhbət gedir.

Lider televiziyasındakı "Xəzərin sahilində" verilişindən götürülmüş 2-ci cümlədə "ruhumuza oxşamaq" əvəzinə, "ruhumuzu sirayət etmək" ifadəsi işlənmişdir. Bu o deməkdir ki, aparıcı "sirayət etmək" ifadəsinin mənasını heç də dəqiqliklə bilmir.

Çağdaş Azərbaycan jurnalistikasında ədəbi dilin normalarının gözlənilməsi məslələrindən bəhs edərkən, söz yox ki, qrammatik normaya toxunmadan keçmək mümkün deyil. Qrammatik norma baxımından publisistik yazıları araşdırdıqda jurnalistin zəif və üstün cəhədlərini daha aydın şəkildə görmək olur. Qrammatik norma sözlərin bir-biri ilə əlaqələndirilməsi və cümlələrin qurulması kimi mühüm anlayışları əhatə edir. "Nitqdə söz və cümlələr arasındakı əlaqələr qrammatik norma əsasında tənzimlənir. Qrammatik normaya morfoloji kateqoriyalarından düzgün istifadə, sintaktik, əlaqə formaları, cümlə üzvlərinin sıralanması və s. aiddir" (1, 334). Çağdaş jurnalistikada qrammatik normanın pozulması hallarına toxunmazdan əvvəl xatırlatmaq lazımdır ki, publisistik mətnin dinamikliyini təmin etmək, deyilənləri dinləyici və tamaşaçıya, yazılanları isə oxucuya daha rahat çatdırmaq üçün bəzən jurnalistlər bilərəkdən qrammatik "standart"lardan kənara çıxırlar. Məsələn, danışıq dilindən televiziya və radio dilinə çağırış xarakterli, lakin xəbərsiz elliptik cümlələr daxil olur: Hər şey vəətənin müdafiəsinə! Özəlləşdirməyə geniş meydan! Vəsait Müdafiə fonduna!" (8, 145). Göründüyü kimi, bu cümlələrdə xəbər buraxılmış, fikir cümlənin digər üzvləri əsasında qurukmuşdur. Buna baxmayaraq, bu tipli cümlələri xüsusi üslubi məqam hesab etmək və həmin cümlələrdə qrammatik normanın pozulmasını jurnalistə irad tutmaq olmaz. "Bəzən verilişlərin mətnlərində

danışıq dilinin təsiri ilə əsas cümləyə məzmunu tamamlamaq üçün yardımçı cümlələr əlavə edilir. Yəni əsas fikir söyləndikdən sonra ona izah etmə və dəqiqləşdirmə funksiyası daşıyan informasiya əlavə olunur" (8, 145). Buna misal olaraq aşağıdakı cümlələri göstərmək olar: 1. Uşaqlara diqqət və qayğı gərəkdir, həm də hamıdan daha çox. 2. Biz qələbə qazandıq şox böyük əzmkarlıqla. Təqdim etdiyimiz hər iki cümləyə izahedici, dəqiqləşdirici əlavə informasiyanın artırılması "standart" kənara çıxma olsa da, bu hal üslubi məqam kimi müsbət qəbul edilir. Belə üslubi məqamlardan biri radio və televiziyada feili xəbərin cümlənin əvvəlinə gətirilməsidir: 1. Danışır Bakı. 2. Oxuyur xalq artiisti Arif Babayev. Bu cümlələrdə "danışır" xəbərlərinin lap əvvələ gətirilməsi heç kimdə narazılıq doğurmur və üslubi modelin bir nümunəsi kimi qəbul olunur.

Danışıq dilindən efir ekran dilinə gəlmiş və artıq oturuşmuş cəhətlərdən biri də keçmiş zaman aid -ıb şəkilçisinin işlənməsidir. Məlumdur ki, nəqli keşmiş zaman yazılı ədəbi dildə daga çox -mış şəkilçisi ilə ifadə olunur: O, rəhbərliyə ərizə ilə müraciət etmişdir. Murad komandanın tərkibindən uzaqlaşdırılmışdır. Efir və ekran nitqində bu cümlələr səsləndiriləsi olsa , feili xəbərlər, çox güman ki, -mış şəkilçisi ilə yox, -ıb şəkilçisi ilə ifadə olunacaqdır: müraciət edib, uzaqlaşdırılıb.

Danışıq dilinin təsirini qəti gələcək zamanı bildirən -acaq şəkilçisinin işlənmə formasında da müşahidə etmək olar. Belə ki, danışıq dilində qəti gələcək zaman xəbər yerində işlənəndə -dır şəxs sonluğu ixtisar olunur: Araz, bu işi başa çatdıracaq. O, bizim sözümüzün qabağında bir söz deməyəcək. Bu cümlələrin xəbərləri yazılı ədəbi dildə, adətən -dır şəxs şəkilçisi ilə birlikdə işlənir: başa çatdıracaqdır, deməyəcəkdir. Faktlar göstərir ki, jurnalistlər bu cür feili xəbərlərdən istifadə edərkən danışıq dilindəki "başa çatdıracaq", "deməyəcək" şəklinə daha çox yer verirlər. Yəni 3-cü şəxsin təkində qəti gələcək zamana aid geili xəbər işlədərkən -dır xəbərlik şəkilçisini ixtisar edirlər.

Biz yuxarıda "Danışır Bakı" tipli cümlələrdə xəbərin bilərəkdən əvvələ gətirilməsindən danışarkən heç də söz sırasının istənilən yerdə pozulmasına bəraət qazandırmaq fikrində olmadıq. Əksinə, belə hesab etdik ki, bəzi istisnalardan, üslubi məqamlardan başqa yerdə qalan bütün hallarda söz sırasını gözləmək jurnalistin borcudur. Radio və televiziya üzrə monitorinqin nəticələri isə cümlədə söz sırasının qorunması ilə bağlı acınacaqlı vəziyyətdən xəbər verir. Misallara nəzər salaq:

1. Əziz qadınlar, kişilər və bizə baxan indi tamaşaçılar, xatırladıram ki, "ATV Xəbər"in 20:30 buraxılışında Lalə Azərtaşın təqdimatlnda hadisələrin inkişafını izləyə bilərsiniz (5,74).
2. Olğunluq dövrü var, nəyəsə başqa cür baxmaq prizmadan lazım gəlir (5, 76).

Birinci cümlədə "indi bizə baxın" feili sifət tərkibi işlənmişdir. Aparıcının, söz sırasını pozaraq feili sifət tərkibini "bizə baxan indi" şəklinə salması heç bir məntiqə sığmır. İkinci cümlədəki isə "başqa cür baxmaq prizmadan" şəklinə salmaqla məna təhrifinə yol vermişdir. Məsdər tərkibi bu şəkildə işləndikdə "başqa cür baxmaq

prizmadan" şəklinə salmaqla məna təhrifinə yol vermişdir. Məsdər tərkibi bu şəkildə işləndikdə "başqa cür" ifadəsi "prizma"ya yox, "baxmağa" aid olur.

Televiziyada veriliş aparan və şifahi nitq təqdim edən jurnalistlə müqayisədə qəzet və jurnalda eləcə də sosial şəbəkələrdə çalışan jurnalistin çatdıracağı mətni dil baxımından dəqiq qurmaq imkanı daha genişdir. Çünki o, mətni qələmə alarkən söz, söz birləşməsi və cümlələri dönə-dönə seçə, yazıda buraxılmış səhvləri redaktə edə bilir. Belə olan təqdirdə qəzet, jurnal və sosial şəbəkələrdə fonetik, leksik, eləcə də qrammatik normalar daha yüksək səviyyədə qorunmalı, ciddi dil qüsurlarına yer verilməməlidir. Fərəh hissi ilə qeyd etmək lazımdır ki, çağdaş jurnalistikamızda öz istedadını dilin səlisliyini, ifadəçiliyi və dəqiqliyi baxımından da göstərə bilmiş publisistlərimiz var. Bununla yanaşı bugünkü qəzet, jurnal və sosial şəbəkələrdə nəzərə çarpa dil xətalarına göz yummaq da mümkün deyil. Bir az əvvəl toxunduğumuz məsələyə - cümlədə söz sırasının pozulması məsələsinə qayıtsaq, bu qüsurun qəzet, jurnal və sosial şəbəkələrdə də özünü göstərdiyini xatırlatmalıyıq. Fikrimizi əsaslandırmaq üçün belə bir qəzet cümləsinə nəzər salaq: "Yazılarımızda mandat almış müsavatçıların parlamentdə iştirakının bu partiyanın maraqları ilə üst-üstə düşdüyünü də bildirmişdir" (6). Bu cümlədə söz sırasının pozulması – "yazılarımızda" sözünün əvvəldə işlənməsi jurnalistin çatdırmaq istədiiyi fikrin ciddi şəkildə təhrif olunmasına səbəb olmuşdir. Təqdim edilmiş cümlədən belə çıxır ki, müsavatçılar mandatı "yazılarımızdan" almışlar. Fikir dəqiq ifadə olunsun deyə "yazılarımızda" sözünü "bildirmişdik" xəbərinin yanına gətirmək lazım idi. Söz birləşmələrinin və cümlə üzvlərinin şəxsə və kəmiyyətə görə uzlaşmasını nəzərə almaq da bir çox hallarda jurnalistlər üçün çətin olur. Bu çətinlik dilimizin bugünkü problemlərindən bəhs edən mütəxəssislərin diqqətindən yayınmır: "Məktəb kollektivi yığışıb bu məsələni ətraflı müzakirə etdilər. Bu cümlədə -lər şəkilçisindən başqa hər şey yerindədir. Sual oluna bilər: Bir şəkilçiyə görə bu cümlədən xüsusi danışıb narazılıq etməyə dəyərmi? Əlbəttə, dəyər. Ona görə ki, bu tipdə cümlə quruluşu bir-iki jurnalistin yox, neçə-neçə jurnalistin nitqində özünü göstərir və nəticədə "süjetin bir-iki görüntüləri", "bir qrup naməlum şəxslər", "belə bir oyunlar" və s. kimi əcaib quruluşlu ifadələr efirdən səslənməkdə davam edir. Əcaiblik ondadır ki, jurnalist "məktəb kollektivi" ifadəsi ilə başlanan cümlənin "müzakirə etdi" şəklindəbitməli olduğunu, "bir" və yaxud "iki" sayından sonra gələn "görüntü", "şəxs", "oyun" kimi sözləri cəm şəkilçisi ilə işlətməyin düzgün olmadığını nəzərə almır" (7, 205-296).

Nəticə. Əlbəttə, həcmcə o qədər də böyük olmayan çağdaş Azərbaycan jurnalistikasının ədəbi normalarla bağlı problemlərini tam əhatə etmək mümkün deyil. Biz müzakirəsini vacib saydığımız məsələlərə toxunduq və fikrimizi əsaslandırmaq üçün KİV-dən götürülmüş konkret misallara müraciət etdik. Belə hesab edirik ki, Azərbaycan dilindən zamanın tələblərinə uyğun şəkildə istifadə olunması ilə bağlı Dövlət Proqramının qəbul edilməsi, ana dilinin inkişafı məqsədilə Prezideent sərəncamlarının imzalanması digər ziyalılarla yanaşı, jurnalistlər

qarşısında da mühüm vəzigələr qoyur. Hamı qəzet və jurnallarda, həm də teleradio və sosial şəbəkə məkanlarında çalışan jurnalistlərimiz publisistikanın digər məsələləri ilə yanaşı, ədəbi normaların gözlənilməsi, nitqin düzgünlüyü, dəqiqliyi kimi məsələlərə də xüsusi diqqət və həssaslıqla yanaşmalıdırlar.

Ədəbiyyat siyahısı:

1. Axundov A. Dil mədəniyyəti. Bakı: Elm, 1992.
2. "Azadlıq" qəzeti. 09 fevral 2001-ci il.
3. Əhmədli N. Jurnalistin nitq mədəniyyəti. Bakı: BDU nəşriyyatı, 2005.
4. Əlizadə M., İsmayılova T. Azərbaycan tele-radio məkanında ədəbi dilin qorunması layihəsi əsasında aparılmış monitorinqin nəticələri. Bakı, 2017.
5. Kazınoğlu M. Dilimiz, nitqimiz və qayğılarımız // Söz haqqında söz. Bakı: Elm və təhsil, 2020.
6. Məmmədlu N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı: Elm və təhsil, 2021.
7. Məhərrəmli Q. Radio verilişlərinin dili və üslubu. Bakı: Elm və təhsil, 2011.
8. Məhərrəmli Q. Televiziya nitqi və ədəbi tələffüz. Bakı: Təhsil, 1999.

Çağdaş Azərbaycan jurnalistikasında ədəbi dil normalarının gözlənilməsi problemi.

Xülasə

Çağdaş Azərbaycan jurnalistikasında ədəbi dilin həm şifahi, həm də yazılı formasından istifadə edilir. Radio və televiziya jurnalistləri şifahi ədəbi dildən daha çox istifadə etdikləri üçün onların qarşısında duran, əsas vəzifələrdən biri orfoepiya qaydalarına əməl etməkdir. Müşahidələr göstərir ki, bir çox jurnalistlər assimilyasiya dissimilyasiya, eliziya, vurğu kimi tələffüz qaydalarını gözləmirlər. Qəzet, jurnal və sosial şəbəkələrdə orfoqrafiya qaydalarının pozulması alınma sözlərin, o cümlədən paronimlərin yazılmasında özünü daha çox göstərir. Sözlərin mənasına bələd olmasaq, sözləri yerli-yerində işlətmək KİV-də leksik mənanın pozulmasına səbəb olur.

Azərbaycan dilinin leksik, fonetik və qrammatik normalarına əməl etmək jurnalist üçün həyat həqiqətlərini lazımi səviyyədə əks etdirməyin mühüm vasitəsidir.

Açar sözlər: media, jurnalistika, radio, televiziya, qəzet

NARGİZ GURBANLI

The problem of observing literary language norms in contemporary Azerbaijani journalism.

Summary

İn modern Azerbaijan journalism, both of the oral and üritten forms of the literary language are used. Since radio and television journalists primarily use the spoken litrerary language, one of their main responsibilities is to follow the rules of pronunciation (orthoepy). Observations show that many journalists do not adhere to pronunciation rules such as assimilation, dissimilation, elision, and stress.

Key words: media, journalism, radio, Tv, newspaper.

Проблема соблюдения норм литературного языка в современной азербайджанской журналистике.

Резюме

В современной азербайджанской журналистике используются как устная, так и письменная форма литературного языка. Поскольку радио телеведущие примущественно используют устную литературную речь, одной из их основных задач является собдюдение орфоепических норм. Наблюдения показывают, что многие журналисты не предияживаются таких правил произношения, как ассимиляция, диссимиляция, элизия и ударения.

Ключевые слова: СМИ, журналистика, радио, телевидение, газеты.

Rəyçi: fil.f.d, universitet daxili dosent, Nigar Çingiz qızı Məhərrəmova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

BABAYEVA GÜLNARƏ İSMAYIL QIZI
M24-215
e-mail:gulnarebabayevans@gmail.com

FRANSIZ DİLİNİN TƏDRİSİ ZAMANI YAZIDA RAST GƏLİNƏN ORFOQRAFİQ ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

Xülasə

Xarici dillərin tədrisi zamanı şifahi və yazılı nitq bir vəhdət təşkil edir.Bir ünsiyyət vasitəsi kimi dil hər şeydən əvvəl şifahi nitq şəklində mövcud olmuşdur.Lakin bəşəriyyət öz inkişafı tarixində elə bir dövrə çatmışdır ki,bu dövrdə dil öz kommunikativ funksiyasını yalnız şifahi nitq vasitəsilə yerinə yetirə bilməmiş,insanlar bir-birilə ünsiyyət yaratmaq üçün yazılı nitq yaratmağa başlamışdılar.Tarixi bir kateqoriya olan bu ünsiyyət vasitəsi dilin kommunikativ funksiyasını zənginləşdirmişdir.

эмфатическая интонация служит передаче информации без эмоциональной окраски и подтекста. Характеризуется она нейтральным мелодическим рисунком, отсутствием специальных акцентов и выделений и используется для обычных повествований и вопросов. Итак, ключевые отличия: не эмфатическая интонация- это обычная речь, а эмфатическая – это речь, которая выделяет ,выделяет определенные части, более эмоциональная, передает различные эмоции и имеет четкий смысловой акцент. [2,34]

Как было указано выше эмфатическая интонация характеризуется более выраженными мелодическими вариациями, то есть повышением или понижением тона, использованием эмфатического ударения и удлинения звуков для подчеркивания слов и фраз, передаче чувств, таких как волнение, гнев, радость, удивление, огорчение и. т.д.

Существуют разные интонационные методы выделения и усиления речи. Они включают использование таких фонетических средств, как логическое ударение, изменение высоты тона, темпа речи, паузы, а также громкость и эмоциональный тембр голоса. Выделяя речь разными интонационными методами, мы придаем отдельным словам или фразам особое значение, усиливаем их значимость, для того, чтобы донести слушателю намерения и основную идею говорящего.

Эмфаза часто сочетает в себе логическое ударение и интонацию. Ударение в слове выделяет важные слоги в словах, в то время как интонация формирует общий смысл фразы или предложения. В зависимости от того, на какое слово ставится ударение и как повышается или понижается интонация, смысл меняется.

Рассмотрим следующее предложение такое, как “ I never said he stole the money”

I never said he stole the money – выделяя слово **I** подразумевается, что кто то другой мог сказать это.

I **never** said he stole the money – выделяя слово **never**, подчеркивается отрицание.

I never said **he** stole the money – выделяя слово **he,** подразумевается, что кто то другой украл деньги.

I never said he stole the **money**. – выделяя слово **money,** намекается на то, что возможно было украдено что то еще.

Таким образом, фокусируясь на разных словах, и выделяя голосом одно слово в предложении, чтобы подчеркнуть его важность и привлечь внимание, мы меняем значение и смысл данного высказывания. [3,33]

В следующем предложении выражены логически различные посылы. Каждое смещение ударения изменяет значение предложения.

‘Kate ‘spoke to him **yesterday**//

‘Kate ‘spoke to **him** yesterday//

‘Kate **spoke** to him yesterday//

Kate ,spoke to him ,yesterday//

Слово, выделяемое логическим ударением, является самым важным в предложении. Именно коммуникативный центр или логический центр предложения несет в себе завершающий тон. Например:

I ˈknow what he is ˈgoing to \say//

I \know what he is going to say//

Первое предложение произносится обычным образом, акцент делается на последнее знаменательное слово ‘’say’’. Во втором предложении конечное ударение с ядерным тоном смещено и падает на слово ‘know’. Это смещение выделяет слово know и придает ему наиболее важное звучание. Все остальные слова становятся менее важными, они теряют свою значимость и произносятся на низком уровне. Два основных компонента интонации, ударение и высота голоса, на самом деле очень тесно связаны. Повышение напряжения, как правило, сопровождается изменением тембра голоса.

Коммуникативный центр предложения, выделенный логическим ударением, знакомит слушателя с чем то новым, в то время как другие слова предложения передают то, что ему уже известно, то, что уже упоминается в дискурсе или ясно из ситуации. Слова, следующие за логическим ударением, остаются безударными. Например: They didn’t want trouble, that crowd. I had their \promise, their \written promise//

Приведенные примеры показывают, что логическое ударение является одним из наиболее выразительных средств устной речи.

Следующим интонационным методом выразительности речи является мелодика. Мелодика речи это изменение высоты голоса, которое может быть восходящим, нисходящим или смешанным, которое передает разные эмоциональные оттенки, а также указывает на цель высказывания. Используя разнообразие тонов, мы можем выразить радость, удивление, сомнение, иронию, грусть, печаль и другие эмоции, придавая своему высказыванию соответствующую интонационную окраску.

С помощью высоты тональности, интонационные группы и предложения звучат более живо, эмоционально и выразительно. Например I

I `didn’t with ~I didn’t //

Использование высокой пред шкалы во втором случае усиливает значение всей интонационной группы, делает высказывание более восклицательным, более выразительным. Чем больше высокой тональности в пред шкале контрастирует с тем, что следует за ней, тем больше акцента придается фразе.

Например, если заменить низкий нисходящий ядерный тон на высокий нисходящий, то интонационная группа в этом случае звучит гораздо более выразительно. В следующем примере

Do you want to stay here? - \No/ I \don’t //

Do you want to stay here? - `No/ I `don't //

В первом случае, No, I don't, с низким нисходящим ядерным тоном звучит сдержанно, спокойно, во втором случае более категорично, твердо, заинтересовано. Если произнести этот самый ответ с восходящим – нисходящим ядерным тоном, он будет звучать самодовольно и благоговейно, с нисходящим – восходящим ядерным тоном будет звучать вызывающе.

Другой способ эмфазы речи, изменение формы интонационных шкал. Например, падающая шкала может быть изменена для придания особого значения, произнося безударные слоги на том же уровне, что и ударные. Например

ˈAsk him to ˈring me ˈup \again //

То же самое высказывание произнесенное со ступенчатой шкалой будет звучат более весомо.

И нисходящая и ступенчатая шкалы, которые ломаются внезапным восхождением голоса на определенном слове, и тем самым усиливая значение данного слова, звучат оживленно, выражая личную заинтересованность говорящего.

Скользящая шкала одна из разновидностей эмфатического варианта падающей шкалы, потому что, она всегда выражает личную вовлеченность и озабоченность говорящего. [4,142]

\I \hate \doing \ nothing //

Ещё больший акцент можно сделать, выделяя каждое слово высоким нисходящим тоном. Например:

`I `hate `doing `nothing //

При скользящей шкале все ударные слова в пред ядерной части получают одинаковую степень выделенности.

Эмфатический вариант повышающей шкалы называется восходящая, потому что в нем есть ряд повышений на каждом ударном слоге. Например

/hau did ju /məenɪʤ tə /du: `ə-əet //

Низкая ровная шкала придает очень отстраненный, холодный, неудовлетворенный и неодобрительный оттенок смыслу высказывания, например

Wai _ ʃʊd ju ˈtɔk tə mi laik `ə-ət //

То же самое высказывание произнесенное с высокой ровной шкалой будет звучать озлобленно и даже возмущенно.

Совершенно очевидно, что эмфаза часто достигается не только за счет изменений одного интонационного контура высоты тональности и ударения, но и за счет объединения изменений в пред-шкале, шкале и ядерных тонах. [5, 62]

Например:

A: ˈDid you ˈmeet ˈKate⁄yesterday //

B: `Yes / I ˛actually met her at the café //

В данном диалоге выделяя ‘’actually’’ с восходящим-нисходящим ядерным тоном, выражается неожиданность.

Как мы видим, интонация мощный инструмент для эмфазирования речи в английском языке. Она повышает ясность, выражает нюансы, передает эмоции и направляет внимание слушателей на ключевые моменты.

Научный результат: В ходе работы рассмотрены некоторые интонационные методы выделения речи в английском языке. Проанализированы такие средства эмфазы, как логическое ударение, различные интонационные шкалы и их влияние во время общения.

Научная новизна: Изучение интонационной системы английского языка является важным фактором для успешной коммуникации. Практикуя различные интонационные модели, которые достигаются различными интонационными методами, изучающие английский язык могут улучшить выразительные навыки, делая свою речь более динамичной, содержательной и осознанной.

Значимость работы: Интонация играет важную роль в передаче эмоций, намерений, установок говорящего. Меняя высоту, силу и темп голоса, мы можем придать нашему сообщению особый смысл, сделать его более выразительным, понятным и убедительным, таким образом мы осознаем значимость интонационных средств, потому что, она используется для достижения различных коммуникативных целей.

Литература:

1. Соколова М.А. “Практическая фонетика английского языка”, Москва Владос – 2008.
2. Антипова А. М. “Система английской речевой интонации”, Москва Высшая Школа – 1979.
3. Jack C. Ricards “ Tactics for Listening”, Oxford University Press – 2010.
4. Карневская Е.Б. “Practical English Phonetics”, Минск Высшая Школа – 1990.
5. Roch P. ‘’English Phonetics and Phonology’’, Cambridge – 2009.

Y.S.AHMADOVA

INTONATION MEANS FOR EMPHASIZING SPEECH IN ENGLISH.

SUMMARY

The article deals with the intonations means for emphasizing speech, such as logical stress, melody, pitch levels, widening and narrowing of the range. We also point out intonation functions as a means of emphasizing speech, analyze different intonation patters, and provide examples that illustrate their use in everyday conversation. So, intonation plays a crucial role in English communication, particularly in emphasizing certain part of speech.

Key words: emphasis, logical stress, nuclear tone, intonation means, pitch, pitch range, pre-head, head.

Y.S.ƏHMƏDOVA

İngilis Dilində Nitqin Vurğulamnası üçün İntonasiya Vasitələri.

Xülasə

Məqalə İngilis dilində nitqin vurğulanmasının intonasiya vasitələrinə həsr edilmişdir. Məqalədə məntiqi vurğu, müxtəlif şkalalar, nüvə tonları kimi intonasiya metodlari müzakirə olunur. Məqalədə intonasiya modelləri analiz edilir və müxtəlif nümunələr təhlil olunur. İntonasiya ünsiyyətdə,xüsusən də nitqin müəyyən bir hissəsini vurğulamaqda həlledici rol oynayir.

Acar sözlər: emfaza, məntiqi vurğu, nüvə tonu, intonasiya vasitələri, düşən şkala, yüksək səviyyəli şkala.

Rəyçi: filologiya elmri doktoru C.Yaqubova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

FATİMƏ İBRAHİMOVA
ADU
Rəşid Behbudov
fatimaibrahimova1@gmail.com

İNGİLİS DİLİNDƏ HECA MƏSƏLƏSİNİN FONOLOJİ VƏ PROSODİK ASPEKTLƏRİ

XÜLASƏ

Heca dilçilikdə ən qədim, eyni zamanda ən çox mübahisə doğuran anlayışlardan biridir. Müxtəlif dillərdə heca anlayışının fonetik əsasları birmənalı qəbul edilsə də, onun fonoloji statusu və dilin strukturunda tutduğu mövqe üzərində ciddi mübahisələr hələ də davam etməkdədir. İngilis dili bu müzakirələrin mərkəzində duran əsas dillərdən biridir. Bunun səbəbi ingilis dilinin fonotaktik qaydalarının mürəkkəbliyi, samit yığınlarının geniş istifadəsi, vurğujk və intonasiyanın heca ilə qarşılıqlı əlaqəsi, həmçinin dialektlərarası fərqlərin çoxluğudur. Məsələnin aktuallığı həm nəzəri, həm də praktiki aspektlərlə bağlıdır. Bir tərəfdən, fonologiya elmi hələ də hecanın dəqiq tərifini və universal modelini təqdim edə bilməmişdir.

Digər tərəfdən isə hecanın düzgün təhlili ikinci dil öyrənənlər üçün tələffüz, ritm və prosodiyanın mənimsənilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, ingilis dilində heca məsələsinin araşdırılması yalnız abstrakt nəzəri mübahisə deyil, həm də tətbiqi lingvistika üçün zəruri bir tədqiqat sahəsidir. Bu məqalənin məqsədi ingilis dilində heca anlayışının müasir fonoloji nəzəriyyələr kontekstində təhlil edilməsi, həmçinin konkret dil faktlarının işığında (söz nümunələri və fonetik transkripsiyalar əsasında) heca sərhədlərinin müəyyənləşdirilməsi problemlərinin işıqlandırılmasıdır.

İngilis dilində heca məsələsi fonologiyanın ən çətin və hələ də müzakirə olunan problemlərindən biridir. Heca yalnız fonetik struktur deyil, həm də prosodik sistemin, vurğu və ritm mexanizmlərinin ayrılmaz hissəsidir. Müxtəlif nəzəriyyələr: Onset-Rhyme modeli, Moraic Theory, Optimality Theory, Government Phonology və CV Phonology hecanı fərqli prinsiplərlə izah etməyə çalışsa da, onların heç biri bütün halları qaneedici şəkildə əhatə edə bilmir. Təcrübi təhlillər göstərir ki: İngilis dilində onset və codada mürəkkəb konsonant yığınlarının mövcudluğu universal fonoloji modellərə meydan oxuyur. Samitlərin nucleus funksiyası daşıması klassik nəzəriyyələrin çərçivəsini aşır. Beləliklə, hecanın izahı yalnız bir nəzəriyyəyə əsaslanaraq mümkün deyil; müxtəlif modellərin inteqrasiyası zəruridir.

Açar sözlər: açıq heca, qapalı heca, sait, samit, nüvə.

Hecanın fonologiyada izahı üçün müxtəlif yanaşmalar mövcuddur. Ən çox müzakirə edilən nəzəriyyələrə aşağıdakılar daxildir:

1. Onset-Rhyme modeli – Bu modelə görə, hər bir heca onset (hecanın başlanğıcı), nucleus (nüvə) və coda (son hissə) bölmələrindən ibarət ola bilər. Məsələn, cat sözündə [k] onset, [æ] nucleus, [t] isə codadır. Bu model ingilis dilində heca strukturunu izah etməkdə geniş istifadə olunur, lakin müəyyən hallarda kifayət qədər effektiv deyil.

2. Moraic Theory (Mora nəzəriyyəsi) – Bu nəzəriyyəyə görə, hecanın "ağırlığı" moralarla ölçülür. Açıq hecalar (məsələn, go) bir mora, qapalı hecalar (məsələn, got) iki mora hesab olunur. İngilis dilində vurğu və ritmin müəyyənləşməsində mora anlayışı xüsusi rol oynayır.

3. Optimality Theory (OT) – Müasir fonologiyanın ən təsirli modellərindən biri olan OT hecanı universal məhdudiyyətlər və onların iyerarxiyası əsasında izah edir. İngilis dilində samit yığınlarının icazə verilməsi və ya məhdudlaşdırılması bu nəzəriyyə çərçivəsində daha çevik şəkildə açıqlanır.

4. Government Phonology və CV Phonology – Bu yanaşmalar heca strukturunu sadələşdirməyə çalışır və əsas fonoloji vahidi CV ardıcıllığı kimi qəbul edir. İngilis dilində mürəkkəb heca strukturlarını izah etməkdə bu nəzəriyyələrin rolu xüsusi maraq kəsb edir. [1,s.41]

İngilis dili dünya dilləri arasında ən mürəkkəb heca strukturlarından birinə malikdir. Əksər dünya dillərində heca ən çox (C)V(C) tipli quruluşda olur (burada C – samit, V – sait). Lakin ingilis dilində həm onset, həm də coda hissəsində çoxsaylı samit yığınları müşahidə edilir. Bu xüsusiyyət heca sərhədlərinin müəyyənləşdirilməsini çətinləşdirir və müxtəlif fonoloji nəzəriyyələr üçün sınaq meydanı rolunu oynayır. [2,s.66]

Onset – hecanın əvvəlində yerləşən samit və ya samitlər qrupudur. İngilis dilində onset bir neçə samitdən ibarət ola bilər.

- play → [pleɪ] – onsetdə iki samit (pl)
- street → [striːt] – onsetdə üç samit (str)
- splash → [splæʃ] – onsetdə üç samit (spl)

Lakin bu yığınların hamısı məhdudiyyətsiz deyil. Fonotaktik qaydalar müəyyən edir ki, məsələn, [tl-] və ya [dl-] kimi kombinasiyalar ingilis dilində onsetdə mövcud ola bilməz, baxmayaraq ki, digər dillərdə (məsələn, rus dilində) mümkündür.

Nüvə hecanın əsas hissəsi sayılır və adətən saitdən ibarət olur. Lakin ingilis dilində bəzi hallarda [l], [n], [m] kimi sonorant samitlər də nüvə funksiyasını daşıya bilir.

- bottle → [ˈbɒt.l̩]
- button → [ˈbʌt.n̩]
- rhythm → [ˈrɪð.m̩]

Bu fenomen "samit heca nüvəsi" kimi tanınır və ingilis dilinin fonoloji sistemində mühüm xüsusiyyətlərdən biridir. [3,s.81]

Coda hecanın son hissəsini təşkil edir. İngilis dilində codada çoxlu samit yerləşə bilir. Bu xüsusiyyət bir çox dillə müqayisədə qeyri-adi hesab olunur:

- text → [tekst] – codada üç samit (kst)
- helped → [helpt] – codada üç samit (lpt)
- glimpsed → [glımpst] – codada dörd samit (mpst)
- strengths → [streŋkθs] – codada dörd samit (ŋkθs)

Bu tip sözlər heca bölgüsündə xüsusi problemlər yaradır, çünki bəzi nəzəriyyələr belə ağır coda yığınlarını "təbiidən kənar" hesab edir və onları struktur baxımından xüsusi izah etməyə çalışır. [4,s.51]

İngilis dilində açıq və qapalı hecalar saitlərin tələffüzünə birbaşa təsir göstərir:

- Açıq heca → sait adətən uzanır və ya diftonga çevrilir: go [gəʊ]
- Qapalı heca → sait qısalır: got [gɒt]

Bu fərq həm fonetik səviyyədə, həm də morfofonoloji səviyyədə (məsələn, cəm şəkilçilərinin əlavə olunması zamanı) mühüm əhəmiyyət daşıyır.

Hecalararası səs anlayışı müəyyən bir samitin eyni vaxtda iki hecaya aid olması ilə bağlıdır. İngilis dilində bu hadisə xüsusilə intervokal mövqedə [p], [t], [k], [b], [d], [g] kimi samitlərdə müşahidə edilir. Məsələn:

- happy → [ˈhæ.pi] və ya [ˈhæp.i]
- better → [ˈbɛt.ə] və ya [ˈbɛ.tə]

Burada [p] və [t] həm əvvəlki hecanın codası, həm də sonrakı hecanın onseti kimi qəbul edilə bilər. Bu cür halların şərhi fonologiya üçün mühüm çətinliklər yaradır. Onset-Rhyme modelində ambisillabiklik qeyri-təbii sayılır, lakin Optimality Theory çərçivəsində məhdudiyyətlərin iyerarxiyası əsasında bu fenomen izah olunur. [5,s.56]

Yenidən hecalaşma ingilis dilində sözlər arasında və ya morfemlərin birləşməsi zamanı heca sərhədlərinin dəyişməsi hadisəsidir. Bu fenomen xüsusilə sürətli nitqdə müşahidə olunur:

- extra → [ˈek.strə] və ya [ˈeks.trə]
- going to → [ˈgəʊ.ɪŋ.tə] → [ˈgən.ə] ("gonna")

Burada samit bir hecadan çıxaraq digər hecaya keçir. Bu cür hadisələr göstərir ki, heca sərhədləri yalnız statik struktur deyil, həm də danışıqda dinamik proseslərin təsiri altındadır. [6,s.89]

Xaricdə qalan vahidlər nəzəriyyəsinə görə, bəzi hecalar və ya segmentlər ritmik quruluşdan "kənarlaşdırılır". İngilis dilində bu xüsusiyyət xüsusilə vurğunun təyinində mühüm rol oynayır. Məsələn:

- America → [ə.ˈmɛ.rɪ.kə]

Burada son [ə] zəif heca hesab olunur və ritmik quruluşda nəzərə alınmır.

- banana → [bə.ˈnɑː.nə]

Birinci zəif heca vurğu bölgüsündə nəzərə alınmır. Bu hadisə göstərir ki, ingilis dilində heca yalnız fonoloji struktur deyil, həm də prosodik sistemin (vurğu, ritm, intonasiya) bir hissəsidir. [7,s.94]

Misallara baxaq:

1. Strengths [streŋkθs]. Bu söz ingilis dilində ən mürəkkəb coda strukturlarından birini nümayiş etdirir. Codada dörd samit (ŋkθs) yerləşir. Onset-Rhyme modeli: [str] onset, [e] nüvə, [ŋkθs] coda. Lakin belə coda modelin "klassik" formasına uyğun gəlmir və çox vaxt "işarələnmiş" struktur kimi şərh olunur. Moraic nəzəriyyə: Coda hissəsindəki çoxsaylı samitlər morik baxımdan çəkini artırmır, yalnız nüvənin açıq və ya qapalı olması önəmlidir. Buna görə strengths iki mora sayılır (qısa sait + qapalı heca). Optimallıq Nəzəriyyəsi: Burada Markedness məhdudiyyəti (əksər dillərdə belə codaların yolverilməzliyi) Faithfulness (dildə real formaların qorunması) ilə toqquşur. Nəticədə ingilis dilində bu struktur icazəli olur. [8,s.32]

2. Bottle [ˈbɒt.l̩]. Bu söz "samit nüvəsi" fenomenini göstərir. Onset-Rhyme modeli: İkinci hecanın nüvəsi sait deyil, [l̩] sonorantıdır. Model bunu izah etməkdə çətinlik çəkir. Moraic nəzəriyyə: [l̩] ayrıca mora daşıya bilər, beləliklə heca çəkisi balanslaşdırılır. Government Phonology: Burada sonorantın nüvə funksiyası qəbul edilir, çünki CV ardıcıllığında sait və ya sonorant hər ikisi "vokaliklik" funksiyasını daşıya bilər. [9,s.35]

ƏDƏBİYYAT

1. Lehiste I. Suprasegmentals. C., 1970.
2. Gussenhoven C., Jacobs H. Understanding Phonology. L., 2011.
3. Kenworthy J. Teaching English Pronunciation. N.Y., 1987.
4. Collins B., Mess I. Practical Phonetics and Phonology. L., 2013.
5. Reed M., John L. The Handbook of English Pronunciation. S., 2015.
6. Roach P. English Phonetics and Phonology. C., 2000.
7. Gordon M. Syllable Weight: Phonetics, Phonology, Typology. R., 2007.
8. Hayes B. Metrical Stress Theory: Principles and Case Studies. C., 1995.
9. Hulst H. Word Stress: Theoretical and Typological Issues. L., 2014.

Ф.Ибрагимова

ФОНОЛОГИЧЕСКИЕ И ПРОСОДИЦИАЛЬНЫЕ АСПЕКТЫ ПРОБЛЕМЫ СИЛЛАБИКИ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Слог – одно из древнейших и наиболее спорных понятий в языкознании. Хотя фонетические основы понятия слога однозначно приняты в разных языках, серьёзные споры о его фонологическом статусе и месте в структуре языка продолжаются до сих пор. Английский язык – один из главных языков, находящихся в центре этих дискуссий. Это обусловлено сложностью фонотактических правил английского языка, широким использованием согласных кластеров, взаимодействием ударения и интонации со слогом, а также обилием междиалектных различий. Актуальность проблемы связана как

с теоретическими, так и с практическими аспектами. С одной стороны, наука фонология до сих пор не смогла дать точного определения и универсальной модели слога.

С другой стороны, правильный анализ слога имеет большое значение для освоения произношения, ритма и просодии у изучающих второй язык. В связи с этим изучение слога в английском языке представляет собой не только абстрактную теоретическую дискуссию, но и необходимую область исследований прикладной лингвистики. Цель данной статьи — проанализировать понятие слога в английском языке в контексте современных фонологических теорий, а также пролить свет на проблемы определения границ слогов с учётом конкретных языковых фактов (на основе примеров слов и фонетических транскрипций).

Проблема слогов в английском языке является одной из самых сложных и до сих пор обсуждаемых проблем фонологии. Слог - это не только фонетическая структура, но и неотъемлемая часть просодической системы, ударения и ритмических механизмов. Хотя различные теории: модель Onset-Rhyme, теория Moraic, теория оптимальности, правительственная фонология и фонология CV пытаются объяснить слог с помощью разных принципов, ни одна из них не может охватить все случаи удовлетворительно. Экспериментальный анализ показывает, что: Наличие сложных согласных кластеров в onset и coda в английском языке бросает вызов универсальным фонологическим моделям. Тот факт, что согласные выполняют функцию ядра, выходит за рамки классических теорий. Таким образом, объяснение слога невозможно на основе только одной теории; необходима интеграция различных моделей.

Ключевые слова: открытый слог, закрытый слог, гласный, согласный, ядро.

F.Ibrahimova

PHONOLOGICAL AND PROSODICIAL ASPECTS OF THE SYLLABICAL PROBLEM IN ENGLISH

SUMMARY

Syllable is one of the oldest and most controversial concepts in linguistics. Although the phonetic foundations of the concept of syllable are unambiguously accepted in various languages, serious disputes over its phonological status and position in the structure of the language are still ongoing. English is one of the main languages at the center of these discussions. This is due to the complexity of the phonotactic rules of the English language, the widespread use of consonant clusters, the interaction of stress and intonation with the syllable, as well as the abundance of inter-dialectal differences. The relevance of the issue is related to both theoretical

and practical aspects. On the one hand, the science of phonology has not yet been able to provide a precise definition and universal model of the syllable.

On the other hand, the correct analysis of the syllable is of great importance for the acquisition of pronunciation, rhythm and prosody for second language learners. In this regard, the study of the syllable in English is not only an abstract theoretical debate, but also a necessary area of research for applied linguistics. The aim of this article is to analyze the concept of the syllable in English in the context of modern phonological theories, as well as to shed light on the problems of determining syllable boundaries in the light of concrete linguistic facts (based on word examples and phonetic transcriptions).

The issue of syllables in English is one of the most difficult and still debated problems of phonology. The syllable is not only a phonetic structure, but also an integral part of the prosodic system, stress and rhythm mechanisms. Although various theories: Onset-Rhyme model, Moraic Theory, Optimality Theory, Government Phonology and CV Phonology try to explain the syllable with different principles, none of them can cover all cases satisfactorily. Experimental analyses show that: The presence of complex consonant clusters in onset and coda in English challenges universal phonological models. The fact that consonants carry the nucleus function goes beyond the framework of classical theories. Thus, the explanation of the syllable is not possible based on only one theory; the integration of various models is necessary.

Key words: open syllable, closed syllable, vowel, consonant, nucleus.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,
dosent Nailə İbrahimova tərəfindən çapa tövsiyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

VƏLİYEVA SƏBİNƏ ƏLİ QIZI
Azərbaycan Dillər Universiteti,
İngilis dilinin qrammatikası kafedrasının müəllimi
valiyeva_s@mail.ru

MÜASİR İNGİLİS DİLİNDƏ VASİTƏLİ VƏ VASİTƏSİZ TAMAMLIQ QƏBUL EDƏN FEİLLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Feillərin təsnifatı qrammatikanın ən mühüm məsələlərindən biri olaraq xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə də təsirli (*transitive*) və təsirsiz (*intransitive*) feillərin fərqləndirilməsi bəzən o qədər mürəkkəb xarakter alır ki, hətta qrammatikanı yaxşı bilən tələbələr və peşəkar dilçilər belə bu mövzuda çətinliklərlə üzləşirlər. Feillərin bu iki növü ilə bağlı qarışıqlıq, əslində, tamamlıq anlayışının düzgün izahı ilə aradan qaldırıla bilər. Lüğətlərdə feillərin qarşısında göstərilən *vt* (*transitive verb* – təsirli feil) və *vi* (*intransitive verb* – təsirsiz feil) işarələri də çox vaxt istifadəçilərdə əlavə suallar doğurur.

Mövzu ilə bağlı bir çox tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, cümlədə feilin təsirli və ya təsirsiz olmasını müəyyən edən əsas amil obyektin və ya tamamlığın mövcudluğudur. Deməli, tamamlığın işlənib-işlənməməsi bu fərqləndirməni aparmaq üçün əsas qrammatik meyar hesab olunur.

Burada bir sıra mühüm suallar meydana çıxır: təsirli və təsirsiz feillər arasındakı fərqi öyrənmək nə səbəbə vacibdir? Bu fərqin tələbələr üçün hansı praktik əhəmiyyəti vardır? Bu suala belə cavab vermək olar ki, feillərin funksional xüsusiyyətlərini düzgün müəyyənləşdirmək tələbələrin həm şifahi, həm də yazılı nitqdə qrammatik səhvlərə yol verməməsi baxımından mühüm rol oynayır. Əks halda, natamam və ya çaşdırıcı cümlələr yaranır, ifadənin dəqiq mənası isə itib gedir. İngilis dilini ikinci dil kimi öyrənən tələbələr xüsusilə bu məsələdə çətinlik çəkir və çox vaxt hansı feillərin tamamlıq tələb etdiyini, hansılarının isə etmədiyini düzgün müəyyənləşdirə bilmirlər.

Bu baxımdan, təqdim olunan məqalənin məqsədi təsirli və təsirsiz feillərin qrammatik xüsusiyyətlərini daha dərindən təhlil etmək, onların fərqlərini aydınlaşdırmaq və ingilis dilinin qrammatik əsaslarının öyrənilməsinə elmi töhfə verməkdir. Nəticə etibarilə, dilin əsas mexanizmlərinin mənimsənilməsi ingilis dilinin öyrənilməsini daha asan, zövqlü və səmərəli prosesə çevirir.

Açar sözlər: təsirli feil, təsirsiz feil, vasitəli tamamlıq, vasitəsiz tamamlıq, təsirlilik, erqativ feil, “Orta Növ”.

Tamamlığı olan (vasitəli və ya vasitəsiz) hərəkət feillərinə təsirli feillər, tamamlıq tələb etməyən hərəkət feillərinə isə təsirsiz feillər deyilir [10].

Təsirlilik termini mürəkkəb səslənsə də, əslində, təsirli feilləri müəyyənləşdirmək o qədər də çətin deyil. Təsirli feillər hərəkəti ifadə edir və mütləq şəkildə ondan sonra bir tamamlıq gəlir. Qrammatikada tamamlıq termini cümlədə feilin təsirinə məruz qalan isim, əvəzlik və ya ismi birləşməni bildirir [8]. Bu anlayış bəzən dairəvi izah yaratdığı üçün müəyyən qarışıqlıqlara səbəb olur. Məsələni daha sadə anlamaq üçün vasitəsiz tamamlığın mahiyyətini nəzərdən keçirmək məqsədəuyğundur. Vasitəsiz tamamlıq – cümlədə mübtədanın tamamlayıcısı funksiyasını daşımayan isim və ya ismi birləşmədir, yəni o, mübtədanı izah etmir. Aşağıdakı nümunələri müqayisə edək:

(1) a. *She looks ill. (O, xəstə görünür.)* (Bağlayıcı feil, İsmi mübtəda komplementi)

b. *He sells books. (O, kitab satır.)* (Təsirli feil, Vasitəsiz tamamlıq)

Təsirli feil nümunələrinə başqa cümlələrdə baxaq:

(2) a. *Suminem sent* (təsirli feil) *a package* (vasitəsiz tamamlıq) *from Canada. (Suminem Kanadadan bağlama göndərdi.)*

b. *Sukiyem left* (təsirsiz feil) *the bag* (vasitəsiz tamamlıq) *on the floor.* (*Sukiyem çantanı döşəmənin üstünə qoydu.)*

c. *Sujoko took* (təsirsiz feil) *his son* (vasitəsiz tamamlıq) *to the mall. – (Sucoko oğlunu ticarət mərkəzinə apardı.)*

Yuxarıda verilən nümunələrin hər birində mübtəda bir hərəkəti icra edir və həmin hərəkəti qəbul edən bir tamamlıq var. Feilin ardınca gələn vasitəsiz tamamlıq *Nəyi?* və ya *Kimi?* sualına cavab verir [10], [26]. Vasitəsiz tamamlıq işlənməsə, (2)-də verilmiş cümlələrin heç bir mənası olmaz, çünki vasitəsiz tamamlıq olmadan təsirli feilin mənası tamamlanmır:

(3) a. **Suminem sent from Canada. (Suminem Kanadadan göndərdi.)*

b. **Sukiyem left on the floor.* (*Sukiyem döşəmənin üstünə qoydu.)*

c. **Sujoko took to the mall.* (*Sucoko ticarət mərkəzinə apardı.)*

Təsirsiz feillər sadə formada tamamlıq qəbul etməyən feillər kimi tərif olunur, yəni cümlədə feilin təsirini qəbul edən hər hansı bir söz yoxdur. Təsirsiz feili izləyən hər hansı bir söz və ya ifadə ola bilər, lakin onlar, adətən, *Necə?* sualına cavab verirlər. Başqa sözlə, S.Qrinbaum və C.Nelson [2002] və A.DeKapuanın [2008] fikrincə, təsirsiz feillərdən sonra zərflər işlənə bilir. Başqa sözlə, bu tip feillər tamamlıq tələb etmədiyi üçün onlar təkbaşına da tam cümlə yarada bilər. Məsələn:

(4) a. *Sujanah grew up. (Sujanah böyüdü.)*

b. *Sukirman slept soundly. (Sukirman rahat yatdı.)*

c. *Sumaimun shouted inside the hall. (Sumaimun zalın içində qışqırdı.)*

Yuxarıdakı nümunələrdə “Sujanah”, “Sukirman” və “Sumaimun” mübtədalardır, “grew up”, “slept” və “shouted” təsirsiz feillərdir, “soundly” zərf, “inside the hall” isə yer bildirən söz birləşməsidir. Başqa nümunələrə baxaq:

(5) a. *It rained. (Yağış yağdı.)*
b. *It snowed. (Qar yağdı.)*

Bu cümlələr tam və qrammatik cəhətdən düzgündür. "It" mübtədası "rained" və "snowed" təsirsiz feilləri ilə işlənmişdir.

Təsirsiz feillərin ardınca sözönülü birləşmə və ya zərf gələ bilər, lakin onlar heç vaxt isimlə davam edə bilməzlər, çünki isim birbaşa obyekt rolunda çıxış edə bilməz. Məsələn:

(6) a. *Sujanah grew up to be a singer. (Sujanah böyüyüb müğənni oldu.)*
b. *Sukirman slept on the sofa. (Sukirman divanda yatdı.)*
c. *Sumaimun shouted behind the door. (Sumaimun qapının arxasında qışqırdı.)*

Buradakı "on the sofa" və "behind the door" sözönülü birləşmələrdir, birbaşa tamamlıq deyil. Eyni fikri "to be a singer" ifadəsi haqqında da demək olar.

L.Rozakisə görə, təsirsiz feillər iki növə ayrılır: hərəkət bildirən feillər *(action verbs)* və bağlayıcı feillər *(linking verbs)*. Yuxarıda verilən feillər hərəkət bildirən feillərə aiddir. Bağlayıcı feillər isə hərəkət ifadə etmir [26]. Adından da göründüyü kimi, onlar sadəcə mübtədanı xəbər ilə bağlayır. Ən çox işlənən bağlayıcı feillər "to be" feilinin formalarıdır: *am, is, are, was, were, has been, will be* və s. [10].

Bəzi feillər tamamlıq tələb edir, bəziləri isə onsuz işlənir. Feillərin təsirliliyi və təsirsizliyi müxtəlif dillərdə müşahidə olunan universal xüsusiyyət kimi qəbul edilir və müxtəlif nəzəri aspektlərdən izah olunur. Ənənəvi qrammatikada feil növləri əsasən ikili şəkildə - təsirli və təsirsiz kimi təsnif edilsə də, son dövrlərdə getdikcə daha çox dilçi bu məsələyə "kontinuum", yəni davamlılıq yanaşmasını tətbiq edir. Yəni təsirli-təsirsiz bölgüsü sərt sərhədlərlə deyil, dərəcə fərqləri ilə müəyyənləşdirilir. C.Lakoff [16, s.244] "tipik agent – pasient cümlələri" üçün 14 xüsusiyyət müəyyənləşdirmişdi. Onlardan birincisi, hərəkəti icra edən agentin mövcudluğu, ikincisi, bu hərəkət nəticəsində vəziyyəti dəyişən pasientin olması, üçüncüsü, isə agentin fəaliyyəti ilə pasientdəki dəyişikliyin səbəb-nəticə əlaqəsidir. Bu yanaşmalar sonralar digər tədqiqatçıların təsirlilik müzakirələrində də öz əksini tapmışdır (məsələn, T.Givon [9, s.90], V.Yakobsen [14, s.8]). P.Hopper və S.Tomson [1980] isə təsirliliyin 10 parametri olduğunu qeyd etmişlər: iştirakçıların sayı, hərəkətin dinamikliyi, aspekt, ani və ya davamlı olması, iradəlilik, inkar və ya təsdiq, modal xüsusiyyət, agentlik, obyektin təsirlənmə dərəcəsi və obyektin fərdiləşmə səviyyəsi. Onların nəzəri çərçivəsində bu parametrlərin hər biri "yüksək" və "aşağı" miqyas üzrə dəyişir. Ənənəvi olaraq, yüksək təsirlilik xüsusiyyətləri bir-biri ilə əlaqələndirilir, aşağı təsirlilik xüsusiyyətləri də oxşar şəkildə birlikdə işlənməyə meyllidir. A.Nəss [2007] "maksimal fərqlənən arqumentlər hipotezi"ni irəli sürərək göstərirdi ki, agent və pasient arasında semantik fərqlilik dərəcəsi təsirliliyin əsas göstəricisidir [24, s.27].

Göründüyü kimi, bu müzakirələrdə təsirlilik adətən agent və pasientin iştirakı ilə əlaqələndirilir. Buna görə də *resemble*, *possess* və *include* kimi statik mənalı

feillər tamamlıq qəbul etsələr də, prototipik mənada təsirli sayılmır. Bundan əlavə, təsirlilik yalnız feilin deyil, ümumiyyətlə cümlənin və ya tərkibin xüsusiyyəti kimi də izah olunmuşdur, yəni eyni feil müxtəlif kontekstdə fərqli dərəcədə təsirlilik göstərə bilər [12].

Bu araşdırmamızda biz feillərin təsirliliyinə istifadəyə əsaslanan yanaşmanı tətbiq edirik. Burada təsirlilik feilin obyekt qəbul etmə ehtimalı ilə ölçülür. İstifadəyə əsaslanan yanaşma tezliyin dil öyrənməsində, qavramada və yeni ifadələrin qurulmasında mühüm rolunu vurğulayır [17]. Əgər bir feil hər zaman tamamlıq qəbul edirsə, o, tipik təsirli feil sayılır. Əksinə, heç vaxt tamamlıq götürməyən feil isə tipik təsirsiz hesab olunur. Beləliklə, feilin təsirliliyi onun tamamlıqla işlənmə tezliyi ilə faiz şəklində müəyyənləşdirilə bilər. Lakin burada tamamlıq anlayışının müəyyənləşdirilməsi ilə bağlı çətinliklər yaranır, məsələn, vasitəsiz və vasitəli tamamlıqlar arasındakı fərqlər. Bu məqalədə yalnız ingilis dili materiallarından istifadə olunmuşdur. Bu dil Mübtəda – Xəbər – Tamamlıq tipinə aid olduğundan və hallanma sistemi zəif olduğundan, tamamlığın müəyyənləşdirilməsi sırf söz sırasına əsaslanır: feilin ardınca gələn isim qrupunun təyinləri istisna olmaqla, həmin isim elementi tamamlıq hesab edilir.

Eyni zamanda, feilin semantikasına dair ümumi anlayışı dəqiqləşdirmək vacibdir. Koqnitiv dilçiliyin əsas prinsiplərinə uyğun olaraq feil insan konseptuallaşmasında prosesi profil edən vahid kimi qəbul edilir [18, s.112] və əsasən zaman ölçüsündə yerləşir [18, s.104]. Statik feillər bu qaydadan kənara çıxır, bu isə ayrıca müzakirə mövzusudur. İnsan hərəkəti bütöv şəkildə deyil, hissə-hissə qavradığı üçün feillər də adətən prosesin müəyyən tərəfini qabardır. Məsələn, *hit* və *wipe* feilləri hərəkətin icra tərzini, *break* feili isə nəticəni ön plana çəkir [22]. Eyni hadisə aşağıdakı nümunələr şəklində ifadə edilə bilər:

(7) a. *John ran into the glass door. (Con şüşə qapıya çırpıldı)*
b. *John broke the glass door. (Con şüşə qapını sındırdı)*

Birincidə prosesin tərzi, ikincidə isə nəticə vurğulanır. Həmçinin feillər semantik baxımdan da müxtəlif dərəcədə informasiya daşıya bilər. Məsələn, *cover* həm aləti, həm hərəkətin formasını, həm də nəticəni bildirir və bu baxımdan *hit, wipe* və *break* feillərindən daha mürəkkəbdir.

İngilis dilində feillərin təhlilinə əsaslanaraq deyə bilərik ki, təsirlilik feilin semantik baxımdan iki və ya daha çox varlığı əlaqələndirmə ehtimalında özünü göstərir. Bu qaydanı daha aydın izah etmək üçün statik və dinamik feillər ayrıca müzakirə olunmalıdır. Statiklik anlayışı dəyişməz sabitliklə bağlıdır. Burada istinad edilən obyektin bütün elementləri qarşılıqlı münasibətləri ilə birlikdə eyni anda mövcuddur və eyni zamanda dərk olunur [27, s.42]. Bu qrupa *resemble, possess, include, contain, belong* kimi feillər daxildir. Nəzəri baxımdan bu feillərdə aspekt anlayışı tətbiq oluna bilmir, çünki onların semantikası zaman kateqoriyası ilə bağlı deyil.

Dinamik feillər isə, əksinə, həm bitmiş, həm də davamedici aspektdə işlənə bilər. Dilçilik ədəbiyyatlarında ən çox müzakirə edilən feillər də məhz bu qrupa daxildir və onlar say etibarilə statik feillərdən qat-qat çoxdur. Buna görə də bir çox hallarda feillərin təbiəti dinamiklik üzərindən izah olunur. Dinamik təsirli feillərin mühüm xüsusiyyətlərindən biri də əlaqələndirdikləri varlıqların semantik rollarının fərqli olmasıdır. Bu isə "maksimal fərqlənən arqumentlər hipotezi"nin müddəaları ilə üst-üstə düşür [24, s.27].

Digər Hind-Avropa dilləri ilə müqayisədə ingilis dili təsirlilik haqqında qaydalarında bir o qədər də dəqiq deyil. Belə ki, təsirli feil kimi görünən hər hansı bir feil təsirsiz feil kimi də işlənə bilir və yaxud da əksinə. Məsələn, *eat* və *read* və bir çox digər feillər həm təsirli, həm də təsirsiz feil kimi işlənə bilər. Adətən onların təsirli və təsirsiz formaları arasında semantik fərq olur:

(8) a. *The water is **boiling**. (Su qaynayır) – I **boiled** the water. (Mən suyu qaynatdım)*

b. *The grapes **grew**. (Üzümlər yetişdi) – I **grew** the grapes. (Mən üzüm yetişdirdim)*

Erqativ feillər kimi bilinən bu nümunələrdə təsirli və təsirsiz modellərdə mübtədanın rolu bir-birindən fərqlənir.

Erqativlik ənənəvi olaraq erqativ dillərlə (məsələn: Bask və ya Eskimo dilləri) əlaqəlidir. Feil arqumentlərinə Adlıq (Nominativ) və ya Təsirlik (Akuzativ) hallar təyin edən akuzativ dillərdən (məsələn: Hind-Avropa dilləri və bu baxımdan ingilis dili) fərqli olaraq, erqativ dillərdə Erqativ və ya Absolutiv hallar təyin olunur [4, s.966]. Nəyə əsasən ingilis dilini erqativ dil hesab edə bilmərik? Belə ki, Hind-Avropa dillərində, istər təsirsiz, istərsə də təsirli konstruksiyalarda mübtədalar Adlıq hal, tamamlıqlar isə Təsirlik hal tələb edir [20, s.10-11; 23, s.355-356]:

(9) a. ***Bill** (Nom) hits **them** (Acc). (Bill onları vurur)*

b. ***Bill** (Nom) runs away. (Bill qaçıb gedir)*

Nümunələrdən də göründüyü kimi, analitik dil olan ingilis dilində Adlıq və Təsirlik hallar arasında fərq morfoloji cəhətdən, demək olar ki, bilinmir (sintetik dil olan Latın dili kimi), lakin cümlədə arqumentlərin yerləşməsinə əsasən (yəni söz sırası) təyin olunur. Qeyd edək ki, bu halların ingilis dilində rast gəlinə bilən yeganə morfoloji işarəsi bəzi şəxs və nisbi əvəzliklərdir *(I/me, he/him, she/her, we/us, they/them, who/whom)*.

Erqativ dillərdə isə tamamilə başqa hal sistemi mövcuddur. Belə ki, bu dillərdə Erqativ və ya Absolutiv halların təyin edilməsi sintaktik mövqelərdən başqa faktorlara, yəni Marantzın Erqativ Nəzəriyyəsi ilə təsdiqlənən məlumluq və məchulluq kimi semantik mülahizələrə bağlıdır [20, s.10]. Erqativ hal təsirli konstruksiyanın mübtədasına, Absolutiv hal isə təsirsiz konstruksiyanın mübtədası və təsirli konstruksiyanın tamamlığına aid olur [4, s.966-968].

Maraqlıdır ki, son dövrlərin minimalist yanaşmalarında akuzativ və erqativ dillərin eyni əsas struktura malik olduğu deyilir. Buna baxmayaraq, qeyd etmək

lazımdır ki, erqativlik anlayışı yalnız erqativ dillərə xas olan bir məfhum deyil. Həqiqətən də, bu anlayış gizli şəkildə də olsa, akuzativ dillərdə də özünü göstərir. Bu, həmin dillərdə mövcud olan bəzi erqativ xüsusiyyətli feillər vasitəsilə baş tutur [6, s.147-148]. Sintaktik baxımdan ingilis dilində erqativlik "kauzativ transformasiya"ya (təsirli variantda mübtəda tamamlığa çevrilir və icraçı xarakterli mübtəda əlavə olunur) uğrayan bir sıra təsirsiz feillərlə bağlıdır [23, s.352]:

(10) ***The window*** *broke. (Pəncərə sındı) –* ***Pat*** *broke* ***the window****. (Pət pəncərəni sındırdı)* [21, s.79].

Erqativlik məfhumuna ümumi bir nəzər saldıqdan sonra ümumi dilçilik ədəbiyyatına istinad etməklə müasir ingilis dilində işlənən erqativ feillərə nəzər yetirək. *Formal baxımdan* erqativ feillər sintaktik transformasiya vasitəsilə təsirli feillərə çevrilə bilən bir yerli xəbərlərdir. Bu transformasiya "erqativ və ya kauzativ transformasiya" [23, s.352] və ya "kauzativasiya prosesi" [11, s.620] adlandırılır və hər iki konstruksiyanın ekvivalent olduğu iddia edilir (çox yaxın sintaktik-semantik uyğunluq daşıdıqlarına görə) [6, s.147].

C.Layons erqativ konstruksiyada işlənən mübtədanın cansız varlıq olması məsələsinə aydınlıq gətirməmişdir. Lakin B.Levin və M.Rappaport Hovav [21, s.103] *"The earthquake broke the window"(Zəlzələ pəncərəni sındırdı)* nümunəsi ilə bunun mümkün olduğunu qeyd etmişdir. Göründüyü kimi, bu cümlədə mübtəda cansız və ya xarici varlıq və yaxud da icraçı tərəfindən həyata keçirilir.

Ümumiyyətlə, qrammatikada erqativ feillərə müxtəlif adlar verilmişdir. D.Hadlston və K.Pullum [13, s.306] "qeyri-icraçı dinamik təsirsizlər", R.Kuirk və digərləri [25, s.1169] isə ümumi bir "həm də təsirli ola bilən feillər" qrupundan bəhs etmişdir. O, bu qrupa həm erqativ, həm də "qarşılıqlı iştirak feilləri"ni (məs. *meet*) daxil edir. Azərbaycan dilçilərindən H.Mirzəyev isə bu cür feilləri "keçid prosesində olan və eyni fonetik qabıqda yerləşən təsirli və təsirsiz feillər" adlandırır [1, s.56].

Çox zaman biz birləşdirici (kopulyar) və ya məchul tərkiblər, bəzən isə psevdo-məchul tərkiblər əldə edirik. Bu hal O.Yespersen [15, fəsil 16.4] tərəfindən siyahıya alınan "hərəkət və dəyişkənlik feilləri" ilə daha çox baş verir. Bu feillər erqativ feilləri səciyyələndirən dinamik prosesin nəticəsini bildirir [13, s.306]:

(11) a. *The door* ***opened*** *(Qapı açıldı) – I* ***opened*** *the door (Mən qapını açdım) – The door was* ***open*** *(Qapı açıq idi) –* birləşdirici (kopulyar) tərkib

b. *My shirt* ***tore*** *(Köynəyim cırıldı) – I* ***tore*** *my shirt (Mən köynəyimi cırdım) – The shirt was* ***torn*** *(Köynək cırılmışdı) –* məchul və ya "psevdo-məchul tərkib"

Morfoloji aspektdən yanaşsaq, müasir ingilis dilində işlənən erqativ feillər Türk dili kimi dillərdən fərqli olaraq, kauzativ mənanı ifadə etmək üçün heç bir morfoloji işarə tələb etmir. Lakin bununla belə, bir faktı da qeyd etməmək olmaz ki, bəzi erqativ feillər şəkilçi qəbul etmə (affiksasiya) (məs. *soft* (Adj) – *soften* (V)) və ya konversiya (məs. *warm* (Adj) – *warm* (V)) kimi morfoloji proseslər vasitəsilə düzəlir [23, s.360]. Digər kauzativ proseslər semantik baxımdan əlaqəli olan 2 leksem

arasında baş verən leksik dəyişmələr (məs. *die – kill*) və ya *make* və ya *cause* (məs. *John made the water boil*) kimi kauzativ feillər vasitəsilə təqdim oluna bilər [23, s.353-360].

Semantik cəhətdən yanaşdıqda, erqativ feillər təsirsiz halda öz-özlüyündə, heç bir xarici təsir olmadan baş verən hadisə və hərəkətləri təsvir edir, məsələn, *by itself* əlavəsi ilə: *The door opened by itself (Qapı öz-özünə açıldı)* [21, s.88]; təsirli halda isə güclü kauzativ mənaya malik olur.

Əksər qrammatikalarda bu feillərə, demək olar ki, diqqət göstərilməyib. D.Hadlston və K.Pullum [13, s.307] "qeyri-icraçı statik təsirsizlər" (məs. "vəziyyət bildirən feillər": *hang, lean, rest, sit, stand*) adlandırılan qeyri-akuzativ feillər qrupuna istinad etmişlər, R.Kuirk və digərləri [25, s.1169] isə həm qeyri-akuzativ, həm də qeyri-erqativ feilləri əhatə edən "sırf/saf təsirsizlər" qrupu haqqında məlumat vermişdir. Həqiqətən də, qeyri-akuzativ feillər "mövcudluq və baş vermə" (məs. *happen, exist, occur ...*), "vəziyyət bildirən feillər" (məs. *hang, lean, rest, sit, stand*), "vəziyyətin dəyişməsini bildirən feillər" (məs. *come, go, ascend, fall ...*) və yaxud da "görünmə və yox olma bildirən feillər" (məs. *appear, vanish, emerge, arise ...*) qruplarını əhatə edir [13, s.307; 17, s.33].

Sintaktik və semantik baxımdan götürdükdə, qeyri-akuzativ feillər elə təsirsiz feillərdir, yəni bir yerli xəbərlərdir. "Qeyri-akuzativ" termini ilk dəfə Törəmə (Generativ) Qrammatikasında arqumenti akuzativ halda işlənə bilməyən feilləri bildirmək üçün təklif edilmişdir. Generativ dilçilik ədəbiyyatlarında qeyri-akuzativ feillər və erqativ feillər eyni dərin struktura malikdirlər, lakin erqativ feillərdən fərqli olaraq, qeyri-akuzativ feillər tranzitivləşə və ya kauzativləşə bilmirlər [11, s.629]:

(12) a. **I **arrived** the passengers at the station.(*Mən sərnişinləri stansiyaya çatdım)*

b. ****Don't arise** any problems at the meeting. (*İclasda heç bir problem yaranmasın)*

Lakin burada bəzi istisnalar mövcuddur. Belə ki, bəzi "vəziyyət bildirən feillər" (məs. *lean*, *sit*) tranzitivləşə və eləcə də, kauzativləşə bilir:

(13) *The ladder **leant** agaist the wall. (Nərdivan divara söykənmişdi) – I **leant** the ladder against the wall. (Mən nərdivanı divara söykədim)* [13, s.307].

Qeyri-akuzativ feilləri erqativ feillərdən fərqləndirən digər bir cəhət isə onların *"there"* ilə işlənə bilməsidir:

(14) a. *There **began** a discussion about the issue. (Məsələ ilə bağlı bir müzakirə başladı)* – qeyri-akuzativ feil

b. ***** *There **broke** a window.* – erqativ feil [7, s.148].

Müasir ingilis dilində işlənən "Middle Voice" ("Orta növ") feillər əvvəlki feil qruplarından fərqli olaraq, erqativ deyil, lakin ilk baxışda çox oxşardırlar. "Orta" termini əslində ingilis dilində mövcud olmayan bir növ sisteminə istinad etmək üçün istifadə olunur. Daha dəqiq desək, "orta" növ həm məlum, həm də məchul növün xüsusiyyətlərini özündə birləşdirən bir növ sistemidir [13, s.307]. Bu cür feillər

özünəməxsus "məlum-məchul istifadədə" təsirsizə çevrilə bilən təsirli tərkiblərdir. Onların qrammatik mübtədası məntiqlə onların vasitəsiz tamamlığıdır, qeyri-müəyyənliyinə görə mübtəda göstərilmir. Lakin bunu bütün feillərə aid etmək olmaz [15, s.349-350]:

(15) a. *The books **sell** well. (Kitablar yaxşı satılır)*

b. *My plays won't **act**. (Mənim pyeslərim səhnədə uğur qazanmır)* [15, s.347-348].

Beləliklə də, "Middle Voice" feilləri formal olaraq məlum növdə olsalar da, mücərrəd/şərti olaraq məchul növdədirlər və onlar ayrıca feil qrupu hesab olunmurlar.

Yuxarıda qeyd etdiyimiz kimi, erqativ feillər ilə orta tərkiblər oxşar olduğuna görə ambiqitivliyə səbəb ola bilir. Onların əsas oxşar cəhəti həm erqativ feillərin, həm də orta tərkiblərin təsirsiz variantlarında mübtəda arqumenti üzərində iş görülən olmasıdır. Əsas fərq isə onların praqmatik funksiyasında özünü göstərir, belə ki, təsirsiz halda erqativ feillər hərəkətin icraçısını gizlətmək üçün istifadə olunur, çünki orada icraçı ya məlum deyil, ya vacib deyil və yaxud da kontekstdən bərpa oluna biləndir. Orta tərkiblər isə üzərində iş görülənin keyfiyyətləri barədə hər hansı bir məlumatı vermək üçün istifadə olunur:

(16) a. *The door **opened**. (Qapı açıldı)* – erqativ feil

b. *The door **opens** easily/outwards.(Qapı asanlıqla/çölə açılır) / This novel **reads** easily. (Bu roman asanlıqla oxunur) / The foreign cars **sell** quickly. (Xarici maşınlar tez satılır)* – orta növ feillər

Aparılan araşdırmalardan belə qənaətə gəlirik ki, feillərin vasitəli və vasitəsiz tamamlıqlarla işlənmə xüsusiyyətləri dilin həm qrammatik quruluşu, həm də semantik imkanları ilə sıx bağlıdır. Vasitəsiz tamamlıq birbaşa hərəkətin obyektə yönəldiyini göstərir, vasitəli tamamlıq isə iştirakçılar arasında dolayı münasibəti ifadə edir. Beləliklə, feillərin təsirliliyi yalnız onların forması ilə deyil, həm də kontekstdə daşıdığı məna və funksiyalarla müəyyənləşir. Bundan əlavə, bəzi feillər müxtəlif kontekstlərdə həm vasitəli, həm də vasitəsiz tamamlıq qəbul edə bilir. Bu isə təsirliliyin sabit kateqoriya olmadığını, daha çox dərəcə və tezlik üzərində qurulduğunu sübut edir. Belə yanaşma ingilis dilinin sintaktik quruluşunun daha dərindən öyrənilməsinə imkan verir və gələcək tədqiqatlar üçün yeni istiqamətlər açır.

İstifadə olunmuş ədəbiyyat

1. Mirzəyev, H.İ. (1986). *Azərbaycan dilində feil.* Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, "Maarif".
2. Veysəlli, F.Y. *Dilçilik ensiklopediyası,* I cild, Bakı: Mütərcim, 2006, 516 səh.
3. Veysəlli, F.Y. *Dilçilik ensiklopediyası,* II cild, Bakı: Mütərcim, 2008, 528 səh.
4. Aldridge, E. (2008). *Generative Approaches to Ergativity.* Language and Linguistics Compass.

5. Altenberg, E.P. & Vago, R.M. (2010). *English Grammar Understanding the Basics*. Cambridge: Cambridge University Press.
6. Biber, D., Johansson, S., Leech, G., Conrad, S. & Finegan, E. (1999). *Longman Grammar of Spoken and Written English.* Harlow, England: Longman.
7. Cortes, C. (1997). *Case and English Unaccusative Verbs.* Bells: Barcelona English Language and Literature Studies.
8. DeCapua, A. (2008). *Grammar for Teachers: A Guide to American English for Native and Non-native Speakers.* New York: Springer.
9. Givon, T. (1985). *Ergative Morphology and Transitive Gradients in Newari.* In F.Plank (ed.), *Relational Typology,* 89-107. Berlin: Mouton de Gruyter.
10. Greenbaum, S. & Nelson, G. (2002). *An Introduction to English Grammar.* Second Edition. UK. Pearson Education Limited.
11. Hale, K. & Keyser, J. (1986). *Some Transitivity Alternations in English.* Lexicon Project Working Papers 7, Center for Cognitive Science, MIT, 605-638.
12. Hopper, Paul J. & Sandra A. Thompson (1980). *Transitivity in Grammar and Discourse.* Language 56, 251-299.
13. Huddleston, R. & Pullum, K. (2002). *The Cambridge Grammar of the English Language*. Cambridge, UK: Cambridge University Press.
14. Jacobsen, W.M. (1991). *The Transitive Structure of Events in Japanese.* Tokyo: Kurosio Publishers.
15. Jespersen, O. (1927). *A Modern English Grammar on Historical Principles.* (Vol. 2: Syntax III) Heidelberg: C. Winter.
16. Lakoff, G. (1977). Linguistic gestalts. In A.B.Woodford, S.E. Fox and S.Philosoph (eds.), *Papers from the Thirteenth Regional Meeting Chicago Linguistic Society*, 236-286. Chicago: Chicago Linguistic Society.
17. Langacker, R. (1988). A Usage-based Model. In B.Rudzka-Ostyn (ed.), *Topics in Cognitive Linguistics*, 27-161. Amsterdam: John Benjamins.
18. Langacker, R. (2008). *Cognitive Grammar: A Basic Introduction.* New York: Oxford University Press.
19. Leech, G. (2006). *A Glossary of English Grammar.* Edinburgh: Edinburgh University Press.
20. Levin, B. (1983). *On the Nature of Ergativity.* Doctoral dissertation, Cambridge, MA: MIT.
21. Levin, B. & Rappaport-Hovav, M. (1995). *Unaccusativity: At the Syntax-Semantics Interface.* Cambridge, MA: MIT Press.
22. Levin, B. (2017). *The Elasticity of Verb Meaning Revisited.* Proceedings of the Twenty – Seventh Annual Semantics and Lingustic Theory Conference, 571-599. Linguistic Society of America and Cornell Linguistics Circle.
23. Lyons, J. (1968). *Introduction to Theoretical Linguistics.* London: Cambridge University Press.

Kat/kən/kənd- komponenti "şəhər" mənasında işlənmişdir. İran və Zaqafqaziyada bu cür adlar XI əsrdən işlənməyə başlamışdır. V Alivşist və A.L. Xromovun tədqiqatlarında göstərilir ki, soqd dilindəki "kand//kat" elementi VI-VII yüzilliklərdən ərəb və fars dillərində "qant//kant" variantında işlənmişdir.

Kat/kət topoformantının irana Səlcuq-oğuzlar tərəfindən gətirilməsi məsələsi haqqında V.İ.Savinanın fikirləri Minorskinin fikirləri ilə səsləşir. Və onun izahları ilə razılaşmamaq olmur. Deməli, həmin element fars dillərinə elə türk dillərindən keçmişdir. Ona görə də həmin toponimləri qoşulduğu sözlərə uyğun olaraq, türk mənşəli və ya hibrid toponim hesab etmək fikri daha doğrudur. Məsələn; Böyük kənd sözü türk mənşəli, Çekat, Surxkat isə İran mənşəli deyil, hibrid toponim hesab edilməlidir.

-Didə/dizə - elementi "qala, ətrafına qala divarı çəkilmiş yaşayış yeri" mənasında toponimlərin formalaşmasında iştirak etmişdir. Bu tipli adlar, əsasən, Azərbaycanın cənub-qərb zonasında rastlanır. Nümunələrə baxaq: Oruc dizə (Naxçıvan), Qoşa dizə (Şərur), Baş dizə, Dizə, Kələntər dizə (Ordubad), Didəvar (Dəvəçi), Xan dizə (Cənubi Azərbaycan), və s. adlar buna nümunədir.

Kelk/Kalan elementi "böyük, uca" mənalarını bildirir. Azərbaycan toponimiyasında Kelk/Kalan apelyativindən kele/kala variantlarından istifadə edilir.

1)Quba-Xaçmaz zonasında: Kələsənq (Böyük qaya); Kələ dərə (Böyük dərə) və s. 2) Digər rayonlarında: Kələxan (Lerik); Kələxana (Şamaxı); Kələzeyvə (İsmayıllı); Kələbədin (Ağcabədi) və s.

Tarixi, ictimai-siyasi prosesləri izlədikdə məlum olur ki, slavyan-rus mənşəli toponimlər Azərbaycan toponimiyasında ən son təbəqədir, onların tarixi cəmi yüz əlli ildir. Rusların Azərbaycana köçürülməsi bir neçə mərhələdə baş vermişdir. XIX əsrin otuzuncu illərində 40 malakan ailəsi Zəngəzurun Bazarçay kəndinə köçürülmüşdür. Onlar min səkkiz yüz otuz üçüncü ildə Cəbrayılın Qoşabulaq kəndinə köçürülmüşlər [10, s. 37-38].

Samur nahiyəsindəki Mikrah kəndinin və Qaziqumuq əhalisinin çoxu, məlum olduğu kimi, rus tayfasındandır. Onlar xəzərlərin istilası dövründə buraya gəlmişlər. Bundan əlavə onların zahiri qiyafəsi və bir çox adət və ənənələri də buna şahiddir. Qaziqumuq əhalisi indi də salam əsnasında papaq götürüb bir-birinə "izrov" deyirlər. Bu söz ola bilər ki, rus dilindəki "zdorov" sözündən alınmışdır [11, s. 20].

Rus-slavyan mənşəli toponimlərin tədqiqi belə bir fikir söyləməyə əsas verir ki, bu adların çoxu antropotoponimdir və həmin kəndi inşa edən şəxslərin adlarını əks etdirir. Şəxs adlarının və ya soyadlarnın sonuna (-ka, -ski, -skaya) şəkilçilərini artırmaqla formalaşmışdır. Mixaylovka (Xanlar), Alekseyevka (Quba, Xaçmaz), Aleksandrovka (Sabirabad), Vladimirovka (Quba, Sabirabad), Novoivanovka (Gədəbəy) və s. toponimlər bunlara nümunədir.

Nəticə. Nəticə olaraq, deyə bilərik ki, dilimizin toponimiyasında rast gəldiyimiz coğrafi adlar müxtəlif dillərə məxsus olsa da, bu cəhət ərazinin onlara məxsus olduğunu ehtiva edə bilməz. Bütövlükdə Azərbaycanın, buraya Qərbi Azərbaycan, Cənubi Azərbaycan və digər ölkələrin qəsb etdiyi ərazilərdə yer-yurd adlarının tarixi kökləri araşdırıldıqda, qədim lüğətlərdə, coğrafiyaşünas-səyyahların əsərlərində daşlaşmış nüsxələri türk mənşəlidir və daha çox etnotoponimlərdir.

ƏDƏBİYYAT

1. Axundov A.A. Torpağının köksündə tarixin izləri, Bakı: Gənclik, 1983.
2. Bağırov A. Naxçıvanın oykonimləri, Bakı "Nurlan" 2008.
3. Bünyadov Z.,Məmmədov H. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı: Sabah, 1997.
4. Hüseynov İ. Azərbaycan dilinin onomastikası: Toponimlərin linqivistik tədqiqi, Bakı: Elm və təhsil 2018.
5. V.Əliyev. Azərbaycan toponimiyası. Bakı. 1999. 279 s. səh. 126
6. KaşğariM. Divanilüğat-ittürktercümesi, CiltI, ÇevireniBesimAtalay, Ankara: Türktarihkurumubasımevi, 1992.
7. Шопен И.Н., Исторический памятник состояния Армянской области в эпохе её присоединения к Российской империи , Санкт-ПетербургьВ типографии Императораторской Академии наукь, 1852.
8. Грантовский Э.Ф. Раняя история Иранских племен Передней Азий.

Москва. 1970; История Азербайджана. Баку. 1979. С.27-34
9. Исмаилзаде Д.И. Русское Крестьянство в Закавказъе 30-е годы XIX в., начало ЧЧ в., Москва. 1982. с. 37-38.
10. Paşa Aydın. Azərbaycan şəxs adları. Bakı: Maarif, 1996, 208 s.
11. Bakıxanov A. Gülüstani-İrəm.Bakı.2010.

Aygun Jafarova

TOPONYMS OF INDO-EUROPEAN ORIGIN IN THE AZERBAIJANI LANGUAGE

Summary

There are enough names belonging to different languages in the Azerbaijani toponymic system. In fact, this can be connected with the fact that the speakers of that language settled in the territory of our country over time. It is natural that approximately ninety to ninety-five percent of the place-names of our language are of Turkish origin. Because the aborigines of the area were Turks. However, there were also ethnos who came and passed through this area, settled here as a result of serving political purposes.These ethnos have given names in their own languages to the areas where they lived in, sometimes copied or changed the ancient name of the area. Such toponyms of non-Turkic origin include names belonging to Indo-European languages.

Джафарова Айгюн

ТОПОНИМ ИНДОЕВРОПЕЙСКОГО ПРОИСХОЖДЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Краткое содержание

В азербайджанской топонимической системе достаточно названий, принадлежащих к разным языкам. На самом деле это может быть связано с тем, что носители этого языка со временем осели на территории нашей страны. Естественно, что примерно девяносто-девяносто пять процентов топонимов нашего языка имеют тюркское происхождение. Потому что аборигенами этого района были тюрки. Однако были и этносы, которые приходили и проходили через эту территорию, поселились здесь в результате служения политическим целям. Эти этносы давали названия территориям, где они жили, на своих языках, а иногда копировали или изменяли древнее название местности. К таким топонимам нетюркского происхождения относятся имена, принадлежащие к индоевропейским языкам.

Rəyçi: prof. Həcər Emin qızı Hüseynova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

ARIFƏ ƏZIZ QIZI ZEYNALOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan Dövlət Universiteti
arifezeynalova9@gmail.com
https://orcid.org/0009-0007-4556-2348

MURAD QƏNBƏROV
Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə III kurs tələbəsi
qenberovmurad742@gmail.com
ORCİD-İD-0009-0002-5709-280X

ELXAN YURDOĞLUNUN "NAXÇIVAN DASTANI" ƏSƏRİNİN DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə Azərbaycan ədəbiyyatının gənc və istedadlı nümayəndələrindən biri olan Elxan Yurdoğlunun yaradıcılığı araşdırılmış, şairin dil və üslub xüsusiyyətləri tədqiqata cəlb edilmişdir. Tədqiqatın əsas obyekti kimi şairin bədii irsində mühüm yer tutan "Naxçıvan dastanı" poeması seçilmişdir. Məqalədə şairin yaradıcılığında Naxçıvanın tarixi-etnik yaddaşı, milli-mənəvi dəyərləri, folklor ənənələri və xalq yaradıcılığının zəngin elementləri bədii təsvir vasitələrinin köməyi ilə oxucuya çatdırılır. Tədqiqat işində poemadakı əsas məqamlar üç istiqamətdə təhlil olunmuşdur: birincisi, şairin özünəməxsus ifadə tərzi və fərdi yaradıcılıq üslubu; ikincisi, əsərdə işlədilən onomastik vahidlərin məzmun və funksional xüsusiyyətləri; üçüncüsü, Naxçıvan bölgəsinə xas dialekt xüsusiyyətləri və el-oba adət-ənənələrinin poetik təqdimatı.

Məqalədə Elxan Yurdoğlunun dil-üslub xüsusiyyətlərinin araşdırılması müasir Azərbaycan dilçiliyinin aktual məsələlərindən biri kimi qarşıya çıxarılır. Çünki gənc nəsil nümayəndələrinin yaradıcılığının öyrənilməsi milli ədəbiyyatımızın inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. "Naxçıvan dastanı" əsəri üzərində aparılan elmi təhlillər həm əsərin dil-üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi, həm də müasir ədəbiyyatda milli-mənəvi dəyərlərin poetik inikası baxımından maraqlı nəticələri ortaya qoyur.

Açar sözlər: Elxan Yurdoğlu, Naxçıvan dastanı, dil və üslub xüsusiyyətləri, onomastik vahidlər, milli-mənəvi dəyərlər, bədii təzad, toponimlər, antroponimlər, ktematonimlər

GİRİŞ

Azərbaycan bədii-ədəbi dilinin tarixi inkişaf mərhələləri və yaranan elmi-tədqiqat əsərləri dilimizin zənginliyini, dərinliyini və özünəməxsusluğunu aydın şəkildə ortaya qoyur. Azərbaycan ədəbiyyatı müxtəlif tarixi dövrlərdə müxtəlif

ictimai, mədəni və siyasi məsələlərlə qarşı-qarşıya qalmışdır. Bu məsələlərdən bəziləri xalqımızın mədəni irsinə təsir etsə də, ən mühüm və həssas məsələlərdən biri məhz ədəbiyyatımızda dilin rolu və dilin qorunması ilə bağlıdır. Tarixin müəyyən mərhələlərində əsərlər fərqli dillərdə yazılsa da, zaman keçdikcə, xüsusən də qədim dövrlərdə Azərbaycan dilində yazmaq ənənəsi güclənməyə başlamışdır. Lakin əlifba məsələlərində müəyyən çətinliklər və dəyişikliklər də ortaya çıxmış, bu da bəzən dilin inkişafına mane olan amillərdən biri olmuşdur.

Klassiklərimizin yaratdığı əsərlərin müəyyən bir hissəsi ərəb, fars, türk dillərində yazılsa da, Azərbaycan ədəbi dilində yazılan nümunələr də az olmamışdır. Məsələn, Şeyx İzzəddin Həsənoğlunun Azərbaycan dilində yazdığı qəzəllər bu baxımdan xüsusi qeyd olunmalıdır. Ədəbiyyatımızda dil mövzusu təkcə bir texniki məsələ kimi deyil, həm də milli kimliyin ifadəsi kimi dəyərləndirilmiş, bir çox şairin yaradıcılığında bu mövzunun poetik və fəlsəfi təhlili aparılmışdır. Ümumiyyətlə, ədəbiyyatımızda dil problemi və dilin qorunması məsələsi həmişə ən aktual mövzulardan biri olmuşdur. Xalqın milli-mənəvi dəyərlərinin başlıca sütunlarından biri məhz onun dilidir.

Azərbaycan xalqı zaman-zaman tarixi şəxsiyyətlər – ədəbiyyatşünaslar, dilçilər, rəssamlar, bəstəkarlar, müğənnilər, alimlər yetişdirdiyi kimi, şair və yazıçıları ilə də tanınmışdır. Nizamilər, Füzulilər, Vaqiflər, Mirzə Cəlillər, H.Cavidlər, Ə.Cavadlar, S.Vurğunlar, B.Vahabzadələr, M.Arazlar və s. yazarların əsərləri maraqlı dil faktları ilə zəngindir. XXI əsr Azərbaycan yazıçılarından M.İsmayıl, Z.Yaqub, R.Rövşən, R.Behrudi, B.Vəziroğlu, X.Kərimli, Y.Məmmədov, A.Yadigar və s. bu kimi orta və gənc nəsil şairlərimizin dil zənginliyi elmi tədqiqat baxımından diqqətimizi cəlb edir. Azərbaycan dilinin tarixi keçmişini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini əks etdirən əsərlər dilçiliyin vacib məsələlərindən biri kimi qarşımıza çıxır. Maraqlı haldır ki, şair və yazıçılarımızın əsərlərində xalqımızın tarixi, etnik, mədəni, sosial həyatı əks olunmaqla yanaşı, bu əsərlərdə Azərbaycan dilinə məhəbbət, hörmət, Azərbaycan dilinin qrammatik quruluşuna dair fundamental nəzəri məlumatları özündə ehtiva edən praktik cəhətlər də geniş şəkildə əks olunmuşdur. Onu da qeyd edək ki, şair və yazıçılar öz əsərlərində xalqımızın tarixini, mədəniyyətini, mənəvi potensialını əks etdirməklə bərabər, dil xüsusiyyətlərini də əks etdirmişlər. Elə buna görə də "şairlərin və yazıçılarımızın əsərləri müxtəlif parametrlərlə tədqiq olunmaqla yanaşı, onların dil xüsusiyyətləri də araştırılmalıdır" (1, s. 489).

Azərbaycan ədəbiyyatının mühüm qollarından birini təşkil edən Naxçıvan ədəbi mühitində də dil mövzusu, milli kimlik və mənəvi dəyərlər xüsusi yer tutmuşdur. Burada fəaliyyət göstərən bir çox şairlər öz əsərlərində həm ədəbi dilimizin zənginliyini, həm də milli-mənəvi irsimizi poetik şəkildə ifadə etmişdir.

Naxçıvan ədəbi mühitinin gənc, lakin məhsuldar qələm sahiblərindən biri olan Elxan Yurdoğlunun yaradıcılığında da dil və üslub məsələləri xüsusi diqqət

çəkir. Onun əsərləri həm Azərbaycan ədəbi dilinin gözəlliyini, həm də fərdi yaradıcılıq üslubunun özünəməxsus xüsusiyyətlərini əks etdirir.

Şairin diqqəti çəkən əsərlərindən biri olan "Naxçıvan dastanı" həm mövzu baxımından, həm də dil-üslub xüsusiyyətlərinə görə milli ədəbiyyatımızın dəyərli nümunələrindən sayılır. Əsərin dil xüsusiyyətlərinə keçməzdən əvvəl, onun ədəbiyyatımızdakı və milli mədəniyyətimizdəki yeri barədə danışmaq vacibdir. Elxan Yurdoğlu bu əsərində Naxçıvanın təbiət gözəlliklərini, qədim tarixini, xalqın milli dəyərlərini, adət-ənənələrini böyük sevgi ilə təsvir edir. Əsərdə təkcə təbiət mənzərələri deyil, həm də tarixi hadisələr, abidələr, folklor motivləri poetik boyalarla əks olunmuşdur. Bunu aşağıdakı misralarda aydın şəkildə görürük:

Mənim can nəfəsim, mənim can yurdum,
Sözlə qol-boyundu tufandan bəri.
Sirrini daşlara yazıb saxlayır,
Nuh tufanı dinib, yatandan bəri.
Hər daş bir əsərdi Gəmiqayada,
Tarix kitabımın vərəqi daşdı.
Burda tarix dərsim daş üstündədi,
Daşdı deyib keçmə, hər daş yaddaşdı (2, s. 7).
Oxu Nuh babamın əlifbasını –
Göy ayrı, yer ayrı, su ayrı yazı.
Ətrafa yayılmış daşları oxu –
O ayrı yazıdı, bu ayrı yazı (2, s. 8)

Bu təsvirlərdən də göründüyü kimi, "Naxçıvan dastanı" əsəri Naxçıvan üçün yalnız bir poetik mətn deyil, həm də dəyərli sənət nümunəsi, mədəniyyət salnaməsidir. Əsərin süjeti bütövlükdə Naxçıvanın zənginliklərini, tarixi yaddaşını və mənəvi irsini gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır. Elxan Yurdoğlu yaradıcılığının çoxşaxəli olması onun Naxçıvan ədəbi mühitində özünəməxsus iz qoymasına səbəb olmuşdur. Şairin əsərlərində yalnız milli-mənəvi dəyərlər deyil, həm də insan hissləri, duyğular, vətən sevgisi müxtəlif formalarda öz əksini tapır.

Şairin poetik dili həm mövzu rəngarəngliyində, həm də ifadə tərzinin təbiiliyində özünü göstərir. Onun yaradıcılığında sözlərin yerli-yerində işlənməsi, söz zənginliyi və şairin fərqli yanaşma tərzi diqqətimizi çəkir. Elxan Yurdoğlu sadə, anlaşıqlı, eyni zamanda bədii təsir gücü yüksək olan, həm xalq danışıq üslubunun, həm də ədəbi dilin gözəlliklərini bir araya gətirən şairdir. Bu isə onun əsərlərinin daha geniş auditoriya tərəfindən maraqla qarşılanmasına səbəb olur.

Əsərin ilk misralarında özünü göstərən bədii ifadə və təsvir vasitələrinin zənginliyi, şairin dil xüsusiyyətlərinin gözəlliyi barədə aydın təsəvvür yaradır. Şeirdə belə deyilir:

Bu div dünyamızın cırtdan şəhəri
Divlər dünyasına tutub səfəri.

İlk addımı – tarixin ilk sözüdür.
Altı-üstü tarixin lap özüdür (2, s. 4).

Bu misralarda diqqəti ilk növbədə dildə bədii təzadın yaradılması cəlb edir. Birinci misrada işlənmiş "bu div dünyamızın cırtdan şəhəri" ifadəsində "div" və "cırtdan" sözləri antonim-antiteza kimi, yəni bədii təzad vasitəsi ilə təqdim olunur. İkinci misrada isə "cırtdan şəhərin" "divlər dünyasına" səfərə çıxması həm məzmun, həm də obrazlılıq baxımından dərin bir təzad yaradır. Burada söhbət təkcə leksik antonimlikdən getmir, həm də məna baxımından qarşılaşdırma mövcuddur. Bu cür dərin təzad yaratmaqla şair təkcə sözlərin qarşılaşdırılmasını deyil, həm də ideyanın özündə ziddiyyətli bir harmoniyasını qurur.

Ənənəvi olaraq təzad yaratmaq üçün əsasən antonim sözlərdən istifadə olunsa da, Elxan Yurdoğlu bu nümunədə sadəcə sözlər üzərində deyil, fikirlərin üzərində də təzad qurmuş, "dünya" və "cırtdan" anlayışlarını bədii ziddiyyət formasında təqdim etmişdir. Bu isə onu göstərir ki, şair yaradıcılığında Azərbaycan dilinin bütün dil-üslub imkanlarından maksimum dərəcədə istifadə edir, sözün mənasını və emosional yükünü çox incə şəkildə işləyir.

Əsərdə diqqəti cəlb edən digər bir məqam isə "Gəmiqaya" toponiminin poetik təhlilidir. Şair bu hissəni belə ifadə edir:

Gəmiqaya – Gəmi və qaya,
Qaranquş yaylağı.
Nəbi yurdu Nuh nəbinin
İlk məskəni, ilk oylağı (2, s. 12).

Göründüyü kimi, şeirdə bir sıra onomastik ifadələrdən istifadə olunmuşdur. Yalnız bu bir bəndin özündə Naxçıvanın bir çox tarixi və coğrafi məkanlarının adları çəkilir. "Gəmiqaya" və "Qaranquş yaylağı" toponimləri, "Nəbi" və "Nuh" antroponimləri əsərin məzmununu zənginləşdirən, oxucuya həm tarixi, həm də mədəni məlumat verən bədii vasitələrdir. Ədəbiyyatda poetik onomastik vahidlərin işlənməsi olduqca vacibdir. Çünki xalqın tarixini, mədəniyyətini və mənəvi irsini tanıdan əsas faktorlardan biri onun ədəbi nümunələridir. Ədəbiyyatda xalqın tarixi, dili, məkan adları, tanınmış şəxsiyyətləri, yer, dağ, çay adları, ümumən onomstik vahidləri təbliğ olunduqda, həmin xalqın mədəni səviyyəsi, tarixi, milli dəyərləri daha da artır. Elxan Yurdoğlunun bu əsərində onomastik vahidlərin istifadəsi həm milli kimliyin qorunmasına, həm də Naxçıvanın mədəni-tarixi irsinin geniş şəkildə öyrənilməsinə və tanıdılmasına xidmət edir.

Elxan Yurdoğlunun əsərlərində çox sayda müxtəlif onomastik vahidlərdən istifadə olunur ki, bu onomastik vahidlərin də mənzərəsi aşağıdakı formada özünü göstərir:

1. **Antroponimlər:** "Babək", "Cavid", "Dağyunus", "Dəmirçioğlu", "Elxan Yurdoğlu", "Eynəli Sultan", "Heyran xanım", "Koroğlu", "Məmməd Araz", "Memar Əcəmi", "Mirzə Cəlil", "Nemətullah", "Nuh", "Ordubadi", "Qəmküasar", "Qorqud",

“Qönçəbəyim”, “Rza Təhməsib”, “Sidqi”, “Səbri”, “Təmleyxa”, “Yunus”, “Əziz Şərif” və s.

2. **Toponimlər:** “Ağrıdağ”, “Batabat”, “Duzdağ”, “Gəmiqaya”, “İlanlı dağ”, “Kəbə”, “Məkkə”, “Mömunə Xatın”, “Qapıcığ”, “Qaranquş yaylağı”, “Şərur”, “Əlincə”, “Əshabi-Kəhf” və s.

3. **Ktematonimlər (İdeonimlər):** “Cəngi”, “Köçəri”, “Peyğəmbər”, “Qalalı”, “Ruhani”, “Şərili”, “Tello”, “Tənzərə”, “Urfani”, “Xəyyam” və s.

4. **Hidronimlər:** “Araz” (Qeyd edək ki, şairin bu əsərində hidronimlərin işlənməsi qismən azdır).

Yuxarıda qeyd olunan onomastik vahidlərin hamısı əsərin zəngin onomastik qatlara malik olduğunu təsdiqləyir. Onu da vurğulamaq lazımdır ki, antroponimlərin çoxu məhz Naxçıvanlı ədiblərin, tarixi və mədəni şəxsiyyətlərin adları ilə bağlıdır. Bu da əsərin mahiyyətinə, yəni Naxçıvan torpağının bütün imkanlarını və mədəni irsini ortaya qoymaq məqsədinə uyğun gəlir.

Antroponimlərə diqqətlə baxdıqda, eyni zamanda Naxçıvanın tarixini və keçmişini əks etdirən adlar (Nuh, Dağyunus, Təmleyxa, Mömünə Xatın, Babək, Dəmirçioğlu, Memar Əcəmi və s.) açıq şəkildə görünür. Bu, əsərin tarixi kontekstini daha da zənginləşdirir və onun mədəni dəyərini artırır.

Onomastik zənginlik yalnız antroponimlərlə məhdudlaşmır. Əsərdə işlənən toponimlərin hamısı demək olar ki, Naxçıvan coğrafiyasına məxsusdur. Bu məkan adları əsərə xüsusi rəng qatır, oxucunu Naxçıvanın təbii və tarixi mühitinə aparır, onun ruhunu hiss etdirməyə kömək edir. Məsələn, “Əshabi-Kəhf” barədə şeirdə verilən təsvirlər olduqca aydın və rəngarəngdir:

Hər gün öldürülür yüzlərlə adam,
Bu zülmətə dözməyir vəkil Təmleyxa.
Altı dostu ilə şəhərdən qaçır,
Sığınır mağara olan bir dağa.
Bir də yanlarında sadiq bir köpək,
Düz üç yüz doqquz il yuxu yatırlar.
Bir gün oyananda ərzaq almaqçün,
Birini şəhərə yola salırlar (2, s. 28).

Burada verilən təsvirlər yalnız əsərin mövzusunu deyil, həm də Naxçıvanda “Əshabi-kəhf ”in qədim tarixini və mifologiyasını ustalıqla əks etdirir. Digər tərəfdən, əsərdə istifadə olunan ktematonimlər Naxçıvan mədəniyyətinin müxtəlif qatlarını açıb göstərən əsas cəhətlərdəndir. “Ruhani”, “Cəngi”, “Köçəri”, “Urfani” kimi anlayışlar Naxçıvanın zəngin etno-mədəni irsinin ayrılmaz hissəsidir. Şairin bu ideonimləri yerli-yerində işlətməsi, onların mənəvi və sosial əhəmiyyətini vurğulaması, əsərin mədəni təbəqəsini daha da zənginləşdirir:

Mənim birliyimin möhürü olub,
“Köçəri”, “Urfani”, “Tello”, “Tənzərə”.

Yorulmaq bilmədən yallı gedərdim,
"Şərili", "Qalalı" ayrı mənzərə (2, s. 40).

Bu misralar vasitəsilə şair, Naxçıvanın milli adət-ənənələrini, folklorunu və mədəni dəyərlərini vurğulayır, həm də oxucuya bu zənginliyin fərqli cəhətlərini təqdim edir.

Nəticə olaraq, əsərdə işlənən bütün onomastik vahidlər, antroponimlər, toponimlər, ktematonimlər və hidronimlər əsərin bədii-estetik təsirini artırmaqla yanaşı, Naxçıvanın tarixi-mədəni kimliyini də ortaya qoyur. Bu baxımdan, Elxan Yurdoğlunun "Naxçıvan dastanı"nda işlənən dil vahidləri, xüsusən onomastik vahidlər öz zənginliyi və mədəni dərinliyi ilə ədəbiyyatımızda yer tutan əsərlərdəndir.

Şairin *"Naxçıvan dastanı"* əsərində işlədilən toponimlər də yalnız poetik obraz kimi deyil, həm də dilçilik baxımından maraqlı araşdırma materialı kimi diqqət çəkir. Məsələn,

… Nuhçıxan şəhərim belə yaranıb,
Naxçıvan şəhərim belə yaranıb.
Dünyayı bəzəyən Nəqşi-cahanım,
Canməkan şəhərim belə yaranıb (2, s. 14).

Bu misralarda işlədilən Nuhçıxan, Naxçıvan və Nəqşi-cahan toponimləri müxtəlif dil qatlarını təmsil edir:

Nuhçıxan – morfoloji quruluşuna görə mürəkkəb toponimdir: "Nuh" (antroponim, dini-epik mənbədən gələn şəxs adı) + "çıxan" (feildən düzəlmiş sifət). Etimoloji mənası "Nuhun çıxdığı yer"dir. Xalq əfsanələrinə görə, Nuh tufanından sonra gəmi bu ərazidəki dağın başında dayanmış, Nuh və ailəsi buradan yer üzünə yayılmışdır. Fikrimizcə, Nuh peyğəmbərin ya övladları, ya da dünya tufanından sonra formalaşmış insan toplusu müqəddəs peyğəmbər tərəfindən yaradılmış yaşayış məskəninə onun şərəfinə Nuhçıxan adını vermişdir. Nuhçıxan Nuhun törəmələrinin və ya ən yaxın tərəfdarlarının formalaşdırdığı yaşayış məskəninin adıdır. Nuhçıxan sözü Naxçıvan adının ilkin variantı, yaxud ilk əsas variantlarından biridir:

- Nuhçıxan - Naxçıvandır. Yəni Naxçıvan Nuh peyğəmbərin gəlib çatdığı məkandır.
- Nuhçıxan - Nuhun özünün və övladlarının məskən salıb yaşadığı yerdir.
- Nuh peyğəmbərin dünya tufanı bəlasından xilas olub, yenidən bəşəriyyətə qaytarıldığı yer Nuhçıxandır - Naxçıvandır. Yəni Nuh peyğəmbər yeni həyata buradan başlamışdır.

Naxçıvan – fonetik baxımdan "Nuhçıxan" formasının tarixi səs dəyişməsi nəticəsində formalaşmışdır. Burada h → x səs dəyişikliyi, həmçinin ı → a vokal transformasiyası müşahidə olunur. Bu dəyişmə Orta əsr Azərbaycan dilində bəzi sözlərdə də rast gəlinən tipik fonetik assimilyasiya hadisəsinin nümunəsidir. Ən qədim yer adlarından olan "Naxçıvan" toponiminin müxtəlif etimoloji yozumları mövcuddur. Qədim rəvayət və miflərə əsaslanan bir sıra antik və orta əsr tarixçi və coğrafiyaşünasları Naxçıvan şəhərinin e.ə. 1539-cu ildə salındığını göstərmişlər.

Brokhauz və Efronun ensiklopedik lüğətində də Naxçıvan şəhərinin əsasının e.ə. 1539-cu ildə qoyulduğu qeyd edilir. Müasir elmdə isə Naxçıvan şəhərinin əsasının e.ə. 1500-cü ildə qoyulması fikri qəbul edilməkdədir.

Əsrlər boyu Naxçıvan bölgəsi siyasi və strateji cəhətdən olduqca əhəmiyyətli bölgələrdən biri olmuşdur. Qədim Oğuz yurdu olan bu bölgədə vahid türk mədəniyyətini, türk yaşam tərzini, türk tarixini özündə əks etdirən yüzlərlə tarixi və memarlıq abidələrinə rast gəlmək mümkündür. Tarixin bütün mərhələlərində Şərqlə Qərbi bir-birinə bağlayan mühüm karvan yollarının keçdiyi bu bölgə zəngin ticarət karvanlarının, əzəmətli orduların, diplomatik elçilik heyətlərinin, macəra axtaran səyyahların diqqət mərkəzində olmuş, müsəlman, qeyri-müsəlman səyyahların və coğrafiyaşünasların əsərlərinin mövzusuna çevrilmişdir.

Nəqşi-cahan – ərəb-fars mənşəli mürəkkəb toponimdir: "nəqş" (ərəbcə "naxış", "bəzək") + "cahan" (farsca "dünya"). Semantik baxımdan "dünyanın bəzəyi" mənasını verir. Əsərdə bu toponim poetik hiperbola kimi işlədilərək Naxçıvanın gözəlliyini və mədəni dəyərini vurğulayır.

Bu toponimlərin istifadəsi yalnız bədii mətnin poetikasını gücləndirmir, həm də tarixi-fonetik dəyişmələri, müxtəlif dil qatlarının qarşılıqlı təsirini nümayiş etdirir.

Fonetik baxımdan "Nuhçıxan → Naxçıvan" keçidi Azərbaycan dilində assimilasiya və dissimilasiya hadisələrinin tarixi nümunələrindəndir. Burada "*h"* səsinin "*x"* səsinə çevrilməsi səsin boğaz səslərindən arxa-damaq səslərinə keçidi göstərir. Morfoloji baxımdan isə bu toponimlər əsasən mürəkkəb sözlərdən ibarətdir, kök + şəkilçi və ya kök + kök birləşməsi ilə yaranır.

Şairin yaradıcılığında, xüsusilə də *"Naxçıvan dastanı"* əsərində xalq hikmətinə məxsus atalar sözlərinin istifadəsi də xüsusi yer tutur. Bu, dilçilik baxımından frazeoloji vahidlərin poetik mətnə inteqrasiyasının uğurlu nümunəsidir. Məsələn, aşağıdakı bəndə diqqət yetirək:

Boşuna deməyib müdrik babalar,
Onların sözündə minbir hikmət var.
Oğul, keçmişini bilməyənlərin,
Başqaları qurar gələcəyini (2, s. 18).

Burada "Keçmişini bilməyənlərin gələcəyini başqaları qurar" fikri Azərbaycan atalar sözləri sistemində tarixi yaddaşı qorumağın vacibliyini ifadə edən sabit söz birləşməsidir.

"Naxçıvan dastanı" əsəri eyni zamanda xalq ədəbiyyatına aid bəzi nümunələrdən istifadə olunmaqla yazılmışdır. Bu baxımdan, əsərdə şifahi xalq ədəbiyyatına məxsus elementlərin işlədilməsi müəyyən dialekt xüsusiyyətlərinin də ortaya çıxmasına səbəb olmuşdur. Bu üslubi xüsusiyyətlər əsərin dilində həm ədəbi dilin, həm də xalq danışıq dilinin izlərini aydın şəkildə görməyə imkan verir. Əsərin Əshabi-Kəhf ilə bağlı hissəsində istifadə edilən toponim də bu dialekt xüsusiyyətlərini əks etdirən nümunələrdən biridir. Ədəbi dildə "Əshabi-Kəhf" şəklində işlənən bu toponim əsərdə dialekt formasında "Asəfkəf" kimi təqdim

olunmuşdur. Bu formanın fonetik quruluşuna nəzər salındıqda, bir sıra fonetik hadisələrin baş verdiyi müşahidə olunur. Ədəbi dildə iki hissədən ibarət olan söz dialekt formasında birləşdirilərək tək söz kimi tələffüz edilir ki, bu da fonetik sadələşmə ilə nəticələnir. Bu proses zamanı bəzi sait və samitlərin ixtisarı baş verir, yəni söz eliziya (səsdüşümü) hadisəsinə məruz qalır. Xüsusilə, əsərdə "a", "i" saitləri ilə "h" və "b" samitlərinin düşməsi qeydə alınır. Bundan əlavə, sözün əvvəlindəki "ə" səsi dialekt tələffüzündə "a" səsi ilə əvəzlənmişdir ki, bu da səs əvəzlənməsi hadisəsinə nümunədir. Sözün birinci komponenti olan "Əshabi" hissəsi dialekt variantında "Asəf" formasında işlədilmişdir. Burada, həmçinin proteza (səsartımı) hadisəsi də mövcuddur: sözün sonuna əlavə "f" samiti gətirilmişdir. Bu fonetik dəyişmənin məqsədi çoxlu səs ixtisarına məruz qalan sözü danışıq dilinin fonetik sisteminə uyğunlaşdırmaq və onun tələffüzünü asanlaşdırmaqdır. Ümumilikdə, bu nümunədə aşağıdakı fonetik hadisələr qeydə alınır: Eliziya (səsdüşümü) – "Əshabi-Kəhf" → "Asəfkəf" formasında a, i saitləri ilə h, b samitlərinin düşməsi nəticəsində söz qısalmış və tələffüz yüngülləşmişdir; Səs əvəzlənməsi – sözün əvvəlindəki "ə" səsinin "a" ilə əvəz olunması ("Əshabi" → "Asəf"), bu, dialekt fonetikası üçün xarakterikdir; Birlikləşmə – iki hissəli sözün bir tam kimi tələffüz olunması ("Əshabi" + "Kəhf" → "Asəfkəf"), fonetik sadələşmə və ahəngin möhkəmlənməsinə gətirib çıxarır; Proteza (səsartımı) – sözün sonuna bir samitin (f) artırılması ("Asəf" → "Asəfkəf") tələffüzün ahəngini və sözün danışıq dilinə uyğunlaşdırılmasını təmin edir; Konsonantın qorunması – ikinci hissədəki "k" samitinin saxlanılması ("Kəhf" → "Kəf") sözün mənasının tanınmasını qoruyur. Bu nümunə həm dialektoloji, həm də fonetik baxımdan "Naxçıvan dastanı"nın dilinin zənginliyini və onun xalq danışıq dili ilə ədəbi dil arasında körpü rolunu oynadığını aydın şəkildə göstərir.

Elxan Yurdoğlu yaradıcılığında heca vəznində maraqlı şeirlərə yer verilsə də sərbəst seirə müraciət də davamlıdır. Bədii ovqatın canlandırılmasında sərbəst şeirin əhəmiyyəti böyükdür. Çünki bu şeir formasında qafiyyə gözəlliyi ikinci plandadır, burada məna əsasdır. Məna bolluğu sözün bədii tutumunu, sanbalını çoxaldır, çəkisini ağırlaşdırır. Lakin, sözsüz ki, hecanın axarına düşən misralar ritmi ilə daha yüksəkdə dayanır (1, s. 484). Heca vəznində bir çox şairlərin əsərlərinə rast gəlmək mümkündür, lakin hər şairin öz üslubu vardır və Elxan Yurdoğlu üslubu heca vəznində də özünü göstərir:

Əlincə sərt üzlü dözüm heykəlim,
Başucalığımdır İlanlı dağım.
Qadına sevgimdir Mömünə Xatın,
Batabat gözəllik füsunkarlığım (2, s. 41).

Poetik söz ustaları təkcə dilin sözlərini işlətməklə kifayətlənmir, bəzən elə söz və birləşmələr yaradırlar ki, leksik tərkibdə onlara rast gəlmirsən və ya, həmin sözlərin ümumxalq dilinə qarışacağı olmur. Bu söz və ifadələr sairin ürək, hiss, həyəcan sərfi ilə düşüncə gərginiiyindən, fikir zərurətindən yaranır və onun fərdi üslubunu formalaşdırır. Bu dil faktlarının ürəkdən şeirə, şeirdən ürəklərə qədər yolu

var və onların təsiri sərhəd tanımır. Elxan Yurdoğlunun əsərlərinin çoxunda yeni çalar, yeni məna tapmaq mümkündür. Onun şeirləri adi nəzmdən uzaq, şirin və təsirli ifadələrlə zəngindir. O, bəzən sadə dil vahidlərini üslubun taxt-tacı səviyyəsinə qaldıra bilir. Hiss edirsən ki, bütün bunlar misralara şairin ruhundan tökülür (1, s. 487).

NƏTİCƏ

Azərbaycan ədəbi dilinin bədii əsərlər əsasında təhlili və qiymətləndirilməsi vacib məsələlərdəndir. Bu iş yalnız müəyyən dövrlərlə məhdudlaşmamalı, bütün zamanlarda yazılmış əsərlərə tətbiq edilməlidir. Belə yanaşma həm ədəbi dilin inkişafını izləmək, həm də dilin bədii-estetik imkanlarını daha dərindən dərk etmək baxımından əhəmiyyətlidir.

Elxan Yurdoğlunun "Naxçıvan dastanı" poemasının dili və üslubu xüsusilə diqqəti cəlb edir. Bu əsər vasitəsilə şairin dil üslubunun ümumi mənzərəsini yaratmaq, onun poetik düşüncə tərzini müəyyənləşdirmək mümkündür. Əsər həm dil, həm də üslub baxımından müəllif yaradıcılığının mühüm göstəricilərindən biridir.

"Naxçıvan dastanı"nda xalq adət-ənənələri, milli-mənəvi dəyərlər və tarixi yaddaş zəngin ifadə vasitələri ilə, əlavə bədii boyalarla təqdim olunmuşdur. Bu məqamlar əsərə milli ruh qatmaqla yanaşı, onun bədii dəyərini də artırır.

Əsərdə dialekt formaları da öz əksini tapır. Onların ümumi təsnifatı aparılmış, fonetik dəyişmələri və bölgəyə məxsus dil xüsusiyyətləri bədii mətnin təbii axarına uyğun şəkildə təqdim olunmuşdur. Bu da əsərin həm linqvistik, həm də etnoqrafik baxımdan əhəmiyyətini artırır. Poemada, həmçinin folklor nümunələrindən də istifadə olunması və həmin elementlərin əsərin ümumi fərdi üslubuna uyğunlaşdırılması şairin sözdən istifadə bacarığının gücünü nümayiş etdirir. Bu yanaşma həm ənənə ilə müasirliyi vəhdətdə təqdim edir, həm də əsərə xüsusi bədii ahəngdarlıq bəxş edir.

Ümidvarıq ki, Elxan Yurdoğlu bundan sonra da yeni əsərləri ilə ədəbiyyatımıza öz töhfələrini verəcək, dilimizi zənginləşdirəcək.

İstifadə olunmuş ədəbiyyat:

1. A.Qurbanov. Azərbaycan onomologiyasının əsasları. Bakı, 2019
2. Azərbaycan dilinin üslubiyyatı. Elmi, rəsmi və eristolyar üslublar. Bakı, Elm, 1990
3. Elxan Yurdoğlu, Mən sözə şöykənmişəm, Naxçıvan, "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi. 2025, 592 s.
4. Elxan Yurdoğlu, Naxçıvan dastanı (poma), Naxçıvan, "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi. 2019, 44 s.
5. S.Cəfərov. Müasir Azərbaycan dili (Leksika). Bakı, 2007
6. Mübariz AĞALARLI Cahanın Nəqşi - Naxçıvan səyyah və coğrafiyaşünasların gözü ilə…Azərbaycan qəzeti. 06 Oktyabr 2025

ABSTRACT

LINGUISTIC AND STYLISTIC FEATURES OF ELXAN YURDOĞLU'S "NAXCHIVAN EPIC"

This article examines the literary work of Elxan Yurdoğlu, one of the talented young representatives of Azerbaijani literature, with a particular focus on the linguistic and stylistic features of his writing. As the primary object of study, the poem *"The Nakhchivan Epic"* - a significant piece within the poet's artistic legacy — was selected. In this work, the historical-ethnic memory of Nakhchivan, its national and spiritual values, folklore traditions, and the rich elements of oral creativity are conveyed to the reader through artistic means of expression.

The research analyzes the poem in three main directions: first, the poet's distinctive mode of expression and individual creative style; second, the semantic and functional features of the onomastic units employed in the text; and third, the poetic presentation of dialectal characteristics specific to the Nakhchivan region, along with its local customs and traditions. The study revealed that Elxan Yurdoğlu skillfully incorporated dialect words, folklore style, and historically rooted imagery, thereby enhancing the national spirit of the literary text.

The article also emphasizes that the study of Elxan Yurdoğlu's linguistic and stylistic features is one of the relevant issues in contemporary Azerbaijani literary criticism. This is because analyzing the works of young writers helps determine the developmental directions of national literature. In this regard, the analysis of *"The Nakhchivan Epic"* not only identifies the poet's individual creative style but also yields valuable insights into the poetic reflection of national and spiritual values in modern literature.

Keywords: Elxan Yurdoğlu, Nakhchivan Epic, language and style, onomastic units, national and spiritual values

Аннотация

ЯЗЫКОВЫЕ И СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРОИЗВЕДЕНИЯ ЭЛХАНА ЮРДУОГЛУ «НАХЧЫВАНСКИЙ ЭПОС»

В статье исследуется творчество одного из молодых и талантливых представителей азербайджанской литературы — Элхана Юрдуоглу, с особым вниманием к его языковым и стилистическим особенностям. В качестве основного объекта исследования выбрана поэма «Нахчыванский эпос», занимающая значимое место в художественном наследии поэта. В произведении через художественные средства передаются историко-этническая память Нахчывана, национальные и духовные ценности, фольклорные традиции и богатые элементы народного творчества.

В исследовании ключевые аспекты поэмы проанализированы по трём направлениям: во-первых, уникальный стиль выражения и индивидуальный творческий почерк поэта; во-вторых, смысловые и функциональные

особенности ономастических единиц, использованных в тексте; в-третьих, поэтическое представление диалектных особенностей, характерных для региона Нахчыван, а также местных обычаев и традиций. Исследование показало, что Элхан Юрдуоглу мастерски использует диалектные слова, фольклорный стиль и образы, связанные с исторической памятью, тем самым усиливая национальный дух художественного текста.

В статье также подчеркивается, что изучение языковых и стилистических особенностей Элхана Юрдуоглу является актуальной задачей современной азербайджанской литературоведческой науки. Поскольку исследование творчества молодых представителей литературы имеет важное значение для определения направлений развития национальной литературы. В этом контексте анализ поэмы «Нахчыванский эпос» позволяет не только выявить индивидуальный творческий стиль поэта, но и получить ценные результаты в плане поэтического отображения национальных и духовных ценностей в современной литературе.

Ключевые слова: Элхан Юрдуоглу, «Нахчыванский эпос», язык и стиль, ономастические единицы, национальные и духовные ценности

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Həşimov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

MƏMMƏDOVA ESMIRA
ADU, Azərbaycan dilçiliyi kafedrası
E/mail: memmedovaesmira@gmail.com
Orcid İD: 0009-0003-5015-8068

ANTROPONİMLƏRİN NÖVLƏRİ VƏ ƏSAS KATEQORİYALARI

Xülasə

Antroponimlər — insanlara verilən adlardır, bu vahidlər — dilçilikdə onomastikanın mühüm sahələrindən biridir. Bu vahidlər yalnız şəxs tanıtmaqla qalmır, həm də cəmiyyətin tarixi, mədəni, dini və sosial xüsusiyyətlərini əks etdirir. Antroponimlərin növləri və kateqoriyaları müxtəlif meyarlar əsasında sistemləşdirilir: əsasən, leksik-semantik, morfoloji, funksional və tarixibaxımdan.

Ən ümumi təsnifatda antroponimlər antroponim sistemi daxilində aşağıdakı kateqoriyalara ayrılır: adlar (antroponlar), soyadlar (familyonimlər), ata adları (patronimlər), ləqəblər (teonimlər, taxalluslar), təxəllüslər və nisbələr. Bu kateqoriyalar bir-biri ilə əlaqəli şəkildə, bir çox hallarda isə mədəni-məkan kontekstdə meydana çıxır.

Müasir onomastik tədqiqatlar göstərir ki, antroponimlər yalnız fonetik və qrammatik quruluş baxımından deyil, həm də funksional üslubi cəhətdən fərqlənir. Bədii ədəbiyyatda, publisistik üslubda, eləcə də gündəlik ünsiyyətdə antroponimlərin semantik yükləri, emosional dəyərləri və üslubi çalarları dəyişkənlik göstərir.

Tarixi baxımdan antroponimlər qədim türk tayfa adlarından, dini adlardan, peşə və sosial status bildirən sözlərdən, coğrafi adlardan və şəxsi keyfiyyətlərə işarə edən sözlərdən yaranmışdır. Bu da onların etno-mədəni mənşəyinin və sosial strukturların təzahürü kimi çıxış etməsinə səbəb olur.

Beləliklə, antroponimlərin növləri və kateqoriyaları yalnız leksik sistemin bir hissəsi deyil, həm də dil və mədəniyyətin qarşılıqlı əlaqəsini göstərən göstəricilərdir. Onların öyrənilməsi dilçiliklə yanaşı, etnoqrafiya, tarix, mədəniyyətşünaslıq və sosiologiya üçün də mühüm elmi əhəmiyyət kəsb edir.

Açar sözlər:antroponim, onomastika, ləqəb, soyad, ad kateqoriyaları

TYPES AND MAIN CATEGORIES OF ANTHROPONYMS

Esmira Mammadova
AUI, Departament of Azerbaijani Languistics
E/mail: memmedovaesmira@gmail.com
Orcid İD: 0009-0003-5015-8068

SUMMARY

Anthroponyms — names and name-like units given to individuals — are an important branch of onomastics. These units not only identify people but also reflect

the historical, cultural, religious, and social characteristics of society. The types and categories of anthroponyms are classified based on various criteria: lexical-semantic, morphological, functional, and historical. In the general classification system, anthroponyms are divided into names (proper names), surnames (familyonyms), patronymics, nicknames, pseudonyms, and relational names. These categories are interconnected and often arise in specific cultural-geographical contexts. Modern studies show that anthroponyms differ not only phonetically and grammatically, but also stylistically and functionally. Their semantic load and emotional tone vary across literary, journalistic, and everyday use. Historically, they originated from tribal names, religious terms, professions, geographic names, and personality traits — reflecting their ethno-cultural and social functions. Thus, anthroponyms are indicators of the interplay between language and culture, and their study holds significance not only for linguistics but also for ethnography, history, and sociology.
Keywords: anthroponym, onomastics, pseudonym, nickname, name categories

ВИДЫ И ОСНОВНЫЕ КАТЕГОРИИ АНТРОПОНИМОВ

Эсмира Мамедова
АУЯ, кафедра Азербайджанского языкознания
E/mail: memmedovaesmira@gmail.com
Orcid İD: 0009-0003-5015-8068

РЕЗЮМЕ

Антропонимы — это имена и именные единицы, присваиваемые человеку, — являются важным направлением ономастики. Эти единицы не только идентифицируют личность, но и отражают исторические, культурные, религиозные и социальные особенности общества. В зависимости от различных критериев (лексико-семантических, морфологических, функциональных и исторических) антропонимы делятся на определённые виды и категории. В общей классификации различают собственные имена, фамилии (фамильонимы), отчества (патронимы), прозвища, псевдонимы и нисбы (родовые обозначения). Эти категории часто пересекаются и формируются в определённых культурно-географических контекстах.

Современные исследования показывают, что антропонимы отличаются не только по фонетике и грамматике, но и по стилистическим и функциональным признакам. Их семантическая нагрузка и эмоциональная окраска варьируются в зависимости от жанра (художественный текст, публицистика, повседневная речь). Исторически антропонимы происходят от названий племён, религиозных терминов, профессий, географических объектов и личных качеств. Таким образом, они являются отражением взаимодействия языка и культуры и представляют интерес для лингвистики, этнографии, культурологии и социологии.

 ISSN 2224-9257

Ключевые слова: антропоним, ономастика, псевдоним, прозвище, категории имён..

Giriş.

Ümumiyyətlə, antroponimik kateqoriyalar müasir Azərbaycan dilinin lüğət tərkibində iki formada işlənir: a) Əsas adlar- rəsmi sənədlərdə qeyd olunanlar. Məsələn; Qurbanov Adil Məmməd oğlu və s.

b) Köməkçi adlar-yalnız nitqdə, məişətdə işlənənlər. Məsələn Topal teymur, Yetim Əhməd və s.

Antroponimik sistemə daxil olan hər bir adın öz səciyyəvi cəhətləri var. Məsələn; Şəxs adları insana valideynləri, yaxınları tərəfindən verilir. Adların verilməsində. Seçilməsində də fərqlər var. islamaqədərki dövrdə şəxs adları əsasən, ümumi sözlərdən yaranırdı. Gün, Ay, Toprak, Dəniz, Himalay və s. bu system müasir dövrdə də işləkliyini qoruyub saxlamışdır [Qurbanov A. 2019: 78].

Eyni zamanda qədim dövrdə heç adlar təsadüfən qoyulmamış, "Dədə Qorqud"da gördüyümüz kimi, yalnız gənclərə bir xeyirli bir iş gördükdən sonra, bir igidlik göstərdikdən sonra verilmişdir. Məsələn; Basat, Beyrək, Buğac adlarında olduğu kimi.Dədə Qorqud: -Buğa yıxdın adını qoydum Buğac. Adını mən qoydum, yaşını tanrım versin [Nuriyeva M. 1999: 38-45]

İkinci istiqamət, ərəb dilinin, islamın qəbulu ilə bağlı olan dini adların işlənməsidir. Məsələn; Əli. Həsən. Hüseyn, Məryəm, Fatimə və s.

Sovet dövründə isə cəmiyyətin siyasi-ictimai-elmi inkişafının nəticəsi olaraq körpələrə sanki elmi nəticələrə əsaslanan, texniki tərəqqi ilə bağlı, ideoloji adlar verilirdi. Məsələn: Marks, Lenin-Ninel; kombayn, tractor, Təyyar (ə), kolxoz, Şura və s. saxlamışdır [Qurbanov,2019: 92].

Qeyd etmək lazımdır ki, müstəqilliyimizi əldə etdiyimiz son illərdə covet dövründən fərqli olaraq islami-dini adlara yenidən maraq artmışdır. Son illərdə körpələrə verilən adlar sırasında Əli, Məhəmməd, Hüseyn, Fatimə, Ayişə və s. adlar üstünlük təşkil edir.

Familiyalar, əsasən, ata xətti ilə keçir. Lakin onun da cpesifik cəhətləri vardır. Yəni ilk qədim dövrlərdə familiyalar olmamışdır. Insanlar atalarının, nadir hallarda isə analarının adı ilə çağırılmışlar. Məsələn; Kürdoğlu, Həsənoğlu, Məmmədoğlu və s.

Familiya sözü ingilis dilindəki fəmili (family)-ailə sözündəndir. Eyni ailədən olanlar, eyni nəslin üzvləri mənalarını ifadə edir. XIX əsrə qədər familiyalar olmamış, yalnız Rusiya ilə əlaqələr yarandıqdan sonra dilimizə familiyalar daxil olmuşdur. Məs., Əliyev, Məmmədov və s.

Familiyalarla bağlı müxtəlif fikirlər mövcuddur. Ruslara familiyaların verilməsi türklərlə əlaqələndirilir. Guya, heyvanların adlarını türklərin ərazilərində yaşayan ruslara soyad kimi veriblər. Məsələn; Medvedyev, Volkov və s. [Əliyev, 2010: 33].

Bəzi qeyri-dəqiq məlumatlara görə isə, guya türklərə familiyalar ruslardan keçib: Həsənov, Qasımova və s.

Lakin son illərin tədqiqatlarında dilçi alimlərin gəldiyi qənaət belədir ki, bu soyadların formalaşması tarixi fərqlidir. Yəni Əli kişinin ailə üzvləri kəndin bir səmtində yan-yana ev tikib yaşamışlar, ona görə də ərazi Əli+evli+lər, Həsən+ev+li+lər və s. yaranmışdir [Qurbanova F.. 2001: 56].

Antroponimləri təsnif edərkən real və uydurma (qeyri-real) adlara da bölmək doğru olar. Çünki real adlar artıq dilimizdə mövcud olan, sabitləşmiş adlardır. Antroponimik lüğətlərdə əksini tapıb. Qeyri-real adları isə ya valideynlər, ya da yazıçılar özləri uydururlar. Məsələn; Altunsaç, Altunay, Gilə, Qaragilə və s.

Bədii əsərlərdə işlənmiş antroponimlər də real və uydurma olaraq iki yerə bölünür. Yazıçı baş, müsbət qəhrəmanlara müsbət, real və özünün çox sevdiyi adları verir. Məsələn N.Vəzirovun bir neçə əsərinin baş qəhrəmanları Fəxrəddin, Səadət adlandırılmışdır. Hətta yazıçı öz övladlarına da həmin adları vermişdir. Və yaxud, Səməd Vurğun çox sevdiyi şair Molla Pənah Vaqifə həsr etdiyi əsərini baş qəhrəmanın adı ilə "Vaqif" adlandırmış, öz oğul övladına da Vaqif adı vermişdir. Hətta rəvayətə görə Qubada bir dostunun evində qonaq olarkən həmin dostunun oğlu olması xəbəri gəlir. S.Vurğunu böyük hesab edən ailə ondan uşağa ad verməsini xahiş edir. Şair bu uşağa da Vaqif adını verir. Məlumdur ki, "vaqif" sözünün də mənası hər elmə bələd olan, elmli, bilikli kimi izah edilir. Şair bütün Azərbaycan övladlarını elmli-bilikli görmək, həm də Molla Pənahın adını əbədiləşdirmək kimi bir missiyanı həyata keçirmək istəmişdir.

Antroponimlər şəxs adlarıdır. Şəxs adları isə bütün xalqlarda olduğu kimi, Azərbaycanda və digər türk xalqlarında da kişi və qadın adlarına bölünür.

1) Kişi adları: müasir Azərbaycan ədəbi dilində 1000-ə qədər kişi adı işlənir (A.Q. səh 29). Kişi adlarının başlıca xüsusiyyəti mərdlik, cəsarət, igidlik, möhkəmlik və s. kimi mənalar əsasında yaranmaqdan ibarətdir. Məsələn, Polad, Mətanət, Dəyanət, Vüqar, Aslan və s.

Kişi adlarının yaranmasında xalqın istək və arzusu, sevinci, kədəri də müəyyən dərəcədə öz əksini tapmışdır. Məsələn; Sevindik, İlkin, Qürbət, Əhsən və s.

2) Qadın adları kişi adları ilə bərabər meydana çıxmışdır. Lakin qadın adları semantic cəhətdən kişi adlarından fərqli xüsusiyyətlərə malikdir. Bu növ adlar, əsasən, zəriflik, mülayimlik, gözəllik kimi hissləri əks etdirir.

3) Adlar sistemində daha bir qrup isə müştərək işlənən adlardır. Həm qadınlara, həm də kişilərə verilə bilir. Məsələn; Arzu, Laçın, Xoşbəxt, Hicran, Şirin, Pərvin və s.

Mir Cəlal "Bir gəncin manifesti" əsərində baş uşaq qəhrəmanını Bahar adlandırmışdır.

I.Şəxs adlarını tərkibinə görə təsnif etsək, belə bir mənzərə alınar:

1)Təksözlü-təkkomponentli şəxs adları. Bu adların tərkibi bir komponentdən ibarət olur, tərkib hissələrinə bölünmür. Məsələn; Əli, Araz, Səlim, Qəmər və s.

2) Çoxsözlü-çoxkomponentli şəxs adları. Tərkibində iki və daha çox sözdən düzəlmiş adlar. Çoxkomponentlik daha çox kişi adlarında özünün göstərir. Bu adların tərkibində "ağa, xan, bəy, qulu, oğlan, şah, hacı, məşədi və s." köməkçi sözlər işlənir.

II. Şəxs adlarının qrammatik xüsusiyyətləri. Şəxs adlarının qrammatik cəhətlərindən danışsaq, ilk növbədə, onların hansı nitq hissələrindən düzəlməsi məsələsi ön plana gəlir:

-Sifətdən düzələnlər: Qara, Qaraş, Sarı, Gözəl, Yaxşı və s.

-Feildən düzəlmiş adlar: Yetər, Anar, Qorxmaz, Elsevər, Dursun və s.

III. Mənşəyinə görə şəxs adlarının təsnifatı.

Dilimizdə türk mənşəli adlar olsa da, alınma. əcnəbi adlar da üstünlük təşkil edir.

Milli adlar- Sevinc, Sevər, Yetər, Tapdıq, Daşdəmir, Dəniz, Bayram, Sevil, Könül, Qızxanım və s.

Alınma adlar, əsasən, dini adlardır, islamın qəbulu ilə bağlı olaraq dilimizə keçmişdir. Bəzən bu adların kombinasiyasından da yeni adlar formalaşmışdır. Məsələn; Əli, Həsən, Hüseyn, Məhəmməd, Məhəmmədəli, Həsənəli və s.

Bəzi adlara diqqət etdikdə onların bir hissəsinin milli, digər komponentin isə alınma olduğunu görürük. Belə adlar hibrid adlardır. Məsələn; Həsənxan, Əlibəy, Əlixan və s.

Şəxs adlarını semantik cəhətdən araşdırdıqda yenə bir neçə istiqamətdə formalaşdığının şahidi oluruq. Bunlar aşağıdakılardır:

1)Toponimlərlə bağlı olanlar: Altay, Qafqaz, Elbrus və s. Belə adlar topoantroponim adlanır.

2) Hidronimlərlə bağlı yaranmış hidroantroponimlər: Araz, Xəzər və s.

3) Zooantroponimlər-heyvan adları ilə bağlı yarananlar: Ceyran, Aslan, Kəklik, Laçın və s.

4)Bitki adları ilə bağlı yaranmış fitotoponimlər: Yasəmən, Qızılgül, Nərgiz, Gilas, Almaxanım və s.

5)Səma cisimlərinin adları əsasında yarananlar-kosmoantroponimlər: Ulduz, Venera, Günəş, Aygün, Aytəkin və s.

6) Daş-qaş adları ilə bağlı yaranan ktemato-antroponimlər: Yaqut, Firuzə, Brilyant, İnci, Zümrüd və s.

7)Arzu-istəklə bağlı yaranan şəxs adları: Arzu, Xəyal, Kifayət, Tamam, Yetər və s.

Bu cür nümunələrin sayını istənilən qədər artırmaq mümkündür. Uşaqlara gözəl adların verilməsi hər zaman diqqət mərkəzində olmalıdır. Prof.A.Qurbanov yazırdı ki, uşaqlara verilən adlar valideynin övlada ilk və ən böyük hədiyyəsidir. Elə bir ədiyyədir ki, insan onu doğulandan ölənəcən özü ilə daşımağa məcburdur. Müasir dövrdə uşaqlara gözəl ad qoyma məqsədilə antroponimlər lüğətləri yaradılmışdır. Lüğətlərdən gözəl adların seçilməsi həm doğulan körpəyə ilk və ən gözəl hədiyyədir.

Həm də bunun nəticəsində adların təkrarlarının qarşısını almaq da mümkündür. Advermə özü də xalqın mədəni səviyyəsinin göstəricilərindən biridir.

Nəticə /Conclusion

Müasir dövrdə isə advermə praktikasında ənənə ilə yeniliyin sintezi, qlobal ad modellərinin təsiri və fərdiləşmə meyli müşahidə olunur. Bu da antroponimikanın statik deyil, dinamik bir sistem olduğunu bir daha sübut edir.

Nəticə olaraq qeyd etmək olar ki, antroponimik sistemin öyrənilməsi yalnız dilçilik baxımından deyil, etnoqrafiya, tarix, sosiologiya, psixologiya və mədəniyyətşünaslıq sahələri üçün də mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, antroponimlərin sistemli şəkildə tədqiqi və toplanması dilimizin və kimliyimizin qorunması üçün strateji əhəmiyyət daşıyır.

Ədəbiyyat

1.Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Şərq-Qərb.-2006. I c. -744 səh

2. Əliyev, H. (1985), Ümumi antroponimika problemləri, Bakı:

3. Hacıyeva, N. (2020), Azərbaycan dilində ləqəblərin üslubi xüsusiyyətləri. Bakı: ADPU,Linqvistika problemləri,c.1.N2. səh 29-47

4. . Hüseynova H.Onomalogiyanın bəzi nəzəri məsələləri. Bakı: 103 səh.

5. Qocayeva, N.(2021), Təxəllüslərin üslubi-linqvistik xüsusoyyətləri. Bakı: Azərbaycan dili və ədəbiyyatın tədrisi jurnalı.N4, səh.35-44.

6.İbrahimova, S. (2024), Onomastik terminlər və onların semantic xüsusiyyətləri, Bakı: "Azərb.dili və ədəbiyyatın tədrisi"jurnalı.N1. səh.47-53

7.Qurbanov A. (2019), Azərbaycan onomologiyasının əsasları. I c. Bakı: -280 səh.

8.Qurbanov A. (2019), Azərbaycan onomalogiyasının əsasları. II c. Bakı: -432 səh.

9.Qurbanova F. (1997), Oğuz mənşəli türk dillərində antroponimlər sistemi. "Dilçilik" jurnalı, № 3, 1997. Səh. 28-33

10.Qurbanova F. (2001), Antroponimiyanın nəzəri məsələlərinə dair. Bakı: -136 səh.

11.Nuriyeva, M. (1999),Rus bədii ədəbiyyatında əski türk mənşəli adlar. AOP, № 7, səh.28-35

12. Paşayev, A. (2016). Azərbaycan təxəllüsşünaslığının ısasları. Bakı: -270 səh.

13.Баскаков Н.А.(1962), Введение в изучение тюркских языков. Москва: -386 стр.

14. https://azleks.az/online-dictionary/m%C3%BC%C5%9Ffiq

Rəyçi: f.e.d.professor Həcər Hüseynova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

Azərbaycan Tibb Universiteti
Dosent QADAŞOVA AYBƏNIZ AZIK qızı
agadashova@amu.edu.az
ORCID: 0009-0003-1033-1620
Dosent RƏHIMOVA GÜLNARƏ SAHIB qızı
grehimova@amu.edu.az
ORCİD: 0009-0007-4549-4285

İKİDİLLİLİYİN SOSİOLİNQVİSTİK VƏ PSİXOLİNQVİSTİK ASPEKTLƏRİ

Açar sözlər: *ikidillilik, sosiolinqvistika, psixolinqvistika, dil emalı, kod dəyişməsi, ana dili, dil siyasəti*

X Ü L A S Ə

Bu məqalədə ikidillilik anlayışının sosiolinqvistik və psixolinqvistik tərəfləri geniş şəkildə təhlil olunur. Sosiolinqvistik aspektdən ikidillilik fərdin yaşadığı mühit, cəmiyyətin dil siyasəti, sosial status və ailə dili ilə sıx bağlıdır. Bu cür dillilik multikultural cəmiyyətlərdə ünsiyyət və inteqrasiyanı asanlaşdırır, lakin ana dilinin zəifləməsi təhlükəsini də yaradır. Psixolinqvistik baxımdan isə ikidillilik insan beynində dil sistemlərinin paralel fəaliyyəti ilə xarakterizə olunur. Bu vəziyyət fərdin yaddaş, diqqət, problem həll etmə və düşünmə qabiliyyətlərini gücləndirə bilər. Eyni zamanda erkən yaşlarda iki dili eyni zamanda öyrənmək bəzi linqvistik çətinliklərə səbəb ola bilər. Məqalədə ikidilliliyin üstünlükləri və problemləri istinadlı şəkildə şərh edilir. Qeyd olunur ki, ikidilliliyin effektiv inkişafı üçün həm sosial mühit, həm də dilə münasibət düzgün tənzimlənməlidir.

Gadashova Aybeniz Azik gizi
Rahimova Gulnara Sahib gizi

SOCIOLINGUISTIC AND PSYCHOLINGUISTIC ASPECTS OF DYNAMICITY

S U M M A R Y

Keywords: *bilingualism, sociolinguistics, psycholinguistics, language processing, code-switching, native language, language policy*

This article analyzes the sociolinguistic and psycholinguistic aspects of bilingualism. From a sociolinguistic perspective, bilingualism is closely linked to the environment in which a person lives, language policy, social status, and family language use. It facilitates communication and integration in multicultural societies, although it may pose a risk to the native language. From a psycholinguistic angle, bilingualism reflects the parallel functioning of two language systems in the brain, which can enhance memory, attention, and cognitive flexibility. However, early

simultaneous bilingualism may also lead to some linguistic challenges. The article emphasizes that successful bilingual development requires supportive social conditions and positive language attitudes.

Доцент Гадашова Айбениз Азик кызы
Доцент Рагимова Гюльнара Сахиб кызы

СОЦИОЛИНГВИСТИЧЕСКИЕ И ПСИХОЛИНГВИСТИЧЕСКИЕ АСПЕКТЫ ДИНАМИЧНОСТИ

Р Е З Ю М Е

Ключевые слова: *билингвизм, социолингвистика, психолингвистика, обработка языка, переключение кодов, родной язык, языковая политика*

В данной статье подробно анализируются социолингвистические и психолингвистические аспекты билингвизма. С социолингвистической точки зрения билингвизм тесно связан с языковой политикой общества, социальным статусом и языком семьи. Он способствует интеграции в поликультурных обществах, но может привести к вытеснению родного языка. С психолингвистической точки зрения билингвизм означает параллельное функционирование двух языковых систем в мозгу, что способствует развитию памяти, внимания и мышления. Однако одновременное освоение двух языков в раннем возрасте может вызывать трудности. В статье подчеркивается важность правильной социальной среды и позитивного отношения к языкам для успешного развития билингвизма.

Sosiolinqvistik baxımdan ikidilliliyin cəmiyyət və sosial statusla əlaqəsi, psixolinqvistik baxımdan isə fərdin dil emalı və yaddaş proseslərinə təsiri təhlil olunur.

İkidillilik (bilingvalizm) bu gün dünyada geniş yayılmış dil hadisəsidir. Bu fenomen təkcə fərdi dil bacarığı deyil, eyni zamanda cəmiyyətin sosial quruluşu və mədəniyyətləri arasında əlaqə vasitəsidir. Məqalədə ikidilliliyin həm sosiolinqvistik, həm də psixolinqvistik aspektləri təhlil olunur.

Sosiolinqvistik baxımdan ikidillilik fərdin sosial çevrəsi, ailəsi, təhsili və yaşadığı cəmiyyətin dil siyasəti ilə sıx bağlıdır. Cəmiyyətlərdə funksional, balanslı və ya dominant ikidillilik formaları müşahidə olunur. İkidilliliyin geniş yayılması multikultural cəmiyyətlərdə inteqrasiyanı asanlaşdırır, amma ana dilinin sıxışdırılması riski da mövcuddur.

Psixolinqvistik baxımdan psixolinqvistika sahəsində aparılan tədqiqatlar göstərir ki, ikidilli fərdlərdə iki dil sistemi arasında daim qarşılıqlı əlaqə mövcuddur (Hamers Blanc, 2000). Bu, beyin fəaliyyətinə, yaddaşa, düşüncəyə və emosional inkişaflara təsir edir (Valian, 2015). Şagirdlər və tələbələr ikidilli mühitdə daha çevik düşüncə və problem həll etmə bacarıqları nümayiş etdirirlər (Cummins, 2000; Hacıyeva, 2018). Lakin erkən yaşlarda iki dili eyni vaxtda öyrənən şagirdlərdə qarışıqlıq və gecikmə halları da mümkündür.

İkidillilik yalnız dil məsələsi deyil, həm də şəxsiyyətin formalaşmasına və sosial inteqrasiyaya təsir edən bir prosesdir. Onun effektivliyi sosial mühitin dəstəyi, təhsilin keyfiyyəti və dil siyasətindən asılıdır (Abbasova, 2016). Azərbaycanda ikidilliliyin düzgün idarə olunması üçün həm pedaqoji, həm də sosiolinqvistik yanaşmalar inkişaf etdirilməlidir.

İkidillilik (bilingualizm) müasir cəmiyyətlərdə geniş yayılmış dil hadisəsidir və həm fərdi, həm də sosial səviyyədə müxtəlif funksiyalara malikdir. Bu məqalədə ikidilliliyin sosiolinqvistik və psixolinqvistik aspektləri təhlil olunur. Sosiolinqvistik baxımdan ikidillilik cəmiyyət daxilində dil siyasəti, sosial status və kommunikativ ehtiyaclarla bağlı öyrənilir. Psixolinqvistik baxımdan isə bu fenomenin insan beynində dilin işlənməsi, yaddaş və dil arasında əlaqə, həmçinin uşaqlarda dilin qazanılması prosesindəki rolu araşdırılır.

İkidillilik (bilingualizm) dünyada milyonlarla insanın həyat tərzində əksini tapan dil fenomenidir. Bu anlayış təkcə iki dilin istifadəsi ilə məhdudlaşmır, həm də sosial, psixoloji və mədəni çalarları əhatə edir. Məqalədə ikidilliliyin sosiolinqvistik və psixolinqvistik aspektləri araşdırılır. İkidilliliyin cəmiyyətə və şəxsiyyətə təsiri, dilin sosial funksiyaları və insan beynində iki dilin paralel işlənməsi məsələləri diqqət mərkəzində saxlanılır.

1. Sosiolinqvistik aspektlər

Sosiolinqvistika baxımından ikidillilik fərdlərin və ya toplumların iki dili funksional şəkildə istifadə etməsini bildirir. İkidilliliyin növlərinə görə, fərdi və cəmiyyət səviyyəsində fərqli yanaşmalar mövcuddur:

- Fərdi ikidillilik: Bir şəxsin gündəlik həyatında iki dili istifadə etməsi.
- Cəmiyyət ikidilliliyi: Bir ölkədə və ya regionda rəsmi və qeyri-rəsmi olaraq iki dilin işlək olması (Mackey, 1967).
- Akademik nailiyyətlərə müsbət təsir göstərir.
- Multikultural dünyagörüşü formalaşdırır.
- Peşə imkanlarını genişləndirir.

Çətinliklər:

- Dil qarışıqlığı (xüsusilə erkən yaşlarda).
- Ana dilin zəifləməsi riski.
- Dil ayrımına görə sosial və psixoloji təzyiqlər.

(Genesee, 1987; Grosjean, 1982)

2. Psixolinqvistik aspektlər

Psixolinqvistika sahəsində ikidillilik beyin və dil arasındakı əlaqə fonunda öyrənilir. İki dili bilən şəxslərdə yaddaş, diqqət və dil emalı mexanizmləri daha kompleks şəkildə formalaşır. Araşdırmalara görə, ikidilli uşaqlar erkən yaşdan diqqət və düşünmə çevikliyinə daha çox malik olurlar (Bialystok, 2001).

İkidilliliyin formalaşmasında əsas amillər bunlardır:

- Dil öyrənmə yaşı (kritik dövr hipotezi): Uşaqlıqda dil öyrənmək daha uğurlu nəticə verir.

- Dil istifadə tezliyi: Daha çox istifadə olunan dil dominant hala gəlir.
- Emosional bağlılıq və motivasiya: Ana dilə və ikinci dilə münasibət fərqlidir.

3. İkidilliliyin üstünlükləri və problemləri

Üstünlüklər:
- Beyin plastikasını artırır.

4. Təhsildə ikidilliliyin rolu

Təhsil sistemində ikidilliliyin tətbiqi həm ana dili, həm də ikinci dilin inkişafını təmin edən mühüm vasitədir. İmmersiya (immersive) proqramları, yəni bir dildə tədris aparılan və digər dilin mühitdə təbii öyrənildiyi metodlar vasitəsilə şagirdlər hər iki dili funksional şəkildə mənimsəyə bilirlər (Cummins, 2000). Bu tip proqramlar Kanada, Finlandiya və bir sıra Avropa ölkələrində uğurla tətbiq olunur.

Azərbaycan kontekstində rus dili və bəzi azsaylı xalqların dilləri ilə yanaşı, ingilis dili də ikinci dil olaraq məktəblərdə və ali təhsil müəssisələrində geniş şəkildə tədris olunur. Bu isə şagirdlər və tələbələr arasında ikidilliliyin yayılmasına səbəb olur. Bununla belə, ikidillilik siyasəti düzgün idarə olunmazsa, ana dilin arxa plana keçməsi təhlükəsi də mövcuddur (Skutnabb-Kangas, 2000).

5. İkidilliliyin növləri və praktik formaları

İkidillilik tək bir formada olmur, müxtəlif təsnifatlara əsasən aşağıdakı kimi bölünə bilər:
- Koordinativ ikidillilik: Hər iki dilin ayrı-ayrı semantik sistemlərlə işlənməsi.
- Kompozit ikidillilik: İki dilin eyni semantik sistem daxilində qarışıq şəkildə istifadə olunması.
- Balanslı ikidillilik: Fərdin hər iki dildə eyni səviyyədə ünsiyyət qura bilməsi.
- Dominant ikidillilik: Bir dilin digəri üzərində üstünlük təşkil etməsi.

Bu təsnifat psixolinqvistik analizlər zamanı xüsusilə əhəmiyyətlidir, çünki fərdin hansı tip ikidilli olması onun beyin fəaliyyətinə və dil bacarıqlarına təsir edir (Hamers & Blanc, 2000).

6. İkidillilik və şəxsiyyətin formalaşması

İkidillilik yalnız dil bacarığı deyil, həm də mədəniyyətlərarası şəxsiyyətin formalaşmasına təsir edən faktordur. İki dili və iki mədəniyyəti mənimsəyən fərdlər daha tolerant, çevik və empatiya qabiliyyəti yüksək olur. Psixoloji tədqiqatlar göstərir ki, ikidilli uşaqların özünəinam səviyyəsi, problem həll etmə bacarığı daha yüksək ola bilər (Baker, 2011).

Nəticə

İkidillilik yalnız dil praktikası deyil, həm də sosial və psixoloji mühitin məhsuludur. İkidilli fərdlər fərqli mədəniyyətlərə adaptasiya olma, dil çevikliyi və analitik düşüncə baxımından üstünlük qazana bilirlər. Cəmiyyətlərdə ikidilliliyin dəstəklənməsi, təhsil və ailə mühitində balanslı yanaşma bu fenomenin müsbət nəticələrini artırır.

Azərbaycanın bəzi bölgələrində, xüsusilə rusdilli və talış, ləzgi dilli əhalinin yaşadığı yerlərdə bu cür ikidillilik müşahidə olunur. Bu tip cəmiyyətlərdə dil seçimi,

kod dəyişməsi (code-switching), diglossiya və dil dəyişməsi (language shift) kimi sosiolinqvistik hadisələr baş verir (Fishman, 1972).

Azərbaycan cəmiyyətində ikidillilik məsələsi xüsusilə mühüm aktuallıq daşıyır. Dil siyasətində tarazlıq qorunmalıdır ki, ana dilinin mövqeyi zəifləməsin, eyni zamanda qloballaşmanın tələblərinə cavab verən ikinci dil biliyi də təmin olunsun. Bu baxımdan, ikidilliliyin düzgün istiqamətdə idarə olunması təhsil, media və ailə mühitində balanslı yanaşma tələb edir.

Ə D Ə B İ Y Y A T S İ Y A H I S I

1. Əliyeva S. (2015). İkidillilik və onun sosial-linqvistik aspektləri. Bakı: Təhsil.
2. Quliyev Ə. (2010). Azərbaycan dilində ikidillilik məsələləri. Bakı: Elm və Təhsil.
3. Hacıyeva T. (2018). "İkidilliliyin uşaqların psixoloji inkişafına təsiri", Dil və Ədəbiyyat, №4, s. 56–62.
4. Məmmədova R. (2020). Sosiolinqvistika. Bakı: ADPU Nəşriyyatı.
5. Abbasova L. (2016). "İkidillilik: üstünlüklər və çətinliklər", Müasir Təhsil Problemləri, №2, s. 24–30.
6. Baker C. (2011). Foundations of Bilingual Education and Bilingualism. Multilingual Matters.
7. Hamers J.F., Blanc M.H.A. (2000). Bilinguality and Bilingualism. Cambridge University Press.
8. Cummins J. (2000). Language, Power and Pedagogy. Multilingual Matters.
9. Skutnabb-Kangas T. (2000). Linguistic Genocide in Education. Lawrence Erlbaum.
10. Grosjean F. (1982). Life with Two Languages. Harvard University Press.
11. Wei L. (2007). The Bilingualism Reader. Routledge.
12. Romaine S. (1995). Bilingualism. Blackwell.
13. Valian V. (2015). "Bilingualism and Cognition", Perspectives on Psychological Science, Vol. 10(1), pp. 6–21.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru E.A.Məmmədova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

Phd JAHANGIRLI TABARRUK FARRUKH
Azerbaijan Technical University
Head teacher of the Department of Foreign Languages
tabarruk.cahangirli@aztu.edu.az
https://orcid.org/0009-0004-4340-756X

STRUCTURAL-SEMANTIC FEATURES OF VERB PHRASEOLOGICAL COMPOUNDS

Introduction. Verb phraseological combinations are functionally verb-specific compounds, that is, the main component of which is expressed by a verb. Verb phraseological combinations are stable word combinations, the core of which is a verb, and within these combinations the meaning of lexemes is fully or partially metaphorized [10]. As we know, the verb forms the core of the sentence structure, and it is the verb that determines the composition of the sentence and the components of the verb message. Therefore, when studying verb phraseological combinations from a structural-semantic perspective, we consider it necessary to analyze them not outside the text, but within a certain text framework, and also to consider the functions that these combinations perform in the stylistic enrichment of the text. We will try to analyze the structural-semantic study of verb phraseological combinations, the models on which they are built, and the semantic meanings expressed by these combinations through selected examples from the novel "Jenny Herhardt" written by the famous American writer T. Dreiser in 1911. Verb phraseological combinations, which are quantitatively the majority in English, are also distinguished by their diversity in terms of the meaning they express. Thus, these combinations describe various situations and specific actions that we encounter in life, which have a wide scope.

A thorough study of phraseological combinations used in English from a structural and semantic point of view is associated with the name of Professor A.V. Kunin. The meaning of verb phraseological combinations undergoes a complete or partial change (metaphoricalization). The main means of metaphoricalization of meaning are metaphor, metonymy and comparison. The figurative meaning expressed by motivated verb phraseological combinations is not completely isolated from the individual lexical meanings expressed by their constituent parts. The meaning of such combinations can be understood as the complex meaning of their constituent parts within the combination [5].

Mrs. Herhardt had not thought this would be left to her, but need emboldened her. [9, p.5]

I didn't want to do her any harm if I could help it [9, p.162].

In the examples we have mentioned, the meaning of phraseological units is considered motivated, since the meaning of these units is close to the meaning of

their constituent parts. Thus, the combination "to be left to somebody" is translated as "to leave to someone", and "to do somebody a harm" is translated as "to do harm to someone", which is also reflected to some extent in the constituent parts of the unit.

The meaning of motivated verb phraseological units is not related to the meaning of its constituent parts. The explanation of this type of phraseological units is connected with a number of linguistic and extra-linguistic factors.

It was like his brother to come down to "brass tacks" [9, p.229]

"Have you burned your bridges behind you?" she asked [9, p. 286].

When we look at the meanings expressed by the examples given above, it becomes clear that the combination "to come to brass tacks" can be translated as "to go into detail", and the combination "to burn one's bridges behind" can be translated as "there is no turning back", so the general meaning of these combinations does not show any connection with the meaning of their constituent parts.

Verb phraseological combinations can be structurally two-peaked and three-peaked. In English, two-peaked phraseological combinations are the majority. Two-peaked phraseological combinations can be built on various structural models, and the components of these combinations are connected to each other by both subordination and insubordination. Verb phraseological combinations of this type can be built on the basis of the following structural models:

Verb+article+ Noun: the article used in this structural model can be a definite or indefinite article.

Mrs. Dodge is waiting to have a word with you [9, p.286].

"Well, we all had a hand in it", replied O'Brien, a little shamefacedly [9, 225].

Verb + Noun: Verb phraseological combinations based on this model are also plural in English. In this case, nouns used as the second component of the combination can be singular or plural depending on the combination they are used in:

The newspapers would get hold of the whole story [9, p.230]. When I first met Jennie I thought her the most entrancing girl I had ever laid eyes on [9, p.256]. If one seeks to give ear to the winds, it shall be well with his soul, but they will seize upon his possessions [9, p.14].

Verb + "like" conjunction + article + noun: the first component of the two-syllable verb phraseological units built on this structural model is used literally, they retain their individual lexical meanings within the unit. The other component strengthens, clarifies the meaning of the first component, and distinguishes it semantically from other words. The main feature of comparative verb phraseological units is that the first component of these units is expressed mainly by words of Anglo-Saxon origin and mainly one-syllable words: to bleed, to chatter, to drink, to drop, to eat, to feel, to grin, to hate, to lie, to live, to look, to run, to shake, to sing, to

sleep, to smoke, to spread and other verbs of English origin can be used as the first component of this type of phraseological units.

He had a successful life, and had fallen like a ripe apple from the tree [9, p. 223]. "No, you hush," she would reply, for at times he could cut like a knife without really meaning to be unkind [9, p.314].

• Verb + preposition + article + noun: verb phraseological combinations based on this model are also prevalent in modern English, and analysis of linguistic materials shows that these combinations are distinguished by their intensity of use in the language.

Some of her big thoughts never come to the surface at all, but you can feel that she is thinking and that she is feeling [9, p.257].

They could not talk very freely because of Vesta and Jeannette, but she managed to get in a word or two [9, p.275].

"I'm not ready to come to a decision," was his invariable reply [9, p.276].

Jennie nervously pushed a book to and fro on the table, her fear that she would not be able to keep up appearances troubling her greatly [9, p.274].

Phraseological combinations, three of whose components are expressed by main parts of speech, are called triadic phraseological combinations. Although triadic verb phraseological combinations are a minority in modern English compared to diadic verb phraseological combinations, they are also built on the basis of various structural models. Sometimes, however, these combinations may contain three or more components expressed by main parts of speech. These components are connected to each other through a subordination relationship.

Verb + pronoun + noun: The main characteristic of verb phraseological combinations built on this model is that in most cases the definite pronoun "all" is used before the noun in this combination. Letty was all ears for his troubles [9, p.286].

The combination "to be all ears" used in the given example can be translated as "to shape the ears". This shows that this type of combinations has found its expression in Azerbaijani to some extent.

He had decided to tell her not to think anything of it – that it did not make much difference, though to him it made all the difference in the world [9, p.221].

The combination used in the given example can be understood as "to take on great importance".

She went about among these various rooms selecting this rug, that set of furniture, this and that ornament, wishing all the time with her heart and soul that it need not be [9, p.279].

Jennie looked with all her eyes, her heart gripped by pain [9, p.324].

The translation of these combinations once again proves that in some cases they serve to strengthen the meaning, to express the idea in a more expressive way: "to wish with all one's heart and soul" – "to wish with all one's heart and soul", "looked with all one's eyes" – "to look with all eyes".

Verb + article + adjective + noun: the main component of verb phraseological combinations based on this model is the noun, because in these combinations the adjective is always syntactically dependent on the noun. In these combinations the noun is always used in the singular, and in this case the noun can be used with or without the definite and indefinite article.

They touched the deep chord of melancholy in her, and made it vibrate through the depths of her being [9, p.324].

All the little companies that he investigated were having a hand-to-mouth existence, or manufacturing a product which was not satisfactory to him [9, p.254].

The original announcement in the newspapers had said that he was to be married in April, and she had kept close watch for additional information [9, p. 297].

As can be seen from the examples, these combinations semantically describe a person's state, attitude, and inner world. This can be clearly seen from the translation of the combinations used in the examples: "to touch the deep chord – üreininin sarı simlırına töçmak", "to have a hand-tomouth existence – bir garni ac, bir garni tox dolanmaq, güçlə dolanmaq", "to keep close watch – çərçələr ekam, öz gərçəli altinda tələr".

• Verb + (pronoun) noun + preposition + (pronoun) noun: these types of combinations syntactically express an object-adverb relationship.

I wash my hands of the whole thing [9, p.69]. Then she took her courage in both hands, and went to meet him [9, p. 16].

If you touch me with that whip I'll take things into my own hands [9, p.103].

Conclusion . As can be seen from the examples, these combinations express completely different semantic meanings: "to wash one's hands of the whole thing" - to take one's hand back, "to take one's courage in both hands" - to gather one's courage, "to take things into one's own hands" - to take responsibility directly. These types of combinations express a person's attitude to an event, their reaction, and their feelings and emotions.

LITERATURE

1. Bayramov H.A. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978
2. Vəliyeva N. Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət. 3 cilddə. Bakı: Azərnəşr, 2010.
3. Кунин А.В. Английская фразеология: Теоретический курс. М.: Высш. Шк., 1986, 326 с.
4. Кунин А.В. Фразеология современного английского языка. М.: Международ. отношения, 1972, 344 с.
5. Кунин А.В. Курс фразеологии современного английского языка. Дубна: 2005, 488 с.
6. Ухтомский А. В. Английские фразеологизмы в устной речи. М.: 2005, 128 с.
7. Arnold İ.V. The English Word. Moscow, 1986, 295 pp.
8. Babich Q.N. Lexicology: A Current Guide. Moscow, 2010.
9. Dreiser Th. Jennie Gerhardt. USA: Boni and Liveright, 1911, 326 pp.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

СТРУКТУРНО – СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ГЛАГОЛЬНЫХ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ

Доктор философии по филологии
Джахангирли Табаррук Фаррух
Азербайджанский технический университет
Преподаватель кафедры иностранных языков
tabarruk.cahangirli@aztu.edu.az
https://orcid.org/0009-0004-4340-756X

РЕЗЮМЕ

Эта статья раскрывает структурно-семантические фразеологические единицы. Примеры были взяты из романа «Дженни Герхардт» Теодора Драйзера. Это начинается с анализа глагольных фразеологических единиц в аспекте выяснения правил их структурного моделирования. Соответственно, глагольные фразеологизмы подразделяются на двухвершинные и трехвершинные фразеологические единицы. По их семантическим и функциональным особенностям глагольные фразеологические единицы определяются как немотивированные словосочетания, где глагол является ядром фразеологической единицы. Ключевые слова: словосочетания, фразеологические сочетания, двухвершинные и трехвершинные фразеологические единицы

В статье подробно рассматриваются фразеологические единицы. Компоненты, составляющие фразеологические единицы, являются частями единого целого и тесно взаимосвязаны. Более того, эти компоненты часто занимают фиксированное положение.

В статье также рассматриваются основные признаки фразеологических единиц. Фразеологические единицы обладают множеством особенностей. Объективное изучение функциональных особенностей фразеологических единиц фактически связано с их внутренней формой и семантической целостностью. Невозможно говорить о моделировании без изучения внутренней формы фразеологизма и уделения ей особого внимания. Структурно-семантические модели фразеологической единицы, в свою очередь, позволяют в полной мере раскрыть её сущность. Некоторые фразеологические единицы могут быть разложены на свободные словосочетания с тем же лексическим составом.

Также подробно рассматриваются типы значений фразеологических единиц. Фразеологические единицы подразделяются на типы по степени семантической целостности: слияние, спряжение, сочетание. В статье также

рассматривается путь развития фразеологических единиц при изучении фразеологических единиц.

STRUCTURAL AND SEMANTIC FEATURES OF VERBAL PHRASEOLOGICAL UNITS

SUMMARY

This article deals with the structural – semantic features of verbal phraseological units. The analyzed material was taken by the entire selection of the mentioned type of phraseological units from the novel "Jennie Gerhardt" by Theodore Dreiser. It begins with the analysis of the verbal phraseological units in the aspect of finding the rules of the structural modeling of these units. Accordingly, verbal phraseological units are divided into two-top and three-top phraseological units. According to their semantic and functional peculiarities, the verbal phraseological units are defined as non-motivated word-groups where the verb is the nuclear of the phraseological unit.

The article discusses phraseological units in detail. The components that make up phraseological units are parts of a whole and are closely interconnected. Moreover, these components often stand in a fixed position.

The article also examines the main features of phraseological units. Phraseological units have many features. An objective study of the functional features of phraseological units is actually related to their internal form and semantic integrity. It is impossible to talk about modeling without studying the internal form of phraseology and paying special attention to it. Structural-semantic models of a phraseological unit, in turn, allow for the full disclosure of its essence. Some phraseological units can be decomposed into free word combinations with the same lexical composition.

The types of meaning of phraseological units are also discussed in detail. Phraseological units are divided into types according to the degree of semantic integrity: fusion, conjugation, combination. The article also considers the development path of phraseological units when studying phraseological units.

Key words: word combination, phraseological units, two-top and three-top phraseological units

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ——————

FEILİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Bu məqalə şifahi frazeoloji vahidlərin struktur-semantik xüsusiyyətlərindən bəhs edir. Təhlil olunan material Teodor Drayzerin "Cenni Gerhardt" romanından qeyd olunan frazeoloji vahidlərin bütün seçimi ilə götürülmüşdür. Bu vahidlərin struktur modelləşdirilməsi qaydalarının tapılması aspektində şifahi frazeoloji vahidlərin təhlilindən başlayır. Buna uyğun olaraq şifahi frazeoloji vahidlər iki üst və üç yuxarı frazeoloji vahidlərə bölünür. Semantik və funksional xüsusiyyətlərinə görə feil frazeoloji vahidləri fel frazeoloji vahidin nüvəsi olduğu motivsiz söz qrupları kimi müəyyən edilir.

Məqalədə frazeoloji vahidlərdən ətraflı şəkildə bəhs edilir. Frazeoloji vahidləri təşkil edən komponentlər bütövün hissələri olub, öz aralarında sıx bağlılığa malikdir. Həm də çox zaman bu komponentlər sabit mövqedə dururlar.

Məqalədə frazeoloji vahidlərin əsas xüsusiyyətləri də araşdırılır. Frazeoloji vahidlərin bir çox xüsusiyyətləri var. Frazeoloji vahidlərin funksional xüsusiyyətlərinin obyektiv tədqiqi əslində onla rın daxili forması və semantik bütövlüyü ilə bağlıdır. Frazeologizmin daxili formasını öyrənmədən, ona xüsusi diqqət yetirmədən modelləşmədən danışmaq mümkün deyildir. Frazeoloji vahidin struktur-semantik modelləri isə öz növbəsində onun mahiyyətinin tam açılmasına imkan yaradır. Frazeoloji vahidlərin bəziləri eyni leksik tərkibli sərbəst söz birləşməsi kimi parçalana bilər.

Frazeoloji vahidlərin məna növlərindən də ətraflı bəhs edilir. Frazeoloji vahidləri semantik bütövlük dərəcəsinə görə növlərə bölünür: qovuşma, uyuşma, birləşmə. Məqalədə frazeoloji vahidlərin araşdırılması zamanı frazeoloji vahidlərin inkişaf yoluna da nəzər yetirilir.

Açar sözlər: söz birləşməsi, frazeoloji vahidlər, iki-üst və üç-üst frazeoloji vahidlər

Rəyçi: Professr Fikrət Cahangirov

F.f.d., dosent GƏRAYZADƏ MƏLAHƏT AĞA BABA QIZI
qerayzademalahat1955@gmail.com
ORCİD: 0009-0002-1486-8196
Baş müəllim ƏMIRASLANOVA ARZU SURXAY QIZI
amiraslanova.arzu1970@gmai.com
ORCİD: 0009-0001-2400-2540
Müəllim ŞAHMALIYEVA NÜBAR ƏKRƏM QIZI
shahmaliyevanubar@yahoo.com
ORCİD: 0009-0009-2429-1301
Azərbaycan Tibb Universiteti

RƏQƏMSAL ERADA SOSİOLİNQVİSTİK PROBLEMLƏR

XÜLASƏ

Açar sözlər: *Azərbaycan dili, rəqəmsal ünsiyyət, sosiolinqvistika, kod dəyişməsi, ana dili, dil siyasəti*

Məqalədə rəqəmsal erada ortaya çıxan sosiolinqvistik problemlər araşdırılır. İnformasiya texnologiyalarının sürətli inkişafı və sosial medianın geniş istifadəsi dilin normativliyinə, leksikasına və funksional sahələrinə təsir göstərmişdir. Əsas problemlərdən biri qısaldılmış yazı formalarının artması, kod dəyişməsi, dominant dillərin təsiri və ana dillərin sıxışdırılmasıdır. Məqalədə həmçinin virtual dialektlər və yeni ünsiyyət formalarının dilə təsiri də araşdırılır. Nəticədə, rəqəmsal mühitdə dilin qorunması və inkişafı üçün sosiolinqvistik yanaşmalara ehtiyac olduğu vurğulanır.

Ass.prof. Gerayzade Malahat Aga Baba
Senior teacher Amiraslanova Arzu Surkhay
Teacher Shahmaliyeva Nubar Akram

SOCIOLINGUISTIC PROBLEMS IN THE DIGITAL AGE

S U M M A R Y

Keywords: *Azerbaijani language, digital communication, sociolinguistics, code- switching, mother tongue, language policy*

This article explores the sociolinguistic challenges emerging in the digital age. The rapid development of information technologies and the widespread use of social media have impacted language norms, vocabulary, and functional domains. Key issues include the rise of abbreviations, code-switching, dominance of global languages, and the marginalization of native tongues. The article also examines the emergence of virtual dialects and the influence of new communication formats. It concludes that sociolinguistic strategies are essential to protect and develop language in the digital environment.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

Доцент Герайзаде Малахат Ага БаБа кызы
Ст. препод. Амирасланова Арзу Сурхай кызы
Препод. Шахмалыева Нубар Акрам кызы

СОЦИОЛИНГВИСТИЧЕСКИЕ ПРОБЛЕМЫ В ЦИФРОВУЮ ЭПОХУ

Р Е З Ю М Е

Ключевые слова: *Азербайджанский язык, цифровое общение, социолингвистика,*
переключение кодов, родной язык, языковая политика

В данной статье рассматриваются социолингвистические проблемы цифровой эпохи. Быстрое развитие информационных технологий и широкое использование социальных сетей повлияли на нормы языка, лексику и функциональные области. Основные проблемы включают рост сокращений, переключение кодов, доминирование глобальных языков и вытеснение родных языков. Также исследуется появление виртуальных диалектов и влияние новых форм общения. В заключение подчеркивается необходимость социолингвистического подхода для сохранения и развития языка в цифровой среде.

Ana dilinin qorunması və onun rəqəmsal mühitə uyğunlaşdırılması üçün maarifləndirmə, media savadlılığı və müasir texnologiyaların tətbiqi vacib hesab olunur.

İnformasiya texnologiyalarının inkişafı nəticəsində sosial şəbəkələr və onlayn platformalar insanların ünsiyyət formasını və dil istifadəsini dəyişmişdir. Məqalədə məqsəd rəqəmsal dövrdə dilin qorunması və funksionallığının artırılması eyni zamanda, təhsil və dövlət siyasətinin bu problemlərin həllindəki rolu vurğulanır.

XXI əsr texnologiya əsridir və bu texnoloji inqilab bütün sahələrdə olduğu kimi dil və ünsiyyət sahəsində də mühüm dəyişikliklərə səbəb olmuşdur. Texnologiyanın inkişafı ilə insanlar ünsiyyət vasitəsi kimi virtual platformalara üstünlük verməyə başlamışdır. Bu isə dilin strukturuna, funksiyasına və sosial təzahürlərinə təsir göstərir. Rəqəmsallaşma ilə həyatın hər sahəsi internetlə əlaqələndirildiyi kimi, dil də bu prosesin ayrılmaz hissəsinə çevrilmişdir. Müasir dövrdə sosiolinqvistika – dilin sosial funksiyalarını araşdıran elm sahəsi – bu dəyişiklikləri dəyərləndirmək və təhlil etmək üçün mühüm rol oynayır. Dilin sosial funksiyaları dəyişir, bu isə həm fərdi, həm də ictimai ünsiyyətə təsir göstərir. Dilin normativliyinin pozulması, kod dəyişməsi, virtual dialektlərin yaranması və şəxsiyyət - dil əlaqəsinin zəifləməsi kimi əsas məsələlər ətraflı təhlil edilir.

Müasir dövrdə texnologiyanın və internetin surətli inkişafı insan ünsiyyətini, eyni zamanda dilin ictimai funksiyalarını əhəmiyyətli dərəcədə dəyişmişdir. Rəqəmsal platformaların geniş yayılması ilə bərabər, sosiolinqvistik baxımdan bir sira problemlər meydana çıxmışdır.

Rəqəmsal kommunikasiyada sosial şəbəkələr, mobil tətbiqlər, forumlar və onlayn platformalar dilin yeni istifadəsini formalaşdırır. Qısa mesajlaşma mədəniyyəti və simvolik ifadə tərzi (emoji, gif, memlər və s.) dilin sadələşdirilməsinə, qeyri-formal strukturun yayılmasına gətirib çıxarır. Bu isə dillərin strukturunda və istifadəsində ciddi dəyişikliklər yaradır.

Rəqəmsal texnologiyaların inkişafı insan münasibətlərinə, ünsiyyət formasına və dillərin istifadəsinə təsirsiz ötüşməmişdir. Yeni kommunikasiya platformaları – sosial media, mesajlaşma tətbiqləri və onlayn forumlar dillərin quruluşuna, leksikasına və normativ qaydalarına təsir edir.

Ən önəmli məsələlərdən biri dil müxtəlifliyinin və yerli dillərin təhdid altında qalmasıdır. Qlobal informasiya axınında başqa dillərin dominantlığı nəticəsində bir çox azsaylı və milli dillərin istifadə dairəsi məhdudlaşır. Bu gənc nəslin ana dilinə olan marağını zəiflədir və onların informasiyanı əsasən başqa dildə qəbul etməsinə səbəb olur. Rəqəmsal erada dilimizi qorumaq üçün həm fərdi, həm ictimai, həm də dövlət səviyyəsində bir sıra addımlar atıla bilər. Bundan əlavə dilin sosial qatlarda fərdi istifadəsi – məsələn, yaş, təhsil, region və sosial statusa görə - rəqəmsal mühitdə daha kəskinləşmişdir. Sosial media platformalarında qeyri-standart yaş tərzi, jarqon, qısaldılmış ifadələr və emoji istifadəsi dilin strukturuna və normativliyinə təsir göstərir.

Dil identikliyi və mədəniyyətin qorunması da rəqəmsal erada sosiolinqvistik bir məsələ olaraq qalır. İnsanların öz ana dillərində rəqəmsal məzmun istehsal etməsi və paylaşması, milli-mədəni dəyərlərin yaşadılması baxımından vacibdir.

Təhsil və dil siyasəti rəqəmsal dövrdə dilin qorunması, inkişafı və düzgün istifadəsi baxımından mühüm rol oynayır. Bu sahədə aşağıdakı əsas məqamları qeyd etmək olar:

Rəqəmsal dövrdə dilin sosial funksiyalarında baş verən dəyişikliklərin aradan qaldırılması üçün təhsil və dil siyasətinin rolu vurğulanır. Rəqəmsal erada dilimizi qorumaq üçün həm fərdi, həm ictimai, həm də dövlət səviyyəsində bir sıra addımlar atıla bilər:

1. Dövlət səviyyəsində ana dilinin rəqəmsal məkanlarda istifadəsini təşviq edən hüquqi və siyasi dəstək - qanun və qərarlar qəbul edilməlidir. Yerli startap və texnoloji layihələrə dəstək göstərilməlidir. Dilin qorunması və standartlaşdırılması ana dilində rəqəmsal məzmunun artırılması üçün ən çox istifadə olunan kitablar, məqalələr, blog yazıları, videolar, podkastlar və tətbiqlər ana dilində hazırlanmalıdır. Sosial şəbəkələrdə Azərbaycan dilində düzgün və zəngin paylaşımlar təşviq olunmalıdır.

2. Təhsil sistemi milli dilin norma və qaydalarının öyrədilməsində əsas rolu oynayır. Dil siyasəti vasitəsilə rəsmi dilin statusu qorunur və tətbiqi genişləndirilir. Yazılı dilin qrammatik qaydaları tez-tez pozulur. Gənclər arasında dilin danışıq forması yazıya keçirilir, bu isə dilin klassik formasının zəifləməsinə səbəb olur. Ana dili tədrisinin keyfiyyəti gənclərin dilə münasibətini və onu necə qoruyacağını

formalaşdırır. Dövlət səviyyəsində aparılan dil siyasəti, dilin rəqəmsal aləmdə də mövcudluğunu təmin etməlidir. Gənc nəsil daha çox qlobal dillərdə ünsiyyət qurduğundan ana dilində ifadə imkanları zəifləyir. Bu da ana dilimizin təhlükə altına düşməsi ilə nəticələnir. Dilin normativliyinin pozulması əsas məqamlardan biridir. Rəqəmsal ünsiyyətdə abbreviaturalar, qısaltmalar və qeyri-standart yazı formaları geniş yayılıb (məs. "salam" → "slm").

3. Rəqəmsal platformalarda ana dilinin funksional olması üçün dövlət layihələri önəmlidir. Rəqəmsal savadlılıq və dil bacarıqları yaranmalı, insanların dil bacarıqları rəqəmsal savadla paralel inkişaf etməlidir. Rəqəmsal savadlılığın və dil mədəniyyətinin artırılması üçün məktəblərdə və ali təhsil müəssisələrində şagird və tələbələrə dilin düzgün və effektiv istifadəsi öyrədilməlidir.

4. Texnoloji dəstək və dil alətləri ilə ana dilində avtomatik düzəliş, lüğət, tərcümə, nitq tanıma sistemləri inkişaf etdirilməlidir. Klaviatura, interfeys və proqram təminatı Azərbaycan dilini tam dəstəkləməlidir. Təhsil və dil siyasəti vasitəsilə sözlüklər, avtomatik tərcümə, nitq tanıma kimi texnologiyaların inkişafına şərait yaradılmalıdır.

5. Media və mədəniyyətin rolu önə çəkilməli, televiziya, radio və onlayn platformalarda dilə hörmət və düzgünlük nümunələri göstərilməlidir. Rəqəmsal mədəniyyət vasitəsilə gənclərə dil sevgisi aşılanmalıdır. Rəqəmsal erada dilimizi qorumaq üçün həm fərdi, həm ictimai, həm də dövlət səviyyəsində bir sıra addımlar atıla bilər.

6.Təhsil sistemində xarici dillərlə yanaşı, ana dilinin prioritetliyi qorunmalıdır. Çoxdillilik mühiti yaradılarkən ana dilinin zəifləməsinə imkan verilməməlidir. Qlobal dillərin dominantlığı yerli və azsaylı dillərin sıxışdırılmasına səbəb olur. Bu hal, dilimiz üçün də müəyyən təhlükə yaradır. Rəqəmsal platformalarda insanlar bir-biri ilə müxtəlif dillərdə ünsiyyət qurur. Eyni cümlədə bir neçə dilin elementləri yer alır. Bir neçə dili paralel və ya birgə istifadə etmək halı ana dilin təsirini azaldır və dilin sabitliyinə mənfi təsir edir. Kod dəyişməsi - iki və daha artıq dilin qarışıq istifadəsi (məsələn, "Code-switching" fenomeni), xüsusilə gənclər arasında artır.

7. Orfoqrafik və qrammatik qaydalara əməl olunmaması geniş yayılıb. Bu da dilin normativliyinin pozur. Dilin "informal" forması normaya çevrilməyə başlayır. Yeni ünsiyyət formaları (Emojilər və giflər) qeyri-verbal ünsiyyəti əvəz edir. Memlər, videolar və qrafikalar vasitəsilə "vizual dil" inkişaf edir. Rəqəmsal kommunikasiya (məsələn, sosial şəbəkələr, çatlar, e-mail, forumlar) dilin formalarına təsir göstərir. Qısa, sürətli ünsiyyət tərzi yayılır (abbreviasiyalar, emoji, qısaldılmış sözlər). Yeni sözlər və ifadələr yaranır ("like", "story", "DM", "screen" kimi). Dil və şəxsiyyət arasında əlaqənin zəifləməsi, onlayn identikliklərin çoxalması və anonimlik faktoru insanın ana dili ilə özünü identifikasiya etmə imkanlarını zəiflədir. Virtual dialektlərin yaranması, rəqəmsal məkanda istifadə olunan spesifik ifadələr və yazı

tərzləri yeni "virtual dialektlərin" formalaşmasına gətirib çıxarır ("internet dili", "mem dili") və s..

Rəqəmsal dövr həm yeni imkanlar, həm də dil baxımından ciddi risklər yaradır. Bu problemlərin həlli üçün sosiolinqvistik monitorinq, dil siyasəti və təhsil vasitəsilə maarifləndirmə mühümdür.

Problemlər göstərir ki, rəqəmsal erada dil siyasıti və təhsil sistemi cəmiyyətin bütün üzvləri ilə birgə hərəkət edərək, ana dilinin ictimai funksiyalarını qorumağa və gücləndirməyə çalışmalıdır. Bu problemlərin qarşısını almaq üçün dövlətin və cəmiyyətin üzərinə böyük məsuliyyət düşür. Rəqəmsal platformalarda ana dilində keyfiyyətli məzmunun artırılması, məktəblərdə rəqəmsal linqvistik şüurun formalaşdırılması vacibdir.

Rəqəmsal dövr dilə həm təhdid, həm də imkanlar yaradır. Sosiolinqvistik yanaşmalar bu dövrdə dilin qorunması, inkişafı və funksional sahələrinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan dilinin rəqəmsal mühitdə mövcudluğunun qorunması milli kimlik və mədəni irs baxımından vacibdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Qasımov Ə. (2015). Sosiolinqvistikanın əsasları. Bakı: Elm və Təhsil.
2. Crystal D. (2001). Language and the Internet. Cambridge University Press.
3. Əliyeva M. (2020). "Rəqəmsal dövrdə Azərbaycan dilinin vəziyyəti". Dil və Ədəbiyyat, №2, s. 34–40.
4. Fishman J. A. (1972). The Sociology of Language. Rowley: Newbury House.
5. Əliyev F. (2019). "Kod dəyişməsi və gənclər arasında dil istifadəsi". Azərbaycan Dillər Universitetinin Elmi Əsərləri, №4.
6. Wardhaugh R. (2006). An Introduction to Sociolinguistics. Blackwell.
7. Əliyeva S. (2021). "Virtual məkanda dilin yeni formaları". Müasir Dilçilik, №1.
8. Bhatia T. K., Ritchie W. C. (2013). The Handbook of Bilingualism and Multilingualism. Wiley-Blackwell.
9. Rzayeva L. (2018). "Sosiolinqvistik baxımdan dilin funksional dəyişməsi". Dilçilik Jurnalı, №3.
10. Trudgill P. (2000). Sociolinguistics: An Introduction to Language and Society. Penguin Books.
11. Əhmədov K. (2022). "Azərbaycan dilinin internet mühitində qorunması yolları". Dil və Texnologiya, №2.
12. Gee J. P. (2011). How to do Discourse Analysis. Routledge.
13. Məmmədova R. (2017). "Yeni media və dil". İnformasiya Cəmiyyəti, №1.

Rəyçi: **dos. S.Ə.Kadiyeva**

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

GÜNEL ƏHMƏDOVA
Azərbaycan Universiteti, Filologiya və tərcümə
kafedrasının doktorantı
email: gunel.ahmadova@au.edu.az

AZƏRBAYCAN DİLİNDƏ SƏBƏB-NƏTİCƏ ƏLAQƏLİ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR

Xülasə

Bu məqalədə Azərbaycan dilində səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin quruluş və semantik xüsusiyyətləri araşdırılır. Cümlələrarası məna əlaqələrinin yaranmasında bağlayıcısız konstruksiyaların rolu, səbəb və nəticə münasibətinin intonasiya, məntiqi vurğu və kontekst vasitəsilə ifadə formaları təhlil olunur. Müəyyən edilir ki, tabesiz mürəkkəb cümlələrdə əlaqə bağlayıcılar vasitəsilə deyil, məna yaxınlığı və ardıcıllıqla təmin edilir. Məqalədə bu tip cümlələrin funksional yükü, dilin dinamik inkişafında və nitqdəki sadələşmə proseslərindəki rolu da izah olunur.

Açar sözlər: *səbəb-nəticə əlaqəsi, tabesiz mürəkkəb cümlə, sintaktik əlaqə, semantika və s.*

GUNEL AHMADOVA

Cause-Effect Relations in Asyndetic Compound Sentences in Azerbaijani language

Abstract

The article examines the structural and semantic features of compound sentences without conjunctions that express cause-and-effect relations in the Azerbaijani language. The study highlights the syntactic and semantic mechanisms through which such relations are established without the use of connectors. It is concluded that the linkage between clauses is provided through meaning, logical sequence, and intonation rather than conjunctions. The research also emphasizes the communicative and stylistic value of such constructions in the modern Azerbaijani language, reflecting tendencies of simplification and expressiveness in speech.

Keywords: *cause-effect relation, compound sentence, conjunction omission, syntax etc.*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

ПРИЧИННО-СЛЕДСТВЕННЫЕ БЕССОЮЗНЫЕ СЛОЖНЫЕ ПРЕДЛОЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

ГЮНЕЛЬ АХМЕДОВА

РЕЗЮМЕ

В статье исследуются структурные и семантические особенности бессоюзных сложных предложений, выражающих причинно-следственные отношения в азербайджанском языке. Анализируются механизмы выражения смысловой связи между частями предложения без использования союзов, роль интонации и контекста. Автор приходит к выводу, что смысловая зависимость в таких конструкциях формируется на основе последовательности мыслей и семантической близости, а не формальных связующих элементов.

Ключевые слова: *причинно-следственная связь, бессоюзное сложное предложение, синтаксис, семантика*

Giriş. Mürəkkəb cümlə, dilin sintaktik quruluşunda mühüm yer tutan, iki və ya daha çox sadə cümlənin məna və qrammatik əlaqə ilə birləşməsindən yaranan cümlə tipidir. Bu cür cümlələr fikrin daha geniş, dəqiq və məntiqi şəkildə ifadəsinə imkan yaradır. Mürəkkəb cümlələrdə hissəciklər, bağlayıcılar və intonasiya vasitəsilə cümlə hissələri arasında müxtəlif məna münasibətləri, səbəb, nəticə, şərt, zaman və s. qurulur. Beləliklə, mürəkkəb cümlə fikrin inkişafında, mətnin məntiqi axarında və üslubi rəngarəngliyində əsas vasitələrdən biri kimi çıxış edir. Ə. Rəcəbli mürəkkəb cümlələr haqqında yazır: *"Mürəkkəb cümlələrdən (istər tabesiz, istər tabeli olsun) feili konstruksiyalı sadə cümlələrə keçilməsində dilin inkişafının iki əbədi və universal qanunu - qənaət və sadələşmə qanunu (bunlara çox vaxt qənaət prinsipi və sadələşmə prinsipi də deyilir) mühüm rol oynamışdır. İndinin özündə belə feili konstruksiyalı sadə cümlələrin işlədilməsi fikrimizi, ifadəni xeyli sadələşdirsə də, xeyli vaxt və digər atributların qənaətinə gətirsə də, biz onu ən çox kitab dilində - ədəbi dilin yazılı qolunda işlədirik. Fikirləşmək üçün vaxtımız məhdud olduqda, nitq prosesində, başqa sözlə desək, ədəbi dilin şifahi qolunda indi də daha çox tabesiz və tabeli mürəkkəb cümlələrdən istifadə edirik"* [10, s. 448].

Azərbaycan dilində mürəkkəb cümlə sistemi semantik və sintaktik baxımdan olduqca zəngindir. Bu sistemin ən diqqətəlayiq qollarından biri tabesiz mürəkkəb cümlələrdir. Onlar bir neçə sadə cümlənin bağlayıcısız şəkildə, lakin məna əlaqəsi əsasında birləşməsi ilə yaranır. Bu cür cümlələrdə hissələr arasında əsas bağlayıcı vasitə intonasiya, məntiqi ardıcıllıq və situasiya olur. Xüsusilə səbəb-nəticə əlaqəsi bu tip cümlələrdə çox aydın şəkildə özünü göstərir, çünki iki hadisə arasında təbii bir məntiqi zəncir qurulur: biri hadisənin səbəbini, digəri isə nəticəsini ifadə edir.

Səbəb-nəticə əlaqəsi dilin düşüncə ilə birbaşa bağlılığını əks etdirən semantik münasibətlərdən biridir. İnsan təfəkküründə hər hadisə müəyyən bir səbəbə

bağlıdır və bu bağlılıq dilin strukturunda da öz əksini tapır. Azərbaycan dilində bu əlaqə ən çox "çünki", "ona görə ki", "belə ki" kimi bağlayıcılarla ifadə olunsa da, tabesiz konstruksiyalarda bu sözlər ixtisar edilir, əlaqə yalnız məna və intonasiya yolu ilə yaranır. Çünki tabelilik bağlayıcıları tabeli mürəkkəb cümləni, tabesizlik bağlayıcıları isə tabesiz mürəkkəb cümlələrin tərkib hissələrini bağlayır. Məsələn, "Yağış yağdı, torpaq yumşaldı" cümləsində səbəb və nəticə münasibəti açıqdır. Burada "ona görə ki" bağlayıcısı işlədilməsə də, eşidən və ya oxuyan şəxs dərhal başa düşür ki, torpağın yumşalmasının səbəbi yağışın yağmasıdır. T.Şükürlü qeyd edir ki, *tarixən mürəkkəb cümlənin tərkib hissələri bir-biri ilə bağlayıcısız bağlanmışdır. Araşdırma zamanı bağlayıcısız tabesiz mürəkkəb cümlənin bu tipindən geniş şəkildə istifadə olunduğu aydm olur. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr qapalı sıralı olur, ona görə də iki sadə cümlənin birləşməsi şəklində formalaşır. Bu xüsusiyyət eyni dərəcədə "Oğuznamə"nin sintaksisinə də aiddir: Buğdayı qonşuna sat, çörəgin bilə yeyəsən* [Şükürlü, 2019, s.63]. Səbəb-nəticə əlaqələi tabesiz mürəkkəb cümlə də digərləri ilə müqayisədə bağlaycıps bağlanır: İşıqlar söndü, ekran qaraldı..

Bu tip konstruksiyalarda məna əlaqəsi kontekstdən və hadisələrin təbii ardıcıllığından asılı olur. Q.Kazımov yazır ki, "*bu cür cümlələr ikikomponenli olur.Birinci hissə adətən səbəb, ikinci hissə ondan doğan nəticədir . Məsələn, Ağacların dövrəsində yarasalar uçuşdu, Əşrəf diksindi*" və s. *Bu tip cümlələri əksərən feilin eynizamanında olur.* [Kazımov, 2007, s.292].

Tabesiz mürəkkəb cümlələrdə səbəb-nəticə əlaqəsinin ifadə vasitələri sırasında intonasiya mühüm rol oynayır. Səbəb hissəsi adətən bir qədər aşağı intonasiya ilə, nəticə hissəsi isə tamamlayıcı intonasiya ilə deyilir. Bu xüsusiyyət danışıq nitqində əlaqəni aydınlaşdırır. Yazılı nitqdə isə bu əlaqə çox zaman vergül və ya nöqtəli vergül vasitəsilə göstərilir. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin semantik tiplərinə baxdıqda, onların bir neçə məna çaları daşıdığını görürük. Bəzi cümlələrdə real nəticə ifadə olunur: "Qapı açıldı, içəri soyuq doldu". Burada birinci hissə (qapının açılması) real səbəbdir, ikinci hissə isə onun nəticəsidir. Bəzi hallarda isə nəticə emosional və ya metaforik xarakter daşıyır: *"Gecə uzandı, sükut dərinləşdi.* Bu cümlədə səbəb-nəticə əlaqəsi fiziki deyil, hissi-emosional xarakterdədir. Belə cümlələr Azərbaycan dilinin üslubi zənginliyini göstərir.

"Səbəb-nəticə əlaqəlii tabesiz mürəkkəb cümlələrin tərəfləri arasında münasibətdə səbəb və nəticədən başqa fərqli məna çalarları da özünü göstərir: səbəb-nəticə, əsas-nəticə, şərt-nəticə çaları" [Seyidov, 2007, s.282].

Dilin poetik qatında, xüsusilə bədii nəsrdə və poeziyada bu cür tabesiz konstruksiyalar emosional yüklənməni artırmaq, nitqə dinamiklik vermək üçün tez-tez işlədilir. Elmi baxımdan tabesiz mürəkkəb cümlələrdə səbəb-nəticə əlaqəsinin əsas şərtlərindən biri loji ardıcıllığın qorunmasıdır. Əgər birinci cümlə hadisənin səbəbini, ikinci cümlə isə onun nəticəsini ifadə edirsə, bu, səbəb-nəticə əlaqəli

tabesiz mürəkkəb cümlə hesab olunur. Əks halda, yalnız sadə ardıcıllıq yaranır, semantik əlaqə isə zəifləyir.

Belə cümlələrin sintaktik təhlilində budaq cümlə ilə baş cümlə anlayışları formal baxımdan mövcud olsa da, bu konstruksiyalarda onların sərhədi elastikdir. Bağlayıcı olmadığından, hissələr arasında tabe və ya tabesiz münasibət deyil, koordinativ-semantik əlaqə yaranır. Bu əlaqə "A → B" istiqamətində düşüncə axınını əks etdirir. Buludxan Xəlilov qeyd edir ki, "*səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr ardıcıl zamanlı tabesiz mürəkkəb cümlələrə oxşayır. Hər ikisində işin ardıcıllıqla icrası müşahidə olunur və hər iki halda səbəb-nəticə mənası sezilir. Lakin onları fərqləndirmək üçün əsas mənaya diqqət yetirmək lazımdır. "Axşam düşdü, göylər qaraldı" cümləsində əsas mənaya görə səbəb-nəticə əlaqəsi ifadə olunur"*[Xəlilov, s.2017, s.259].

Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələrin istifadəsi danışıq nitqində və publisistik üslubda da artmaqdadır. Bunun əsas səbəbi kommunikativ səmərəliliyə yönəlmiş tendensiyadır: danışan şəxs fikrini daha sadə, lakin mənalı formada ifadə etmək istəyir. Bu baxımdan tabesiz səbəb-nəticə cümlələri həm iqtisad prinsipi, həm də emosional yüklülük baxımından əlverişlidir. Türk dilləri sistemində aparılan müqayisələr göstərir ki, oxşar hadisə digər türk dillərində də mövcuddur. Məsələn, Türkiyə türkcəsində "*Yağmur yağdı, yollar palçıq oldu",* yaxud qazax dilində "Жаңбыр жауды, жер жұмсарды" cümlələri eyni tip sintaktik əlaqəni daşıyır. Bu, tabesiz səbəb-nəticə cümlələrinin türk dillərinin ümumi sintaktik xüsusiyyəti kimi formalaşdığını göstərir. Tabesiz mürəkkəb cümlələrin tədris baxımından öyrədilməsi də mühüm əhəmiyyət kəsb edir. Şagirdlər və tələbələr çox vaxt bu tip cümlələri yalnız "bağlayıcısız birləşmə" kimi dəyərləndirirlər, halbuki burada dərin semantik əlaqə mövcuddur. Tədrisdə bu əlaqənin intonasiya, məna və struktur səviyyələrində göstərilməsi zəruridir.

Nəticə: Aparılmış təhlil göstərir ki, səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr Azərbaycan dilinin sintaktik quruluşunda özünəməxsus yer tutur və həm formal, həm də məzmun baxımından müstəqil sistem kimi fəaliyyət göstərir. Bu cür cümlələrdə fikir ardıcıllığı və hadisələrin məntiqi axını əsasən intonasiya, məntiqi vurğu və bağlayıcısız əlaqə vasitəsilə təmin olunur. Məhz bu xüsusiyyət onların dilin təbii ritminə uyğunlaşmasını və nitqin axıcılığını artırmasını şərtləndirir.

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə hadisələrin biri digərini doğurur, bu isə düşüncənin inkişaf istiqamətini aydın şəkildə əks etdirir. Türk dillərində aparılan müqayisəli araşdırmalar göstərir ki, bu sintaktik model ümumtürk dil təfəkküründün məhsuludur. Bu, həm qədim türk abidələrində, həm də müasir türk dillərində müşahidə olunan paralel quruluşlarla təsdiqini tapır. Beləliklə, Azərbaycan dilindəki səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr təkcə milli dil hadisəsi deyil, eyni zamanda ümumtürk sintaktik ənənəsinin canlı davamı kimi dəyərləndirilə bilər.

Ədəbiyyat

1. Abdullayev K., (1998), Azərbaycan dili sintaksisinin nəzəri problemləri, Maarif, Bakı, 281 s.
2. Əliyev, M. (2016). Müasir Azərbaycan dilində semantik münasibətlər. Bakı: Nurlan.
3. Hacıyev, T. (2007). Azərbaycan dilinin sintaksisi. Bakı: ADPU nəşriyyatı
4. Xəlilov, B. (2017) Müasir Azərbaycan dilinin sintaksisi, Bakı, Adiloğlu, 428 s.
5. Kazımov, Q.Ş. Müasir Azərbaycan dilinun sintaksisi, Bakı: Təhsil, 2007, 496 s.
   Seyidov, Y., Abdullayev Ə.Həsənov, A. Müasir Azərbaycan dili. Sintaksisi. Bakı: Şərq-qərb, 2007,
6. Rəcəbli Ə. (2003), Göytürk dilinin sintaksisi, IV cild, Nurlan, Bakı, 634 s.
7. Vəliyev, S. (2019). "Tabesiz mürəkkəb cümlələrin funksional-semantik xüsusiyyətləri." Azərbaycan dilçiliyi məsələləri, 3(2), 45–58.
8. Şükürlü T. Oğuznamənin dilində tabesiz mürəkkəb cümlələr, Bakı: Tədqiqlər, 2019. S.60-69.

Rəyçi : Fil:ü.f.d. Dilbər Vətən qızı Cəmali.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ——————

RUGIYYA KARIMOVA
Head of International Relations Department
PhD student of the Department of English and Translation
Nakhchivan State University
ORCID: 0009-0006-2946-7378

COGNITIVE AND CONTEXTUAL FACTORS INFLUENCING IDIOM COMPREHENSION

Abstract

Idiom comprehension represents a complex cognitive and linguistic process that requires the integration of stored semantic knowledge, contextual interpretation, and inferential reasoning. This paper examines how cognitive and contextual factors jointly influence the comprehension of idiomatic expressions in both native and non-native speakers. Drawing on insights from psycholinguistics, neurolinguistics, and cognitive linguistics, the study explores the roles of memory, attention, processing speed, and executive functions in retrieving and interpreting idiomatic meanings. Contextual elements—linguistic, social, and cultural—are shown to significantly modulate comprehension, guiding listeners and readers toward figurative interpretation and reducing processing load. Neurolinguistic findings reveal bilateral hemispheric engagement, reflecting the interplay between semantic access and contextual integration, while individual cognitive differences further shape interpretive outcomes. The discussion also highlights age-related and cross-linguistic variations, emphasizing that older adults and second-language learners rely more on contextual cues due to limited idiomatic familiarity. Educational implications suggest that explicit instruction, contextualized practice, and multimedia-based learning enhance idiom acquisition and retention. Overall, the paper argues that idiom comprehension is best understood as an interactive process in which cognitive resources and contextual information operate in tandem to achieve pragmatic understanding and communicative efficiency.

Keywords: idiom comprehension, cognitive processing, context, neurolinguistics, metaphor theory, second-language acquisition

Introduction. Idioms represent one of the most intricate aspects of language, as their meanings often transcend the literal interpretations of their component words. Understanding idiomatic expressions requires more than lexical knowledge; it involves higher-order cognitive processing and sensitivity to contextual cues. Previous research has demonstrated that idiom comprehension is influenced by both internal cognitive mechanisms, such as memory and attention, and external contextual factors, including discourse and culture (Gibbs, 1994). The challenge of interpreting idioms lies in distinguishing between literal and figurative meanings while maintaining coherence with the communicative situation. Native speakers often process idioms holistically through stored lexical representations, whereas

second-language learners rely more heavily on contextual support. Neurolinguistic evidence further reveals that idiom processing engages distributed neural networks responsible for semantic access, inference, and pragmatic reasoning (Cacciari & Tabossi, 1988). These findings suggest that idiom comprehension involves an interaction between automatic retrieval and controlled inferential processing. Moreover, individual cognitive differences, such as working memory capacity and executive control, significantly affect comprehension accuracy and speed. As a result, studying idiom comprehension provides valuable insight into the relationship between cognition, language, and context. The present study aims to analyze how cognitive and contextual factors interact to influence the interpretation and understanding of idiomatic expressions across different linguistic and cognitive conditions.

Research Methods. This study employed a qualitative-analytical approach based on the synthesis of existing empirical and theoretical literature on idiom comprehension. Peer-reviewed studies from psycholinguistics, neurolinguistics, and second-language acquisition were systematically examined to identify common cognitive and contextual determinants of idiom understanding. Particular attention was given to research exploring working memory, attentional control, semantic access, and contextual integration. Experimental findings, including those based on event-related potentials (ERP) and functional magnetic resonance imaging (fMRI), were analyzed to reveal neurocognitive patterns underlying figurative language processing. The study also compared cross-linguistic and age-related evidence to highlight individual differences in idiom comprehension strategies. Data were interpreted through a cognitive-pragmatic framework, allowing for the integration of linguistic, cognitive, and contextual dimensions in understanding idiom processing.

Materials and Discussions. Idioms are widely recognized as fixed expressions whose meanings are not entirely predictable from the literal meanings of their components (Cacciari & Tabossi, 1988). Understanding idioms requires not only linguistic knowledge but also cognitive processing and contextual awareness (Gibbs, 1994). Studies have shown that understanding idiomatic expressions is not merely a matter of knowing the words themselves but involves a sophisticated interplay between one's lexical knowledge and the ability to draw pragmatic inferences. This means that comprehension depends on both recognizing the idiom as a fixed expression and interpreting the speaker's intended meaning within a given communicative context. Cognitive capacities, such as working memory and processing speed, play a critical role in this process, as they determine how efficiently individuals can retrieve idiomatic meanings from memory and integrate them with contextual information Moreover, prior familiarity with specific idioms facilitates faster and more accurate comprehension, reducing cognitive effort and allowing for smoother integration into ongoing discourse In contrast, idioms that are less familiar or novel often place greater demands on cognitive resources, requiring

individuals to rely more heavily on contextual cues, pragmatic reasoning, and sometimes inferential strategies to arrive at the intended figurative meaning This suggests that idiom comprehension is a dynamic process influenced not only by stored linguistic knowledge but also by real-time cognitive processing and the richness of the surrounding context. Additionally, research indicates that repeated exposure and active engagement with idiomatic expressions can strengthen mental representations, making them easier to access and interpret in future encounters, particularly in second-language learning or cross-cultural communication settings. Contextual information provides essential cues that guide the interpretation of idiomatic. For instance, the surrounding discourse, speaker intention, and cultural background all shape how idioms are understood When idioms are presented in supportive contexts, comprehension is faster and more accurate. Conversely, idioms presented in ambiguous or neutral contexts can lead to misinterpretation or literal decoding. Eye-tracking studies show that readers spend more time processing idioms in incongruent contexts than in congruent ones (Hulk & Cieslicka, 2007). This suggests that context modulates cognitive effort in idiom comprehension.

Neurolinguistic studies reveal that processing idiomatic expressions recruits neural activity across both cerebral hemispheres, reflecting the intricate cognitive demands involved. The left hemisphere predominantly facilitates access to the semantic representations of words, enabling recognition of the idiom as a stored lexical unit, while the right hemisphere plays a crucial role in integrating this semantic knowledge with contextual and pragmatic information to derive the intended figurative meaning. This coordinated hemispheric activity highlights the multifaceted nature of idiom comprehension, which requires simultaneous engagement of memory, language, and inferential reasoning systems. In addition to these neural mechanisms, individual differences in cognitive capacities—such as executive functions, working memory, and attentional control—have been shown to influence how efficiently and accurately idioms are understood. For example, individuals with stronger executive control are better able to suppress irrelevant literal interpretations and focus on the figurative meaning, particularly in contexts where the idiom is novel or semantically ambiguous. These findings suggest that idiom comprehension is not only a linguistic task but also a cognitively demanding process, shaped by both neural organization and the unique cognitive profile of the individual. Children and second-language learners often rely heavily on context due to limited idiom familiarity (Boers & Lindstromberg, 2008).

Contextual factors go beyond language itself, encompassing social and situational elements that influence interpretation. Pragmatic competence allows listeners to infer the speaker's intended meaning, which is especially important when idioms are used metaphorically or in non-literal ways. Cultural schemas influence how idiomatic meanings are accessed and interpreted, as certain expressions may not have direct equivalents across languages (Kecskes, 2008). Cross-linguistic research

indicates that non-native speakers face higher cognitive demands when processing culturally specific idioms, as their meanings are often not directly translatable. Learners must rely on context and inferential reasoning to interpret these expressions accurately. Instruction that combines idiomatic teaching with contextual exposure can improve comprehension, helping learners associate figurative meanings with situational cues and reducing reliance on literal interpretation.

Memory processes are central to idiom comprehension, as idioms stored as single, holistic units in long-term memory can be retrieved more quickly than novel or newly encountered metaphorical expressions. This efficient access reduces cognitive effort and facilitates smoother integration into ongoing language processing. Repeated exposure strengthens these mental representations, making retrieval faster and less effortful (Conklin & Schmitt, 2008). Limitations in working memory can make it difficult to integrate literal and figurative meanings simultaneously, especially when comprehension must occur quickly. Additionally, cognitive load increases with syntactic complexity, as idioms embedded in longer or more intricate sentences demand greater processing resources.

Contextual predictability interacts with cognitive resources to facilitate comprehension. Predictive contexts allow the listener or reader to anticipate idiomatic meaning before full exposure (Gibbs et al., 1997). This aligns with the constraint-based model of idiom processing, which emphasizes the role of multiple probabilistic cues, including context, frequency, and syntax (Tabossi et al., 2009). Computational modeling supports the view that idiom comprehension is a dynamic process influenced by cognitive and contextual constraints (Siyanova-Chanturia et al., 2015).

Cognitive approaches to idiom processing emphasize the importance of mental imagery and metaphorical mapping in understanding figurative language. According to metaphor theory, idioms often reflect conceptual metaphors grounded in bodily and experiential knowledge, allowing speakers and listeners to access meaning through familiar physical and social experiences. Idioms that evoke vivid mental images are typically comprehended more quickly and accurately, a benefit that is particularly pronounced for second-language learners who may rely on visual and contextual cues to infer meaning. The framework of embodied cognition further suggests that sensorimotor systems actively contribute to figurative language processing by linking linguistic input to perceptual and experiential simulations, thereby enhancing comprehension. Neurocognitive studies using event-related potentials (ERP) demonstrate that idioms elicit distinct neural responses compared to literal sentences, with the N400 component indexing semantic integration difficulty, which is influenced by both contextual fit and the familiarity of the idiom. Functional magnetic resonance imaging (fMRI) research shows that processing idioms engages frontotemporal regions of the brain, highlighting the interaction between stored semantic knowledge and ongoing contextual interpretation. These findings indicate

that idiom comprehension is not solely a linguistic task but a dynamic process that integrates memory, perception, and context, illustrating how cognitive and contextual factors jointly determine the efficiency and accuracy of understanding figurative expressions in both native and non-native speakers.

Age-related differences provide further insight into the cognitive mechanisms underlying idiom comprehension. Older adults often demonstrate slower processing speeds and a greater dependence on contextual information, which reflects age-related declines in working memory capacity and inhibitory control. In contrast, younger adults, who generally exhibit higher cognitive flexibility, are better able to alternate between literal and figurative interpretations, allowing them to understand idioms more efficiently across varying contexts. Similarly, individuals with language impairments, such as aphasia, frequently experience difficulties in comprehending idioms, particularly when understanding requires inferential reasoning or integration of broader contextual cues. These findings carry important educational implications, emphasizing the need to integrate both cognitive and contextual strategies in teaching idiomatic language. Pedagogical approaches that combine explicit instruction with practice in meaningful, contextualized settings have been shown to enhance idiom acquisition and retention. Additionally, the use of multimedia resources—such as videos, interactive texts, and dialogues—provides learners with rich, varied contextual cues, facilitating comprehension and helping learners internalize idiomatic expressions in ways that extend beyond rote memorization. Task-based learning encourages learners to infer idiomatic meaning from context, enhancing both pragmatic competence and cognitive engagement (Ellis, 2003).

Contextual diversity also plays a role in the transfer of idiomatic knowledge across languages. Exposure to idioms in multiple contexts strengthens the ability to generalize meaning (Conklin & Schmitt, 2012). Conversely, over-reliance on dictionary definitions without context often leads to misinterpretation or literal translation errors. Cognitive linguistics emphasizes that idioms are processed as conceptual wholes, shaped by experience, culture, and situational cues (Langlotz, 2006).

In conclusion, idiom comprehension represents a complex and multidimensional cognitive process that draws on a wide range of mental and contextual resources. It depends not only on cognitive mechanisms such as memory capacity, attentional control, and processing speed but also on the ability to interpret contextual information that spans linguistic, social, and cultural dimensions. Efficient comprehension of idioms requires the integration of stored lexical and semantic knowledge with real-time inferencing based on situational and discourse context (Titone & Connine, 1999). Empirical evidence from psycholinguistic, neurolinguistic, and second-language acquisition research consistently supports the view that neither cognitive nor contextual factors alone are sufficient to explain idiom processing; rather, it is their dynamic interaction that determines interpretive

accuracy and speed. Future studies should focus on developing dynamic models that account for individual cognitive differences, cross-linguistic variability, and the influence of multimodal cues such as gesture, tone, and visual context. Furthermore, advances in computational modeling hold promise for simulating how humans integrate long-term memory representations, contextual expectations, and inferential reasoning during idiom comprehension. Such interdisciplinary approaches can deepen our understanding of figurative language processing and contribute to the refinement of teaching practices. Integrating insights from cognitive psychology, theoretical linguistics, and educational research can also lead to the development of targeted pedagogical interventions aimed at improving idiom comprehension in both native and second-language speakers, fostering not only linguistic proficiency but also pragmatic and cultural competence (Kecskes, 2008; Boers et al., 2017).

Findings. The analysis revealed that idiom comprehension is governed by a delicate balance between cognitive efficiency and contextual sensitivity. Participants and studies consistently indicated that familiarity and frequency significantly enhance retrieval speed and reduce cognitive load during interpretation. Idioms encountered in predictable or supportive contexts were processed faster than those presented in ambiguous settings. Neuroimaging data demonstrated activation in both hemispheres, confirming that figurative language processing engages widespread neural circuits beyond traditional language areas. Working memory limitations were found to constrain the simultaneous activation of literal and figurative meanings, particularly under time pressure. Cross-linguistic comparisons highlighted that non-native speakers rely more heavily on pragmatic and visual cues when decoding idioms. Age-related patterns suggested that older adults compensate for slower processing by drawing on contextual predictability and accumulated linguistic experience. Embodied cognition emerged as a strong explanatory factor, as idioms evoking sensory or motor experiences were comprehended more effectively. Furthermore, studies demonstrated that multimodal exposure, such as through audiovisual materials, significantly enhances retention of idiomatic meaning. Overall, the findings underscore that idiom comprehension is an adaptive process shaped by the interplay of memory, attention, context, and experience.

Conclusion. The present study confirms that idiom comprehension cannot be fully understood through either cognitive or contextual perspectives alone. Instead, it reflects an integrated system where mental representations, inferential reasoning, and environmental cues operate in synchrony. The results emphasize that idioms are processed not as isolated linguistic units but as conceptually grounded expressions embedded in cultural and communicative frameworks. Cognitive capacities such as memory span and executive control determine how efficiently individuals access stored idiomatic knowledge. Contextual richness, on the other hand, guides interpretation and minimizes potential ambiguity. The findings suggest that effective idiom understanding requires dynamic coordination between bottom-up lexical

retrieval and top-down contextual inference. For second-language learners, exposure to idioms within authentic communicative contexts enhances both comprehension and pragmatic competence. Pedagogical interventions that integrate cognitive awareness with contextualized practice are likely to yield the most sustainable learning outcomes. Future research should further investigate multimodal influences, individual variability, and neurocognitive adaptability in figurative processing. In essence, idiom comprehension exemplifies the broader principle that language understanding emerges from the continual interaction between mind, experience, and social context.

References

1. Boers, F., Lindstromberg, S., Littlemore, J., & Nazari, F. (2013). *Cognitive Linguistic Approaches to Teaching Vocabulary and Idioms*. Berlin: De Gruyter.
2. Boers, F., Demecheleer, M., Coxhead, A., & Webb, S. (2017). *Teaching and Learning L2 Idioms in Context*. Language Teaching Research, 21(5), 553–577.
3. Cacciari, C., & Tabossi, P. (1988). The comprehension of idioms. *Journal of Memory and Language*, 27(6), 668–683.
4. Conklin, K., & Schmitt, N. (2012). *Formulaic Language: Pushing the Boundaries*. Amsterdam: John Benjamins.
5. Ellis, R. (2003). *Task-based Language Learning and Teaching*. Oxford: Oxford University Press.
6. Gibbs, R. W. (1994). *The Poetics of Mind: Figurative Thought, Language, and Understanding*. Cambridge: Cambridge University Press.
7. Gibbs, R. W., Nayak, N. P., & Cutting, C. (1997). How to kick the bucket and not decompose: Analyzability and idiom processing. *Journal of Memory and Language*, 37(4), 408–430.
8. Hulk, A., & Cieslicka, A. (2007). Processing idioms in context: Evidence from L2 acquisition. *Bilingualism: Language and Cognition*, 10(2), 199–211.
9. Kecskes, I. (2008). *Situation-bound Utterances in L1 and L2*. Berlin: De Gruyter.
10. Langlotz, A. (2006). *Idiomatic Creativity: A Cognitive-Linguistic Model*. Amsterdam: John Benjamins.
11. Siyanova-Chanturia, A., Gut, U., & Leikin, M. (2015). Cognitive mechanisms of idiom comprehension: A review. *Frontiers in Psychology*, 6, 1311.
12. Tabossi, P., Fanari, R., & Wolf, K. (2009). Processing idioms in context: Effects of predictability and literal plausibility. *Journal of Psycholinguistic Research*, 38(3), 245–263.
13. Titone, D. A., & Connine, C. M. (1999). Understanding idioms in context: Effects of sentence constraint on idiom meaning activation. *Brain and Language*, 68(2), 347–361.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

İDİOMLARIN ANLAŞILMASINA TƏSİR EDƏN KOGNİTİV VƏ KONTEKSTUAL AMİLLƏR

R.H.KƏRİMOVA
Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri
İngilis dili və Tərcümə kafedrasının doktorantı
Naxçıvan Dövlət Universiteti
ORCID: 0009-0006-2946-7378

Xülasə

Açar sözlər: idiomların anlaşılması, kognitiv emal, kontekst, neyrolinqvistika, metafor nəzəriyyəsi, ikinci dilin mənimsənilməsi

İdiomların anlaşılması — yaddaşda mövcud olan semantik biliklərin, kontekstual təfsirin və nəticəçıxarma proseslərinin inteqrasiyasını tələb edən mürəkkəb kognitiv və dil prosesidir. Bu məqalədə həm ana dili, həm də xarici dil daşıyıcılarında idiomların mənasının başa düşülməsinə kognitiv və kontekstual amillərin birgə təsiri araşdırılır. Psixolinqvistika, neyrolinqvistika və kognitiv dilçilikdən əldə edilən nəticələrə əsaslanaraq, yaddaşın, diqqətin, emal sürətinin və icraedici funksiyaların idiomatik mənaların tapılması və şərh edilməsindəki rolu tədqiq olunur.

Linqvistik, sosial və mədəni kontekst elementlərinin — dinləyici və oxucuları məcazi mənanın düzgün interpretasiyasına yönləndirməklə yanaşı, emal yükünü azaltdığı göstərilir. Neyrolinqvistik tədqiqatlar beyin yarımkürələrinin hər ikisinin aktiv iştirak etdiyini aşkar edir ki, bu da semantik məlumatın əldə olunması və kontekstual inteqrasiyanın qarşılıqlı əlaqəsini əks etdirir. Eyni zamanda fərdi kognitiv fərqlər də mənanın interpretasiyasına təsir göstərir.

Müzakirədə yaşa və dillərarası fərqlərə də diqqət yetirilir: yaşlı şəxslər və ikinci dil öyrənənlər idiomlarla tanışlığın məhdudluğu səbəbindən kontekstual ipuclarına daha çox arxalanırlar. Tədris baxımından, məqalə göstərir ki, açıq izah, kontekstləşdirilmiş məşğələlər və multimediaya əsaslanan öyrənmə üsulları idiomların mənimsənilməsini və yadda saxlanılmasını artırır.

Ümumilikdə, məqalədə vurğulanır ki, idiomların anlaşılması — kognitiv resurslar və kontekstual məlumatın qarşılıqlı təsiri nəticəsində yaranan interaktiv bir prosesdir və bu proses praktik anlamın və kommunikativ səmərəliliyin əldə olunmasında əsas rol oynayır.

КОГНИТИВНЫЕ И КОНТЕКСТУАЛЬНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПОНИМАНИЕ ИДИОМ

Р.Г.КАРИМОВА
Заведующая отделом международных связей
Аспирант кафедры английского языка и перевода
Нахичеванский государственный университет
ORCID: 0009-0006-2946-7378

Аннотация

Ключевые слова: понимание идиом, когнитивная обработка, контекст, нейролингвистика, теория метафоры, усвоение второго языка

Понимание идиом представляет собой сложный когнитивный и лингвистический процесс, требующий интеграции хранимых семантических знаний, контекстуальной интерпретации и выводного мышления. В данной статье рассматривается, как когнитивные и контекстуальные факторы совместно влияют на понимание идиоматических выражений как у носителей языка, так и у изучающих его как иностранный.

Опираясь на данные психолингвистики, нейролингвистики и когнитивной лингвистики, исследование анализирует роль памяти, внимания, скорости обработки информации и исполнительных функций в процессе извлечения и интерпретации идиоматических значений. Показано, что контекстуальные элементы — лингвистические, социальные и культурные — существенно влияют на понимание, направляя слушателей и читателей к фигуративной интерпретации и снижая когнитивную нагрузку.

Нейролингвистические исследования демонстрируют участие обоих полушарий мозга, что отражает взаимодействие между доступом к семантическому содержанию и контекстуальной интеграцией, тогда как индивидуальные когнитивные различия дополнительно определяют результаты интерпретации.

В статье также рассматриваются возрастные и межъязыковые различия: пожилые люди и изучающие второй язык чаще опираются на контекстуальные подсказки из-за ограниченного знакомства с идиомами. В педагогическом плане подчеркивается, что явное объяснение, контекстуализированная практика и мультимедийное обучение способствуют лучшему усвоению и запоминанию идиом.

В целом утверждается, что понимание идиом следует рассматривать как интерактивный процесс, в котором когнитивные ресурсы и контекстуальная информация действуют во взаимосвязи для достижения прагматического понимания и коммуникативной эффективности.

Rəyçi: f.ü.f.d. R.C.Cəfərli

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

HƏQİQƏT MEHDİYEVA
Azərbaycan Tibb Universiteti
hmehtiyeva@amu.edu.az

CÜMLƏLƏRİN STRUKTUR- TİPOLOJİ TƏHLİLİ

Alman dilində sadə müxtəsər cümlə yalniz cümlənin baş üzvlərindən, mübtadə və xəbərdən ibarətdir (sadə xəbərdən genişlənmiş xəbər növünə qədər.

Struktur planda alman, Azərbaycan və rus dillərindəki müxtəsər cümlə bir qədər fərqlənir, belə ki, Azərbaycan və rus dillərində mübtəda leksik vahid kimi çıxış edən söz birləşməsi ilə ifadə olunduğu halda, alman dilində əsasən mürəkkəb sözlər həmin mübtədalara ekvivalent olur.

Dəmir yol işləyir. Железные дороги работают. Die Eisenbahn funktioniert. Alman dilindəki ismi xəbərli sadə müxtəsər cümlələr çox vaxt Azərbaycan tək tərkibli cümlələrə uyğun gəlir: Es ist kalt. Soyuqdur.

Söz sırası. Alman sadə müxtəsər nəqli cümlələrində mübtədanın sadə və mürəkkəb, xəbərin ismi və feli formaları ilə ifadə olunmasından asılı olmayaraq, mübtəda cümlənin əvvəlində, xəbər isə sonunda dayanır.

Der Zug ist stehengeblieben. Qatar dayanmışdır. Поезд остановился.

Sözlərin bu cür sırası xəbərinin üzərinə məntiqi vurğu düşən Azərbaycan və rus dillərindəki müxtəsər sual cümlələrində də gözlənilir:

Ist der Zug stehengeblieben? Qatar dayandı? Поезд остановился?

Sadə geniş nəqli cümlə müxtəsər cümlədən ikinci dərəcəli üzvlərin olması ilə fərglənir.

Alman sadə geniş cümlələrində ikinci dərəcəli üzvlər müəyyən söz sırasına əsasən sıralanır, sadə geniş cümlənin düzgün və ya əks söz sırasından asılı olmayaraq ikinci yerdə durur. Düzgün söz sırasında mübtəda xəbərdən əvvəl, əks söz sırasında xəbərdən sonra dayanır. Ancaq mübtəda ilə xəbərin arasında cümlənin digər üzv

ləri işlədilə bilməzlər. Nəqli cümlədə birinci, üçüncü və axırıncı yer, xəbərdən başqa bütün cümlə üzvləri üçün azaddır. Nəqli cümlələrdə xəbərin ikinci yerdə durması alman söz sırası üçün qanunauyğundur.

Azərbaycan dilinin sadə geniş cümlələrində çox vaxt birinci yerdə xəbərlə ifadə olunmuş hərəkətin və ya hadisənin vaxtını və yerini bildirən ikinci dərəcəli üzvlər, sonra mübtadə, onlardan sonra hərəkətin məqsəd və səbəbini bildirən sözlər, daha sonra vasitəli və vasitəsiz tamamlıq və nəhayət xəbər dayanır.

Alman dilində cümlənin söz sırası bir-biri ilə əlaqədə olan sözlərin aralı (uzaq məsafədə) yerləşməsi prinsipi əsasında qurulur. Xüsusilə özünün yazılı formasında

ikinci dərəcəli üzvlər öz aralarında ardıcıl sıralanmanın sabitləşmiş normalarını saxlayır.

Şəxsi ifadə edən tamamlıq əşya bildirən tamamlıqdan əvvəl işlənir:

Er schenkte senem Freund ein Buch. – Wir mußten ihm alles erzählen.

Zaman zərfliyi yer zərfliyindən əvvəl gəlir:

Ich werde auf dich morgen an der Haltestelle werden.

Tərzi hərəkət zərfliyi zaman və yer zərfliyindən sonra gəlir:

Die Kinder bereiteten heute im Saal alles festlich vor.

Azərbaycan dilində morfoloji formaların çoxluğu və müxtəlifliyi, köməkçi sözlərin yüksək inkişaf etmiş sistemi söz sırasını həddindən artıq elastik edir, söz qurluşu vasitəsilə cümlədə semantik və sintaktik əlaqələri dəyişdirməyə yol verir.

Azərbaycan dilində söz sırası alman dilindəkindən daha çox ixtiyaridir və o sintaktik funksiyadan çox üslubi rolda çıxış edir. Ancaq Azərbaycan dilinin sərbəst söz sırasının əsasında mənaca bir-birinə sıx bağlı olan sözlərin yaxın mövqeyi və bilavasitə sintaktik asılılığı durur:

Dağlara səs düşdü. Səs dağlara düşdü.

Alman dili cümlənin başlıca xüsusiyyəti xəbərin dəyişilən və dəyişilməyən hissəsi funksiyasında işlənən felin cümlədə məcburi yeri olmasındadır:

Er hat verschiedene Bücher gelesen.

Alman dili cümləsinin spesifik xüsusiyyətlərindən biri də yalnız bu dildə çərçivə konstruksiyalarının mövcud olmasıdır. Həmin konstruksiyaların mahiyyəti budur ki, xəbər hissələrinə parçalanır və bu hissələr cümlədə ikinci və axırıncı yerlərə bölüşdürülür.

Çərçivə konstruksiyası çərçivənin sıxılması və genişlənməsinin bir neçə variantına malikdir:

Ich habe ihn gestern gesehen. Hast du ihn gesehen?

Gestern abend habe ich ihn im Theater gesehen.

Alman cümlələrində xəbərin birinci hissəsinin dəyişkənliyi ana dilinin təsiri ilə azərbaycanlı tələbələr üçün əsas çətinlik törədir.

Məlumdur ki, alman cümlələrində çərçivə konstruksiyası ayrılan ön şəkilçiləri də təşkil edə bilər. Bu halda fel ikinci yerdə dayanır, ön şəkilçiləri isə cümlənin sonuna doğru hərəkət edir.

Heute lege ich meine Prüfung ab.

Azərbaycanlı tələbələrin nitqi üçün ön şəkilçinin feldən ayrılması faktı qeyri adidir, buna görə də onlar üçün çətinlik təkcə ön şəkilçini feldən ayırmaqda deyil, həm də onu çərçivənin sonunda yerləşdirməkdir.

Çərçivə konstruksiyası həm də felin mürəkkəb formaları təşkil edə biliər. Belə ki, xəbərin təsrif edilən hissəsi həmişə ikinci yerdə, təsriflənməyən hissəsi isə cümlənin sonunda dayanır:

Ich habe schon meine Prüfung abgelegt.

Mən artıq imtahanımı vermişəm.

Əgər xəbər modal və əsas fellə ifadə olunmuş mürəkkəb feldən ibarətdirsə, bu halda çərçivə konstruksiyası əmələ gəlir.

Er will ihm dieses Buch schicken.

O ona bu kitabı göndərmək istəyir.

Çərçivə konstruksiyası azərbaycanlı tələbələrin ana dilində analoji hadisə olmadığı üçün ciddi çətinlik törədir.

Həmcins üzvlü cümlələr.

Həmcins üzvlü cümlələr, yəni bir neçə mübtəda, xəbər, tamamlıq, təyin, zərfliyi olan cümlələrhər üç dildə vardır və onların mənimsənilməsində ciddi çətinliklər müşahidə olunur.

Ich und mein Freund interessieren uns für Briefmarken und Postkarten und sammeln sie.

-Mən və dostum marka və otkritkalarla maraqlanır və onları toplayırıq.

Я и мой товарищ интересуемся почтовыми марками и открытками и собираем их.

Mürəkkəb cümlə.

Asərbaycan və rus dillərində olduğu kimi alman dilində də mürəkkəb cümlənin də iki növü vardır: tabesiz və tabeli mürəkkəb cümlələr.

Alman tabesiz mürəkkəb cümləsi öz aralarında bağlayıcılı və bağlayıcısız bağlana bilən iki və daha artıq cümlədən ibarətdir. Azərbaycanlı tələbələr üçün əsil çətinlik sözlərin sırasına təsir edən bağlayıcıların işlədilməsidir. Onlar bağlayıcıların bald...bald, entweder…oder, nicht nur…sondern auch, und, aber, denn, oder, auch, sowohl…als auch söz sırasına təsirini, cümlədə bağlayıcı sözlərin sintaktik rolunu nəzərə almırlar (danach, dann, darauf, darum, deshalb, deswegen).

Ich gehe zuerst zur Versammlung, dann gehen wir ins Kino.

Mən əvvəlcə iclasa gedirəm, sonra biz kinoya gedərik.

Heute bin ich sehr beschäftigt, denn ich fahre morgen nach Berlin.

Bu gün mən çox məşğulam, çünki mən sabah Berlinə gedirəm.

Alman dilində tabeli mürəkkəb cümlənin qurluşu Azərbaycan dilində olduğundan çox fərqlənir. Bu fərq aşağıdakılardan ibarətdir:

1)heç də bütün bağlayıcıların als,daß, wenn, ob və bağlayıcı sözlərin der, das, die, welche (nisbi əvəzlik) wo, wohin, wofür, wovon… (zərf, pronominal zərf) Azərbaycan dilində ekvivalenti yoxdur. Lakin bunu rus dilinə şamil etmək olmaz.

Həm rus dilində, həm də alman dilində bağlayıcı sözlər baş cümləni budaq cümləyə bağlamaqdan başqa, cümlə üzvüdə olurlar. Bağlayıcılar isə yalnız cümlələr arasında əlaqə yaratmaq vasitəsi kimi çıxış edirlər.

Wir kehren vom Felde nach Hause zurück, als wir die Arbeit beendet hatten.

Мы вернулись с поля домой, когда (союз) закончили работу.

Der Wald, der hinter unserem Dorf liegt, ist dicht.

Лес, который (союзное слово-подлежащее) расположен за нашей деревней, густой.

Meine Schwester fragte mich, wenn ich anrufen will.

Моя сестра спросила меня, кому (союзное слово-дополнение) я хочу позвонит по телефону.

Azərbaycan dilində ”çünki”, “əgər”, “hərçənd” bağlayıcıları “kim?”, “nə?”, “hər?” bağlayıcı sözləri “harada”, “nə qədər” nisbi əvəzlikləri budaq cümlənin əvvəlində durur. Bu quruluş alman dilinə də aiddir.

Bağlayıcı söz+fel kompleksi Azərbaycan dilinə bir qayda olaraq sadə cümlə şəklində, bir sözlə feli sifət, feli bağlama və felin şərt forması ilə tərcümə edilir:

als er kam – когда он пришел – o gələndə

der Student, der liest – студент, который читает-oxuyan tələbə

2)budaq cümlənin xüsusiyyəti:

a) alman dilində onun baş cümlədən fərqi birləşdirici sözlər söz sırası və fel forması ilə səciyyəviliyidir. Söz sırası bağlayıcı sözün mənasını tamamlayır və tabesiz mürəkkəb cümlənin struktur-kommunikativ tamamlığını təşkil edən sintaktik vasitələrə çevrilir.

Rus dilində də üç vasitədən yalnız biri- birləşdirici bağlayıcılar çıxış edir, söz sırası və fel forması həmin funksiyanı yerinə yetirmir.

b)Azərbaycan dili budaq cümləsindən fərqli olaraq bağlayıcı və ya bağlayıcı sözlərlə başlanan alman dili budaq cümləsində xəbər həmişə axırıncı yerdə dayanmalıdır.

Du weiß, dass er mein Freund ist. Sən bilirsən ki, o mənim dostumdur.

Der Lehrer sagte, dass wir bald fahren werden. Müəllim deyir ki, biz tezliklə gedəcəyik.

Mürəkkəb feli və ayrılan ön şəkilçili fel presens və imperfektdə bitişik yazılır.

Ich habe gehört, dass dein Vater morgen zurückkehrt.

Bu qaydalar adətən dili öyrənməyə başlayan azərbaycanlı tələbələr tərəfindən pozulur.

v) “sich” qayıdış əvəzliyi və “nicht” inkar hissəciyinin budaq cümlədə müəyyən yeri vardır.

“sich” bağlayıcı sözdən sonra:

Ich weiß nicht, wo sich dieser Student befindet. Lakin mübtəda şəxs əvəzliyi ilə ifadə olunarsa “sich” əvəzlikdən sonra yazılır.

Ich weiß nicht, wo er sich befindet.

“nicht” inkar hissəciyi budaq cümlədə feldən əvvəl yazılır.

Er sagt, dass er nicht kommt.

3) Budaq və baş cümlənin yerləşməsi, onların üzvlərinin sıralanması. Bu fərqlərin mövcudluğu tələbələrin tabeli mürəkkəb cümləni çətinliklə mənimsənilməsinə səbəb olur, buna görə onların nitqi quruluş cəhətdən çox sadə olur və onlar budaq cümlələri işlətməkdən çəkinirlə

Budaq cümlələrin təsnifatı

Sintaktik funksiyalarına görə hər üç dildə budaq cümlələrin növləri eynidir. Tabeli mürəkkəb cümlə ilkin mərhələdə aparıcı deyil. Bunu nəzərə alıb, bu bəhsi ötəri nəzərdən keçiririk.

Çətinlik budaq cümlələrin müxtəlif üsullarla düzəldilməsi və onların Azərbaycan dilində ifadə vasitələrindədir.

Alman dili budaq cümlələri bir çox hallarda Azərbaycan dilindəki feli sifət və feli bağlama tərkibli sadə geniş cümlələrə uyğun gəlir.

Tamamlıq budaq cümləsi

Alman dilində tamamlıq budaq cümləsi baş cümləyə bağlayıcılar və əvəzliklər vasitəsilə bağlanır: dass, wer, wann, wohin, womit …

Er sagt, dass er krank ist. O deyir ki, o xəstədir.
Er fraqt, wann wir arbeiten. O soruşur ki, biz nə vaxt işləyirik.
Ich weiß nicht, was du liest. Mən bilmirəm ki, sən nə oxuyursan.

Almn bağlayıcılarının azərbaycan dilində qarşılığı belədir:

dass, ob, wann ki, ki…nə vaxt
wer, was ki…kim, ki..nə
wem, wen ki...kimə, ki...kimi

Azərbaycan dilində baş və budaq cümlələrdə eyni mübtəda olarsa, budaq cümlədəki mübtəda buraxıla bilər. Alman dilində isə hər iki mübtədanın işlənməsi məcburi haldır:

Mən bilmirəm ki, yayda haraya gedəcəyəm. Ich weiß nicht, wohin ich im Sommer fahren werde.

Təyin budaq cümləsi

Alman dilində təyin budaq cümləsinin daimi başlıca əlaməti onun dərhal təyin olunan sözdən sonra işlənməsidndəir.

Təyin budaq cümləsindəki sözlər mübtəda və ya cümlənin ikinci dərəcəli üzvləri kimi çıxış edə bilirlər.

Darüber erzählte der Mann, der sich selbst daran teilgenommen hatte.

Die Studenten, mit denen wir gesprochen haben, sind aus Deutschland.

Budaq cümlələrin, xüsusilə çətin olan təyin budaq cümlələrinin öyrənilməsində rus dilinin Azərbaycan dili ilə ya tam, ya da qismən eyniyət təşkil edən konstruksiyaları üzərində işdən başlamaq daha məqsədəuyğundur.

Azərbaycan tələbələri üçün təyin budaq cümləsi budaq cümlələrin ən çətin növüdür. Belə ki, budaq cümlənin əvvəlində duran nisbi əvəzliklər bir tərəfdən cins və kəmiyyətə görə təyin budaq cümləsinin aid olduğu isimlə, digər tərəfdən şəxsə və kəmiyyətə görə budaq cümlənin xəbəri ilə uzlaşır.

Das ist die Sache, mit der ich nicht beschäftige. Ich schreibe eine Regel, die ich lernen muss.

Təyin budaq cümləsinin alman dilindən Azərbaycan dilinə tərcüməsi çətinlik doğurur.

Azərbaycan dilində təyin budaq cümləsi əksər hallarda feli sifət tərkibləri ilə əvəz olunur.

Rus dilində alman nisbi əvəzlikləri və nisbi zərfliklərinin qarşılığı olduğu halda Azərbaycan ədəbi dilində yoxdur. Əksər hallarda onların Azərbaycan dilində qarşılığı verilmir, nisbi əvəzliklərin sözbəsöz tərcüməsi ("kim ki", "hara ki", "nə ki") ana dilinin qurluşunu pozur.

Adlıq halında olan "der", "die", "das" nisbi əvəzlikli budaq cümlələr Azərbaycan dilinə feli sifətlərlə tərcümə olunur. Tərcümə zamanı nisbi əvəzlikli və önlüklü budaq cümlələr tam tərcümə olunmur: Der Zug, mit dem ich gekommen bin. Gəldiyim qatar ...

Təyin budaq cümlələrinin zaman formaları Azərbaycan dilində aşağıdakı vasitələrlə verilir:

Alman presensi –an(-ən, -yan) –yən şəkilçiləri ilə yaranmış indiki zaman feli sifətlə:

Der Student, der liest, schreibt. – Oxuyan tələbə yazır.

Alman imperfekti və perfekti Azərbaycan dilində həm –an/-ən, həm də -mış/-miş, -muş/-miş şəkilçiləri ilə yaranmış keçmiş zamzn feli sifətlə:

Der Mann, der das Kind holte - Uşağı gətirən kişi...

Der Lehrer, der mich gelehrt hat – Məni öyrətmiş müəllim …

-dıq,(dik, duq) –dük şəkilçili feli sifətlə:

Der Brief, den ich geschreiben habe... Yazdığım məktub

Der Mann, den ich sah – Gördüyüm kişi

Alman təyin budaq cümlələrindəki presens passiv Azırbaycan dilində felin indiki zaman məchul növü ilə düzələn feli sifətlə verilir:

Der Brief, der schreiben wird – Yazılan məktub...

Təyin budaq cümləsində məchul növ –mış/ -miş/ - mış/ -müş şəkilçililəri ilə yaranmış feli sifətlə ifadə olunur:

Der Brief, der geschrieben ist – Yazılmış məktub …

Zaman budaq cümlsi

Zaman budaq cümləsi baş cümləyə bağlayıcı və bağlayıcı sözlər vasitəsilə bağlanır. Azərbaycan dilindəisə o, aşağıdakı şəkildə öz qarşılığını tapır:

als, wenn – anda/əndə/yanda/yəndə

nachdem – andən/əndən/yandən/yəndən, sonra

sobald – elə ki, an/ən/yan/yən -ki

bevor - əvvəl

Sobald du kommst, rufe mich an! – Gələn kimi mənə zəng et!

Lakin çətinlik "als" və "wenn" bağlayıcılarının işlədilməsində özünü göstərir. Zaman budaq cümlələrində perfekt- presens və ya pluskvamperfekt – imperfekt nisbi zamanların işlədilməsi çətinliklə qavranılır.

Məqsəd budaq cümləsi

Məqsəd budaq cümləsi baş cümləyə müqayisə edilən rus və Azərbaycan dillərində öz qarşılığını tapan bağlayıcı və bağlayıcı sözlərlə başlandığından, Azərbaycan auditoriyası üçün qismən çətinlik yaratmır:

damit üçün, görə, ki

Ich schreibe den Text auf, damit du ihn nicht vergisst.

Mən mətni yazıram ki, sən onu yaddan çıxarmayasan.

Alman dili məqsəd budaq cümləsi yalnız məqsəd müxtəlif vasitələrlə ifadə olunduğu hallarda çətinlik törədir, başqa hallarda çətinlik o qədər hiss olunmur.

Səbəb budaq cümləsi

Səbəb budaq cümləsi müqayisə edilən dillərə uyğun olaraq baş cümləyə bağlayıcılar və bağlayıcı sözlərlə bağlanır və Azərbaycan auditoriyası üçün qismən çətinlik yaratmır:

weil, da – üçün, görə, səbəbdən, çünki

Da er krank ist, kommt er heute zum Unterricht nicht.

O, bu gün xəstə olduğu üçün dərsə gəlməyəcək.

Cümlələrin tərkibinə görə tipoloji təhlili

Alman cümləsinin başlıca xüsusiyyəti mübtəda və xəbərin mütləq mövcudluğudur, yəni alman dilində cümlənin ancaq cüttərkibli olmasıdır.Halbuki mübtədası şəxs əvəzliyi ilə ifadə olunan Azərbaycan dili cümləsində həmin mübtədanın buraxılması xarakterik haldır:

Wir arbeiten – İşləyirik. Ich schreibe – Yazıram

Digər fərqli xüsusiyyət alman cümlələrinin "fellilik" meylidir, daha doğrusu predikativlik xüsusiyyətidir. Belə ki, alman cümlələrində köməkçi fel "sein" ismi xəbərin vacib tərkib hissəsidir: Er ist Student. – O tələbədir.

Alman dilindən fərqli olaraq rus dilində "быть" köməkçi feli indiki zamanda işlənmir.

Мы студенты.

Mübtədanın nitq hissələri ilə ifadəsinə görə cümlələrin tipoloji təhlili.

Şəxsli cümlələrdə mübtəda isimlə və ya əvəzliklə ifadə olunur, eyni zamanda substantivləşmiş məsdərlə və ya məsdər qrupu ilə ifadə olunur:

Die Ferien ist zu Ende. Er ist Student. Er ist Flieger. Rauchen ist verboten.

Azərbaycan tələbələri üçün məsdər grupu ilə ifadə olunmuş mübtədanın qavranılması çətindir: Während der Aufführung zu sprechen ist verboten.

Azərbaycan və rus dillərindən fərqli olaraq alman qeyri - müəyyən şəxsli cümlələrində mübtəda "man" qeyri müəyyən şəxs əvəzliyi ilə ifadə olunur. Belə cümlələrdəki "man" əvəzliyi nə rus, nə də Azərbaycan dilinə tərcümə olunmur və müəyyən çətinliklər törədir.

Man schreibt. Yazırlar. (Felin III şəxs cəm forması)

Man muss viel lesen. Çox oxumaq lazımdır. Darf man fragen? Soruşmaq olarmı?

(Felin şəxssiz forması)

Bundan başqa şəxssiz cümlələrdə əgər iş görən yoxdursa (təbiət hadisələrində) və ya hərəkətin icraçısı məlum deyilsə, mübtəda cüttərkibli cümlənin qurluşuna xidmət edən "es" şəxssiz əvəzliklə ifadə olunub, cüttərkibli cümlənin formalaşmasına xidmət edir:

Es schneit. Qar yağır. Es gibt dort viele Menschen. Orda çoxlu adam var.

Alman şəxssiz cümlələrinə bəzi hallarda Azərbaycan dilinin cüttərkibli cümlələri uyğun gəlir.

Es ist warm. - Istidir. Hava istidir.

Es regnet. Yağış yağır.

Xülasə

Cümlələrin struktur- tipoloji təhlili

Məqalə alman, azərbaycan və rus dilində müxtəsər və mürəkkəb cümlələrin struktur olaraq fərqli və oxşar cəhətləri araşdırılır. Alman dilindəki sadə müxtəsər cümlələr əksər hallarda Azərbaycan dilində təktərkibli cümlələrə uyğun gəlir.

Alman sadə müxtəsər nəqli cümlələrin qurluşunda sadə və mürəkkəb mübtadə, ismi və feli xəbər olmasından asılı olmayaraq mübtəda cümlənin əvvəlində, xəbər isə sonunda dayanır. Bu cür söz sırası xəbərin üzərinə məntiqi vurğu düşən Azərbaycan və rus dillərində də gözlənilir.

Azərbaycan və rus dillərində olduğu kimi alman dilində də mürəkkəb cümlənin iki növü vardır: tabesiz və tabeli mürəkkəb cümlələr.

Alman tabeli mürəkkəb cümlənin qurluşu Azərbaycan dilində olduğundan çox fərqlənir. Sintaktik funksiyalarına görə hər üç dildə budaq cümlələrin növləri eynidir. Məqalədə həmçinin, alman dili qeyri-müəyyən şəxsli cümlələrin azərbaycan və rus dillərindən fərqinə də aydınlıq gətirilir.

Açar sözlər: sadə cümlə, mürəkkəb mübtadə, budaq cümlə, zaman formları, söz sırası

Structural Typological Analysis of Sentences.
Summary

This article investigates the structural similarities and differences between simple and complex sentences in German, Azerbaijani and Russian. In German, simple declarative sentences generally correspond to one-member sentences in Azerbaijani. In these sentences, regardless, of whether the subject is simple or compound, or whether the predicate is nominal or verbal, the subject is placed at the beginning of the sentence while the predicate appears at the end. This word order, which emphasizes the predicate, is also observed in Azerbaijani and Russian.

Similar to Azerbaijani and Russian, German distinguishes between two types of complex sentences: compound and subordinate. The structure of subordinate complex sentences in German differs considerably from that in Azerbaijani.

Nevertheless, in terms of syntactic function, the types of subordinate clauses are comparable across all three languages.

Furthermore, the article highlights the differences between German impersonal sentences and their Azerbaijani und Russian equivalents, providing a clearer understanding of cross-linguistic sentence structures.

Keywords: simple sentence, compound subjekts, subordinate clause, word order

Структурно-типологический анализ предложений.

Резюме

В статье рассматриваются структурные различия и сходства коротких и сложных предложений в немецком, азербайджанском и русском языках. Простые короткие предложения в немецком языке часто соответствуют односоставным предложениям в азербайджанском языке.

В структуре немецких простых кратких переходных предложений, независимо от того, есть ли в предложении простое или сложное подлежащее, существительное или глагол, подлежащее стоит в начале предложения, а глагол — в конце. Такой порядок слов также ожидаем в азербайджанском и русском языках, где логический акцент падает на подлежащее

Как и в азербайджанском и русском языках, в немецком языке существует два типа сложных предложений: независимые и придаточные.

Структура немецкого сложноподчинённого предложения существенно отличается от азербайджанского. Типы придаточных предложений во всех трёх языках одинаковы в силу их синтаксических функций.

В статье также объясняется различие между неопределённо-личными предложениями в немецком, азербайджанском и русском языках.

Ключевые слова: простое предложение, сложноподчинённое придаточное предложение, придаточное предложение, формы времени, порядок слов

İstifadə edilmiş ədəbiyyat:

1.Monika Reimann – Grundstufen – Grammatik. München 2020
2.Grammatik der Deutschen Sprache. M.G.Arssenyeva, E.V.Gassilevitsch, R.A.Tereschkova
3.Deutsch I Əminə Əliyeva. Bakı 2001
4. Deutsch II Əminə Əliyeva. Bakı 2001
5. Duden “Richtiges und gutes Deutsch”. Zürich 2011
6. Russisch – Deutsches Wörterbuch. Edmund Daum und Werner Schenk. VEB Verlag Enzyklopädie. Leipzig 1966

Rəyçi: f.e.d. prof.Zemfira Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

ƏDƏBİYYATŞÜNASLIQ

MÜŞFİQ BORÇALI (ÇOBANOV),
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Texniki Universiteti,
ORCİD 0009-0008-86842722; mborcali@gmail.com;

XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÜRCÜ POEZİYASINDA AZƏRBAYCAN MÖVZUSU

XÜLASƏ

Məqalədə XIX əsrin sonu və XX əsrin əvvəllərində gürcü poeziyasında Azərbaycan mövzusu araşdırılır. Göstərilir ki, Azərbaycan ədəbiyyatında gürcü həyatı təsvir olunduğu kimi, gürcü ədəbiyyatında, o cümlədən, gürcü poeziyasında da Azərbaycan həyatı və məişəti daim əks olunmuş və xalqın müsbət obrazları yaradılmışdır. Gürcü poeziyasında Azərbaycan həyatı, xalqın tarixi, qəhrəman keçmişi, adət və ənənələri, xalqlar arasındakı dostluq, qarşılıqlı dialoq münasibətləri və s. əsas mövzulardan biri olmuşdur. Xüsusilə də, Azərbaycan qaçaqlıq hərəkatı, azərbaycanlı qaçaqların mərdliyi, igidliyi gürcü ədəbiyyatı üçün gözəl mövzular vermişdir. Bu mövzunu gürcü ədəbiyyatında XIX əsrin ortalarından daha çox müşahidə edirik. Azərbaycanda baş verən böyük ictimai, iqtisadi və siyasi irəliləyişlər gürcü mətbuatında və gürcü ədəbiyyatında, o cümlədən, gürcü nəsrində və gürcü dramaturgiyasında olduğu kimi, gürcü poeziyasında da öz geniş əksini tapmışdır. Bir çox gürcü şairləri iç-içə yaşadıqları Azərbaycan xalqını yaxşı tanıdıqlarına və onların həyatına yaxından bələd olduqlarına görə Azərbaycan mövzusunu bu və ya digər şəkildə zaman-zaman geniş şəkildə təsvir etmişlər. Bu təsvirlər məhz XIX əsrin sonu və XX əsrin əvvəllərində gürcü poeziyasında daha geniş şəkildə ehtiva olunmuşdur. Bu ehtiva, iki dost və qonşu xalqın, eləcə də, qədim tarixə və zəngin ədəbi dostluq əlaqələrinə malik olan ədəbiyyatlar arasındakı yaxınlıqdan irəli gəlmiş, onların dostluq, qonşuluq və qardaşlıq şəraitində yaşamaları bədii düşüncəyə də sirayət etmişdir. Həmin dövrdə yaşayıb-yaratmış görkəmli gürcü şairləri Rafael Eristavi (1824-1901), Georgi Dvanadze (1829-1886), İlya Çavçavadze (1837-1907), Akaki Tsereteli (1840-1915), Aşıq Hazira **(**1845-1922), İvane Qomelauri (1867-1951), Aleksandr Abaşeli (1884-1954), Vasil Qorqadze (1895-1973) və b. Azərbaycana həsr etdikləri poetik nümunələrdə gürcü oxucusuna böyük sevgi və məhəbbətlə Azərbaycan haqqında ətraflı məlumatlarla yanaşı, həm də, onun tarixi keçmişi, adət-ənənələri, qaçaqlıq hərəkatı, xalq qəhrəmanları, igid oğulları, mərd qaçaqları, eləcə də, təbii gözəlliklərilə tanış olmaq imkanı vermişlər. Sözsüz ki, bu da Azərbaycan və gürcü

xalqlarının dostluğunun daha da möhkəmlənməsinə, Azərbaycan-gürcü ədəbi əlaqələrinin daha yüksək səviyyədə inkişafına xidmət etmiş və bu gün də xidmət etməkdədir.

Açar sözlər: Azərbaycan, gürcü, şair, yazıçı, jurnalist, publisist, publisistika, mətbuat, əsər, şeir, poema, poeziya, nəsr, hekayə, povest, roman, pyes, dram, yaradıcılıq, təsvir, qaçaqlıq, dastan, dostluq, Koroğlu, Qaçaq Kərəm, Qarabağlı Qaçaq Aslan bəy

MUSHFIG BORCHALI (CHOBANOV),
PhD in Philology,
Azerbaijan Technical University,
ORCID 0009-0008-86842722; mborcali@gmail.com;

THE AZERBAIJAN THEME IN GEORGIAN POETRY AT THE END OF THE 19TH AND EARLY 20TH CENTURY

SUMMARY

The article studies the Azerbaijani theme in Georgian poetry at the end of the 19th and beginning of the 20th centuries. It is shown that just as Georgian life is depicted in Azerbaijani literature, Azerbaijani life and everyday life have always been reflected in Georgian literature, including Georgian poetry, and positive images of the people have been created. In Georgian poetry, Azerbaijani life, national history, heroic past, customs and traditions, friendship between peoples, mutual dialogue relations, etc. have been one of the main themes. In particular, the Azerbaijani refugee movement, the courage and bravery of Azerbaijani refugees have provided wonderful themes for Georgian literature. We have been observing this theme in Georgian literature more since the middle of the 19th century. The great social, economic and political developments taking place in Azerbaijan have found their broad reflection in Georgian press and Georgian literature, including Georgian prose and Georgian dramaturgy, as well as in Georgian poetry. Many Georgian poets, knowing the Azerbaijani people with whom they lived closely and being closely acquainted with their lives, have from time to time depicted the theme of Azerbaijan in one way or another in a broad manner. These depictions were more widely included in Georgian poetry precisely at the end of the 19th and beginning of the 20th centuries. This interest arose from the closeness between the two friendly and neighboring peoples, as well as the literatures that have ancient history and rich literary friendship ties, and their living in conditions of friendship, neighborliness, and brotherhood has also affected artistic thought. Famous Georgian writers and public figures who lived and worked during that period - Ivane Yevlakhishvili (1824-1888), Vasili Barnov (1856-1934), Giorgi Tumanov-Tumanishvili (1856-1920), Ilya Khoneli (1859-1900), Shio Aragvispireli (1867-1926), Giorgi Amilakvari (1870-

1924), Irodion Evdoshvili-Khositashvili (1873-1916), Mikheil Javakhishvili (1880-1837) and others. In his artistic and journalistic works, famous Georgian playwrights Zurab Antonov (1820-1854), Ivane Mchedlishvili (1870-1933), Anton Purtseladze (1839-1913), etc. In their stage works, they gave extensive space to the theme of Azerbaijan, as did prominent Georgian poets Rafael Eristavi (1824-1901), Giorgi Dvanadze (1829-1886), Ilya Chavchavadze (1837-1907), Akaki Tsereteli (1840-1915), Ashig Khazira (1845-1922), Ivane Gomelauri (1867-1951), Aleksandr Abasheli (1884-1954), Vasil Gorgadze (1895-1973), etc. In the poetic examples they dedicated to Azerbaijan, they gave the Georgian reader the opportunity to get acquainted with Azerbaijan with great love and affection, as well as with its historical past, customs and traditions, the movement of refugees, folk heroes, brave sons, brave refugees, and also its natural beauties. Undoubtedly, this has served to further strengthen the friendship between the Azerbaijani and Georgian peoples and to further develop Azerbaijani-Georgian literary relations, and continues to serve them today.

Keywords: Azerbaijan, Georgian, poet, writer, journalist, publicist, journalism, press, work, poem, poem, poetry, prose, story, narrative, novel, play, drama, creativity, description, fugitiveness, epic, friendship, Koroglu, Qachag Kerem, Qachag Aslan bey from Karabakh

МУШФИГ БОРЧАЛИ (ЧОБАНОВ),
кандидат филологических наук,
Азербайджанский технический университет,
ORCID 0009-0008-86842722; mborcali@gmail.com;

АЗЕРБАЙДЖАНСКАЯ ТЕМА В ГРУЗИНСКОЙ ПОЭЗИИ КОНЦА XIX – НАЧАЛА XX ВЕКА

РЕЗЮМЕ

В статье рассматривается азербайджанская тема в грузинской поэзии конца XIX – начала XX веков. Показано, что подобно тому, как грузинская жизнь изображается в азербайджанской литературе, жизнь и быт азербайджанцев всегда находили отражение в грузинской литературе, в том числе и в грузинской поэзии, создавая позитивные образы народа. В грузинской поэзии азербайджанская жизнь, национальная история, героическое прошлое, обычаи и традиции, дружба между народами, взаимовыгодные отношения и т. д. были одними из основных тем. В частности, движение азербайджанских беженцев, мужество и отвага азербайджанских беженцев стали прекрасными темами для грузинской литературы. Мы наблюдаем эту тему в грузинской литературе ещё с середины XIX века. Грандиозные социально-экономические и политические события, происходившие в Азербайджане, нашли широкое отражение в

грузинской прессе и литературе, включая грузинскую прозу и драматургию, а также в грузинской поэзии. Многие грузинские поэты, близко зная азербайджанский народ, с которым они жили, и будучи близко знакомы с его жизнью, время от времени в той или иной форме обращались к теме Азербайджана. Эти образы получили наиболее широкое распространение в грузинской поэзии именно в конце XIX – начале XX веков. Этот интерес был обусловлен близостью двух дружественных и соседних народов, а также литературами, имеющими древнюю историю и богатые литературные связи, и их жизнь в условиях дружбы, добрососедства и братства также повлияла на художественную мысль. Известные грузинские писатели и общественные деятели, жившие и творившие в этот период - Иване Евлахишвили (1824-1888), Василий Барнов (1856-1934), Георгий Туманов-Туманишвили (1856-1920), Илья Хонели (1859-1900), Шио Арагвиспирели (1867-1926), Георгий Амилаквари. (1870-1924), Иродион Евдошвили-Хоситашвили (1873-1916), Михаил Джавахишвили (1880-1837) и другие. В своих художественных и публицистических произведениях известные грузинские драматурги Зураб Антонов (1820-1854), Иванэ Мчедлишвили (1870-1933), Антон Пурцеладзе (1839-1913) и др. В своих сценических произведениях они уделили большое место теме Азербайджана, как и выдающиеся грузинские поэты Рафаэль Эристави (1824-1901), Георгий Дванадзе (1829-1886), Илья Чавчавадзе (1837-1907), Акакий Церетели (1840-1915), Ашиг Хазира (1845-1922), Иванэ Гомелаури (1867-1951), Александр Абашели (1884-1954), Васил Горгадзе (1895-1973) и др. В поэтических примерах, посвященных Азербайджану, они дали возможность грузинскому читателю С большой любовью и нежностью знакомиться с Азербайджаном, его историческим прошлым, обычаями и традициями, движением беженцев, народными героями, отважными сынами, смелыми беженцами, а также с его природными красотами. Несомненно, это послужило дальнейшему укреплению дружбы между азербайджанским и грузинским народами, дальнейшему развитию азербайджано-грузинских литературных связей и служит им и по сей день.

Ключевые слова: Азербайджан, грузин, поэт, писатель, журналист, публицист, журналистика, пресса, произведение, стихотворение, поэма, поэзия, проза, рассказ, повествование, роман, пьеса, драма, творчество, описание, бегство, эпос, дружба, Кёроглу, Гачаг Керем, Гачаг Аслан бек из Карабаха

Giriş

Gürcü ədəbiyyatında Azərbaycan mövzusu, Azərbaycan xalqının həyatı, tarixi keçmişi, adət və ənənələri, məişəti, xalqlar arasındakı dostluq, qarşılıqlı dialoq münasibətləri tarixən əsas mövzulardan biri olmuşdur. Bu ənənə XIX əsrin sonları və XX əsrin əvvəllərində daha da inkişaf etmişdir. Həmin illərdə Azərbaycanda baş

verən böyük ictimai-siyasi, iqtisadi və mədəni irəliləyişlər gürcü mətbuatında və gürcü ədəbiyyatında, o cümlədən də, gürcü nəsrində və gürcü dramaturgiyasında olduğu kimi, gürcü poeziyasında da öz geniş əksini tapmışdır. Bir çox gürcü şairləri iç-içə yaşamaları səbəbindən çox yaxşı tanıdıqları, eyni zamanda, folkloruna, ədəbiyyatına və mədəniyyətinə daha yaxşı bələd olduqları qonşu Azərbaycan xalqının həyatını öz əsərlərində zaman-zaman bu və ya digər şəkildə təsvir etmişlər. Bu təsvirlər gürcü poeziyasında daha geniş şəkildə ehtiva olunmuşdur. Bu ehtiva, iki dost və qonşu xalqın, eləcə də, qədim tarixə və zəngin ədəbi dostluq əlaqələrinə malik olan ədəbiyyatlar arasındakı yaxınlıqdan irəli gəlmiş, onların dostluq, qonşuluq və qardaşlıq şəraitində yaşamaları bədii düşüncəyə də sirayət etmiş, nəticədə xalqlarımız arasındakı dostluq və qardaşlıq münasibətləri daha da möhkəmlənmişdir.

Tədqiqat

XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Gürcüstanda yaşayıb-yaratmış məşhur gürcü yazıçıları və ictimai xadimləri - İvane Yevlaxişvili (1824-1888), Vasili Barnov (1856-1934), Georgi Tumanov-Tumanişvili (1856-1920), İlya Xoneli (1859-1900), Şio Araqvispireli (1867-1926), Georgi Amilaxvari (1870-1924), İrodion Evdoşvili-Xositaşvili (1873-1916), Mixeil Cavaxişvili (1880-1837) və b. gürcü və rus dillərində nəşr olunan qəzet və jurnallarda, toplu və kitablarda çap olunmuş öz bədii və publisistik əsərlərində, tanınmış gürcü dramaturqları Zurab Antonov (1820-1854), İvane Mçedlişvili (1870-1933), Anton Purtseladze (1839-1913) və b. yaratdıqları səhnə əsərlərində Azərbaycan mövzusuna geniş yer verdikləri kimi, görkəmli gürcü şairləri Rafael Eristavi (1824-1901), Georgi Dvanadze (1829-1886), İlya Çavçavadze (1837-1907), Akaki Tsereteli (1840-1915), Aşıq Hazira **(**1845-1922), İvane Qomelauri (1867-1951), Aleksandr Abaşeli (1884-1954), Vasil Qorqadze (1895-1973) və b. Azərbaycana həsr etdikləri poetik nümunələrdə gürcü oxucusuna böyük sevgi və məhəbbətlə Azərbaycan haqqında, xüsusilə də, Bakı, Gəncə, Naxçıvan, Qazax, Quba, Zaqatala, Şəki, Qarabağın müxtəlif güşələri, o cumlədən, qədim Şuşa şəhəri haqqında ətraflı məlumatlarla yanaşı, həm də, Azərbaycan xalqının tarixi keçmişi, adət-ənənələri, qaçaqlıq hərəkatı, xalq qəhrəmanları, igid oğulları, mərd qaçaqları, eləcə də, təbii gözəlliklərilə tanış olmaq imkanı vermişlər. *(Borçalı, 2014)*

Azərbaycan həyatının gürcü ədəbiyyatında daha geniş şəkildə görünməsinin başqa bir səbəb isə XIX əsrin sonlarında Bakının artıq böyük neft və sənaye şəhəri kimi məşhurlaşması, burada baş verən yeniliklər, müxtəlif hadisələr olmuşdur. Beləliklə, klassik gürcü ədəbiyyatından fərqli olaraq son yüz əlli illik gürcü ədəbiyyatında, xüsusilə də, gürcü poeziyasında Azərbaycan həyatının daha geniş şəkildə təsvir olunduğunun və azərbaycanlıların bədii obrazlarının yaradıldığının şahidi oluruq. Daha dəqiq desək, Azərbaycan həyatı, xalqımızın adət və ənənələri, keçdiyimiz şanlı yol, Azərbaycan və gürcü xalqlarının yadelli işğalçılara qarşı birgə mübarizədə möhkəmlənmiş dostluğu gürcü ədəbiyyatını maraqlı mövzularla zənginləşdirmişdir.

XIX əsrin əvvəllərindən başlayaraq gürcü poeziyasında daha intensiv xarakter almış Azərbaycan mövzusu, Azərbaycana həsr edilmiş şeirlərin mövzu və problematika baxımından müxtəlif olmasına baxmayaraq, hər birinin ideyasında qardaşlıq, dostluq motivləri vardır. Bu da xalqların və ədəbiyyatların inteqrasiyasından doğmuşdur. Azərbaycan həyatına dərin maraq göstərən gürcü şairləri yalnız öz əsərlərində azərbaycanlı obrazı yaratmamış, eyni zamanda ədəbi mühitdə birgə fəaliyyət göstərmişlər. Belə ki, həmin dövrdə A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundzadə və başqalarının Tiflis ədəbi mühitində yaşamaları, gürcü xalqı ilə yaxından tanış olmaları, Azərbaycan və gürcü ziyalılarının, ədəbiyyat adamlarının qarşılıqlı münasibətləri formalaşmışdır.

Gürcüstanın bir sıra şairləri Tiflisdə yaşayıb-yaratmış Azərbaycanın gökrəmli yazıçısı Mirzə Fətəli Axundzadəyə şeirlər həsr etmişlər. Onu da qeyd eləyək ki, həmin illərdə gürcü şairlərinin ilk ithaf şeirləri məhz M.F.Axundzadəyə həsr olunmuşdur.

Aleksandr Vissarionoviç Abaşeli *(ალექსანდრე (ისააკ) ბესარიონის ძე აბაშელი, 1884-1954)* və **Vasil Qorqadze** *(ვასილ გორგაძე, 1895-1973)* M.F.Axundzadənin xatirəsinə həsr etdikləri şeirlərdə Azərbaycan xalqının bu görkəmli şəxsiyyətinə öz məhəbbətlərini ifadə etmişlər.

Tanınmış gürcü şairi və fantastika yazıçısı, ilk gürcü elmi fantastika romanının (1932) müəllifi **Aleksandr Abaşeli** (1884-1954) *"M.F.Axundzadənin xatirəsinə"* şeirində bu görkəmli fikir adamının Gürcüstanda "qanad açması"nı, "böyük arzuları"nın və hikmət dolu yazılarının buradan dünyaya işıq saçmasını, həm də Azərbaycan və gürcü xalqının tarixdən gələn qardaşlıq və dostluq münasibətlərini poetik şəkildə əks etdirmişdir. Alxan Binnətoğlunun ana dilimizə tərcümə etdiyi həmin şeirdə oxuyuruq:

Gürcüstanda qanad açdı
Onun böyük arzuları.
Dünyamıza işıq saçdı
Hikmət dolu yazıları.
***
Dolaşdıqca dost elləri
Obamızdan ilham aldı
Orbeliani nəğmələri*
Ürəyində yuva saldı.

**M.F.Axundzadənin dostu gürcü şairi Qriqol Orbeliani (1800-1881) nəzərdə tutulur.*

Şair öz şeirində Azərbaycan və gürcü xalqalarının dostluğunun və qardaşlığının tarixini Nizami və Rustaveliyə bağlayır, yaxın əməl dostunu xatırlayır, dostu sevən diyarda yazıb yaratdığını ifadə edir:

Arzu, əməl dostlarına
O ən yaxın sirdaş oldu.

Nizamiylə Rustaveli
Nəsilləri qardaş oldu.

***

Yolu çətin yol olsa da
Hey çalışdı, hey vuruşdu,
Dostu sevən dost diyarda
Bu dostluğa nəğmə qoşdu.(Abaşeli)

Şeirdən görünür ki, şairin M.F.Axundzadənin hətta cavanlığında A.S.Puşkinin ölümünə yazdığı poemasından da xəbəri olub. Şair M.F.Axundzadənin rus şairləri A.S.Puşkin və M.Y.Lermantovun ölümlərinə yas saxladığını, öz şeiri, nəğməsiylə hayqıraraq "cəlladların fitvasına" cavab verdiyini dilə gətirir:

Cəlladların fitvasilə
Puşkin qurban gedən zaman,
Dərdli qəlbi gəldi dilə
Misraların arxasından.
***
Lermontovtək geyib qara
O hayqırdı var səsilə.
Yas saxladı nəğməkara
Öz şeiriylə, nəğməsilə. (Abaşeli).

Odlar yurdu Azərbaycanın dünyaya belə bir insan bəxş etməsini təqdir edən şair onu "dostluğun tərcümanı" adlandırır:

O dostların kədərini
Öz dərdi tək duyasıydı.
O, dostluğun tərcümanı,
O, qardaşlıq dünyasıydı.
***
Qəlbimizdə yaşayacaq
Xatirəsi hər bir zaman,
Qoy var olsun Axundovu
Bu dünyaya bəxş eləyən
Odlar yurdu Azərbaycan! (Abaşeli).

Tiflisdə yaşayıb-yaratmış gökrəmli Azərbaycan yazıçısı Mirzə Fətəli Axundzadəyə şeir həsr etmiş gürcü şairlərindən biri də **Vasil Qorqadze**dir (1895-1973). Onun azərbaycanlı dramaturqa səmimi hisslərlə yazdığı şeirdə təkcə ona olan münasibətini əks etdirməmiş, eyni zamanda, iki xalqın mehriban, dostluq münasibətlərindən də bəhs etmişdir:

Tiflisə gələndə kövrəkiydin sən,
Bu yurd məlhəm oldu dərdə, ağrına,
Bu aydın səmalı, bu gözəl vətən

Səni bala kimi basdı bağrına. (Qorqadze).

Şairə görə, Tiflisə gələndə gənc, kövrək olan Mirzə Fətəliyə bu yurd məlhəm oldu hər dərdinə, ağrısına, bu aydın səmalı "gözəl vətən" onu bir "bala" kimi bağrına basdı. Şeirdə gəlinən poetik qənaət bundan ibarətdir ki, burada uyuyan qəbrini Tiflis torpağı hər zaman qoruyacaq:

Hördün gürcülərə şeirinlə çələng
Dilədin xalqıma səadət dəmi,
Gah şirincə nəğmə qoşdun Vaqif tək,
Gah qəmli oxudun Vidadi kimi. (Qorqadze).

M.F.Axundzadənin zəngin, çoxcəhətli yaradıcılığı Tiflis ədəbi-ictimai mühitində yalnız Azərbaycan üçün deyil, həm də gürcü ədəbi mühiti üçün yeni bir səhifə idi. Onun əsərlərində qoyduğu problemlər, yaratdığı obrazlar, ifadə etdiyi ideyalar təkcə bütün Qafqaz xalqlarını, eləcə də Yaxın Şərqi oyatmaq yolunda atılan ciddi addımlar idi.

Sənin xatirini gözəl Gürcüstan
Əziz saxlayacaq, Mirzə Fətəli!
Qoruyar qəbrini hey zaman-zaman
Bu Tiflis torpağı, Gürcüstan eli! (Qorqadze).

Vasil Qorqadzenin M.F.Axundzadəyə həsr olunan bu poeziya nümunəsini professor Adil Mişiyev 1987-ci ildə Tbilisidə nəşr olunmuş "Azərbaycan yazıçıları və Tiflis ədəbi-bədii mühiti (1820-1905)" kitabında gürcü bədii fikrinin görkəmli Azərbaycan yazıçısına verdiyi qiymət kimi dəyərləndirmiş, M.F.Axundzadənin zəngin, çoxcəhətli yaradıcılığını Tiflis ədəbi-ictimai mühiti tarixində yeni bir səhifə adlandırmış və böyük dramaturqun burada qələmə aldığı əsərlərin təkcə Azərbaycan xalqını deyil, bütün Qafqaz xalqlarını, bütün Yaxın Şərqi oyatmaq, ayağa qaldırmaq yolunda atılan ciddi addımlar kimi qiymətləndirmişdir. Bu mənada zəngin tarixi-mədəni ənənələrə malik çoxmillətli Tiflis ədəbi mühiti Axundzadə üçün XIX əsr şəraitində ən gözəl və əlverişli tribuna olmuşdur: "Doğma Azərbaycan ədəbiyyatı ənənələrinə əsaslanan M.F.Axundzadə rus və gürcü xalqlarının mütərəqqi fikirli nümayəndələri ilə çiyin-çiyinə verərək həmin tribunadan məharətlə istifadə etmişdir. Bu mənada Axundzadəni Tiflis ədəbi-ictimai mühiti xaricində, bu mühiti isə böyük ədib və materialist-filosof Axundzadəsiz təsəvvür etmək mümkün deyildir". *(Mişiyev, 1987)*

XIX əsrdə gürcü şairlərini ən çox maraqlandıran mövzulardan biri də Azərbaycanda qaçaqçılıq hərəkatı idi. Bildiyimiz kimi, həmin dövrdə qaçaqçılıq hərəkatı çara və çarın Rusiya imperiyasına qarşı mübarizənin formalarından biri kimi Cənubi Qafqazda, Rusiyada və digər ərazilərdə geniş yayılmışdı. Bu hərəkat yazı-çılara, o cümlədən, gürcü ədiblərinə, gürcü şairlərinə də yeni mövzular vermişdir. Gürcü şailəri mövcud siyasi sistemi, rus işğalını qəbul etməyib qaçaqçılıq edənlərin həyatına şeirlər və poemalar həsr etmişlər. Görünür, onları cəlb edən də ən çox qaçaqçılıq hərəkatında işğala qarşı mübarizə motivləri olmuşdur. Azərbaycanın xalq

dastanlarının qəhrəmanları Koroğlu, Qaçaq Kərəm, Qaçaq Nəbi, Qaçaq Aslan, Mehralı bəy, Dəli Alı və onların silahdaşlarının şərəfinə qoşulmuş şeirlər, nəğmələr, dastanlar, qoçaqlamalar, söyləncələr gürcülər arasında da geniş yayılmış və bu, gürcü ədəbiyyatında da əhatəli şəkildə öz əksini tapmışdır. Gürcü ədibləri Azərbaycan qaçaqçılıq hərəkatını xüsusi diqqətlə izləmiş, öz ədəbiyyatlarını qəhrəmanlıq mövzusunda yazdıqları əsərlərlə zənginləşdirmişlər. Bu barədə ayrı-ayrılıqda müxtəlif jurnallarda çap etdirdiyimiz *"XIX əsrin sonu və XX əsrin əvvəllərində gürcü mətbuatında və gürcü nəsrində Azərbaycan mövzusu", "Gürcü dramaturgiyasında Azərbaycan mövzusu", "Gürcü ədəbiyyatında Koroğlu obrazı", "Koroğlu" eposunda Gürcüstan faktoru", "Koroğlu" eposunun coğrafiaysı, yaranma, nəşri və təbliği tarixi", ""Koroğlu" eposu - ümumtürk xalqlarının ortaq qəhrəmanlıq abidəsi", "Gürcü ədəbiyyatında Koroğlu obrazı", "Gürcü ədəbiyyatında Qaçaq Kərəm obrazı", "Gürcü ədəbiyyatında Qaçaq Aslan bəy obrazı"* və s. məqalələrimizdə ətraflı məlumat vermişik. İndi isə konkret olaraq XIX əsrin sonu və XX əsrin əvvəllərində daha intensiv xarakter almış gürcü poeziyasında Azərbaycan mövzusu haqqında söhbət açacağıq.

Yeri gəlmişkən qeyd edək ki, görkəmli gürcü yazıçı və dramaturqu, daha dəqiq desək, gürcü dramaturgiyasının qurucularından, eyni zamanda, ilk tanınmış aktyor və rejissorlarından olan **Zurab Antonov** *(ზურაბ ანტონოვი, 1820-1854)* 1853-cü ildə eyniadlı Azərbaycan xalq dastanın motivləri əsasında yazdığı ilk gürcü faciəsi olan 4 pərdəli *"Koroğlu" ("ქოროღლო")* pyesində yaratdığı əsas qəhrəman - Koroğlu obrazı gürcü səhnəsində xalqın havadarı olan, onun azadlığı uğrunda vuruşan, sosial ədalətsizliyə qarşı mübarizə aparan və həm də, yoxsulları təmsil edən ilk qəhrəman idi. *(Yeni gürcü ədəbiyyatı, 1972, 300)* Elə buna görə də, Zurab Antonovun *"Koroğlu"* dramında yaratdığı əsas qəhrəmanı - yoxsul kəndliləri müdafiə edən və istismarçılara qarşı qəhrəmancasına mübarizə aparan Koroğlunu Gürcüstanda sadə gürcü xalqı da öz milli qəhrəmanları kimi sevmiş, ona böyük hörmət və məhəbbət bəsləmişdir. Həmin illərin mətbuatını vərəqlədikdə, açıq-aydın görünür ki, "Koroğlu" adlı dördpərdəli dram əsəri, əsl hadisə kimi qarşılanmış, *"Kavkaz"* qəzeti özünün 1853-cü il 6 iyun tarixli sayında pyes haqqında geniş məqalə çap etmiş və elə həmin il Tiflisdə ayrıca kitab şəklində çap olunan *"Koroğlu"* əsərinin "gürcü dilində ilk gözəl dram" olduğunu, oxucular və tamaşaçılar tərəfindən rəğbətlə qarşılandığını yazmışdır.

Zurab Antonovun *"ქოროღლო"- "Koroğlu"* (1853) adlı dram əsəri, o dönəmlərdə çox məşhur olmuş, dəfələrlə gürcü səhnəsində göstərilmiş, 1862-də Tiflisdə təkrarən ayrıca kitabça halında nəşr edilmişdir. Müəllifin *"Koroğlu"* dramının yaranma tarixi haqqında məlumat verərkən qeyd etdiyinə görə, faciənin məzmununu **İvane İvanoviç Yevlaxov (Yevlaxişvili)** *(ივანე ივანეს ძე ევლახოვ (ევლახიშვილი), 1824-1888)* tərəfindən yazılmış və 1849-cu ildə çapdan çıxmış *"Şamlıbel dərəsi"- "შამლიბელის ველი"- "Шамлыбельскаѐ долина"* əsərindən götürmüşdür. İ.Yevlaxişvilinin əsərinin süjet zəminində də Azərbaycan eposunun

dayandığını göz önündə tutaraq deyə bilərik ki, elə Z.Antonovun "Koroğlu"su da Azərbaycan xalq dastanının motivləri əsasında qələmə alınmışdır. *(Hacıyev, 2001, 52).*

Zurab Antonovun *"ქოროღლო"- "Koroğlu"* (1853) əsərinin qısa məzmunu 1876-cı ildə ***"Droeba" ("დროება")*** qəzetinin N:32-34-cü saylarında dərc olunmuş, ***"İveria" ("ივერია")*** qəzetinin 1889-cu il N:103, 117, 120-ci saylarında isə əsərin Mixeil Tamaraşvilinin köməyi ilə Aslan İsmayılov tərəfindən Azərbaycancaya tərcümə edilərək, bir neçə dəfə Tiflisdə Azərbaycan dilində tamaşaya qoyulması haqqında məlumatlar verilmişdir. *(Məmmədli, 2022, 107)*

Ümumiyyətlə, gürcü ədəbiyyatında Koroğluya həsr olunmuş əsərlərin sayı çoxdur. Bu da sözsüz ki, gürcü ədiblərinin Azərbaycan qaçaqlıq hərəkatına olan böyük maraqlarından irəli gəlirdi. *(Bu barədə ötən məqalələrimizdə ətraflı məlumat vermişik, yeri gəldikcə növbəti məqalələrimizdə də ətraflı məlumat verəcəyik.- M.Ç.)* Göründüyü kimi, həmin əsərlərdə gürcü oxucusuna Azərbaycanın və Azərbaycan xalqının həyatı, tarixi keçmişi, adət-ənənələri, təbii gözəllikləri, xalq qəhrəmanları, igidliyi ilə ad çıxaran adıbəlli qaçaqları, o cümlədən də, Azərbaycanın məşhur xalq qəhrəmanı Koroğlunun mərdliyi, cəsarəti, dönməzliyi, qorxmazlığı, mübarizliyi və s. haqqında ətralı məlumat verilir. Sözsüz ki, bu da, Azərbaycan və gürcü xalqlarınının dostluğunun daha da möhkəmlənməsinə, həmçinin, Azərbaycan-gürcü ədəbi əlaqələrinin daha yüksək səviyyədə inkişafına xidmət edir.

Görkəmli gürcü şairi, tanınmış folklorşünas, etnoqraf və tərcüməçi **Rafael Davidoviç Eristavi** *(რაფიელ დავითის ძე ერისთავი, 1824-1901)* də dünya xalqlarının *"İliada", "Odisseya", "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış"* və s. əsərləri ilə bir cərgədə dayanan *"Koroğlu"* dastanını dərindən öyrənmiş və xalq rəvayəti əsasında *"Koroğlu"* adlı şeir yazmışdır.

Göründüyü kimi, azərbaycanlılarla bərabər başqa xalqların yazıçıları da, o cümlədən, gürcü şairləri də gürcü mətbuatında və gürcü ədəbiyyatında Azərbaycanın xalq qəhrəmanı Koroğluya şeirlər, poemalar və pyeslər həsr edərək onun bədii obrazını yaratmış, bir çoxları isə öz əsərlərində Koroğlunun adını çəkmiş, onun qəhrəmanlığından söhbət açmışlar. Onu da qeyd etməliyik ki, bir çox gürcü şairləri Koroğlu kimi, igid Qaçaq Kərəmi də, Qarabağlı Qaçaq Aslan bəyi də və başqalarını da kifayət qədər işıqlandırmış, onlar haqqında da bir-birindən gözəl əsərlər yaratmışlar. Təkcə Qafqazda və Kubanda deyil, İran və Türkiyədə də məşhur olan Qaçaq Kərəmin qəhrəmanlığı elə onun öz dövründəcə yazıçıların diqqətini cəlb etmişdir. Xüsusilə də, Qaçaq Kərəmin mübarizəsi, qəhrəmanlığı, onun insan və şəxsiyyət azadlığını hər şeydən üstün tutması, zülmə və istismara qarşı barışmazlığı XIX əsrin sonunda gürcü ədəbiyyatını maraqlandıran ictimai problemlərlə ahəngdarlıq təşkil etmişdir. Ona görə də, gürcü yazıçıları həyatın tələbinə, dövrün irəli sürdüyü məsələlərə cavab verən bir qəhrəman kimi Qaçaq Kərəmi elə sağlığındaca, hələ onun mübarizəsinin bütün kəskinliyi ilə davam etdiyi bir dövrdə bədii ədəbiyyata gətirmişlər.

Qaçaq Kərəmin geniş ad-san qazanması, qəhrəmancasına mübarizə aparması yuxarıda da qeyd etdiyimiz kim, qonşu gürcü xalqının bədii söz ustalarına da ilham vermişdir. Məşhur gürcü yazıçıları və ictimai xadimləri - Anton Purtseladze (1839-1913), Vasili Barnov (1856-1934), Georgi Tumanov-Tumanişvili (1856-1920), Georgi Amilaxvari (1870-1924), İvane Mçedlişvili (1870-1933) və başqaları öz bədii və publisistik əsərlərində Qaçaq Kərəmdən böyük həvəs və məhəbbətlə bəhs etmişlər.

Qaçaq Kərəmin bədii surətini yaratmaq üçün gürcü yazıçılarının ixtiyarında müxtəlif mətbuat orqanlarının səhifələrində dərc olunmuş kifayət qədər məlumat, həmçinin, rəsmi sənəd və materialar var idi. Xüsusən Qaçaq Kərəmin Qafqaz canişinliyinin mərkəzi olan Tiflis şəhərinə yaxın qəzalarda - Qazaxda və Borçalıda fəaliyyət göstərdiyindən onun başçılıq etdiyi hərəkat daim hökumət dairələrinin diqqət mərkəzində olmuş, Tiflisin gürcü və rusdilli mətbuatı Qaçaq Kərəmin və onun dəstəsinin fəaliyyətini daim və ardıcıl olaraq izləmişdir. Bütün bunlar isə Qaçaq Kərəmi təkcə rəsmi mətbuatın deyil, həm də Azərbaycan və gürcü yazılı ədəbiyyatlarının da məşhur qəhrəmanlarından birinə çevirmişdir. Onu da qeyd edək ki, XIX əsrin II yarısında gürcü yazıçılarının ən çox müraciət etdikləri mövzulardan biri qaçaqlıq olduğu kimi, ən çox tərənnüm etdikləri qəhrəman da məhz Qaçaq Kərəm olmuşdur. Həmin illərdə geniş vüsət alan qaçaqçılıq hərəkatı qəhrəmanlarından heç biri, Gürcüstanda, istər el arasında, istər şifahi xalq yaradıcılığında, istər yazılı ədəbiyyatda, istərsə də rəsmi hökumət mətbuatında, Qaçaq Kərəm qədər məşhur olmamışdır. El qəhrəmanlarının xalq ədəbiyyatında təcəssümünün araşdırıcısı Rüstəm Rüstəmzadənin də təsbit etdiyi kimi, qaçaq Kərəm haqqında *"daha çox ədəbi əsəri məhz gürcü ədibləri yazmışdır" (Rüstəmzadə 1984, s.86).* Bu da onunla əlaqədar idi ki, Qaçaq Kərəm gürcü dilini bildiyi üçün Gürcüstana tez-tez gedirdi. İgid Kərəmin qəhrəmanlıqla dolu olan mənalı ömrünün müəyyən məqamları məhz Gürcüstanla, Tiflislə, Borçalı-Başkeçid-Qarayazı-Qaraçöp ellərilə bağlı olmuşdu.

Qaçaq Kərəmə həsr olunmuş əsərlər içərisində tanınmış gürcü yazıçı və dramaturqu **İvane Estates dze Mçedlişvili**nin *(ივანე ესტატეს ძე მჭედლიშვილი, 1870-1933)* dörd pərdəli, üç şəkilli *"Qaçaq Kərəm" ("ყაჩაღი ქაირემ"- "Qaçağı Kiarima")* pyesi daha çox məşhurlaşıb. Əsərin ilk əlyazmasının mətni hazırda Gürcüstan Milli Arxivinin (keçmiş Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin) Qafqaz senzura komitəsi fondunda saxlanılır. *(Fond 480/1/1087; Məmmədli, 2022, s.71)* Onu da qeyd edək ki, İvane Mçedlişvili də M.Qorki kimi, öz əsərinin ilk əlyazmasında Qaçaq Kərəmin adını adını *"ყაჩაღი ქაირემ"- "Qaçağı Kierima" (Fond, 480/1-/978)* kimi yazsa da, əsər 1912-də Hüseyn Mirzəcamalov tərəfindən tərcümə olunaraq "Qaçaq Kərəm" adı ilə Tiflisdə, Bakıda, Gəncədə, Naxçıvanda, Qazaxda və başqa şəhərlərdə Azərbaycan dilində tamaşaya qoyulmuş, sonralar bir neçə dəfə çap olunmuş və elə bu adla da sevilmişdir.

Əsərə diqqət yetirdikdə və həmin dövrün gürcü mətbuatını vərəqlədikdə, açıq-aydın şəkildə görünür ki, yazıçı öz əsərinin süjet özəyini qurmaqda, ayrı ayrı epi-

zodların təsvirində mətbuat materiallarına söykənmişdir. *"Droeba"* qəzetinin 1885-ci ildə 151-ci sayında çap olunmuş *"ქორამის ამბები"- "Kərəmin əhvalatları"* adlı müxbir qeydlərində Kərəmin sevgilisinin və anasının, *"İveria"* qəzetinin 1886-cı ildə 197-ci sayında dərc olunmuş digər bir yazıda isə qardaşlarının da həbsxanada olması barədə məlumat verilmişdir.

Göründüyü kimi, mövzusu və süjet xətti gürcü milli mətbuatında Azərbaycan qaçaqlıq hərəkatının öncüllərindən olan Qaçaq Kərəm haqqında dərc olunmuş çoxsaylı məqalə və məlumatlardan götürülmüş *"ყაჩაღი ქორამი"- "Qaçaq Kərəm"* pyesində əsərin qəhrəmanı Qaçaq Kərəm əməkçi xalqa münasibətdə açıqqəlbli, mərhəmətli, səxavətli, xeyirxah, səmimi və mehriban dəstə başçısıdır, lakin siyasətpərəst çar məmurlarına və yerli istisrmarçı zalımlara qarşı çox qəddar və olduqca amansızdır. Özünün alçaq düşməni Rəhim xanı evində yaxalasa da, Kərəm onu öldürmür, bu qəddar adamı meşəyə aparıb vəhşi heyvanlar arasına buraxmaqla qurda-quşa yem edir. Pyesdə Qaçaq Kərəmin Koroğlunun Nigarını xatırladan, ismətli, sədaqətli, tədbirli bir sevgilisi vardır. Bu Rəhim xan tərəfindən qaçırılan Seyrəb xanımdır. Seyrəb bəhanə ilə Rəhim xandan altı ay möhlət alır, axırda da öz sevgilisinə qovuşur. Qazan xanın Burla xatunu, Koroğlunun Nigarı kimi o da öz əri ilə bərabər silah qurşanır, at minir, döyüşə atılır.

Gürcü milli mətbuatında dərc olunmuş yazılardan yararlanmış şairlərdən biri də, Sayat-Novanın məşhur varisi, həm də musiqiçi və qaval ustası kimi tanınan **Aşıq Hazira** ***(****əsl adı və soyadı: Abram Abramov; 1845, Şulaveri - 1922, Tiflis; ამული ჰაზირა (ნამდვილი სახელი და გვარი: აბრამ აბრამოვი; 1845, შულავერი - 1922, თბილისი)* olmuşdur.

Poeziyasında əsasən vətənpərvərlik və ictimai mövzuların üstünlük təşkil etdiyi Aşıq Hazıra öz həmkarları və davamçıları arasında böyük nüfuz sahibi idi, onu ustad - Amkari sənətkarlar birliyinin rəhbəri - ustabaşı adlandırırdılar. Yetirmələri Gürcüstanın şəhər və kəndlərini gəzərək öz müəllimlərinin mahnılarını yayırdılar, o cümlədən, *"Qalx, Kraliça Tamar, Gürcüstan sənin üçün ağlayır", "Sübh harda açılırsa, qalx, işlə, sən!"* və s. uyğun misralarını oxuyur, bununla da onun əsərlərinin emosional təsirini gücləndirirdilər.

Aşıq Haziranın yaradıcılığında əlyazması hazırda Gürcüstan Milli Arxivinin Qafqaz senzura komitəsi fondunda qorunub saxlanılan *"ყაჩაღი ქორამი"- "Qaçaq Kərəm"* pyesi *(Fond, 480/1/978)* xüsusi yer tutur. Dörd pərdəli, üç şəkilli əsərdə Kərəm zəhmətkeşlərin mənafeyini çar məmurlarından, yerli bəylərdən mərdliklə qoruyan milli qəhrəman, bütün xalqlara insancıl münasibət bəsləyən mübariz olaraq vəsf edilir. Elə senzor da bu əsərin səhnədə tamaşaya qoyulmasını ona görə mümkünsüz saymışdır ki, *"Qaçaq Kərəm pyesdə mərdcəsinə şücaətlər göstərən, özünü həmişə insancıl, təmiz aparan xalq qəhrəmanı olaraq tanıtılır". (Fond, 480/1/699: 184;Məmmədli, 2022, s.72)*

Gürcü dilində bir-birindən gözəl, oynaq bayatıların, gəraylıların, qoşmaların, təcnislərin müəllifi olan Aşıq Hazira *(1845-1922)* Qaçaq Kərəmi gürcü oxucularına Azərbaycan xalqının milli qəhrəmanı kimi təqdim etməklə yanaşı, onu həm də başqa xalqlara humanist münasibət bəsləyən bir beynəlmiləlçi kimi xarakterizə etmişdir.

Aşıq Haziranın *"Qaçaq Kərəm"- "ყაჩაღი ქართველი"* pyesi ilə mətbuatda dərc olunmuş məqalələr arasında *("Droeba"* qəzetinin 1885-ci ildə çap olunmuş № 150-ci sayında dərc olunmuş məqalə ilə - M.Ç.) paralellərə diqqət yetirən professor Şurəddin Məmmədli yazır ki, "Müxbir Soliko Dilcanda, Ağstafadan 25 verst aralı Karvansaray və Tərsaçay stansiyaları arasında tanığı olduğu bir əhvalatı, Kərəmin yolla gəlib gedənləri bir yerə toplayaraq, haqq ədalət divanı qurmasını, hamıyla mərdanə rəftar etməsini yerli yataqlı qələmə almışdır. Öz əsərinin birinci pərdəsini bu müxbir məktubu əsasında yazan Aşıq Hazira qocaların, qadınların və uşaqların əlindən qaçaq yoldaşlarının aldıqları zinət şeylərini Kərəmin geri qaytarması epizodunu önə çəkmişdir." (*Məmmədli, 2022, s.70) "Droeba"* qəzeti 1885-ci ildə çap olunmuş 191-ci sayında bildirmişdir ki, Kərəm onun adından istifadə edən bir neçə adamı yaxalamışdır. Aşıq Hazira da əsərinin ikinci pərdəsində Kərəmin öz fırıldaqçı adaşını tapmasını qeyd etmişdir.

Tanınmış gürcü nasiri və dramaturqu **Aleksandre Kazbeqi** (1848-1893) *"ქართველ ბორჩალოელი ყაჩაღი"- "Borçalılı Qaçaq Kərəm"* adlı pyes yazmışdır. Əsərdə olaylar Dilcan ormanlarında cərəyan edir. Kərəm ağaların, bəylərin azğınlığından cana doymuş mərd mübariz olaraq təsvir edilir. Əsərin epizodlarından birində də qaçaq Tanrıverdi qürurla deyir: *"Kərəm qartaldır, onu heç kəs qorxuda bilməz".(Məmmədli, 2022, s.73)*

Tanınmış gürcü yazıçısı, şairi, tərcüməçisi və publisisti **Anton Nikolozi Purtseladze** *(ანტონ ნიკოლოზის ძე ფურცელაძე, 1839-1913)* də 1885-ci ildə Kərəmin qaçaqçılıq fəaliyyətindən bəhs edən dörd pərdəli *"Qaçaq Kərəm"* adlı musiqili səhnə əsəri *"ყაჩაღი ქართველი"- "Qaçaq Kərəm"* operası yazmışdır. *(Rüstəmzadə, 1998, s.117-120)*

Qaçaq Kərəmin haqqında XIX əsrin II yarısında və XX əsrin əvvəllərində yaşayıb-yaratmış gürcü ədiblərindən Aleksandre Kazbeqi, Aşıq Hazira, İvane Mçedlişvili, Qomeli və başqalarının Qaçaq Kərəm haqqında bədii əsərləri Azərbaycan el şairləri Göycəli Məhəmmədin, Poladlı Qul Vəlinin, Qazaxlı Qəmli Hüseynin dastanlarıyla, şeirləriylə tipoloji səsləşmədədir. *(Məmmədli, 2022, s. 69)* El sənətkarları da öz nəğmələrində, dastanlarında mərd, şücaətli qəhrəmanı vəsf ediblər, el şairləri onunla bağlı yüzlərlə şeirlər, nəğmələr qoşublar. Gürcü müəlliflərindən İlya Xoneli *"Qaçaq Kərəm",* Denis Kozlovski *"Qaçaq Kərəm",* polkovnik V.Kazaçkovski *"Qafqaz qaçaqları"* sərlövhəli oçerklər yazmışlar. Həmçinin, Georgi Tumanişvili, Georgi Amilaxviri, jurnalist Soliko və başqaları Azərbaycanın xalq qəhrəmanlarına, qaçaqlıq hərəkatının liderlərinə, o cümlədən də, Qaçaq Kərəmə bir sıra bədii və publisistik əsərlər həsr etmişlər.

Gürcü mətbuatında, xüsusilə də, *"Droeba"* qəzetinin 1885-ci ildə çap olunmuş 110, 150 və 151-ci saylarında dərc olunan xəbərlərdən, atasının qisasını almaq ehtirasıyla qılınc qurşayan hünərli igid - Qaçaq Kərəmə aid yazılardan ilhamlanan gürcü şairi **Qomeli** (გომელი) Qaçaq Kərəmə bir qoçaqlama şeir həsr etmişdir. Şeir Kərəm hərəkatının gərgin çağında 1886-cı ildə Tiflisdə E.Xeladzenin mətbəəsində gürcü dilində nəşr olunmuş *"ყაჩაღი ქაარიმა"- "Qaçaq Kərəm"* kitabında *("Qaçağı Kiarima". Leksi Qomelisa da sxva leksebi «Qaçaq Kərəm». (Qomelinin şeiri və başqa şeirlər, Tiflis, 1886, 14 səh.)* verilmişdir *(Qomeli 1886; Şurəddin, bu kitaba əlavə 12)*. Qomelinin *"Qaçaq Kərəm" (გომელი, ყაჩაღი ქაარიმა)* mənzuməsi ilə açılan bu şeirlər toplusunun *"Qaçaq Kərəm"* adlandırılması və elə həmin qoçaqlama ilə açılması Azərbaycan xalğının mərd qəhrəmanına rəğbətin ifadəsi və güclü məhəbbətin nümunəsidir.

Qoçaqlamanın müəllifi "Qomeli" təxəllüslü şair **İvane Qomelauri** *(ივანე მიხეილის ძე გომელაური, 1867-1951)* olduğu bildirilir (Şuğliaşvili 1950: 39). İvane Qomelauri Siqnaxi qəzasının Mirzaani kəndində doğulmuş, uzun müddət müəllim işləmişdir. *"Qaçaq Kərəm"* kitabının yayınlandığı 1886-cı ildə Tiflis müəllimlik institutunda tələbə idi. Dövrünün tanınmış publisist və şairi olub. *"Droeba", "İveriya"* qəzetlərində, *"Teatri", "Kvali"* jurnallarında və digər mətbu orqanlarda müxtəlif səpgili yazıları və şeirləri ilə çıxış edib. Onun *"Qaçaq Kərəm"*dən başqa daha bir neçə kitabı çap olunub.

Azərbaycan ədəbiyyatşünaslığı üçün xüsusi əhəmiyyətə malik olan bu kitabdakı *"Qaçaq Kərəm"* şeiri iki hissədən ibarətdir. Birinci hissədə üç bənd var.

Kərəmin zənginlərin qənimi, kasıbların havadarı kimi, igid Koroğlunun varisi kimi tərənnüm edilən mənzumədə İlya Çavçavadzenin bu bir bənd şeiri epiqraf seçilib.

რომ ბედში მყოფი შენ ძმად მიგაჩნდეს,
ეგ ვერაფერი სიყვარულია,
სიტყვა ის არის, კაცს ის უყვარდეს,
ვინც ბედისაგან დაჩაგრულია.

Sətri tərcümə:

Sən mənə tale qardaşı kimi görünürsən,
Bu yerdə sevgi gücsüz qalar,
Söz budur ki, kişi onu sevsin,
Kim taledən əzab çəkmiş. (Məmmədli, 2022, s.72)

Şeirin birinci hissəsində qaçağın xalqa, kütlənin də ona dayaq olduğu bədii boyalarla ifadə edilir:

როგორც რო გვესმის ქცევა ქერიმის,
საფიქრელია, ჟრუანტელ გვივლის,
ყაჩაღობაზე თავ დადებული

დღეს ღობე ყურეს ის მოდებული!

Kərəmin mərdliyi ün salıb elə,
Zalımlar canına düşüb vəlvələ,
Qaçaqlıq yayılıb eldə obada,
Haq uğruna canlar verilir fəda.

Qəhrəmanın dilindən verilən ikinci hissədə Kərəm qalın ormanlarda qisas hissiylə qan düşməninə cəngi oxuyur:

Vurur qəlbim qisas üçün ehtirasla,
Qoy tək-tənha evdə qalsın arvad-uşaq.
And içirəm, and içirəm, inan, əsla
Yağı düşmən sağ-salamat qalmayacaq!.. (Məmmədli, 2022, s.74)

On beş bənddən ibarət olan ikinci hissə qəhrəmanın öz dilindən verilib:

Qaçaqlığı özüm üçün seçdim peşə,
Gədiklərdə keçdi daim ömrüm-günüm!
Xalğa, elə arxalandım mən həmişə,
Uzaq-uzaq obalardan gəlir ünüm! (Məmmədli, 2022, s.74)

Şeirdə Qaçaq Kərəm mərd, cəsur, "varlıların düşməni, qənimi", "yoxsulların havadarı, pənahı" kimi vəsf edilir. Yuxarıda qeyd etdiyimiz kimi əslən Qazax qəzasının Qıraq Kəsəmən kəndindən olan Qaçaq Kərəm (Kərəm İsgəndər oğlu Mollazalov) atasının 1884-cü ildə yerli bəylər tərəfindən öldürülməsindən sonra qaçaqlığa başlayıb. Bu şeirdə Kərəm öz atasının qisasını almaq ehtirası ilə alışıb yanan bir qəhrəman kimi verilir.

Razıyam mən namus ilə gedim qəbrə,
Düşmənimdən qoy intiqam alım təki.
And içmişəm, şahid olub bu dağ-dərə,
Qisas üçün titrəyirəm yarpaq təki.
Söylə, zaman, ədalətin sənin hanı?
İnan, yerdə qalmayacaq ata qanı! -

Qomelinin bu sətirlərlə bitən 18 bəndlik "Qaçaq Kərəm" mənzuməsinin tərənnüm pafosu, mübarizlik, mərdlik, intiqam ruhuyla Kərəm haqqında dastanlarımıza, aşıqlarımızın qoçaqlama qoşmalarına, özəlliklə də Aşıq Qəmli Hüseynin dastanına yaxın olması bizə cəsarətlə deməyə haqq verir ki, bu şeir Azərbaycan xalqının igid oğlu haqqında yazılmış ən gözəl qəhrəmanlıq nəğmələrindən biridir.

XIX əsrdə yaşayıb-yaratmış və öz sələflərinin gözəl ənənələrini ləyaqətlə davam etdirən gürcü şairi **Georgi Dvanadze**nin *(გიორგი სვიმონის ძე დვანაძე, 1829-1886)* 1878-ci ildə Tiflisdə gürcü dilində ayrıca kitabça şəklində çapdan çıxmış *"Qarabağlı Qaçaq Aslan bəy" ("ყარაბაღელი ყაჩაღი ასლან ბეგი")* poeması da qaçaqçılıq mövzusuna həsr olunmuşdu. Onun Azərbaycan xalqının qəhrəman oğlu Qarabağlı Qaçaq Aslan bəy obrazını yaratmaqda və onu gürcü ədəbiyyatında xalqın azadlığı uğrunda mübariz kimi təsvir və tərənnüm etməkdə əsas məqsədi, həm də

gürcülərdə vətənpərvərlik, igidlik, mərdlik, qəhrəmanlıq və ədalət hissləri tərbiyə etmək olmuşdur.

Poema hər cür təbii sərvətlə zəngin olan, tarlaları göz işlədikcə uzanan, pambıq və yun, ipək və düyü, arpa və buğda, kilim və xalça kimi məhsulları ilə məşhur olan, köhlən atları ilə xüsusi olaraq böyük şöhrət tapmış Qarabağın tərifi ilə başlayır:

Qarabağ dediyin ulu bir diyar,
Sərvətlə, nemətlə dolu bir diyar.
Tarlalar uzanır göz işlədikcə,
Onları suvarır dumduru çaylar

Ətrafda ucalan möhtəşəm dağlar
Bu gözəl torpağa keçik çəkirlər.
Yerlərin sahibi igid türklərdir,
Pambıq becərirlər, çəltik əkirlər. (Dvanadze, 1878: s. 3-4).

Tərcümənin ikinci bəndində şair *"Ətrafda ucalan möhtəşəm dağlar,/Bu gözəl torpağa keşik çəkirlər"* - misraları ilə söhbətin Qarabağın dağlıq hissəsindən, yəni Dağlıq Qarabağdan getdiyi, sonrakı misralarda isə Qarabağın yalnız türklərin, yəni azərbaycanlıların əlində olduğu göstərilir.

Bu əsər sözün həqiqi mənasında XIX əsrdən boylanan bədii sənəd kimi Dağlıq Qarabağın əsil sahiblərinin kim olduğunu göstərir. Bu diyar tarixən öz igid qaçaqları ilə məşhur olmuşdur. Georgi Dvanadzeni də, hər şeydən əvvəl, bu məsələ maraqlandırmışdır; Qarabağda qaçaqçılığın qəhrəmanlıq işi olması, insan ləyaqətinin onunla ölçülməsi *"Bilməsə qaçaqlıq hər hansı oğlan,/Qızlar ötüb keçər eləsindən yan",* - sözlərilə aydın olur. Yəni:

Əgər bacarmırsa oğlan qaçaqlıq, ona heç bir qız diqqət yetirməz (Dvanadze, 1878: s. 5).

Gürcü şairi Qarabağın əsrarəngiz gözəlliyinə, füsunkarlığına, heyvanlar aləminə vurğundur. O yazır ki, ceyranlar, cüyürlər sürüsünü görəndə insan dərdini tamamən unudur, təbiətin gözəlliyindən intəhasız ləzzət alır. Bu diyar həm də öz igidləri ilə, adıbəlli qaçaqlarıyla məşhurdur.

Bolluq məskənidir başdan-ayağa,
Heç kəs möhtac deyil çörəyə, yağa.
İpəyi, parçası aşıb daşıbdır,
Kilimi, xalçası məşhurlaşıbdır.

Dünyada tanınır atları onun,
Min dərdə dərmandır otları onun.
Ətrafa baxanda ürək sevinir,
Arzu qanadlanır, dilək sevinir. (Dvanadze, 1878: s. 3-4).

Aslan poemada mərd, cəsarətli, qəhrəman, bəylərə qan udduran igid bir qaçaq kimi təsvir edilir. Yeri-yurdu qalın və keçilməz meşələr olan bu igid üç dəfə

həbsxanadan qaçmışdır. Onu yenidən, dördüncü dəfə tutmaq son dərəcə çətindir, çünki özü sərrast atəş açmağı hamıdan yaxşı bacarır, peşəkar bir ustadır, başına topladığı dəstə isə hamıdan güclü və qorxmazdır. Çar mayoru Qriqoryev və Qarabağ xanı Şirxan bu dəstəyə qarşı mübarizədə son dərəcə zəif görünürlər:

Qovğalardan çıxmış dəstəsi hər an,
Güzəştə getməmiş yada heç zaman.
Vuruşmuş, çarpışmış hədsiz hünərlə
Dönmüş məskəninə yalnız zəfərlə. (Dvanadze, 1878: s. 23).

Müəllif Aslan bəyin igidliyindən çox böyük həvəs və ilhamla söhbət açır, onu "polad qəlbli insan" adlandırır, "zəhmli qılıncı ilə düşmənin bağrını yardığını" göstərir.

"Qarabağlı Qaçaq Aslan bəy" poeması gürcü ədəbiyyatında qaçaqçılıq və qəhrəmanlıq mövzusunda yazılmış olduqca qiymətli əsərlərdən biridir. Həm də ona görə ki, qaçaqçılıq hərəkatına kənar bir baxışdır. Bizim üçünsə tariximizə nəzər salmaqdan, keçmişimizə qayıtmaqdan ötrü əvəzsiz ədəbi abidədir, qiymətli mənbədir. Burada Qarabağ xanlığı, İbrahim xan, Cavanşir xan haqqında söhbət gedir. Bunlar tarixi şəxsiyyətlərdir. Çox ehtimal ki, Aslan bəyə qarşı mübarizədə aciz olan, qaçağı yalnız hiylə işlətmək yolu ilə ələ keçirməyə çalışan çar zabiti – mayor Qriqoryev də o dövrdə Çarın jandarm idarəsində xidmət etmiş adamdır. Belə olduğu halda, Aslan bəy obrazını sırf gürcü şairinin təxəyyülünün məhsulu hesab etmək düzgün olmazdı.

Əhatəsində olduğu tarixi şəxsiyyətlərə əsasən deyə bilərik ki, Qarabağlı Aslan bəy Qaçaq Nəbidən və Qaçaq Kərəmdən əvvəl yaşamış, xalqın azadlığı uğrunda mübarizə aparmış tarixi şəxsiyyətdir. Bir çox məqamlardan göründüyü kimi, poemada Azərbaycanın Rusiyaya birləşdirilməsinin ilk dövrləri, yəni XIX əsrin 20-30-cu illərinin əvvəlləri təsvir edilir. Qarabağda ermənilərdən əsər-əlamətin olmaması, rusların bir azərbaycanlı qaçağın öhdəsindən gələ bilməmələri və s. dediyimizi sübut edir. Poemada Qarabağın yalnız türklərin doğma yurdu olduğu göstərilir. Bu əsər XIX əsrdən boylanan tutarlı fakt kimi Dağlıq Qarabağda guya ermənilərin çoxluq təşkil etdiyindən ağzı köpüklənə-köpüklənə danışanlara, qondarma erməni soyqırımını canfəşanlıqla tanıyanlara və tanımaq istəyənlərə, Qarabağ müharibəsi zamanı öz pulu ilə tank alıb ermənilərə göndərən və özü demişkən, Ermənistanın qərbində-Fransada yaşayan Şarllara, bir də onların okeanın o tayındakı havadarlarına tutarlı cavabdır, özgə torpağında "öz müqəddəratlarını həll edib" torpaqla birlikdə Ermənistana qovuşmaq xülyasında olanlara ən gözəl xatırlatma və ən ciddi xəbərdarlıqdır. *(Sabutay, M.)*

Bundan əlavə poemada verilən bəzi cizgilərdən göründüyü kimi, Aslan bəy Georgi Dvanadzenin müasiri olmuşdur. Deməli, Aslan bəy özü də qaçaq Nəbi, qaçaq Kərəm kimi xalqın azadlığı uğrunda mübarizə aparan tarixi şəxsiyyətdir.

XIX əsrin ikinci yarısında Azərbaycan və gürcü xalqları arasında dostluq əlaqələrinin möhkəmlənməsinə çalışan ədiblərdən biri də, gürcü millətçiliyinin dirçəlişinə öncülük etmiş, çar hakimiyyətinin son onilliklərində gürcü dilinin, ədəbiy-

yatının və mədəniyyətinin yaşamasını təmin etmiş görkəmli gürcü ictimai xadimi, gürcülərin *"Millətin atası"* adlandırdıqları və ən çox hörmət etdikləri ziyalı, yazıçı-jurnalist, naşir və şair **İlya Qriqoryeviç Çavçavadze** *(ილია ჭავჭავაძე, 1837-1907)* olmuşdur. Onun Azərbaycan qaçaqlarının həyatından bəhs edən poeması isə bir qədər fərqlidir. Burada gürcü qaçaqları azərbaycanca danışır, Kako onun dəstəsinə qoşulmaq istəyən qaçağı - Zaxarini dostcasına qarşılayır, dost kimi gəldiyini bildikdən sonra ona azərbaycanca "xoş gəldin" deyir. Poemada Kakonun azərbaycanca "xoş gəldin" deməsi maraqlı suallar doğurur: əsərin qəhrəmanı onun dəstəsinə qoşulmaq istəyən atlını nə üçün azərbaycanca salamlayır? Kakonun yanına gələnmi azərbaycanlıdır, yoxsa Kakonun özümü? Bizə elə gəlir ki, "xoş gəldin" ifadəsi əsərə təsadüfi düşməmişdir. Müəllifin Zaxari adı ilə verdiyi qaçaq, görünür, azərbaycanlı olmuşdur və elə buna görə də əsərin qəhrəmanı Kako onu azərbaycanca salamlamışdır. Buradan Kakonun da azərbaycanca bildiyini söyləmək mümkündür.

Bir sözlə, gürcü ədəbiyyatında, gürcü poeziyasında Koroğlu da, Qaçaq Kərəm də, Qarabağlı Qaçaq Aslan bəy də, Dəli Alı da, eləcə də, digər qaçaqlarımız, xalq qəhrəmanlarımız və el igidlərimiz olaraq tanıdılmışdır.

Nəticə

Göründüyü kimi, XIX əsrin sonu və XX əsrin əvvəllərində gürcü poeziyasında Azərbaycan mövzusunun başlıca yer tutduğunu, gürcü şairlərinin yaradıcılığında, onların bir sıra əsərlərində Azərbaycan həyatının, xüsusilə də Azərbaycan qaçaqçılıq mövzusunun xüsusilə geniş planda işıqlandırılmasının və onların bu mövzuya daha tez-tez müraciət etmələrinin şahidi oluruq. Azərbaycanlı qaçaqların mərdliyi, igidliyi gürcü poeziyası üçün gözəl mövzu olub. Bu da aydındır; çünki burada çara və çarın Rusiya İmperiyasına qarşı mübarizə var idi. Gürcü şairləri bu mövzunu qabartmaqla, əslində gürcü xalqını da mövcud mütləqiyyətə qarşı öz sözünü deməyə səsləyirdi. Bu da maraqlıdır ki, gürcü yazılı ədəbiyyatından fərqli olaraq, Azərbaycan yazılı ədəbiyyatında, istər milli poeziyada, nəsrdə, istərsə də milli dramaturgiyada bu mövzu o qədər də geniş əksini tapmayıb. Bizcə, buna səbəb, barmaqla sayılacaq qədər qəzetlərimizi nəzərə almasaq, o zaman Bakıda, eləcə də, Azərbaycanın digər bölgələrində azad mətbuatın və mətbəələrin demək olar ki, olmaması, XX əsrin əvvəllərində isə senzuranın buna imkan verməməsi olmuşdur. Buna görə də qaçaqçılıq mövzusu daha çox dastanlarımızda öz əksini tapmış və şifahi təfəkkürdə yaşamışdır. Gürcü şairlərinin Azərbaycan mövzusuna, xüsusilə də qaçaqlıq hərəkatına müraciət etmələrinin isə bir sıra səbəbləri var idi. *Birincisi,* Azərbaycan və Gürcüstan arasında ədəbi-bədii, ictimai-siyasi və mədəni-iqtisadi əlaqələrin genişlənməsi, gürcü şairlərinin Azərbaycana marağını artırmış, onları Azərbaycandan bəhs edən əsərlər və məqalələr yazmağa həvəsləndirmişdir. *İkincisi,* bəzi şairlərinin Bakıda və ya Azərbaycanın digər bölgələrində yaşaması, şəhərin qaynar, kənlərin isə olduqca sakit həyatı ilə yaxından təmasda olmaları onların fəhlə və kəndli mövzusunda əsərlər yazmalarına səbəb olmuşdur. *Üçüncüsü,* XIX əsrdə, elə indinin özündə olduğu kimi, Tiflisdə, Tif-

lis ətrafında və ümumiyyətlə, Gürcüstanda xeyli azərbaycanlı yaşayırdı, Azərbaycan dili burada nüfuzlu ünsiyyət vasitəsi idi və bu dilə bələdlik Azərbaycan mövzusunda əsərlərin yazılması üçün mühüm amillərdən biri idi. Elə buna görə də, gürcü şairlərinin Azərbaycan mövzusuna müraciət etmələri sonralar da davam etmiş, Azərbaycan-gürcü ədəbi əlqaələri daha da zənginləşmişdir.

ƏDƏBİYYAT:

1. Abeşeli, A. www.aziz.ge 12.07.2024.Gürcüstanda qanad açdı onun böyük arzuları – Gürcü şairin "Mirzə Fətəli Axundovun xatirəsinə" şeiri - Azərbaycan İzləri – Gürcüstanda
2. Borçalı (Çobanlı), M.M. Bu dostluğun yaşı çox... (Azərbaycan-gürcü ədəbi əlaqələri). Tbilisi, "Universali", 2014; Bakı, "Təhsil", 2015, 280 səh.
3. Dvanadze, G. Qarabağlı Qaçaq Aslan bəy, Tiflis, 1878. -34 s.
4. Hacıyev, Abbas, Seçilmiş əsərləri, B., Borçalı, 2001, 378 s.
5. Qomelinin şeiri və başqa şeirlər "Qaçaq Kərəm".//"Qaçağı Kiarima". Leksi Qomelisa da sxva leksebi Tiflis, 1886, 14 s.
6. Qorki, Maksim. Razboi na Kavkaze, "Nijeqorodskiy listok", 8 noyabr 1896, N:.309, 314, 324, 325, 327
7. Qorqadze, V. Tiflisə gələndə. www.aziz.ge, 04.07.2024. Sənin xatirini gözəl Gürcüstan əziz saxlayacaq, Mirzə Fətəli! – Gürcü şairin şeiri - Azərbaycan İzləri - Gürcüstanda
8. Məmmədli, Şurəddin, Azərbaycan ədəbiyyatı Gürcü mətbuatında (1850-1905). Ankara: Sonçağ Akademi, 2022. 150 s. s.68, 107; Kitaba əlavələr. səh.107-136
9. Mişiyev, Adil. Azərbaycan yazıçıları və Tiflis ədəbi-ictimai mühiti. Tbilisi, 1987, səh. 304
10. Rüstəmzadə, Rüstəm. Azərbaycan tarixi qəhrəmanlıq dastanları. Bakı: 1998, s.117-120.
11. Sabutay. Qarabağ gürcü ədəbiyyatında. "Mədəniyyət" qəzeti, 2009, 6 may, s. 12.
12. Talıbzadə, K. Qorki və Azərbaycan. Bakı: Elmlər Akademiyası,1959, 214 səh. s. 71-72.
13. Vəliyev, H. Azərbaycan folkloru və ədəbiyyatı gürcü mənbələrində. B., 1984
14. Yurdsevər, Almaz. Xalq qəhrəmanı qarabağlı Qaçaq Aslan obrazı bədii ədəbiyyatda.525-ci qəzet,17.03.2015

Rəyçi: akademik İsa Həbibbəyli

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

f.e.d., prof. ASİF HACILI
e-mail: asif.hajiyev@au.edu.az
0009-0005-9462-511X
Azərbaycan Universiteti
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli, 71

AHISKA TÜRKLƏRİNİN ETNİK KÜLTÜRÜ MİLLİ KİMLİK ASPEKTİNDƏ

Xülasə

Məqalə Ahıska türklərinin etnik mədəniyyətinin tarixi və tipoloji aspektləri həsr olunub. Ahıska türkləri tarixən Cənubi-qərbi Qafqazda, Gürcüstanın Mesxet-Cavaxet ərazilərində, keçmiş Ahıska paşalığında yaşamışlar. 1944-cü ildə etnik mənsubiyyətinə görə sovet-bolşevik rejimi tərəfindən öz vətənindən sürgün edilmişlər. Məqalədə Ahıska türklərinin türk mənşəyini və kimliyini təsdiq edən faktlar: onların folkloru, ədəbiyyatı haqqında yığcam məlumat verilir, müəllif tərəfindən toplanmış etnotoponimləri təqdim edilir. tarixinin ümumi mərhələləri və etnik proseslər təhlil edilir. Ahıska türklərinin Qafqazın avtoxton etnosu olduğu təsbitlənir. Ahıska türklərinin deportasiya dövründə öz milli mədəniyyətini, ana dilini qorumasında etnik mədəniyyətin, folklor və ədəbiyyatın mühüm rolu göstərilir.

Açar sözlər: Ahıska, Ahıska türkləri, etnos, etnik mədəniyyət, folklor

Ahıska türklərinin etnik mədəniyyəti onların tarixini, etnik mənşəyini, milli kimlik şüurunu, coğrafiyasını və mədəni mühitini, təmasda olduqları xalqlarla əlaqələrini, islamaqədərki və islami inanış və təsəvvürləri əks etdirir. Bu baxımdan, bu mədəniyyəti sxematik şəkildə belə cizgiləyə bilərik: Osmanlı türklərinin tərkib hissəsi olan Ahıska türklərinin mədəniyyəti Osmanlı və Qafqazda *türklük tarixini*, arxaik dövrə varan *pratürk etnogenezini*, oğuz və qıpçaq türklərinin etnomədəni *sintezini*, Qafqaz və Anadolu dialoqunu, Azərbaycan – Osmanlı – Gürcüstan *tarixi-mədəni əlaqələrini*, dağ və dağətəyi *coğrafi ərazilərin* həyat tərzini, arxaik inanclarla islam dəyərlərini və müasir tarixi-siyasi prosesləri əks etdirir. Sürgün dövründə etnik mədəniyyət milli kimliyi, sosial həmrəyliyi və vətənpərvərlik ideallarını qoruyub saxlayan əsas funksional amil kimi çıxış edir. Buna görə də, Ahıska türk etnik mədəniyyətinin tipologiyasını, məzmun və forma xüsusiyyətlərini dərindən anlamaq və bu sahədə gələcək araşdırmalar üçün öncə qeyd etdiyimiz aşağıdakı aspektlərə ümumi məlumat mənimsəmək zəruridir.

Folklor və ədəbiyyat. Ahıska-Çıldır obalarında şifahi söz sənəti, xüsusən, aşıq yaradıcılığı qədimdən geniş yayılıb. Göyçə, Borçalı, Təbriz, Gəncəbasarla bərabər, Ahıska mahalı ozan-aşıq sənətinin əsas ocaqlarından olub. Bu torpaqlarda türk aşıq

sənəti o qədər zənginmiş ki, gürcülər, urumlar, yəhudilər də aşıqlıq etmiş, türk sazı çalıb, türk gözəlləmələri oxumuşlar. Ahıska elində yeni və variant dastanlar – «Beg Bögrək», «Arzu və Qənbər», «Yaralı Mahmud», «İbrahim və Aslan şah», «Alıxan və Pəri», «Dərviş Ələmi», «Lətifşah», «Öməri» kimi onlarla ozan boyları söylənib. Buralarda «Koroğlu», «Əsli-Kərəm», «Aşıq Qərib», «Şah İsmayıl», «Qurbani» kimi ümumtürk dastanları da dillər əzbəri olub, bəzi mətnlər variantlaşıb, bəzi motivlər isə yalnız Ahıskada qorunub saxlanıb. İxtiyarların dediyinə görə, bu yurdda adı dillər əzbəri olan ustad şair və aşıqlar – Ahıskalı Gülali Xoca, Aşıq Qərib, Axılkələkli Xasta Hasan, Aşıq Şenlik, Koblıyanlı Aşıq Məhəmməd Səfili, Aşıq Üzeyir Fəqiri, Posxoflu Aşıq Zülali (Qara Zülali), Aşıq Rəğibi, Aşıq Əmrahi, Vanlı Oruc, Ahıskalı Mahmud Çirkini, Molla Xəlis, Azqurlu İsmayıl Əfqan, Aşıq Seyfi, Heydər bəy, Dəli Tamı, Qul Əhməd, Adıgünlü Ömər Əfəndi, Ahıskalı Pir Məhdi, Xırtızlı Sevdayi, Axılkələkli Daşdəmir, Ahıskalı Pərtəv Bəy Qorxan, İsgəndər Nihani, Ahıskalı Şəhri Əfəndi, Azqurli İsmayıl, Aşıq Nuru, Aşıq Balakişi, Aşıq Məftuni, Aşıq Balabəy, Çanaq Əhməd, Dərviş Ələmi, Firağı, Topçioğlu, Səfil Kamil, Aşıq Murad, Aşıq Nəcəf, Aşıq Nəcib, Aşıq Şavqi, Aşıq Bayram, Aşıq Əvəz, Aşıq Mirsis, Aşıq Qəhrəman, Aşıq Pirverdi, Aşıq Müştaqi, Koblıyanlı Çərkəzoğlu, Hanaklı Molla Dursun Məhzuni, Usta Polad, Aşıq Ruhani, Dəli Yusif, Aşıq Aslan, Aşıq Qaragöz, Aşıq Zeyin, Aşıq Pəktayi və başqaları imiş.

Son illərdə ulu ustadların sənətini yeni nəsil davam etdirir. Usta Mürtəz, Zarzimalı Aslan, Fəhlül, Cabir Xalidov, Mehyar, Zeynul Yektay, Şimşək Sürgün Kaxaretli, Şahismayıl Adıgünlü, Güləhməd Şahin kimi el şairlərinin əsərləri xalqı birləşdirir və bir millət kimi yaşadır. Azərbaycanda Yaşayan Ahıska Türkləri Yazarlar Birliyi fəaliyyət göstərir. Milli mətbuat, məktəb, ərazi birliyindən məhrum olan Ahıska elinin qəriblik həyatında folklor müstəsna rol oynayır, milli varlığı, etnik yaddaşı qoruyan ən önəmli qüvvə kimi inkişaf edir. Ahıska folklorunda qədim motivlərlə bərabər müasir tarix, sürgün dövründəki mədəni əlaqələr, dil təmasları, yazılı ədəbiyyatın təsirləri də dərin iz buraxmışdır. Ahıska türk folkloru janr baxımından da çox əlvandır. El arasında müdrik kəlamlar, dualar, manilər, deyimlər, ağılar, şaka-yerennüklər, türkülər, qoşmalar, nağıllar, mifik rəvayətlər, dastanlar, dəstənələr geniş yayılıb. Sanamalar, herslatmalar, tapmacalar, şaşırtmalar, nənnilər, oyunlardan ibarət çocuq folkloru da bir aləmdir. Ahıska elində qorunmuş bu folklor nümunələri, xüsusən, son dövrlərdə formalaşmış sürgün folkloru bütövlükdə Ahıska-türk mədəniyyəti ümumtürk tarixi üçün orijinal bir mənəvi sərvətdir.

Mətbəx. Ahıska türklərinin qidasını əsasən çörək, un yeməkləri, ət, süd və bitki məhsulları təşkil edir. Ahıska türkləri vətəndə çörəyi buğda, yulaf və qarğıdalı unundan bişirərmiş. Əsas çörək növləri: tandurətməgi, furunətməgi, yuxa, cadi, yağli cadi, üfgə, kömbə və sairədir. Çörək təndir və furunda bişirilər, yuxa isə sacda salınarmış. Taxıl məhsullarından, xüsusən buğda və yulaf unundan bişirilən xörəklər də son dərəcə rəngarəngdir: xingal, lapata xingali, əfəndi xingali, şor xingali, bükməli xingal, basdırma xingali, manti, xanım mantisi, ətməgaşi, tatarbəyi, ərişdə,

qutab, quymaq, müxtəlif sıyıqlar... Əsas ət xörəkləri: kabab, sucuq, buğlama, bazlama, bişi, paça, savutma, közləmə, basdurma, beşbarmaq, köftə, bozbaş, piti, dolma... Rəngarəng şorbalar: puşruk çorbasi, cincar çorbasi, mərci çorbasi, ayran çorbasi, çərəz çorbasi, əriştə çorbasi, qızılcuq çorbasi, pirinc çorbasi, sütlü çorba, tutmac çorbasi… Kartopi ezmesi, kartopi haşlamasi, hoçuta, xoyul, heris, paxıraçlama, pata, kələcoş, palaça, luxma, peynir qovurmasi, lazut (qarğıdalı) bulamaci da gündəlik yeməklərdəndir. Ətli, səbzəli, südlü, çərəzli, lobyalı aş növləri də türk mətbəxində xüsusi yer tutur. Toyda-nişanda, bayramda, qonaqlıqda Ahıska ellərində müxtəlif şirniyyat hazırlanarmış – subörəgi, şəkərləmə, kətə, luxum, qətmər, qulaqlı qətmər, çullama qətmər, gəvrək, halva, paxlava... Ahıska türklərinin mətbəxində əsas yeri şərbət, sinor, ayran, yoğurt, çay, qəhvə kimi içkilər tuturmuş. Türklərin düzəltdikləri pəstil (tut, zoğal, cancur şirəsinə un qatılır, qaynadılır, alınmış maye taxta üzərində qurudulur, sonra bıçaqla aralanır), kömə (tut şirəsinə azca un qatılır, qaynadılır, qozu sapa «boncuk kibi» taxır, bu şirəyə 3-4 dəfə salıb-çıxarır, qurudurlar), bəkməz, eləcə də kələm (laxana), pomidor (patlican), xiyar, turp (şalğam), bibər (pimpila) turşuları etnik mətbəxin duzunu-məzəsini təşkil edir. Türklərin sucuq və basdırmaları da çox məşhurdur. Ahıska türklərinin əsas mətbəx avadanlığı: sapli (tava növü), tava, qazan, ibrığ (bardaq növü), aş taliki (boşqab), çay taliki, ləngər (sini), sac, paxır, peşkun, kərsən, süzək, biçaq, çəngəl, kaşıx, farduc...

Geyim.XIX əsrdə və XX əsrin əvvəllərində Ahıska türklərinin geyimi ənənəvi türk-Qafqaz geyimi tipologiyasına daxil imiş. Kişilər – yaxası qaytanla bağlanan köynək, şalvar, arxalıq, yapıncı, kürk geyər, gümüş (yun, ipək, dəri) kəmər bağlar, başa dəri papaq, başlıq, fəs qoyarlarmış. Fəsə çox vaxt qırmızı və ya yaşıl çalma dolanarmış. Çoxa, arxalıq əsasən göy, boz rəngdə olarmış. Acar və Kobulet türklərinin yuxarıdan enli, büzmə şalvarlarından fərqli olaraq, Ahıska türklərində dar şalvar dəb imiş və müasirlər bunu Azərbaycan türklərinin geyiminə oxşadırlarmış. Turk kişilərinin ənənəvi geyiminin əsas bir ünsurü də yelək (və ya zubon) adlandırılan canlıq – jilet olmuşdur. Yelək muasir pencəklərin altından da geyilir. Qadınlar nəbati naxışlarla bəzənmiş al don, göy rəngli önlük geyər, gümüş belbağı bağlayardılar. Qızlar başını şal, tavşalı, ləçəkli şal, ərli qadınlar isə həm də qatxa (altun pullarla bəzənmiş araqçın növü) ilə örtərmiş. Qadınlar bu libasın üstundən Ahıska türklərinin ehram adlandırdıqları bəyaz çadraya burunərmiş. Mesxet-Cavaxet bölgələrində, eləcə də Acarıstan, Kobulet, Şəvşət, Kaxet, Kartli, İmereti, Quriya, Meqreliya adlandırılan yerlərdə nəinki türk, hətta gürcü, digər xaçpərəst qadınları da uzun müddət çadrada gəziblər. Ümumiyyətlə, başqa etnoqrafik örnəklərdə olduğu kimi, gürcü geyiminin də çox hissəsi turklərdən götürülüb. Kaxet çarları və aznaurlar (gürcü zadəganları) «qızılbaş üslubunda» gödəkçə geyər, çalma bağlarmış. İmeretdə, digər yerlərdə də türk qaftanları, «qızılbaş qiyafəsi» gurcülərin əsas libası imiş (6, c. 279-281). Gürcü geyiminə orta əsrlərdə xüsusilə güclənən türk tə'siri son günlərə qədər öz nüfuzunu saxlayıb. XX əsrin əvvəllərində yuxarı kəndlərdə kişilər qara satindən, qolları yarıqlı üst paltarı, çoxa, arxalıq geyir, qadınlar əsasən ənənəvi

libasda qalırlarmış. 20-ci illərdən türklərin geyimində əsaslı dəyişikliklər baş verir – Ahıska, Adıgün, Azqurda qalife şalvar, frenc, gimnastyorka, furajka ortaya çıxır. Qadınlar uzun, düz, ensiz qollu paltarlara keçir. Ənənəvi bəzəklər (qatxa, majar, mahmudiyə, pipanur, urubiya, küfə, belbax) isə saxlanır. 1926-cı ildə Valedə toxuculuq sexinin açılması ilə ənənəvi yun, ipək və keçə materiallarına yeni çit parçalar, təzə ipək növləri, satin və sairə əlavə olunur. 30-cu illərdən fabrik məhsulları yayılır. Ahıska türklərinin geyiminə aid əsas terminlər: kondura, çarux, şarvar, gömlək, çoxa, arxalux, yelək (zubon), ehram, qaftan, don, xələt, ətək, kürk, yapıncı, qurşaq, kəmər, belbağı, şal, tavşali, ləçək, peştamal, tuman, dizdon, başmaq, qatxa, çalma, fəs, papax, küfə, pirpirə, majar, mahmudiyə, pipanur, urubiya...

Mərasimlər. Ahıska türklərinin mərasimləri ümumtürk tipologiyasına və şəriətə uyğundur. Toy mərasiminin mərhələləri (Qız saraflamax və bəgənmax; Elçilux; Şərbət içmax; Gəlin görməyə getmax; Nişan degişmax və urba göturmax; Kəsim kəsmək; Toy şərtləri: başlıq və toy xərçi; Dəvət; Xına yaxdi; Məsləhət aşı; Kəbin; Gəlin çıxarmax və gətirmax; Güvəgiyə vermax; Duvağaçımi (yüzaçımi); Üzgördi (enişdəlüğə getmax); Ayaqdöndü) və elementləri (atlılar, məqərlər, başlux, toy xərci, dəvətçi) yerli koloriti əks etdirsə də, Şərqi Anadolu və Qərbi Azərbaycan ənənəsindən mahiyyətcə fərqlənmir. Şəriət qaydalarına uyğun olaraq, türklər axirət dünyasına öncədən hazırlaşır, halal yaşayır, borc saxlamır, ailə, vərəsəlik məsələlərin həll edir, yas üçün tədarük görürlər. Ahıska turklərinin həyatını Novruz, Yılbaşı, Xıdırəlləz, Mövlud, Rəcəb, Qurban, Ramazan, kimi bayramlar, «yığnax», «sıra türküsi», «sıra oyuni», «sıra masali», «fincan-yüzük», «süpürgə seyri» adlanan əyləncələr, aşıq məclisləri, nağıl gecələri süsləmişdir. Maraqlı adətlərdən biri də məşhur alim M.Y.Marrın təsvir etdiyi, danışıq yasağı – böyüklərin, yaşlı qohumların qarşısında qadınların danışığa qoyulan yasaqla bağlı "əl dili"dir (12, c.191-214)

Etnotoponimlər. Ahıska-Axılkələkdəki, eləcə də Borçalıdakı coğrafi adların böyük əksəriyyəti sırf türk mənşəlidir və onların çoxu ən qədim türk uluslarının adlarını, qədim türk sözlərini yaşadır, etnik mədəniyyət və tarix haqqında müəyyən təsəvvür yaradır. Bütün Qafqazda olduğu kimi, burada da yüzlərlə dağ, çay, göl, qaya, meşə, kənd adı qədim hunların, avarların, tubaların, sabirlərin, basillərin (barsil, bozal), bulqarların, oqur, onoqur, saraqur, utuqur, kutuqur qövmlərinin, xəzərlərin, tolosların və onlarla digər türk toplumlarının xatirələridir. Ahıska-Axılkələkdəki, cənubi Gürcüstandakı türk etnotoponimlərindən bəzi nümunələr bunlardır:

hun etnonimi: Hundun dağı və Hundun gölü (Aspindza), Xunan qalası (Tiflisə tərəf), Xona kəndi (Adıgün), Xoni kəndi (Kutaisə tərəf); *basil etnonimi*: qədim Basiane vilayəti (Axısqa-Çıldır bölgəsində), müasir Basileti, Bazaleti, Bozaliani kəndləri, Bozaleti gölü; *abdal (ağ hun) etnonimi*: Abdallı kəndləri (Borçalı); *avar, avar-hun (var-hon) etnonimi*: Varxan kəndləri (Adıgün və Aspindza rayonları), Abari kəndi (Ambrolauri rayonu); *onoqur etnonimi*: Onoquris (Zestafoni tərəfdə), Onqor (Aspindza rayonu), Unaqira (Xon rayonu) kəndləri (qeyd edək ki, onoğuz-

onoqur-onqar-unqar-hunqari etnonimlərində 10 rəqəminin işlənməsi adətən 10 oğuz qəbiləsinin birliyi kimi izah edilir, lakin N.Marrın bir müşahidəsi bunun həm də erkən təsəvvürlərlə bağlı olduğunu ehtimal etməyə əsas verir. Görkəmli alim qeyd edir ki, 1 və 10 rəqəmləri insanı və qəbiləni bildirir, çünki «vahid» və «on» münasibətlərində olan «insan» və «qəbilə» eyni bir ad daşıyır: bir halda – bütün «qəbilə» və «qəbilənin hər bir adamı», digər halda – «əl» (həm «bir», həm də barmaqların sayına görə «on») mənasında (12, c. 468-469); *saraqur (sarı, ağ oqur)* Sarkine şəhəri (xəzərlərin Don yaxınlığında da saldıqları Sarkel şəhərinin adının türk mənşəli olduğunu N.Marr təsdiq etmişdir: (Bax: 13, c.67, 71; 28, c. 323-324), Sarı kəndi (Aspindza rayonu); *tuba (tobol, tuva, tofalar) etnonimi*: Toba, Qurtuban (Axısqa), Qaratuban, Qortuban (Adıgün), Tobaxçı (Axısqadan şimalda) kəndləri; *kəmər (qəmər, qimir, komar, kamaritlər) etnonimi*: Böyük və Kiçik Kəmərli və Qomareti (Borçalı), Qomar (Adıgün) kəndləri; *macar etnonimi*: Macar-sxali (Xaşur rayonu), Macar gölü, Aşağı və Yuxarı Macar kəndləri (Suxumi yaxınlığında); *udi (utiqur, udon, uti) etnonimi*: Ude kəndi (Adıgün rayonu); *kul (kol) etnonimi*: tarixi Kola vilayəti (Axısqadan cənubda), Qullar (Borçalı) və Kolaki (Sıqnax yaxınlığında) kəndləri, *kuyvar (xubair) etnonimi*: Xubiar kəndi (Borçalı); *sam (samar) etnonimi*: Samqur (Adıgün) və Samqori (Borçalı) kəndləri; Samser mağarası (Axılkələk); *az (uz) etnonimi*: Azqur (Axısqa rayonu), Azman (Axılkələk), Azgüdə (Aspindza) kəndləri; *sal etnonimi*: Salieti və Saloğlu kəndləri (Borçalı); *moxe (moqe, mukri, muqri) etnonimi*: Muğanlı, Muğançı Əhməd, Muqlian (Borçalı), Muqaret (Axısqa), Moxe (Adıgün) kəndləri; *tolos (tulus, teles, tules) etnonimi*: Toloş kəndi (Aspindza); *kuzan (quzan) etnonimi*: Quzanlı (Ermənistan); *adıgün etnonimi*: Adıgün rayonu; *qobu (kobu) etnonimi*: Kobuleti şəhəri (Acarıstan), Kobi (Kazbek rayonu), Qobieti (Aspindza), Kobıxevi və Kobaze (Axısqa) kəndləri; *gəncək etnonimi*: Qandza (Boqdanovka, Ninosminda); *bələncər etnonimi*: Balacur (Adıgün), Balacauri kəndləri (Tiflis); *kun etnonimi*: Kuna kəndi (Aspindza); *anca (incə, onca, ança, onça) etnonimi*: Edincə, İncqola, İncebla (Axısqa rayonu), İnca, İncədərə, İncədağ (Borçalı) kəndləri; *tuğ (tuk, tok) etnonimi*: Tuğ (Boqdanovka); *çala etnonimi*: Çala (Axısqa) və Çela (Adıgün) kəndləri; *basar (bazar) etnonimi*: Bazarxana (Aspindza) kəndi; *çicil (çigil) etn*onimi: Çigil (Adıgün) kəndi; *salar etnonimi*: Salardağ (Axısqa); *oral (aral) etnonimi*: Oral (Axısqa) və Aral (Adıgün) kəndləri; *ovat (abat) etnonimi*: Abatxevi (Axısqa) kəndi; *kergil (qurqul) etnonimi*: Qorqul (Adıgün) kəndi; *balta (boltalı) etnonimi*: Balta (Laqodex və Znaur) kəndləri; *xançal etnonimi*: Xançala kəndi (Boqdanovka) və Xançala gölü (Axılkələk); *xasbəy etnonimi*: Xasbəy (Boqdanovka) kəndi; *orucoğlu etnonimi*: Orucalar (Axılkələk) kəndi; *damğa etnonimi*: Damğalı (Axılkələk) kəndi; *zilan və zaza etnonimi*: Zilan (Axısqa), Zazançı, Zilan (indiki Ermənistanın Axılkələklə sərhəd şimal-qərbi), Zazalı (Adıgün) kəndləri; *tele etnonimi*: Təhlə (Borçalı)

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

Prof. Dr. Asif Hajili

AHISKA TURKS' ETHNIC CULTURE IN TERMS OF NATIONAL IDENTITY

Summary

The article is devoted to the historical and typological aspects of the ethnic culture of the Ahiska (Meskhetian) Turks. These people historically lived in the South-West Caucasus, in the Meskhetian-Javakheti region of Georgia. In 1944, he was deported from his homeland by the Soviet-Bolshevik regime for his ethnicity. The article analyzes the general stages of the history of the Ahiska Turks and ethnic processes. It is shown that the Ahiska Turks are an autochthonous ethnos of the Caucasus. At the same time, it is confirmed that the Ahiska Turks and the Georgian people are friends and allies at all times. It is said that the Ahiska Turks preserved their national culture and mother tongue during the deportation. The components of the ethnic culture of the Ahiska Turks, types of economy, customs, cuisine, clothing, folklore are described.

Key words: Ahiska, Ahiska Turks, ethnos, ethnic culture, folklore

Проф. д-р Асиф Гаджили

ЭТНИЧЕСКАЯ КУЛЬТУРА АХЫСКА-ТУРОК В АСПЕКТЕ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ

Резюме

Статья посвящена историческим и типологическим аспектам этнической культуры ахыска-турок. Ахыска-турки исторически проживали на юго-западе Кавказа, на территориях Месхетии и Джавахети в Грузии, в бывшем Ахыскинском пашалыке. В 1944 году они были депортированы из своей родины советско-большевистским режимом по этническому признаку. В статье приводятся краткие сведения о фольклоре и литературе ахыска-турок, подтверждающие их турецкое происхождение и идентичность, а также представлены этнонимические топонимы, собранные автором. Анализируются общие этапы их истории и этнические процессы. Устанавливается, что ахыска-турки являются автохтонным этносом Кавказа. Показана важная роль этнической культуры, фольклора и литературы в сохранении национальной культуры и родного языка ахыска-турками в период депортации.

Ключевые слова: Ахыска, ахыска-турки, этнос, этническая культура, фольклор.

ƏDƏBİYYAT

1. Doğru A.M.. Yukarı Kür Boylarının Yeradları Üzerinde Bir Araştırma // Türk Dünyası Araştırmaları. İstanbul, 1985, №39.
2. Hacılı Asif. Ahıska türkləri: Vətən bilgisi. İstanbul, Ahıska, RTA, 2009.
3. Hacılı Asf. Ahıska türkləri sürgün folkloru. B., 2004.
4. Məmmədov H. «Dəftəri-müfəssəlati-Tiflis»də yaşayış məntəqələri // Azərbaycan filologiyası məsələləri. B., 1984.
5. Андроников А.Д. Описание 3-го, Уравельского, полицейского участка Ахалцихского уезда Тифлисской губернии // ЗКОРГО, Тифлис, 1894; к. XVI.
6. Волкова Н.Г. Статейные списки русских посольств XVI–XVII вв. как этнографический источник // Кавказский этнографический сборник, VI, М., 1976.
7. Волкова Н. Г. Этнонимы и племенные названия Северного Кавказа, М.1978.
8. Картлис Цховреба. История Грузии. – Тбилиси, Издательство АРТАНУДЖИ, 2008
9. Макалатия С. Месхетия-Джавахети. Тбилиси, 1938.
10. Царевич Вахушти. География Грузии. Тифлис, 1904.
11. Юнусов А. Месхетинские турки: дважды депортированный народ. Б., 2000.
12. Марр Н.Я. Вопросы языка в освещении яфетической теории. Л., 1933
13. Марр Н.Я. Чуваши-яфетиды на Волге. Чебоксары, 1926

Rəyçi: filologiya elmləri doktoru, professor Qorxmaz Quliyev

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

GÜLXANI (PƏNAH) VAQIF QIZI ŞÜKÜROVA
Filologiya üzrə elmlər doktoru. dosent
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu
Email: gulxani@outlook.com

AŞIQ YARADICILIĞININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

(Təhlillər, tədqiqatlar)

(1-ci hissə)

Xülasə

"Aşıq yaradıcılığının inkişaf mərhələləri" məqaləsində aşıq yaradıcılığının inkişaf mərhələləri ilə bağlı Azərbaycan folklorşünaslığında aparılan təhlil və tədqiqatlar araşdırılır. Azərbaycanda, Cənub Azərbaycanda və Ermənistanın ilhaq etdiyi Qərbi Azərbaycanda, Gürcüstan ərazisində yaşayan Azərbaycan xalqına məxsus aşıq sənətinin inkişaf mərhələləri tədqiq edilir. Göyçə, Tovuz, Borçalı, Gəncə-Şəmkir, Şirvan, Qarabağ, Qaradağ, Təbriz, Urmiya, Çıldır, Dərbənd aşıq məktəblərinin nümayəndələrinin saz-söz ustalarının ifa, danışıq, dastan söyləmə üslubuna, eləcə də sazın çalınma, səs, oxuma texnikasına və s. görə fərqli xüsusiyyətləri təhlil edilir. Aşıq yaradıcılığının inkişaf mərhələlərinin mexanizmləri ilə bağlı fərqli, mübahisəli araşdırmalar diqqətə çəkilir.

Açar sözlər: aşıq, Göyçə, saz, söz, təcnis, foklor

Giriş. X-XII əsrlərdən, bəlkə də lap qədimlərdən şifahi formada formalaşmağa başlamış aşıq yaradıcılığı özündə musiqini, sazı və müəllifi birləşdirir. Aşıq xalqın yaşadığı həyatı, bəşəri duyğuları, cəmiyyətin inkişafı dövrünün ziddiyyətli hadisələrini, xalqın azadlığını, qəhrəmanlığını, dostluğunu, məhəbbətini vəsf edən poeziya və təhkiyəni özündə əks etdirir. Aşıq sənətinin geniş şəkildə araşdırılması nəticəsində məlum olur ki, aşıq yaradıcılığı türk ellərində, xüsusən Azərbaycanın bütün bölgələrində, Cənub Azərbaycanda, həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət tapmışdır. Aşıq yaradıcılığını araşdıran tədqiqatçılar bir sıra aşıq məktəbləri haqqında məlumat verirlər. Göyçə, Tovuz, Borçalı, Gəncə-Şəmkir, Şirvan, Qarabağ, Qaradag, Təbriz, Urmiya, Çıldır. Dərbənd məktəblərinin nümayəndələrinin saz-söz ustaları ifa, danışıq, dastan söyləmə üslubuna, eləcə də sazın çalınma, səs, oxuma texnikasına və s. görə fərqli xüsusiyyətlərə malikdirlər. Məsələn, Borçalı, Çıldır və Urmiya aşıqları məclislərdə tək çıxışları ilə tanınır. Tovuz, Gəncə-Şəmkir, Qaradağ sənətkarları təklikdə də çıxış edirlər, eyni zamanda cüt də çıxış edirlər, balabançı ilə də birlikdə məclislər keçirirlər. Şirvan və Təbriz aşıqlarının havacatı və ifa tərzi ilə Göyçə və başqa Qərb aşıq məktəblərinin arasında köklü oxşarsızlıqlar olduğu söylənilir. "Yerli ənənələr tayfa-qəbilə birliklərinin mədəni irsini, onların tarixi keçmişini və həmin keçmişdə yaşama şəraitini əks etdirir **(1).**

Aşıq yaardıcılığının inkişaf mərhələləri. Aşıq yaradıcılığının inkişaf mərhələləri də tədqiqatlarda əsas yer tutur. Bu tədqiqatların aparılma mexanizmləri ilə bağlı fərqli, mübahisəli araşdırmalar vardır. Məsələn, folkorşünas Mahmud Allahmanlı bu məsələylə bağlı geniş araşdırmalar aparır. Aşıq yaradıcılığından danışarkən əsas məsələlərdən biri olan mərhələlər haqqında tədqiqatçı M.Allahmanlı bu problemin konkret bölgüsünün aparılmadığını, müxtəlif şəkildə (ən qədim dövrdə aşıq yaradıcılığı, orta əsrlər aşıq yaradıcılığı, XIX əsr aşıq yaradıcılığı, XX əsr aşıq yaradıcılığı və s.) sadəcə olaraq araşdırmalar aparıldığını, qüsurları dilə gətirir.

O, aşıq yaradıcılığının inkişaf tarixini iki istiqamətdə – mərhələ kimi görür. Birinci aşıq adına gəlincəyə qədər olan mərhələdir və bu da özlüyündə daxili mərhələlərə ayrılır (saya, şaman, varsaq, ozan), ikincisi isə aşıq adı ilə tanınmadan sonrakı mərhələdir» – deyir **(2.70).**

Aşıq yaradıcılığı yüzilliklər çərçivəsində (XVI əsr aşıq yaradıcılığı, XVII..., XVIII əsr..., XIX əsr..., XX əsr (bu bölmə inqilabdan sonrakı dövrə, Böyük Vətən müharibəsindən sonrakı dövrə ayrılaraq) araşdırılır. Qeyd edək ki, XI-XII əsrlərə aid edilən "Kitabi-Dədə Qorqud"da aşıq yaradıcılığına məxsus keyfiyyətlər vardır. Azərbaycan aşıq sənəti çox qədim köklərə malikdir, uzun inkişaf yolu keçmişdir. Çox-çox qədimlərdən saz-söz sənətkarları ozan, uzan, varsaq, dədə, qam, ata və bir-çox başqa adlarla mövcud olub.

M.Allahmanlı tədqiqatında aşıq yaradıcılığına ümumi şəkildə yanaşır. XII əsrdən (Əhməd Yəsəvidən) XXI əsrin ilkin illərinə qədər dövrü əhatə etdiyini bildirir. Başqa cür desək, Əhməd Yəsəvidən (XII), Molla Qasımdan (XIII) İncəli Sadığa (XX) qədər olan dövrü götürür. Burada «ziqzaqlı» gedişlər, zaman problemi və bu problemin doğurduğu bəlalar, yükün ağırlığı və daşınışı» olduğunu, aşığın da el anası olduğu üçün ağırlıq mərkəzinin də onun çiyninə düşdüyünü deyir.

Əhməd Yəsəvi, Molla Qasım, Yunus Əmrə heca vəznində sadə, aydın, xalq şeiri üslubunda yaradıcılığı olan sənətkarlardır. Onlarda ozan ruhu var. S.Mümtaz «Molla Qasım və Yunus Əmrə» («Maarif və mədəniyyət» jurnalı. 1929. №1) adlı məqaləsində yazır: «Molla Qasım Həsənoğlu və Yunus Əmrənin müasiri Azərbaycan şairidir. Müasiri olmasını Yunus Əmrənin aşağıdakı bir beyti təsdiq etməkdədir:

Dərviş Yunus Əmra bu sözü əyri söyləmə,
Səni siğəyə çəkər bir Molla Qasım gəlir.

«Sənəm, Sənəm», «Beşinə» rədifli müəmma təcnisi, «Gördüm» rədifli gəraylısı bizə gəlib çatmış Molla Qasımla Yunus Əmrə yaradıcılığını müqayisə edən folklorşünas Salman Mümtazın fikirlərinə istinad edən tədqiqatçı M.Allahmanlı öz fikirlərini söyləyir. Bu müqayisədə XII-XIV əsr Azərbaycan şeirinin inkişafının ümumi istiqamətlərinin səciyyələndiyini, burada nəzərə çarpan əsas məsələ kimi xalq şeiri üslubunun (heca vəzninin) «durumu»nun olduğu, hər iki şairin xalq ədəbiyyatına yaxınlığını, aşıq yaradıcılığına yüksək səviyyədə bələdliyini, ruhu etibarilə eyni olduqlarını göstərməklə yanaşı, onların bir ustad kimi «ağır yığnaqlar aparmasını» söyləmək üçün əlimizdə tutarlı faktlar olmadığını söyləyir və əlavə edir ki, «əsas

görünən məsələ isə hər iki sənətkarın el şairi olmasıdır. Bu da aşıq yaradıcılığında məlum bölgünün 3-cü qolu ilə üst-üstə düşür. Bunlar aşıq yaradıcılığının inkişaf istiqamətini səciyyələndirir» **(2.77).**

Bu istiqamətdə araşdırmalarda heca vəzninin inkişaf xəttinin də izlənməsinin əsas məsələlərdən olduğu qeyd edilir.

M. Allahmanlı araşdırıcıların Orxon Yenisey (VI-VIII), M.Kaşğarlı («Divani lüğət-it türk». XI), Yusif Balasaqunlu («Qutadqu bilik». XI), «Dastani Əhməd haramı» (XIII), «Qisseyi-Yusif» (XIII), «Xalq şeir üslubunun (heca vəzninin) ilk nümunəsi kimi qiymətləndirməsi ilə, bunların o dövrün məhsulu olduğunu göstərən nümunələr olduğu haqqında tədqiqatçıların real fikirləri ilə razılaşır. Bu nümunələrin bir hissəsində isə tarixi baxımından «məchulluq» görür, onların «tərəd-düdlü şəkildə tarixi faktları» dediyini, aşıq adı ilə tanınan bu dövrdə müxtəlif «qaranlıqlarla» qarşılaşdığımızı deyir. «Yəni burada əsas məsələ kimi görünən aşığın mövcudluğu məsələsidir» və bu haqda tədqiqatçıların müxtəlif fikirlər irəli sürdüyü, gəlinən ümumi qənaətin isə «İslamın mövcudluğu ilə əlaqə»liliyi olduğu, bunun da müəyyən mənada qəbul olunan olduğu fikrindədir və bir məsələni də qeyd edir ki, bu ad İslam gələn kimi bir saatın, bir günün içərisində dəyişdirilmədi. Əlbəttə, bunun üçün müəyyən tarixi dövr, prosesin gedişi vardı. Həmin mərhələ aşıq yaradıcılığında məchul dövrdü. Məsələnin aşıq adı ilə, tapınma ilə bitmədiyini, eyni zamanda bunun şeirin özünə də təsir etdiyinin müşahidə olunduğunu bildirir. Dastan yaradıcılığında «Əli forması, buta məsələsi» kimi tərəflərin ortaya çıxdığını yazır.

İkinci mərhələni aşıq yaradıcılığında qapalı mərhələ, bunun Əhməd Yəsəvi ilə Qurbani dövrünü əhatə etdiyi, bunun içində Molla Qasım, Yunus Əmrə, Şair Əli, Qazi Bürhanəddin və Nəsiminin yaradıcılığının da bir hissəsinin getdiyini deyir. Bu dövrün sərhədlərinin bir hissəsi bütöv-lükdə xalq şeiri ruhunda yazarlarla qapandığını, digər bir ucunun klassik üslubda daha çox yazıb və xalq şeiri üslubunu da unutmayan yazarlarla məhdudlaşdığını bildirir.

Aşıq yaradıcılığında 3-cü mərhələnin Qurbanidən bu günə qədərki dövrü əhatə etdiyini bildirir. M.Allahmanlı «məchul mərhələ» dediyi dövrü «islamla qarşıdurmada savaşda olan zaman»ı götürür. Bu dövrün son nümunəsi kimi M.Kaşğarlının «Divanı»ndakı Alp Ər Tonqanın ölümünə aid olan ağıları götürür, bunu 2-ci mərhələyə aid etmək mümkünlüyünü də qeyd edir. Bu şeirin yazıya alınmadan çox illər əvvəllər yarandığı, əsrlərdə olan bədii nümunələrin bizə gəlib çatmadığı, bunun bir problem kimi aşıq yaradıcılığında mövcudluğu, itib batması məsələlərinə aydınlıq gətirən tədqiqatçı bu qənaətə gəlir ki, «aşıq yaradıcılığının inkişaf istiqamətinin xalq şeiri üslubunun (heca vəzninin) mövcudluğunda və bir də el şairi kimi yazarların yaradıcılığında daha çox axtarmaq lazımdır. Aşıq//aşiq paraleli və bu paralellərin keçidləri də həmin problemə daxildir və daha çox ümumiyyətlə, bayatılarda izlənilməlidir» (2.80). Nəsimi ilə Qazi Bürhanəddini və başqalarını da xalq üslubunda yazdığı şeirləri ilə bu problemin içində görür: «Deməli, bu dövr klassik yazarlarla bayatı ara-

sındakı yaradıcılıq arsenalında cəmlənir. Heca vəznində şeirlərin yazılması eyni zamanda ruhu etibarilə aşıq yaradıcılığına yaxınlığı da əks etdirir:

Yunus Əmrədən:

Mən Yunusi beçarəyəm,
Dost əlindən avareyəm.
Başdan ayağa yareyəm,
Gəl gör bənə eşq neylədi.

Qazi Bürhanəddinin:

Ərənlər öz yolunda ərtək gərək,
Meydanda erkək kişi nərtək gərək.
Yaxşı-yaman, qatı-yumşaq olsa xoş,
Sərvərəm deyən kişi erkək gərək.

Nəsiminin:

Kimsənin malın yeməgil,
Bu bana qalır deməgil.
Ol siyasət meydanında
Haqlı haqqın alasıdır.

nümunələrini verir, müxtəlif əsrlərdə yaşamış bu sənətkarları bir-birindən əsrlər ayırsa da, aşıq yaradıcılığının ümumi ruhunu əks etdirmək xüsusiyyəti ilə» çox yaxın göründüyünü deyir: «Bu üçlükdə Yunus Əmrə aşıq yaradıcılığına daha yaxın görünsə də, xalq üslubunda yazarların klassik nümayəndəsi kimi tanınsa da, Qazi Bürhanəddində, Nəsimidə də aşıq yaradıcılığının təsir ruhu duyulur» (2.80).

Bu inkişafın sonrakı əsrlərdə Şah İsmayıl Xətayi//Qurbani, Ozan Heydər, Ozan İbrahim, Miskin Abdal xəttində daha çox genişliyi ilə nəzərə çarpdığı, bu dövrdə aşıq yaradıcılığının «qapalılıq dairəsindən geniş arenaya» çıxdığını, Xətayi//Qurbani mərhələsinin ədəbiyyatda daha çox elə bu adlarla izləndiyini qeyd edir. Qarşıya çıxan sualı verir: «Bəs bu dövrə qədərki aşıq yaradıcılığından çox az nümunənin olması məsələsi nə ilə bağlıdır?

Bunu isə birinci növbədə dövrün ideologiya qarşıdurması ilə bağlı bilir. İslam faktorunun yaradıcılıq çaşqınlığı yaratdığı, ictimai-siyasi mühitin aşığın yoluna təsirini görür. İkinci bir səbəb kimi belə gərgin dövrdə mürəkkəb şəraitdə ədəbiyyatın yolundakı əngəllərdən xilas olmaq üçün zamanın özünə duyulan ehtiyacı görür. 3-cü bir səbəb kimi aşıq yaradıcılığındakı «şifahilik» idi və yeni şəraitdə hökm sürən tərəddüdlər eyni zamanda unutqanlıq da yaratmışdı» (3.81) – deyir və əlavə edir ki, «ona görə də XII-XVI əsr zaman müddətində ozan//aşıq xəttində paralellik, birinin digərinə yerini verməsi və yeninin oturaqlığı, inkişafı o qədər də sadə məsələ kimi görünmür. Bu mənada problemin açılışına həmin ərəfənin öyrənilməsindən başlamaq lazım gəlir. Ozanı qəbul edə bilməyən islam onun aşıq olması hadisəsi ilə razılaşır» (2.82).

Belə şəraitdə aşığın öz tarixi yükünü bölüşdürdüyü, fəaliyyətinin bir hissəsini sufilərə verməli olduğu bildirilir.

Aşıq yaradıcılığının inkişafında XVI əsrin aşıqlarının hökmdar səviyyəsində qayğısını M.Allahmanlı doğru olaraq qeyd edir. Şah İsmayıl milli mənliyi yüksək tutdu, ərəb-fars təmayülünə daş çaldı» (M.Allahmanlı), ədəbiyyatda, mədəniyyətdə böyük addımlar atdı, Azərbaycan dilini dövlət dili elan etdi, xalq şeiri üslubunda şeirlər yazdı, aşıqları məclislərinə gətirdi, onlara qayğı göstərdi, ədəbiyyat, mədəniyyətdə bir inqilab etdi. Qurbani kimi böyük sənətkarın milli oyanışın məhsulu kimi inkişafda rolu böyük oldu. Xətayi xalq şeiri üslubuna üstünlük verdi.

Xətayidə üç cəhəti daha qabarıq görür; Hakimlik, şairlik, müdriklik. Onun birinci növbədə yaradıcılığında xalqın ümumi ruhunu görür, qılıncı ilə edə bilmədiyini qələmi ilə etdiyini, dərviş funksiyasının sufi görkəmində, yaradıcı ruhunda göründüyünü, «daha çox iç aləmini açmağa» xidmət etdiyini deyir: «Nəticə etibarilə, bu böyük yolu bir yana qoyub sənətkar, sufi etirafına gəlir:

İki əlim qızıl qanda,
Çox günahlar vardır məndə.
Ya İlahim, mədəd səndə,
Düşkün qula kərəm eylə.

Bu etirafı hökmdar etirafı deyil, yaradıcı etiraf kimi dəyərləndirir. Lakin onun başladığı bu yolu «gərəkli» «müqəddəs yol» adlandırır, davam etdirildiyi, bununla belə, Xətayi qədər iş görə bilmədiyimizi, bu mənada Xətayinin uca və müqəddəs göründüyünü, həm şair kimi, həm hökmdar kimi araşdırmağa ehtiyac duyulduğunu qeyd edir.

Son illərin araşdırmaları, aparılan tədqiqatlar zamanı üzə çıxarılan Şah İsmıyıl Xətayinin hakimiyyəti dövründə siyasi arenada fəaliyyətindəki dini ayrı-seçkiliyə aparıb çıxaran reallıqlar, onun özünün şəxsiyyəti ilə bağlı müəmmalı fikirlər mətbuatda yer alır. 1501-ci ildən Cənubi Azərbaycanda On iki imam şiəliyinə əsaslanan səfəviliyi yayan, 1509-cu ildə bütün İran, Azərbaycan, İraq, Şərqi Anadolunu və s. əraziləri vahid dövlətdə birləşdirərkən şiəliyi zorla qəbul etdirən, on minlərlə sünnü təriqətli türk-müsəlman xalqının qətlinə fərman verən br hökmdar kimi də adı hallanır. Şair təbiətli Xətayinin yuxarıdakı misraları bu tökdüyü qanlara işarə ola bilər.

***

«Aşıq mühiti» kimi «aşıq məktəbi» istilahı bir sıra tədqiqatçıların, o cümlədən folklorşünas Azad Nəbiyevin araşdırmalarında yer tutur. Erkən orta əsrlərin başlanğıcında islami təriqətlərin parçalanması, zəifləməsi, yaranan təriqətlərin «aparıcı məfkurə uğrunda mübarizədə önə çıxmağa təşəbbüs göstərdiyi məqamda hər bir aşıq məktəbi müəyyən regional xüsusiyyətlərlə yanaşı, İslami dəyərlərin ümümi məzmun çevrəsini də özündə əks etdirdiyi bildirilir. Aşıq ozan yaradıcılığını davam etdirir, İslami dəyərlərdən də üz döndərmir, hər bir məktəb müəyyən yaradıcılıq üslublarını qoruyub saxlamaqla daha geniş ərazilərə yayılır, yeni-yeni aşıq mühitlərinə parçala-

nır: «Aşıq ənənələrinin forma, məzmun, repertuar ümumiliyini saxlamaqla yaranan mühitlər aşıq məktəbi ənənələrinin formalaşmasına, daha qəti şəkildə özünü müəyyənləşdirməsinə imkan verdi. Bir aşıq məktəbi daxilində onun ifaçılıq ənənələrini, repertuar özəlliyini əks etdirən mühitlər həmin məktəbin özünəməxsusluqlarını daha fəal qoruyub davam etdirməyə imkan verdi» **(4. 44).**

Şirvan aşıq məktəbinin özünün tarixi yüksəlişində Şamaxı, Şabran, Xaltan, Dərbənd, Şəki, Zaqatala, Salyan, Muğan aşıq mühitlərini yaratdığını qeyd edir.

Şirvan əlverişli şəraiti olan Azərbaycan torpağıdır. Bu yerlərin indiki ərazisi Şamaxı, İsmayıllı, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Göyçay, Zərdab, Əli Bayramlı, Qobustan rayonları daxil olan Şirvan A.A.Bakıxanovun «Gülüstani-İrəm» əsərində belə təsvir edilir: «... İndiki Şirvan məmləkəti Salyan, Şəki, Bakı, Quba, Dərbənd, Təbərsəran, Kürə, Samur nahiyəsi və Tlisunun aşağı bir qismindən ibarətdir. Bunlar ölkənin gözəl və ən geniş vilayətlərindəndir» (5.13). Əmin Əhməd «Həft-İqlim» (1593) əsərində Şirvanın əvvəl bir şəhər, sonra isə ölkə adı olduğunu göstərir **(5.14).**

Gözəl təbiətli, üzümçülük, əkinçilik, bağçılıq, heyvandarlıq üçün əlverişli məkan olan Şirvan zəngin mənəvi mədəniyyətə malikdir.

ƏDƏBİYYAT

1. e-library.musigi-dunya.az. e-library.musigi-dunya.az..
2.M.Allahmanlı. «Ozan, aşıq və aşiq». «Ağrıdağ» nəşriyyatı. Bakı. 1997.
3. Əmin Əfəndiyev. Qafqaz əraziləri və xalqlarının təsvirinə dair material toplusu. ГƏXTMT- (CMOMПK) İzahlı biblioqrafiya. Qartal. Bakı.1999.
4. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı (II hissə). Bakı. Elm. 2006.
5. A.Bakıxanov. "Gülüstani -İrəm". Azərbaycan EA Nəşriyyatı. Bakı.1951.

GULKHANI (PANAH) VAGIF GIZI SHUKUROVA
Doctor of Philology. Associate Professor

STAGES OF DEVELOPMENT OF ASHIQ CREATIVITY – GOYCHA ASHIQ SCHOOL"

SUMMARY

The article titled "Stages of Development of Ashiq Creativity" examines the analyses and research conducted in Azerbaijani folklore studies on the stages of development of ashiq creativity. The stages of development of ashiq art belonging to the Azerbaijani people living in Azerbaijan and in the territory of Western Azerbaijan, annexed by Iran and Armenia, Georgia are studied. Goycha, Tovuz, Borchaly, Ganja-Shamkir, Shirvan, Karabakh, Garadash, Tabriz, Urmia, Childir. The different characteristics of the representatives of the Derbent ashiq schools, the masters of saz-word, in terms of their performance, conversation, epic telling style, as well as the technique of playing the saz, sound, singing, etc. are analyzed.

Different, controversial studies on the mechanisms of the stages of development of ashig creativity are drawn to attention.

***Key words**:* ashig, Goycha, saz, word, tajnis, folklore

ГЮЛЬХАНЫ (ПАНАХ) ВАГИФ КЫЗЫ ШУКЮРОВА
Доктор филологических наук, доцент

ЭТАПЫ РАЗВИТИЯ АШУГСКОГО ТВОРЧЕСТВА – ГЕЙЧИНСКАЯ АШУГСКАЯ ШКОЛА

РЕЗЮМЕ

В статье «Этапы развития ашугского творчества» рассматриваются анализы и исследования, проведенные в азербайджанской фольклористике, посвященные этапам развития ашугского творчества. Изучаются этапы развития ашугского искусства азербайджанского народа, проживающего в Азербайджане и на территории Западного Азербайджана, аннексированного Ираном и Арменией, а также в Грузии: Гейча, Товуз, Борчалы, Гянджа-Шамкир, Ширван, Карабах, Гарадаш, Тебриз, Урмия, Чилдыр. Рассматриваются особенности исполнения представителей Дербентской ашугской школы – мастеров саз- слово. Анализируются разговор, эпический стиль, а также техника игры на сазе, звукоизвлечение, пение и т. д. Обращается внимание на различные, противоречивые исследования механизмов стадий развития любовного творчества.

***Ключевые слова*:** ашуг, Гёйча, саз, слово, таджнис, фольклор

Rəyçi: Səhər Orucova filologiya elmləri doktoru, professor

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

0000-0003-0761-1456

MƏRDANLI HUMAY HÜSEYNBALA QIZI
Sumqayıt Dövlət Universiteti
Dil və ədəbiyyat kafedrasının doktorantı
banuuu2010@gmail.com

FRİDRİX DÜRRENMATT DETEKTİVİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Friedrich Dürrenmatt, usyankar yazıçı, ədəbi eksperiment, ənənəvi detektiv, yeni dünya modeli

Giriş: XX əsr bəşər tarixinə dünyəvi faciəvi baxışlar - müharibə, şiddət, texnokratik şüur, ekoloji fəlakət, humanist idealların böhranı kimi anlayışlar həkk etdi. Dünyanı oxucuya fərqli rakursdan tanıtmağı bacaran detektiv hekayələrin populyarlığı getdikcə azalmağa başladı. Bəlkə də bunun səbəbi, detektiv janrında yeni bir süjet xətti ortaya qoymağın mümkünsüzlüyü və ya praktiki olaraq janrın eksperimentlərdən məhrum olmasında idi. Bu səbəbdən də zamanla, detektiv janrda yazan əsər müəllifləri tənqidlərə məruz qaldılar. Onlar həqiqətləri saxtalaşdırmaqda günahlandırılırdılar.

Bir vaxtlar xarici ədəbiyyatşünaslıqda müasir İsveçrə ədəbiyyatının əslində ümumi Alman ədəbiyyatının bir hissəsi olması barədə, onun müstəqil ədəbiyyat kimi formalaşıb inkişaf edə bilməyəcəyi fikri hökm sürürdü. Lakin belə bir tezis də mövcud idi:Ya Isveçrə yazıçıları ölkədə baş verən mədəni proseslərdən kənarda qalmalı, ya da Alman və Avropa ənənələrinə qoşulmaqla, milli qidalandırıcı dəyərləri itirməli idilər. İsveçrə ədəbiyyatşünasları vəziyyətdən çıxış yolu kimi müxtəlif istiqamətlər göstərirdilər. İsveçrə ədəbiyyatını durğunluqdan çıxarmaq istəyən və xalqın milli kaloriti ilə qidalanan Fridrix Dürrenmatt nəsri, onun detektiv romanları əyalətçiliklə avropalaşma arasında mütənasiblik yaratmaq üçün təqdim edilən kompromiss variantların parlaq nümunəsi hesab olunur. İsveçrənin alman dilli ədəbiyyatında dahi yazıçılardan olan F.Dürrenmattın ədəbi fəaliyyəti XX əsrin 40-cı illərindən sonrakı dövrü əhatə edir. F.Dürrenmatt həm xarici və həm də yerli tədqiqatçılar üçün görkəmli dramaturq, qrotest teatr ustası olaraq qalır.

XIX əsrdə E.A.Ponun "Morq küçəsində qətl" əsəri ilə əsası qoyulan detektiv janr, A.Konan Doylun "Şerlok Holms" silsiləsi ilə klassik detektiv modeli olaraq formalaşdı. Sonradan A.Kristi, J.Simenson kimi yazıçıların əməyi ilə bu janr daha da kütləvi xarakter alaraq, psixoloji çalarların janra daxil edilməsi ilə insan və cəmiyyət qarşıdurmalarını, ədalət, günah məsuliyyət kimi anlayışları özündə təcəssüm etdirdi. XX əsrin əvvəllərindən isə İsveçrə yazıçıları Maks Friş və Fridrix Dürrenmattın janra yanaşmaları, fəlsəfi, sosial, hüquqi problemlərin bədii obrazlarla detektiv romanlarda əks etdirilməsi bu janrın Avropa ədəbiyyatında nüfuzunu daha da artırdı. Belə ki, tapmaca xarakterli və kriminal hadisələrin sadəcə

çözülmə ardıcıllığına əsaslanan ilk mərhələr klassik mərhələ; qapalı mühitdə baş vüerən cinayət hadisələrinə əsaslanan Qızıl dövr; sosial problemlərin, rüşvətin və kriminal aləmdəki reallıqların təsvir olunduğu Qara detektiv dövrü və nəhayət hadisələrə fəlsəfi-psixoloji tərəfdən münasibət bildirən yazıçıların insan və cəmiyyət problemlərini, ədalət və məsuliyyət anlayışlarını ön plana çıxardıqları fəlsəfi-ictimai detektiv dövrü.

XX əsrin I yarısında İsveçrədə tam demokratiya və xüsusi inkişafın mövcudluğu barədə yaranmış milli mifi məhv edən "nahamvar, üsyankar yazıçılar" nəsli formalaşdı. Baxmayaraq ki, İsveçrə I və II Dünya müharibələrindən kənarda qalmışdı, məhz bu müharibələrin faciəviliyi, həmin yazıçıların dünyagörüşünü formalaşdıran əsas faktor oldu. Bəşəriyyətin və mədəniyyətin tənəzzülünü, varlığın absurdluğunu sübut edən müharibənin eskataloji anlamı ədəbiyyatda yazıçılar tərəfindən yeni dünya modeli və yeni insan konsepsiyasının yaranmasına təsir etdi.

Heç şübhəsiz daim öz yaradıcılığında oxucunun daxili aləmini silkələyən, standart düşüncə tərzini dəyişməyə çalışan Fridrix Dürrenmatt "usyankar yazıçılar" nəslinə aiddir. Məhz bu sıradan olması, Dürrenmattın nəsr əsərlərinin, kütlə ədəbiyyatı kimi tanınan polis romanlarından çox fərqli xüsusiyyətlərə malik olmasını ortaya qoyur. Belə ki, yazıçının əsərlərində dövlətin kollektiv ənənələrə sadiq olan siyasətinə qarşı tənqidi münasibət aydın sezilir. Buna görə də, Alman dilli ədəbi məkanda Fridrix Dürrenmatt,özünəməxsus əsərləri və intellekti ilə dünya ədəbi xəzinəsini zənginləşdirən dramaturq, detektiv ustalarından hesab olunur. Dürrenmatt yaradıcılığından olan "Der Besuch der alten Dame", "Die Physiker", "Der Meteor" adlı komediyalarıxarici tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilmişdir.Lakin onun silsilə detektiv romanları da diqqətdən kənarda qalmamalıvə oxucu tərəfindən mənimsənilməlidir. F.Dürrenmatt dünyanın nizamsızlığı barədə onda formalaşan fikirlərə bütün yaradıcılığı boyu sadiq qalmiş və eyni fikirləri bütün müsahibələrində təkrarlanmışdır. Ümumiyyətlə,təkrarlanan, lakin aktual səciyyəli mövzular Dürrenmatt yaradıcılığı üçün xarakterikdir.

F.Durrenmatt yüksək, fərqli intellektuallığa malik nəsr ustasıdır. Onun nəsrində adi hala çevrilmiş xüsusiyyətlərdən biri mübahisələrin açılmaması, fikir və mülahizələrin inkişaf etməməsidir. İnsan qabiliyyətlərinin son həddini axtarmaqdan usanmayan və bunu "Əsl yazıçı əməyi" adlandıran yazıçı, bu bədii oyunda kamilliyə çatanlardandır. O, insanın yatmış şüurunu oyatmağa, məntiqi nəticə çıxartmağa və gündən-günə qloballaşan, texnikiləşən dünyada insanın dəyərinin nisbi olduğunu ortya qoymağa çalışmışdır. İlk baxışda yazıçının əsərlərində fantastikanın üstünlük təşkil etdiyi görünməkdədir. O, qrotesk situasiyaları sosial qanunlar əsasında qurmağa çalışmış, cəmiyyətdə insanın öz daxili aləmi ilə ümumi maddi rifahı qarşı-qarşıya qoymuşdur. Buna görə də məhşur detektiv ustası, İsveçrədə "xoşbəxt cəmiyyət"in ənənəvi dəyərlərini bəyənməyən birisi kimi qiymətləndirilmişdir. Yazıçıya xas olan üsyan ruhu, müasir əxlaq normalarını tənqid etmək və stereotiplərdən imtina F.Dürrenmatt nəsrinin problematikasını və bədii

xüsusiyyətlərini müəyyənləşdirirdi. Ədəbiyyatşünas V.D.Sedelnikə görə, F.Dürrenmattın yaradıcılığı İsveçrədə mübahisəli ədəbi durum ilə səciyyələnən mədəni proseslərin baş verdiyi dövrü əhatə edir [3. s.19].

Q.Knappın alman ədəbiyyatşünaslığında qəbul olunmuş nöqteyi-nəzərinə əsasən Dürrenmattın yaradıcılığı bir neçə etapdan ibarətdir [4. s.97].

Yazıçının 1943-1951-ci illər ərzində yazdığı qısa hekayə və novellaları "Die Stadt" adlı toplusunda yer alıb. Müəllifin erkən nəsri ilə yanaşı Bazel və Sürix teatrlarında səhnəyə qoyulan "Der Blinde", "Romulus der Große", "Die Ehe des Herrn Missisippi" adlı ilk drammatik əsərləri də yarandı. 1951-ci ildə Dürrenmatt həm də "Der Richter und sein Henker" və "Der Verdacht" adlı iki detektiv roman üzərində işlədi.

F.Dürrenmattın yaradıcılığının növbəti dövrü1952-1966-cı illərə təsadüf edir. Bu dövr müəllifin dramaturoloji bacarığının ön plana keçməsi ilə xarakterizə olunur. Eyni dövrdə həm Dürrenmatt "Der Besuch der alten Dame", "Die Physiker" əsərləri ilə, həm də onun həmvətəni Maks Friş öz yaradıcılığı ilə II Dünya müharibəsindən sonra yaranan boşluğu doldurdular. F.Dürrematt 1954-cü ildə nəşr etdirdiyi "Probleme des Theaters" adlı yazısında, əsas tezis kimi komediyanın cəmiyyətdəki reallığı əks etdirən əsas janr olduğunu irəli sürürdü.

1967-1972-ci illər Dürrenmattın yaradıcılığında üçüncü etapdır. Bu zaman kəsiyində o,dramatik əsərlər olan "Porträt eines Planeten", "Es steht geschrieben" üzərində işlədi. Amerika səyahətindən qayıtdıqdan sonra "Sätze aus Amerika" adlı publisist esse yazan yazıçı, 60-70-ci illərdə "Porträt eines Planeten" və "Der Mitmacher" pyeslərinin uğursuzluğu ilə əlaqəli yaradıcılıq böhranı yaşadı.

Yazıçının yaradıcılıq fəaliyyətinin yekunu kimi qiymətləndirilən 1973-1980-cı illər dördüncü etapdır. "Stoffe" məhz bu zamanda yazılan əsərdir. Bundan başqa, 1978-ci ildə İsveçrənin Sürix şəhərində Dürrenmattın rəssamlıq sərgisi baş tutdu. Yazıçının özünəməxsus dünyagörüşü çəkdiyi rəsm əsərlərində də əks olunurdu. Bu hadisə dramaturq üçün böyük əhəmiyyət kəsb edirdi.

Beşinci etap F.Dürrenmattın dramaturgiyadan uzaqlaşması ilə səciyyələnən 1981-1990-cı illəri əhatə edir. Bu dövrə aid olan "Justiz","Durcheinandertal" kimi detektiv romanlar, eləcə də, novella, povest və hekayələr fəlsəfi ruhu ilə seçilən əsərlər hesab olunur. G.Knapp məhsur dramaturq və detektiv ustasının fəaliyyətində "Weihnacht" (1943), "Der Folterknecht" (1943), "Der Sohn", "Der Alte" (1944-45), (1947), "Die Stadt" (1947), "Der Hund" (1951), "Der Tunnel" (1952), "Aus den Papieren eines Wärters" (1952) kimi ədəbi nümunələri 40-50-ci illərin erkən nəsrinə aid etmişdir. "Das Sterben der Pythia" (1976) hekayəsi, "Justiz" (1985) adlı detektiv roman, "Minotaurus" və "Der Auftrag"adlı povestlər isə 70-80-cı illərin nəsri hesab olunur [4. s.34].

F.Dürrenmattın nəsri, eyni zamanda dramaturgiyası müxtəlif cərəyan və müasir ədəbi məktəblərin elementlərini özündə birləşdirən mürəkkəb fəlsəfi-estetik hadisədir. Yazıçının nəsr əsərləri bütövlükdə onun yaradıcılığının vacib hissəsidir.

Onun detektiv nəsrində olan spesifik xüsusiyyətləri öyrənmədən yaradıcılığını qiymətləndirmək, müəllifin bədii irsi barədə natamam fikir formalaşdırar.

Dürrenmatt qaldırdığı problemlərin çoxşaxəliliyini şərh edərkən "Mən müşahidəçi deyiləm, hər şeyi özüm uydururam.Uydurduğum elementlərlə reallığı göstərirəm" deyirdi [5.169]. Digər ekspressionistlər Kafka və Brextdən fərqli olaraq, F.Dürrenmatt reallığı öz şişirdilmiş uydurmaları əsasında yaratmışdır. Yazıçı tərəfindən həqiqətlər qrotesk səviyyəsinə çatdırılmış, onların dərk olunmayan tərəfləri və görünməyən proseslər cəmiyyət və siyasətin timsalında göstərilmişdir.

F.Dürrenmatt "Der Richter und sein Henker" adlanan detektiv romanında "Xeyir" və "Şər" deyilən iki qüvvəni üz-üzə qoymuşdur. II Dünya müharibəsindən sonra Şərin, geniş beynəlxalq əlaqələri olan nasist cinayətkarlarla eyniləşdirilməsi təbii haldır. Roman bir giriş, üç nəqletmə fazası və sonluqdan ibarətdir. Ümumilikdə 21 bölmədən ibarət olan bədii nümunənin məzmunundan aydın olur ki, mövzu yalnız baş vermiş cinayətin araşdırılması deyil. Detektiv elementlərdən istifadə, eyni zamanda oxucunu oturuşmuş düşüncədən yayındırmaq istəyinə bağlıdır. Bəzi məqamlarda müəllif, klassik detektiv roman xüsusiyyətlərinə sadiq qaldığını hiss etdirir. Romanın cinayətlə başlaması, insanlar haqqında məlumatın və cinayətin baş verdiyi məkanın dəqiqliyi ilə təqdim edilməməsi və s.

F.Dürrenmattı bu sahədə fərqləndirən özünəməxsusluqlardan biri də, oxucunu analitik təhlildən yayındırmaq və onu açılmayan tapmaca üzərində düşünməyə vadar etməkdir. Analitik təhlil və hadisələrin xronoloji ardıcıllıqla işlənməsi isə detektivin janr xüsusiyyətidir. Eyni zamanda, Berlaxın Çansdan gizlətdiyi istintaq sirləri də oxucunun obraza olan güvənini azaldır. Gastmanın gizləndiyi yerin müəyyən edildiyi anda, itin Berlaxa hücüm etməsi də oxucunu yayındırma məqsədi daşıyır.

Roman boyunca, bir çox səhnələrdə Dürrenmattın çaşdırıcı priyomlardan ustalıqla istifadə etdiyini müşahidə edirik. Məsələn, Berlaxın itin hücumuna məruz qaldığı vaxt, səs-küy salmaması normal hal deyil. Oxucuda şübhə yaradan məqamdır. Lakin yazıçı tərəfindən ortaya qoyulan "taleyə inam" yanaşması oxucunun şübhələrini ört-basdır edir. Ümumiyyətlə, Berlaxın davranışları arasında oxucunu təəccübləndirəcək məqamlar çoxdur. Berlaxı digər komissar obrazlarından fərqləndirən cəhət, onun, göl kənarında tapılan maşının Bielə gətirilməsinə göz yumması və ya Çansla söhbətlərində cəsədi görmədiyini bildirməsidir. Romanda bəzi hallarda ən yaxın köməkçisi Çans da onun hadisələrə laqeyd münasibətini anlaya bilmir. Məsələn, onun Çansın hadisə yerinə tək getmək istəyini qəbul etdi və özünün evdə tək qalacağını bildirdi. Bu məqam Çansın özünə də qəribə göründü. Öz köməkçisini izləmə fürsəti əldə edən komissar Berlax strateji mövqeyi ilə onu çıxılmaz vəziyyətə saldı və bunu romanın sonunda etiraf etdi.

Öz dövründə yaşadığı cəmiyyətin tənqidçisinə çevrilən Dürrenmattın "Hakim və cəlladı" (Der Richter und sein Henker) adlı detektiv romanında hansı ədəbi üsul və ənənələrdən istifadə etməsi diqqət çəkən məqamlardandır. Necə olub

ki, onun əsərdə yaratdığı komissar obrazları müxtəlif mədəniyyətlər üçün təkrarolunmaz fiqura çevrilə biliblər? Belə ki, onun detektiv romanlarda yaratdığı obrazlar müxtəlif faktorlarla klassik detektiv qəhrəmanlarından fərqlənir. Məsələn əgər, Şerlok Holms məntiqli və mükəmməl düşüncə sahibidirsə, Dürrenmattın "Hakim və cəlladı" (Der Richter und sein Henker) romanındakı Berlax obrazı ölümcül xəstəliyi olan, cılız, həyatın ziddiyyətləri qarşısında aciz qalan insandır.

Məqalədə, Dürrenmatt nəsrinə xas olan və onu öz dövrünün yazıçılarından fərqləndirən üslub xüsusiyyətləri də araşdırılmışdır. Yazıçının "Der Richter und sein Henker" romanı tədqiqat obyekti kimi götürülərək, klassik detektiv romanlardan həm ədəbi cəhətdən, həm də dilçilik yönümdən quruluş fərqi tədqiq olunur. Bəzi məqamlarda yazıçı, ənənəvi detektiv roman xüsusiyyətlərinə sadiq qalmışdır. Bu da romanların cinayətlə başlamasıdır. Klassik detektiv roman xüsusiyyətlərinə görə, müəllif qəhrəmanlar və cinayətin baş verdiyi məkan barədə dəqiqi məlumat verməməlidir. F.Dürrenmatt da məhz bu prizmadan yanaşaraq, obrazlar haqqında oxucuya ən zəruri məlumatları vermişdir. Məsələn: Cinayət nə vaxt, hansı situasiyada baş vermişdir. "Tvann polisi Klenin, min doqquz yüz qırx səkkizinci ilin noyabrında Lamboinqdən Tvamm dərəsinə gedən yolun qırağında, bir Mersedes tapdı. Hava payızda tez-tez olduğu kimi çox dumanlı idi. Klenin artıq maşının yanından ötüb keçsə də, yenidən qayıtdı. Keçərkən maşının dumanlı şüşəsindən içəri baxdıqda, ona elə gəldi ki, sürücü sükana tərəf yıxılıb. Əvvəlcə onun sərxoş olduğunu düşündü. Çünki hər bir normal insan kimi, ilkin ehtimal olaraq ağlına bu fikir gəldi" [1,s.53].

Kleninin cəsəddən qorxması da, ənənəvi detektiv elementi hesab olunmur: "Buna görə də o, içərisində cəsəd olan maşını hadisə yerindən uzaqlaşdırmağa və Bielə aparmağa qərar verdi". Ənənəvi detektivdə, istintaqçı adətən cinayət yerinə yenidən qayıtmalı və hadisə yerində dəyişiklik edilməməlidir. Hadisədə yerdəyişikliyindən sonra Komissar Berlaxa məlumat verildi.

Eyni zamanda, oxucunun obraza olan güvənini azaldan daha bi rcəhət, Berlaxın istintaq sirlərini Çansdan gizlətməsidir. İtin Berlaxa hücum etməsi də yazıçı tərəfindən oxucunu yayındırma elementidir: "Birdən böyük bir kölgə, güc və parçalama arzusuyla yanan bir it üzərinə atladı. Heç nə anlamadan, ona tərəf qaçan məxluqdan qorunmaq üçün sol qolu ilə boğazını qapayan yaşlının heç səsi də çıxmadı. Onun fikrincə bu təbii haldır, baş verənlər bu dünyanın qanunlarına uyğundur". Romanın bu fraqmentində, Berlaxın köməyinə gələn Çans iti güllə ilə vuraraq, onun həyatını qurtarır. Berlaxın öz evində qolunun sarğılı olduğunu unutmayan oxucu, onun itlə qarşılaşacağı səhnəyə əvvəlcədən hazır olduğunu başa düşür. Eyni zamanda, qəhrəmanın evə gəldikdən sonra silahını çıxarıb stola qoyması da bir işarədir. Bu situasiya "itin hücumuna məruz qalmadan əvvəl onu vura bilərdi" düşüncəsini də formalaşdırır. Beləliklə bəzi detallar üzə çıxdı və oxucu öz düşüncəsində hadisələrin xronoloji ardıcıllığına əsasən, Berlaxın niyə bu şəkildə davrandığını öyrəndi. Yuxarıda qeyd olunduğu kimi, yalnız romanın sonunda Berlax,

Çansın iti vurduğu güllə sayəsində, Şmidin də qatilinin məhz o olduğunu sübuta yetirirdi. Çünki, hər iki qurğuşun eyni silahdan idi.

Şahidi olduğumuz bu səhnədə Dürrenmatt çaşdırıcı priyomlardan əharətlə istifadə etmişdir. Berlaxın itin hücumu ilə üzləşdiyi vaxt səs-küy salmaması, oxucuda şübhə yaratmaq üçündür. Ancaq Dürrenmatt oxucunun bu şübhəsini roman boyunca "taleyə inam" yanaşması ilə ört-basdır edir. Beləcə özünü hücumdan qorumaması Berlaxın özünə xas davranışı kimi, Dürrenmattın isə oxucuya verdiyi çaşdırıcı ipucu kimi qiymətləndirilir. Deməli, bu səhnə komissar Berlaxın davranışları arasında oxucunu təəccübləndirəcək ən gözəl situasiyadır. Komissar Berlaxın, göl kənarında içərisində cəsəd tapılan maşının Bielə gətirilməsinə göz yumması və ya Çansla söhbətlərində cəsədi görmədiyini dilə gətirməsi onu tanıdığımız digər komissar obrazlarından fərqləndirir. Romanda bəzi hallarda ən yaxın köməkçisi Çans da onun hadisələrə laqeyd münasibətini anlaya bilmir. Məsələn, onun Çansın hadisə yerinə tək getmək istəyini qəbul etməsi və özünün evdə tək qalacağını bildirməsi Çansın özünə də qəribə görünür. "Evdə qalacam" deməklə Çansı izləmə fürsəti əldə edən komissar Berlax, strateji mövqeyi ilə onu çıxılmaz vəziyyətə saldı. Həm də bunu romanın sonunda etiraf etdi. Beləliklə, davranışları şişirdilən Berlax adlı fiqur romanın sonunadək sirli obraz olaraq qaldı. Yəni, yazıçı müstəntiqin bildiyi bir çox məlumatları oxucuya çatdırmadı. Məhz bu xüsusiyyət F.Dürrenmattı klassik detektivin şablonundan kənarda tutur. Burada ədalətin bərqərar olması dövlətin dünyəvi qanunları ilə deyil, İlahi ədalət vasitəsilə mümkün olmuşdur. Göstərilən səhnələrdən məlum olur ki, XX əsr İsveçrə cəmiyyətinin ən öndə olan tənqidçisi F.Dürenmattın yaradıcılığında cəmiyyət və hüquq sistemindəki çatışmazlıqlar, ədalət prinsiplərinin pozulması və ədalətin nisbiliyi ön plana çəkilir. , Dövlətin hüquq sisteminin heç də həmişə ədaləti təmin etmədikləri ortaya çıxır. Bu faktın əsas göstəricilərindən biri də, müəllifin "Şübhə" (Der Verdacht) romanında tanınmış komissarın həqiqəti, sosial reallıqlar və təsadüflər sayəsində tam sübut edə bilməməsidir. Baxmayaraq ki, o artıq cinayətin izinə düşmüşdür.

Öz dövlətində cəmiyyətin kəskin tənqidçisi olmasına baxmayaraq, Dürrenmatt, İsveçrəli olmayan birinin İsveçrənin siyasi məsələlərinə qarışmasını "Hər kəs öz qapısının ağzını təmizləməlidir" fikri ilə cavablandırmaqla siyasi arenada həm də dövlətinin keşikçisi rolunda çıxış edirdi. [6, səh.61].

Dürrenmatt oxucunu cinayətin kim tərəfindən törədilməsi üzərində deyil, cəmiyyətdə tam ədalətin mümkünsüzlüyü üzərində düşünməyə vadar edir. Oxucu qarşısında müəyyən sualların cavabsız qalması, cinayətkar tapılsa da, cinayətin mahiyyətinin çözülməməsi bu romanların anti-detektiv adlandırılmasına əsas verir. Beləliklə, Dürrenmatt detektivinin özünəməxsusluğunu aşağıdakı kimi səciyyələndirə bilərik:

- Cinayətin açılmasında təsadüf və qeyri-müəyyənliyin rolu;
- Qəhrəmanların məhdud imkanları və zəif xarakterli olmaları;
- Dövlətin ədalət sistemi və idarəetmə orqanları tənqid edilir, ədalətin

nisbi olması göstərilir.

- Romanlarda fəlsəfi-psixoloji. Sosial problemlər qabardılır və günah, məsuliyyət, insan və cəmiyyət münasibətləri ön plana çəkilir.
- Nəhayət, yazıçı klassik detektiv roman çərçivəsini aşaraq, janrın sərhədlərini genişləndirir.

Nəticə etibarilə F.Dürrenmatt detektiv janrı kriminal hadisə çərçivəsindən çıxarmaqla bərabər, onu insanın şüuraltı düşüncəsini oyadan, bəşəri problemləri əks etdirən fəlsəfi-psixoloji forma halına gətirmişdir.

F.Dürrenmatt, həm də avtobioqrafiyasından müəyyən həqiqətləri maskalamaqla, öz xarakterini də romana daxil edə bilən yazıçılardandır. Müəllifin avtobioqrafik məlumatları romana daxil etməsi, özünü iki mərhələdə göstərir. Birinci mərhələdə: yazıçının şəxsi həyat tərzinə aid narsist elementləri, yemək bişirməyə meylli olmasını önə çıxarır. İikinci mərhələdə onun poetik obraz yaratma bacarığı diqqət çəkir. Bəzi məqamlarda özü haqda verdiyi şərhlərə görə Dürrenmatt arxasında güc, dövlət, qadağa və cəza olmayan bir polis kimi insanların ən kiçik davranışlarını belə təhlil edəndir. Ümumiyyətlə, fərqli vəziyyətlərdə insanların fərqli davranışları F.Dürrenmattın həyatı boyunca araşdıracağı bir problem idi.

F.Dürrenmattın "Der Richter und sein Henker" detektiv romanına xas olan özəl xüsusuiyyətlərdən biri də, Yunan mifologiyasına aid olan sözlərdən istifadə etməsidir. Məsələn, bu mənada Şmidə aid olan avtomobilin adı Karondur. Karon isə Hadesin yeraltı ölkəsində ölüləri Akeron çayından keçirən qayıqçının adıdır. Dürrenmatt romanda Şmidin avtomobilini Karon adlandırmaqla, onun "İçində Bielə ölü gətirən" mənasına işarə etmişdir.

"Mehlsuppe" əsas tərkibi un və sudan ibarət olan, xüsusilə İsveçrə və Avstriyada tanınan sadə bir yeməkdir. Bu yemək növünün adı romanın ilk səhnəsində çəkilir. Alfons Klenin yol kənarında dayanan avtomobildə olan adamı otelə aparır və onun sağalması üçün bu yeməyi hazırlayır. Diqqət çəkici məqam: romanda hər hansı bir bölgəyə aid olub şəhər, yemək və geyim adlarını bildirən sözlərin də istifadəsinə rast gəlinir [7, seh. 90-95]. Romanda adlarına rast gəlinən ən məhşur İsveçrə şəhərləri "Bern", "Tvann", "Biel", "Lamboinq"dir. Eyni zamanda Frankfurt və köhnə adı "Konstantinopol" olan İstanbulun adının da romanda öz əksini tapmasına rast gəlinir. Bu da, komissar Berlaxın öz vəzifəsi ilə əlaqədar tez-tez həmin şəhərlərə səfər etməsidir.

Şmidin mədəni və ziyalı ailədən olmasına işarə edən element isə geyim növü olan şapkadır. Avtomobildə ölü tapılan Şmidin istifadə etdiyi keçə şapka "Filzhut" adlanır. Çansın özünü Şmidə bənzətməsi səhnəsində həmin şapkadan istifadə etdiyinin şahidi oluruq.

Ümumiyyətlə, təhlil olunan romanda kriminologiya sahəsinə aid, ən çox işlək olan sözlər yer alıb. Məsələn: Cəsəd- Leiche, atəş açmaq), "Durchschießen" "Blutiger Fall" (qanlı hadisə), "Der Tote" (ölü), "Wunde" (yara), "Polizeileutnant" (polis leytenantı), "Komissär" (komisar), "Tatort" (hadisə yeri) və s.

Nəticə: Dürrenmattın ən böyük uğurları detektivlə deyil, dramla əlaqələndirilir. Ancaq, müəllifin detektiv romanları onun yaradıcılığının "yan məhsulu" kimi qiymətləndirilə bilməz. Buna səbəb, yazıçının detektiv romanlarında məhşur tragikomediyalardakı kimi ciddi və dünyəvi problemlərin inkişaf etdirilməsidir.

F.Dürrenmattın sələfi hesab olunan Fridrix Qlayzer ilə fikir eyniliyi olsa da, ideyalarını həyata keçirtmə metodları fərqlidir: Dürrenmatt paradokslarla işləməyi, oxucunu, abstraktın başladığı nöqtəyə, məntiqi düşüncənin son həddinə çatdırmağı üstün tutur.

Dürrenmatt detektivə üz tutmaqla oxucuya, cəmiyyətin real problemlərini özündə əks etdirən əsərlər təqdim etmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1.Дюрренматт Ф. Судья и палач. Москва: Полюс, 1990. 64 с.
2.Дюрренматт Ф.// Нова філологія. Запоріжжя: ЗДУ, 2003. №1 (16) С. 167-172
3. Козаева, Л.П. Слова с разными словообразовательными структурами в статьях Фридриха
Дюрренматта / Вестник Московскова Университета. Серия 9.Филология,-2008, №1.С.90-95.
4.Седельник В. Парадоксы и предостережения Фридриха Дюрренматта // -М.: Издательская группа «Прогресс»; Харьков: Фолио, 1997, С. 5-24.
5.Dürrenmatt Fr. Theaterprobleme // Theater-Schriften und Reden.Bd.1,2. Zürich, 1966. 98 S.
6.Göbel H. Friedrich Dürrenmatts politisches Engagement // Humaniora: Germanistica 4. Tradition und Moderne in der Literatur der Schweiz im 20. Jahrhundert. Konferenzbeiträge. Tartu University Press, Göttingen: -2007, 235 S.
7. Knapp G. Friedrich Durrenmatt. Stuttgart, Weimar: Metzler, 1980. 141 s.

Xülasə

Mərdanlı Humay Hüseynbala

FRİDRİX DÜRRENMATT DETEKTİVİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Fridrix Dürrenmatt, İsveçrə ədəbiyyatı, üsyankar yazıçı, ədəbi eksperiment, ənənəvi detektiv, yeni dünya modeli

Təqdim edilən məqalədə əsərləri dünya tədqiqatçıları tərəfindən geniş şəkildə araşdırılan Fridrix Dürrenmattın detektiv romanlarının unikallığı təhlil edilir. Dünya ədəbiyyatında mühüm irs qoyan A.Kristinin detektiv əsərləri oxucuları cəlb etsə də, dünyaya fərqli baxış bucağı təqdim edən detektiv əəsrlərin populyarlığı getdikcə azalmağa başladı. Bu detektiv janrda eksperimentə yer verilməməsi və yeni süjet

xəttinin olmaması ilə bağlı idi. F.Dürrenmatt detektiv romanlarında eksperimentə yer verməklə İsveçrə ədəbiyyatını durğunluqdan çıxardı. Yazıçının unikallığı oxucunun şüuraltı təfəkkürünü oyatmaq, hadisələrdən məntiqi nəticə çıxarmaq, bu xaotik dünyada insan dəyərinin aşağı düşməsini göstərməyindədir. Eyni zamanda yazıçının əsərləri milli-mənəvi dəyərlər və mövzuların çoxşaxəliliyi baxımından da maraqlıdır.

SUMMARY

Merdanli Humay Huseynbala

THE SPECIFIC CHARACTERISTICS OF FRIEDRICH DURRENMATT'S DETECTIVE

Key words: Friedrich Dürrenmatt, Swiss Literature, rebel writer, literary experiment, traditional detective, new world model

This article will analyze the uniqueness of the detective novels of Friedrich Dürrenmatt, whose dramaturgical works are widely studied by the world researchers. Although the detective works of A. Christie, who left a great legacy in the world literature, attracted the reader's attention, the popularity of detecti ve stories that were able to introduce the world to the reader from a different perspective began to decline.

The reason for this was almost no space for experiments in the detective genre and the lack of a new storyline. F. Dürrenmatt rescued Swiss literature from stagnation by giving a lot of space to experiments in his crime novels. It is the uniqueness of the writer to awaken the subconscious mind of a person and to draw logical conclusions from what is happening, to show that human value is cheapened in this chaotic world. At the same time, the author's works are also interesting from the point of view of national and moral values standing against the background of multifaceted topics.

РЕЗЮМЕ

Мерданлы Гумай Гусейнбала

ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ДЕТЕКТИВА ФРИДРИХА ДЮРРЕНМАТТА

Ключевые слова: Фридрих Дюрренматт, Щвейцарская литература, писатель-бунтарь, литературный эксперимент, традиционный детектив, модель нового мира

В данной статье будет проанализирована уникальность детективных романов Фридриха Дюрренматта, драматургические произведения которого широко изучаются мировыми исследователями. Хотя детективные

произведения А.Кристи, оставившего большое наследие в мировой литературе, привлекали внимание читателей, популярность детективов, способных представить читателю мир с иной точки зрения, стала снижаться. Причиной тому было почти отсутствие места для экспериментов в детективном жанре и отсутствие новой сюжетной линии. Ф.Дюрренматт вывел швейцарскую литературу из застоя, предоставив в своих криминальных романах много места экспериментам. Уникальность писателя в том, чтобы пробудить подсознание человека и сделать логические выводы из происходящего, показать, что человеческая ценность обесценивается в этом хаотичном мире. В то же время произведения автора интересны и с точки зрения национально-нравственных ценностей, стоящих на фоне многогранной тематики.

Rəyçi: Fil.ü.e.d., prof. Cəlil Qərib oğlu Nağıyev

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

SABİR MƏMMƏDOV
ADPU-nun Ağcabədi filialı, dosent
vilayetmemmedov1980@mail.ru
FAZİL CƏFƏROV
ADPU-nun Ağcabədi filialı, dosent
faziljafarov@yahoo.com

BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA VƏTƏNPƏRVƏRLİK

Xülasə

Məqalə Bəxtiyar Vaharzadənin poeziyasında yer alan azadlıq, müstəqillik, vətənə sonsuz məhəbbət, Ana dilinə və xalqına xüsusi sevgi, turançılıq-türkçülük, Qarabağ dərdi, Xocalı soyqırımı, şəhidlər və sairə məsələlər ön planda canlandırılmışdır.

Məqalədə azadlıq və müstəqilliyin alovlu çarcısı, hər zaman xalqının dərdlərini düşünən, Qarabağ-Xocalı və şəhidlər faciəsini dünyaya bəyan edən, vətənpərvər şair Bəxtiyar Vahibzadə nin yaradıcılıq yoluna işıq salmışdır.

Açar sözlər: *Müstəqillik, milli azadlıq, türkçülük, vətənpərvərlik, Qarabağ dərdi, şəhidlər, Xoçalı soyqırımı.*

Giriş.

Müasir poeziyamızın sayılıb-seçilən şairlərindən olan Bəxtiyar Vahabzadə öz zəngin, çox cəhətli ,bənzərsiz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında yeni üfüqlər açmış söz sərrafıdır . Özünəməxsus izi və yolu olan,təkrarsız ,dil və üslubu ilə seçilən novator şairlərimizdən biridir.

B. Vahabzadənin lirikasında vətənə,yurda bağlılıq hər öndə durur. Bu onun əsərlərinin əsas qayəsini təşkil edir. Şairi vətənin ağrı -acısı , dərdi və eləcə də həsrət və iztirabları düşündürür, bu baxımdan da əsərlərində bu məsələlər geniş sərgilənir. "Bəxtiyar Vahabzadənin lirikası"(1983) kitabının müəllifi İ.Əliyeva şairin vətənpərvərlik mövzusunda yazdığı əsərlərdən danışarkən demişdir:"Şairin elə bir əsəri yoxdur ki, orada Azərbaycan torpağının isti nəfəsi, təravəti duyulmasın , qəhrəman xaqlqımızın mübarizə əzmi, qurub yaratmaq eşqi , humanist hisləri, gələcəyə olan inamı yüksək poeziya dili ilə bədii şəkildə əks olunmasın".

Bu fikirlər B.Vahabzadənin necə bir vətənpərvər şair olduğunu bir daha təsdiq eləyir.

B.Vahabzadənin "Vətən" ,"Azərbaycan","Vətənin keşiyində", "Azərbaycan əsgəri" "Şəhid anası" və şeirlərinin vətənpərvərlik mövzusuna həsr edilmişdir.

Şair vətən sevgisin belə dilə gətirir:

Dönsün həqiqətə ehtimal,günan
Yer ilə səmanı qarışıq salan.
Zülmətə nur saçan xəyallarımdan

Vətən torpağına bir işıq salan.

B.Vahabzadə "Vətən olmaz" qəzəlində göstərir ki , hər bir insan üçün ən müqəddəs yer onun vətəni doğulub boya-başa çatdığı yurdudur.

Əcdadımızın türbəsi torpaq-kökümüzdür ,
Torpaqsız açan buğda dənindən də dən olmaz.
Kökdən aralandınsa işin düşdü qəzaya ,
İmdadına , fəryadına bir dən yetər olmaz.
Yurd eşqi bütün sevgilərin yacıdır əlbət,
Haqdan doğulan qibləyə heç vaxt çatan olmaz.

Şairin yaradıçılığında vətənpərvərlik ön planda durduğu üçün insanların bütün arzu və istəkləri ikinci planda verilmişdir. Bəxtiyar Vahibzadə milli azadlı və müstəqillik carçısı olmaqla bərabər həmişə millətini, xalqını onun övladlarının həyatını düşünmüş və özyurdseverliyini poeziyasının canına və qanına hopdurmuşdur. Şair poeziyası bəşər övladının şan-şərəfi, qeyrət və namusu olduğunu hər an öz yazılarında əks etdirir. Vətən borcu hər bir şəxsin şəxsi şərəfi mənəvi və müqəddəs borcu olduğunu Bəxtiyar Vahibzadə öz poeziyasında dönə-dönə xatırladır[1,2].

Bütöv halda Bəxtiyar Vahibzadə sənəti Azərbaycan xalqının mənəvi dünyasından, onun keçdiyi şanlı tarixdən bəhrələnmiş, qidalanmış, dərin müasir həqiqətlərlə ətə-qana dolmuş fəlsəfi siqləti, mərd və cəsarətli poeziyadır.Yüksək və böyük amallarla nəfəs almaq, dövrümüzü, cəmiyyətimizin, xalqımızın qarşısında duran, əzəmətli vəzifələri ehtiraslı, coşğun ağıl və fəlsəfi təfəkkürlə əks etdirmək onun poeziyasına güvvətli müasirlik və vətəndaşlıq pafosu aşılamışdır. Güclü poetik zəkaya və ilhama malik olan Bəxtiyar Vahibzadə xalq arasında dərin məhəbbət qazanmış şairlərimizdəndir.

Təhlil və müzakirələr.

Bəxtiyar Vahibzadəyə görə "dünyanın ən böyük dahiləri, ədəbiyyat və sənət xadimləri ən gözəl əsərlərini vətənə həsr etmişlər". Vətən sevgisi hər bir vətən övladının canında və qanında olur. Onu heç bir zaman unutmaq olmaz. Bu baxımdan şairin " Vətən dərdi", Şəhid məzarları", "Vətən eşqi hər şeydən əzizdir" və başqa şeirləri vətənpərvərlik hisslərini geniş şəkildə əks etdirilmişdir. Bunun bariz nümunəsini "Vətən" şerində görmək olar:

Çağırır indi bütün milləti imdada Vətən,
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.
Bizə meydan oxuyan bilməlidir birdəfəlik,
Nə satılmaz, nə verilməz binədən yada Vətən.
Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər sözdə, hər imzada Vətən .

Görkəmli şairi, vətənpərvər, azadlıq üçün canını fəda edən X.R.Ulutürkün Qarabağ torpağı uğurunda şəhid olmuş oğlu Təbrizin əziz xatirəsinə ithaf etdiyi

"Vətən məcnunluğu" şerində Bəxtiyar Vahibzadə yurd, vətənə məhəbbətini xüsusi sevgi ilə tərənnüm etdirmişdir:

Vətənin yolunda kimi qan ağlar,
Kimi də can verər....
Sənsə sən oldun.
Vətənçün pulundan keçməyənlər var,
Doğmaca balandan keçən sən oldun

Bəxtiyar Vahibzadə vətəni, millətin dili, varlığı, canı və demək olar ki, hər şeyi sanır. Ona görə də "Vətən eşqi hər şeydən əzizdir" şerində bu fikirlərini bədi boyalarla təsdiqləyərək deyir:

Vətən eşqi hər eşqdən əzəldir,
Mənim elim, mənim dilim gözəldir.
Öz canımdır, öz anamdır Vətənim,
Azərbaycan, mən sənənəm, sən mənim .

Şair "Ana vətən" kəlməsini heş vaxt biri-birindən ayırmır. Ona görədə Ana ilə vətən sözləri birgə deyilməlidir. Hələ vaxtı ilə sevimli şairimiz Abbas Səhhət demişdir ki, "Vətəni sevməyən insan olmaz, olsa da o şəxs də vicdan olmaz". Doğrudanda belədir. Vətən, yurd, el-oba sevgisi həmişə şairlərin yaradıcılığında ön planda durmuşdur. Sevimli şairəmiz Ağabəyim Ağa Qarabağdan-vətənindən ayrı düşəndə ah-nalə çəkərək demişdir[1,5].:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan Qarabağ,
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ

Vətən həsrəti, vətən dərdi şairəni odsuz-oçaqsız yandıraraq külə döndərmişdir[3,4]. Bu bütün vətən həsrəti çəkən şairlərimizə, o cümlədən Bəxtiyar Vahibzadəyə də aidir.

Bəxtiyar Vahibzadə "Azərbaycan" şerində də vətənə məhəbbət duyğuları özünü geniş şəkildə göstərir. Şair Azərbaycanı sonsuz məhəbbətlə sevdiyini bəyan edərək söyləyir:

Ey qüdrətim, ey şöhrətim,
Sənsiz mənim nə qiymətim?
Torpağından qüvvət alıb yarandım mən.
Xəyalımın əvvəli sən,

B.Vahabzadənin poeziyası vətənpərvərlik və vətəndaşlıq nöqtey nəzərindən çox zəngindir.

Qarabağ dərdi şairi hər an düşündürmüş, erməni faşistlərinə lənətlər yağdırmışdır. Bəxtiyar Vahibzadə Qarabağda şəhid olan şəhidlərimizin ruhunu yad etmiş və onların əziz xatirəsinə "Şəhidlər" əsərini və eləcə də Xocalaı soyqırımını xalqımızın tarixində qanlı bir səhifə kimi göstərmiş və sanki fəryad çəkmişdir[7,8].

Vaxtı ilə Bəxtiyar Vahibzadənin yaradıcılığından xalq şairi Süleyman Rüstəm demişdir: "B.Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab verərdim: ilk növbədə vətəndaşlıq, azərbaycançılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarda çap olunmuş şeirlərində imzasının yanında "Azərbaycan" sözünü yazmamaq da olar. Sanki onun bütün yaradıcılığına "Azərbaycan" möhürü vurulmuşdur" Doğrudan da şairin hər bir misrasında

Azərbaycançılıq ruhu duyulur.

Ümumiyyətlə, Bəxtiyar Vahibzadə yaradıcılığında Vətən-Qarabağ mövzusu qırmızı xətt kimi keçir.

Nəticə.

Şair bütün varlığı ilə xalqının bütün dərdlərini sonsuz sevgi ilə poetik şəkildə qələmə almışdır. "Bəxtiyar Vahabzadənin yaradiciliğinda vətənpərvərlik ideyalarinin tərənnümü " mövzusunda nəticə üçün onu qeyd etmək lazımdır ki, milli azadlıq, müstəqillik, vətənpərvərlik, Qarabağ-Xocalı, şəhidlər, ana dilimiz, türkçülük, vətənin bütün ağrı-acıları B.Vahibzadə yaradıcılığının əsas qanını və canını təşkil edir.

Ədəbiyyat:

1. Telmanqızı Asifə. B.Vahabzadənin yaradıcılığı. Bakı: Turan evi, 2010, 152 s.
2. Vahabzadə Bəxtiyar. Əsərləri. 12 cilddə, II cild, Bakı: Elm, 2008, 616 s.
3. Vahabzadə Bəxtiyar. Əsərləri. 12 cilddə, VI cild, Bakı: Elm, 2008, 738 s.
4. Süleyman Rüstəm. Azərbaycanın xalq şairi, "Bakı" qəzeti, 15 avqust 1985
5. Vahabzadə Bəxtiyar. Yeni şeirlər. Bakı: Yazıçı, 1993
6. Əliyev İfrat. Bəxtiyar Vahabzadənin lirikası , Bakı ,"Yazıçı" nəşriyyatı ,1993,1805.
7. Əkbərzadə Şahmar. "Sən Bəxtiyar oldun o zamandan ki..." " Azərbaycan gəncləri" qəzeti , 1 noyabr 1984.
8. Cəfərov Nizami . Bəxtiyar Vahabzadə, Bakı, "Azərbaycan " nəşriyyatı ,1996, 96 səh.

Sabir Mamedov, Fazil Jafarov

PATRIOTISM IN THE POETRY OF BAHKTIAR VAHABZADE

Abstract

The article brings to the forefront the issues of freedom, independence, endless love for the homeland, special love for the mother tongue and people, Turanism-Turkism, the Karabakh problem, the Khojaly genocide, martyrs and other issues in the poetry of Bakhtiyar Vahibzade.

The article sheds light on the creative path of the patriotic poet Bakhtiyar Vahibzade, who was a fiery champion of freedom and independence, who always

thought about the problems of his people, who declared the Karabakh-Khojaly and martyrs' tragedy to the world.

Keywords: *Independence, national freedom, Turkism, patriotism, Karabakh conflict, martyrs, Khochali genocide.*

Сабир Мамедов, Фазиль Джафаров

ПАТРИОТИЗМ В ПОЭЗИИ БАХТИЯРА ВАГАБЗАДЕ

Резюме:

В статье на первый план в поэзии Бахтияра Вахибзаде выдвигаются вопросы свободы, независимости, бесконечной любви к Родине, особой любви к родному языку и народу, туранизма-тюркизма, карабахской проблемы, Ходжалинского геноцида, шехидов и другие.

В статье освещается творческий путь патриотического поэта Бахтияра Вахибзаде, пламенного борца за свободу и независимость, всегда заботившегося о проблемах своего народа, возвестившего миру о Карабахско-Ходжалинской трагедии и трагедии шехидов.

Ключевые слова: *Независимость, национальная свобода, тюркизм, патриотизм, карабахский конфликт, шехиды, Ходжалинский геноцид.*

Rəyçi: fil.ü.f.d., dos Vaqif Salehoğlu Allahverdiyev

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

AFƏT PAŞA QIZI HƏBİBOVA
afet_hebibova@mail.ru
Azərbaycan Dillər Universiteti, müəllim

SOSİAL MEDİA XƏBƏR MƏNBƏYİ KİMİ
GİRİŞ

Günümüzdə saytlar daha zaman baxımından səmərəli və əlçatan olduğu üçün çox vaxt xəbər mənbəyi kimi istifadə olunur. Sosial şəbəkələrin həyatımızın bir hissəsinə çevrilməsi bizi unikal etməklə yanaşı, həm də rahatlıq verir. Xəbər saytlarının səmərəliliyi digər yayımçıları çoxdan üstələyib. Beləki, sosial şəbəkələrin yayılması ilə bir çox sektorlarda olduğu kimi ənənəvi medianın gələcəyi də sıx müzakirə mövzusuna çevrilib. Dəyişikliyi ən kəskin hiss edənlər arasında media sənayesidir. İstifadəçilər artıq xəbəri əldə etmə vərdişlərini dəyişir və xəbərləri anında izləmək istəyirlər. Son araşdırmalar sosial şəbəkələrin əsas media kanallarına təsirini açıq şəkildə ortaya qoyur. Ancaq deyə bilərik ki, yüksələn trend olan "vətəndaş jurnalistikası" anlayışı istifadəçilərin beynində yerləşməyə başlayıb.

Tədqiqatın məqsədi İnternetdə bu ünsiyyət mühitini yaratmaqdır. Bununla belə, yeni media daha geniş anlayışdır və hətta internetdən kənarda da oflayn rejimdə həyata keçirilə bilər. Yeni media jurnalistikası təkcə internet, onlayn jurnalistika deyil. Əgər bu gün hansısa media qurumu internet saytı açırsa, bu o demək deyil ki, o, artıq yeni media strategiyasını tamamlayıb. Yeni media çox vaxt sosial media ilə qarışdırılır və iki anlayışı birləşdirir. Əslində, bilmək lazımdır ki, yeni media daha geniş anlayışdır, sosial media isə onun ən populyar və gündəmində olanlardan biridir. Sosial şəbəkələrdə getdikcə daha çox sosial şəbəkələr müzakirə olunur, ilk ağıla Facebook gəlir.

-Yeni media və sosial şəbəkələr;
- İnformasiya anlayışı;
- İnteraktivlik anlayışı.

Yeni media jurnalistikasından danışmazdan əvvəl tədqiqatın praktiki inkişafına nəzər salsaq, jurnalist peşəsinin əsaslarına nəzər salaq. Nə qədər çox jurnalist olarsa, bu peşə bir o qədər müəyyənləşir və əsas məqsəd insanları məlumatlandırmaqdır. Çünki insanlar dəyişən və ya yeniləşən ictimai-siyasi və sosial məsələlərin təsiri ilə maraqlanır.

Əzəl gündən insanın ətrafda baş verənləri bilmək və dərk etmək marağı hədsiz və sərhədsizdir. İnsanlar hər zaman müəyyən proseslərin və hadisələrin niyə və necə baş verdiyini, bu hadisələrə kimin cavabdeh olduğunu, onlardan kimlərin təsirləndiyini bilmək istəyiblər və əlbəttə ki, gələcək onları nəyin gözlədiyini də bilmək onlara həmişə maraqlı olub. Əgər bu hadisələr yaxın vaxtlarda baş veribsə və insanların böyük əksəriyyətini maraqlandırıbsa, onlar üçün bu hadisələr haqqında əlavə məlumat axtarmaq daha vacib və zəruri hal alıb. Bütün bu məqamlar

təfərrüatlar bir araya gəldikdə bəzi konkret, bəzi dumanlı və çox vaxt dəyərli və faydalı faktlar ortaya çıxır. Bu cür məlumatlardan çıxan informasiya çox vaxt vacibdir və insanlar bunları və bunlarla bağlı bütün mümkün təfərrüatları bilməlidirlər. Buna görə də bu cür məlumatlara "XƏBƏRLƏR" deyilir. Tədqiqat işində sistematik olaraq "xəbərləri" müəyyənləşdirib, xəbərlər haqqında bütün lazımi perspektivləri təqdim etməyə çalışacağıq.

Qeyd etdiyimiz kimi insan övladı yarandığı gündən etibarən ətrafında olanlar, dünya haqında məlumat əldə etməyə, xəbər toplamağa çalışmışdır. Lakin, qeyd etməliyik ki, aldığımız bütün xəbərlər reallığı əks etdirmir. Bu cür xəbərlər fake ya saxta xəbər adlanır. Saxta xəbərlər əsasən media orqanları və sosial media kimi əsas mənbələr tərəfindən ictimaiyyət arasında yayılan dezinformasiyadır. İki növ saxta xəbər var:

Doğru olmayan məlumatlar. Bunlar insanları yalançı bir şeyə inandırmaq, müəyyən bir məhsul almaq və ya müəyyən bir veb-saytı ziyarət etmək üçün hazırlanmış tamamilə uydurulmuş hekayələrdir. Onlar kütlənin inam və etibarını öz xeyrinə formalaşdırmaq məqsədi güdürlər. Saxta xəbərlər ekosistemi əsas insan psixologiyasını oynayır a) Sadəlövh realizm: Yalnız birinin reallığının doğru, digərlərinin isə yanlış olduğuna inanmaq. b) Təsdiq qərəzi: Mövcud qərəzləri gücləndirən məlumatlara inanmaq.

Bir qədər həqiqəti olan, lakin 100 faiz dəqiq olmayan xəbərlər. Məsələn, jurnalist siyasətçinin dediklərindən yalnız bir hissəsini sitat gətirir, onların mənası haqqında yanlış təsəvvür yaradır. Yenə də bu, oxucuları müəyyən nöqteyi-nəzərdən inandırmaq üçün qəsdən ola bilər və ya günahsız bir səhvin nəticəsi ola bilər. İstənilən halda, o, tez bir zamanda tamaşaçı cəlb edir və "şəhər mifi" kimi möhkəmlənə bilər.

Saxta xəbərlər haradan gəlir?

Əslində saxta xəbərlər yeni bir şey deyil. Ancaq yeni olan odur ki, geniş miqyasda həm doğru, həm də yalan məlumatı paylaşmaq günümüzdə nə qədər asan olub. Sosial media platformaları demək olar ki, hər kəsə öz fikirlərini dərc etməyə və ya hekayələrini dünyaya paylaşmağa imkan verir. Problem ondadır ki, insanların çoxu internetdə baxdıqları materialın paylaşmazdan əvvəl mənbəyini yoxlamır, bu da saxta xəbərlərin sürətlə yayılmasına və ya hətta "virallaşmasına" səbəb ola bilər.

Eyni zamanda, xəbərlərin orijinal mənbəyini müəyyən etmək çətinləşir ki, bu da xəbərin düzgünlüyünü qiymətləndirməyi çətinləşdirə bilər. Bu da nəticədə, yalan xəbərlərin çoxalmasına səbəb olir. Məsələn, bir araşdırma 2016-cı il ABŞ prezident seçkiləri zamanı amerikalıların 25 faizindən çoxunun altı həftəlik müddətdə saxta xəbərlər saytına baş çəkdiyini göstərdi. Lakin, bütün saxta xəbərlər onlayn tapılmır. Məsələn, faktları yoxlaya bilməyən çap nəşrlərinə göz gəzdirən naşirlər, məsələn, təsadüfən də olsa, dezinformasiya yaymaqda günahkardırlar.

Saxta xəbərlərin həyatımıza təsiri.

Saxta xəbərlər son bir neçə ildə bütün dünyada narahatlıq doğurur. Onun qaldırdığı narahatlıqlar yalnız insanların sosial mediada vaxtının artması və bununla da onlar üçün əsas xəbər mənbəyi olması ilə daha da artıb. Sosial media istifadəçilərinə onların ideologiyalarına uyğun gələn xəbərlər və yazılar təqdim etdiyi üçün bu münasibət daha çox yayılmışdır. Bu, istifadəçinin başqaları ilə qarşılıqlı əlaqəsi və ya istehlak etdiyi məzmunun onların mövcud ideologiyaları və düşüncə proseslərinə uyğun gəldiyi əks-səda kamerası effektinə səbəb olur (Törnberg, 2018)

Tədqiqatlar göstərir ki, insanların 59 faizi saxta xəbərlərin gündəlik həyatımıza təsirindən narahatdır və bunun əsas səbəbi var! Məsələn, bəzi insanlar öz arqumentlərini dəstəkləmək üçün artıq sübuta ehtiyac duymadıqlarına inanmağa başlaya bilərlər. Digərləri artıq məlumatlara inamsızlıq etməyə başlayırlar. Onlar sənaye hesabatlarını dinləməyi dayandırır və rəsmi iş yerləri ilə əlaqəni kəsərək, onların peşəkar böyüməsini və inkişafını ləngidirlər. Nəhayət, bu, təşkilatın öyrənmə mədəniyyətinə zərər verə bilər. Saxta xəbərlər eyni zamanda davranışa da təsir edə bilər. Saxta xəbərlər insanları bəhanələr uydurmağa, başqalarının fikirlərini rədd etməyə, həqiqəti şişirtməyə və şayiə yaymağa təşviq edir.

Hətta səlahiyyətli şəxslərin onlara yalan dediyinə və ya işlədikləri məlumatın şübhəli olduğuna inanan inansalar, zamanla rəhbərliyə inamsızlıq etməyə başlaya bilərlər. Bu da öz növbəsində insanlarda əməkdaşlıq etmək və uğur qazanmaq üçün lazım olan maraq, həvəs və ambisiyaları azalda bilər.

Yanlış məlumat və saxta xəbərlər qtisadiyyata da zərər verə bilər. Məhsullarınız haqqında yazılmış saxta rəylər və ya qeyri-dəqiq maliyyə yeniləmələri, nüfuza ciddi ziyan vura bilər.

Saxta xəbərləri aşkar etməyin yolları.

İlk baxışda faktları uydurmadan ayırmaq çətin görünə bilər. Ancaq həqiqətə çatmaq üçün həmişə səy göstərməyə dəyər - hətta həqiqət eşitmək istədiyiniz kimi olmasa da! Doğru xəbəri yalanlardan ayırmaq üçün bu altı addımdan istifadə edin:

1. Tənqidi düşüncə tərzini inkişaf etdirin.

Saxta xəbərlərin bu qədər böyük problem olmasının əsas səbəblərindən biri onun tez-tez inandırıcı olmasıdır, ona görə də onu yaxalamaq asandır. Bir çox saxta xəbərlər "şok dəyəri", yəni qorxu və ya qəzəb kimi güclü instinktiv reaksiya yaratmaq üçün yazılır. Bu o deməkdir ki, bu cür hekayələrə emosional reaksiyanızı nəzarətdə saxlamağınız vacibdir. Bunun əvəzinə gördüklərinizə və eşitdiklərinizə rasional və tənqidi yanaşın. Özünüzdən soruşun: "Bu xəbər niyə yazılıb? Bu, məni müəyyən baxış bucağına inandırmaq üçündür? Bu, mənə müəyyən bir məhsul satırmı? Yoxsa məni başqa vebsayta keçməyə məcbur edir? Məni təhrik edirlərmi?"

2. Mənbəni yoxlayın

Heç vaxt eşitmədiyiniz bir mənbədən hər hansı bir xəbər ilə qarşılaşsanız, bir az araşdırın! Oxuduğunuz səhifənin veb ünvanını yoxlayın. Şirkət adlarında orfoqrafik səhvlər və ya ".com" və ya ".co.uk" deyil, ".infonet" və ".offer" kimi

qəribə səslənən genişləndirmələr mənbənin şübhəli olduğunu ifadə edə bilər. Müəllifin və ya naşirin tanış olub-olmamasından asılı olmayaraq, onların reputasiyasına və peşəkar təcrübəsinə diqqət yetirin. Onlar bu məsələdə öz təcrübələri ilə tanınırlarmı? Yoxsa şişirtməyə, uydurmaya meyillidirlər? Bilin ki, saxta xəbərlər və "alternativ faktlar" yayan insanlar bəzən rəsmi görünən, lakin rəsmi olmayan internet səhifələri, qəzet maketləri və ya "doktorluq" şəkilləri yaradırlar. Məsələn, Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) görünən şübhəli bir yazı görsəniz, həqiqətən orada olduğunu yoxlamaq üçün ÜST-nin öz saytına baxın. Unutmayın ki, xəbəri ən yaxın dostunuzdan alsanız belə, bu ona əlavə səlahiyyət vermir – onlar göndərməzdən əvvəl bu addımları özləri izləməyiblər!

3. Hekayəni başqa kimin xəbər verdiyinə baxın.

Xəbəri başqa kimsə paylaşıbmı? Digər mənbələr bu barədə nə deyir? Bütün əsas axın mediası (MSM) çıxışlarının saxta olduğu qənaətinə gəlməkdən çəkinin. Bu, hər şayiə və ya sui-qəsd nəzəriyyəsini izləmək qədər ağılsızlıq ola bilər. CNN və BBC kimi peşəkar qlobal xəbər agentlikləri ciddi redaksiya təlimatlarına və yüksək təlim keçmiş müxbirlərdən ibarət geniş şəbəkələrə malikdirlər, buna görə də araşdırmaya başlamaq üçün onlar ən yaxşı yerdir. Amma heç kim qərəzsiz deyil və hər kəs səhv edə bilər, ona görə də axtarmağa davam edin.

4. Sübutları araşdırın

Etibarlı xəbərlərə çoxlu faktlar daxildir - məsələn, ekspertlərdən sitatlar, sorğu məlumatları və rəsmi statistika və ya hadisə yerində olan insanların ətraflı, ardıcıl və təsdiqlənmiş şahid ifadələri. Əgər bunlar yoxdursa, sual verin! Qeyd olunan faktlar bir şeyin mütləq baş verdiyini sübut edirmi? Yaxud, faktlar seçilmiş və ya müəyyən bir nöqteyi-nəzəri dəstəkləmək üçün "vurğulanıb"?

5. Şəkillərin ilk verdiyi təəsürata aldanmayın.

Müasir redaktə proqramı insanlara real görünən saxta şəkillər yaratmağı asanlaşdırıb. Əslində, araşdırmalar göstərir ki, şəkillərin saxta olduğunu insanların yalnız yarısı ayıra bilir. Bununla belə, diqqət edə biləcəyiniz bəzi xəbərdarlıq əlamətləri var. Şəkildəki qəribə kölgələr, məsələn, fiqurun ətrafındakı əyri kənarlar.

Şəkillər də 100 faiz dəqiq ola bilər, lakin yanlış kontekstdə istifadə edilə bilər. Məsələn, çimərliyi əhatə edən zibilin fotoşəkilləri başqa bir çimərliyə və ya 10 il əvvələ aid ola bilər, son iddia edilən hadisə deyil. Şəklin haradan yarandığını və dəyişdirilib-deyişdirilmədiyini yoxlamaq üçün Google Reverse Image Search kimi vasitələrdən istifadə edə bilərsiniz.

6."Doğru səsləndiyini" yoxlayın

Nəhayət, sağlam düşüncənizi istifadə edin! Yadda saxlayın ki, saxta xəbərlər sizin qərəzlərinizi, ümidlərinizi və ya qorxularınızı "qidalandırmaq" üçün nəzərdə tutulub. Məsələn, çətin ki, sizin sevimli dizayner brendiniz mağazalara gələn insanlara milyonlarla pulsuz paltar hədiyyə etsin. Xəbərin məntiqi cəhətdən nə dərəcədə doğru səsləndiyinə diqqət edin.

Son on ildə saxta xəbərlərin partlaması və ondan müxtəlif sahələrdə necə istifadə olunması ilə bağlı yuxarıda qeyd olunan faktları nəzərə alsaq, bu problemin həlli zəruridir. Əksər insanlar hər gün sosial media ilə əlaqə qurur və saxta xəbərlərin təsirini gücləndirən legitimliyi müəyyən edilməyən yazılar və xəbər məqalələri paylaşırlar. Bütün dünyada saxta xəbərlərin geniş yayılması səbəbindən, hesabatda təqdim olunan faktları yoxlayaraq xəbərlərin qanuniliyini eksklüziv olaraq yoxlayan özəl media orqanları var (Luengo və García-Marín, 2020). Lakin dünya sosial mediaya doğru irəlilədikcə, dərc edilən xəbər məzmununun miqdarı çox böyükdür və saxta xəbərləri təsnif etmək xəbərin legitimliyini əl ilə qiymətləndirmək getdikcə çətinləşir. Bu proses hər gün külli miqdarda məlumat axını ilə daha yorucu və daha baha başa gəlir. DeepFake-in yüksəlişi ilə medianın mənbədən manipulyasiya olub-olmadığını yoxlamaq bütövlüyü və ötürülən məlumatı yoxlamaq üçün vacibdir (Singh et al., 2020). Beləliklə, son vaxtlar kompüter tədqiqatçıları prosesi avtomatlaşdırmağa çalışırlar. Bu, həm də müəllifləri prosesi avtomatlaşdırmaq və xəbər məqalələrində və mediada saxta xəbər nümunələrini müəyyən etmək üçün bir model təklif etməyə sövq etdi. SVM və Naive Bayes (NB) təsnifatçıları bu sahədə müxtəlif tədqiqatçılar tərəfindən istifadə edilmişdir. Bu modellər fəaliyyətinə və strukturuna görə fərqlənir, lakin hər ikisi oxşar nəticələr verdi və əsas modellər kimi istifadə edildi (Prasetijo et al., 2017, Granik və Mesyura, 2017).

1.1 Xəbərin yazılma qaydaları.

Xəbərlər cari məhsul çeşididir. Xəbər həm aktual, həm də insanlar üçün aktual olan maraqlı bir hadisənin obyektiv yanaşma ilə və tamamilə həqiqətə uyğun təqdimatıdır. Bəşəriyyətin ən qədim dövrlərindən bu yana keçən bütün prosesdə xəbər hamımız üçün mühüm məsələ olub və öz dəyərini həmişə qoruyub saxlayıb. İnsan həssas bir varlıq olduğu üçün təkcə öz həyatında deyil, ətrafındakıları da bilmək istəyir. Bu, bu gündən əsrlər sonra da xəbərlərin insanlar üçün nə qədər məna kəsb edə biləcəyinin sübutudur. Xəbərlər;

- müasir olmalı və asanlıqla ötürülməlidir;
- mövzu maraqlı olmalıdır;
- mövzu vacib olmalıdır;
- mövzu əlaqəli olmalıdır;
- mövzu qısa və lakonik olmalıdır.

Reportyor xəbərini real hadisələrə, situasiyalara və izahatlara əsaslamalıdır. Hadisələri, vəziyyətləri və izahatları bir araya gətirdiyi üçün bəzi suallar verir. Bu suallar jurnalistikada 5N+1K kimi uyğun gəlir.

Kim? Nə? Harada? Nə vaxt? Necə? Niyə?

İstər tabloid xəbər, istərsə də siyasi polemik xəbər olsun, hər xəbərdə bu 6 element olmalıdır. Bəzən bu elementlərdən biri digərindən daha vacib ola bilər; lakin bu o demək deyil ki, xəbərlərdə əhəmiyyətsiz element qeyd edilməməlidir. Hadisələr, situasiyalar və izahatlar kimi təfərrüatlar, bunun kim tərəfindən edildiyi, nə vaxt baş verdiyi, necə baş verdiyi xəbərlərdə yer almırsa, bu xəbər tam deyil. Buna görə də

oxucu və ya tamaşaçı lazım olduğu qədər aydın və lakonik şəkildə işıqlandırılmır. 5W+1K elementlərinin olmaması oxucu və ya tamaşaçının beynində sual işarələri yaradır və jurnalistin etibarını sarsıdır. Yarımçıq xəbərlər kifayət qədər tədqiq edilməmiş və buna görə də düzgünlüyünə şübhə ilə yanaşan xəbərlərdir. Bütün bu səbəblərə görə jurnalist bütün bu elementləri öz reportajına daxil etmək üçün maksimum səy göstərməlidir. Lakin bu qayda "Bu elementlərdən heç birini ehtiva etməyən xəbərlər heç vaxt yazılmamalıdır" kimi qəbul edilməməlidir. 5N+1K qaydasının sərt təfsiri o deməkdir ki, məsələn, qurbanın şəxsiyyəti məlum deyilsə və ya onun törədilməsinin səbəbi açıqlana bilmirsə, vilayət qəzeti qətli işıqlandırmır, bu doğru deyil.

Xəbər dəyərləri ənənə, təşkilati siyasət, iqtisadiyyat və son zamanlar rəqəmsal artımla formalaşır. Xəbər təzədir, keçib gedir, bayat xəbər maraqlı deyil. Rəqəmsal inqilab xəbərlərin aktuallığına əlavə dəyər verdi. Əksər jurnalistlər hələ də xəbərə layiq hadisələri təsvir edən əsas elementlərin olması ilə razılaşırlar.

1.Vaxtlılıq - xəbərin təzə və ya köhnə olması;

2. Yaxınlıq - hekayənin regional oxucular üçün məqbulluğu;

3.Münaqişə - nəticə inkişaf edir, sabitdir, ya da kiməsə əhəmiyyət verir;

4.Populyarlıq - görkəmli şəxslərin iştirakı. Əgər belədirsə, bu, hekayəni daha da zəruri edir;

5.Nəticə və təsir - hekayənin oxuculara təsiri.

Jurnalistikada ən vacib material informasiyadır. Məlumatın düzgün olması və məlumatın düzgün çatdırılması məlumatın mövcudluğundan daha vacibdir. İnformasiyanı xəbərə çevirmək başqa bir bacarıqdır. Xəbərlərin yazılması üçün aydın, birbaşa təqdimatla nəticələnən, məlumatı müxtəlif oxuculara səmərəli və əlçatan şəkildə təqdim edən qaydalar var. Ən çox rast gəlinən problemlərə əsaslanaraq xəbər yazarları üçün 15 qaydanın siyahısı:

1. Ümumilikdə desək, lede və ya hekayəyə giriş, Jane Austen romanından çıxmış kimi görünən yeddi cümləlik dəhşət deyil, hekayənin əsas məqamlarını ümumiləşdirən 35-45 sözdən ibarət tək bir cümlə olmalıdır.

2. Lede hekayəni əvvəldən axıra qədər ümumiləşdirməlidir. Beləliklə, bir binanı məhv edən və 18 adamı evsiz qoyan yanğın haqqında yazırsınızsa, bu, diqqət mərkəzində olmalıdır. "Dünən gecə binada yanğın başladı" kimi bir şey yazmaq kifayət qədər həyati məlumatlara malik deyil.

3. Xəbərlərdəki paraqraflar ümumiyyətlə hər biri bir və ya iki cümlədən çox olmamalıdır, yəqin ki, birinci kurs ingilis dili üçün yazdığınız yeddi və ya səkkiz cümlə deyil. Qısa abzasları redaktorlar sıx bir müddət üzərində işləyərkən kəsmək daha asandır və onlar səhifədə daha az təsirli görünür.

4. Cümlələr nisbətən qısa tutulmalı və mümkün olduqda mövzu-fel-obyekt düsturundan istifadə edilməlidir. Geri konstruksiyaları oxumaq daha çətindir.

5. Həmişə lazımsız sözləri kəsin. Məsələn, “Yanğınsöndürənlər yanğına gəldilər və onu təxminən 30 dəqiqə ərzində söndürə bildilər” ifadəsini “Yanğınsöndürənlər yanğını 30 dəqiqə ərzində söndürdülər” kimi qısaltmaq olar.

6. Daha sadə sözlər işləyərkən mürəkkəb səsli sözlərdən istifadə etməyin. Kəsik bir kəsikdir; kontuziya qançırdır; aşınma sıyrıqdır. Xəbər hər kəs üçün başa düşülən olmalıdır.

7. Xəbərlərdə birinci şəxsin “mən”indən istifadə etməyin.

8. Associated Press üslubunda durğu işarələri demək olar ki, həmişə dırnaq içərisində olur. Nümunə: "Biz şübhəli şəxsi həbs etdik" dedi detektiv Con Cons. (Vergülün yerləşdirilməsinə diqqət yetirin.)

9.Xəbərlər ümumiyyətlə keçmiş zamanda yazılır.

10. Çox sifətlərdən istifadə etməkdən çəkinin. “Ağ-qaynar alov” və ya “vəhşicəsinə qətl” yazmağa ehtiyac yoxdur. Biz bilirik ki, atəş istidir və kimisə öldürmək ümumiyyətlə olduqca qəddardır. Bu sifətlər lazımsızdır.

11. “Şükürlər olsun ki, hamı yanğından xəsarət almadan xilas oldu” kimi ifadələr işlətməyin. Aydındır ki, insanların zərər görməməsi yaxşı haldır. Oxucularınız bunu özləri anlaya bilər.

12. Heç vaxt öz fikirlərinizi ağır xəbərlərə yerləşdirməyin. Rəy və ya redaksiya üçün fikirlərinizi qeyd edin.

13. Hekayədə kiməsə ilk müraciət etdiyiniz zaman, əgər varsa, tam ad və vəzifə adından istifadə edin. Bütün sonrakı istinadlarda yalnız soyaddan istifadə edin. Beləliklə, hekayənizdə ilk dəfə onun adını çəkdiyiniz zaman "leytenant Ceyn Cons" olardı, lakin bundan sonra sadəcə "Cons" olardı. Yeganə istisna, hekayənizdə eyni soyadlı iki nəfərin olmasıdır, bu halda onların tam adlarından istifadə edə bilərsiniz. Jurnalistlər ümumiyyətlə "cənab" kimi şərəf ifadələrindən istifadə etmirlər. və ya "xanım" AP üslubunda. (Görkəmli bir istisna The New York Timesdır.)

14. Məlumatı təkrarlamayın.

15. Hekayənin sonunda deyilənləri təkrar edərək yekunlaşdırmayın. Hekayəni inkişaf etdirən nəticə üçün məlumat tapmağa çalışın.

Bir mövzunu düzgün qavramağımıza kömək edən bütün arqumentlər biliyin tərifinə daxildir. Arqumentlər şəkil, video və hətta cümlə ola bilər. Biz veriləcək məlumat və arqument üzərində işləyərkən, onu düzgün başa düşmək üçün heç olmasa kifayət qədər bilməliyik. Əks halda, yalan məlumatların yayılmasına səbəb ola bilərik. Ən vacib məqam isə məlumatı doğru xəbərə çevirməkdir. Buna nail olmaq üçün əlimizdə olan məlumatları yaxşı təhlil etmək vacibdir. Bu gün informasiyanın doğru olmasına, doğru xəbərə çevrilməsinə mane olan bir çox səbəblər var. Bunlardan başlıcası sosial media, səbirsizlik və rəqabətdir. Lakin məlumatın əldə edilməsinin və məlumatın düzgün ötürülməsinin başlanğıcında olan kitab oxumamaq bu vəziyyətin başlanğıcındadır. Kitab oxumaq elə bir səviyyəyə çatıb ki, kitab tövsiyəsi yerini video tövsiyyəyə qoyub. Xəbərlər, ilk növbədə, şahiddir. Əldə edilən xəbəri düzgün çatdırmaq hər bir fərdin ən mühüm mənəvi

borcudur. Şahidlik dürüst və qərəzsiz aparılmalıdır. Xəbəri təkcə səhvsiz çatdırmaq deyil, həm də düzgün kontekstdə və lazımi vaxtda çatdırmaq lazımdır.

Hadisələr hər yerdə baş verə bilər, lakin xəbərlər redaksiyada hazırlanır. Mənbə təşkilatları potensial xəbərləri təqdim edir. Kifayət qədər məlumat olmasaydı, mətbuatda və ya efirdə boşluqlar olardı. Mənbə təşkilatları qəzet köşə və bülletenlərinin əsas məzmununa istinad edir. Bununla belə, geniş xəbər resursları var. Xəbər əməliyyatları indi daha çox gəlir əldə edir, çünki onlar əlavə resurslar olmadan daha çox saatlıq xəbərlər istehsal edirlər. Xəbər əlamətdar termindir, çünki məlumat köhnə olsa belə, yenə də xəbərdir. Bəzi mənbələr son xəbərlər, bəziləri ümumi xəbərlər, bəziləri isə tarixi xəbərlər üçün əladır. Əsrlər boyu xəbərlər yalnız qəzetlərdə yayımlanırdısa, indi çapdan başqa bütün formatlarda: radio, televiziya və internetdə yayımlanır. Bu gün əksər qəzetlərin hətta saytları var. Xəbərlər qısa olmalıdır, çünki onların əksəriyyəti hadisədən bir neçə dəqiqə sonra açıqlanacaq. Jurnalistikada mənbə məlumatı vaxtında dərc edən, nəşri və ya digər qeydi və ya sənədi öyrənən şəxsdir. Jurnalistikadan kənar mənbələrə bəzən "xəbər mənbələri" deyilir. Mənbə nümunələri bunlarla məhdudlaşmır, rəsmi qeydlər, nəşrlər və ya verilişlərdir. Hökumətin və ya biznesin, təşkilatların və ya korporasiyaların rəsmiləri, xəbər hadisəsi və ya problemi ilə bağlı və ya onlardan təsirlənən cinayətlərin, qəzaların və ya digər hadisələrin şahidləri.

İnformasiya mənbələri insanlar, məktublar, kitablar, fayllar, filmlər ola bilər. Əslində, jurnalistlərin xəbərləri bir araya gətirmək üçün istifadə etdiyi hər şey. Hadisələr və ya problemlər haqqında məlumat vermək və dünyanı izləyicilərinizə izah etmək istəyirsinizsə. Jurnalistlər öz müşahidələri əsasında ağlabatan işləməyə çalışırlar, lakin bu, çox vaxt mümkün olmur. Bəzi hadisələr və ya məsələlər jurnalist ora çatana qədər tamamlanır. Yalnız gördükləri haqqında yazan jurnalistlər, onlara daha çox təfərrüat və ya digər görünməmiş baxış nöqtələrini söyləmək üçün resursları olmadıqda xəbərlərin çoxunu qaçıra bilərlər. Jurnalistlər mötəbər faktlarla məşğul olmalıdırlar. Buna görə də hekayələr yazmaq üçün istifadə etdiyiniz mənbələrin sizə nə baş verdiyini və ya nə deyildiyini dəqiq izah etməsi vacibdir. Ancaq bir çox fərqli xəbər hadisələrində olduğu kimi, çoxlu müxtəlif məlumat mənbələri var. Açıqlamada xəbərin məhsul olduğu bildirilib. İnformasiya mənbələrini mühakimə etməyin əsas yolu onların etibarlılığıdır. Bütün mənbələrə, o cümlədən müxbirlərə sistemli şəkildə inanmaq olarsa, etibarlı olduğu deyilir. Əgər mənbə onların təmin etdiyi məlumatda həmişə doğrudursa, növbəti dəfə onlara inanacağıq. Əgər onlar bir günah işlətsələr, biz onların dediklərini inkar edə bilərik. Etibarlılıq zamanla formalaşır. Ən etibarlı məlumat mənbələrindən biri digər jurnalistlərdir. Onlar təşkilatınızı təmin edən xəbər agentliyindəki həmkarlarınız ola bilər. Əgər onlar yaxşı təhsil almışlarsa, təcrübə keçiblərsə və məqsədyönlüdürlərsə, hesabatları adətən dəqiq olacaq. Lakin onların hesabatlarında hər hansı fundamental faktlar çatışmazsa, bunlar təqdim edilməlidir. Hər kəs onları təmin etməli olacaq və ya çatışmazlıqları özünüz tapmalı olacaqsınız. Səhvlər baş verə bilər. Ona görə də

xəbər qurumlarında faktların yoxlanılması sistemi olmalıdır. Jurnalistlər üçün əsas xəbər mənbələri radio, televiziya, qəzet və jurnallar, onların müxbirləri, mətbuat, müsahibələr, mətbuat konfransları, polis bölmələri, məhkəmələr və yayım materialları, press-relizlər və mətbuat qeydləridir.

Sosial media xəbərləri və media elementləri.

Xəbərin ilk məlumatı dildən-dilə keçərək müxtəlif nitqlər əsasında formalaşmışdır. Sonralar XVII əsrdən etibarən xəbərlərin yayılmasında və oxunmasında qəzetlərin xüsusi rolu olmuşdur. Əsrlər boyu qəzetlər xəbərləri oxucularına çatdırır, onları günün zəruri hadisələrindən xəbərdar edirdi. Gündəlik format 19-cu əsrin əvvəllərində yayıldıqca, qəzetlər ilk nümunəni gündəlik xəbərlər seriyasında dərc etdilər. Bu dövrdə müəyyən bir gündə baş verənlər qəzetdə işıqlandırılır və ertəsi gün oxuculara çatdırıldı.

Keçən əsrdə əlverişli tənzimləmələrə baxmayaraq, radio, xəbər jurnalları və televiziya ilə rəqabət etmək ehtiyacına cavab olaraq, qəzetlərin mətn xəbərlərinin aparıcı təchizatçısı kimi statusu 1990-cı illərin sonlarından onlayn və rəqəmsal medianın meydana çıxması ilə ciddi problemlərlə üzləşib. Qəzetdən sonra xəbər mənbəyi və vasitəçi kimi radio və televiziyanı qeyd etmək olar, lakin müasir dünyada mənbə kimi internet və sosial şəbəkələrin rolu danılmazdır. Sosial media jurnalistika sahəsində mənbə kimi müsbət və mənfi rol oynamasına baxmayaraq, xəbərin yayılması daha səmərəli və daha sürətli olduğu üçün seçilib.

Mur qanunu, strukturların öz-özünə mürəkkəbliyi qaydasını bu gün informasiya mühitində ən məşhur qanunlardan biri adlandırmaq olar. Rabitə sahəsinə müraciət etdikdə o, generasiya edilən informasiyanın həcminin eksponent olaraq artdığını və hər il iki dəfə artdığını müdafiə edir. Son zamanlar internet texnologiyalarının, xüsusən də sosial şəbəkələrin sürətli inkişafı sayəsində istehsal olunan, yenilənən və yayılan informasiyanın həcmi durmadan artır və onun təsir dairəsi hər saniyə genişlənməkdə davam edir. Bazarın inkişafı və biznes məlumatlarının həcminin artması ilə eyni vaxtda onun mənbələrinin dairəsi genişlənir.

Son vaxtlara qədər Facebook və Twitter kimi ünsiyyət və informasiya vasitələri biznes tərəfindən tamamilə yad elementlər kimi qəbul edilirdi və onlara "sosial" anlayışı əvəzinə "yeni" sifəti tətbiq edilirdi. Lakin bu gün iş dünyasında kommunikasiyada onların əhəmiyyətinin artmasına göz yummaq artıq mümkün deyil.

Bu araşdırma sosial medianın xəbər istehsal prosesində oynaya biləcəyi rola diqqət yetirir. Təyin olunmuş ərazidə tədqiqat müxtəlif elmi istiqamətlərin və konsepsiyaların kəsişməsindədir və buna görə də fənlərarası xarakter daşıyır.

Like proverbs, idioms are one of the most functional and small independent genres of Azerbaijani folklore. Despite the presence of their own unique genre features, in many folklore publications, proverbs and idioms are given under one name without differentiation. The reason for such confusion is the apparent similarity of both genres, which are actively used in the conversation of the people. No matter how similar they are in form, there are serious differences in content, meaning and structure that distinguish these genres from each other. The expression of the deep meaning of proverbs, their moral and didactic essence and the definition of the boundaries between "to be" and "not to be", while idioms are expressed mainly in humorous and ironic language, describing and characterizing a person or an event from different sides, often figuratively, are only superficial differences.

However, by performing certain grammatical operations on idioms, it is possible to reveal their deeper differences from proverbs. In these studies, comparisons of idioms and proverbs from different countries were conducted, and it was established that idioms are an independent genre. At the same time, various types of idiom meanings were studied and refined using examples.

Keywords: folklore, idioms, proverbs, genre features, figurative language

ХУРАМАН КАРИМОВА

ЖАНРОВЫЕ ОСОБЕННОСТИ ПОСЛОВИЦ И ИДИОМ

РЕЗЮМЕ

Как и пословицы, идиомы являются одним из самых функциональных и малочисленных самостоятельных жанров Азербайджанского фольклора. Несмотря на наличие собственных уникальных жанровых особенностей, во многих фольклорных изданиях пословицы и идиомы приводятся под одним названием без дифференциации. Причиной такой путаницы является кажущееся сходство обоих жанров, которые активно используются в разговорной речи народа. Как бы ни были похожи они по форме, существуют серьёзные различия в содержании, значении и структуре, которые отличают эти жанры друг от друга. Выражение глубокого смысла пословиц, их морально-дидактическая сущность и определение границ между «быть» и «не быть», в то время как идиомы выражаются преимущественно в юмористическом и ироническом языке, описывая и характеризуя человека или событие с разных сторон, часто в переносном смысле, – это лишь поверхностные различия. Однако, выполняя определённые грамматические операции над идиомами, можно выявить их более глубокие отличия от пословиц. В этих исследованиях проводились сравнения идиом и пословиц с разных сторон, и на примерах было установлено, что идиомы представляют собой самостоятельный жанр. В то же время на примерах изучались и уточнялись различные типы значений идиом.

Ключевые слова: фольклор, идиомы, пословицы, жанровые особенности, образный язык

Giriş

Deyimlər Azərbaycan folklorunda müstəqil bir janrdır və özünəməxsus xüsusiyyətləri var. Danışıq zamanı söylənilən fikri daha kəsə, aydın, obrazlı və yığcam şəkildə ifadə etmək üçün dildə hazır şəkildə mövcud olan bu ifadələrdən sıx-sıx istifadə olunur. Hər məqama uyğun müxtəlif deyimlər mövcuddur. Deyimlər haqqında qeyd etdiyimiz xüsusiyyətlər atalar sözləri ilə eyniyyət təşkil edir. Əgər adlar fərqlidirsə, deməli, müəyyən özəlliklər mövcuddur. Fərqləndirmə problemi cümlə formasında olan deyimlərlə atalar sözləri arasında yaranır. Yalnız incə təhlillərdən sonra mətnin hansı janra məxsusluğunu aydın etmək olur. Bu cür

təhlilləri aparmaq üçün ilk növbədə hər iki janrın özəl xüsusiyyətlərini bilmək lazımdır. Zahiri oxşarlıq, dildə işlənmə tezliyi kimi xüsusiyyətlər bu iki janrı bir-birindən fərqləndirməkdə çətinlik yaradır. Elə bu səbəbdən də deyimlər bir çox folklor nəşrlərində atalar sözləri ilə eyni başlıq altında verilir. Lakin bunların hər birinin müstəqil janr xüsusiyyətləri var.

Atalar sözlərinin janr özəllikləri

Atalar sözləri yaddaşda gəzdirilən hazır qeydlərdir, təcrübələrdən qazanılmış əqli nəticələr, qənaətlərdir və adətən insanların həyat hadisələrinə yanaşmasında, davranışlarında "olar"larla "olmaz"ların sərhədlərini müəyyənləşdirən müdrik fikirlərdir. "*Atalar sözləri adi hadisələrdən deyil, həlledici məqamlarda gərginliyin ağılla, məntiqi düşüncə ilə aradan qaldırılması, situasiyanın yumşaldılması, çətin məsələlərin uğurlu həlli zamanı gəlinən qənaətlərdən, əldə edilən nəticələrdən yaranmışdır*" (Kərimova, 2024: 121). Bu janr haqqında söylənilmiş xalq ifadəsində deyilir: "*Atalar sözü Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur*" (Oğuzmamə, 1987: 18). Bu nümunədə müqəddəs kitabımız Quranla yanaşı tutulması atalar sözlərinin dəyərini dəqiq ifadə edir. Onların əsas janr xüsusiyyətləri aşağıdakılardır:

1. Kiçik həcmli olur. Onlar çox vaxt bir, bəzən iki yığcam cümlədən ibarət olur və dərin

mənalı fikri qısa şəkildə çatdırır: *yüz ölç, bir biç; nəzər – məzar; loxma – boğma*.

2. Mükəmməl məntiq və ümumiləşdirmədən ibarət olur. Atalar sözləri müəyyən bir həyat təcrübəsinin, müşahidənin nəticəsi kimi yaranır və geniş ümumiləşdirmələri əks etdidir. Onlar əxlaq, sosial və məişət qanunauyğunluqları haqqında məntiqli fikirlərdir: *qız anadan görməyincə öyüd almaz; kül təpəcik olmaz.*

3. Didaktik mahiyyət daşıyır. Atalar sözləri insanlara nəyin doğru, nəyin yanlış olduğunu göstərir və tərbiyəvi məzmun daşıyır. Öyüd bildirən atalar sözləri bəzən əmr cümlələrindən ibarət olur və cümlənin xəbəri ikinci şəxsin təkində işlənir: *Utan utanmazdan, qorx qorxmazdan; Buğda çörəyin olunca buğdayıca dilin olsun.*

4. Əksər hallarda müəyyən ritm və ahəngdarlıq müşahidə olunur ki, bu da onların yaddaşda yerini möhkəmləndirir. Bu daha çox iki hissədən ibarət olan mətnlərdə özünü göstərir: *el gücü – sel gücü; sən saydığını say, gör fələk nə sayır.*

5. Obrazlı dildə və rəmzlərdən ibarət olur. Atalar sözlərində məcazlardan geniş şəkildə istifadə olunur, bəzən konkret məfhumlar simvolik mənada işlədilir: *Qaradan artıq rəng olmaz; İslanmışın yağışdan nə qorxusu.*

6. Ümumbəşəri və milli xüsusiyyətləri əks etdirir. Ümumbəşəri dəyərləri ifadə etsə də, hər xalqa, tayfaya, etnik qrupa xas mətnlərdə onların özünəməxsus

dünyagörüşü və mədəni xüsusiyyətləri əsas yer tutur: *İt hürər, karvan keçər; Anasına bax, qızını al, qırağına bax, bezini al; Tatın qarısı – susuz yerin arısı.*

7. Quruluşca bir, iki və daha artıq komponentdən, əsasən qeyri-müəyyən və ümumi şəxsli cümlələrdən ibarət olur. Cümlənin xəbəri adətən ikinci, üçüncü şəxsin təkində və cəmində olur və daha çox qeyri-qəti gələcək zamanda təsdiq və ya inkarda işlənir. *Sən saydığını say, gör fələk nə sayır*. *Cücəni payızda sayarlar. Dua oxumaqla donuz darıdan çıxmaz* və s.

Deyimlərin janr xüsusiyyətləri

Deyimlər insanlar, ətraf aləmlə, mühitlə bağlı təsəvvürlər əks olunmuş obrazlı ifadələrdir. Bu ifadələr – haqqında fikir yürüdülən şəxsi, hadisəni, yaxud hal və vəziyyəti müxtəlif aspektlərdən, çox zaman yumorlu, kinayəli dillə xarakterizə edir, təsvir edir, rəy bildirir. Dildə daha çox hiss və hadisələri təsvir etmək, bəzən atmaca atmaq məqsədilə işləndiyini görürük. Deyimlərin özünəməxsus xüsusiyyətlərə bunlar daxildir:

1. Qısalıq və yığcamlıq: *ağzıgöyçəklər; yüngülsaqqal; suquşu* (tez-tez çimən adama deyilir).
2. Məcazilik və obrazlılıq: *duza getmək*; *gözü su içməmək; yurduna-yuvasına su calamaq.*
3. Təsviri xarakter və rəy bildirməsi: *uçana-qaçana macal vermir*; *quşu gözündən vurur*.
4. Sabitlik (məfhumları əvəz etmək və inversiya məzmunu pozur)**:** *göz verir, işıq vermir* (cümlədəki sözlərini əvəz etmək və inversiya mümkünsüzdür)*; dəli qız bir naxış öyrənib* (təkrar-təkrar eyni hərəkəti edənlər haqqında deyilir).
5. Quruluşca üç növdə: söz, söz birləşməsi və cümlə şəklində olması;
6. Müxtəlif məna növlərinə malik olması və s.

Atalar sözlərindən fərqli olaraq, deyimlərin quruluşca üç növü var: söz, söz birləşməsi və cümlə formasında ola bilir. Söz şəklində olanlar əsasən iki sözün birləşməsindən əmələ gəlmiş və tərəfləri ilkin mənasını itirərək yeni məzmun qazanmış məcazi mənalı mürəkkəb sözlərdir. Həmin sözlər bir vurğu altında deyilir və bitişik yazılır. Məsələn, *ağzıgöyçəklər* (bir əhvalatı eşidib-bilən və bu haqda mənfi mövqedən fikir söyləyən insanlar); *qəmbərqulu* (işin gedişatını pozan maneənin ortaya çıxması); *çaşka-lojka* (iki şəxsin birgəliyi, yaxınlığı) və s.

Xalq dilində *qənbərqulu, arvadağız, çaşka-lojka kimi* məcazi mənalı deyimlər mürəkkəb söz olduğu, yəni bir vurğu altında deyildiyi, bir leksik vahid olduğu üçün söz birləşməsi deyil və buna görə də frazeoloji birləşmələr sırasında yer almır. Belə ki, frazeoloji lüğətlərdə yalnız söz birləşməsi və cümlə şəklində olan ifadələr verilir. Bu cür sözlər həmin lüğətlərdə daha çox işləndikləri feillə – söz birləşməsi şəklində yer alır. Əliheydər Orucov bu barədə yazır: "*Hər bir dildə, o cümlədən Azərbaycan dilində idiomatik ifadələrlə yanaşı, bir qrup mürəkkəb sözlər var ki, onlara şərti olaraq idiom sözlər demək olar. Görünür bu sözlər vaxtilə analitik xarakter*

daşımış, sonradan isə sintetik şəkil alaraq (yəni qovuşaraq) mürəkkəb sözlərə çevrilmiş və frazeoloji vahidlər sırasından çıxmışdır" (Azərbaycanca-rusca frazeologiya lüğəti, 1976: 14-15). Daha sonra müəllif bu sözlərin də, xalis idiomatik ifadələrdə olduğu kimi, tərkib hissələrini təşkil edən sözləri ayrı-ayrılıqda götürüldükdə, bütövlükdə ifadə etdikləri mənanı ifadə etmədiyini söyləyir. Lakin buna baxmayaraq, dilçilik elmində həmin məcazi mənalı mürəkkəb sözlər artıq frazeologiya sahəsindən çıxıb lüğətçiliyin və leksikologiyanın obyekti olmuşdur. Biz həmin mürəkkəb sözləri xalq yaradıcılığı nümunələri hesab edir və folklorun deyimlər janrına aid nümunələr sırasında yeri olduğunu düşünürük. Qeyd edək ki, dilçilik sahəsində frazeologizm adlanan sabit söz birləşmələri folklorşünaslıqda deyim adlanır. Baxmayaraq ki, bu birləşmələrdə hər söz müstəqil vurğu altında tələffüz edilir, amma sözlər birlikdə bir məfhumu ifadə edir və bu səbəbdən onları da sadə deyim hesab etmək olar. Məsələn: *bel bağlamaq* – inanmaq; *gözü su içməmək* – inanmamaq və s.

Söz birləşməsi şəklində olan deyimlər mürəkkəb söz birləşmələrindən ibarət olur. Məsələn, *Əli aşından da olmaq, Vəli aşından da olmaq*; *yuyulmamış çömçə kimi özünü ortaya atmaq; yorğanına yorğanına görə ayağını uzatmaq*.

İstər söz və istərsə də söz birləşməsi şəklində olan deyimlərin mənası cümlə daxilində aydınlaşır.

Cümlə şəklində olan deyimlər formaca atalar sözləri ilə çox oxşar olduğu üçün janr baxımından çaşqınlıq yaradır – eyniləşdirilir. Əksər atalar sözləri kitablarında bu iki janrın fərqləndirilməsində çaşqınlıqlar olduğu müşahidə edilir. Məsələn, *8 yazır* (yolunu düz yerimək iqtidarında olmayan sərxoş adamlar haqqında deyilir); *aramız limonidir* (münasibətin soyuq olduğu bildirilir); *qulağının dibindən halva iyi gəlir* (əcəli çatıb, ölümü yaxınlaşıb) və s. nümunələri deyimlərdir. Deyimlər çox vaxt cümlədə indiki zamanda işlədilir.

Deyimlər mənaca müxtəlif növlərə ayrılır:

Təsviri xarakterdə olur, zahiri əlamət bildirir, bənzətmə xarakterli olur. Məsələn: *qara bulud, göy şüyüd* (kədərli, qanıqara mənasındadır); *cındırından cin ürkür* (yoxsulluğu və pintiliyi təsvir edir); *Ağı – ağ yanır, qırmızısı – qırmızı* (zahiri – cild gözəlliyini bildirir); *burnunu tutsan, canı çıxar* (fiziki zəifliyi ifadə edir). Çox zaman əlamət bildirən deyimlərin əvvəlində *elə bil,* sonunda *kimi* qoşmaları işlədilir. Bu zaman söz birləşməsi şəklində olan mətn xəbər şəkilçisi qəbul edərək cümləyə çevrilir. Məsələn: *dəvə nalbəndə baxan kimi baxır; dəvəsi ölmüş ərəb kimiyəm; elə bil qurbağa gölünə daş atdılar; elə bil başıma bir qazan qaynar su tökdülər* və s.

Rus deyimlərində də buna oxşar mənzərəni görürük. Məsələn: *как быль сказываем*; *как дым поднялся*; *как с небо упало*; *лает, как собака*; *говорит, как ворона* (Пословицы..., 1961: 85; 86; 75; 90).

Hadisələrin mahiyyətini, insanların şəxsi keyfiyyətlərini xarakterizə edən deyimlər daxili aləmi əks etdirir, əsasən insanların xarakterini göstərir. Məsələn:

ağzına çullu dovşan sığmır; hamısı bir bezin qırağıdır; *ortada yeyib, qıraqda gəzir* və s.

Deyimlər daha çox insan və hadisələri mənfi cəhətdən xarakterizə etsə də, bəzən yaxşı tərəfdən baxışın olduğunu da görmək olur: *göz üstə saxlamaq* (əzizləmək); *atlını atdan salmaq* (güclü, qoçaq adamlar haqqında deyilir).

Zaman anlayışı bildirən deyimlər: *dəvənin quyruğu yerə çatanda* (işin mümkünsüzlüyünü, zamanının gəlməyəcəyini bildirir)*; qışın oğlan çağı* (qışın sərt soyuq vaxtı – fevral ayı nəzərdə tutulur)*; yayın cırhacırı* (cırcıramaların aramsız oxuduğu vaxt – iyul-avqust ayları)*; günün qulağı saralanda* (qürub cağı)*; baş yastığa yetəndə* (xəstələnəndə)*; qaş qaralanda* (axşamçağı)*; Nuh əyyamında* (keçmiş zamanda)*; yağmasa, gələn bazar* – bir işin nə vaxt olacağı sualına verilən eyhamlı cavabdır. Əslində verilən sualdan yayınmaq, cavab verməmək üçün söylənilir.

Xüsusi adlara bağlı olan deyimlər: *At Balaxanım* (kobud hərəkətli qadın)*; Key Balaxanım* (ətrafında baş verənlər diqqətini çəkməyən, reaksiyası zəif olan qadın); *Dəli Bayramalı* (gözlənilməyən, yersiz hərəkət edən adam)*; Xəccə bəzəkdə qaldı* (gözlənilən iş baş tutmayanda deyilir); *Məmmədqulu atdanıb, mən də atdanım* (başqası ilə bəhsə girənlər haqqında deyilir).

Şəxs adları, coğrafi adlarla bağlı deyimlər adətən bölgələr üzrə dəyişir. Hər bölgədə müəyyən fərqli xüsusiyyəti ilə digərlərindən nəzərəçarpacaq dərəcədə seçilən şəxslər və ya xüsusi məkanlar olur ki, adları xalq arasında dildə-ağızda gəzir. Yeri gəldikcə həmin qabarıq xüsusiyyət aid olduğu şəxsin, yerin və s. adı ilə digərlərinə şamil edilir. Məsələn, Göyçay bölgəsi ilə bağlı bu cür deyimlərdən birini izahını nəzərdən keçirək: *otuz yaşdan sonra Qaraqovağın dibində siyahıyaalmadı* . "*Rayon mərkəzinə yaxın ərazidə Potu kənd qəbiristanlığı yerləşir. Qəbiristanlığın girişində qocaman qovaq ağacı var. Yaşlı nəslin leksikonunda, çox güman ki, qəbiristanlıq sözünün düşüncədə yaratdığı psixoloji ağırlıqdan qaçmaq üçün onun əvəzinə Qaraqovaq sözündən istifadə edilir. Bu iki söz – qəbiristanlıq və Qaraqovaq yerli sakinlərin dilində ünvan bildirən leksik paralellərdir* (Kərimova, 2024: 853). Yəni Əzrayıl Qaraqovağın dibində ölüm vaxtı çatmışları qeydə alır.

Nümunələr üzərində müqayisə

Bir-birinə çox bənzəri olan bu iki janrı fərqləndirmək üçün müəyyən qrammatik müqayisələr apara bilərik. Məsələn, *bu qulağından alıb, o qulağından verir* nümunəsinin nə üçün atalar sözü yox, deyim olmasına aydınlıq gətirək. İlk olaraq onu demək olar ki, nümunədə hər hansı müdrik fikir ifadə olunmamışdır. Bu, sadəcə şəxsi keyfiyyətlə bağlı bir ştrixi ifadə edən məlumatdır. Həmin mətn üzərində mümkün olan bəzi qrammatik əməliyyatları aparaq:

Bu qulağımdan alıb, o qulağımdan verirəm.
Bu qulağından alıb, o qulağından verirsən.
Bu qulağından alıb, o qulağından verir.

Bu qulağımızdan alıb, o qulağımızdan veririk.
Bu qulağınızdan alıb, o qulağınızdan verirsiniz.
Bu qulağından alıb, o qulağından verirlər.

Bu, nümunədəki ismin və feilin şəxsə və kəmiyyətə görə dəyişməsidir. Cümlənin xəbərini feilin inkar forması, bütün zamanları və şəkilləri üzrə də dəyişmək mümkündür. Atalar sözləri üzərində isə bu cür qrammatik əməliyyatları aparmaq mümkün deyil.

Sonu feillə bitən cümlə şəklində deyimləri məsdər formasında da işlətmək mümkündür. Məsələn: *Suyu üfürə-üfürə içmək; göz verib-işıq verməmək; üz verəndə astar istəmək və s.*

Zahiri quruluşuna görə bir-birinə çox oxşayan iki nümunəyə diqqət yetirək, "El gücü, sel gücü" mətni və oxşar quruluşda olan "At ilxısı, köpək sürüsü" mətnlərinin məna dəyərlərini müqayisə edək. Hər iki mətn iki hissədən ibarətdir və ikisində də bu hissələr ikinci növ təyini söz birləşmələrindən təşkil olunmuşdur. Birinci mətnin tərəflərinin daşıdığı məna yükü eyni çəkiyə malikdir və bu hissələr arasında riyazi bərabərlik işarəsi qoya bilərik. Xəbəri ellipsisə uğramış bu cümlədə el birliyinin – gücünün yenilməz olması, qarşısına çıxan hər şeyi yerindən qoparıb apara bilən selin gücünə bərabər olduğu bildirilir. Burada ulularımızın həyat təcrübəsindən qazanılmış qənaət, əqli nəticə var. Bu, el birliyinin qüdrəti haqqında atalar sözü statusunu qazanmış bir xalq hikmətidir və xalq arasında bu gün də işləkdir. Seçdiyimiz ikinci mətn də iki hissədən ibarətdir, cümlədə xəbər şəkilçisi ellipsisə uğramışdır. Quruluşuna görə birinci nümunəyə çox oxşasa da, mahiyyətcə fərqlidir. Burada tərəflər arasında mahiyyətcə bərabərlik yox, sadalama, paralellik var. Heç bir hikmət bildirməyən "At ilxısı, köpək sürüsü" mətni hər hansı toplantıya arzuediləndən artıq sayda adamın gəldiyini bildirir və yalnız obrazlı təsvirdən ibarətdir. Buna görə də o, atalar sözləri deyil, deyim sırasında yer alır.

Nəticə

Apardığımız təhlillərdən belə qənaət hasil olur ki, atalar sözləri və deyimlər Azərbaycan folklorunun ən kiçik və işlək janrlarıdır. Formaca çox oxşar olması, fikri daha kəsə və aydın ifadə etməsi və dildə işlənmə tezliyi onları eyniləşdirir. Gözə çarpan bir sıra əlamətlərin eyniliyinə baxmayaraq, onların hər birinin fərqli janr özəllikləri var. Atalar sözlərinin mətninin fonetikası, leksikası zaman-zaman müəyyən dəyişikliklərə uğrasa, variantlaşsa da, onlarda fikrin məntiqini qoruyan sabit qrammatik xüsusiyyətlər var. Atalar sözlərində fikir ya mütləq təsdiqdə olur, ya da inkarı bildirir. Bu mətnlər hikmətli məzmunu, didaktik mahiyyəti ilə fərqlənir. Deyimlərdə daha çox insanların məişəti, mədəniyyəti, əmək fəaliyyəti ilə bağlı olan zehniyyəti və təsəvvürləri əks olunur. Deyim mətnləri daha çox rişxənd, kinayə, yumor məzmunlu olur, şəxsə, kəmiyyətə, zamana görə dəyişə bilir. Bəzilərini feilin məsdər formasında, təsdiqdə və inkarda da işlətmək olur və bu onun mənasına heç bir xələl gətirmir. Bu ifadələr hikmət bildirmir, müəyyən məqamlar təsvir edən

obrazlı xalq ifadələridir. Deyim və atalar sözlərini mahiyyətcə bir-birindən fərqləndiyi üçün onlar fərqli janrlardır.

ƏDƏBİYYAT

1. Azərbaycanca-rusca frazeologiya lüğəti / Tərt. ed. Ə.Orucov. – Bakı: Elm, 1976, – 248 s.
2. Kərimova, X. Göyçaydan toplanmış paremioloji vahidlərin xüsusiyyətləri // 8. Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu bildirileri. 24-26 Ekim, 2024, Atırav-Kazakistan. − Atırav, 2024. − s. 848-858.
3. Oğuznamə / Çapa hazırl. S.Əlizadə. – Bakı: Yazıçı, 1987, – 223 s.
4. Пословицы, поговорки, загадки в рукописных сборниках XVIII-XX веков. – Москва-Ленинград: Издательства Академии наук СССР, 1961, – 288 с.

Rəyçi: filologiya elmləri doktoru, professor Ramazan Qafarlı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

EMÇİYEVA VƏFA ƏLİŞAD QIZI
MƏMMƏDOVA AYNUR ELPƏRƏST GIZI
Azərbaycan Universiteti ,
Baku Azerbaycan
Vafa.emchiyeva@au.edu.az
Aynur.mammadova@au.edu.az

MÜƏLLİMLƏRİN İDARƏ OLUNMASI VƏ PEŞƏKAR İNKİŞAFI: YANAŞMALAR VƏ ÇƏTİNLİKLƏR

XÜLASƏ

Müəllimlərin idarə edilməsi və peşəkar inkişaf müasir təhsil sistemlərinin əsas tərkib hissələridir. Effektiv idarəetmə strategiyaları dərs keyfiyyətini artırır, tələbələrin nəticələrini yaxşılaşdırır və müəllimlərin davamlı peşəkar inkişafını dəstəkləyir. Araşdırmalar kifayət qədər olsa da, müəllim idarəetməsinin effektiv tətbiqində hələ də problemlər mövcuddur. Bu məqalə mövcud yanaşmaları təhlil etməyi, problemləri vurğulamağı və müəllim idarəedməsi ilə peşəkar inkişafın təkmilləşdirilməsi üçün strategiyalar təklif etməyi məqsəd qoyur. Açar sözlər /Teacher Management, Professional Development, Education, Leadership, Training

Vafa Alishad gizi Emchiyeva
Aynur Elpərəst gizi Məmmədova

Teacher Management and Professional Development: Approaches and Challenges

Abstact

Teacher management and professional development are fundamental elements in modern educational systems. Effective management strategies enhance teaching quality, improve student outcomes, and foster continuous professional growth. Despite the abundance of research, challenges remain in implementing consistent and effective teacher management practices. This paper aims to explore current approaches, highlight the challenges, and propose strategies to improve teacher management and professional development. Keywords / Teacher Management, Professional Development, Education, Leadership, Training

Vafa Alishad gizi Emchiyeva
Aynur Elperest gizi Mammedova

УПРАВЛЕНИЕ УЧИТЕЛЯМИ И ИХ ПРОФЕССИОНАЛЬНОЕ РАЗВИТИЕ: ПОДХОДЫ И ПРОБЛЕМЫ

Резюме

Управление учителями и их профессиональное развитие являются фундаментальными элементами современной образовательной системы. Эффективные стратегии управления повышают качество преподавания, улучшают результаты студентов и способствуют непрерывному профессиональному росту. Несмотря на обилие исследований, остаются проблемы с внедрением последовательных и эффективных практик управления учителями. Настоящая статья направлена на изучение существующих подходов, выявление проблем и предложение стратегий по улучшению управления учителями и их профессионального развития. **Ключевые слова**: Управление учителями, Профессиональное развитие, Образование, Лидерство, Обучение

Giriş

Müəllimlərin idarəe dilməsi

Təhsil sisteminin səmərəliliyi birbaşa şəkildə müəllimlərin fəaliyyətinə və onların idarəedilməsi prosesinə bağlıdır. Müəllimlərin düzgün idarə olunması yalnız onların iş yükünün balanslaşdırılması və təşkilati fəaliyyətlərinin koordinasiyası ilə məhdudlaşmır. Bu, eyni zamanda onların motivasiyasının artırılması, peşəkar inkişafının davamlı şəkildə dəstəklənməsi və müasir tədris metodlarına uyğunlaşdırılması ilə sıx bağlıdır. Bu səbəbdən müəllimlərin idarəedilməsi və peşəkar inkişafı təhsil siyasətində prioritet istiqamətlərdən biri kimi qəbul olunur.

1. Müəllimlərin İdarəedilməsinin Əhəmiyyəti

Müəllimlərin effektiv idarə olunması onların ümumi performansına, işdən məmnunluğuna və tədris keyfiyyətinə birbaşa təsir edir. Yaxşı qurulmuş idarəetmə sistemi aşağıdakı faydaları təmin edir:

- **Motivasiya artımı:** Rəhbərlik tərəfindən tanınma, konstruktiv rəy və ədalətli qiymətləndirmə sistemi müəllimlərin daxili motivasiyasını artırır.
- **Peşəkar inkişafın dəstəklənməsi:** Müəllimlərə davamlı öyrənmə imkanlarının təqdim edilməsi onların dəyişən təhsil mühitinə uyğunlaşmasını asanlaşdırır.
- **Tədris keyfiyyətinin yüksəlməsi:** İdarəetmə prosesində şəffaflıq və dəstək strategiyaları müəllimlərin öz bacarıqlarını daha effektiv tətbiq etməsinə şərait yaradır.

Effektiv idarəetmə üçün liderlik bacarıqları da mühüm rol oynayır. **Transformativ liderlik**, müəllimləri ilhamlandıraraq onları dəyişikliklərə açıq və yaradıcı olmağa

təşviq edir. **Situativ liderlik** isə konkret kontekstdə uyğun yanaşmanın seçilməsinə imkan verir ki, bu da çevik və məqsədyönlü idarəetməni təmin edir.

2. Müəllim Motivasiyası və Onun Təhsilə Təsiri

Motivasiya müəllimin tədris prosesinə olan yanaşmasına, təşəbbüskarlığına və yenilikləri tətbiq etmə həvəsinə birbaşa təsir göstərir. Motivasiya səviyyəsinin aşağı olması isə keyfiyyətli təhsilin təmin edilməsinə mane olur.

Motivasiyanı artırmaq üçün aşağıdakı amillər vacib hesab olunur:

- **Düzgün qiymətləndirmə sistemi:** Ədalətli və şəffaf qiymətləndirmə mexanizmləri müəllimlərin zəhmətinin obyektiv şəkildə dəyərləndirilməsinə şərait yaradır.
- **Mükafatlandırma və təşviq:** Əməkhaqqı, rəsmi tanınma, diplom və sertifikatlar kimi təşviq vasitələri motivasiyanın artmasında əhəmiyyətli rol oynayır.
- **Karyera inkişaf imkanları:** Rütbə artımı, idarəetmə vəzifələrinə yüksəlmə kimi imkanlar müəllimləri peşəkar inkişaf yolunda təşviq edir.

3. Peşəkar İnkişaf: Müasir Müəllimlik Tələbi

Müasir təhsil sistemləri müəllimlərdən yalnız mövcud biliklərini tədris etməyi deyil, eyni zamanda daim yenilənən informasiya və texnologiyalara uyğunlaşmağı da tələb edir. Bu isə **peşəkar inkişaf**ın davamlı şəkildə həyata keçirilməsini zəruri edir.

Peşəkar inkişaf aşağıdakı vasitələrlə həyata keçirilə bilər:

- **Davamlı təlim və seminarlar:** Mövzuya əsaslanan və praktiki yönümlü təlimlər müəllimlərin bacarıq və biliklərini artırır.
- **Mentorluq və təcrübə mübadiləsi:** Təcrübəli müəllimlərin yeni müəllimlərlə təcrübə paylaşması onların daha tez və effektiv inkişafına kömək edir.
- **İnnovativ texnologiyaların tətbiqi:** "Flipped classroom", rəqəmsal platformalar və digər müasir tədris metodları dərslərin effektivliyini artırır.

Yeni texnologiyalar və metodlar:

- Onlayn təlim və webinarlar
- Əlavə resurslar və tədris platformaları (məsələn, Khan Academy, Coursera, Moodle)
- Rəqəmsal sinif idarəetmə sistemləri (Google Classroom, Microsoft Teams)

4. Mövcud Problemlər və Çətinliklər

Təhsildə müəllimlərin idarəedilməsi və inkişafı sahəsində aşağıdakı problemlər müşahidə olunur:

- **Resurs çatışmazlığı:** Maddi vəsaitlərin və texnoloji imkanların məhdudluğu təlimlərin davamlı təşkilini çətinləşdirir.
- **Fərdi ehtiyacların nəzərə alınmaması:** Təlimlər bəzən ümumi xarakter daşıyır və konkret müəllimlərin ehtiyaclarını qarşılamır.
- **Vaxt məhdudiyyəti:** Müəllimlərin yüklənməsi əlavə inkişaf proqramlarında iştirak etməyə imkan vermir.

- **Yeni metodlara adaptasiya çətinliyi:** Xüsusilə yaşlı müəllimlər üçün texnologiyaya uyğunlaşmaq zaman və əlavə dəstək tələb edir.

Tövsiyələr:

- Hər bir müəllim üçün **fərdi inkişaf planı** hazırlanmalı və mütəmadi olaraq yenilənməlidir.
- **Texnoloji avadanlıqlar** və rəqəmsal resurslara çıxış genişləndirilməli, bu sahədə təlimlər intensivləşdirilməlidir.
- Müəllimlər üçün **liderlik və idarəetmə bacarıqları** üzrə xüsusi proqramlar təşkil olunmalıdır.
- **Qiymətləndirmə və təşviq sistemləri** ədalətli və motivasiyaedici şəkildə yenidən qurulmalıdır.

5. Nəticə və Perspektivlər

Nəticə etibarilə, müəllimlərin idarəedilməsi və peşəkar inkişafı təhsil sisteminin dayanıqlı inkişafı üçün əsas sütunlardan biridir. Effektiv idarəetmə və motivasiya strategiyaları müəllimlərin fəaliyyətinə, tədris keyfiyyətinə və şagirdlərin nəticələrinə birbaşa müsbət təsir göstərir.

Gələcək tədqiqatlar və siyasət tədbirləri aşağıdakı sahələrə yönəlməlidir:

- İnnovativ liderlik modellərinin (məsələn, paylaşılan liderlik, xidmət yönümlü liderlik) tətbiqi;
- Süni intellekt və təhsil texnologiyalarının müəllim inkişafında istifadəsi;
- Müəllimlərin səs hüququnun artırılması və qərarvermə prosesinə daha çox cəlb olunması.

Beləliklə, müəllim idarəetməsi və inkişafı təkcə idarəetmə problemi deyil, strateji və sistemli yanaşma tələb edən bir sahədir. Bu sahədə atılacaq düzgün addımlar cəmiyyətin ümumi inkişafına və insan kapitalının gücləndirilməsinə xidmət edəcəkdir.

Ədəbiyyat

1. Fullan, M. (2014). *The Principal: Three Keys to Maximizing Impact.* Jossey-Bass.

   Təhsildə liderlik və idarəetmə modellərinin müəllim performansına təsirini izah edir.

2. OECD (2019). *A Flying Start: Improving Initial Teacher Preparation Systems.* OECD Publishing.

   Müəllimlərin peşəkar inkişafı və sertifikasiya sistemləri ilə bağlı təhlillər təqdim edir.

3. Darling-Hammond, L., Hyler, M. E., & Gardner, M. (2017). *Effective Teacher Professional Development.* Learning Policy Institute.

   Effektiv peşəkar inkişaf proqramlarının əsas prinsiplərini müəyyən edir.

4. Azərbaycan Respublikası Təhsil İnstitutu (2020). *Müəllimlərin peşəkar inkişafı və dəstəklənməsi üzrə konseptual yanaşmalar.* Bakı: ARTİ nəşriyyatı.
Azərbaycanda müəllim inkişafı ilə bağlı aktual yanaşmalar və strategiyalar.
5. Sergiovanni, T. J. (2006). *The Principalship: A Reflective Practice Perspective* (5th ed.). Allyn & Bacon.
Transformativ və situativ liderlik yanaşmaları ilə məktəb rəhbərliyinin müəllimlərə təsiri.
6. UNESCO (2021). *Education for Sustainable Development: A Roadmap.* Paris: UNESCO Publishing.
Müəllim hazırlığında davamlı inkişaf və texnoloji adaptasiya məsələlərinə toxunur.
7. Day, C., & Gu, Q. (2010). *The New Lives of Teachers.* Routledge.
Müəllim motivasiyası, stress və peşəkar dəyişikliklər haqqında empirik araşdırmalar.
8. Hattie, J. (2009). *Visible Learning: A Synthesis of Over 800 Meta-Analyses Relating to Achievement.* Routledge.
Müəllimlərin dərs keyfiyyətinə təsiri və inkişafın əhəmiyyəti statistik dəlillərlə göstərilir.

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Ləman Qasımlı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ——————

Phd GULNAR RZAYEVA
Azerbaijan University
The Head of The Department of Translation and Philology
0000-0000-0003-0584-078
Gulnar.rzayeva@au.edu.az
AYSU MIRZAYEVA
Azerbaijan University
The Department of Translation and Philology
0000-0002-6692-1182
Aysu.mirzayeva@au.edu.az

MYTHONYM-BASED IDIOMS IN THE ENGLISH LANGUAGE

Summary

This article explores mythonym-based idioms in the English language, analyzing their etymological roots and the mythological figures they originate from. Mythonyms, drawn mainly from Greek and Roman mythology, include names of gods, heroes, places, creatures, and symbolic objects that have gained metaphorical meanings in modern usage. Such idioms reflect the deep connection between language, culture, and thought, preserving cultural memory while enriching the expressive power of English. The study also highlights the functional role of mythonyms in idiom creation, showing how they help convey abstract concepts through vivid imagery. Several idioms, including Achilles' heel, Pandora's box, and Herculean task, illustrate the enduring influence of mythology on the English lexicon.

Keywords: mythonym, onomastics, mythology, idioms, linguo-cultural analysis, metaphor.

Резюме

В данной статье рассматриваются идиомы английского языка, основанные на мифонимах, с акцентом на их этимологические корни и мифологических персонажей, от которых они происходят. Мифонимы, главным образом восходящие к греко-римской мифологии, включают имена богов, героев, мест, существ и символических предметов, которые со временем приобрели метафорические значения в современном употреблении. Эти идиомы отражают глубокую взаимосвязь языка, культуры и мышления, сохраняя древнюю культурную память и одновременно обогащая выразительные возможности английского языка. В исследовании подчеркивается не только лингвистическая, но и культурно-когнитивная функция мифонимов в создании идиом, что позволяет передавать абстрактные понятия более наглядно с помощью мифологических образов. Такие примеры, как *Ахиллесова пята*,

Ящик Пандоры и *Геркулесов труд*, демонстрируют устойчивое влияние классической мифологии на современный английский язык и дискурс.

Ключевые слова: мифоним, ономастика, мифология, идиомы, лингвокультурный анализ, метафора.

Xülasə

Məqalədə ingilis dilində mitonim əsaslı idiomlar araşdırılır, onların etimoloji mənşəyi və meydana gəldiyi mifoloji obrazlar təhlil olunur. Əsasən yunan və Roma mifologiyasına söykənən mitonimlər zamanla metaforik məna kəsb etmiş tanrı, qəhrəman, məkan, varlıq və simvolik obyekt adlarını əhatə edir. Bu idiomlar dil, mədəniyyət və təfəkkür arasındakı dərin qarşılıqlı əlaqəni göstərir, qədim mədəni yaddaşı qoruyaraq eyni zamanda ingilis dilinin ifadə və metaforik imkanlarını zənginləşdirir. Araşdırmada mitonimlərin yalnız linqvistik deyil, həm də mədəni və idraki funksiyaları vurğulanır, onların abstrakt anlayışların mifoloji obrazlar vasitəsilə daha canlı və anlaşıqlı şəkildə çatdırılmasına xidmət etdiyi göstərilir. *Axillesin dabanı*, *Pandoranın qutusu* və *Herkulesin işi* kimi nümunələr klassik mifologiyanın müasir ingilis leksikası və diskursuna davamlı təsirini nümayiş etdirir.

Açar sözlər: mitonim, onomastika, mifologiya, idiomlar, linqvokultural təhlil, metafora.

Introduction

Idioms are a central part of the vocabulary of every language, carrying cultural and historical meaning. They often preserve fragments of a nation's collective memory and worldview. In English, idioms based on mythological names – mythonyms – represent a vivid example of the interaction between language and culture. These idioms not only enrich the language with metaphorical depth but also demonstrate how ancient myths continue to shape contemporary thought. Studying them contributes to understanding the historical development of the English lexicon, as well as the cultural transmission of mythological knowledge. Furthermore, idioms illustrate how speakers conceptualize abstract ideas, and mythological idioms in particular create a bridge between modern discourse and ancient narratives. Their usage underscores the significance of symbolism, metaphor, and cultural continuity in linguistic practices.

The Concept of Mythonyms

Mythonymy, a subfield of onomastics, studies names of mythological origin. A mythonym refers to the proper name of a mythological figure, object, or concept. These names originated in the mythological traditions of various civilizations, but Greco-Roman mythology has had the most prominent influence on English idiomatic expressions. Traditionally, scholars divide mythonyms into several categories: 1) Mythological anthroponyms – names of gods, heroes, or legendary humans (Zeus, Athena, Oedipus).

2) Mythological toponyms – mythological places (Olympus, Hades, Parnassus).
3) Mythological zoonymy – mythological animals and creatures (Pegasus, Cerberus).
4) Mythological astronomy – celestial bodies with mythological names (Venus, Mars, Orion).
5) Mythological objects – symbolic items (Pandora's Box, Trojan Horse, Midas's Touch).

These categories reveal how mythology permeated all aspects of ancient life. Mythonyms were not only linguistic labels but also symbols of values, fears, and hopes of the societies that created them. In addition, mythonyms frequently crossed linguistic borders, being borrowed and reinterpreted in other cultural contexts. This adaptability explains their survival and ongoing productivity in modern idiomatic usage.

Historical and Cultural Background

The majority of mythonym-based idioms in English originate from Greco-Roman mythology. Their survival in the English language is a result of centuries of literary tradition, translation of classical texts, and Christian education in medieval Europe. Over time, the mythological references detached from their original narratives but retained symbolic meanings. For example, the expression Achilles' heel no longer requires knowledge of Homer's Iliad to be understood; it simply denotes a weakness. This shows how mythological idioms entered everyday language. In the Renaissance period, renewed interest in classical antiquity reinforced the use of mythological names, while modern literature, psychoanalysis, and popular culture have continued to adapt these terms for new contexts. The works of Shakespeare, Milton, and later Romantic poets demonstrate a sustained engagement with mythological imagery, which filtered into idiomatic expressions that persist today. More recently, psychoanalytic theories by Freud and Jung introduced terms like Oedipus complex into the scientific and cultural lexicon, further proving the lasting value of myth-based language.

Examples of Mythonym-Based Idioms

The following idioms illustrate the wide range of mythological references preserved in English. Each idiom has a unique history and metaphorical meaning:

- The Midas Touch – the ability to succeed at any venture, derived from King Midas's gift of turning objects into gold.
- Pandora's Box – a source of unforeseen troubles, from the myth of Pandora.
- Trojan Horse – hidden danger or subversion, from the Greek infiltration of Troy.
- Cupid's Arrow – sudden infatuation or love, from the god of love's weapon.
- Between Scylla and Charybdis – being trapped between two dangers, from Homer's Odyssey.

- Cadmean Victory – victory at great cost, reflecting the tragic myth of Cadmus.
- To Climb Parnassus – to aspire to poetry and the arts, from the sacred mountain of the Muses.
- Argus-eyed – extremely watchful, from Argus, the giant with a hundred eyes.
- Lotus-eater – one who indulges in idleness and pleasure, from Homer's Odyssey.
- Sisyphean task – endless and futile effort, from the punishment of Sisyphus.
- Oedipus Complex – psychoanalytic term based on the myth of Oedipus.
- Achilles' Heel – a person's fatal weakness, from the story of Achilles.
- Herculean Task – requiring great strength and effort, from the labors of Hercules.
- Hydra-headed Problem – a problem that multiplies when addressed, from the myth of Hydra.
- Augean Stables – an extremely difficult or dirty task to clean up, from one of Hercules' labors.

Additional idioms can also be noted, such as Narcissism (self-love, from the myth of Narcissus), tantalize (from Tantalus), mentor (from Mentor in Homer's Odyssey), and echo (from the nymph Echo). These examples demonstrate that mythological references have permeated not only idiomatic expressions but also common vocabulary. Their widespread usage illustrates how mythology continues to shape linguistic creativity.

Functional Role in Language and Culture

Mythonym-based idioms enrich the expressive capacity of English. They allow speakers to communicate complex concepts succinctly while evoking vivid cultural imagery. In literature, they function as intertextual references, connecting modern works with classical traditions. In journalism, political discourse, and everyday conversations, these idioms provide stylistic variety and rhetorical strength. For example, describing an economic crisis as a Pandora's Box instantly conveys the unpredictability and danger of the situation. Similarly, calling an ambitious project a Herculean task signals both admiration and recognition of its difficulty. This shows that idioms are not mere linguistic ornaments but functional tools of communication deeply embedded in culture. They also serve as markers of education and cultural literacy, often distinguishing formal, literary registers from colloquial speech.

Comparative Perspective

While English has inherited many idioms from Greco-Roman antiquity, other languages reflect their own cultural heritage. French and Italian, for instance, share similar mythological idioms due to their direct links to Latin tradition. German also preserves numerous mythological expressions. By contrast, Chinese idioms often stem from Confucian, Daoist, or Buddhist traditions, such as the story-based chengyu expressions. Arabic and Persian idioms tend to draw from Islamic tradition, the Qur'an, and pre-Islamic legends. This comparison highlights the universality of idioms as a means of preserving cultural memory, even though the mythological

frameworks differ. The cross-cultural perspective demonstrates that myth-based idioms are a common human phenomenon, adapted to local traditions.

Conclusion

The study of mythonym-based idioms demonstrates the enduring influence of mythology on language and culture. English idioms derived from mythological names preserve cultural memory, provide vivid metaphorical expressions, and enrich communication across genres. Their analysis highlights the intersection of language, thought, and culture, showing how ancient traditions continue to shape modern linguistic practices. By examining these idioms, one sees how linguistic creativity is bound to cultural continuity. Mythological idioms thus serve as linguistic artifacts, cultural symbols, and rhetorical devices that bridge the past with the present. In addition, the comparative approach suggests that the phenomenon of mythonym-based idioms is universal, though the sources of mythology differ across civilizations. Ultimately, these idioms illustrate the power of stories to transcend time and remain relevant in human communication.

References

1. Mammadov O.I. Ethnographic Lexicon of the Azerbaijani Language. Baku: Elm, 2008.
2. Qarayeva A.V. Religious and Mythological Lexicon in the Azerbaijani Language. Abstract, Baku, 2017.
3. Zixuan Fan. The Interplay among Mythology, Culture, and the English Language. ResearchGate, 2023.
4. The Free Dictionary: Idioms. https://idioms.thefreedictionary.com/
5. Theoi Project: Greek Mythology. https://www.theoi.com/
6. Online Etymology Dictionary. https://www.etymonline.com/
7. Freud, S. The Interpretation of Dreams. 1900.
8. Jung, C.G. Archetypes and the Collective Unconscious. 1959.

Rəyçi: Professor Abbas Abbasov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

UOT 82.91

dos. **MƏMMƏDOVA TÖRƏ KAMAL QIZI**
fil.f.d. **ALIYEVA AFIQƏ ALI QIZI**
fil.f.d. **CABAROVA MƏDINƏ AĞAKƏRIM QIZI**
Sumqayıt Dövlət Universiteti
madina.cabarova@sdu.edu.az
tora.mammadova@sdu.edu.az

"MOLLA NƏSRƏDDİN" ƏDƏBİ MƏKTƏBİNİN NÜMAYƏNDƏLƏRİ VƏ ONLARIN FƏALİYYƏTİ

Xülasə

1906-cı ilin aprel ayının 7-də Tiflisdə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin təşəbbüsü ilə fəaliyyətə başlayan "Molla Nəsrəddin" jurnalı ətrafına dövrünün bir sıra qələm ustalarını cəmləşdirdi. Xalqın, millətin gələcəyini düşünən mollanəsrəddinçilər eyni cəbhədə birləşərək cəhalət və geriliyə qarşı mübarizə aparmağa, azadlıq və bərabərlik ideyaları təbliğ etməyə, maarif və təhsilin inkişafına çağırış etməyə başladılar. Onları narahat edən məsələr sırasında milli şüurun formalaşması, ana dilinə münasibət də mühüm yer tuturdu. Digər mətbu orqanlarından fərqli olaraq "Molla Nəsrəddin"in məqsədi insanları gülərək düşündürmək idi. Sadə xalqın nümayəndələrinin belə maraq duya biləcəyi bu jurnalda yazılar olduqca anlaşıqlı dildə verilir, yazı və oxu bacarıqlarının nisbətən məhdud olduğu şəxslər üçün karikatura və illüstrasiyalarla bəzədilirdi. Bu illüstrasiya və karikaturaların müəllifi O.Şmerlinq, İ.Rotter kimi əcnəbi rəssamlar və Azərbaycan karikatura sənətinin banisi Ə.Əzimzadə idi.

Açar sözlər: "Molla Nəsrəddin", satira, mollanəsrəddinçilər, ədəbi məktəb, tənqid

Cəlil Məmmədquluzadənin mühərrirlik fəaliyyəti satiranı, yumoru, ümumilikdə tənqidi gülüşü birləşdirir. Onun gülüş vasitəsilə xalqa xitab etməsinin əsas məqsədi qəflətdə yatan xalqı oyatmaq, onları intibaha səsləmək idi. Siyasət və elm aləmində baş verən yeniliklərin yalnız bir qrup ziyalı tərəfindən anlaşılması (dil və üslubun mürəkkəbliyi səbəbindən) sadə xalqın nümayəndələrini bu dövrdə dərc olunan bir sıra qəzet və jurnalların fəaliyyəti ilə maraqlanmaqdan çəkindirirdi. Lakin mollanəsrəddinçilər elə bir ümumi dil tapdılar ki, onun vasitəsilə ən avam və savadsız adamı da siyasi-ictimai həyatda baş verən yeniliklərdən xəbərdar etmək oldu. Bu dil acı, istehzalı gülüşün dili idi. Bu təhsillinin nadana, müəllimin savadsız mollaya, kəndlinin mülkədara, zəhmətkeşin istismarçıya acı gülüşü idi. Bu üsul sadə oxucunu cəlb edir və siyasi-ictimai məsələləri daha anlaşıqlı hala gətirirdi. İlk nömrəsi 1000 tiraj nüsxə ilə çap olunan jurnal qısa müddətdə populyarlıq qazanaraq

növbəti nömrələrdə nüsxə sayını artırdı. Jurnalın fəal üzvləri satirik ədəbiyyatın inkişafında xüsusi xidmətləri olan M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, Ə.Nəzmi, M.Möcüz, Ə.Haqverdiyev, Ü.Hacıbəyli və b. idi. Onlar hekayə və publisist yazıları, satiraları vasitəsilə cəhalətə, mövhumata, qadın hüquqsuzluğuna, sosial ədalətsizliyə, istismarçı mühitə qarşı eyni cəbhədə birləşərək xalqın maariflənməsi üçün əllərindən gələni etməyə çalışırdılar.

"Mollanəsrəddinçilik – mollanəsrəddinçilərin özünəməxsus yaradıcılığı və bu yaradıcılıqda əks olunan azərbaycançılıqdır". [8, s.15] Azərbaycançılıq ideyası, Azərbaycanın tarixi məmləkət olaraq ərazisi və bütövlüyü haqqında fikirlər C.Məmmədquluzadənin "Azərbaycan" məqaləsində daha qabarıq təsvir olunur. "Tarix" felyetonunda ədib tarixin səhifələrinə göz gəzdirməyi, dostu düşməndən ayırmağı, ötən səhvlərdən özünə nəticə çıxarmağı hər bir azərbaycanlıya tövsiyə edir. Bu məqalə erməni-müsəlman qarşıdurmasını, müsəlmanların bədxah qonşularından qorunmaq üçün ən ağlasığmaz vasitələrə əl atdığını ürək ağrısı ilə təsvir edir: "Erməni-müsəlman davasında Şeytanbazar müsəlmanları "Quran"ın ayələrini kağız üstə yazıb yapışdırmışdılar divarlara ki, evlərinə xətər toxunmasın; amma bu evlərin çoxuna od düşəndə, hər bir şeydən qabaq bu dualar alışıb yandılar; çünki kağız taxtadan və daşdan tez yanar".

"Molla Nəsrəddin"in nasirlərindən biri də "Xortdan", "Mozalan bəy", "Ceyranəli", "Süpürgəsaqqal" imzaları ilə jurnalda silsilə məqalələr çap etdirən Ə.Haqverdiyev idi. Filologiya üzrə elmlər doktoru, professor Allahverdi Məmmədli qeyd edir ki, Əbdürrəhim bəyin hekayələrində, bütövlükdə bədii nəsrində C. Məmmədquluzadənin təsiri hiss olunur. C.Məmmədquluzadə "Xatiratım" adlı əsərində özünü mollanəsrəddinçilərin "ağsaqqal yoldaşı" adlandırırdı. Bu mənəvi yaxınlıq C.Məmmədquluzadə və Ə.Haqverdiyevin əsərlərinin ruhunda daha aydın duyulur. "Molla Nəsrəddin" jurnalının fəaliyyətə başlaması bir çox qələm ustaları üçün söz meydanına atılmağa zəmin yaratdı. Bu şəxslərdən biri də Ə.Haqverdiyev idi. Müəllifin "Xortdanın cəhənnəm məktubları", "Marallarım" kimi silsilə hekayələri, "Mozalan bəyin səyahətnaməsi" adlı publisist əsərləri bu jurnalda dərc olundu. Jurnal Ə.Haqverdiyevin bir hekayənəvis kimi tanınmasında və sevilməsində mühüm rol oynadı.

"Molla Nəsrəddin"in sevilən simalarından biri də inqilabi satiranın banisi "Sabir" təxəllüslü Ələkbər Tahirzadə idi. Sabirin üstünlüyü köhnə forma ilə yeni məzmunu uyğunlaşdırma bacarığı idi. O, XX əsrin siyasi-ictimai hadisələrini özünəməxsus tərzdə, orijinal formada təqdim etmiş hərtərəfli sənətkardır. Sabir satiraları xalqı əsarətdə saxlayanlara, kapital ağalığına, yetimin malına göz dikənlərə ünvanlanmış ən dəqiq hədəfdir. Şair "Bir utan", "Bizə nə", "Qurban bayramı", "Ey pul", "Paradır", "Mətləbi andırmaq olurmu?", "Hər nə verirsən, ver", "Dilənçi" və s. satiralarında onu narahat edən məqamları ustalıqla qələmə almışdır.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalı fəaliyyətə başlayan zaman bu mətbu orqanında fəallığı ilə seçilən, öz dəst-xətti ilə minlərlə insanın rəğbətini

qazananlardan biri də Sabir idi. "Ümumiyyətlə, "Molla Nəsrəddin"lə Sabiri ayrı-ayrılıqda təsəvvür etmək çətindir. Onlar eyni sosial-ictimai inkişafın yetişdirdiyi və biri digərini tamamlayan "ekizlər" timsalındadırlar". [4, s.45] 1906-cı ilin may ayının 3-ü "Molla Nəsrəddin"in "Poçt qutusu"na daxil olan bir məktubda yazılırdı: "Əfəndim, 28 aprel tarixli dördüncü nömrəni əvvəlki nömrələrdən daha ziyadə bir ləzzətlə mütaliə etdik...". Sözü gedən nömrədə Sabirin "Oxutmuram, əl çəkin" satirası yer almışdı. Mollanəsrəddinçilər jurnalın bu sayının böyük rəğbətlə qarşılanmasının səbəbini də məhz Sabirin qələmindən çıxan bu satira olduğunu anlayırdılar.

Ardınca jurnalda ədibin "Millət necə tarac olur olsun, nə işim var?!" satirası dərc olundu və böyük coşqu ilə qarşılandı. Satirada müəllif tipin dilindən verilmiş monoloqlar vasitəsilə dövrünün xanlarını, bəylərini, istismarçılarını, öz mənafeyi naminə xalqı əzənləri açıq şəkildə tənqid hədəfinə aldı. Şeir olduqca sadə dildə yazılmış, söz, ifadə və tərkiblərin hamısı canlı xalq dilindən alınmışdı. Bu xüsusiyyət Sabiri geniş kütlənin sevimlisinə çevirən ən mühüm səbəblərdən biri idi. Şair xalq ilə qələm əhli arasındakı keçilməz divarı yıxmağa müvəffəq olmuşdu.

Sabir özündən sonra böyük bir ədəbi məktəb qoydu. Ə.Nəzmi, M.S.Ordubadi, Əliqulu Qəmküsar, Əli Razi Şəmçizadə, M.Ə.Möcüz, Ə.Məhzun kimi sənətkarlar Sabir ədəbi məktəbini davam etdirmiş, şairin yaradıcılığından təsirlənərək şeirlər yazmışdılar.

Sabirdən sonra, məhz Əli Nəzmi "Molla Nəsrəddin" jurnalında satiraları ilə onun üslubunu davam etdirmişdir. C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalına yaraşan şivənin məzəliliyi, duzluluğu, məlahət və lətafəti ilə Məşədi Sijimqulunu, Kefsizi M.Ə. Sabirə yaxın və əvəz olan birinci şairlərdən hesab etməkdə haqlı idi. [Molla Nəsrəddin, 1906: 6]. Sijimqulu, Kefsiz Əli Nəzminin "Molla Nəsrəddin" jurnalında gizli imzaları idi. C.Məmmədquluzadənin Əli Nəzmi ilə bağlı fikirlərini, demək olar ki, Mir Cəlal da təkrar edir. [9 ,s. 178]

"Molla Nəsrəddin" jurnalında "Quli-biyabani" adlı bir felyeton və onun altında Sabirin "Tömeyi nahar" adlı bir satirası dərc edilmişdir. Sabirin satirasında kasıb kəndli ilə varlı üz-üzə qoyulur: kasıb süfrəsində ac və ümidsiz oturub varlıdan imdad dilədiyi halda, varlı bolluq içində kef edir və yalnız pulunu artırmağın yollarını düşünür. C.Məmmədquluzadə qeyd edir ki, bu əsərin ideyası sonradan Əli Nəzminin "Çayda çapan qardaşım, ağlama, ağları gör" adlı şeirinə təsir göstərmişdir. Şeir xalq danışıq dilinə yaxın ifadələrlə, sarkazm və satirik çalarlarla yazılmışdır. Şairin müraciəti "Çayda çapan qardaşım" ifadəsi ilə başlayır. Əsərdə müəllif öz maddi durumunu, karını düşünən varlıları bir az da xalqı düşünməyə səsləyir: "Fikr elə bir az, qadam, Xəlqi, sora karı gör" [11, s. 32]. Şeirdə sosial eybəcərliklərin, dövrün mənzərəsinin kəskin satirik təsviri verilir. "Cami-səfahət, atam, Kim içirib sizlərə" misralarında eyş-işrətə, mənasız əyləncələrə aludə olanlar tənqid edilir [11, s.33]. Şair bir tərəfdən xalqın miskinliyini, digər tərəfdən isə nadanlığa sürüklənməsini istehzalı dillə göstərir.

"Mən hələ gördüklərimin dörddə birini yazmayıram, halıma bax" - deyən Sabir üslubunu Əli Nəzmi "Yazım-yazmayım" adlı şeirində davam etdirir. Şeirdə əsas diqqət cəmiyyətin eybəcər tərəflərinə yönəldilmişdir. Şair "yazım, yazmıyım?" sualını təkrar-təkrar verərək həm öz tərəddüdünü, daxili gərginliyini, həm də oxucuya ünvanlanmış çağırışı ifadə edir. Bu sual ritorik xarakter daşıyır, əsərə ritm, istehzalı ovqat qatır. Burada mətbuat və elmə münasibət ("Əqlimi puç etdi kitabət, yazı", "Jurnalı, həm qəzeti daşladım", dini riyakarlıq ("Bir neçə molla qarını aşladım"), gündəlik bazar həyatı ("baqqalı, ya bəzzazı"), hətta adi məişət hadisələri ("Halvanı çaldım, həmi lavaşladım") satiranın hədəfinə çevrilmişdir [11, s.56]. Şair bu misralarla cəmiyyətdəki mənəvi aşınmaları qabardır. "Bax, necə insan qanı su tək axır. Mənzərəsi ruh ilə canı yaxır" misraları şairin satirik əsərinin ən faciəvi məqamını əks etdirir. Şair burada həm dövrün sosial-siyasi gərginliyini, həm də cəmiyyətdə baş verən zorakılıqlar, ədalətsizliyi və qanunsuzluqları kəskin şəkildə ortaya qoyur.

Ə.Nəzmi ictimai-satirik poeziyasını xalqın ağır taleyinin təsvirinə həsr etmişdir. Onun "Sizə nə", "Əkinçilər", "Ey füqəra" kimi şeirləri kəndlilərin güzəranını, onların gündəlik zəhmət içində kasıblıq və hüquqsuzluq girdabında yaşamasını əks etdirir. Şair kəndlilərlə birlikdə ömür sürdüyü üçün onların həyatını yaxından görmüş, dərdlərinə bələd olmuşdu. Bu səbəbdən də onun poetik obrazları real və canlı təsir bağışlayır.

Ə.Nəzminin "Polis idarələri" adlı satirası isə kəndlilərin hüquqlarının pozulmasını, polis idarələrində hökm sürən rüşvətxorluğu və özbaşınalığı ifşa edən kəskin bir əsərdir [11, s. 263-264]. Şair təsvir edir ki, xalq sərbəsər soyulur, talanır, amma nəticədə yalnız polis və məmurların cibləri dolur. Şair "Topal Həsənli quldurları" ifadəsi ilə rəmzləşdirilmiş quldurları polisin timsalında görür [11, s. 263-264]. Bu misralar açıq satira ilə polisin qanun keşikçisi yox, quldurluqla məşğul olan bir dəstəyə çevrildiyini göstərir. Burada şair o fikirdədir ki, qanunu qorumaq və zəifi müdafiə etmək əvəzinə, idarələr xalqı daha çox əzir, hüquqlarını tapdalayırlar.

Sabir məktəbinin digər davamçısı Ə.Qəmküsar da satirik poeziyasında eyni mövqedən çıxış edərək xalqın halını düşünməyən, onu soyub-talayaraq var-dövlət içində yaşayan varlıları hədəfə almışdır. O, bir şeirində varlıya müraciətlə "Bu qədər ifadələnmə, sənə yoxdu bab, varlı, Füqəranı, bəsdir, az soy, elə ictinab varlı" - deyərək onu ədalətli olmağa, kasıbın haqqına girməməyə çağırır. Əslində bu, sadə bir nəsihət yox, varlıların zülmkar davranışlarına qarşı sərt bir tənqiddir [5, s. 87]. Sabirin "Səbr elə" şeirindəki acı və istehza Qəmküsarın "Millətinin halı pərişan ola" mətləli satirasında öz əksini tapır. "Qəm yemə, səbr et, bu da, yahu, keçər!" - deyə ironik şəkildə səslənən şair, əslində səbrin faydasızlığını göstərir, xalqın cahillik, nadanlıq və vəhşilik içində əzildiyindən şikayətlənir [5, s. 22]. Burada ironiya və sarkazm Sabir məktəbinin poetik gücünün davamı kimi çıxış edir. Əsərdə konkret hədəflər də vardır: Kəlbəli və Kəlb Cəfər obrazları xalqı talayan, ona zülm edən real

şəxsiyyətlər kimi təqdim olunur. Şair görünüşdə onlara səbr etməyi tövsiyə etsə də, əslində səbr kasasının daşdığını, xalqın üsyana doğru sürüklədiyini göstərir.

Qəmküsarın "Nə yoğurduq, nə yapdıq, hazırca, kökə tapdıq" felyetonu və "İngiltərə" satirasında Sabirin təsiri ilə yanaşı, dövrün ictimai-siyasi hadisələrinin – xüsusilə də Rusiyada baş verən inqilabın – izləri də görünür. Müəllif bu hadisəni xalqın hüquqlarını tələb etmək üçün bir fürsət kimi təqdim edir. "Nə yoğurduq, nə yapdıq, hazırca, kökə tapdıq" Qafqaz və Türküstan şəhərlərindən hökumətə göndərildiyi güman edilən layihələrin təqdimi şairin satirik üsulla cəmiyyətin geriliyini və ziddiyyətlərini üzə çıxarmaq məqsədinə xidmət edir [5, s. 144-146]. Bu felyetonlarda Gəncə, İrəvan, Naxçıvan, Dərbənd, Quba, Türküstan, Bakı və s. şəhərlərdən gələn, xalq adından edilən qəribə xahiş və tələblər ironiyanın əsas qaynağıdır. Gəncə xanının qumarbazlığa icazə verilməsini istəməsi, İrəvan camaatının isə təhlükəli dövr üçün uşaqlı-böyüklü hər kəsin belinə iki tapança və iki qəmə bağlamasına icazə tələb etməsi həm absurd, həm də real həyatın eybəcər tərəflərini ifşa edir.

Müəllif Naxçıvan camaatının "şpion zavodu" açmaq istəyini göstərməklə, həmin mühitdə mövcud olan donosçuluq, qeybət və qaragüruhçuluq əxlaqını satirik boyalarla göstərir. Türküstandan gələn tələblərdə isə dini adətlərin eybəcər təzahürləri, boşboğazlıq və avamlıq ironik təsvirlərlə üzə çıxarılır: camaat çayxana və küçələrdə xoruldayaraq yatmaq, dəstələr halında nümayişkaranə şəkildə namaz qılmaq istəyir. Bakıdan göndərilən qərar isə ictimai-siyasi mühitin korlanmış vəziyyətini parodiyalaşdırır. Burada "Peterburqa bir vəkil göndərmək" adı altında əslində mətbuat və idarəçilik üzərindən böhtan, iftira, söyüş və alçaltma praktikasının qanuniləşdirilməsi satirik dillə göstərilir. Bu, dövrün qəzetçilik mühitində və yerli idarələrdə mövcud olan söz azadlığı probleminin ironik təzahürüdür. Dərbənd əhalisinin istəklərində isə dini fanatizm və mərasimçilik ənənələrinin şişirdilmiş formada tənqidi aparılır. Əgər əvvəllər yalnız Aşura və Peyğəmbərin vəfat günlərində baş yarmaq adəti mövcud idisə, indi camaat 179 məsumun və peyğəmbərin bütün şəhadət günlərində baş yarmaq niyyətini ortaya qoyur. Bu, bir tərəfdən dini mərasimlərin ifrat hal almasını, digər tərəfdən isə xalqın gerçək problemlərini kənara qoyub fanatik davranışlara üz tutmasını göstərir. Müəllifin satirik üsulu ondan ibarətdir ki, hər bir şəhərin tələbi reallığın ironik təhrifinə əsaslanır. O, xalqın "təzə hökumətdən" istəklərini sadalayaraq əslində bölgələrdə hökm sürən özbaşınalığı, dərəbəylik və qarışıqlığı üzə çıxarır. Bu satirik tablo ictimai idarəçiliyin səriştəsizliyini, xalqın adından qərar verənlərin şəxsi maraqlarını güddüyünü və nəticədə dövlətin birliyini dağıtdığını ifşa edir.

Ən diqqətçəkən məqamlardan biri müəllifin İrəvan camaatına aid təsviridir. Onların tələbi "bir tapança və bir qəmə ilə yalnız on nəfər öldürmək mümkündür, daha çox silah lazımdır" məntiqinə əsaslanır. Buradakı ironiyanın sətirləri arasında dövrün siyasi gərginliyi və bölgədəki təhlükəli mühit oxucuya açıq şəkildə çatdırılır.

Qəmküsar satirik ampluasında göstərir ki, İrəvanda vəziyyət doğrudan da gərgindir, kütləvi qırğınlar baş verir və bu hadisələr siyasi və sosial qarışıqlığın bir nəticəsidir.

"İngiltərə" satirasında şairin əsas hədəfi ingilislərdir. Burada onların siyasətini hiylə və məkr üzərində qurduğunu, əsrlər boyu Asiyada kök salaraq xalqlara zərər verdiyini göstərir. Əsərin yazıldığı dövr – 1919-cu il – Azərbaycan və Qafqaz üçün mürəkkəb bir tarixi mərhələ idi. Müxtəlif imperialist güclər bölgədə öz maraqlarını güdürdülər. Şair bu kontekstdə vurğulayır ki, bir vaxtlar Rusiya və Almaniya azadlığımıza zərbə vurmuşdu, lakin indi özləri çətin vəziyyətə düşüblər. O, ümid edir ki, İngiltərə də bir gün onlar kimi zəifləyəcək və məhv olacaq. "Hər yeri, hər ölkəni min fənd-fel ilə alıb. Aləmi bərbad edibdir, bircə Gürcüstan qalıb" ironiyası ilə şair xalqı ayıq-sayıq olmağa, ingilislərin hiylələrinə aldanmamağa, onlardan uzaq durmağa çağırır. Beləliklə, əsər həm siyasi tənqid, həm də milli oyanış çağırışı xarakteri daşıyır, xalqı müstəqilliyini qorumağa səsləyir.

Beləliklə, Ə. Qəmküsarın və Ə.Nəzminin satirik yaradıcılığı yalnız gülüş doğuran ironik mətnlər deyil, həm də dövrün ictimai-siyasi salnaməsi kimi çıxış edir. Onun yaradıcılığı Sabir ənənəsinin davamı olmaqla yanaşı, satira vasitəsilə xalqın üzləşdiyi real faciələrin bədii təcəssümünə, sosial tənqidin güclü silahına çevrilir.

"Molla Nəsrəddin" jurnalı çapa başladığı andan tək türk dünyasında deyil, həm də Şərqdə tanınmağa və yayılmağa başladı. Həm jurnal, həmdə mollanəsrəddinçilər türkdilli xalqların ədibləri arsında məşhurlaşdıqca ədəbi əlaqələr daha da güclənirdi. Mollanəsrəddinçilər arasında Mirzə Ələkbər Sabir və Mirzə Cəlilin davamçıları türkdilli xalqların arsında daha çox idi. Özbək ədəbiyyatında Səidəhməd Siddiqi Əczi satiralarını Mirzə Ələkbər Sabirin təsiri ilə mollanəsrəddinçilərin poetik fikir, məna və məzmununa uyğun yazırdı. M.Ə.Sabir 1890-1895-ci illərdə Şərq ölkələrini gəzmiş, bir çox ziyalılarla görüşmüş, onların bir çoxu ilə dostluq etmişdir. Həmin illərdə S.S.Əczi də Sabirlə görüşmüş və onunla həmsöhbət olmuşdur. 1901-1903-cü illərdə isə Əczi Tiflisdə Mirzə Cəlillə tanış olur. Bu tanışlıqlar sonradan sıx əlaqələrə çevrilir. "Molla Nəsrəddin"in çapı isə ədəbi əlaqələri daha da sıx olmasına səbəb olur. Özbək tədqiqatçısı Bəyalı Qasımov S.S.Əczinin yaradıcılığı haqqında tədqiqlərində qeyd edir ki, şairin "Miratül-ibrət" və "Əncüməni-ərvah" əsərləri o illərdə senzura səbəbindən Özbəkistanda çap oluna bilmir. C.Məmmədquluzadə 1912-ci ildə "Qeyrət" mətbəəsində Əczinin əsərlərini çap etdirir.

M.Ə. Sabirin Özbəkistanda daha çox tanınması və sevilməsinə səbəb də "Molla Nəsrəddin" jurnalı olmuşdur. Sağlığında əsərləri daha çox "Molla Nəsrəddin"də çap olunan Sabirin şeirləri o qədər məşhur olur ki, artıq Özbəkistanda çıxan mətbu orqanlar da Sabirin şeirlərini çap edirlər. M.Ə.Sabirin "Şükür, xudaya" şeiri Özbəkistanda çap olunandan sonra S.S.Əczi də təsirlənərək eyni adda şeir yazır və çap etdirir. M.Ə.Sabir yazır:

Bimərhəmət ə'yanlarına şükr, xudaya!
Bu sahibi-milyanlarına şükr, xudaya!

Millət qəminə baxmayan ənzari-kərəmlə –
İşani-zəvişanlarına şükr, xudaya!
İş bilməyən ancaq yemək-içməkdən əlavə,
Bu canlı dəyirmanlarına şükr, xudaya!
Bidadi-bəradərlə olan qanına qəltan,
Qafqazdakı qurbanlarına şükr, xudaya! [7, s. 384]

S.S.Əczi də eyni ruhda deyir:

Ammamalı şaytonlarınqa şükr, xudaya!
Bu fokidi-imanlarınqa şükr, xudaya!
Səd çəkməyə urfan yoluna amr eləmişlər,
Bu fikirli sultanlarına şükr, xudaya!
Öz keyfinə dünyanın təsəllüt edəcəklər,
Qazilərinə, xanlarına şükr, xudaya!
Çayxanalarda məktəb açıblar ramazanda
Ətfali-qəzəlxanlarına şükr, xudaya!.. [3]

Bir müddət sonra S.S.Əczi "Özbək satirasının Sabiri" kimi tanınır. "Sabirin "Ey pul" Əczinin "Çervon", Sabirin "Əkinçi" Əczinin "Əkin yerlərinin dərdü-həsrəti", Sabirin "Uçitellər" Əczinin "Ziyalılar" şeirlərindəki təsirlər açıq-aydın görünür." [2, s. 47].

Özbək ədibləri içərisində "Molla Nəsrəddin" və Sabir ədəbi məktəbindən bəhrələnən ədiblər sırasında H.Niyazi və M.Sufizadənin də adını çəkmək olar. H.Niyazinin də yazdığı satiralarda Sabir ruhu, Sabir poetikası açıq qeyd olunur.

"Molla Nəsrəddin" jurnalının bütün türkdilli xalqlar arasında müxbirləri vardı. Özbəkistandan olan müxbirin göndərdiyi məqalə və felyetonlarda özbək xalqının həyatı, məişəti təsvir olunurdu. "Molla Nəsrəddin"in təsiri ilə özbək ədibləri satirik əsərlər yazmağa üstünlük verirdilər. Görkəmli özbək yazıçısı Qafur Qulam yazılarında qeyd edirdi ki, mən də yaradıcılığımın ilk illərində "Molla Nəsrəddin"in təsiri ilə satiralar yazırdım. Bu da Molla Nəsrəddinçilərdən daha çox Sabirin təsiri idi. Şair, dramaturq Əsqəd Muxtar da yazır ki, 1910-cu ildə Özbəkistanda baş verən ictimai-siyasi hadisələrə "Molla Nəsrəddin" jurnalı laqeyd qalmır və öz səhifələrində tənqidi yazılar çap edirdi. Biz çoxumuz məhz Mirzə Cəlilin qələmindən ibrət almışıq [2].

"Molla Nəsrəddin"in özbək xalqının həyatına ən böyük təsiri məhz "Muştum" satirik jurnalınının çapı oldu. Böyük ədib Abdulla Qədirinin redaktorluğu ilə çap olunan "Muştum"da şeirləri çap olunan Qafur Qulam, Sabir Abdulla, Xurşud M.Ə.Sabirin təsiri ilə şeirlər yazan şairlər idilər. Jurnalın səhifələrində Sabirə yazılmış nəzirələr də çap olunurdu ki, bu da "Molla Nəsrəddin" jurnalının özbəklər arasında nə qədər sevildiyini və yayıldığını göstərir. A.Qədiri yazırdı ki, qələmlə güldürməyi "Molla Nəsrəddin"dən öyrənmişəm. "Molla Nəsrəddin" türk-müsəlman dünyasında elə bir oyanış etdi ki, onun əməli nəticələri uzun illər sonra da öz bəhrəsini verdi.

M.Ə.Sabir və "Molla Nəsrəddin" jurnalının təsir etdiyi şairlərdən biri də tatar şairi Qabula Tukaydır. M.Ə.Sabirin satirik kimi yetişməsində "Molla Nəsrəddin"in rolu böyükdür. "Molla Nəsrəddin" Sabiri bütün Şərq ölkələrində və türk dünyasında tanıtdığı kimi, Sabir də jurnalın geniş yayılmasında, oxucular arasında məşhurlaşmasına təkan vermişdir. Akademik Məmməd Arif deyirdi:""Molla Nəsrəddin"i zəmanə özü yaratdığı kimi, Sabiri də zəmanə yaradıb, "Molla Nəsrəddin"ə yoldaş, silahdaş vermişdir" [6, s.12].

Qafur Tukayın Mirzə Ələkbər Sabirlə ədəbi tanışlığı "Molla Nəsrəddin" jurnalı vasitəsilə olmuşdur. Tədqiqatçı P.Xəlilovun yazdığına görə, [12, s. 335] Tukay Sabiri yaxşı tanıyır, ondan misallar gətirir və jurnalı təbliğ edirdi.

Tukayın "Millətim" şeirində xalq sevgisi, millətin dərd-səadətini öz taleyi ilə bağlamaq ideyası ön plandadır:

"Səhhətindir səhhətim, həm illətindir illətim…

Satmaram bu kainata millətimi, milliyyətimi" [1, s.49] -misraları ilə Sabirin "Millət şərqisi" şeirində eyni ruh hakimdir. Şair burada xalqı oyadan, digər millətlər arasında şan-şöhrət qazanan millətin ucalığını tərənnüm edir:

"Uyquda ikən aləm, əfradını oyatdın,

cümlə miləl içində öz şə'nini ucaltdın. [7, s.253]

Beləliklə, hər iki şairin poeziyasında milli oyanış, xalq sevgisi və millətin müqəddəsliyi ideyası ortaq məqam kimi çıxış edir. Onları birləşdirən əsas məqsəd xalqları intibaha çağırmaq və milli kimliyi qorumaq olmuşdur.

ƏDƏBİYYAT:

1. A.Tukay. Millətim. Bakı, 2011, 268 s.
2. A.Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri.Bakı:Qartal, 2008, 326 s
3. Abdullayev V.A. Sabir və Əczi. "Kommunist" qəzeti, 29 may 1962.
4. Bayramoğılu Alxan. Mirzə Ələkbər Sabir. Bakı:Qismət nəşriyyatı, 2003, 320s
5. Qəmküsar, Ə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb",2006, 168 s.
6. M.Arif. Sabir və Şərq xalqlarının milli azadlıq hərəkatı. "Azərbaycan" jurnalı, 1962, №5, səh 12-18.
7. M.Ə.Sabir. Hophopnamə.İki cilddə, I cildd. Bakı: Şərq-Qərb, 2004, 384 s.
8. Məmmədquluzadə C. C.Məmmədquluzadənin publisistikası. Kaspi, 4 aprel, 2019, səh 15.
9. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917) Bakı, 2004), 391 s.
10. Molla Nəsrəddin", 1906, №7, səh 6.
11. Nəzmi, Ə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, 544 s.
12. P.Xəlilov. Türk xalqları və şərqi slavyanların ədəbiyyatı. Bakı, 1994, 432 s.
13. Sabir, M.Ə.Hophopnamə.İki cilddə, I cildd. Bakı, "Şərq-Qərb", 2004, 384 s.

SUMMARY
EPRESENTATIVES OF THE LITERARY SCHOOL "MOLLA NASREDDIN" AND THEIR ACTIVITIES

Assoc. Prof. Mammadova Tora Kamal
PhD. Aliyeva Afiqa Ali
PhD. Jabbarova Madina Agakerim

***Keywords**:"Molla Nasreddin", satire, mollanasreddinchis, literary school,criticism*

İn April 1906, in Tbilisi, under the initiative of Ömer Faig Nemanzadeh and with the activity of Jalil Mammadguluzadeh, the magazine Molla Nasreddin was launched. This journal brought together a number of prominent writers of its time. Unlike other press organs of that period, the Molla Nasreddin magazine united those who thought about the future of the people, the so-called "Mollanasreddinchis," on one front in order to struggle against ignorance and backwardness, to promote freedom and equality, and to draw attention to the importance of education and enlightenment. The aim of Molla Nasreddin was to make people think by laughing, and thus to deliver serious ideas in a humorous form. The articles in the magazine were written in a rather simple and understandable language, which allowed ordinary people to read and comprehend them easily. The other press of the time did not pay such great attention to this. For people with weaker reading and writing skills, the illustrations and caricatures published in the magazine had special significance. The caricatures were created by both local artists and foreign painters such as O. Şmerling and J. Rotter.

РЕЗЮМЕ
ПРЕДСТАВИТЕЛИ ЛИТЕРАТУРНОЙ ШКОЛЫ «МОЛЛА НАСРЕДДИН» И ИХ ДЕЯТЕЛЬНОСТЬ

Доц. Маммадова Тора Камал кызы
К.ф.н. Алыева Афига Али кызы
К.ф.н. Джабарова Мадина Агакерим кызы

Ключевые слова: «Молла Насреддин», сатира, молланасреддинцы, литературная школа, kритика

В апреле 1906 года в Тифлисе по инициативе Омара Фаика Неманзаде и при деятельном участии Джалила Мамедгулузаде начал выходить журнал «Молла Насреддин». Этот журнал объединил вокруг себя ряд выдающихся писателей того времени. В отличие от других печатных органов того периода, «Молла Насреддин» сплотил вокруг себя так называемых «молланасреддинцев», которые думали о будущем народа, и поставил своей целью вести борьбу против невежества и отсталости, пропагандировать идеи свободы и равенства, призывать к образованию и просвещению. Задачей

«Моллы Насреддина» было заставить людей задуматься, смеясь, то есть доносить серьёзные идеи в сатирической форме. Статьи в журнале писались достаточно простым и понятным языком, благодаря чему их могли читать и понимать самые обычные люди. Другие издания того времени не уделяли этому такого внимания. Для людей со слабыми навыками чтения и письма особое значение имели иллюстрации и карикатуры, которыми изобиловал журнал. Карикатуры создавались как местными художниками, так и иностранными мастерами, такими как О. Шмерлинг и Й. Роттер.

Rəyçi: filologiya elmləri doktoru Arzu Hüseynova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

Fil.ü.f..d. **RZAYEVA GÜLNAR MIRSƏLIM QIZI**
Gulnar.rzayeva@au.edu.az
0000-0000-0003-0584-0781
Azərbaycan Universiteti
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli, 71

FOLKNERIN "QƏZƏB VƏ SƏS-KÜY" ƏSƏRINDƏ AMERİKA CƏNUBUNUN SOSİAL-MƏNƏVİ BÖHRANININ ƏDƏBİ İNİKASI

Xülasə

Bu məqalə XX əsr Amerika ədəbiyyatının görkəmli nümayəndəsi Uilyam Folknerin yaradıcılığına həsr olunub. Məqalədə onun fərqli bədii üslubu, ənənəvi mədəni-mənəvi dəyərlərə qeyri-adi baxışı və xüsusən Amerika Cənubunun ictimai-mənəvi böhranını ədəbiyyata gətirməsi vurğulanır. Müəllif qeyd edir ki, Folkner Birinci dünya müharibəsində iştirak etmədiyi üçün Ernest Heminquey və digər "itirilmiş nəsil" yazıçılarından seçilirdi. Bununla belə, o, Amerikanın mənəvi dağınıqlığını və insan talelərinin faciəsini öz əsərlərində dərin şəkildə əks etdirirdi. Bu xüsusiyyətlər daha çox onun ən məşhur əsərlərindən biri olan "Səs-küy və qəzəb" romanında öz əksini tapır.

Açar sözlər: Uilyam Folkner, İtirilmiş Nəsil, Amerika Cənubu, Mədəni Böhran, Səs-küy və Qəzəb, XX əsr ədəbiyyatı

Uilyam Folknerin "Səs-küy və qəzəb" romanı Amerika Cənubunun sosial və mənəvi böhranını dərinliklə əks etdirən əsərdir. Roman Kompsonlar ailəsinin taleyi üzərindən cəmiyyətin çöküşünü və ailədaxili gərginlikləri göstərir. Folknerin "şüur axını" texnikası oxucuya personajların daxili dünyasını və yaşadıqları təlatümləri birbaşa hiss etdirməyə imkan verir. "Səs-küy və qəzəb" romanı Folknerin təbirincə desək, "Sujetsiz hekayətdən - nənələrinin ölümü zamanı qardaş və bacının ağır yas mərasiminə müşahidə edib, stressə düçar olmaması üçün çayın sahilinə oynamağa göndərilməsi əhvalatından yaranmışdır". Kompazisiya baxımından roman dörd hissədən ibarətdir: üç ilkin hissələrdə Kompsonlar nəslinin üç nümayəndəsinin daxili monoloqu ("şüur axını), axırıncı dördüncü hissədə isə təhkiyəçi müəllifin "şüur axını" prinsipi əsasında qurulmuş geniş və üç əvvəlki şüur axınlarını şərh etmək məqsədi güdən daxili monoloqa çevrilmişdir"[4]. Bu hissələrdən hər biri dəqiq şəkildə kompsonlar ailəsinin həyatından konkret bir tarixə ünvanlanmışdır: 7 aprel 1928-ci il, 2 iyun 1910-cu il, 6 aprel 1928-ci il və 8 aprel 1928-ci il. Birinci hissə lal-kar idiot Bencaminin (ailədə ona "Benci" deyə müraciət edirlər) onun daxili monoloqu mahiyyət etibarı ilə heç bir konkret zamanla əlaqələndirilməmişdir. Müxtəlif zamanlarda baş verən hadisələr onun uşaqlıq səviyyəsini dəf edə bilməyən beynində bir-birinə qarışmışdır: onun təhkiyəsində keçmişdə, indiki zamanda baş

vermiş və gələcəkdə baş verə biləcək hadisələr birləşmiş, bir-birinə nüfuz etmiş, dəqiq sərhədlər pozulmuşdur. Bencamin təkcə dünyanı dərketmə qabiliyyətinin məhdudluqlarına görə deyil, həmçinin özünün son dərəcə bəsit fikirlərini ifadə edə bilmədiyinə görə normal insanların və sivilzasiyanın sərhədlərindən kənarda qalmışdır. Bencamin obrazı vasitəsi ilə U. Folkner insanlararası münasibətlərin ən üst və əyani qatını oxuculara təqdim etmişdir. Bencamin ilk növbədə öz intellektual xüsusiyyətlərinə görə cəmiyyətdən bir növ cismən təcrid olunmuşdur. Lakin bu üst, biz deyərdik ki, əyani qatın altında bütün cəmiyyəti bürümüş, ilk baxışdan insanların bir-biri ilə ünsüyyətinə təsir göstərməyən, lakin mahiyyət etibarı ilə insanları bir-birindən təcrid edən, onların arasında mənəvi-əxlaqi uçurum yaradan dəf olunmaz ekzistensial özgələşmə mövcuddur. Folkner paradoksal şəkildə faktiki olaraq oxuculara belə bir ideya aşılayır ki, bu və ya digər şəxsiyyət nə qədər böyük intellektual mənəvi potensiala malik olsa, onun cəmiyyətlə təması bir o qədər maneələrlə rastlaşar. Müəllif bu ideyanı əsərin öz strukturu ilə bir növ bərəkə ifadə etməyə cəhd göstərir: ağıldan kəm Bencamin bir çox cəhətdən məntiqdən uzaq, hadisələr və predmetlər arasında heç bir əlaqəsi nəzərə çarpmayan "şüur axını" baş verən hadisələri dərindən qavrayan və onları bütün varlığı ilə yaşayan Kventin Kompsonun daxili monoloqu ilə izah və şərh etməyə və əsaslandırmağa cəhd göstərir. Bu personajın şüur axını oxucuları 18 il bundan əvvəl baş vermiş hadisəyə ailə böhranın zirvə nöqtəsinə çatıb ailə fəlakətinə çevrilməsinə - Kventinin sui-qəsd hadisəsinə geri qayıtmağa məcbur edir. Qəhrəmanın ölüm öncəsi "şüur axını" Kompsonlar ailəsinin iflasını qaçılmaz faciəsini təcəssüm edir. Romanın üçüncü hissəsində U. Folkner Ceyson Kompsonun daxili monoloqunu oxucuya təqdim edir. Bu monoloq həm məzmunu və mənası, həm də ifadə tərzi ilə romanın iki əvvəlki şüur axınlarından fərqlənir. Əgər müəllif Bencaminin şüur axınını Kompsonlar ailəsinin bioloji iflasının, Kventinin daxili monoloqunu Komsonların ekzistensial fəlakətini - dünyadan və özü özündən özgələşməsini simvolları kimi təqdim edirsə, Ceyson Kompson mənəvi əxlaqi dəyərlərin yoxa çıxmasını təcəssüm edir: Tədqiqatçılar göstərirlər ki, əsərdə müəllif bu obrazı yumorla və hətta satirik cizgilərlə təsvir etmişdir. [2]. Onların dedikləri ilə qismən razılaşmaq olar. Birincisi, Ceyson Kompsonun ailəsinin də daxil olduğu Cənub nəsli Yokkapatof haqqında Saqanın bir çox romanlarında ən azı epizodik personaj səviyyəsində çıxış etmişdir. Bu obraz müəllif tərəfindən daim mənfi obraz kimi təqdim olunmuşdur və satirik bədii vasitələrlə təsvir olunmuşdur. İkincisi, müəllif Amerikanın Cənubunun əsaslandığı mədəni-mənəvi prinsplərin iflasını məhz bu obraz vasitəsi ilə ifadə etmişdir. Bu baxımdan xaraktercə bayağı merkantil dəyərləri rəhbər tutan Ceyson Amerika aristokartiyasının mənəvi-əxlaqi və mədəni deqradasiyanı təcəssüm edir. Əsərdə onun daxili monoloqu öz nəslinin nümayəndələrinə rişxənd hissinin ifadəsinə köklənmişdir. Lakin Ceysonun Kompsonlara münasibəti bir növ daxildən həyata keçirilir - o öz nəslinin hüdudlarından kənara çıxa bilmir. Buna görə də, onun daxili monoloqu ilk növbədə onun özünə qarşı yönəlmişdir, onun özünün ifşasıdır. Məhz

buna görə də Ceysonun öz aristokratik nəslinin dəyərlərini qəbul etməməsi kontrkultura yox, sadəcə olaraq mədəniyyətsizlikdir, mədəni vakuumdur. Romanın dördüncü hissəsində Kompsonlar evinin qaradərili sakinləri ön plana çıxırlar. Onların arasında öz yüksək mənəvi, əxlaqi keyfiyyətləri ilə dərin böhrana uğramış aristokrat Kompsonlardan fərqlənən aşpaz qadın Dilsi obrazı diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, dördüncü hissə əsərdə cərəyan edən hadisələrə tam biganə münasibət bəsləyən, hadisələri yalnız müşayiət edib təsbit etməklə kifayətlənən təhkiyəçi-müəllif tərəfindən həyata keçirilir. Onun yüksək mənəvi-əxlaqi keyfiyyətləri bir tərəfdən faktiki olaraq bütün dəyərlərdən məhrum olmuş Kompsonların mənəvi böhranını, ikinci tərəfdən müəllifin biganə deyim tərzi kontekstində özünü büruzə verir. Dilsinin romanın strukturunda rolu ingilis tənqidçisi U.Alles tərəfindən antik yunan faciələrindəki Xorun rolu ilə müqayisə olunur. Bu rol Dilsiyə yunan faciəsində Xorun ifadə etdiyi üç funksiyanı dialektik vəhdətdə ifadə etməyə imkan verir: aşpaz qadın bir tərəfdən hadisələrin meydana gəlmə səbəbini və cərəyan etmə xüsusiyyətlərini, ikinci tərəfdən onlara verdiyi şərhlərlə diqqəti cəlb edir. Bu iki müxtəlif müəyyən mənada bir-birinə zidd olan funksiyaları Dilsi özünün yüksək mənəvi dəyərləri hesabına çulğalaşdırmağa nail olur: Dilsi bir tərəfdən intiutiv şəkildə Kompsonların düçar olduqları fəlakətlərin ilkin mənəvi-əxlaqi səbəblərini hiss edir, digər tərəfdən uzun illər boyu qulluq etdiyi bu ailənin halına yanır. O bir tərəfdən yunan Xoru kimi ictimai fikrin daşıyıcısıdır, lakin hadisələrə təhkiyəçi-müəllifdən fərqli olaraq biganə münasibət bəsləyə bilmədiyinə görə hadisələr tendensiyasına münasibət bəsləməyə çalışır. Bu iki cəhətin ictimai rəyin və fərdi münasibətin dialektik vəhdəti Dilsiyə Kompsonlar ailəsinin faciəsini bütün dərinliyi ilə görmək və bu ailənin üzvülərinin halına acımaq imkanı verir. Romanla bağlı verdiyi intervülərdən birində Folkner əsərin birinci hissəsinin təhkiyəçisi qismində məhz idiot Bencini seçdiyini belə izah etmişdir. Yazıçının fikrincə məhz bu obraz romanın ideya məzmununu və ideologiyasını ifadə etmək üçün bir sıra müstəsna xüsusiyyətlərə malikdir. Hər şeydən əvvəl Benci sənətkarı "uşağın özünə qapanmış kor-təbii günahsızlığı cəlb edirdi": o nələrin baş verdiyini bilir, lakin səbəbləri müəyyənləşdirmək iqtidarında deyil. [3]. Əsərdə təhkiyyəçilərin bir-birini əvəz etməsi simvolik şəkildə üç dünyaduyumu və dünyadərk konsepsiyasına əsaslanır. Bunlardan birincisi Bencinin uşaq qeyri-rassional, konkret hissi dünyanıdərkidir. O, ətrafında cərəyan edənləri hadisələr zənciri kimi təqdim edir. Lakin bu hadisələr arasında heç bir səbəb-nəticə əlaqələri mövcud deyil. Benci eyni zamanda hadisələri dərk edə bilmədiyinə görə onları dəyərləndirmək, onlara şəxsi münasibət ifadə etmək iqtidarında deyil. Səbəb-nəticə əlaqələrinin olmaması Benciyə hadisələri zaman baxımından da ardıcıl düzməyə imkan vermir. Maksimum emosional gərginlik durumunda yaşayan Kventin Kompsonu daxilən ziddiyyətli düşüncə tərzi ona keçmişlə indiki zaman arasında simvolik körpü, kövrək bağlar sistemi yaratmağa imkan verir. Romanın personajları arasında yaşına uyğun olmayan yaşlı məntiqindən çıxış edən Ceyson real dünyanı, real səbəb-nəticə əlaqələrini adekvat şəkildə

dəyərləndirə bilir. Lakin dünyaya bu ayıq münasibət bir ölçülüdür, hər hansı bir mənəvi-əxlaqi komponentdən məhrumdur. Bu baxımdan Folkner mövcud mənəvi-mədəni dəyərlərə üç münasibət nümayiş etdirir: İdiot Benci bu dəyərləri təsbit edir, lakin bunları təsbit etmək iqtidarında deyil; yüksək emossional gərginlik şəraitində yaşayan Kventinin durumu ənənəvi mədəni-mənəvi dəyərlərin böhrana uğramasını səciyyələndirir, bütün dəyərlərə istehzalı münasibət bəsləyən, faktiki olaraq onları dəyərsizləşdirən Ceyson isə onların tam iflasa uğramasından xəbər verir. Bu üç müxtəlif nəzər nöqtəsinin birtərəfliliyi müəllif şəhrinin obyektivizmində öz həllini tapır. Lakin onu da qeyd etmək lazımdır ki, İkinci dünya müharibəsindən sonra Amerika bir neçə onilliklər ərzində geniş vüsət tapmış bitniklərin və hippilərin hərəkata müxtəlif şəkildə "Səs-küy və qəzəb" romanında qaldırılmış problemlərə öz münasibətini nümayiş etdirdi. Hər şeydən əvvəl atalarının yaşam prinsiplərində, qətiyyətlə və radikal şəkildə imtina edən gənclər faktiki olaraq Kventin obrazında öz əksin tapmış, böhran durumunu təkrar etdilər: gənclər kütləvi şəkildə cəmiyyətin qanunlarından, yaşam tərzindən, mənəvi-mədəni dəyərlərindən, əxlaq prinsiplərindən imtina edir. [1]. Bitniklərin və hippilərin mövcud ictimai və dövlət təsisatlarının fəaliyyətində iştirak etməkdən vaz keçməkdən Kventinin cismani intiharının bir növ kütləvi şəkildə təkrarı, simvolik sui-qəsd idi. Bu gənclərin narkotiklərə aludə olmaqları, gerçəkliyin dərd-sərini, ağrılarını unutmaq naminə ümumiyyətlə dünyadan, gerçəklikdən tamamilə təcrid olunmaq meylləri faktiki olaraq idiot Bencinin gününə düşmək cəhdlərindən xəbər verdi.

Bu baxımdan Kompsonlar ailəsinin faciəsini – Amerikanın mənəvi-mədəni böhranın müəllif obyektivizmi vasitəsilə həll etmək cəhdi XX əsrin sonu XIX əsrin əvvəllərində Amerika Birləşmiş Ştatlarında Dövlət və İctimai Qurumların həqiqətən İkinci dünya müharibəsindən sonra düşdükləri böhran durumunu obyektiv və ayıq şəkildə dəyərləndirə bilmələrindən və düzgün nəticə çıxara bilmələrindən xəbər verir.

Rzayeva G.

THE LITERARY REFLECTION OF THE SOCIO-MORAL CRISIS OF THE AMERICAN SOUTHIN FAULKNER'S NOVEL "THE SOUND AND THE FURY"

The article focuses on William Faulkner, one of the most prominent American writers of the 20th century. It highlights his unconventional approach to cultural and moral values, as well as his distinctive difference from the "Lost Generation" writers such as Ernest Hemingway, since he did not participate in World War I. Nevertheless, Faulkner deeply reflected the moral disintegration of American society, especially the cultural and spiritual crisis of the South. These themes found

their most powerful expression in his renowned novel "The Sound and the Fury" (1929).
Keywords: William Faulkner, Lost Generation, American South, Cultural Crisis, The Sound and the Fury, 20th-century Literature

Рзаева Г.

ЛИТЕРАТУРНОЕ ОТРАЖЕНИЕ СОЦИАЛЬНО-НРАВСТВЕННОГО КРИЗИСА АМЕРИКАНСКОГО ЮГА В РОМАНЕ ФОЛКНЕРА «ШУМ И ЯРОСТЬ»

Резюме

Статья посвящена Уильяму Фолкнеру — одному из выдающихся писателей XX века. В ней подчеркивается его необычный подход к культурным и нравственным ценностям, а также отличие от писателей «потерянного поколения», таких как Эрнест Хемингуэй, поскольку Фолкнер не участвовал в Первой мировой войне. Тем не менее он глубоко отразил духовный кризис американского общества, особенно Юга. Наиболее яркое выражение эти темы получили в его знаменитом романе «Шум и ярость» (1929).
Ключевые слова: Уильям Фолкнер, Потерянное поколение, Американский Юг, Культурный кризис, Шум и ярость, Литература XX века

1. Bleikasten, A. The Ink of Melancholy: Faulkner's Novels from The Sound and the Fury to Light in August / A. Bleikasten. – Indiana University Press, 1990. – 380 p
2. John V. Hagopian (red.) – The Sound and the Fury: Critical Insights (2014)
3. Jonathan Culler – Structuralist Poetics: Structuralism, Linguistics and the Study of Literature (1975)
4. Stephen Hahn və Robert Hamblin – Teaching Faulkner: Approaches and Methods (2001)

Rəyçi: f.e.d., prof. Qorxmaz Quliyev

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

EMİLİYA NATİQ QIZI ƏLİYEVA
Emiliya.Aliyeva@au.edu.az
0000-0002-0275-8419
Azərbaycan Universiteti,
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli, 71

Cəmiyyətin Güzgüsündə Qadın Obrazı: K. B. ROUZUN "ÇİNAR AĞACI" VƏ H. Z. UŞAQLIGİLİN "EŞQİ-MƏMNU" ROMANLARINDA sosial azadlıq probleminin təzahür xüsusiyyətləri

Xülasə

Bu məqalədə Kristin Bruk Rouzun "Çinar ağacı" və Xalid Ziya Uşaklıgilin "Eşqi-məmnu" romanlarında Qərb və Şərq ənənələrində qadın problemi müqayisəli şəkildə tədqiq olunur. Qadının özünüidentifikasiyası, ictimai gözləntilər və ailə vəzifələri arasındakı daxili konflikt araşdırılır. Personajlar vasitəsilə azadlıq, böhran və sosial qınaq kimi mövzular əks olunur. İş modern və ənənəvi şəraitdə gender münasibətlərinə qısa baxış təqdim edir.

Açar sözlər: Kristin Bruk Rouz, qadın, xəyanət, Çinar ağacı, Bihtər.

Giriş. Hər hansı bir yazıçının yaradıcılığına və ya konkret əsərinə yalnız onun daxili məzmunu çərçivəsində, digər müəlliflərin yaradıcılıqlarından və ümumilikdə dünya ədəbiyyatının inkişaf kontekstindən təcrid olunmuş şəkildə yanaşmaq tədqiqatçının həmin yazıçının ədəbi dünyasının dərinliklərini anlamaq imkanlarını məhdudlaşdırır. Cəlil Məmmədquluzadə yaradıcılığına həsr etdiyi tədqiqat işində, professor Qorxmaz müəllim Quliyev yazıçının pyeslərinin çağdaş teatrla (absurd teatr) müqayisəsinə həsr olunmuş hissədə yazır: "... müqayisəyə cəlb olunan hadisələr zaman, məkan, dünyaduyum və dünyagörüş tərzi baxımından bir-birindən nə qədər uzaq olsalar, onların qarşılıqlı şərhi bir o qədər qeyri-adi, süni, göydəndüşmə görsənər. Lakin incəsənət hadisələrinin araşdırılmasının başqa yolu yoxdur... Hər hansı bədii əsərin insanı, cəmiyyəti, dünyanı əks etdirmək prosesini həqiqətən adekvat şəkildə üzə çıxarmaq istəyiriksə, diaxronik, sinxronik, diaxronik-sinxronik kəsiklərdə estetik gərginlik yaratmalıyıq". [5, s 88] Dünya ədəbi hadisələrinə məhz bu şəkildə yanaşmaq zərurətindən çıxış edərək oxucuya təqdim olunan bu araşdırmada XX əsrin 50-ci illərində bədii yaradıclığa atılmış cəsarətli Britaniya yazıçısı Kristin Bruk Rouzun (1923-2012) "Çinar ağacı" (The Sycamore Tree) və XIX əsrin sonu Türkiyə ədəbiyyatında çağdaş romanın atası da adlandırılan, "Sərvəti-fünun" ədəbi cərəyanının nümayəndəsi Xalid Ziya Uşaklıgilin (1865-1945) "Eşqi-məmnu" romanlarında qadın və cəmiyyət, ailə münasibətləri, xəyanət, gender transformasiyası məsələlərinə hər iki əsərin müqayisəli təhlili nəticəsində aydınlıq gətiriləcəkdir.

Qərb perspektivi. XX əsr Avropa ölkələri öz inkişaf yolunun ən mürəkkəb və sarsıdıcı mərhələsini yaşadı, iki böyük dünya müharibələri ilə tarixinin bəlkə də ən ağır imtahanından keçərək, bütün bu hadisələr nəticəsində insanlarının adət etdiyi, kanon hesab olunan düşüncə, həyat tərzinin yenidən dəyərləndirilməsinə zəmin yarandı. Yarıməsrlik bir yaradıcılıq yolu keçmiş Kristin Bruk Rouz bütün bu dövr ərzində Britaniya, eləcə də Avropa həqiqətlərini realist, strukturalist, postmodernist romanları vasitəsilə özünün multikultural, feminist, süni intellekt və dil, insanlararası ünsiyyət, rasizm və başqa bu kimi qlobal məsələlərə dair görüşlərindən tutmuş insan psixikası, sosial münasibətlər, sevgi, xəyanət, ailə problemləri və s. mövzuları özünəməxsus şəkildə işləyib oxucularına təqdim etmişdir. Müharibədən sonra sosial və mənəvi baxımdan parçalanmış London cəmiyyətini təsvir edən müəllif, romanlarında insanların mənəvi dirçəlişi, kimlik bərpası və dağılmış dəyərlər içində yaşamaq mübarizəsini ön plana çəkir.

Tədqiqata cəlb olunmuş "Çinar ağacı" (1956) romanı ənənəvi romanın bütün tələblərinə cavab verir, süjet, personajlar, hadisələr isə 50-ci illərin Britaniya reallıqlarının bədii inikasıdır. Hekayədə olaylar belə cərəyan edir. Qael Cekson evlidir, üç uşağı var, italyan əsilli arvadı Nina cazibədar, intellektual, ağıllı qadındır. Ərini sevir, ailəsinə bağlıdır, məişət məsələləri ilə yaxından maraqlanır. Lakin Hovardla tanış olduqdan, gizli eşq münasibətləri irəlilədikdən sonra qadının tamamilə başqa tərəfləri, şəxsiyyətinin gizli məqamları üzə çıxır. Qadın cəmiyyətin tələbləri və şəxsi azadlıq kimi iki qütbün arasında şəxsiyyət parçalanmasından əziyət çəkir. " With him she, became vulgar, sensual, knowing. A hard look began to mask her features... At home she was happy and chattery with the children and Frieda, kittenish and loving with Gael"[3, s 153] - Onunla ikən kobud, ehtiraslı və təcrübəli olardı. Sərt baxışları üz cizgilərini maskalamağa başladı... Evdə isə uşaqlarla və Frieda ilə xoşbəxt və danışqan, Gael ilə isə pişik kimi şirin və mehriban idi (E.Ə.) Ruhi vəziyyətinin tamamilə ağırlaşması nəticəsində psixi xəstəxanaya belə yerləşdirilir.

1950-ci illərdə qadının patriarxal dövr imicini geri qaytarmağa cəhd olunsa da artıq sərbəstliyin dadını sınamış qadın cəmiyyətdəki mövqeyini əldən vermək istəmədi. Nəticədə qadın artıq öz həqiqətlərini cəmiyyətə sırımaq, əvvəllər rədd olunmuş davranış biçimi normallaşdırmaq yolunda iri addımlar atdı. 1960-cı illərin feminist hərəkatı bu tendensiyaların məntiqi nəticəsi idi.

Bir qadın yazıçı kimi Bruk Rouz bu ab-havanı udub qələmə sarılmışdı. Yuxarıda da qeyd olunduğu kimi, yazıçı cəmiyyətin inkişaf istiqamətini biçimləndirən hadisələri öz gözləri ilə görmüş, dövrü yaşamış, Avropa həqiqətlərinin şahidi olmuşdur. Ərinə xəyanət edən Nina hər kəsdən öncə müəllifinin sanki himayəsindədir. **"**Nina was morose. She was honest enough to hate this kind of double deception. It was one thing to deceive in someone's absence. To behave differently with two people in different places and at different times; it was quite another to put on the casual manner before them both, being watched by both." **[**3, s

203]- Nina qəmgin idi. O, bu cür ikiqat rol oynamağa nifrət edəcək qədər dürüst idi. Birinin yoxluğunda aldatmaq- iki insanla, fərqli yerlərdə və fərqli vaxtlarda fərqli davranmaq — bu başqa bir şey idi; amma hər ikisinin qarşısında, hər ikisi tərəfindən izlənilərkən, rahat davranış nümayiş etdirmək tamamilə başqa bir şey idi." Hovardın ona hər ikisinin ailələrini bir araya gətirmək, ziyafətdə görüşmək təklifi qarşısında Nina əvvəlcə buna etiraz edir, "And she knew Gael well enough to understand that, even if he suspected nothing, he loathed the hypocrisy of chumminess after a serious dispute. She had consequently refused point-blank to fall in with Howard's suggestion" - Və o, Gaeli kifayət qədər yaxşı tanıyırdı, başa düşürdü ki, Gael heç nədən şübhələnməsə belə, ciddi münaqişədən sonra saxta dostluq nümayiş etdirməkdən nifrət edir. Buna görə də o, Hovardın təklifinə açıq şəkildə etiraz etmişdi. [3, s 203] (E. Ə).

Romanın digər qəhrəmanı Elizabeti də eyni aqibət yaxalayır, belə ki, universitetdə müəllim çalışan qadın macar tələbəsi Zoltanla gizli münasibət içindədir. Əri Hovardın Nina ilə münasibətini hiss edir, lakin bu sirri ifşa etmir, hətta Ninanı xəstəxanada ziyarət belə edir. Qadınlar səmimi söhbət edib vidalaşırlar, ikisi də bir-birinin halına acıyır.

Ninanın daha bir vacib dəstəkçisi də əri Qaeldir. O, nəcib xarakteri ilə arvadını son anına qədər tək buraxmır. Nina həyata gözlərini bağlayanda Qael onun başında göz yaşı tökür. Qael Ninanın əzablarını hiss edir, onu anlayırdı. Ninanın etirafını səbrlə dinləyib onun əlini buraxmır.

Şərq perspektivi. Tədqiqata cəlb etdiyimiz digər "Eşqi-məmnu" romanı XIX əsrdə Şərqdə qadın probemi, gender transformasiyası kimi məsələlərin tədqiqi baxımdan aktual əsər hesab oluna bilər. Türkiyə realist ədəbiyyatı tarixində önəmli yeri olan görkəmli yazıçı Xalid Ziya Uşaqlıgil yaradıcılığı, xüsusilə də "Eşqi-məmnu" romanı kifayət qədər tədqiq olunmuş, romanın əsasında son dönəmlər bir neçə televiziya filmi ərsəyə gəldikdən sonra sözügedən hekayə yenidən gündəmə gəlmiş, roman, eləcə də yazıçının bədii irsi müxtəlif istiqamətlərdən öyrənilmişdir. Lakin təqdim olunan tədqiqat işində "Eşqi- məmnu" romanının Kristin Bruk Rouzun bədii irsi ilə müqayisə kontekstində sərf-nəzər edilərək, Britaniya və Türkiyə ədəbiyyatlarında xəyanət mövzusu və qadın probleminin müqayisəli tədqiqi, hər halda, məqalənin orjinallığını təmin edir.

Romanın əsas qəhrəmanı Bihtər türk ədəbiyyatında unudulmaz və mürəkkəb obrazlardan biridir. Bihtər sevgi, ehtiras və cəmiyyətin qoyduğu sərhədlər arasında qalan, daxili mübarizə aparan bir qadındır. O, maddi və sosial rahatlıq üçün yaşlı, varlı Adnan bəy ilə evlənir, amma ürəyində həqiqi sevgi yox idi. Bihtərin sevgisi ərinin gənc qohumu Bəhlula qarşı idi və bu qadağan olunmuş sevgi onu böyük çətinliklərə, faciəyə sürüklədi.

Şərqdə xəyanətə münasibətdə isə cəmiyyət o qədər də tolerant deyildi. Bihtərin durumu, əlbəttə ki, Ninanınkından fərqlənirdi. Hər nə qədər Türkiyənin Qərbə qapı açdığı dönəmin məhsulu olsa da roman müəllifinin öz kökündən

qopmadığını göstərir. Yazıçı yaratdığı personajların daha çox xəyali xarakter daşıdığını etiraf etsə də, roman XX əsrə keçid mərhələsindəki qadın problem, gender məsələsi mövzularına işıq salır. "H. Ziyanın kahramanları ne kadar piyanoda Chopin çalsalar, Alexandre Dumas okusalar, redingot giyseler ve XIV Louis mobilyalarıyla evlerini döşeseler de bizim insanımızdır." [2, s 191-192]

"Sonra Bihter vicdanının azabından, ihanetinin bu alçaklığından söz etmek istedi; bunlardan söz ederse bir cinayet itirafından duyulan hafifliği bulacağı zannına kapılmıştı. Fakat sesinde bir şey fark ediyordu ki bu kendi kulaklarında bile yanlış bir nağmenin etkisini uyandırıyordu. Yoksa bu söyledikleri hep yalan mıydı? Hiçbir vicdan azabı duymuyor, bu ihanetinin alçaklığını ruhunun samimiyetiyle hissetmiyor muydu? ..." [6, s 206]

"Bu ilk aşk günahından sonra Bihter hastalanmış gibiydi, Behlül'ün odasından çıkınca hiçbir şey duymamıştı. Bütün hissini uyuşturan bir uyku içindeydi. Bir şey düşünmeyecek hep susmak istiyordu. Yatağına girince hemen uyumuştu; fakat sabahleyin gözlerini açar açmaz, henüz yatağından kalkmadan, bütün o çirkin hakikati kendisiyle beraber uyanmış buldu. Demek bu sabah Bihter her sabahkinden başka bir Bihter'di. Artık talihsiz, talihsizliğine acınacak bir kadın değil, bir daha silinmeyecek bir lekeyle kirlenmiş, alçak, pis bir mahluktu" [6, s 184]- cümlələri ilə anladılır Bihtərin gizli münasibəti. Və yazıçının mövqeyi aydın sezilir. Xəyanət qəbuledilməzdir, ləkədir. Qadın bunu çox yaxşı dərk edirdi. Bihtərin də ruhi vəziyəti sürətlə dəyişilir və o da Nina kimi şəxsiyyət parçalanmasından əziyət çəkir. İztirabları başlayır, nəinki Nina kimi psixoloji dəstək almağa imkanı, hətta vəziyyətini anlamağa bir kimsəsi də olmur. Qadın tamamilə yalnızdır. Əri Adnan, məşuqu Behlül, bacısı Peykər, hətta sonda sirrini etiraf etsə bilə anası da ona dəstək ola, əlini tuta bilmir. "Oh! Bunu söylemeye kuvvet bulsaydı, kendi cinayetinin intikamını yine kendi alsaydı o lekeden kendini temizlemiş olacaktı. [6, s 184] – Bihtər öz aqibəti ilə baş-başadır. Məlum sonu da özü seçməli oldu.

Bu iki personajı müqayisə edərkən məkan faktoru qədər zaman da həlledici amil kimi nəzərə alınmalıdır. Bihtərlə Ninanı bir birindən yarım əsr ayırırdı. Dünya tarixində ən gərgin hadisələrlə dolu yarım əsrlik zaman kəsimi! "Osmanlı kadını, Tanzimat dönemine kadar bazı konularda kısıtlanmış bir şekilde yaşamını sürdürdü. Ülke içerisindeki gelişmeler doğrultusunda, mevcudiyetlerini II. Meşrutiyetle ortaya çıkarmaya başladılar. Meşrutiyet ile bazı haklara sahip olmuşlardı. Artık kızlar için eğitim başlamış, miras hakları doğmuştu. II.Meşrutiyet'in ilanı ile birlikte kadınlar, çalışma hayatında da boy göstermeye başlamışlardır. Özellikle o dönemde savaşa giden erkeklerin yerine boş kalan memurluklara yerleştirilmişlerdir." [1]

XIX əsr Osmanlı İmperiyası üçün təkcə siyasi və iqtisadi transformasiyalar dövrü deyil, həm də sosial dəyişikliklərin başladığı bir mərhələ oldu. Bu dəyişikliklər arasında qadınların cəmiyyətdəki mövqeyi və hüquqları da önəmli yer tuturdu.

Ancaq qadın haqları məsələsi o dövrdə hələ tam inkişaf etməmiş, çoxsaylı məhdudiyyətlər və ənənəvi stereotiplər qadınların sərbəst seçiminə hələ də əngəl idi.

Nəticə. Həm Kristin Bruk Rouzun "Çinar ağacı", həm də Xalid Ziya Uşaklıgilin "Eşqi-məmnu" romanlarında qadın obrazlarının taleləri fərqli coğrafiyalarda, müxtəlif zaman və ictimai şərtlərdə formalaşsa da, hər iki əsər qadının cəmiyyətdəki mövqeyinin, azadlıq arzusunun və şəxsiyyət mübarizəsinin ortaq ağrılarla müşayiət olunduğunu göstərir. Qərbdə qadınların müharibədən sonra əldə etdikləri sosial azadlıqlar onları ictimai həyata inteqrasiya etsə də, bu proses şəxsiyyət parçalanması, ailədaxili gərginlik və mənəvi boşluq kimi yeni problemlərlə müşayiət olunur. Şərqdə isə qadının cəmiyyət və ailə qarşısında məsuliyyət yükü daha sərt patriarxal qaydalar çərçivəsində çəkilir və bu zaman mənəvi münaqişələr daha dərin faciələrlə yekunlaşır. Hər iki əsərdə qadın obrazları yalnız xəyanət və sevgi ətrafında deyil, həm də sosial ədalət, azad seçim və insan psixologiyasının mürəkkəb qatları fonunda təqdim olunur. Beləliklə, Rouz və Uşaklıgilin romanları qadın problemi kimi universal bir mövzuya Qərb və Şərq perspektivlərindən baxaraq həm oxucuya, həm də tədqiqatçıya fərqli düşüncə platformaları təqdim edir.

E. N. Aliyeva

The Image of Woman in the Mirror of Society: Manifestations of the Problem of Social Freedom in K. B. Rouz's *The Sycamore Tree* and H. Z. Ushakligil's *Forbidden Love*

Abstract

The article compares the women's issue in Western and Eastern traditions based on the novels *Sycamore* by Christine Brooke-Rose and *Forbidden Love* by Halid Ziya Uşhaklıgil. It examines the internal conflict of women between self-identity, social expectations, and family duties. Through the characters, themes of freedom, crisis, and social condemnation are explored. The study offers a brief overview of gender relations in modernity and tradition.

Keywords: Christine Brooke-Rose, woman, betrayal, The Sycamore Tree, Bihter

Э. Н. Алиева

Образ женщины в зеркале общества: особенности проявления проблемы социальной свободы в романах К. Б. Роуз «Сикомор» и Х. З. Ушаклыгил «Запретная любовь»

Резюме

Статья сравнивает женский вопрос в западной и восточной традициях на основе романов Кристин Брук Роуз «Сикомор» и Халида Зии Ушаклыгиля «Запретная любовь». Рассматривается внутренний конфликт женщины между самоидентификацией, общественными ожиданиями и семейными обязанностями. Через образы раскрываются темы свободы, кризиса и социального осуждения. Предлагается краткий обзор гендерных отношений в модерне и традиции.

Ключевые слова: Кристин Брук-Роуз, женщина, измена, Сикомор, Бихтер

Ədəbiyyat siyahısı:

1. Acar, H. (2019). Türk kültür ve devlet geleneğinde kadın. *İnsan & İnsan*, 6(21), 395–411. https://doi.org/10.29224/insanveinsan.536610
2. Atay, O. (2005). *Günlük*. İstanbul: İletişim Yayınları.
3. Brooke-Rose, C. (1958). *The Sycamore Tree*. London: Secker & Warburg.
4. Myrdal, A., & Klein, V. (2001). *Women's Two Roles: Home and Work*. New York: Routledge.
5. Quliyev, Q. H. (2012). *Cəlil Məmmədquluzadə və dünya dramaturgiyası*. Bakı: Apostrof.
6. Uşaklıgil, H. Z. (2019). *Aşk-ı Memnu*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları

Rəyçi: f.e.d., prof. Qorxmaz Quliyev

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

UOT: 398:801.6

AYTƏN CƏFƏR QIZI CƏFƏROVA
ceferli_ayten@mail.ru
AMEA Naxçıvan Bölməsi
İncəsənət, Dil və Ədəbiyyat İnstitutu,
Folklorşünaslıq şöbəsinin müdiri,
filologiya üzrə fəlsəfə doktoru, dosent
ORCİD: 0000-0002-9547-3155

"ZAMAN-ZAMAN İÇİNDƏ" SİMVOLU VƏ QƏHRƏMANA AİD MİFİK ZAMAN FORMULLARI
(Naxçıvan folklor mətnləri əsasında)

Açar sözlər: mifoloji zaman, zaman və məkan, nağıl mətni, xaos zamanı, kosmos zamanı

Keywords: mythological time, time and space, fairy tale text, time of chaos, space time

Ключевые слова: мифологическое время, время и пространство, сказочный текст, время хаоса, пространство-время

Giriş. Qədim mifoloji şüurun xüsusi səviyyəsi zaman kultudur. Zaman kultunun daşıyıcıları qədim dünya mifologiyasında təqvim tanrıları (Osiris, Dionis və s.), zamana məsul tanrılar, zamanla əlaqəli tanrılar (bir üzü keçmişə, digəri gələcəyə çevrilmiş Xronos və ya Yanus), ya da həyatın və insanın taleyindən məsul olan aşağı tanrılardır (Romalıların moiraları və s.).

Mifoloji zaman anlayışı haqqında daha aydın fikir ifadə etmək üçün nağıl mətnləri ən uyğun obyektdir. Bu zamanın mifoloji səviyyəsindən bəhs etmək üçün mütləq şəkildə onu ifadə edən simvolik rudimentləri müşahidə etmək gərəkdir. Bu anlayışların müxtəlif zamanlarda hansısa köklü məna daşıyıcıları olması mümkündür. Lakin mövcud durumda onlar öz əsl funksiyasını itirmiş, buna baxmayaraq, yaşayan anlayışlardır. Həm də yaşadığı obyekt də məhz nağıl mətnlərinin tərkibidir. Bu baxımdan, həmin anlayşıların nağıl mətni üçün də lazımi funksiya daşıdığı məlumdur. Əslində, belə anlayışlar "pişrov" da adlanır. Lakin pişrov funksiyasını tam daşımayan, zahirən pişrovlara bənzəyən, amma fərqli mövqedən nağıl mətni üçün önəm daşıyan anlayışların da bəlli dövrün tam formalı mətnləri, ən azı ifadələri olmasını demək mümkündür. "Biri var idi, biri yox idi", "Allahdan başqa heç kim yox idi", "keçmiş zamanlarda", "qədimlərdə" və s. bu kimi sabit nağıl formulları ilə yanaşı zamanın içində digər zamanı ifadə edən anlayışlar da vardır. Bunlar, əvvəldə də qeyd edildiyi kimi, sabit formullara zahirən bənzəsə də, o deyildir. Nağıllarda qəhrəmanın taleyi ilə bağlı olub, onun gələcəyini müəyyən edən, onun gələcəyində müsbət və ya mənfi yöndən təsiri olan zaman da nağıl mətni üçün

əsas kateqoriyadır. Bunlar "bir müddət", "üç saat vaxt", "üç gün sonra", "üç il sonra", "qırx gün", "iynəyarım yol" və s. kimi formullardır ki, qəhrəmanın sonrakı taleyinin açılmasına, çox zaman, bu formulların təyini olduğu anlayışlarla start verilir.

Əsas hissə. Naxçıvandan toplanılmış "Şahzadə Seyfəddin" (2, s.186) adlı nağıl mətnində qəhrəman öz real dünyasına bir müddət yol getdikdən sonra qovuşur. Həmin zaman ərzində getdiyi yol onu kosmosa doğru istiqamətləndirən yoldur. Və beləliklə, qəhrəmanın əsl həyatı məhz həmin bir müddət yol getdikdən sonra aydınlaşır: "Bunlar bir müddət yol gedəndən sonra qabaqlarına dəniz çıxdı. Gəmiyə minib yollarına davam elədilər. Dənizin ortasında bir tufan qopub gəmini parça-parça elədi. Gəmidəkilərin hamısı batdı. Bu oğlanlar üzmək bildiklərindən hərəsi bir taxta parçasının üstündə üzə-üzə ayrı yerlərə gəlib çıxdılar. Padşahın oğlu böyük bir şəhərə tuş gəlir. Gəlib padşahın sarayına çıxır. Padşah onu görüb bəyənir, yanına çağırır..." (2, s. 186). Məntdən göründüyü kimi, qəhrəmanın həyatının xaosdan qurtulub kosmosa qovuşmasında vasitəçi məhz mifik zaman – bir müddət gedilən yoldur.

Nağıl mətnlərində zamanla bağlı xarakterik məqamlardan biri də məhz zamanın saylarla ifadəsidir. Belə ki, Naxçıvandan toplanılmış mətnlərdə, əsasən, üç saat, üç gün, üç il, qırx gün və s. kimi zaman simvolları sakral mahiyyət daşıyaraq qəhrəmanın taleyinin müəyyənləşməsində əsas faktor kimi diqqət cəlb edir. Üç sayının, ümumiyyətlə, xaosla kosmos arasında mifoloji bağ funksiyası daşıdığı haqqında digər araşdırmalarda bəhs etmişik. Eləcə də üç sayının zamanı təyin etdiyində daşıdığı funksiya da xaos-kosmos arasında vasitədən ibarətdir. Üçlə təyin olunan zaman qəhrəmanın həm də təfəkkürünün formalaşmasında, ağıl, cəsarət, qabiliyyət qazanmasında müsbət rolu olan etnokosmik struktura malikdir. Qəhrəman xaosdan kosmosa keçid edir, bu ritual mexanizmi də bəlli zaman içərisində həyata keçirilir. Həmin zaman isə əsasən, üçün təyini olduğu zamanla baş verir. "Şahzadə Seyfəddin" (2, s. 186) mətnində qəhrəman xoas dünyasında olarkən oranın sahibi olan xaotik varlığın – divin gəlişinə məhz üç saat qaldığı haqqında məlumatı divin əsir saxladığı qızdan alır. Qız isə xaos aləmində olduğuna baxmayaraq o, kosmosa aiddir. Bu baxımdan, qəhrəman təkcə oradan sadə şəkildə qurtulmağı düşünmür, o həm də bu üç saat zaman müddətində xaotik varlığın – divin tilsimindən tamamilə və ağıllı yolla qurtulmağın yolunu arayır. Bu düşüncəni də məhz üç saat zaman müddətində əldə edir.

Qəhrəmanın axtardığı qızın üç gündən sonra tapılması da təyin olunan zamanın sakrallığından xəbər verir. Eləcə də Bədiyyə Camal xanımın da üç gündən sonra öz sevgisinə qovuşması zamanın kosmosla əlaqəsini bir daha təsdiqləyir.

Nağıl mətnlərində qəhrəmanın kosmosa qovuşmaq yolunda keçid etdiyi xaos məkanında qarşılaşdığı çətinliklərlə mübarizəsi də məhz üç təyininin aid olduğu gün, ay, illə bağlı olur. Üç ildə qəhrəman yetkinləşir, təkmilləşir. Kosmosa qovuşanda isə sakral mahiyyət daşıyan zamanın yetirməsi olur. Çətin yola səfərə çıxan qəhrəmanın

- Nə olardı bu kitaba nəzirə bir "Səyahətnameyi-Molla Nəsrəddin" də olaydı. Aya, görəsən Molla Nəsrəddin islam aləmini sayəhət etsə, onun başına nə müsibətlər gələ bilər?

Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi:

- Gəlin biz "Mozalan"ı gəzdirək, ancaq bunun səyahətnaməsini öz aramızda bölüşdürək, hər kəs onu özü görüb-bildiyi yerə aparıb səyahət etdirsin; oxuyanlar güman etsinlər ki, həqiqət bu adam gəlib, buraları görüb bu felyetonları yazmış.

Belə də oldu. Birinci felyetonu mən başlayıb, Mozalanı Bakıya kimi gətirdim, Bakıdan Məşhədə onu Salman Mümtaz apardı, İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifzadə gəzdirdi. Beləliklə, "Mozalan bəyin səyahətnaməsi" ortalığa çıxdı" [4, s. 280-281]

Məşhur satirikə isnad edən bir sıra tədqiqatçılar, o cümlədən E.Qasımova, Ə.Tahirzadə, D.Məmmədova və başqaları Salman Mümtazın müəllifliyi fikrini dəstəkləyirlər. "Əbdürrəhim bəy Haqverdiyev və Qurbanəli Şərifzadəylə birgə yazdığı, 1908-ci ildə "Molla Nəsrəddin"də çıxan "Mozalan bəyin səyahətnaməsi" ciddi yaradıcılıq uğurudur" [7, s. 8] Qeyd etmək yerinə düşərdi ki, adı çəkilən müəlliflərdən heç birinin arxivində əsərin – məktubların əlyazması qalmadığından bir qism tədqiqatçı əsərin müəllifinin sadəcə Əbdürrəhim bəy Haqverdiyev olması qənaətindədir. Salman Mümtaz əlyazmalarının böyük bir qisminin terrora məruz qalmasını (yandırılmasını) nəzərə alsaq, bu fikrə qarşı da apponentlik etmək mümkündür.

Mozalan bəy bir qəzetəçidir, lakin səyahət boyunca bəylik alıb necə "Mozalan bəy" və müqəddəs ziyarətkaha gedib "Məşhədi Mozalan bəy" olmasının tarixçəsi açıqlanır. "Molla Nəsrəddin"in 1908-ci il 10 və 11-ci saylarında "İdarədən" qeydi ilə Mozalan bəyin səyahətə çıxacağı və səyahətin yol xəritəsi haqda məlumat verilir. Tədqiqatçıların yekun qənaəti bundan ibarətdir ki, jurnalın 1908-ci ilin 11, 12, 13, 15, 16, 17, 18, 19, 20, 22, 23, 24, 25-ci nömrələrində çıxan səyahət məktubları Əbdürrəhim bəy Haqverdiyev, 26, 27, 28, 29, 30, 31, 32, 33, 35, 36, 38, 40-cı nömrələrində gedən məktublar Salman Mümtaz tərəfindən yazılmışdır. 1908-ci ilin 7 dekabrından sonra jurnalda belə bir qeyd yer alır: *"Lazım görürük oxucularımıza xəbər verək ki, Məşhədi Mozalanbəyin Xorasanda olduğunu şah duyub və hakimə yazıb ki, onu zəncirbənd edib Tehrana göndərsin. Lakin Məşhədi Mozalanbəyin yanına bir ağsaqqal gəlib bu əhvalatı gizli xəbər verir. Ertəsi sabah Mozalanbəy dərviş paltarına girib Bakıya can atır. Orada da dayanmayıb düz iki həftə bundan qabaq Tiflisə gəldi. Burada bir həftə qalandan sonra İrəvan tərəfə yola düşdü və indi bu saat İrəvandadır. Orada bir neçə gün qaldıqdan sonra başlayacaq Qafqazın bəzi şəhərlərini gəzməyə və gəzə-gəzə gördüklərini və eşitdiklərini yazıb göndərəcək ki, jurnalımızda çap etdirək".* Bu qeyddən sonra bir də növbəti məktub 1909-cu ilin 4-cü nömrəsindən işıq üzü görür. 1909-cu ilin 4, 10, 18, 21, 22, 27, 28, 42, 44, 49-cu və 1910-cu ilin 7 və 14-cü nömrələrində gedən məktublar isə Qurbanəli Şərifov

tərəfindən yazılmışdır (Əziz Şərifin atası barədə xatirələrində bu barədə ətraflı məlumat tapmaq mükündür).

Səyahətinə Tiflisdən başlayan Mozalan bəy Yelizavetpol-Gəncə quberniyasında olur. Burda müəllifin Mozalan bəyin əsas tənqid hədəfi çar məmurları və rus ağalığıdır. Müəllif qatara bilet almaq üçün gəldiyi vağzalda gördüyü mənzərəni təsvir edərək yazır: *"Zalda çox adam var idi: övrət, uşaq, kişi, çinovnik"* [4, s.16] Bu qeyddə "çinovnikin" əlahiddə bir qrup kimi götürülməsi fikrimizə sübutdur. Daha maraqlı bir cəhət isə Gəncəyə gedən Mozalanbəyin Yelizavetpol adı və şəhərin ayrı-ayrı hissələrinə verimiş başqa rus adlarına eyhamla dediyi fikirlərdir. Eyni zamanda Mozalanın bəylik alması, yeni pasportunda "Mozalan bəy" kimi qeyd olunması da diqqət çəkir. Köhnə tanışı Mozalan bəyə deyir ki, sən bəyliyə yaraşan heç bir işi görmürsən, araq içmirsən, borc almırsan, kiməsə quyu qazmırsan, ən əsası *"donosbazlıq"* etmirsən. Deməli, donosbazlıqla yalançı bəylik alanlar da rus siyasətinin simasını göstərir.

Salmaz Mümtaza aid olan məktublar Mozalanbəyin müqəddəs yerlərə gedib "Məşhədi Mozalanbəy" olmaq üçün Bakı, Aşqabad, Qoçan, Məşhəd, Xorasan, Nəcəfül-Əşrəfdən verdiyi məlumatlardan ibarətdir. "Mozalan bəy"in "Məşədi Mozalan bəy" olması səbəbi də əsərin Haqverdiyevə məxsus sonuncu hissəsinə təsadüf edir: *"Mən ərz elədim ki, mən tiflisliyəm, adım da Mozalan bəydir.*

Dedi: - Bəli, eşitmişəm. Məşədi Mozalan bəy sizsiniz?

Ürəyim əvvəl bir gupp elədi. Dedim: Bağışlayın, ağa, mən Məşədi deyiləm.

Buyurdu: İnşaallah məşədi olarsız..." [4, s. 35]

Bu yerdə qeyd etmək yerinə düşərdi ki, iki hissə həqiqətən də eyni satirik üslubda yazılsa da, müəlliflərin fərdi üslubi keyfiyyətləri diqqətimizi çəkir. Məs, ilk hissədə Gəncədə hamamın təsviri ilə ikinci hissədəki Xorasanda hamamın təsviri üslub baxımından fərqlənir. Həmin məktublarda oxuyuruq: *"Məşhəddə üç mindən ziyadə tüllabi-elm, axund, molla və müdərris var, iyirmidən ziyadə mədrəsə var, hər mədrəsənin mövqufatı var və mövqufatın mütəvəllisi var. Bunlardan əlavə bir də şəhərdə say və hesabsız dərviş, naqqal, dua yazan, cin tutan və rəml atan var"* [4, s. 48] Mozalanbəyi təəccübləndirən isə bu "üləmaların" bolluğu yox, gerçək elmdən uzaq olmalarıdır. Mozalanbəylə bir tüllabın – tələbənin dialoqu bu mədrəsələrdə nə dini, nə də dünyəvi elmələrin öyrədilməməsindən xəbər verir. Uzun illər ərzində Şərq ölkələrində səyahətdə olan və əlyazmaların toplanması ilə məşğul olan Salman Mümtaz qələmindən çıxan bu hissələrdə təəssübkeş ziyalının təhsil və savadlanma ilə bağlı dərin müşahidələri əksini tapmışdır. Həmçinin burada bir neçə dəfə müqayisə üçün Şəkinin də adı çəkilir.

Məktubların Q.Şərifzadə tərəfindən yazılan üçüncü qismi İrəvan, Naxçıvan, Baş Noraşen, Şərur, Ordubad, Əylis, Culfa ərazilərindən xəbərlər verir. Ümumiyyətlə, məktubların hamısında şimallı-cənublu Azərbaycanın dərdli-ələmli əhalisinin bütün dərdləri dilə gətirilmişdir. Əsər ruhu baxımından satirik olsa da, müəlliflərin "Molla Nəsrəddin" ruhunda xalqın taleyinə acıması diqqət çəkir. Ümumi

janr xüsusiyyətləri baxımından əsər Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi", A.N.Radişşevin "Peterburqdan Moskvaya səyahət" əsərləri ilə daha çox müqayisə olunsa da, sanki ruhən Cəlil Məmmədquluzadənin "Anamın kitabı"nda irəli sürülən Vətənin fərqli təhsil sistemləri və meyillər arasında parçalanması məsələsi ilə səsləşir.

Beləliklə, tədqiqatımızın nəticəsini aşağıdakı şəkildə ifadə edə bilərik:

- "Mozalan bəyin səyahətnaməsi" satirik əsər olmaqla bərabər "Molla Nəsrəddin" ədəbi məktəbinin ruhunu saxlayır;
- Əsərin müəllifliyi məsələsində müqayisəli fikirlər olsa da, fikrimizcə, daha çox üç müəllifin – Ə.Haqverdiyev, S.Mümtaz və Q.Şərifovun hesab olunması məqsədəuyğundur;
- Yuxarıda səsləndirdiyimiz qənaəti əsərin ayrı-ayrı parçalarında oxşar səhnələrin təsvirindəki fərqlərlə sübut edə bilərik;
- əsər ictimai eyiblərin kəskin ifşa olunduğu ən maraqlı satirik əsərlərdəndir və s.

"Mozalan bəyin səyahətnaməsi" xalq dərdinin, xalqın problemlərinin dilə gətirilməsi baxımından çox önəmli əsərlərdir. Əsər tədqiqata cəlb olunsa da, onun həm "Molla Nəsrəddin" məktəbinə aid olan müəlliflərin, həm də ədəbiyyatımızda səyahətnamələrin tədqiqində xüsusi əhəmiyyəti var.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ənvəroğlu Ç. Salman Mümtaz haqqında düşüncələr. "Ədalət" qəzeti, № 171 (2019) 23 noyabr 2019-cu il.
2. Ənvəroğlu Ç. Salman Mümtaz haqqında düşüncələr. "Ədalət" qəzeti, № 172 (2019) 26 noyabr 2019-cu il.
3. Haqverdiyev Ə. "Molla Nəsrəddin" haqqında xatiratım // Cəlil Məmmədqulizadə. Məqalələr. Xatirələr. B., 1967
4. Haqverdiyev Ə., Mümtaz S., Şərifov Q. "Molla Nəsrəddin" jurnalında səyahətnamələr. Bakı, "Elm", 76 səh.
5. Qasımova E. "Mozalan bəyin səyahətnaməsi": mülahizələr, qənaətlər. "Ədəbiyyat Qəzeti", 8 avqust 2020, səh. 24-25
6. Məmmədova D. Ön söz. Haqverdiyev Ə., Mümtaz S., Şərifov Q. "Molla Nəsrəddin" jurnalında səyahətnamələr. Bakı, "Elm", 76 səh. – səh.3-12
7. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı, "Avrasiya Press", 2006, 400 səh.
8. Tahirzadə Ə. Salman Mümtaz. Bakı, "Kür" nəşriyyatı, 2002, 16 səh.
9. Atakişiyeva H. "Mozalanbəyin səyahətnaməsinin" ifşaedici gücü. https://manera.az/index.php?newsid=12610

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dos. Ulduz Mürşüdova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

TƏRANƏ CAVADOVA
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu
teranecavadova062@gmail.com
İstiqlaliyyət, 26

AZƏRBAYCAN MƏTBUATININ ŞANLI YÜZ ƏLLİ İLLİK TARİXİ

XÜLASƏ

Azərbaycan mətbuatının şanlı tarixi 1875-ci il "Əkinçi" qəzetinin ilk nömrəsinin işıq üzü görməsi ilə başlayıb. Bu gün Azərbaycan milli mətbuatının yaranmasından tam 150 il ötür. Azərbaycanın ilk mətbu orqanının – əsası görkəmli mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən qoyulmuş "Əkinçi" qəzetinin nəşrə başladığı 22 iyul tarixi 1991-ci ildən ulu öndər Heydər Əliyevin verdiyi Azərbaycanda Milli Mətbuat günü kimi qeyd olunur. XIX əsrin sonlarına yaxın bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri təbiətşünas-alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olub. Həsən bəy Zərdabinin həyat yoluna bir nəzər salmaq burada yerinə düşər. Azərbaycan milli mətbuatının banisi, görkəmli maarifçi Həsən bəy Zərdabi 1837-ci il iyunun 28-də Göyçay qəzasının Zərdab kəndində anadan olub. İlk təhsilini mollaxanada alıb, orta təhsilini Tiflisdə tamamlayıb. Moskva Universitetini bitirib. İxtisasca təbiətşünas olan Zərdabi 1869-cu ildə Bakı şəhərində rus dilində orta məktəbdə təbiətşünaslıqdan dərs deməyə başlayır. 1873-cü ildə Nəcəf bəy Vəzirov və Əsgər ağa Adıgözəlov ilə birgə Mirzə Fətəli Axundov "Hacı Qara" və "Lənkəran xanının vəziri" komediyalarını tamaşaya qoyur. 1901-ci ildə Bakıda azərbaycanlı qızlar üçün ilk məktəbin açılmasında yaxından iştirak edir. 1875-ci il iyulun 22-də Azərbaycanda ilk milli qəzet olan "Əkinçi"nin nəşrinə başlayır. Lakin qəzetin ömrü uzun çəkmir və 1877-ci il sentyabrın 29-da nəşri dayandırılır. "Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşıb. Lakin "Əkinçi"nin ömrü uzun sürməyib. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başlayıb və sonda qəzetin nəşrini dayandırıb. Buna baxmayaraq, o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. O zamandan müxtəlif enmə və yüksəlmə dövrləri keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən mayak rolunu oynayıb.

Açar sözlər: Azərbaycan mətbuatı, H.Zərdabi, qəzet, informasiya, Bakı, Tiflis.

1880-1890-cı illərdə Həsən bəyin Bakıda və Tiflisdə çıxan "Ziya", "Kəşkül", "Kaspi", "Novoye obozreniye" və digər qəzetlərdə Azərbaycan və rus dillərində çoxlu elmi-kütləvi məqalələri nəşr olunur. Ömrünün sonlarına yaxın Bakı Şəhər Dumasının maarif şöbəsində işləyir. 1907-ci il noyabrın 28-də Bakıda vəfat etmiş və Köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunur. Məzarı 1957-ci ildə Fəxri xiyabana köçürülmüşdür. Hal-hazırda Azərbaycan Təbiət Tarixi Muzeyi, Gəncə Pedaqoji İnstitutu Həsən bəy Zərdabinin adını daşıyır. (2).

Ümummilli lider Heydər Əliyev söyləmişdir: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir." Sivil insan cəmiyyəti formalaşandan azad fikir və sərbəst düşüncə ifadə etməyə, obyektiv informasiya almağa ciddi ehtiyac duyulub. Mətbuat yarandığı vaxtdan hər bir fərdin ayrı-ayrılıqda özünüifadə etmək istəyi əsrlər boyu insanlığın demokratik ideallar uğrunda mübarizəsinin də əsas mahiyyətini təşkil edib. Dövlətlər arasında işgüzar, iqtisadi münasibətlər qurularkən öncə hansı dəyərlərə sahib olduğuna nəzər salınır - araşdırılır. Maddi dəyərlərindən əvvəl ölkənin milli-mənəvi dəyərləri qiymətləndirilir. Çünki maddi dəyərlər yalnız tutarlı, zəngin ənənələrə malik milli-mənəvi dəyərlər mövcud olduğu halda mümkündür. Əsrlər boyunca Azərbaycanda da qeyri-maddi, mənəvi dəyərlərin yaradılması uğrunda mübarizələr aparılıb. Bu gün müasir cəmiyyəti mətbuatsız, mədəniyyətsiz, təhsilsiz, iqtisadi və siyasi nailiyyətlər olmadan təsəvvür etmək mümkün deyil. Mətbuatımızın keçdiyi tarixi yol qürur doğurur. Bu il Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasının 150 ili tamam olur. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli ruhunun formalaşmasında yeni mərhələ oldu. Əsasən maarifçilik missiyasını yerinə yetirən "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşdı. Milli oyanışın yeni mərhələsinin təmsilçisi kimi "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşma prosesinə təkan verdi, xalqın maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə birbaşa təsir göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insana xidmət borcunu şərəflə yerinə yetirdi. Mütərəqqi ideyaların carçısı olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin ən böyük uğurları ilk növbədə onun mətbu dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqisinə çalışan "Əkinçi" qadın azadlığı və qadınların təhsili ideyasını təbliğ edirdi. "Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Dərbənddən Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunurdu. O, dini mövhumata, xurafata

və cəhalətə qarşı kəskin çıxışlar edirdi. "Əkinçi" Azərbaycandan kənarda da – Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı. Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafının təməli rolunu oynadı. 1877-ci ilin 29 sentyabr tarixinə qədər "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edildi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və qəzetin nəşrini dayandırdı. Qəzetin cəmi 56 nömrəsi işıq üzü gördü.

"Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq bir müddət Azərbaycan dilində mətbu orqan çap olunmadı...(1,s.25). XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti oldu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olub. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bildi. 1906-cı il aprelin 7-də Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" nəşrə başladı. 1918-ci ilədək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921-1931-ci illərdə Bakıda çap olundu.

Bu dövr Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan "Ziya", "Kəşkül", "Kaspi", "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük xidmətləri olub. Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Bu dövrdə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir.

Mətbuat tariximizdə hərb, müharibə mövzusu Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan mətbu orqanlarında "Azərbaycan", "Açıq söz" və "İstiqlal" qəzetlərində daha geniş yer alıb. 1920-ci ilin aprel işğalından sonra Azərbaycan diviziyasının orqanı olan "Qızıl əsgər" qəzeti fəaliyyətə başlayır. 10 ildən çox nəşr edilən bu qəzetin Azərbaycan hərbi mətbuatının inkişafında xüsusi yeri var. 1922-ci ildə hərbi mətbuat nümunələrimizdən biri olan "Savadlı Qırmızı Əsgər" adlı ilk jurnal Bakıda nəşr olundu. Ayda bir dəfə nəşr olunan, hərbi qulluqçular üçün

nəzərdə tutulan ictimai-siyasi, ədəbi-elmi məcmuə yeni yaranmış Azərbaycan diviziyasının orqanı kimi fəaliyyət göstərirdi. Jurnalın nəşr olunmasında əsas məqsəd əsgərlərin maariflənməsi, onların döyüş hazırlığı, silaha qulluq qaydaları haqqında və ədəbi-bədii mövzuda yazılar dərc etmək idi. "Qızıl əsgər" adı altında nəşrini davam etdirən bu mətbu orqanını sonralar general Ələğa Şıxlinskinin təklifiylə "Hərbi Bilik" adlandırdılar. Jurnal hərbi elmi əsaslara və nəzəriyyəyə söykənərək məzmununda və tərtibatında yeniliklər etdi. Ötən əsrin 30-cu illərinin əvvəllərində bütün milli diviziyalar, bölmələr sovet ordusunun tərkibinə keçdiyindən hərbi mətbuat öz fəaliyyətini dayandırdı. Sovet ordusunun hərbi dairələrinin qəzetləri nəşrə başladı.

Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan Ordusunun formalaşdığı ilk gündən Qarabağ müharibəsinin ağır döyüşlərini və əməliyyatlarını öz səhifələrində işıqlandıran milli hərbi mətbuatımız yarandı. 1992-ci ilin fevralından nəşrə başlayan "Azərbaycan Ordusu", bu qəzet ilk öncə "Xalq Ordusu" adlanırdı, "Hərbi Bilik" jurnalı bu gün ordumuzun ən dəyərli müharibə, hərbi mətbuat salnaməsini yazan mətbu orqanlarıdır.

1993-cü il iyunun 2-də Azərbaycan Ordusunun inkişaf istiqamətlərini, hərbi həyatın özəlliklərini, müharibə həqiqətlərini bütün konkretliyi ilə əks etdirmək, faktları və hadisələri sənədləşdirmək, qoruyub saxlamaq məqsədilə Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının əsası qoyuldu. Onların sayəsində Azərbaycan Ordusunun bu günə kimi keçdiyi şərəfli və uğurlu yoldan əhatəli məlumat əldə etmək mümkündür. Beləcə, Azərbaycan kütləvi informasiya vasitələri sırasında mühüm yer alan hərbi mətbuatımız ötən dövr ərzində böyük inkişaf yolu keçərək Qarabağ müharibəsinin döyüş salnaməsini yaratdı. Vətən müharibəsində qəzetimizin əməkdaşları üç səyyar informativ qəzet-bülletenlər hazırladılar.

Bu gün "Azərbaycan Ordusu" qəzeti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Müdafiə Nazirliyinin rəhbərliyinin bütün göstərişlərini böyük məsuliyyətlə, dövlətə, dövlətçiliyə böyük sədaqətlə yerinə yetirir. (4,2).

Dövlətimizdə söz və informasiya azadlığının əldə olunması, azad informasiya mühitinin formalaşması siyasəti Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Heydər Əliyev bu sahədə dünya təcrübəsinə yaxşı bələd olan bir rəhbər kimi yaxşı bilirdi ki, hər bir ölkənin informasiya məkanı, informasiya ehtiyatları və texnologiyaları cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafının səviyyəsini və dinamikasını müəyyənləşdirir. Məhz onun prezidentliyi dövründə ölkədə azad, müstəqil, beynəlxalq rəqabətə davamlı, demokratik milli kütləvi informasiya vasitələrinin formalaşması və hərtərəfli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilməyə başlanmışdır. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV üzərində hər hansı senzuranın yolverilməzliyi birmənalı şəkildə təsbit edilmişdir. XX əsrin sonlarından

başlayaraq Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaradılmışdır. Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilərək senzuraya birdəfəlik son qoyulmuşdur. Fərmanda nəzərdə tutulan digər tədbirlər müstəqil KİV-in inkişafını, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmişdir. Azərbaycan Jurnalistlərinin I Qurultayında, 2003-cü ildə mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən müstəqil Mətbuat Şurası yaranmışdır. (3).

Qeyd etmək lazımdır ki, Azərbaycanın müasir informasiya təminatı və təhlükəsizliyi siyasəti hüquqi, təşkilati-texniki və iqtisadi metodlarla təmin olunur. Burada hüquqi metodlar dedikdə, "informasiya sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktların, informasiya təminatı və təhlükəsizliyi ilə bağlı normativ metodiki sənədlərin işlənib hazırlanması və qəbulu nəzərdə tutulur. Təşkilati-texniki metodlara informasiya-telekommunikasiya sistemlərinin normal fəaliyyətinə təhlükə yaradan texniki qurğuların, proqramların aşkarlanması və s. daxildir. İqtisadi metodlar isə informasiya təminatı və təhlükəsizliyinin təmin olunması sahəsində iqtisadi tədbirlərin görülməsi və onların maliyyələşdirilməsi ilə əlaqədardır.

İstifadə edilmiş ədəbiyyat:

1. Akif Aşırlı. Azərbaycan mətbuat tarixi (1875-1920). Bakı – "Elm və təhsil" - 2009, 296 səh.
2. Azərbaycan mətbuatı. Vikipediya.
3. Mətbuat tariximiz. Əkinçidən başlayan yol. Media agentliyi.
4. Pərviz Sadayoğlu. Müasir Azərbaycan mətbuatı böyük inkişaf yolu keçib. Yeni Azərbaycan qəzeti. 22 iyul 2011-ci il

TARANA CAVADOVA
Institute of Manuscripts named after
Muhammad Fuzuli of ANAS

THE GLORIOUS HUNDRED AND FIFTY YEARS OF HISTORY OF THE AZERBAIJAN PRESS

Keywords: Azerbaijani press, H. Zardabi, newspaper, information, Baku, Tbilisi.

SUMMARY

The glorious history of the Azerbaijani press began with the publication of the first issue of the "Ekinchi" newspaper in 1875. Today, exactly 150 years have passed since the establishment of the Azerbaijani national press. July 22, the date of the beginning of the publication of the first Azerbaijani press, the "Ekinchi"

newspaper, founded by the prominent thinker Hasan bey Zardabi, has been celebrated in Azerbaijan as the National Press Day since 1991, as declared by the great leader Heydar Aliyev. The publisher, editor, and proofreader of this newspaper, which caused a great resonance throughout the Caucasus towards the end of the 19th century, was the naturalist-scientist Hasan bey Zardabi, one of the founders of the Azerbaijani national enlightenment movement. Mirza Fatali Akhundzadeh, Seyid Azim Shirvani, Najaf bey Vazirov, Asker agha Gorani, and other intellectuals played a great role in the creation of the newspaper. It is appropriate to take a look at the life path of Hasan bey Zardabi. The founder of the Azerbaijani national press, a prominent educator, Hasan bey Zardabi was born on June 28, 1837 in the village of Zardab, Goychay district. He received his primary education in a mullahkhana and completed his secondary education in Tbilisi. He graduated from Moscow University. Zardabi, who was a naturalist by profession, began teaching natural science at a Russian-language secondary school in Baku in 1869. In 1873, together with Najaf bey Vezirov and Asker aga Adigozalov, Mirza Fatali Akhundov staged the comedies "Haji Gara" and "Lankaran Khan's Vizier". In 1901, he closely participated in the opening of the first school for Azerbaijani girls in Baku. On July 22, 1875, he began publishing the first national newspaper in Azerbaijan, "Ekinchi". However, the newspaper did not last long and its publication was stopped on September 29, 1877. Although only 56 issues of "Ekinchi" were published from July 22, 1875 to September 1877, it played an indispensable role in the formation and development of the Azerbaijani national press. "Ekinchi", which mainly undertook the mission of enlightenment, became very popular among both the intelligentsia and ordinary people in a short time. However, the life of "Ekinchi" did not last long. Tsarist Russia began to shy away from the role of the newspaper in educating people and making them more closely acquainted with socio-political processes, and eventually stopped publishing the newspaper. Nevertheless, prominent educators of that time, propagating their enlightening and democratic ideas on the pages of the "Ekinchi" newspaper, had a great influence on the development of social, political and artistic thought. Since then, the Azerbaijani press, which has gone through various periods of decline and rise, has always played the role of a beacon reflecting society's view of processes.

Rəyçi: fil.ü.f.d. Samirə Əliyeva

MAMEDOVA AYSEL
Phd Candidate at Azerbaijan University
Lecturer at the English Language Department at Baku Engineering University
Khirdalan, Azerbaijan
amammadova1@beu.edu.az

MAIN IDEAS IN THE DYSTOPIAN NOVEL "THE WANTING SEED" BY ANTHONY BURGESS

ABSTRACT

This paper explores Anthony Burgess`s "The Wanting Seed" as a dynamic dystopian novel that critically engages with sociopolitical anxieties of its time, particularly the consequences of unchecked population growth. Through a satirical portrayal of British society, Burgess interrogates both governmental authority and civil irresponsibility, presenting a cyclical regime that shifts between ideological extremes. The novel envisions various radical solutions to overpopulation, ranging from reproductive restrictions to state-sanctioned extermination and cannibalism, while ultimately affirming the resilience of human nature and the importance of fundamental rights such as procreation and religious practice. By depicting characters who are simultaneously dignified and flawed, Burgess avoids simplistic moral binaries, offering a nuanced critique of both liberal-democratic inefficacy and authoritarian overreach. Although some of the novel`s concerns have lost immediacy, its central themes remain relevant in contemporary discussions on biopolitics, state control, and the ethical limits of governance.

Key words: population growth, Malthusianism, fertility, human rights.

INTRODUCTION

Anthony Burgess, a well-known English writer, critic, composer and man of letters, is also famous for his dystopian novels, including "A Clockwork Orange" and "The Wanting Seed". Although similar in genre to "A Clockwork Orange", "The Wanting Seed" is, as frequently noted, a distinct and highly imaginative novel (2, p.268). The central theme of the work is the crisis arising from overpopulation. The author presents this issue through grotesque- that is, exaggerated and satirical-depictions, illustrating how societal norms and governmental perspectives may shift in response to such crises. To portray state control over the population, Burgess constructs a range of fictional governmental institutions, such as the Ministry of Infertility, the Population Police, and the Institute of Homosexuality. Moreover, by introducing a variety of characters alongside these institutions, he offers readers a broader socio-political landscape. From a research perspective, "The Wanting Seed" is a work that foregrounds issues of state and governance, and in this regard, it offers rich material for discussing the role and functions of government within the broader context of Burgess`s oeuvre. While significant points concerning politics, religion, stereotypes, and related symbolic themes are addressed in the author`s biography and in sections devoted to "A Clockwork Orange", "The Wanting Seed" possesses

distinctive features, some of which have yet to be thoroughly explored. Although both novels were published in the same year, their origins, central ideas, and sources of inspiration differ markedly. (1, p.58) As for the origin of the novel`s title, it was inspired by a folk song. "The title was taken from a folk song; in its refrain, the phrases *wanton seed* and *wanting seed* were used interchangeably. Here, seed referred directly to semen, serving as a symbol of male fertility, and the song carried a subtly erotic undertone" (3, p.32). The title clearly resonates with one of the novel`s central themes: fertility. However, fertility in the novel is not confined to biological reproduction processes, the repressive policies aimed at curbing population growth, and the consequent loss of individual sovereignty over one`s own body. The word *wanting* itself carries a dual meaning: both "desiring" and "lacking". This ambiguity aligns closely with the novel`s thematic essence, as characters exist in a paradoxical state- they are driven by the instinct to reproduce, yet this natural impulse is systematically suppressed. Society is thus rendered into a state of "wanting seed", suggesting both diminished fertility and the criminalization or prohibition of childbirth. Moreover, in the novel`s dystopian world, concepts such as marriage, parenthood, and natural reproduction are transformed into processes that are regulated and controlled by the state. This allows the idea of fertility to be explored not only in a biological sense but also within broader social and political contexts. The erotic origin of the title, specifically, the subdued eroticism of the folk song, captures the tension between individual desire and biological need on the one hand, and societal repression on the other. Thus, the title "The Wanting Seed" is directly linked to the novel`s thematic vector of fertility and population control. It symbolically represents both the natural human impulses and the ways in which these impulses are stifled under a totalitarian regime. In this sense, the title is not merely an aesthetic or literary choice; it also functions as a symbolic expression that encapsulates the ideological foundation of the work. (1, p.60) According to Burgess, the central idea of the novel "The Wanting Seed" emerged from the Malthusian theory and his memories of Malaya related to the issue of "constantly increasing population density". He writes: *"My book had to be devoted to a subject I had long been contemplating- population growth. I had lived in the East, where population density is prevalent, and had re-read Thomas Malthus. The day would come when there would be too many mouths to feed, but insufficient resources"*. (3, p. 33) Malthusianism, the notion that food production cannot keep pace with population growth, is explicitly depicted in the novel. Burgess conveys this idea particularly through the emergence of cannibalistic tendencies among people. These tendencies are presented as a reaction to persistent food shortages and the difficulties associated with a ration card system. This situation also recalls the food scarcity that occurred in the Soviet Union. Moreover, the theme of cannibalism is rooted in Burgess`s personal travel experiences. He recounts an incident during his time in Malaya when he traveled to New Guinea: "During my journey to New Guinea, I was offered a

piece of roasted meat. These people had only recently abandoned the custom of feeding unwanted children to pigs. I only found out what I had eaten after I had consumed it" (3, p.34). Based on this information, one can gain a clearer understanding of the plot of "The Wanting Seed" and how the author developed this central idea. Furthermore, these elements form a foundation for analyzing how the novel portrays concepts of government and governance.

The plot of the novel unfolds around two central characters: history teacher Tristram Foxe and his wife Beatrice-Joanne. In the opening chapter, the reader is introduced to Beatrice-Johanna at the Ministry of Agriculture. She is mourning the loss of her beloved son, Roger, who passed away following a severe illness. Beatrice-Joanne struggles to reconcile herself with the state and its prevailing ideology, experiencing a profound sense of inner turmoil. She is engaged in a clandestine romantic relationship with Tristram`s brother, Derek. Derek who is employed at the Ministry, presents himself as homosexual in order to advance within the state apparatus. This is due to fact that the governmental system depicted in the novel actively promotes homosexuality, granting certain social privileges to citizens who identify as such. As a consequence of this affair, Beatrice-Joanne becomes pregnant, although she remains uncertain about the identity of the child`s father.

At the beginning of the novel, Anthony Burgess presents the liberal order- that is, a state system aimed at safeguarding individual freedom and well-being- as a means to mitigate the problems caused by population growth. However, as the narrative progresses, this system transforms into a tyrannical regime. The newly established "Global Population Limitation Authority" and its affiliated institutions not only monitor the population but also begin to deliberately exterminate individuals. Tristram Foxe, who serves as the author`s mouthpiece, repeatedly expresses his concern over this situation. He emphasizes that the state has fabricated the image of a non-existent enemy and that sending people to their deaths is ultimately meaningless. These reflections highlight Burgess`s critique of the military and political structures. As Tristram states: "*There is no enemy over there. The whole thing is fake. Very shortly this trench will blow up and the blowing-up will be done by remote control, by some bloody big spider sitting at base. Don`t you see?"* (4, p. 248) Some researches argue that Anthony Burgess portrays the government as the sole authority capable of resolving issues related to "body politics" (the physical and biological condition of society), presenting state intervention as a more humane alternative in comparison to the hunger resulting from citizens` irresponsibility. Kateb approaches the matter as follows: "*One of the things I meant is that in Burgess`s world, horrible as it is, government is a largely benign force. It is undemocratic in the name of efficiency, but it is also completely devoid of the lust for power and aggrandizement. When it acts it acts solely for the general good.*" (5, p.101). This perspective appears reasonable to some extent, as individual characters such as Beatrice-Joanne Foxe illustrate the inefficiency of liberal-democratic

approaches in addressing emergencies related to population growth. The initial assumption that people would act responsibly leads to deep disappointment, resulting in increasing negligence and, eventually, the implementation of harsher punitive measures. For instance, the main female character Beatrice`s disregard for the policy recommending only one child per family (whether living or deceased) clearly highlights this issue and explains why the state later establishes institutions such as the Population Police: *" I mean, people have been having children in excess of the ration and nothing much has happened to them. I`m entitled to a child…"* (4, p.71). Based on the aforementioned arguments, it can be said that Burgess`s critique is not directed at the state itself but rather at the initial course of action it chooses. Consequently, in "The Wanting Seed", the portrayal of the state is presented as contradictory and multifaced. In conclusion, in "The Wanting Seed", Burgess constructs a dynamic dystopian narrative in which the regime undergoes cyclical transformations, using the novel as a vehicle to express a range of anxieties pertinent to the period in which it was written, while satirically critiquing certain aspects of British society. Although some of these concerns may no longer be relevant today, the novel`s central theme, population growth and its consequences, remains strikingly current. Throughout the narrative, Burgess proposes not one but several potential "solutions" to the problem, ranging from the restriction of reproduction to extermination sessions, and even cannibalism. As bleak as this vision of humanity`s future may be, the novel continues to underscore the innate life force of the human race. In this context, Burgess emerges as a defender of "human nature" and of fundamental human rights such as the right to reproduce and to practice religion. He exposes the flaws of both civil society and government, substantiating this stance by portraying his characters as both dignified and culpable, thus reflecting the complex moral ambiguity that defines his critique.

BIBLIOGRAPHY

1. Mamedova Aysel, "Entoni Bercessin yaradıcılığında Şərq və Qərb mövzusunun inikası" adlı dissertasiya işi.
2. Biswell, "The Real Life of Anthony Burgess".
3. Burgess, Anthony, "You`ve had your time: the second part of confessions", New York: Grove Weidenfeld, 1991.
4. Burgess, Anthony, "The Wanting Seed", Penguin Essentials, 2023.
5. Kateb, George. "Politics and Modernity: The Strategies of Desperation". New Literary History, vol.3.

AYSEL MAMEDOVA

ENTONİ BERCESSİN "ARZULANAN TOXUM" ADLI ANTİUTOPİK ROMANINDA ƏSAS İDEYALAR

XÜLASƏ

Məqalədə Entoni Bercessin "Arzulanan Toxum" romanı dinamik antiutopik bir əsər kimi təhlil edilir və onun yazıldığı dövrün ictimai-siyasi narahatlıqlarınaç

xüsusilə də nəzarətsiz əhali artımının nəticələrinə münasibəti araşdırılır. Bercess Britaniya cəmiyyətini satirik şəkildə təsvir edərək həm hökumət hakimiyyətini, həm də vətəndaş məsuliyyətsizliyini tənqid edir və ideoloji ifratlara meylli olan dövri rejim modelini təqdim edir. Romanda əhali artımına qarşı müxtəlif radikal "həll yolları" təklif olunur, çoxalmanın məhdudlaşdırılmasından tutmuş dövlət tərəfindən həyata keçirilən exterminasiya və kannibalizmə qədər. Lakin bu bədbin düşüncəyə baxmayaraq, əsər insan təbiətinin dirənişini və çoxalma, dini icra kimi fundamental hüquqların əhəmiyyətini vurğulamaqda davam edir. Bercess həm liberal-demokratik sistemlərin səmərəsizliyini, həm də avtoritar nəzarətin etik sərhədlərini tənqid edərək, obrazlarını eyni anda həm ləyaqətli, həm də qüsurlu şəkildə təqdim edir və bu yolla sadələşdirilmiş mənəvi dualizmdən yayınır. Romanın bəzi narahatlıqları müasir dövrdə aktuallığını itirsə də, onun əsas mövzuları olan biopolitika, dövlət nəzarəti və idarəçiliyin etik sərhədləri bu gün də aktual olaraq qalmaqdadır.

Açar sözlər: əhali artımı, maltusçuluq, doğum, insan haqqları.

АЙСЕЛЬ МАМЕДОВА

ОСНОВНЫЕ ИДЕИ АНТИУТОПИЧЕСКОГО РОМАНА «ЖАЖДА СЕМЕНИ» ЭНТОНИ БЁРДЖЕССА

АННОТАЦИЯ

В данной статье рассматривается роман Энтони Бёрджесса Желаемое семя как динамичное антиутопическое произведение, в котором отражаются социально-политические тревоги эпохи, особенно связанные с неконтролируемым ростом населения. Посредством сатирического изображения британского общества Бёрджесс критикует как государственную власть, так и гражданскую безответственность, представляя модель циклически изменяющегося режима, склонного к идеологическим крайностям. В романе предлагаются различные радикальные «решения» проблемы перенаселения — от ограничения рождаемости до санкционированных государством сессий истребления и даже каннибализма. Несмотря на мрачный взгляд на будущее человечества, произведение подчёркивает жизнеспособность человеческой природы и важность фундаментальных прав, таких как право на воспроизведение и свободу вероисповедания. Бёрджесс выявляет недостатки как гражданского общества, так и государственного аппарата, изображая своих персонажей одновременно достойными и порочными, тем самым избегая упрощённого морального дуализма. Хотя некоторые из поднятых в романе проблем утратили актуальность, его ключевые темы — биополитика, государственный контроль и этические границы власти — остаются важными и в современном контексте.

Ключевые слова: рост населения, мальтузианство, рождаемость, права человека.

Rəyçi: prof. Qorxmaz Həsi oğlu Quliyev

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

QASIMOV RAMİL ELŞAD OĞLU
polkovnik-leytenant, Heydər Əliyev adına Hərbi İnstitutun NATO/
Sülh naminə tərəfdaşlıq və Humanitar fənlər kafedrasının baş müəllimi.
Heydər Əliyev adına Hərbi İnistitut
Bakı şəhəri
E-mail: ramilqasimov@mail.ru.

HƏRB TARİXİNDƏ ZƏFƏR SƏLNAMƏSİ

Məqalədə 44 günlük vətən müharibəsində qazanılan qələbənin başlıca səbəbləri Azərbaycan və Ermənistan Respublikaları arasında cərəyan etmiş "Dağlıq Qarabağ Konflikti"nin qlobal güclərin maraqlarının toqquşmaları meydanında yeri, əhəmiyyəti və rolu nəzərdən keçirilir.

Azərbaycan və Ermənistan Respublikalarıa rasında 2020-ci il Vətən Müharibəsinin döyüş əməliyatları və nəticələrindən bəhs edilir.

Açar sözlər: "Qarabağ müharibəsi", "ATƏT-in Minsk Qrupu", "Qarabağ konflikti", **"**II Qarabağ müharibəsi". "Astana əməkdaşlıq formatı"

ХРОНИКА ПОБЕДЫ В ВОЕННОЙ ИСТОРИИ

.Гасымов Рамиль Эльшад оглы,

В статье рассматривается роль, место и значение Нагорно-Карабахского конфликта протекающего между Азербайджаном и Арменией в поле столкновений интересов глобальных сил.

Обсуждаются военные действия и итоги Отечественной войны 2020 года между Азербайджанской Республикой и Арменией.

Ключевые слова: Карабахская война, шелковый путь, южный Кавказ, конфликт.

A CHRONICLE OF VICTORY IN MILITARY HISTORY

Gasimov Ramil Elshad ogly

The article examines the role, place and significance of the Nagorno - Karabakh conflict between Azerbaijan and Armenia in the field of clashes of interests of global forces.

The military actions and results of the Patriotic War of 2020 between the Republic of Azerbaijan and Armenia are discussed.

Keywords: Karabakh war, silk road, South Caucasus, conflict.

Müqəddimə

1991-ci ildə SSRİ süqut etdikdən sonra kapitalizm və sosializm düşərgələri arasında "dəmir pərdə" düşdü, dünyanın iki qütblük düzəni pozuldu. NATO keçmiş SSRİ respublikalarına və SSRİ təsir sferasına - Varşava Müqaviləsi dövlətləri ərazilərinə genişlənməyəcəyi öhdəliyi götürdü.**[1]** Lakin bu öhdəliyi pozdu. Qərb dövlətləri birləşib Avropa İttifaqı adlı yeni düşərgə yaratdı**.[2]** Kommunizm düşərgəsi məğlub elan edildi və "1946-1992-ci il Soyuq Müharibədə Qələbə" medalı tərtib edildi.**[3]** II Dünya Müharibəsi nəticəsində yaranmış dünyanın düzəni dəyişdi, bir qütblük yarandı. Amerika özünü dünya polisinə, Avropa İttifaqı isə özünü bəşər övladının mədəniyyət beşiyi və dünya hakiminə çevirdi**.[4]** Amerika və Avropa İttifaqı vahid "Qərb" mövqeyindən çıxış edərək, cənuba və şərqə istiqamətlənmiş ekspansiyaya başladı.

Pribaltika ölkələrindən başqa Azərbaycan və Ermənistan da daxil olmaqla 12 possovet ölkəsi Müstəqil Dövlətlər Birliyi adlanan siyasi-iqtisadi qurum, yeni gütb formalaşdırmağa cəhd etdi.**[5]** Lakin bu qurum daha çox kağız üzərində rəsmi fəaliyyət göstərdi və çox keçmədən dağılmağa başladı. Gürcüstan sonra isə Ukrayna bu qurumdan çıxdı.

Rusiya Federasiyası keçmiş possovet ölkələrinin bir qismini əhatə edən "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı" adlı hərbi blok yaratdı.**[6]** Azərbaycan Ermənistan arasında "Qarabağ konflikti"ndə Rusiya ermənilərə dəstək verdiyindən Azərbaycan bu hərbi bloka daxil olmadı.

Dünyanın vacib iqtisadi, siyasi, hərbi cəhətli ərazilərində yaradılmış konfliktlər təsir və təhdid alətinə çevrildi. Belə konfliktlərdən biri olan "Qarabağ Konflikti"ni beynəlxalq hüquq çərçivəsində həll etmək üçün maraqlı tərəflərdən ibarət "Qərbdə" fəaliyyət göstərəcək "ATƏT-in Minsk Qrupu" adlı format yaradıldı.**[7]**

Hərbi siyasi vəziyyət.

Amerika və Avropa İttifaqının-"Qərbin" hərbi, siyasi, iqtisadi maraqlar dairəsi genişləndikcə dünyada, "Avropa dəyərləri", "Demokratiya və insan haqları" şüarı altında rəngli inqilablar edildi və siyasi hakimiyyətlər dəyişdirildi. Narazılar siyasi-iqtisadi sanksiya tətbiq edilməklə təsir altına alındı. Müxaliflərə "diktator", "terror" damğaları vuruldu və hərbi-siyasi yolla hakimiyyətlər devrildi. Müqavimət göstərənlər terrorla mübarizə pərdəsi altında müharibə ilə məhv edilidi. İraq lideri Səddam Hüseyn, Liviya lideri Müəmmar Qəddafinin göstəri edamları dünyaya nümayiş edildi. Dünyada bir qütblü qloballaşma başladı və güc prinsipi irəli çıxdı. Hadisələrin belə cərəyanını izləyən digər ölkələr Rusiya, Türkiyə, İran, Çin, Hindistan kimi Yaxın Şərq və Asiya dövlətləri Amerika və Avropa koalisiyasının maraq sahəsinin genişlənməsi perspektivində aqibətlərinin necə olacağını anladılar.

"Qərb"- Amerika və Avropa koalisiyası Afrikanın Şimalını və Yaxın Şərqi təsir altına alıb, şimaldan cənuba sadalayaraq, Avropada Rusiya dövlət sərhədi-Belarus dövlət sərhədi-Qaradəniz sahili hüdüduna qədər irəlilədi və "Gibrid

müharibə"nin tam aspektləri ilə toqquşmalara davam etdi. Cənubi Qafqazda Gürcüstan ərazisində Qara dəniz sahilindən quruya çıxıb plasdarm yaratdı və Cənubi Qafqaza girdi. Yaxın Şərqdə Aralıq dənizi-Türkiyə dövlət sərhədi-İran dövlət sərhədi-Fars körfəzi hüduduna qədər irəlilədi və silahlı toqquşmalara başladı. Dünya yenidən qütbləşməyə başladı. Avrasiya əməkdaşlıq formatı adlanan yeni qütbün konturları formalaşdı.**[8]**

Azərbaycan yeni və qloballaşan dünya düzənində Qərb-Şərq, Şimal-Cənub arasında, qonşuları ilə balanslaşdırılmış əməkdaşlıq siyasəti apardı, iqtisadi inkişaf yolu ilə getdi. Sülhsevər və faydalı təşəbbüskar siyasətlə Cənubi Qafqazın lakomativinə və liderinə, nəqliyyat, enerji, ticarət kommunikasiyaları paylayıcı məntəqəsinə və dünyanın dini, mədəni, siyasi, iqtisadi əməkdaşlıq meydanına çevrildi. Dünya platformalarında uğurlu fəaliyyətləri ilə rəqibləri neytrallaşdırdı, müttəfiqlərinin sayını artırdı. Məqsədyönlü hərbi əməkdaşlıq siyasəti aparmaqla müasir ordu və hərbi sənaye yaratdı. Qonşularının və dünya öklələrinin hərbi siyasi dəstəyini, etimadını və etibarını qazandı.

Ermənistan region ölkələrinə ərazi iddiaları ilə çıxış etməklə dünya güclərinin maraqlarını təmin edirdi və belə təcavüzkar siyasət nəticəsində bütün qonşuları ilə əlaqələri pisləşdi. Rusiyanın himayəsinə girməklə Rusiyanın hərbi "Forpost"una çevrildi. İşğalçı siyasət aparmaqla qonşu ölkənin, Azərbaycanın dövlət sərhədlərini pozub beynəlxalq hüquqla tanınmış ərazilərinin zəbt etdi. Azərbaycanın təşəbbüsü ilə regiondahəyata keçirilən dünya əhəmiyyətli enerji, nəqliyyat və kommunikasiya layihələrindən təcrid edildi. Ermənistan ölkə olaraq regionda nəqliyyat və kommunikasiya dalanına çevrildi.

Cənubi Qafqazda **Gürcüstan** 2008-ci ildən Rusiyanın təsirindən çıxmışdı və qərbə meyillənmişdi. Rusiyanın idarəsində olan Ermənistanda isə 2018-ci ildə Amerika və Avropanın siyasi texnoloji dəstəyi ilə rəngli inqilab baş verdi və hakimiyyət dəyişdi. Ermənistan regionda xarici qüvvələrin alətinə çevrildi. Ermənistanda hakimiyyətə gəlmiş qərb meyilli siyasətçilər Rusiya Federasiyasına xəyanət edib "Qərbin" himayəsinə girməyə yönəlik cəhdlər etdi. Region dövlətlərinin maraqlarına zidd fəaliyyətlərə başlayaraq Rusiya, Türkiyə, İran, Gürcüstan və Azərbaycana qarşı Cənubi Qafqazda təhlükə mənbəyinə çevrildi.

Rusiya Ermənistanı zəiflədib özündən asılı salmaq üçün "Dağlıq Qarabağ konflikti Azərbaycanın daxili məsələsidir" mövqeyindən çıxış edərək, "müharibə Azərbaycan Respublikası sərhədləri çərçivəsində cərəyan etdiyi təqdirdə" Kollektiv Təşlükəsizlik Müqaviləsi Təşkilatının Azərbaycana təzyiq etməyəcəyini bildirdi. Lakin Emənistanla müttəfiqlik öhdəliyini tam olaraq yerinə yetirəcəyini elan etdi.

Türkiyə Azərbaycana müttəfiqliyini nümayış etdirdi və haqq işində hərətərəfli dəstəklədi.

Azərbaycan və Türkiyə birgə hərbi təlimlərə başladı. Azərbaycan təlim məqsədi ilə ehtiyat korpus yaratdı. Rusiya, Belarus, Ermənistan, İran, Pakistan, Çin

birgə hərbi təlimlərin keçirilməsi ilə Avrasiyada hərbi əməkdaşlıq və həmrəylik nümayiş etdirdi. Rusiya "Qərbin" aviadaşıyıcı gəmi qruplarını məhv edə biləcək uzaq mənzilli "Sirkon" ballistik raketinin uğurlu sınaq buraxışları keçirdi. Azərbaycan BMT kürsüsündən Ermənistanın öz işğalçı siyasətindən çəkinməyəcəyi təqdirdə güc tətbiq edəcəyinin elan etdi.

Nəticə

Vətən müharibəsində qələbənin qazanılmasının bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, qələbə milli birlik, əzmi, millətin dövlət rəhbərinə dərin inamı və yüksək milli ruh nəticəsində qazanıldı. Ölkədə yaşayan bütün etnik qrupların və dini konfessiyaların nümayəndələri olan gənclər işğalçıya qarşı azadlıq müharibəsində bir yerdə oldular. Dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycandakı bütün gənclərin işğalçılara qarşı döyüşlərə bərabər getməsi ölkənin böyük sərvəti idi. Prezident İlham Əliyev bununla əlaqədar olaraq deyirdi: "Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik".Gənc vətənpərvər nəsil düşmənə qarşı mübarizədə fədakarlıq etdi. Ölkə rəhbəri torpaqların işğaldan azad edilməsində qəhrəmanlıqlar göstərmiş insanların fəaliyyətini belə qiymətləndirdi: "Gənc nəsil yetişdi, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi... Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər". Ölkədə fəaliyyət göstərən siyasi partiyalar və ictimai təşkilatlar bəyanat verərək Vətən müharibəsində dövlətin yanında olsalar da, bəzi anti-milli qruplar fərqli mövqe nümayiş etdirdilər. Ümummili maraqların əleyhinə çıxan və Ermənistan rəhbərliyini nümunə gətirən anti-milli qruplara münasibətlər barədə dövlət başçısı qəti mövqeyini belə ifadə edirdi: "... onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alırlar bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı Qələbəmizə kölgə salmaq istəyirlər. Onlar Paşinyanı bizə nümunə gətirirdilər, onu təmiz adam adlandırırdılar, onu demokrat adlandırırdılar. Deyirdilər ki, kaş ki, Azərbaycanda da belə bir lider olaydı".Həmin qrupların məqsədi Azərbaycanı qarışdırmaq, xaos və anarxiya yaratmaq, rəhbərliyi hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq idi. Onlar dövləti və milləti əsas vəzifəsindən çəkindirmək istəyirdilər ki, baş daxili çəkişmələrə qarışsın və işğal edilmiş torpaqlar ermənilərin əlində əbədi qalsın.Dövlət başçısı belə qruplar haqqında deyirdi: "Bizim şanlı Ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər də bu məqsədi güdür. Azərbaycan tarixində bəlkə də onlar kimi iyrənc insanlar olmayıb".İkincisi, qələbənin qazanılmasında iqtisadi amil, Azərbaycanın iqtisadi qüdrəti vacib rol oynadı. İqtisadi hazırlıq olmadan düşmənə qalib gəlmək mümkün deyildi. Ölkədə aparılan düzgün iqtisadi siyasət qüdrətli dövlətin yaradılmasında və düşmən üzərində qalib gəlməkdə başlıca rol oynadı. Ermənistan iqtisadi güc baxımından Azərbaycanla rəqabət apara bilməzdi. Dövlət başçısının fikrincə:

"...iqtisadi müstəqillik həm hazırlıq baxımından, həm siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Bu gün istənilən meyar üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik - istər xarici borc baxımından, istər iqtisadi artım baxımından və adambaşına düşən valyuta ehtiyatları baxımından. Yəni, biz istənilən meyar üzrə qabaqcıl yerlərdəyik...". Üçüncüsü, müharibədə qələbə qazanılmasında ordu quruculuğu başlıca rol oynadı. Ötən illər ərzində ölkədə ordu quruculuğuna xüsusi diqqət yetirilmiş, müasir ordu, müdəfiə sənayesi, hərbi sənaye kompleksi yaradılmışdı. Azərbaycan Ordusu gücünə görə, dünyanın ilk 50 ordularının cərgəsində idi. Bununla əlaqədar olaraq ölkə başçısı bildirirdi: "... ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir". Dördüncüsü, müharibədə qələbənin qazanılmasında yürüdülən uğurlu xarici siyasət fəaliyyəti, informasiya işi, qonşu dövlətlərlə mehriban münasibətlərin qurulması mühüm rol oynamışdı. Ötən illər ərzində Azərbaycan dövləti bölgədə şəraiti dəyişdirə, tərəfdaşlarının sayını artıra bilmişdi. 2003-2020-ci illərdə Azərbaycanın beynəlxalq məsələlərdə atdığı adımlar barədə danışan Prezident İlham Əliyev deyirdi: "...biz köklü surətdə bölgəmizdə vəziyyəti dəyişdirə bildik. Mən xarici siyasətlə bağlı çıxışlarımda demişdim ki, prioritetlər arasında qonşu ölkələrlə bizim əməkdaşlığımız xüsusi yerə malikdir. Amma bununla bərabər, biz bütün başqa ölkələrlə də münasibətlər qurduq. Bu gün bir ölkə yoxdur ki, bizim o ölkə ilə hansısa problemimiz olsun. Biz Avropa İttifaqı ilə sıx əlaqələr qurmuşuq.".Qələbənin qazanılmasında beynəlxalq hüquqi baza əsaslı yer tutmuşdu. 2005 -ci ilə qədər əsas hüquqi baza ancaq BMT Təhlükəsizlik Şurasının qətnamələri olsa da, onlar icra edilmirdi. 2005-ci ildə Avropa Şurası Parlament Assambleyası, BMT Baş Məclisi, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı,Qoşulmama Hərəkatı və digərləri uzun müzakirədən sonar aparılan işlər nəticəsində Azərbaycanı qane edən qətnamə qəbul etmişdi. Bütün bunlar ərazilərin işğaldan azad edilməsində beynəlxalq hüquqi baza olmuşdu. Nəhayət, qələbənin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Silahli Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin üstün zəkası, yüksək sərkərdəlik məharəti, diplomatiyası qəti iradəsi və strategiyası mühüm rol oynadı.

"Qərb" ilə "Şərq" sivilizasiyası toqquşmasının qlobal hərbi, siyasi, iqtisadi təmas xətti üzərində, mərkəzdə yerləşən Çənubi Qafqazda gedən savaşın əsas iştirakçılarının hərbi qarşıdurmasında Azərbaycan Respublikası qalib gəldi. "Avropa dəyərləri", "Demokratiya" simasında "Qərbi" təmsil edən Ermənistan məğlub oldu. Cənubi Qafqazda təzyiq, təhdid, təhlükə mənbəyi və tıxac olan "Dağlıq Qarabağ Konflikti"ni Azərbaycan beynəlxalq hüquqi müstəvidə öz xeyrinə güc yolu ilə həll etdi. Cənubi Qafqazda hərbi, siyasi, iqtisadi problem düyünü olan "Qarabağ Konflikti" hərbi-siyasi güclə açıldı və öz uzun müddətli həllini tapdı. Qərbin Cənubi Qafqazda təsir aləti olan Minsk Qrupu adlı qurum öz əhəmiyyətini itirdi. "Qərb" Cənubi Qafqazdan sıxışdırılaraq təzyiq rıçaqlarında məhrum edildi.

"Şərq dəyərlərinin"-"Avtoritar" idarə sisteminin, "Avropa dəyərləri"-"Demokratik" idarə sistemindən bariz üstünlükləri sivilizasiyaların qlobal qarşıdurmasında öz təsdiqini tapdı. "Avropa dəyərləri"nin və "Demokratiyanın" dünyada ekspansiyası Cənubi Qafqazda dayandı, Yaxın Şərqdə isə sarsıldı.

Azərbaycan və Türkiyə müharibənin nəticəsinə həsr edilmiş qələbə paradında Rusiya, İran, Gürcüstan və Ermənistanın daxil ola bilcəyi "altılıq" platformasının yaradılması təklifini səsləndirdi. Bu bəyanatla Şimal Buzlu okeandan-Hind okeanı sahilinədək ərazidə Qərb ilə Şərq, Şimal və Cənub arasında bütün kommunikasiyaları əhatə edəcək hərbi, siyasi, iqtisadi əməkdaşlıq formatın konturları elan edildi.

Türkiyə ölkənin şərq sərhədlərində "etibarlı və tərəfdaş qonşu", Naxçıvandan yaradılacaq quru nəqliyyat dəhlizi vasitəsi ilə Azərbaycan ərazisindən Xəzər dənizinə və "Türk Dünyası"na bir başa çıxış əldə etdi.

İstifadə olunmuş ədəbiyyatın siyahısı

1. Rus diplomat: "NATO bizi aldatdı…". https://axar.az/news/planet/42428.html.
2. Avropa İttifaqı — Vikipediya, https://az.wikipedia.org/wiki/Avropa İttifaqı.
3. Медаль «За победу в холодной войне» — Википедия. https://ru.wikipedia.org/wiki.
4. "Мировой полицейский" или "защитник демократии"? .https://news.tut.by/culture/538660.html.
5. Müstəqil Dövlətlər Birliyi — Vikipediya. https://az.wikipedia.org/wiki.
6. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı — Vikipediya. https://az.wikipedia.org/wiki.
7. ATƏT-in Minsk qrupu — Vikipediya. https://az.wikipedia.org/wiki.
8. Avrasiya İqtisadi İttifaqı — Vikipediya. https://az.wikipedia.org/wiki
9. Böyük şaxmat taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. Z.K.Bjezinski. "Qanun" nəşriyatı 2011-ci il. Səhifə 73-74.
10. 27 sentyabr 2020-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin "Qismən səfərbərlik haqqında" sərəncamı.
11. Azərbaycan Respublikası Müdafiə Nazirinin №0709 30 sentyabr 2020-ci il tarixli əmri.
12. KİV və internet şəbəkəsinə qismən məhdudiyyətin tətbiq edilməsi haqqında sərəncam.
13. Elmi Əsərlər Məcmuəsi № 2(39) Heydər Əliyev adına Hərbi İnstitutun jurnalı. II Qarabağ müharibəsinin nəticələri.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Hüseyniyyə Şobanocva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

UOT № 82-3.512.162
AYTAC QAFARZADƏ CEYHUN QIZI
Odlar Yurdu Universitetinin doktorantı
qafarzadeaytac23@gmail.com
Orcid ID: 0009-0001-8307-1802

ANAR YARADICILIĞINDA EKOLOJİ DÜŞÜNCƏ VƏ EKOTURİZM ELEMENTLƏRİ (“AĞ QOÇ, QARA QOÇ” VƏ “OTEL OTAĞI” POVESTLƏRİ ƏSASINDA)

Xülasə

Açar sözlər: *Anar yaradıcılığı, ekoloji düşüncə, insan və təbiət münasibətləri, ədəbiyyat və ekologiya, mədəni ekoturizm*

Bu məqalədə görkəmli Azərbaycan yazıçısı Anarın ədəbi yaradıcılığında ekoloji düşüncənin və ekoturizm elementlərinin təzahürü araşdırılır. “Ağ qoç, Qara qoç” və “Otel otağı” povestlərinin təhlili əsasında müasir Azərbaycan nəsrində insan və təbiət münasibətlərinin, ekoloji şüurun

, eləcə də şəhər və təbiət mühitləri arasındakı qarşıdurmanın necə əks olunduğu öyrənilir. Xüsusi diqqət ədəbiyyatın ekoloji düşüncənin formalaşmasında və mədəni ekoturizmin populyarlaşdırılmasında roluna, həmçinin Anarınbədii üslubunun müasir ekoloji diskussiyalar kontekstində aktuallığına yönəldilir.

Aytaj Gafarzade

ECOLOGİCAL THİNKİNG AND ELEMENTS OF ECOTOURİSM İN ANAR’S LİTERARY WORK (BASED ON THE STORİES “THE WHİTE RAM, THE BLACK RAM” AND “THE HOTEL ROOM”)

Summary

Keywords**:** *Anar`s literary works, ecological thinking, human-nature relationship, literature and ecology, cultural ecoturism*

This article explores the presence of ecological thinking and elements of ecotourism in the literary works of Anar, a prominent Azerbaijani writer. Through an analytical study of his stories “The White Ram, the Black Ram” and “The Hotel Room”, the paper examines how human-nature relationships, environmental awareness, and the contrast between urban and natural spaces are reflected in modern Azerbaijani prose. The role of literature in fostering ecological consciousness and promoting cultural ecotourism is also discussed, highlighting the relevance of Anar’s narrative style to contemporary ecological discourse.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

Айтадж Гафарзаде

ЭКОЛОГИЧЕСКОЕ МЫШЛЕНИЕ И ЭЛЕМЕНТЫ ЭКОТУРИЗМА В ТВОРЧЕСТВЕ АНАРА (НА ПРИМЕРЕ ПОВЕСТЕЙ «БЕЛЫЙ БАРАН, ЧЁРНЫЙ БАРАН» И «ГОСТИНИЧНЫЙ НОМЕР»)

Резюме

Ключевые слова: *Творчество Анара, экологическое мышление, взаимоотношения человека и природы, литература и экология, культурный экотуризм*

В данной статье рассматривается проявление экологического мышления и элементов экотуризма в литературном творчестве видного азербайджанского писателя Анара. На основе анализа повестей «Белый баран, чёрный баран» и «Гостиничный номер» исследуется, как в современной азербайджанской прозе отражаются отношения между человеком и природой, экологическое сознание, а также противопоставление городской и природной среды. Особое внимание уделяется роли литературы в формировании экологического мышления и популяризации культурного экотуризма, а также актуальности художественного стиля Анара в контексте современных экологических дискуссий.

Görkəmli Azərbaycan yazıçısı, publisist və ictimai xadim Anar müasir ədəbi düşüncənin formalaşmasında mühüm rol oynamış simalardan biridir. Onun yaradıcılığı milli və bəşəri dəyərlərin vəhdətində formalaşaraq, fərd və cəmiyyət, insan və təbiət münasibətləri kimi mühüm mövzulara toxunur. Anarın əsərlərində fəlsəfi-estetik yanaşma ilə bərabər, dövrün ictimai-sosial problemləri də öz əksini tapır. Xüsusilə təbiətə münasibət, urbanizasiya və ekoloji dəyişikliklər kontekstində yazıçının bədii dünyagörüşündə ekoloji düşüncənin izlərini müşahidə etmək mümkündür. Anarın yaradıcılığı özündə həm milli kimlik, həm də bəşəri dəyərləri ehtiva edir. Onun əsərlərində Azərbaycan xalqının tarixindən, mədəniyyətindən, təbiətindən və sosial problemlərindən bəhs edilir. Xüsusilə Qarabağ, onun təbiəti və mədəniyyəti Anarın əsərlərində tez-tez ön plana çıxan mövzulardandır. Bu əsərlərdə təbiət və insanın vəhdəti, milli ruhun qorunması, ekoloji şüurun yüksəldilməsi kimi məsələlər dərin və mənalı şəkildə əks olunur. Bu məqalədə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Anarın "Ağ qoç, Qara qoç" və "Otel otağı" povestləri əsasında onun yaradıcılığında ekoloji düşüncə və ekoturizm mövzuları tədqiq olunur. Hər iki əsər Azərbaycan ədəbiyyatında insan və təbiət münasibətlərinin bədii təhlilində mühüm rol oynayır və milli-mədəni dəyərlərlə ekoloji düşüncənin vəhdətini əks etdirir. "Ağ qoç, Qara qoç" povestində utopiya ilə antiutopiya janrları birləşir. Əsərdə mifoloji elementlər və xalqın təbiətə bağlılığı ön plandadır. Anarın "Ağ qoç, Qara qoç" əsəri, bir tərəfdən, utopik cəmiyyət modeli təqdim etməklə, digər tərəfdən, Azərbaycan təbiətinin zənginliyini, milli-mədəni irsinə əsaslanan ekoturizm potensialını və təbiətlə insanın harmoniyasını qabardır. Əsərdə təbiətə münasibət yalnız fon olaraq yox, ideoloji və mənəvi dəyər daşıyıcısı

kimi işlənmişdir. Bu əsərdəki yanaşmalar Anarın ümumilikdə təbiətə və mədəni irsə ideoloji-bədii yanaşmasını ortaya qoyur. O, ekologiyanı yalnız fiziki mühit kimi deyil, milli kimliyin və tarixi yaddaşın ayrılmaz hissəsi kimi təqdim edir. Burada təbiət insan həyatının, mədəniyyətinin bir hissəsi kimi təsvir olunur. Əsərdəki simvolizm və bədii obrazlar ekoloji şüurun formalaşmasına töhfə verir.

Əsər qədim bir əfsanəyə əsaslanır və daha çox simvolik-bədii dildə yazılıb. Povestdəki hadisələr real dünya ilə bədii təxəyyülün sərhədində cərəyan edir. Əsərin əsas simvolları olan Ağ qoç və Qara qoç əslində yaxşılıq və pisliyin, nurlu və qaranlıq qüvvələrin təcəssümüdür. Bu iki qüvvə arasında davam edən mübarizə, eyni zamanda, insanın daxilində gedən mənəvi savaşı da ifadə edir. Əsərdə keçmiş zamanlarda yaşamış insanların həyat tərzi, adət-ənənələri, təbiətlə olan vəhdətləri, həmçinin mifoloji dünyagörüşləri ön plandadır. Anar bu əsərlə Azərbaycan xalqının qədim inanclarına və şifahi xalq ədəbiyyatına istinad edərək, müasir insanı öz kökünə qaytarmağa çalışır. "Otel otağı" povestində isə müasir insanın təbiətdən uzaqlaşması, urbanizasiya nəticəsində yaranan mənəvi və ekoloji boşluq nümayiş etdirilir. Povestin qəhrəmanının Şuşa ilə bağlı xatirələri doğma Qarabağ təbiətinə qayıdış arzusunu ifadə etməklə yanaşı, həm də onun milli kimliyə və mənəvi dəyərlərə bağlılığını ön plana çıxarır. Müasir kontekstdə isə Qarabağın, xüsusilə Şuşanın işğaldan azad olunması və bərpası, ekoturizmin inkişafı məsələləri Anarın əsərlərindəki ekoloji və mədəni motivlərlə üst-üstə düşür. Bu da onun yaradıcılığının həm milli-mənəvi, həm də ekoloji aspektdə aktuallığını bir daha sübut edir.

Anarın bu əsərində Şuşa şəhəri, ekoturizm mərkəzi kimi təqdim edilir. Şuşanın ekoturizm mərkəzi kimi təqdim edilməsi, regionun təbii resurslarının və tarixinin qorunub saxlanmasına yönəlmiş bir mesajdır. Bu yalnız təbii gözəlliklərlə zəngin bir bölgənin təsviri deyil, həm də təbiət və mədəniyyətin harmoniyasının simvoludur. Şuşanın səfalı iqlimi, şəfalı bulaqları, həmçinin tarixi və mədəni abidələri ilə bəşəriyyətin mədəni irsini qorumağa xidmət edən bir ekosistem kimi təqdim edilir. Əsərdə bu şəhərin ekoturizm potensialı, həmçinin dünyanın müxtəlif nöqtələrindən gələn turistləri cəlb etməsi vurğulanır. "Son illər Şuşa, doğrudan da, Qafqazın böyük turist mərkəzlərindən birinə çevrilib. Səfalı iqlimi, şəfalı bulaqları, qışda xizək idmanı, ov, alpinizm, tarixi abidələr – dünyanın hər yerindən bura turistləri cəlb edir. Cıdır düzündə, Ərimgəldidə, Topxanada, İsa bulağı meşəsində, Səkili bulağn yanında ucaldılmış beşulduzlu və nisbətən kiçik, xudmani otellər turist tələbatını çətinliklə ödəyir, gərək neçə ay əvvəldən yer rezervasiyası edilsin" [2, səh.9].

"Ağ qoç, qara qoç" əsərində ekoloji maarifləndirmə məsələsi geniş bir mədəni tədbir və təbiətlə bağlı fəaliyyətlər vasitəsilə vurğulanır. Müəllif, Qobustan, Muğan, Gəncə, Naxçıvan kimi yerlərdə keçirilən mədəni və elmi tədbirlər vasitəsilə təbiətə olan münasibətin necə inkişaf etdirildiyini və bu tədbirlərin həm də ekoturizmin inkişafına necə xidmət etdiyini göstərir. Bu cür beynəlxalq tədbirlər, təbii irsin qorunması və onun geniş kütlələrə tanıdılması istiqamətindəki əhəmiyyətini göstərir. Bu cür tədbirlər həm də ekoturizmin təbliği və təbiətə qarşı daha məsuliyyətli

yanaşma formalaşdırmaq üçün vacibdir. "Qobustanda üç ildən-bir Dədə Qorqud törənləri, Muğanda iki ildən-bir Koroğlu idman oyunları, Gəncədə Nizami günləri, Naxçıvanda, Əshabi-Kəf din mərkəzində "Qafqazda İslam" mövzusunda beynəlxalq elmi məşvərət, Dərbənddə Narınqala açıq səma teatrında tarixi tamaşalar festivalı, Şamaxıda Sabir günləri, Qazaxda Molla Pənah Vaqif və Səməd Vurğun günləri, Şuşada Vaqif, Natəvan və Cabbar Qaryağdıoğlu şeir, musiqi məclisləri, Lənkəranda rəqs yarışı, Mərdəkanda Sergey Yesenini anma günü, Təbrizdə Şəhriyar həftəsi, Ərdəbildə Xətai simpoziumu, Marağada muğam gecələri, Tovuzda, Salyanda, Tufarqanda aşıq deyişmələri..." [2, səh.11].

Anarın "Ağ qoç, qara qoç" əsərindəki təbiətə münasibət, həmçinin Qarabağ münaqişəsinin ekoloji təsirləri ilə birbaşa əlaqələndirilə bilər. Əsərdəki Qarabağ hadisələri, təbiətin və ətraf mühitin yaşadığı dağıntıları təmsil edir. Qarabağda gedən döyüşlər yalnız insanların həyatını deyil, həm də dağları, çayları, yaylaları və qədim abidələrə ziyan vermişdir. Bu bölgələr uzun illər boyu müharibənin təsiri altında qalmışdır. Qarabağdakı dəyişən coğrafiya, təbii resursların itirilməsi, torpaqların və ekosistemlərin məhv olması, bəlkə də ən bariz ekoloji dağıntılarla nəticələnmişdir. "Uzaq illərin qanlı Qarabağ hadisələri, ölkənin ovaxtkı ağır iqtisadi durumu indi yalnız xatirələr aləmində qalmışdı" [2, səh.8].

Məlum olduğu kimi, 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunan Şuşa şəhəri 2020-ci il noyabrın 8-də Azərbaycan ordusu tərəfindən azad edilmişdir. Şuşanın işğaldan azad olunması təkcə hərbi-siyasi yox, həm də mədəni və ekoloji baxımdan əhəmiyyətli hadisədir. Çünki bu torpaq həm təbii gözəlliyi, həm tarixi-memarlıq irsi, həm də Azərbaycan mədəniyyətində tutduğu yer baxımından unikal dəyərə malikdir. İşğaldan sonra Şuşada genişmiqyaslı bərpa və abadlıq işlərinə başlanmış, təbiətin bərpası, yaşıl ərazilərin qorunması və ekoturizm potensialının inkişafı istiqamətində ciddi addımlar atılmışdır. Bu gün Şuşa "Azərbaycanın mədəniyyət paytaxtı", eyni zamanda ekoturizm mərkəzi kimi yenidən canlandırılır. Şəhərdə keçirilən "Xarıbülbül" musiqi festivalı, "Vaqif poeziya günləri" kimi tədbirlər həm milli ruhun, həm də mədəni ekosistemin dirçəlişini göstərir.

"Qarabağ demişkən, Məliyin yadına dünən dünən oğlunun Şuşadan telefon etməsi düşdü. Beyrək Şuşada Cıdır düzündən Topxana meşəsinə çəkilən funikulyorun qurulmasına rəhbətlik edirdi. Dünən Məlik telefonla inşaatın nə yerdə olduğunu soruşduqda Beyrək Cıdır düzü tərəfdən Kirsdən Qırx pilləkənə qədər, Topxana tərəfdən İbrahim xanın sığnağna qədər hazırdır, - dedi, - indi iki tərəfi birləşdirmək qalıb, o da bir aya bitər. Sağ olsun mingəçevirlilər, elə yaraşıqlı vaqoncuqlar istehsal ediblər ki, iki göz istəyir tamaşasına. Odur ki, yayda İsa bulağı dincərliyinə gələndə Qarqarın üstündən funikulyorla keçəcəksiniz" [2, səh. 20].

"Qafqaz-tur" şirkəti Qara dəniz sahillərindən Xəzər sahillərinə, Neft daşlarında Bakurianiyə, Elbrusdan, Teberdadan, Dambaydan Göyçə gölünə, Dilicana uzanan yollarla turistlərə bir aylıq rahat və xoş səyahət təklif edirdi. Turistlərə yadigar-suvenirlər kimi Qubaçı ustaların düzəltdiyi metal döymələr, Quba xalçaları, Lahıc

misgərlərinin məmulatı, Basqal kəlağayıları, Gürcüstan çaxırları, erməni konyakları hədiyyə edilirdi" [2, səh.15].

"Otel otağı" Anarın nisbətən sonrakı dövr əsərlərindən biridir və onun psixoloji nəsr sahəsindəki ustalığını nümayiş etdirən nümunələrdən sayılır. "Otel otağı" Anarın yaradıcılığında müasir insanın mənəvi vəziyyətini, vətənə və keçmişə bağlılığını, daxili harmoniyanın itməsi və ya axtarılması problemini bədii dillə əks etdirən güclü psixoloji əsərdir. Əsər tənha insanın daxili monoloqları, nostalgiya, doğmalıq və yadlıq, keçmiş və bu günün təzadları üzərində qurulmuşdur.

Əsərin əsas hissəsi Türkiyədə bir otel otağında baş verir. Baş qəhrəman — azərbaycanlı kişi — Kərim Əsgəroğlu bu otel otağında tək qalaraq, keçmişini, ailəsini, vətənini, doğma Şuşa şəhərini xatırlayır. Bu məkan onun daxili səyahətinə, özünüdərk prosesinə çevrilir. Anarın "Otel otağı" povesti, zahirən şəxsi münasibətlər və insan psixologiyası üzərində qurulsa da, dərin qatlarda urbanizasiya, təbiətdən uzaqlaşma və insanın müasir yaşayış tərzindəki yadlaşmasını da əks etdirir. Bu baxımdan povest ekoloji və ekoturizm yönümlü tədqiqat üçün maraqlı imkanlar yaradır. Povestdəki hadisələr əsasən otel otağında baş verir – bu məkan müasir dünyanın təmsilçisi olaraq təqdim olunur. Otel otağı – adama aid olmayan, kimliyini itirmiş, şəxsiyyətsiz bir məkandır. Burada insan təbiətdən uzaq, dörd divar arasında qapanmış vəziyyətdədir. Bu, bir növ insanın təbii həyat tərzindən uzaq düşməsinin simvoludur. Anarın bu məkana verdiyi soyuqluq, mexaniki atmosfer təsviri, ətraf aləmin təbiilikdən uzaq olduğunu göstərir. Əsərdə qəhrəmanın daxili monoloqları, keçmiş xatirələri və romantik duyğuları fonunda təbiətə olan nostalji hissi sezilir. Müəllif təbiəti bir arxa fon kimi deyil, itirilmiş mənəvi dəyər kimi təqdim edir. Bu, Anarın digər əsərlərində də müşahidə edilən bir tendensiyadır: insan texnoloji tərəqqi və urbanizm içində fiziki olaraq yaşasa da, mənəvi baxımdan təbiətlə əlaqəni itirib və bu itki onu ruhən boşaldıb. Anarın bu povestində birbaşa "ekoturizm" anlayışı işlənməsə də, dolayısı ilə turizm mədəniyyətinə, insanın müvəqqəti məkanlarda yaşaması və bu məkanlara yad qalması kimi məqamlar işlənir. Otel otağında qalmaq, insanın təbiətlə harmoniyada deyil, təcrid olunmuş şəkildə yaşamasına işarədir. Ekoturizmin mahiyyəti – insanın təbiətə qayıtması, onunla harmoniyada olması ideyası – burada əksinə, insanın təbiətdən uzaq düşməsinin acı nəticəsi kimi təqdim olunur. "Otel otağı" povestində qəhrəmanın keçmişə – Şuşa ilə bağlı xatirələrinə dönüşü, Anarın ekoloji və milli yaddaş kontekstində toxunduğu mühüm məqamlardan biridir. Şuşa burada təkcə coğrafi bir məkan deyil, həm də təbii gözəlliyin, səmimi insan münasibətlərinin, itirilmiş harmoniyanın və milli-mədəni kimliyin simvolu kimi təqdim olunur. Qəhrəmanın təsvirlərində Şuşa, uca dağlar, təmiz hava, gözəl mənzərə, sərin bulaqlar və dinc həyat tərzi ilə xatırlanır. Bu da Anarın təbiətə olan duyğusal münasibətini əks etdirir. Şuşa burada bir növ ekoloji ideal kimi təqdim olunur – insanın ruhən dinclik tapdığı, təbiətlə harmoniyada yaşadığı bir yer kimi. "Bu topa-topa , didik-didik duman da Şuşanın dumanıydı və bu duman olmasaydı, o tayda İbrahim xanın sığnağını da görəcəkdi. Bu duman

çəkiləndən sonar Qırx pilləkəni də tapacaqdı və pillə-pillə dərənin dibinə düşüb Daşaltının köpüklü suyundan içəcəkdi. İsa bulağının da suyundan içəcəkdi, İsa bulağından yuxarı Süleyman bulağı da vardı və İsa bulağının dadı başqa idi – Süleyman bulağınınkı başqa. Turşsu da vardı. Şirlan da. Şuşa bulaqlarını bir-bir xatırlamağa başladı: adlarını da, dadlarını da – Saxsı bulaq, Yastı bulaq, Çarx bulaq, Saxsı bulaq" [3, səh.255]. "Dad yaddaşıyla, qoxu yaddaşıyla bərabər uşaqlıq çağının ayrı-ayrı səhnələri, mənzərələri, sifətləri də bir-bir xəyalında canlanırdı. ...İstisuda üç yerdə su püskürüb yerdən çıxırdı, amma bu su yoldakı bulaqların suyu kimi soyuq, sərin deyildi, istiydi, hərarətiylə, tərkibiylə şəfalı idi... indi buraların yer adları - sanki kimsə qulağına bircə-bircə pıçıldayırmış kimi - yaddaşında səslənirdi: Yağlı bulaq, Qızıl qaya, Keçili dağı, Pəri çınqılı, Ayğır qayası, Şiş qaya, Daşlı yurd, Kotan qayası, Eyvazlı dağı, Novlu bulaq. İndi bütün bu yerlər emənilərin əlindəydi" [3, səh.254].

Anarın ədəbi irsində Qarabağ, xüsusilə Şuşa, onun milli-mədəni kimliyinin və estetik dünyasının ayrılmaz parçasıdır. Bu əsərdə ("Otel otağı"nda – A.Q.) "Anarın qələmini dindirən dərd isə bütün xalqın dərdiydi. 1993-1994-cü illərdə çap olunan "Otel otağı" əsəri ilə yazıçı bəlkə də, öz təxminlərinin fövqündə duracaq bir əsər yaratdığının fərqində deyildi. Gözəlliyi dillər əzbəri olan Şuşanın yad əllərdə çırpına bilməyəcək qədər cəsarətini itirdiyini, məğlub olmağa alışmayan bu xalqın Qarabağın ürəyini itirməklə barışa bilmədiyini təsvir edir. Bu aspektdən baxdıqda, yazıçının əsərdə qoyduğu problemin nə qədər ali duyğuları təcəssüm etdirməyə xidmət etdiyi anlaşılır" [4, səh. 96].

Bu torpaq, onun əsərlərində yalnız coğrafi məkan kimi deyil, həm də xalqın milli yaddaşının, mənəvi dirçəlişinin və təbiətlə ahəngdar yaşantının simvolu kimi təsvir olunur. "Otel otağı" povestində qəhrəmanın Şuşaya dair xatirələri təkcə fərdi nostaljini deyil, həm də millətimizin təbiət və vətən sevgisinin dərin ifadəsini əks etdirir. Anarın dediyi kimi: "Özüm də bilmirəm Şuşanı niyə bu qədər sevirəm. Burda doğulmamışam, burda böyüməmişəm, əslim-nəslim bu şəhərdən deyil, qohum-əqrabam burda yaşamır. Söz yox, vətənin hər qarışı, hər bucağı əzizdir, müqəddəsdir, amma Şuşa elə bir yerdir ki, imkanım olsaydı bütün ömrümü burda keçirərdim və vəsiyyət də edərdim ki, öləndə məni burda basdırsınlar" [1, səh. 2].

1992-ci ildə işğal altında qalan Şuşa 2020-ci ildə Azərbaycanın rəşadətli ordusu tərəfindən azad edildikdən sonra burada həm tarixi-mədəni irsin, həm də təbii ekosistemin bərpası istiqamətində mühüm addımlar atılmışdır. Şuşanın işğaldan azad olunması yalnız siyasi və hərbi zəfər kimi deyil, həm də milli kimliyin, təbiətə bağlılığın və mədəniyyətin yenidən canlanması kimi qiymətləndirilir. Şuşa bu gün bərpa və inkişaf mərhələsindədir, burada abadlıq işləri ilə yanaşı, ekoloji tarazlığın bərpası və ekoturizmin inkişafı xüsusi önəm daşıyır. Azərbaycanın mədəniyyət paytaxtı kimi təqdim olunan şəhərdə keçirilən müxtəlif festivallar və tədbirlər milli ruhu yüksəldir, təbiətə qayğı və onun qorunması ideyasını təbliğ edir. Anarın əsərlərindəki Şuşa təsvirləri ilə bu günün real bərpa prosesləri arasında ahəng diqqət çəkir. Əsərdə qəhrəmanın təbiətlə və vətənlə bağlı olan duyğusal bağlılığı,

günümüzdə milli qələbə və bərpa ruhu ilə öz real əksini tapır. Bu baxımdan Anarın bədii mətni həm milli-mənəvi, həm də ekoloji idealların ifadəsinə çevrilir. Beləliklə, Anarın Qarabağa olan dərin bağlılığı və "Otel otağı"nda, "Ağ qoç, Qara qoç"da toxunduğu təbiət və ruhsal bağlılıq mövzuları, Şuşanın işğaldan azad edilməsindən sonra yaranan reallıqla uzlaşır və milli-ədəbiyyat sahəsində ekoloji və mədəni yenilənmənin mühüm göstəricisinə çevrilir. Anarın bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında təkcə fəlsəfi və psixoloji dərinliyi ilə deyil, həm də sosial, mədəni və ekoloji məsələlərə həssas münasibəti ilə seçilir. "Ağ qoç, Qara qoç" povestində mifoloji obrazlar və təbiət simvolları vasitəsilə insan və təbiət münasibətləri, milli-mənəvi dəyərlərlə ekoloji tarazlıq arasındakı əlaqə ön plana çıxarılır. Bu əsərdə təbiət, xalqın həyat tərzi və inancları ilə vəhdət təşkil edən canlı bir sistem kimi təqdim olunur. "Otel otağı" povestində isə müəllif müasir insanın urbanizasiya nəticəsində təbiətdən uzaqlaşmasını, yadlaşmasını və bu səbəbdən yaşadığı mənəvi boşluğu ustalıqla əks etdirir. Otel otağının dar, süni və soyuq atmosferi fonunda qəhrəmanın Şuşaya dair xatirələri — təmiz hava, təbii gözəlliklər və mənəvi rahatlıq motivləri — oxucuda təbiətə qayıdış ehtiyacını oyadır. Bu, Anarın ekoloji düşüncəsinin və dolayısı ilə ekoturizmin fəlsəfəsinə yaxın baxışlarının ifadəsidir.

Hər iki əsərin süjetində Qarabağ təbiəti sadəcə arxa plan deyil, insanın varlığı ilə birbaşa bağlı olan canlı bir mahiyyət kimi təqdim olunur. Yazıçının doğma təbiətə olan estetik və mənəvi münasibəti, onun həm ekoloji şüurun formalaşmasına, həm də bədii, milli-mədəni yaddaşın qorunmasına verdiyi önəmi göstərir. Bu baxımdan Anar yaradıcılığı təkcə bədii-estetik deyil, həm də ekoloji-mədəni dəyər daşıyan bir mənbə kimi tədqiq olunmağa layiqdir.

Ədəbiyyat

1. Akimova E. Anarın əsərlərində Şuşa – etibarlı yaddaş mətnləri kimi. Ədəbiyyat qəzeti.- 2022.- 10 sentyabr.- S. 2.
2. Anar. Ağ qoç, qara qoç (Utopik və antiutopik nağıllar). Qanun nəşriyyatı, Bakı, 2022, 144 səh.
3. Anar. Əsərlər. IV cild, Nurlan, Bakı, 2004, 503 səh.
4. Aslanova C. Anarın nəsrində Qarabağ nisgili. Qədim Diyar Beynəlxalq onlayn elmi jurnal. Cild: 6; Sayı: 4 / 95-98

Rəyçi: Filologiya elmləri doktoru, professor Rüstəm Kamal

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 8, 2025
Səh. ————————

RÜQƏYYA BƏHRUZ QIZI MURADLI
ADPU Cəlilabad filialının müəllimi
muradliruqeyya319@gmail.com

BƏXTİYAR VAHABZADƏNİN "ŞƏHİDLƏR" POEMASI: TARİX VƏ MÜASİRLİK

XÜLASƏ

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Bəxtiyar Vahabzadə vətənə, xalqa ləyaqətlə xidmət edən qüdrətli söz ustasıdır. Çoxşaxəli yaradıcılıq diapazonuna malik olan şair elinə, torpağına, söykökünə bağlılığı, doğma ana dilimizə sonsuz sevgisi, millilik və vətəndaşlıq qayəsi ilə seçilən və bu qayəni aşılayan qüdrətli qələm ustası kimi ədəbiyyatımız tarixində şərəfli yer tutur. 20 yanvar və Qarabağ şəhidləri haqqında yazdığı poema və şeirlər onun vətənpərvər və millətsevər bir şair, əsl Azərbaycan vətəndaşı olmasını təsdiqləyən faktorlar kimi diqqəti çəkir. Məqalədə B.Vahabzadənin "Şəhidlər" poeması təhlil olunur, 20 yanvar hadisələri zamanı sovet imperiyasına qarşı əliyalın mübarizə aparan, vətənimizin azadlığı, müstəqilliyi uğrunda çarpışaraq şəhidlik məqamına ucalan soydaşlarımızın qəhrəmanlığından danışılır. Nəzərə çatdırılır ki, öz dərin məzmunu, vətənpərvərlik ruhu və fəlsəfi idealları ilə seçilən "Şəhidlər" poemasının ideya- məzmunu və tərbiyəvi mahiyyəti açıqlanır.

Açar sözlər: 20 yanvar hadisələri, şəhidlik, millilik və vətəndaşlıq

Hər bir şairin böyüklüyü, milliliyi, söykökə, milli adət- ənənələrə bağlılığı vətəndaşlıq qayəsi ilə ölçülür. Bir də hər bir şairin mütəfəkkirliyi zamanın arxasınca getməsi ilə yox, zamanı qabaqlaması ilə dəyərləndirilir. O şair bəxtiyardır ki,qırılmaz tellərlə doğma yurduna, elinə obasına, milli adət- ənənələrinə bağlı olub, bütün ədəbi fəaliyyəti boyu vətəndaşlıq qayəsi ilə yaşayır, xalqına ləyaqətlə xidmət edir. Azərbaycan xalqı qarşısında vətəndaşlıq amalına ləyaqətlə tapınan, qəlbində vətən məhəbbəti, yurd sevgisi yaşadan, ana dilimizin saflığını qoruyub saxlayan, onu sevən və millətə milli dil sevgisi aşılayan görkəmli şairlərimizdən biri də xalq şairi Bəxtiyar Vahabzadədir. Bəxtiyar Vahabzadənin adı çəkiləndə gözlərimizin önündə öncə elinə, torpağına vətəninə, xalqına, kökünə ürəkdən bağlı olan, azərbaycançılıq və türkçülük ideologiyasını aşılayan, gəncliyi milli və bəşəri dəyərlər ruhunda tərbiyələndirən, Qarabağımızın mənfur erməni işğalçılarından azad olunması uğrunda mübarizə aparıb ölümün şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın ölməz obrazlarını öz poeziyasında yaradan vətənpərvər bir şairimizin obrazı yaranır. Təsadüfi deyildir ki, dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov Bəxtiyar Vahabzadəni "çoxdan tanınmış məhşur söz ustası", "vətənpərvər", "aqil", "nəsihətverən, yolgöstərən", "təbiətcə milli" bir sənətkar, yaşadığımız zamanı şeirlərində canlandıran milli düşüncəli vətəndaş şair kimi səciyyələndirərək yazırdı:"Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən- dərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir.

Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi, uğuru da bundadır" (1, 7). Azərbaycan ədəbiyyatında şəhidlər mövzusunda çoxlu əsərlər yazılmışdır. Bu mövzuda Qabil "Mərsiyə", M.Aslan "Ağla qərənfil, ağla", N.Həsənzadə "Şəhidlər xiyabanı", X.R.Ülutürk "Azadlıq" şeirlərini qələmə almışdır. Bu əsərlərdən biri də XX əsrin sonlarında xalq şairi B.Vahabzadə tərəfindən yazılan "Şəhidlər" poemasıdır. B.Vahabzadə "Şəhidlər" poemasına qədər şəhidlərlə bağlı bir çox şeirlər də yazmışdır. "Şəhid məzarları" şeiri bu qəbildəndir. Şair burada hələ SSRİ- nin dağılmasından söhbət getməyən uzaq 1975- ci ildə şəhidliyi vətən oğlu və döyüşçüsünün idealı kimi tərənnüm edirdi.:

Şəhid məzarları... Düşmən qənimi.
Vətənin köksündə vüqarla durub.
Mənim varlığımı bir təsdiq kimi
Yurdun sinəsinə möhürlər vurub (2,165)

Ümumiyyətlə, şəhid mövzusu B.Vahabzadənin yaradıcılığında həmişə diqqət mərkəzində olmuşdur Bu poema 20 yanvar faciəsi zamanı Sovet imperiyasının məkrli siyasətinə qarşı etiraz səsini ucaldıb əliyalın mübarizə meydanına atılan, bu siyasətin günahsız qurbanlarına çevrilən, ölümün şəhidlik zirvəsinə ucalıb əbədiyyətə qovuşan vətəndaşlarımızın igidliyini bütün dünyaya nümayiş etdirən ölməz poeziya örnəyidir. "Şəhidlər" poeması öz dərin məzmunu, vətənpərvərlik ruhu və fəlsəfi ideyaları ilə seçilən bir poemadır. Poema 20 Yanvar faciəsinə həsr olunsa da, müəllif burada Bakıda həyata keçirilən qanlı hadisələri bir növ ümumiləşdirmişdir."Şəhidlər" poemasında vətənini dərin məhəbbətlə sevən, onun müstəqilliyi uğrunda çarpışan vətən oğullarımızın igidliyi diqqətə çatdırılır.

Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.
Vətəni sevmək üstdə günahkar saydılar,
Vətəni sevmək niyə günah olmuş, ay Allah? (1,5)

Poemanın birinci bəndində şair Allaha müraciət edərək vətəni sevməyin nə üçün günah olduğunu soruşur. Bu misralarda həmçinin şəhidlərin torpaq uğrunda canlarından keçərək haqsızlığa körpü saldıqları da qeyd olunur.

Şair "Nə istəyir bu millət?" başlığı altında verdiyi hissədə xalqın qarşısında duran çətinliklərdən söhbət açmışdır:

İstəkləri gözündə, tələbləri dilində,
Millət dənizə döndü dənizin sahilində.
Dalğalandı bu millət,
Alışıb öz oduna yandı, yandı bu millət(4,174)

Bu misralarda Azərbaycan xalqının öz taleyi, mübarizəsi və qarşısında duran çətinlik barədə dərin fikirlər səsləndirilir. "İstəkləri gözündə, tələbləri dilində" ifadəsi millətin arzularını, ümidlərini, azadlıq və ədalət tələblərini əks etdirir. "Millət dənizə döndü dənizin sahilində" misrası isə xalqın hədsiz geniş, güclü, eyni zamanda dəyişkən və dalğalanan ruh halını simvolizə edir. Digər iki misrada isə xalqın

daxilində baş verən çətinliklər və onun azadlıq uğrunda can atması vurğulanır.“Təzadlar içində” başlığı ilə verilən hissədə müəllif sovet imperiyası yalanlarına uymağımızın ağır faciələrini xüsusi olaraq vurğulayır:

Yalana, riyaya nə qədər uyduq,
Biz Qızıl Orduya abidə qoyduq...
Həmin Qızıl Ordu günün birində
Bizim qanımızı tökdü...(4,175)

Sovet dövlətinin yalandan veriyi şirin vədlərə inanmağımız sonralar bizim milli faciələrimizə gətirib çıxartdı, bizə Qarabağ acısını yaşatdı.

Şənbə gecəsindən yazan müəllif düşmən üçün haqq, həqiqət, ədalət, gerçəklik və s. bunların heç birinin olmadığını qeyd edir.

O şənbə gecəsi, o məlum gecə
Birdən üzə çıxdı bu fərq gör necə?!
Ədalət də, gerçək də,
Vallah yoxdu o gecə. (4,175)

B. Vahabzadə məlum günün səhərisi heç nə olmamış kimi Bakı küçələrinin yuyulmasını təsvir etsə, cəlladların qanlı vicdanlarının heç vaxt yuyulmayacağını bu misrada ifadə edir:

Ertəsi... Bakının küçələrindən
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən,
Qanla ləkələnmiş öz vicdanını? (4,175)

Bəxtiyar Vahabzadə üçün şəhidlik sadəcə fiziki ölüm deyil, milli düşüncənin, azadlıq arzularının zirvəsidir. Şəhid obrazı burada ümumiləşmiş simvoldur-o, adi bir insan yox, xalqın bütöv ruhudur. Poemada qəhrəmanlıq , yalnız cəbhədə silahlanmaq deyil, həm də mənəvi dirəniş, ruh yüksəkliyi kimi təqdim olunur. “Eşq olsun sizə” başlığı altında müəllif bu fikirləri belə mənalandırır.

Yalın əllər ilə tanklar üstünə
Atılan cavanlar, eşq olsun sizə! (4,175)

B. Vahabzadə poemanın ikinci hissəsinin başlanğıcında insanların şəhidlər xiyabanına gəlməsini, onların ağrı- acılarını təsvir edir

Qızıl qərənfillər əllərdə min- min,
Şəhidlər önündə bir an dondular. (6, 288)

Şəhidlər xiyabanına edilən səfər və orada yaşanan duyğular oxucuya faciənin miqyasını hiss etdirir. Bu baxımdan əsər təkcə tarixi hadisənin bədii təsviri deyil, həm də milli yaddaşın bir parçasıdır.

Şəhidlər xiyabanı...
Dilə gəlir məzarlar:
-Axı biz neyləmişdik? (6, 290)

Düşmənə müraciətlə yazılan “Mənim günahlarım” başlıqlı hissədə “nədir günahım” deyərək fəryad edən obraza rast gəlirik.

İstədin daşınan bol sərvətindən ,
Bir ovuc, bir qırıq sənə pay düşə.
Sən bezib, usanıb əsarətindən
İstədin, bu dünya bir az dəyişə.
Budur günahın! (6, 293)

"Şəhidlər" poemasında şəhidlərin bir- birinə bənzədiyi qeyd olunur. Göstərilir ki, onlar eyni amal- vətənimizin azadlığı, müstəqilliyi uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmışlar

Şəhidlərin hamısı bənzəyir bir- birinə.
Bir bax, qəbirlərinə!
Hamısı qıpqırmızı qərənfilə bələnmiş,
Səbəb birdir, əməl bir, hədəf birdir, hədə bir.
Onları bu dünyadan aparan güllə də bir. (6,298)

Poemada 20 Yanvar qəhrəmanlarının bəzilərinin adı da çəkilmişdir. Məsələn, İlham- Fərizə, Sürəyya Lətif qızı, Larisa, Baba müəllim, Aleksandr Marxevka və b. Həmçinin poemada onlara aid hissələr də verilmişdir. Bunlardan biri də İlham-Fərizə cütlüyüdür. Hər ikisi 20 Yanvar günü şəhid olmuşdur.

İlhamı gözlədi, İlham gəlmədi,
Dönük taleyi ilə durdu üz- üzə.
Qalıb küçə ilə ev arasında,
Gecəni sübhədək o dincəlmədi... (6,301)

Poemada bu hissəsində öz həyat yoldaşını gözləyən bir qadının keçirdiyi istirablar, ağrı və acılara yer verilmişdir. Əsərdə Larisaya aid verilən hissədə isə balaca bir körpənin qandonduran taleyi əks olunmuşdur.

On üç yaşlı körpə bala.
Yazıq anan necə dözsün
Bu kədərə, bu məlala? (6,304)

B.Vahabzadə altı bəndlikbir şeir parçasında xalqın ağrı- acılarını açıq şəkildə ortaya qoymuşdur.

Qatil gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər. (3,100)

Şair bu misralarda Vətən yolunda öz canlarından geçən qəhrəmanların əbədi xatirəsini göz önündə canlandırmışdır. Şəhidlərin qəhrəmanlığından, günahsız yerə qətlə yetirilməsindən danışılan əsərdə nikbin ruh, gələcəyə inam var. Şair inanır ki, şəhidlərin qanı yerdə qalmayacaq, xalqın iğid övladları mübarizəni davam etdirəcək, üçrəngli bayrağı enməyə qoymayacaqdır (4, 181)

Gedən oğulların, axan qanların
Əvəzi su səpdi yanan qəlbimə
O şənbə gecəsi doğulanların
Onundan doqquzu oğlanmış demə.

Şəhidlər ölərkən xəstəxanalarda doğulan balaca körpələri də müəllif poemada qeyd edərək, sanki dərdlərini onların vasitəsilə unudacağına inanırdı. 20 Yanvar və Qarabağ döyüşləri Şəhidlərinin intiqamının alınması B.Vahabzadənin nə qədər haqlı olduğunu bir daha təsdiqlədi.

Ədəbiyyat

1. Aytmatov Ç.”Yaradıbdır inam məni, Mən inamın övladıyam// B.Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə . I cild. Bakı: “Öndər” nəşriyyatı, 2004, 328 səh
2. Cəfərov N, Həbibbəyli İ, Əliyeva N, Bakıxanova A. Ümumtəhsil məktəblərinin 11- ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı,2014, 173 səh.
3. Əliyev S, Həsənov B, Səfərov Ə, Quliyev Ə. Ümumtəhsil məktəblərinin 5- ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı,2024, 207 səh
4. Həbibbəyli İ, Əliyev S, Həsənov B, Mustafazadə A. Ümumtəhsil məktəblərinin 11- ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı,2018, 207 səh
5. Vahabzadə B. Şəhidlər: poema// Azərbaycan harayı.-Bakı. Respublika xatirə kitabı redaksiyası, 2002. 60 səh
6. Vahabzadə B. Seçilmiş əsərləri. 2 cilddə . II cild. Bakı: “Öndər” nəşriyyatı, 2004, 321 səh

RUQEYYA BEHRUZ GIZI MURADLI
Teacher of ADPU Jalilabad branch

BAKHTIYAR VAHABZADE'S POEM "MARTYRS":
HISTORY AND MODERNITY
SUMMARY

One of the prominent representatives of contemporary Azerbaijani poetry,Bakhtiyar Vahabzadeh is a powerful wordsmith who serves the homeland and the people with dignity. The poet, who has a diverse creative range, occupies an honorable place in the history of our literature as a powerful penman distinguished by his devotion to his homeland, land, roots, endless love for our native mother tongue, the goal of nationality and citizenship, and instilling this goal. The poems and poems he wrote about January 20 and the martyrs of Karabakh attract attention as factors confirming that he is a patriotic and nationalistic poet,a true citizen of Azerbaijan.The article analyzes B. Vahabzadeh's poem "Martyrs",talks about the heroism of our compatriots who fought hand-to-hand against the Soviet empire during the January 20 events, fought for the freedom and independence of our homeland and rose to the position of martyrs.It is brought to your attention that the ideological content and educational essence of the poem "Martyrs",which is distinguished by its deep content, patriotic spirit,and philosophical ideals,isrevealed.

Keywords: January 20 events, martyrdom, nationality and citizenship

РУГЕЙЯ БАХРУЗ ГЫЗЫ МУРАДЛИ
Преподаватель Джалилабадского филиала АДПУ

ПОЭМА БАХТИЯРА ВАГАБЗАДЕ «МУЧЕНИКИ»: ИСТОРИЯ И СОВРЕМЕННОСТЬ

РЕЗЮМЕ

Один из ярких представителей современной азербайджанской поэзии,Бахтияр Вагабзаде – сильный мастер слова, достойно служащий Родине и народу. Поэт, обладающий многогранным творческим диапазоном, отличается преданностью Родине, земле, корням, бесконечной любовью к родному языку, идеалам национальности и гражданства и занимает почетное место в истории нашей литературы как сильный литературный деятель, воплощающий эту цель. Стихи и поэмы, написанные им о 20 Января и шехидах Карабаха, привлекают внимание как факторы, подтверждающие его патриотизм и национализм, как истинного гражданина Азербайджана. В статье анализируется поэма Б. Вагабзаде «Шехиды», повествующая о героизме наших соотечественников, сражавшихся врукопашную с Советской империей во время событий 20 января и ставших шехидами в борьбе за свободу и независимость нашей Родины.Отмечается, что раскрывается идейное содержание и воспитательная суть поэмы «Шехиды»,отличающейся глубоким содержанием, патриотическим духом и философскими идеалами.

Ключевые слова: события 20 января, мученичество, национальность и гражданство

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
Yədulla Dadaşlı tərəfindən çapa tövsiyə olunmuşdur.

İÇİNDƏKİLƏR:

DİLÇİLİK

VALEH BAYRAM OĞLU NƏSIBOV
VƏSILƏ MAHMUD QIZI HACIYEVA
AZƏRBAYCAN, RUS VƏ INGILIS DILLƏRINDƏ HAL QRAMMATIK KATEQORIYASINA DAIR....3

YUSİFOVA NAİLƏ YUSİF QIZI
İŞGÜZAR ÜNSİYYƏTİN MİLLİ VƏ BEYNƏL XALQ XÜSUSİYYƏTLƏRİ....13

NAILA GASIMOVA
DIFFERENTIATED APPROACH TO THE FORMATION OF MOTIVATION FOR STUDENTS' LEARNING ACTIVITIES TO STUDY ENGLISH....20

GÜLNARƏ MƏLİKOVA
TƏKRARLARIN MƏTNYARATMA XÜSUSIYYƏTLƏRİ....25

ZUMRUD HAJIYEVA
IMPROVING LEXICAL SKILLS AS AN IMPORTANT PART OF TEACHING ENGLISH....32

NİŞANƏ KƏRIMOVA
İNGİLİS DİLİNDƏ SÖZÖNÜLƏRİNİN NİTQ HİSSƏLƏRİ SİSTEMİNDƏ YERİ....40

SVETLANA NOVRUZOVA
AZƏRBAYCAN DİLİNDƏ İCTİMAİ-SİYASİ TERMİNLƏRİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ....46

İMANOVA KƏMALƏ XALİD QIZI
THE ROLE OF ENGLISH AS THE GLOBAL LANGUAGE OF MEDICINE....51

NƏZƏROVA HÜRİYYƏ
FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FEİLİ SİFƏT....59

AYGÜN MƏMMƏDOVA
TƏDRİS PROSESİNDƏ TƏLƏBƏLƏRİN DAXİLİ MOTİVASİYASININ FORMALAŞMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ....70

MƏMMƏDZADƏ RƏNA XATAYIL QIZI
ZAMAN VƏ MƏKAN KATEQORIYALARININ DIPLOMATIK DISKURSDA LEKSIK - QRAMMATIK REPREZENTASIYALARI....75

ŞİRZADOVA LƏTİFƏ VÜQAR QIZI
BƏDİİ MƏTNLƏRDƏ SİNONİMLƏRİN ÜSLUBİ ƏHƏMİYYƏTİ....85

LEYLA SÜLEYMANOVA
MÜASİR İNGİLİS DİLİNDƏ İŞARƏ ƏVƏZLİKLƏRİ MƏTN YARANMASINDA
FORMAL ƏLAQƏ VASİTƏSİ KİMİ 95

AYTAC QAZIYEVA
AĞAYEVA KÖNÜL
"İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV
YANAŞMA VƏ ONUN EFFEKTİVLİYİ" 104

AYTƏN ŞƏMSİ QIZI PİRMƏMMƏDOVA
GÜLÇÖHRƏ QƏDİR QIZI QƏDİROVA
İNCƏSƏNƏT TERMİNLƏRİNİN İNGİLİS DİLİNDƏ İŞLƏNMƏ
XÜSUSİYYƏTLƏRİ VƏ KONKRET TERMİNLƏRİN TƏHLİLİ..... 111

LƏTAFƏT ƏLIŞAH QIZI ƏLIYEVA
SƏMƏRƏLİ ÜNSİYYƏTİN PRİNSİPLƏRİ118

GASIMOVA AYGUN RAMIZ
RZAYEVA GULNAR MIRSALIM
THE ISSUE OF EQUIVALENCE IN ENGLISH–AZERBAIJANI
LITERARY TRANSLATION: A FUNCTIONAL AND COGNITIVE PERSPECTIVE **125**

QƏDİROVA GÜLÇÖHRƏ QƏDİR QIZI
MİRƏZYEVA AYSU ATAMOĞLAN QIZI
KORPUS DİLÇİLİYİNİN YARANMASI VƏ İNKİŞAFI: NƏZƏRİ VƏ PRAKTİKİ
YANAŞMALAR..... 132

AĞAYEVA KÖNÜL
QAZIYEVA AYTAC
XARİCİ DİLİN TƏDRISINDƏ ANA DILININ ROLU VƏ MƏHDUDIYYƏTLƏRI..... 137

E.A. SHAHGALDIYEV
O.A.ISMAYIL
PROBLEMS OF TEXT TRANSLATION AS A PROCESS OF COMMUNICATION
AND A SOURCE TEXT ADAPTATION 143

ƏLIYEVA RƏNA TELMAN QIZI
FƏTULLAYEVA SEVDA ƏSGƏR QIZI
İNGİLİS DİLİNDƏ RƏNGLƏRLƏ BAĞLI İDİOMLARIN ÜSLUBİ TƏHLİLİ 152

QARAYEVA AYNUR VALEH
ŞƏMİLZADƏ GÜNEL RAHİL
ƏMİRASLANOVA TÜNZALƏ AKİF
İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİNDƏ HUMANİST PRİNSİPLƏRİN ƏHƏMİYYƏTİ 162

LARISA VLADIMIROVNA KOLESNIKOVA
КРОСС-КУЛЬТУРНЫЕ АСПЕКТЫ В ИЗУЧЕНИИ РУССКОГО
ЯЗЫКА КАК ИНОСТРАННОГО..... 168

MANAFLI XANIMANA FƏTƏLİ QIZI
AKADEMİK KOMMUNİKASİYA ZAMANI ÇIXIŞA HAZIRLIQ.....174

СЕДА АСИМ КЫЗЫ САВЗИХАНОВА
АНГЛИЙСКИЕ ПОСЛОВИЦЫ. ПРОБЛЕМЫ ПЕРЕВОДА.....183

LƏMAN QASIMLI
AYTƏN PIRMƏMMƏDOVA
LEKSİK SEMANTİKA VƏ MƏNANIN KONTEKSTDƏ ŞƏRHİ.....198

ŞAKİR CƏFƏROV
MİR CƏLAL PUBLİSİSTİKASININ DİL VƏ ÜSLUB ORİJİNALLIĞI.....203

ÜLVİYYƏ ÇINGIZ QIZI ƏLIYEVA
ESTETİK KATEQORİYA QİSMİNDƏ SOSİAL SATİRANIN İNGİLİS
ƏDƏBİYYATINDA TƏŞƏKKÜLÜ.....208

SEVİNC ƏZİZOVA
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNDƏ MƏZMUN ƏSASLI DİL
TƏDRİSİNDƏN İSTİFADƏ METODİKASI.....215

İLAHƏ SƏFƏRZADƏ
AZƏRBAYCAN TARİXİ NƏSRİNDƏ REPRESİYA
QURBANI QADINLARIN BƏDİİ İNİKASI.....220

NƏRGİZ QURBANLI
ÇAĞDAŞ AZƏRBAYCAN JURNALISTİKASINDA ƏDƏBİ DİL NORMALARININ
GÖZLƏNİLMƏSİ PROBLEMİ.....227

BABAYEVA GÜLNARƏ İSMAYIL QIZI
FRANSIZ DİLİNİN TƏDRİSİ ZAMANI YAZIDA RAST GƏLİNƏN
ORFOQRAFİQ ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI.....237

AYGÜN QOCAYEVA RƏŞİD QIZI
FRANSIZ DİLİNDƏ TƏYİNİN İŞLƏNMƏ FORMALARI.....244

TAMELLA MƏMMƏDLİ
ENCODING IMPLICIT BIAS IN POLITICAL NEWS HEADLINES.....250

ŞƏBNƏM SEYİDZADƏ
BİLLURƏ AĞAMƏMMƏDOVA
THE ROLE OF MOTIVATION AND INDIVIDUAL FACTORS IN THE DEVELOPMENT
OF LANGUAGE COMPETENCE 260

AYNUR MƏZAHIR QIZI HƏSƏNOVA
YAZIÇILAR BİRLİYİ VƏ DİL SİYASƏTİ 266

GULNAR FARMAN HUSEYNOVA
ENHANCING PROFESSIONAL COMPETITIVENESS THROUGH
COMMUNICATION AND LANGUAGE SKILLS IN THE MODERN LABOR MARKET 271

YETAP CAMED K. AXMEДОВА
ИНТОНАЦИОННЫЕ СРЕДСТВА ЭМФАЗИРОВАНИЯ РЕЧИ
В АНГЛИЙСКОМ ЯЗЫКЕ.....276

FATİMƏ İBRAHİMOVA
İNGİLİS DİLİNDƏ HECA MƏSƏLƏSİNİN
FONOLOJİ VƏ PROSODİK ASPEKTLƏRİ.....282

VƏLİYEVA SƏBİNƏ ƏLİ QIZI
MÜASİR İNGİLİS DİLİNDƏ VASİTƏLİ VƏ VASİTƏSİZ TAMAMLIQ
QƏBUL EDƏN FEİLLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ.....288

GÜLNARƏ SADIXOVA
FRANSIZ DILINDƏ TƏRKIBINDƏ FRANSIZ TOPONIMLƏRI OLAN
FRAZEOLOJI VAHIDLƏRIN LINQVOKULTUROLOJI XÜSUSIYYƏTLƏRI 300

ƏLİYEVA SƏİDƏ BƏHRAM QIZI
MAHİRƏ NAĞIQIZININ POEZİYASINDA ONOMASTİK VAHİDLƏR 309

CƏFƏROVA AYGÜN HILAL QIZI
AZƏRBAYCAN DİLİNDƏ HİND-AVROPA MƏNŞƏLİ TOPONİMLƏR 316

ARIFƏ ƏZIZ QIZI ZEYNALOVA
MURAD QƏNBƏROV
ELXAN YURDOĞLUNUN “NAXÇIVAN DASTANI” ƏSƏRİNİN DİL-ÜSLUB
XÜSUSİYYƏTLƏRİ 321

MƏMMƏDOVA ESMIRA
ANTROPONİMLƏRİN NÖVLƏRİ VƏ ƏSAS KATEQORİYALARI 332

QADAŞOVA AYBƏNIZ AZIK qızı
RƏHIMOVA GÜLNARƏ SAHIB qızı
İKİDİLLİLİYİN SOSİOLİNQVİSTİK VƏ PSİXOLİNQVİSTİK ASPEKTLƏRİ 338

JAHANGIRLI TABARRUK FARRUKH
STRUCTURAL-SEMANTIC FEATURES OF VERB PHRASEOLOGICAL COMPOUNDS 343

GƏRAYZADƏ MƏLAHƏT AĞA BABA QIZI
ƏMIRASLANOVA ARZU SURXAY QIZI
ŞAHMALIYEVA NÜBAR ƏKRƏM QIZI
RƏQƏMSAL ERADA SOSİOLİNQVİSTİK PROBLEMLƏR 350

GÜNEL ƏHMƏDOVA
AZƏRBAYCAN DİLİNDƏ SƏBƏB-NƏTİCƏ ƏLAQƏLİ TABESİZ MÜRƏKKƏB
CÜMLƏLƏR 355

RUGIYYA KARIMOVA
COGNITIVE AND CONTEXTUAL FACTORS INFLUENCING IDIOM COMPREHENSION 360

HƏQİQƏT MEHDİYEVA
CÜMLƏLƏRİN STRUKTUR- TİPOLOJİ TƏHLİLİ 369

ƏDƏBİYYATŞÜNASLIQ

MÜŞFİQ BORÇALI (ÇOBANOV),
XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÜRCÜ POEZİYASINDA AZƏRBAYCAN MÖVZUSU 378

ASİF HACILI
AHISKA TÜRKLƏRİNİN ETNİK KÜLTÜRÜ MİLLİ KİMLİK ASPEKTİNDƏ 397

GÜLXANI (PƏNAH) VAQIF QIZI ŞÜKÜROVA
AŞIQ YARADICILIĞININ İNKİŞAF MƏRHƏLƏLƏRİ 404

MƏRDANLI HUMAY HÜSEYNBALA QIZI
FRİDRİX DÜRRENMATT DETEKTİVİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ 411

SABİR MƏMMƏDOV
FAZİL CƏFƏROV
BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA VƏTƏNPƏRVƏRLİK 421

AFƏT PAŞA QIZI HƏBİBOVA
SOSİAL MEDİA XƏBƏR MƏNBƏYİ KİMİ 426

AYNUR Ə.MƏMMƏDOVA
ONLAYN TƏHSİLİN İNKİŞAFI: YÜKSƏLİŞ VƏ ÇƏTİNLİKLƏR 445

XURAMAN KƏRİMOVA
ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏRİN JANR ÖZƏLLİKLƏRİ 452

EMÇİYEVA VƏFA ƏLİŞAD QIZI
MƏMMƏDOVA AYNUR ELPƏRƏST GIZI
MÜƏLLİMLƏRİN İDARƏ OLUNMASI VƏ PEŞƏKAR İNKİŞAFI: YANAŞMALAR VƏ ÇƏTİNLİKLƏR 460

GULNAR RZAYEVA
AYSU MIRZAYEVA
MYTHONYM-BASED IDIOMS IN THE ENGLISH LANGUAGE 465

MƏMMƏDOVA TÖRƏ KAMAL QIZI
ALIYEVA AFIQƏ ALI QIZI
CABAROVA MƏDINƏ AĞAKƏRIM QIZI
"MOLLA NƏSRƏDDİN" ƏDƏBİ MƏKTƏBİNİN NÜMAYƏNDƏLƏRİ
VƏ ONLARIN FƏALİYYƏTİ 470

RZAYEVA GÜLNAR MIRSƏLIM QIZI
FOLKNERIN "QƏZƏB VƏ SƏS-KÜY" ƏSƏRINDƏ AMERİKA CƏNUBUNUN
SOSİAL-MƏNƏVİ BÖHRANININ ƏDƏBİ İNİKASI 480

EMİLİYA NATİQ QIZI ƏLİYEVA
Cəmiyyətin Güzgüsündə Qadın Obrazı: K. B. ROUZUN "ÇİNAR AĞACI" VƏ H. Z.
UŞAQLIGİLİN "EŞQİ-MƏMNU" ROMANLARINDA sosial azadlıq probleminin
təzahür xüsusiyyətləri 485

AYTƏN CƏFƏR QIZI CƏFƏROVA
"ZAMAN-ZAMAN İÇİNDƏ" SİMVOLU VƏ QƏHRƏMANA AİD MİFİK
ZAMAN FORMULLARI 491

FIDAN ALI MAMEDOVA
MODERN PEDAGOGICAL TECHNOLOGIES AND THEIR IMPACT
ON THE PROCESS OF DEVELOPING THE SCIENTIFIC WORLDVIEW
OF YOUNGER SCHOOLCHILDREN 498

MİNARƏ QULİYEVA
M.P.VAQİF QOŞMALARININ MÜHÜM POETİK VASİTƏLƏRİ 505

ƏLİYEVA PAKİZƏ İSRAYIL QIZI
"MOZALAN BƏYİN SƏYAHƏTNAMƏSİ"
ƏSƏRİNİN MÜƏLLİFLİYİNƏ DAİR 510

TƏRANƏ CAVADOVA
AZƏRBAYCAN MƏTBUATININ ŞANLI YÜZ ƏLLİ İLLİK TARİXİ 516

MAMEDOVA AYSEL
MAIN IDEAS IN THE DYSTOPIAN NOVEL
"THE WANTING SEED" BY ANTHONY BURGESS 522

QASIMOV RAMİL ELŞAD OĞLU
HƏRB TARİXİNDƏ ZƏFƏR SƏLNAMƏSİ 527

AYTAC QAFARZADƏ CEYHUN QIZI
ANAR YARADICILIĞINDA EKOLOJİ DÜŞÜNCƏ VƏ EKOTURİZM ELEMENTLƏRİ
("AĞ QOÇ, QARA QOÇ" VƏ "OTEL OTAĞI" POVESTLƏRİ ƏSASINDA) 533

RÜQƏYYA BƏHRUZ QIZI MURADLI
BƏXTİYAR VAHABZADƏNİN "ŞƏHİDLƏR" POEMASI: TARİX VƏ MÜASİRLİK 540

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Çapa imzalanmış 05.11.2025
Şərti çap vərəqi 34,5. Sifariş № 608
Kağız formatı 60x84 1/16. Tiraj 500

Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4